SƏMAYƏ MƏMMƏD qızı MUSTAFAYEVA

# ABŞ VƏ BÖYÜK BRİTANİYANIN ƏN YENİ TARİXİ

**1918-2007-ci illər**

*ADPU-nun Tarix fakültəsi Elmi Şurasının 2009-cu il 3 aprel tarixli iclasının qərarına əsasən çap edilir (pr №5).*

**Bakı – 2009**

**Rəyçilər:** t.e.d.prof. V.Əliyev
t.e.n. dos.Ə.Əhmədov

**Səmayə Mustafayeva. ABŞ və Böyük Britaniyanın ən yeni tarixи (1918-2007) Bakı-2009, ADPU-nun nəşriyyatı. 350 səh.**

$© \frac{1947000300209}{1957(T)01030809} - 2009$

## GİRİŞ

SSRİ-nin dağılması ilə onun tərkibinə daxil olan milli respublikalar, o cümlədən Azərbaycan müstəqillik qazandılar. Azərbaycan Respublikasının dünya sivilizasiyasına qoşulmaq imkanları genişləndi. Dünya Azərbaycanı, Azərbaycan isə dünyanı dərk etməyə başladı. Azərbaycanın qabaqcıl ölkələr səviyyəsinə yüksəlməsi üçün onun dünyanın aparıcı dövlətlərinin tarixi ilə, onların əldə etdikləri nailiyyətlərlə tanış olmağa ehtiyacı da artdı. Gənclərimizin dünya tarixinə, ilk növbədə dünyanın birinci super dövləti olan ABŞ-ın, aparıcı dövlətlərindən biri olan Böyük Britaniyanın tarixinə marağının artması fərəhləndirici hal hesab edilməlidir. Bu baxımdan bu dövlətlərin müasir tarixinin daha dərindən gənclərə öyrədilməsi xüsusi aktuallıq kəsb edir. Bütün bunları nəzərə alaraq biz «ABŞ və Böyük Britaniyanın ən yeni tarixi» mövzusunda dərs vəsaiti yazmağı və tələbələrin istifadəsinə təqdim etməyi lazım bildik. Dərs vəsaitində bu dövlətlərin 1918-ci ildən hal-hazıra qədərki tarixindən qısaca da olsa, bəhs etmişik.

Dərs vəsaitindən ali məktəb müəllimləri və tələbələri, magistraturaya daxil olmaq istəyənlər, ümumiyyətlə, bu ölkələrin müasir tarixi ilə maraqlanan hər bir oxucu istifadə edə bilər.



# ABŞ 1918-2007-Cİ İLLƏRDƏ

## ABŞ üçün Birinci dünya müharibəsinin nəticələri

XVIII əsrin II yarısında Amerika qitəsinin şimalında müstəqil dövlət kimi yaranmış ABŞ artıq XIX əsrin sonu - XX əsrin əvvəllərində sənaye məhsulu istehsalına görə dünyada birinci yeri tutdu və rəqibsiz oldu. Bunun səbəbləri ilk növbədə ABŞ – ın cənubunda quldarlıq quruluşunun ləğvi, Atlantik okeandan Sakit okeana qədər ABŞ – ın bütün ərazisinə köçürülmə prosesinin başa çatması, Avropadan buraya mühacir axını, ölkənini coğrafi şəraiti, yəni hər iki tərəfdən okeanla əhatə edildiyi üçün xarici basqınlardan təhlükəsizliyinin təmin edilməsi, təbii sərvətlərlə zənginliyi, elmi nailiyyətlərin dərhal istehsala tətbiq edilməsi idi. Bütün bunların nəticəsində daxili bazar genişləndi və Amerika tarixində yeni eranın, - sənaye erasının başlanğıcı qoyuldu. Artıq 1885 – ci ildə ABŞ – da ümumi məhsul istehsalı Böyük Britaniyanı keçdi. XIX əsrin sonunda ABŞ – da Almaniya, Fransa, Avstriya – Macarıstan və İtaliyanın birlikdə istifadə etdikləri qədər enerji istehlak olunurdu. Mühacirlərin hesabına Amerika əhalisi iki dəfə artdı. 1890 – cı ildə ABŞ sənaye məhsulu istehsalına görə dünyada birinci yeri tutdu. XX əsrin əvvəllərində dəmir yolu inşaatı daha sürətlə inkişaf etdi. Belə ki, 1913- cü ilə qədər ölkədə 400 min km dəmir yolu çəkildi ki, bu da birlikdə götürüldükdə Almaniya, Fransa və Rusiyadakından çox idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində dünya iqtisadi böhranının başlanması, azad rəqabətin yerini inhisarların tutması, ABŞ – da böhrandan çıxmaq üçün korporativ kapitalizm təşkil etmək istiqamətinin yaranmasına səbəb oldu ki, onun da əsasını, iqtisadi və sosial sahənin dövlət tənzimlənməsi prinsipi təşkil edirdi. Bu kurs ABŞ – da proqressizm kursu adlandı. Bu hərakatın başlanğıcı XX əsrin əvvəllərində T. Ruzvelt və V. Vilson tərəfindən qoyuldu, XX əsrin 30 – cu illərində F. Ruzvelt, 60–ı illərində C. Kennedi və L. Conson, 90 –cı illərində isə B. Klinton tərəfindən davam etdirildi. ABŞ – ın büyük iqtisadi qüdrəti olan bir dövlətə çevrilməsi onun beynəlxalq statusuna da təsir etdi. 1898 – ci il İspan – Amerikan müharibəsi göstərdi ki, ABŞ böyük dünya dövlətinə çevrilməkdədir. Kubanı ələ keçirdikdən sonra ABŞ, ardıcıl olaraq, İspaniya mülkləri olan Puerto – Riko adasını, Filippin adalarını ələ keçirdi. 1903 – cü



ildə Havay adaları üzərində ABŞ protektoratı elan olundu. 1916 – cı ildə Amerika Danimarkadan 25 milyon dollara Virginiya adasını götürdü. 1904 – cü il Panama – ABŞ sazişinə əsasən, 99 il müddətinə Panama bərzəxi ABŞ tərəfindən icarəyə götürüldü və 1904 – 1914 – cü illərdə Panama kanalı çəkildi. Birinci dünya müharibəsi başlanarkən, ABŞ öz bitərəfliyini elan etsə də, əslində bu formal xarakter idaşıyırdı, ABŞ – ın hakim dairələri müharibənin ilk günündən Antanta dövlətlərini müdafiə edirdi. ABŞ – ın Almaniyaya qarşı müharibəyə başlamasında bəhanə isə ABŞ – ın hərbi, sərnişin və ticarət gəmilərinin Almaniyanın sualtı qayıqları tərəfindən müharibədə məhv edilməsi idi. 1917 – ci ilin martında ABŞ – ın üç gəmisinin alman sualtı qayıqları tərəfindən batırılması ABŞ – ın müharibəyə başlaması üçün şərait yaratdı. 1917 – ci ilin aprelin 6 – da, ABŞ Almaniyaya müharibə elan etdi. Birinci dünya müharibəsində iştirak onun dünya dövləti kimi tanınmasına səbəb oldu. ABŞ-ın 1917-ci ilin aprelin 6-da Antanta tərəfində müharibəyə girməsinin əsas səbəbi Birinci dünya müharibəsinin nəticələrini öz xeyrinə dəyişdirmək, verdiyi borcları itirməmək istəyi, həmçinin Rusiyadakı Fevral inqilabının Avropaya təsirindən qorxması idi. 1918 – ci ilin yazında ABŞ ordusunda artıq 4 milyon adam var idi. 1918 – ci ilin yayında ABŞ ilk dəfə olaraq, Avropaya, general Perşinqin komandanlığı altında 1 milyon 200 min nəfərltk qoşun kontingenti çıxartdı ki, bu da Antantanın canlı qüvvə cəhətdən qüvvətlənməsinə və müharibənin tez qurtarmasına gətirib çıxartdı.

ABŞ müharibəyə girməsini Vilson dünyanı demokratiya üçün saxlamaq zərurətindən “irəli gəldiyini” söyləmişdir. 1918 –ci ilin yanvarın 8 – də Vilson Münaribədən sonra dünyanın ədalətli bölgüsünü təmin etmək üçün “14 maddəlik” sülh proqramı ilə çıxış etdi. Bu maddələrdə diplomatiyanın açıqlığı, dənizlərdə gəmilərin üzməsinin sərbəstliyi, müstəmləkələrin tələblərinin ədalətli həlli, ümumi tərksilah, ticarətdə süni maneələrin ləğvi, millətlər cəmiyyətinin təşkili və digər təkliflər öz əksini tapmışdı. Lakin müharibədən dərhal sonra ABŞ – ın daxili siyasi həyatında fərdyyətçilik əhval – ruhiyyəsi üstünlük təşkil etməyə başladı.

ABŞ, hərbi əməliyyatlarda ancaq 1918-ci ilin yayında iştirak etdiyinə görə bu ölkədən 50 min ölən, 230 min yaralanan oldu. ABŞ-

ın müharibədə hərbi xərci 25,7 milyard dollar təşkil etdi, ABŞ birinci dünya müharibəsi nəticəsində ən çox qazandı və kapitalizm dünyasının ən güclü dövləti səviyyəsinə qalxdı. Əgər birinci dünya müharibəsinə qədər ABŞ borc alan dövlət idisə, onun xarici dövlətlərə borcu 6 milyard dollara çatırdısa, müharibə dövründə o, borc verən dövlətə çevrildi. Müharibədən sonra xarici dövlətlərin ona borcu 10 milyard dollar oldu. Dünya qızıl ehtiyatının yarısı onun əlində cəmləşdi. Dünyanın maliyyə mərkəzi İngiltərənin paytaxtı Londondakı Siti bankından Nyu-Yorkun Uoll-Strit bankına keçdi.

Müharibə nəticəsində ABŞ Avropa dövlətlərinə hərbi və ərzaq məhsuları satmaqla güclü sənaye sahələri yaratmış oldu. Artıq 1920-ci ildə dünyada istehsal edilən bütün avtomobillərin 85%-i, neft istehsalının 67%-i, poladın 60%-i ABŞ-ın payına düşürdü. Müharibə nəticəsində ABŞ-ın milli gəliri 2,5 dəfə artdı. Onun dövlət inhisarçı kapitalizminə çevrilməsi prosesi başa çatdı. Belə ki, ABŞ-dakı bütün fabrik və zavodların 50%-i, bütün sənaye məhsulunun 92%-i iri korporasiyalara məxsus idi.Fəhlələrin 90 %-i bu korporasiyalarda işləyirdi. Əhalinin 2%-ni təşkil edən inhisarçıların əlində bütün milli gəlirin 60%-i toplanmışdı. Əhalinin 2/3 hissəsi təşkil edən digər təbəqələrə isə gəlirin 5%-i düşürdü. Ayrı-ayrı ailələrin əlində külli miqdarda sərvət toplanmışdı. Morqan, Düpon, Rokfeller, Mellonun ailələri belələrindən idi. Həmçinin inhisar qruplaşmalarının yerləşdiyi ayrı-ayrı şəhərlərdən Çikaqo, Boston, Klivlend, Nyu-York xüsusilə seçilirdi.

Birinci dünya müharibəsinin ABŞ üçün nəticələrindən biri də kapital ixracının güclənməsi idi. Əgər 1913-cü ildə ABŞ xarici ölkələrə cəmi 2,6 milyard dollar kapital ixrac edirdisə, artıq 1920-cı ildə bu rəqəm 7 milyard dollara çatdı. ABŞ müharibə illərində verdiyi kreditlər hesabına çoxlu borc faizləri götürdü ki, bu da demək olar ki, büdcənin 30%-dən çoxunu təşkil edirdi. O, rantye dövlət kimi də tanınırdı. Lakin ABŞ, dənizdə hökmranlığı və kapital ixracındakı üstünlüyü İkinci dünya müharibəsinə qədər İngiltərənin əlindən almağı bacarmadı.

Birinci dünya müharibəsi qurtardıqdan sonra ABŞ-da hakim dairələr içərisində demokratlar partiyasından narazılığın güclənməsinin səbəblərindən biri prezident Vudro Vilsonun Paris



sülh konfransında ABŞ-ın üstünlüyünü təmin etməyi bacarmaması idi. Vilson özü Versal müqaviləsinə qol çəksə də, ABŞ konqresi bu müqaviləni ratifikasiya etmədi. Vilson özünü müdafiə etmək üçün konqresə məlumat verdi ki, o, Almaniyanın parçalanmasının qarşısını almışdır. Saar vilayətinin Fransaya verilməsinə mane olmuşdur. Respublikaçılar Millətlər Cəmiyyətində ABŞ-ın rəhbərliyinin təmin edilməməsindən də narazı idilər. Bu dövrdə ABŞ-ın hakim dairələri içərisində xarici siyasətdə iki meyl yarandı. Bunlardan biri təcridçilik, ikincisi isə beynəlmiləlçilik idi. Birinci meylə respublikaçıların ən nüfuzlu nümayəndəsi Lodc başçılıq edirdi. O, göstərirdi ki, biz ilk prezidentimiz Corc Vaşinqtonun vəsiyyətinə əməl etməli və narahat Avropadan kifayət qədər kənarda dayanmalıyıq. Beynəlmiləlçilər isə belə fikir irəli sürdülər ki, ABŞ dünyanın tərkib hissələrindən biridir. O, ancaq dünya ölkələri ilə əlaqədə öz inkişafını təmin edə bilər.

1920-ci ilin prezident seçkiləri ərəfəsində Vilson vəziyyəti düzəltmək üçün konstitusiyaya 2 düzəliş etməyi təklif etdi (ABŞ konstitusiyası Corc Dikkenson tərəfindən tərtib edilmiş, 1787-ci il sentyabr ayının 17-də qəbul olunmuşdu. Konstitusiyada cəmi 7 maddə vardır. Bu vaxta qədər ona 26 əlavə edilmişdir). Vilsonun konstitusiyaya etmək istədiyi düzəlişlərdən biri ondan ibarət idi ki, qadınlara da kişilərlə bərabər seçki hüququ verilsin və onlar bərabər hüquqlu vətəndaşlar hesab edilsin. Lakin ABŞ əhalisinin əksəriyyəti protestant olduğu üçün bu təklif böyük həyəcana səbəb oldu. Çünki onlar qadını ancaq mətbəxdə, kilsədə və ailədə görmək istəyirdilər. Konstitusiyaya edilən 18-ci düzəlişə görə isə spirtli içkilərin istehsalı və istehlakı qadağan edilirdi. Lakin bu qara bazarın genişlənməsinə və çirkli pulların işə düşməsinə səbəb oldu.

### ABŞ Uorren Hardinqин prezidentliyi dövründə

1920-ci ilin noyabr ayında keçirilmiş prezident seçkilərində respublikaçıların nümayandəsi Hardinq prezident seçildi. O, Oqayo ştatından idi. Uorren Hardinq hökuməti ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinə ayrılan büdcə xərclərinin azaldılması təklifi ilə konqresdə çıxış etdi. O, "normal zaman" və "normal qaydalar" şüarını irəli sürərək fərdiyyətçilik prinsipini əsas götürdü. Hökumət şəxsi biznesin inkişafına xüsusi fikir verdi. Əməklə kapital arasında əməkdaşlıq yaradılması məqsədi ilə həmkarlar ittifaqları assosia-siyaları yaradıldı.1921-ci ildə 1920-ci illə müqayisədə federal hökumətin xərcləri iki dəfə aşağı düşərək 3,3 milyard dollar təşkil etdi.

1920-ci ilin yayında ölkədə iqtisadi böhran başlandı, istehsal aşağı endi. Xarici ticarət iki dəfə azaldı, işsizlik artdı, əmək haqqı 25-50% ixtisar edildi. Lakin böhran 1921-ci ilin sonu 1922-ci ilin əvvəllərində iqtisadi yüksəlişlə əvəz olundu. ABŞ-da iqtisadi böhranın tez qurtarmasının səbəbləri daxli bazarın geniş tutumlu olması, yeni sənaye sahələrinə iri həcmli kapital qoyuluşu, ABŞ mallarının xarici ölkələrə ixracından və onun verdiyi borclardan gələn gəlirlər ilə əlaqədar idi. 1922-ci ildən iqtisadiyyatda inkişaf və ya "çiçəklənmə" ("prosperite") dövrü başlandı. Qardinqin hakimiyyəti illərində rüşvətxorluq halları artdığına görə üç nazir istefaya getməli oldu.

Bu dövrdə ABŞ-ın xarici siyasətində təcridçiliyin üstünlük təşkil etməsinə baxmayaraq xarici iqtisadi əlaqələr genişləndirildi. ABŞ 1921-ci ilin avqustunda Almaniya ilə müqavilə bağladı. Latın Amerikasında öz nüfuzunu gücləndirdi. Uzaq Şərqdə İngiltərə-ABŞ, Yaponiya-ABŞ arasındakı problemlər Vaşinqton konfransında qismən həll edildi.



### ABŞ VƏ VAŞİNQTON KONFRANSI

1919-1920-ci illərdə Paris sülh konfransında bağlanmış müqavilələr 1914-1918-ci illəri əhatə edən birinci dünya müharibəsindən sonrakı dövr üçün Avropanın böyük dövlətləri arasındakı yeni münasibətləri müəyyən etdi. ABŞ öz Avropadakı rəqibləri ilə mübarizədə diplomatik uğursuzluğa düçar oldu. Bu hər şeydən əvvəl, Vudro Vilsonun İngiltərənin baş naziri Lloyd Corc və Fransanın baş naziri Corc Klemenso ilə müqayisədə siyasi cəhətdən təcrübəsizliyi ilə əlaqədar idi. Vudro Vilson ABŞ-a üstünlük qazandırmağı bacarmadı. Lloyd Corc və Corc Klemenso isə öz dövlətlərinə üstünlük qazandırmağı məharətlə bacardılar. Məhz buna görə də ABŞ Paris sülh konfransında öz planlarının heç birini həyata keçirə bilmədi, daha doğrusu bacarmadı. Bir sıra məsələlər, o cümlədən Uzaq Şərq və Sakit okean məsələsi isə həll edilməmiş qaldı.

Paris sülh konfransı nəinki sülhü təmin etmədi, hətta demək olar ki, imperialist dövlətləri arasındakı ziddiyətləri daha da kəskinləşdirdi. ABŞ-da Versal sülhünü qəbul etməmək uğrunda mübarizə hələ 1919-cu ilin yazında başlandı. Tezliklə hər iki partiya arasında intensiv diskussiyalar başlandı. Hər şeydən əvvəl, konqresin özündə bu məsələ müzakirə obyektinə çevrildi.

“Barışmazlıq” tərəfdarları isə irəli sürürdülər ki, Versal müqaviləsinə düzəlişlər etmək lazımdır. Bu düzəlişlərdə bütün dövlətlərdə hərbi mükəlləfiyyətlərin ləğv edilməsi, iri dövlətlərin ordu və donanmalarını ixtisar etmək, həmçinin hərbi büdcəni azaltmaq və s. məsələlər öz əksini tapmalıdır. Onlar İngiltərə, Fransa, Yaponiyanı Avropanı, Almaniya koloniyalarını, Çin və Türkiyə ərazilərini bölüşdürməkdə təqsirləndirir, bunu “imperialist soyğunu və işğalı” hesab edir, buradakı insanlara münasibəti isə “heyvanla münasibətə” bənzədirdilər

Vilsona qarşı duran cəbhədə respublikaçılar partiyasının liderlərindən olan Morqan və Rokfeller birləşdilər. Onlar ilk növbədə anti İngiltərə istiqamətində köklənmişdilər. Onlar istəyirdilər ki, Yaxın Şərqdən Meksikaya qədər bütün neft sərvətlərinə ABŞ rəhbərlik etsin. Onlar göstərirdilər ki, ABŞın maraqlarında birinci yeri Avropa, sonra Latın Amerikası və Asiya tutmalıdır.

Vilsonun əleyhdarları belə hesab edirdilər ki, ABŞ Millətlər Cəmiyyətinə daxil olmamalı və onun nizamnaməsindəki onuncu maddənin ləğv edilməsinə nail omaq lazımdır. Millətlər Cəmiyyətində İngiltərə və Fransanın birinciliyi, hər şeydən əvvəl, Monro doktrinasını təhlükə altına alırdı. Onlar Amerikanın avropalaşması haqqında şaiələr yayırdılar.

İzolyanistlərin proqramında kontinentə sahib olmaq, Latın Amerikasında ABŞ-ın hökmranlığının təmin etmək, həmçinin Yaponiyanı Çinin Şandun əyalətindən və Sakit okeandakı adalardan məhrum etmək, mandat sisteminə yenidən baxmaq nəzərdə tutulurdu.

Lodcistlər və "barışmazlıq" tərəfdarları arasında fikir ayrılığı olmasına baxmayaraq, onlar 1919-cu ildə birləşdilər. Lakin ziddiyət yenə də qalmaqda idi. Lodc belə hesab edirdi ki, Versal müqaviləsinə ABŞ maraqlarına uyğun gələn maddələr daxil edilsə, onu qəbul etmək olar. "Barişmazlıq" qrupunun rəhbəri Bor isə elan etdi ki, ABŞ bütün hallarda Versal müqaviləsinə, Millətlər Cəmiyyəti əleyhinə səs verməlidir. Nəhayət bu iki qrup arasında mübarizədə lodcistlər qələbəyə nail ola bildilər. 1919-cu ilin iyulunda Vilson rəsmi şəkildə Versal müqaviləsini təsdiq üçün senata təqdim etdi. Bu məsələ ilə əlaqədar müzakirə səkkiz ay davam etdi. Senat ABŞ-ın xeyrinə 48 əlavə 4 düzəliş tələb edirdi. Lodc isə 15 düzəliş tələb edirdi. Senatda Versal müqaviləsinin leyhinə 39, əleyhinə 56 nəfər səs verdi.

1920-ci ilin martın 19-da Versal müqaviləsinin qəbul edilməsindən imtina edən qətnamə qəbul edildi. Bir sözlə, Versal müqavilələri ABŞ konqresi tərəfindən ratifikasiya edilmədi. Həmçinin bu hadisələr bir daha sübut etdi ki, hakimiyyətdə prezidentlə konqres arasında kəskin ziddiyətlər mövcuddur.

ABŞ-ın xarici siyasət kursu əhəmiyyətli dərəcədə 1920-ci ildə noyabr ayında keçiriləcək prezident seçkilərinin keçirilməsindən asılı idi. Vilson beynəlxalq səhnədə məğlub vəziyyətdə idi. Ölkə daxilində isə artıq ona rəğbət qalmamışdı.

İzolyanistlərin millətçilik ruhunda təbliğatları öz işini gördü. Respublikaçıların prezident seçkiləri kampaniyası inhisarçılar tərəfindən yaxşı maliyyələşdirildi. 1920-ci ilin noyabr seçkilərində respublikaçılar partiyası qalib gəldi və Oqayo ştatından olan Hardinq prezident seçildi.

Hakimiyyətə gələn respublikaçılar partiyası dərhal Versal müqaviləsinə yenidən baxmağı qərara aldı. Bunun üçün Vaşinqtonda



yeni bir konfrans çağırmaq üçün hazırlıq işləri görməyə başladı. Bu konfransın çağırılması 1918-1920-ci illərdə ABŞ-ın xarici siyasətinin məntiqi nəticəsi idi. Versal müqaviləsindən sonra ABŞ qarşısına revanşı və dünyaya rəhbərliyini öz əlinə almağı məqsəd qoydu. Lakin o, məqsədini əvvəlki dövrlərdən fərqli olaraq çox ehtiyatla həyata keçirməyə başladı. Dünya ağalığı ideyasını dirçəltmək ideyası hələ 1920-ci ilin oktyabrın 16-da 31 nəfər görkəmli respublikaçının imzaladığı bayanatda öz əksini tapdı. Onlar təsdiq edirdilər ki, bu partiya "Dərin millətlər assosasiyasının" yaradılmasını təmin edəcəkdir.

Prezident Hardinq hələ seçkilərdən sonrakı birinci müşavirəsində göstərdi ki, bu məsələ ABŞ-ın xarici siyasətinin mərkəzində duracaqdır.

Hardinq hökuməti beynəlxalq konfransın çağırılmasını və orada ilk növbədə aşağıdakı məsələlərin müzakirə edilməsini lazım bilirdi: Silahların məhdudlaşdırılması; mandatların bölüşdürülməsinə yenidən baxılması; Çində "açıq qapılar" doktrinasının keçirilməsi; "rus məsələsinin müzakirəsi"; beynəlxalq münasibətlərin yeni prinsiplərini işləyib hazırlamaq və s.

İngiltərə ancaq ona nail ola bildi ki, çağırılacaq konfrans ancaq Uzaq Şərq və Sakit okean məsələləri ilə məşğul olsun. Bu məsələdə isə ən çox dörd dövlət – ABŞ, İngiltərə, Fransa və Yaponiya iştirak etməlidir. Fransa uzun müddət burada iştirak etməyə cəhd etdi və nəhayət, buna nail ola bildi. Fransa həm də çalışırdı ki, konfransın gündəliyinə borclar haqqında məsələ də daxil edilsin. Fransa mətbuatı o zaman həyacanla yazırdı ki, ona imkan vermək olmaz ki, hər bir yeni ABŞ prezidenti öz beynəlxalq təşkilatını yaratsın. Yaponiya isə qətiyyətlə bildirdi ki, artıq Uzaq Şərqdə zəbt edilmiş və həll edilmiş ərazilərlə bağlı heç bir məsələ gündəliyə daxil edilməsin

Müzakirənin gedişində qarşıda duran forum "Silahların məhdudlaşdırılması, Sakit okean və Uzaq Şərq məsələləri üzrə konfrans" adını aldı. 20-ci illərin əvvəllərində Uzaq Şərq və Sakit okeanda ağalıq üstündə imperialist dövlətləri arasındakı ziddiyyətlər daha da kəskinləşdi. ABŞ bu dəfə mübarizənin önündə getməyə başladı. ABŞ, hər şeydən əvvəl, Çinin müstəmləkə işğalında özünün birinciliyini nəzərə çarpdırmağı qarşısına məqsəd qoydu. Məhz buna görə də ABŞ diplomatiyası 1921-ci ildə konfrans çağırmaq təşəbbüsündə olduğunu bildirdi. Həmçinin ABŞ bildirdi ki, bu

konfransı çağırmaqda onun məqsədi müharibədən sonrakı beynəlxalq münasibətlərin yeni sisteminin təşkilini başa çatdırmaqdı. Həmçinin kapitalizm dünyasında sülh üçün böyük fasilə yaratmaq fikrində olduğunu da ABŞ elan etdi. Əlbəttə, bütün bunların arxasında ABŞ-ın öz maraqları dururdu. O, Sakit okean, Uzaq Şərq və Çində hegemonluğa nail olmaq fikrində idi. Bunun üçün onun kifayət qədər iqtisadi və müdafiə qüdrəti vardı. İmperialist dövlətləri arasında bir şeyə nail olmaq üçün ən güclü vasitə isə qüvvə idi.

Birinci dünya müharibəsi ABŞ-ın inkişafına güclü təkan verdi. ABŞ üçün əlverişli şərait yarandı. Avropa hərbi əməliyyatlar meydanına çevrilsə də, ABŞ bundan kənarda qaldı. ABŞ ordusu hərbi əməliyyatlarda ancaq 1918-ci ilin yayından iştirak etməyə başladı. Ona görə də canlı insan itkisi müharibədə iştirak edən digər dövlətlərlə müqayisədə ABŞ-da az oldu. 50 minə yaxın insan həlak oldu, 230 min isə yaralandı.

Hərbi materialların, ərzağın və xammalın Avropa ölkələrinə ixracı ABŞ-ı dünyanın ən qüdrətli sənaye ölkələrindən birinə çevirdi.

ABŞ-da güclü urbanizasiya prosesi getməyə başladı. 1920-ci il siyahıya alınmasına görə ABŞ əhalisi 105,7 milyon nəfər idi ki, bunun da 54,2 milyonu artıq şəhərlərdə yaşayırdı. Bu ABŞ-ın tarixində yeni bir hadisə idi ki, şəhər əhalisi artıq kənd əhalisini ötüb keçmişdi.

İqtisadiyyatda dövlətin vəziyyəti ABŞ-da güclü inhisar birləşmələrinin yaranmasına səbəb olmuşdu. Bütün bunlar isə ABŞ-a imkan verdi ki, dünya ağalığı fikrinə düşsün. ABŞ bu planını ilk növbədə Cənub-Şərqi Asiyada, xüsusilə Çində həyata keçirmək istəyirdi.

ABŞ bütün Çin ərazisində üstünlüyü ələ almağa çalışaraq 20-ci illərin əvvəllərində, xüsusilə Çinin təsir dairələrinə bölünməsinin ləğv edilməsini tələb edirdi. Bu tələb bütün imperialist dövlətlərinə, birinci növbədə isə İngiltərəyə aid idi. Həmçinin ABŞ kapitalı daha çox bu dövrdə Çinə nüfuz etməyə başladı. ABŞ xüsusilə Yantszı çayı hövzəsində və Çinin cənubunda bu sahədəki fəaliyyətini genişləndirdi. Bu isə aydındır ki, İngiltərənin mənafeyinə toxunmaya bilməzdi. İngiltərə və ABŞ-ın maraqları həmçinin Cənub-Şərqi Asiyanın digər ölkələrində də toqquşurdu. İngiltərə və ABŞ münasibətlərində ən kəskin problemlər dənizdə silahlanma və ingilis-yapon sazişi məsələsində idi. İngiltərə ilə Yaponiya arsında bu saziş



1902-ci ildə bağlanmış, hər iki dövlət müəyyən sahədə birgə öhdəlik götürmüşdülər. Bu isə ABŞ-ın, Uzaq Şərq, Çin və Sakit okean planlarına maneçilik törətdiyinə görə ABŞ hər vəchlə bu sazişin ləğv olunmasına çalışırdı.

1919-cu ildə ABŞ konqresi hələ müharibə illərində hərbi-dəniz quruculuğu haqqındakı proqramını hazırlayıb təsdiq etdi. Bu proqramda göstərilirdi ki, elə etmək lazımdır ki, ABŞ-da hərbi-dəniz quruculuğu 1924-cü ilə qədər dünyada ən qüdrətli və güclü olsun.

Bu proqramın qəbul edilməsi əslində İngiltərə üçün bir çağırış demək idi. Çünki ABŞ bu proqramı qəbul etməklə İngiltərənin dənizdə hökmranlığını əlindən almaq, "dənizlər hökmdarını" məğlub etmək istəyirdi. Dənizdə sürətlə silahlanma məsələsində 20-ci illərin əvvəllərində İngiltərə ABŞ-la rəqabətə girə bilməzdi. Çünki buna iqtisadi gücü yox idi. Buna səbəb isə o idi ki, İngiltərə müstəmləkə imperiyası idi. Onun öz ərazisindən 109 dəfə çox əraziyə malik müstəmləkələri var idi. Birinci dünya müharibəsindən sonra isə bu müstəmləkələrin bir çoxunda milli-azadlıq hərakatı başlanmışdı.

Müstəmləkələrdən gələn gəlirlər hesabına dolanan İngiltərə Birinci dünya müharibəsinə qədər "dünya faytonçusu", "dünya emalatxanası", "dünya maliyyə mərkəzi" hesab edilsə də müharibədən sonra bu keyfiyyətlərdən məhrum olmuşdu. ABŞ-ın anası hesab edilən və ona həmişə borc verən İngiltərə müharibədən sonra ABŞ-a borcu olan bir dövlətə çevrilmişdi.

İrlandiyada baş verən hadisələr, İngiltərənin özünün daxili və beynəlxalq vəziyyəti ona imkan vermirdi ki, ABŞ-la münasibətləri kəskinləşdirsin. Bir sözlə, onun ABŞ-ın istəyi ilə hesablaşmamağa gücü yox idi. Bu vəziyyəti ABŞ hakim dairələri də çox gözəl başa düşürdü. ABŞ əlverişli imkandan çox bacarıqla istifadə edirdi.

ABŞ İngiltərəyə təzyiq vasitələri içərisində ilk növbədə İngiltərənin maliyyə sahəsindəki çətinliklərindən istifadə etdi. O, İngiltərədən tələb etdi ki, əgər konfransın çağırılmasına razılıq verməsə, onda ABŞ ondan müharibə dövründə verdiyi hərbi borcunu, yəni 850 milyon funt-sterlinqin, (4 milyard dollar) qaytarılmasını tələb edəcəkdir. Amerikanlar İngiltərənin kredit bazarındakı mənafeyinə də toxunurdular. Amerika banklarının təzyiqi altında 1920-ci ildə İngiltərə funt-sterlinqinin qızıl paritetini 79%-ə qədər aşağı endirdi. Ümumiyyətlə, funt-sterlinqin kursu aşağı düşdü.

ABŞ-la İngiltərə arasında birinci dünya müharibəsindən sonra kapital qoyuluşu, satış bazarları və xammal mənbələri uğrunda mübarizə gücləndi.

Çin üzərində İngiltərə və ABŞ arasında ziddiyətlər daha kəskin xarakter daşıyırdı. Məsələlərə aydınlıq gətirmək üçün deyək ki, Çin hələ orta əsrlərdən bütün qabaqcıl dövlətlərin diqqət mərkəzində olsa da heç birinin müstəmləkəsinə çevrilməmiş, daha doğrusu, kapitalist dövlətləri bunu bacarmamışdılar. Çin həmişə özünə xas olan təcridçiliyini saxlaya bilmişdir. Çini müstəmləkə edə bilməyən dövlətlər onun ancaq ayrı-ayrı limanlarında möhkəmlənə bilmişdir. Məsələn, Rusiya Port-Arturda, Fransa Quançjouda, Almaniya Tzsyançjouda, İngiltərə isə Veyxoveyidə, Honkonqda özünü möhkəmlətmişdir. Yantszı çayı hövzəsində və Mərkəzi Çində isə İngiltərənin təsiri daha güclü idi. Demək olar ki, bu ərazi İngiltərənin təsir dairəsi hesab edilirdi. XIX əsrin sonunda isə ABŞ bütün bunları diqqətlə izləyirdi.

İngiltərənin nüfuzlu siyasi dairələri dənizdə silahlanma məsələsində ABŞ-la kompromisə meyl etməyə başladılar. 1921-ci ilin martında İngiltərənin hərbi dəniz donanması naziri Lord Li belə bir nitqlə çıxış etdi ki, buna nail olmaq lazımdır ki, dənizdə İngiltərə və ABŞ donanması arasında paritet, yəni bərabərlik yaransın. Bir aydan sonra İngiltərə hökuməti ABŞ-a öz fikrini belə bəyan etdi ki, o dənizdə silahlanmada və donanmada üstünlüyü daim öz əlində saxlamaq ideyasında deyildir. O, ABŞ-la sazişə gəlməyə və bu sahədə onunla paritet yaratmağa razıdır. O, İngiltərə və ABŞ donanmalarının bərabər səviyyədə olmasına etiraz etmədiyini bildirdi. Bunun üçün İngiltərə Atlantik okeanda ABŞ-ın təhlükəsizliyini təmin etməyi vəd etdi ki, bu da imkan verməli idi ki, Sakit okeanda amerikanlar öz donanmalarını cəmləşdirməyi bacarsınlar.

İngiltərə məcburiyyət qarşısında qaldı ki, həmçinin ABŞ-la 1902-ci il ingilis-yapon sazişi barədə də danışıqlara girsin. Bu saziş həm antialman, həm antirus, həm də antiamerikan ruhunda bağlanmışdır. 1920-ci ildə ABŞ senatoru Lodc bildirmişdi ki, ingilis-yapon sazişi bizim Sakit okeanda və Uzaq Şərqdə qarşılıqlı münasibətlərimiz üçün təhlükəli elementdir. O, təkcə ABŞ-da deyil, həmçinin Kanada da həyacan doğururdu. Həmçinin bu saziş



Yaponiyanın hərbi ruhunu müdafiə edir və onun dənizdə və quruda yeni münaqişələr törətməsinə imkan verirdi.

ABŞ diplomatiyası qətiyyətlə ingilis-yapon sazişinin ləğv edilməsini tələb etdi. İngiltərəyə təzyiq göstərmək üçün ABŞ İrlandiya məsələsindən bacarıqla istifadə etdi. 1921-ci ilin iyununda ABŞ konqresi İrlandiya respublikasının tanınması məsələsini müzakirə etdi. Müzakirə zamanı ABŞ-ın o zamankı dövlət katibi Yuz İngiltərənin ABŞ-dakı səfirinə bildirdi ki, konqresin necə qərar çıxartması İngiltərə ilə Yaponiya arasındakı qarşılıqlı münasibətlərin xarakterindən asılı olacaqdır.

İngiltərə-Yaponiya sazişi Britaniya imperiyasının öz daxilində də narazılıq doğurmağa başladı. 1921-ci ilin iyulunda Kanada və Cənubi Afrika ittifaqının nümayəndələri bildirdilər ki, onlar İngiltərənin dominionları kimi belə hesab edirlər ki, ABŞ-la yaxşı münasibətlər yaratmaq və onu qorumaq İngiltərə-ABŞ münasibətlərinin əsasını təşkil etməlidir. Yaponiya ilə saziş isə bu münasibətləri pozur, korlayır. İmperiya konfransında çıxış edən Kanada baş naziri Meyson təklif etdi ki, İngiltərə-Yaponiya sazişinin əvəzində dörd dövlət sazişi – ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa müqaviləsi bağlansın. İki digər dominionların – Avstraliya və Yeni Zelandiyanın nümayəndələri belə təklif etdilər ki, İngilis-yapon sazişində yeniləşmə getsin. Yaponiyaya hücum əleyhinə təminat verilsin, həmçinin bir sıra dəyişikliklər edilsin ki, onlar amerikanları razı salsın.

İmperiya konfransı nəticədə bu məsələni həll etmək üçün xüsusi konfrans çağırmaq və burada ABŞ-ın da iştirakını təmin etmək haqqında qərar qəbul etdi.

Bütövlükdə götürsək, İngiltərənin özü də Yaponiya ilə sazişin yeniləşməsinin əleyhinə idi. Çünki Birinci dünya müharibəsi dövründə Yaponiyanın mövqeyinin Çində möhkəmlənməsi İngiltərənin maraqlarına ciddi zərbə vurmuşdu. İmperialist dövlətlərinin, xüsusilə İngiltərənin Avropada başlanmış müharibəyə başlarının qarışmasından istifadə edən Yaponiya 1914-1918-ci illərdə Çində nüfuzunu möhkəmlətməyə xüsusi diqqət yetirdi. Bu dövrdə Çinə kapital qoyuluşunun həcmini artıraraq bu sahədə İngiltərə ilə yaxınlaşmaq həddinə çatdı. Bu Çinlə bağlı məsələlərə baxan təşkilat olan və Londonda fəaliyyət göstərən "Çin assosasiyası"nı da narahat etməyə başladı. Yapon kapitalının sürətlə İngilis kapitalını

sıxışdırdığını görən bu assosasiya hansı ki, iri İngiltərə sənayeçiləri, qabaqcıl ticarət nümayəndələrini birləşdirirdi, 1921-ci ilin iyulun 22-də İngiltərə xarici işlər nazirinə xüsusi məktubla müraciət etdi. Məktubda göstərilirdi ki, 1902-ci il ingilis-yapon sazişi hazırki dövrdə İngiltərənin xarici siyasət kursuna və siyasi maraqlarına uyğun gəlmir. Xüsusilə Yaponiyanın son dövrlərdə yeritdiyi siyasət İngiltərənin maraqları əleyhinədir. Ona görə də biz xahiş edirik ki, bu saziş ləğv edilsin və İngiltərənin mənafeyinə uyğun olan dörd dövlət sazişi ilə əvəz edilsin.

Yaponiyanın Çində və Sakit okeanda sahib olduğu ərazilər, həmçinin iqtisadi gücünün artması ABŞ-ın rəhbər dairələrini, xüsusilə inhisarçı dairələri narahat edirdi. Doğrudan da, Paris sülh konfransı nəticəsində Çinin Şandun əyalətinin (müharibəyə qədər Şandun əyaləti Almaniyanın təsir dairəsində idi. Birinci dünya müharibəsi başlayarkən Yaponiya Almaniyadan tələb etdi ki, Şandun əyaləti ona verilsin. Lakin Almaniya bu tələbi rədd etdi. Belə olduqda, Yaponiya Antantanın tərəfində 1914-cü il avqustun 23-də müharibəyə girdi.) həmçinin Sakit oeandakı Marşall, Karolina, Mariya adalarının Yaponiyaya verilməsi onun nüfuzunu xeyli gücləndirmişdi. Birinci dünya müharibəsi nəticəsində ABŞ-dan sonra ən çox qazanan dövlət Yaponiya idi. ABŞ isə bununla barışmaq istəmirdi. Hələ müharibənin sonuna yaxın Yaponiyanın Çindəki nüfuzunu ABŞ sarsıtmağa və zəiflətməyə çalışmağa başladı. Bu məqsədlə 1918-ci ilin iyununda ABŞ beynəlxalq bank konsorsumu təşkil etmək layihəsini irəli sürdü ki, bu layihəyə əsasən Çinə kredit verilməsinin bütün növlərini bu qrup inhisara almalı idi. Danışıqlar iki ilə qədər davam etdi. Yaponiya formal olaraq ona maraq göstərsə də, heç bir fəallıq nümayiş etdirmədi.

Şandun əyalətinin Yaponiyaya verilməsi Çində böyük həyacana səbəb oldu. 1919-cu il may ayının 4-də Çində bununla əlaqədar kütləvi hərakat başladı. Çində baş verən hərəkat bir daha sübut etdi ki, imperialist dövlətlər artıq bu ölkə ilə istədiklər kimi rəftar edə bilməzlər. Bu ölkə ilə münasibətlərdə dəyişiklik etmək çox vacibdir. Həmçinin bu hərəkatdan sonra Çin hökuməti də konsorsumun təklifini qəbul edə bilmədi və bundan ehtiyat etdi. ABŞ planının müvəffəqiyyətsizliyə uğramasının digər səbəbi isə Yaponiyanın rəhbər dairələrinin buna müqavimət göstərməsi idi.



Çünki bu layihəyə dəstək vermək Çinin açarını ABŞ-a vermək demək idi.

Müharibədən sonra dünyanın maliyyə mərkəzi də ABŞ oldu. Məhz bunun nəticəsi idi ki, amerikan burjuaziyası üçün Uzaq Şərq bazarlarının əhəmiyyəti daha da artırdı. 1920-ci ildə Panama kanalının açılması ABŞ-ın Uzaq Şərqlə dəniz yolunu qısaltmış oldu. Uzaq Şərq, xüsusilə Çin uğrunda mübarizə ABŞ xarici siyasətində əsas yer tutdu.

İstər ABŞ-da, istərsə də Yaponiyada irticaçı dairələr yenidən bu iki dövlət arasında toqquşmalar baş verəcəyini söyləməyə başladılar. ABŞ donanmasının əsas qüvvələri Atlantik okeandan Sakit okeana gətirildi.

Çin və Uzaq Şərq uğrunda mübarizədə Yaponiyanın vəziyyəti ABŞ-la müqayisədə daha əlverişli idi. ABŞ-da bunu yaxşı başa düşürdülər. Yaponiyanın hərbi dəniz qüvvələri Tayvan və Rüküdə idi, dayaq məntəqəsi isə Saxalin, Kuril, Mariana, Karolin, Marşall adaları idi. Bu da imkan verirdi ki, manevr etsin və dənizdən olacaq hər hansı bir hücumdan özünü müdafiə etsin. Sakit okeandan uzaq bir məsafədə yerləşən ABŞ üçün yenidən Yaponiya ilə müharibə aparmaq çətin idi. Konqres ancaq 1921-ci ildə qərar qəbul etdi ki, Filippin və Quam adalarında silahlanmanı gücləndirmək üçün hazırlıq işləri aparılsın.

Sovet Uzaq Şərqinə münasibətdə də Yaponiya ilə ABŞ arasındakı münasibətlər kəskinləşdi. Amerika imperialistləri əvvəlki kimi yenə də Sovet Rusiyasını tanımaq və onunla münasibət yaratmaq əleyhinə idilər. 1920-ci il seçkilərində demokratların məğlubiyyətindən sonra prezident seçilmiş respublikaçılar partiyasından olan Hardinq antisovet kursu davam etdirməklə bərabər, onu daha da dərinləşdirdi. Yaponiyanın Uzaq Şərq Respublikası üzərində tam hökmranlığa nail olmaq cəhdi, Sovet Uzaq Şərqində möhkəmlənmək istəyi ABŞ hakim dairələrində böyük narahatçılığa səbəb oldu. ABŞ hökuməti yapon işğalçılarının Uzaq Şərqdə Sovet hökumətinə qarşı təcavüzünü bəyənsə də, Yaponiyanın daha çox əl-qol açmasını istəmirdi.

1921-ci ilin mayında Uzaq Şərq respublikası hökuməti razılaşdı ki, Saxalinin Cənubundakı neft yataqlarını ABŞ-ın Sinkler neft kompaniyasına təqdim etsin və onlar Saxalinin şərq sahilində iki

liman tiksinlər. Dövlət departamenti bunun üçün lazımi tədbirlər həyata keçirdi.

1921-ci ilin avqustunda Dayrend (Dallində) Uzaq Şərq Respublikası nümayəndələrinin konfransında tələb edildi ki, Yaponiya öz qoşunlarını təcili surətdə Uzaq Şərqdən köçürsün və heç bir şərt irəli sürmədən Sovet Rusiyasının nümayəndələri konfransda iştirak etsinlər. Lakin yapon tərəfi bu təklifi qəbul etmədi. Yaponiya Uzaq Şərq respublikasına təzyiqi artırdı. Yaponiya konfransa "17 tələb" təklifini irəli sürmüşdü ki, onun mahiyyəti faktiki olaraq Uzaq Şərq respublikasını Yaponiyanın müstəmləkəsinə çevirmək idi.

Yapon imperialistləri çalışırdılar ki, rusların Vladivastok rayonunda və Koreya sərhədlərindəki qalaları ləğv edilsin. Uzaq Şərq respublikası dəniz donanması yaratmaqdan imtina etməli idi. Yaponiyanın iş adamlarının Uzaq Şərq respublikasının ərazisində yerli vətəndaşlarla bərabər hüquqda ticarət və sənətkarlıqla məşğul olmaq azadlığını təmin edilməli idi. Uzaq Şərq respublikası təminat verməli idi ki, öz ərazisinə "kommunist rejimi"nin ayaq basmasına imkan verməyəcəkdir. Həmçinin o, Saxalinin şimal hissəsini Yaponiyaya icarəyə verməli idi.

Uzaq Şərq respublikasının nümayəndələri bu təklifləri rədd etməklə bərabər yaponlarla danışıqları da davam etdirdilər. Çünki onlar imkan vermədilər ki, yaponlar onları konfransın işini pozmaqda ittiham etsinlər.

1921-ci ilin oktyabrında Yaponiya tərəfindən silahlandırılan ağqvardiyaçılar Uzaq Şərq respublikasına hücuma keçdilər. Lakin Uzaq Şərq respublikasının ordusu onlara ciddi müqavimət göstərdi. Asiyada başlanan milli azadlıq hərəkatı Yaponiya və ABŞ-a imkan vermədi ki, onlar Sovet Rusiyasını məhv etsinlər. Əksinə, Uzaq Şərqdə və Çində başlanan milli-azadlıq hərəkatı onların bu xalqları müstəmləkəyə çevirmək planını pozdu. Lakin bütün bunlara baxmayaraq bu və ya digər dərəcədə Yaponiya bu regionda müdaxiləçilik siyasətini davam etdirirdi. Bu isə Yaponiya-ABŞ münasibətlərinə öz təsirini göstərməyə bilməzdi.

Göstərdiyimiz səbəblər də Amerika diplomatiyasına konfrans çağırmaq təşəbbüsünü irəli sürməyə imkan verirdi. Konfrans Sakit okean və Uzaq Şərqlə bağlı olan problemlərə baxmalı və onları həll etmək yollarını göstərməli idi.



1921-ci ilin iyulun 10-da ABŞ dövlət katibi Yuz Vaşinqtonda beynəlxalq konfrans çağırmaq təklifi ilə çıxış etdi. Avqust ayının 11-də dünyanın böyük dövlətlərinə dəvətnamə göndərildi.

Lakin konfransa nə Uzaq Şərq, nə də Sovet Rusiyası dəvət edilmədi. Sovet Rusiyası məsələsi konfransın gündəliyinə daxil edilməsə də aydın idi ki, konfransın işində əsas yer tutmalı idi. ABŞ-ın nüfuzlu qəzetlərindən birində yazılmışdır ki, "Rus məsələsi, şübhəsiz, Vaşinqton konfransında Hardinq və digər nümayəndələr tərəfindən ən çox müzakirə edilən məsələlərdən biri olacaqdır.

Sovet Rusiyası iki dəfə 1921-ci il iyulun 19-u və noyabrın 2-də etirazını bildirdi ki, o da Sakit okean dövlətidir və konfransda iştirak etməlidir. Lakin konfrans qəti bildirdi ki, konfransın qərarı ilə o, qanuni qüvvəyə malik olmayacaqdır. Konfrans 14 dövlətin iştirakı ilə 1921-ci ilin noyabrın 12-də Vaşinqtonda açıldı. Konfransda ABŞ, Böyük Britaniya və onun dominionları Fransa, İtaliya, Yaponiya, Hindistan, Çin, Belçika, Niderland, Portuqaliyadan nümayəndə heyəti iştirak edirdi.

Konfransın iclasları açıq keçirilirdi. Nümayəndələrin çıxışları da çap edilirdi. Burjua mətbuatı nümayiş etdirirdi ki, gizli diplomatiya, bağlı qapı arxasında söhbətlərin artıq sonu çatmışdır. Həqiqət isə bundan çox uzaq idi. İkinci dərəcəli məsələlər xalqa bildirilsə də, əsas məsələlər ancaq dar dairədə həll edilirdi. Gizli keçirilən müşavirələrdə ancaq dörd dövlətin – ABŞ, İngiltərə, Yaponiya, Fransanın nümayəndələri iştirak edirdilər. Konfransda iştirak edən digər dövlətlərin rəyi ilə, demək olar ki, çox az hallarda razılaşırdılar. Bəzən isə bu nümayəndələrin çıxışına heç diqqət verilmirdi.

Konfransın rəsmi gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir: 1) Dəniz silahlarının məhdudlaşdırılması, həmçinin müharibədə yeni silahlardan istifadə qaydaları; 2) Sakit okean və Uzaq Şərq məsələləri (Çin, Sibir və Mandat altında olan ölkələr) İngilis-Yapon sazişi haqqında məsələ konfransın gündəliyinə daxil edilməmişdi. Lakin bir şey aydın idi ki, başqa problemlər üzrə sazişə gəlmək üçün onun həlli vacib idi.

Konfransda başlıca rolu ABŞ oynayırdı. O, Versal sülh müqaviləsində buraxdığı səhvləri düzəltməyi qarşısına məqsəd qoymuşdu. ABŞ nümayəndə heyəti konfransda özünün birinci

vəzifəsini ingilis-yapon sazişini ləğv etməkdə görürdü. Bu digər məsələlərin həlli üçün açar rolunu oynayırdı. Bu məsələ ilə bağlı gizli şəkildə üç dövlət, ABŞ, İngiltərə, Yaponiya arasında ciddi söhbət və müzakirə keçirildi. Danışqlarda ABŞ tərəfindən Yuz, İngiltərə tərəfindən Balfur, Yaponiya tərəfindən Kato əsas rol oynayırdı. Baffur əvvəl məsələni belə qoydu ki, saziş ləğv edilməsin, İngiltərə, Yaponiya və ABŞ arasında üç tərəfli sazişlə əvəz edilsin və bu hərbi müdafiə sazişi olsun. ABŞ dövlət katibi Yuz İngiltərənin ingilis-yapon sazişini yeni formada saxlamaq cəhdini qəti rədd etdi və təkid etdi ki, Fransa da bu danışıqlarda iştirak etsin. ABŞ belə hesab edirdi ki, Fransanın ABŞ-a borclu olması, həmçinin İngiltərə ilə Fransa arasında Yaxın Şərq, alman və digər məsələlərlə bağlı ziddiyyətlər Fransanın İngiltərə və Yaponiya əleyhinə olmasına səbəb olacaq və ABŞ-ın mövqeyini müdafiə edəcəkdir.

1921-ci il dekabr ayının 10-da konfransın nümayəndələrinin əksəriyyəti üçün gözlənilməz şəkildə ABŞ nümayəndəsi belə bir təklif irəli sürdü ki, Sakit okeandakı adaların toxunulmazlığına təminat haqqında dörd dövlət – ABŞ, Yaponiya, İngiltərə, Fransa arasında saziş bağlansın İtaliyanın sazişdə iştirak etmək haqqında tələbləri nəzərə alınmadı və qəbul edlmədi. Lodcun çıxışından sonra İngiltərə nümayəndə heyətinin başçısı Balfur çıxış edərək göstərdi ki, ABŞ-ın təklifini sevinclə qəbul edir, çünki bu onun ABŞ, İngiltərə, Yaponiya və Fransanın dostluğunu möhkəmləndirmək haqqında arzusunun həyata keçməsi deməkdir. Balfurun çıxışı da əslində nəzakətli formada ingilis-yapon sazişinin ləğv olunduğu demək idi. Təsadüfi deyildir ki, yapon nümayəndəsi açıq formada ingilis nümayəndəsinə bildirdi ki, "Siz hər halda bizim ittifaqımız üçün əla dəfn yaratdınız".

Vaşinqton konfransının mühüm hadisələrindən biri də "Dörd dövlət müqaviləsi"nin bağlanması idi. Bu müqavilə ABŞ, İngiltərə, Yaponiya, Fransa arasında 1921-ci ilin dekabrın 13-də bağlandı. Müqavilədə qeyd edilirdi ki, müqavilə ratifikasiya olunduqdan sonra ingilis-yapon müqaviləsi qüvvədən düşür. Bu, ABŞ diplomatiyasının böyük qələbəsi demək idi. Çünki burada rəhbər rolu ABŞ oynamalı, İngiltərə isə ona tabe olmalı idi.

Bununla birlikdə müqavilə müstəmləkə və asılı ölkələrdəki milli-azadlıq hərəkatlarına qarşı çevrilmişdi.



Müqavilənin mətni cəmi dörd maddədən ibarət idi. Bunlar aşağıdakıları əhatə edirdi: Sakit okean regionunda olan ada mülklərinə və ada ərazilərinə qarşılıqlı hörmət hüququnu saxlamaq, hər hansı digər dövlət tərəfindən bu ərazilərə təhlükə yarandıqda "hərəkət tədbirləri" haqqında birgə qərar qəbul etmək; Avtomatik olaraq uzatma şərti ilə müqavilənin müddətini on il müəyyən etmək; 1902-ci ildə bağlanmış İngiltərə-Yaponiya sazişi artıq əhəmiyyətini itirir və bu dörd dövlət müqaviləsi onu əvəz edir.

Amerika inzibati idarəsi, o cümlədən ABŞ tarixçiləri bu müqaviləni cəmi dörd maddədən ibarət olduğuna görə ikinci dərəcəli hesab edirlər. Əslində isə dörd dövlət müqaviləsində ABŞ məharətlə öz məqsədini gizlətməyi bacarmışdır. Bu məqsəd əslində ABŞ-ın özünəməxsus formada və öz rəhbərliyi altında "Uzaq Şərq Antantası"nı yaratması idi. Məhz bu baxımdan dörd dövlət müqaviləsi əslində ABŞ-ın "Millətlər assosasiyası" yaratmaq ideyasının qismən ifadə edilməsi demək idi və bu mənada da prinsipial əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildir ki, o konfransda ilk imzalanan müqavilə idi.

Müqavilənin 4-cü bəndi 1902-ci il İngiltərə-Yaponiya sazişinin ləğvinə aid idi ki, bu əslində Vaşinqtonun böyük qələbəsi demək idi. Çünki bu Uzaq Şərqdə ABŞ-ın əsas rəqiblərini bir-birindən ayırdı. Yaponiyanı dayağından məhrum etdi ki, hansı ki, onun vasitəsilə Yaponiya bir çox adaları işğal etmişdir.

Müqavilənin birinci maddəsi də az əhəmiyyət kəsb etmirdi. Belə ki, bu maddə ABŞ-ın Sakit okeanda Millətlər Cəmiyyəti vasitəsilə olan bölgünü tanıdığını bildirirdi. Bu maddə həmçinin o demək idi ki, əgər Çin ipə-sapa yatmasa, onun əleyhinə dörd dövlət birgə hərbi çıxış təşkil edə bilərlər. Əslində bu maddə həm Çinə, həm də Sovet Rusiyasına qarşı yönəlmişdi. Həmin planda suda, havada və quruda silahlanmanın məhdudlaşdırılması öz əksini tapmışdır. Lakin bütün bunlar əslində formal xarakter daşıyırdı. Qısa müzakirələrdən sonra məlum oldu ki, Fransa Avropada qayda-qanunu saxlamaq üçün ən böyük quru qoşunlarına malikdir. Yaponiya xüsusi Uzaq Şərq situasiyasını saxlamaq üçün silahlanmışdır. Nəticədə iştirakçılar belə fikrə gəldilər ki, quruda və havada hələlik tərkisilah mümkün deyildir. Bu ABŞ dövlət katibini tamamilə əmin etdi. Əslində ABŞ-ı bu məsələ o qədər də narahat etmirdi. Onu narahat edən İngiltərə və Yaponiyanın dənizdə silahlanması idi. Aviasiyaya gəldikdə isə ABŞ

özü də bu sahənin yeni texnika əsasında inkişaf etdirilməsində maraqlı idi.

Konfransda yeganə birgə müzakirə edilməsi mümkün olan məsələ müharibənin gedişində kimyəvi vasitələrdən istifadə etmək üzrə məsələyə baxılmasına dair beş dövlət, ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa və İtaliya komitəsinin təşkili idi. Lakin komitənin yaradılmasında dövlətlər yekdil qərara gələ bilmədilər. Konfransda müharibədə kimyəvi vasitələrdən istifadə haqqında ümumi müzakirədən sonra əlavə beş dövlət müqaviləsi bağlandı. Bir sözlə, Vaşinqton konfransında ancaq dənizdə "tərksilah" məsələlərinə baxıldı.

Dənizdə silahlanmanın məhdudlaşdırılmasına Hardinq hökuməti xüsusi əhəmiyyət verirdi. Yuzun məruzəsində göstərilirdi ki, ABŞ, İngiltərə və Yaponiya xətt gəmilər aşağıdakı nisbətdə müəyyən edilsin. Belə ki, ABŞ və İngiltərə 500 min ton su tutumu, Yaponiyaya isə 300 min ton su tutumu olan gəmilər istehsal edə bilərdi. Nisbət 5:5:3 olmalı idi. ABŞ-ın məqsədi İngiltərəyə çatmaq, Yaponiyanı isə ikinci yerdə saxlamaq idi. Həmçinin Yuz belə bir bəhanədən də istifadə etdi ki, guya böyük gəmilər xüsusi təhlükə təşkil edir, ona görə də 35 min ton su tutumundan yuxarı gəmilər tikilməsin. Bu həm də ona görə lazım idi ki, ABŞ üçün Atlantik okeandan Sakit okeana, Sakiit okeandan Atlantik okeana donanma köçürməkdə çətinlik törətməsin. Böyük dövlətlərin mənafeyinə uyğun olaraq dənizdə yeni silahlanmanın əsası qoyulmuş oldu. Yuz çox böyük çətinlik bahasına linkorların nisbətini aşağıdakı qaydada müəyyən edə bildi. ABŞ və İngiltərə üçün 525 min tona qədər, Yaponiya üçün 315 min tona qədər, Fransa və İtaliya üçün isə 175 min tona qədər. Bu nisbətin qəbul edilməsi əslində ABŞ-ın daha iri gəmilər tikməsinə şərait yaradılması demək idi. İngiltərə və Fransa arasında kəskin müzakirələr kreyserlərin və sualtı qayıqların məhdudlaşdırılmasına imkan vermədi.

Konfrans həmçinin təyyarə daşıyan gəmilərlə əlaqədar razılığa gələ bilmədi. Bu münasibətlə elə ilk təqdim edilən layihə rədd edildi. Bütün bu sahələrdə müqavilələrin bağlanmamasının səbəkarı isə Fransa və güzəştə getməyi bacarmayan İngiltərə oldu.

ABŞ-ın müvəffəqiyyətləri tam olmadı, o bir neçə güzəştə getməyə məcbur oldu. Bu, onun Yaponiyaya yaxın ərazilərdə hərbi baza yaratmamağı öhdəsinə götürməsi idi. Nəticədə onun hərbi



bazalarının hamısı Perl-Xarbor və Sinqapurla məhdudlaşdırılmış oldu. Bu özü ABŞ-ın konfransı müntəzəm davam edən orqana çevirmək planından imtina etməsi demək idi. ABŞ-ın planına görə həmin orqan Millətlər Cəmiyyətinə qarşı çevrilməli və iqtisadi və maliyyə məsələlərini əhatə edən fəaliyyət sahəsini əhatə etməli idi.

Beş dövlət müqaviləsinin müzakirəsi göstərdi ki, Avropa dövlətləri və Yaponiya ABŞ-ın hegemonluq iddiasını qəbul etmək istəmirlər. Hətta ayrı-ayrı istiqamətlərə də bunu şamil etmək niyyətində deyildilər. Bununla bərabər Yuz ona müvəffəq olmağı bacardı ki, Vaşinqton konfransında iki qətnamə qəbul etdirsin. Bunlardan biri "tərksilah" məsələsinin gələcəkdə müzakirə edilməsi zəruriliyi, digəri isə konfrans iştirakçılarının 8 ildən sonra bir daha konfrans çağırıb xətt gəmilərinin tonnajını təsdiq etmək öhdəliyi haqqında idi. Bu nisbət belə müəyyən edilirdi. 5:5:3:1,75:1,75. Bu qətnamələr ABŞ-a imkan verdi ki, dənizdə silahlanmanı öz nəzarəti altına alsın və tərksilah məsələsi üzrə növbəti konfrans çağırmaq təşəbbüsünü öz əlində saxlamış olsun.

Vaşinqtonda silahların məhdudlaşdırılması məsələsinin müzakirəsinin nəticələri ABŞ senatında kəskin müzakirəyə səbəb oldu. Tənqidçilər sağdan hökuməti fövqaladə güzəştlərə getməkdə təqsirləndirirdilər. Göstərirdilər ki ABŞ, nümayəndələri hədsiz dərəcədə sülh xülyalarına qapılmışlar. Senator C. Rid təsdiq edirdi ki, müqavilə göstərir ki, biz ingilislərə necə xeyirxahlıq göstəririk. Digərləri isə ABŞ-ın Yaponiyaya güzəştə getməsini pisləyirdilər. Debat belə bir amilə imkan verdi ki, sağlar bundan istifadə edərək hərbi hazırlığı gücləndirməyi, müəssisələrin hərbi sifarişlər qəbul etməsinə icazə verilməsini tələb etsinlər.

Soldan tənqiddə senator Bora, Uilyam, Uinq və digərləri qeyd edirdilər ki, Sakit okeanda bazalarını möhkəmləndirməkdən imtina edən ABŞ çalışmalıdır ki, Filippin və Quamda möhkəmlənməkdən imtina etməməklə bərabər özünə geniş imkanlar yaratsın. İngiltərə və Yaponiya isə Sakit okeanın qərb hissəsində möhkəmlənməməlidir. Bütün böyük dövlətlərin donanmalarını azaltmamalı, əksinə onlar daha güclü olmalıdırlar. Xərclər qoy çox olsun, lakin sürətlə silahlanmada kreyser, sualtı qayıq və təyyarələr istehsalı artırılsın.

Beş dövlət müqaviləsinə senatda cəmi bir nəfər səs vermədi, ancaq 24 senator bu məsələdə bitərəf qaldı, qalanlar leyhinə səs verdi.

Müqaviləyə əlavədə Yuz göstərdi ki, dənizdəki hərbi gəmilər və köməkçi döyüş vasitələrinin nisbəti dünyanın böyük dövlətləri arasında proporsional qaydada bölünməlidir. Bundan ABŞ-ın birinci növbədə məqsədi o idi ki, İngiltərənin xətt gəmilərinin ABŞ üzərindəki üstünlüyü ləğv edilsin. Çünki İngiltərə artıq xətt gəmilərinin tikintisinə başlamışdı, ABŞ-da isə hələ bu tikinti başlamamışdı. İngiltərə üçün ABŞ-ın təklifini rədd etmək çətin idi. Çünki bu dövrdə İngiltərə çox böyük maliyyə çətinlikləri ilə qarşılaşmışdı, dənizdə donanma saxlamaq isə ona çox baha başa gəlirdi. Ona görə də Balfur Yuzun təklifini müdafiə etməli oldu. Yapon nümayəndəsi Kato isə ABŞ-ın təklifi ilə əlaqədar olaraq öz proporsional sazişini elan etdi. Bununla belə konfransda ABŞ-ın layihəsi konkret şəkildə müzakirə edildikdə müxtəlif məsələlər meydana gəldi. Yaponlar təkid edirdilər ki, ABŞ, İngiltərə və Yaponiya arasında xətt gəmilərində nisbət 10:10:7 olsun. Halbuki Yuz təklif edirdi ki, bu nisbət 10:10:5 olsun. Cavabında ABŞ bildirirdi ki, əgər Yaponiya inadkarlığını davam etdirərsə, ABŞ hər bir yapon gəmisinə qarşı dörd gəmi tikintisinə başlayacaqdır. Belə olduqda yaponlar ABŞ-ın təklifinə razı olduqlarını bildirməyə məcbur oldular. Lakin onlar belə bir şərt qoydular ki, ABŞ Sakit okeanda belə gəmilərin tikintisi ilə məşğul olmayacaqdır və hərbi-dəniz bazası yaratmayacaqdır. ABŞ nümayəndəsi Yaponiyanın bu tələblərinə etirazını bildirdi, xüsusilə Havay adalarına da bunu şamil etməsinə razılşmadığını bildirdi. Öz növbəsində Fransa da təkid etdi ki, ona 35 min tonnaj su tutumu olan 10 linkor tikintisi üçün icazə verilsin. İtaliya da onun Fransa ilə bərabərhüquqlu səviyyədə tutulmasını və Fransaya aid ediləcək proporsiyanın ona da şamil edilməsi tələbini bildirdi.

ABŞ nümayəndələri konfransda İngilislərin köməyi ilə quru qoşunlarının və aviasiyanın ixtisarı haqqında məsələ qaldırdı. Əslində nə ABŞ, nə də İngiltərə ümumi formada silahlanmanı ixtisar etmək istəmirdilər. Bundan məqsəd Yaponiyanın mövqeyini Çində, Fransanın mövqeyini isə Avropada və Yaxın Şərqdə sarsıtmaq idi. Manevr alınmadı. Fransa quruda silahlı qüvvələrin qəti surətdə ixtisar edilməsi əleyhinə çıxdı. Fransız nümayəndə heyətinin başçısı



Brian konfransda antisovet əhval-ruhiyyəsini biruzə verərək göstərdi ki, Fransaya böyük ordu lazımdır ki, Polşa və Qərbi Avropanı bolşevizm təhlükəsindən qoruya bilsin. Həmçinin o göstərdi ki, Almaniya istənilən an özünə yarım milyonluq ordu yarada bilər. Quru qoşunlarının ixtisarına qarşı Yaponiya, İtaliya, Belçika da öz etirazlarını bildirdi. Kəskin fikir ayrılıqlarının meydana çıxması nəticəsində quru qoşunlarının, həmçinin sualtı donanmanı və hərbi hava qüvvələrini məhdudlaşdırmaq məsələsi də həll edilməmiş qaldı. Bununla belə İngiltərə və ABŞ-ın təzyiqi nəticəsində Fransa onların hərbi-dıniz tonnajı haqqında təkliflərini qəbul etməli oldu.

Nəhayət üç aylıq gərgin mübarizədən sonra ABŞ, Böyük Britaniya Yaponiya, Fransa və İtaıiya birgə 1922-ci il fevralın 6-da beş dövlət sazişini imzaladılar ki, bu "Dəniz qüvvələrinin məhdudlaşdırılması haqqında" saziş adlanır. Saziş dövlətlər arasındakı nisbəti bu şəkildə müəyyən etdi:5:5:3:1,75:1,75. Bu müqavilə 1936-cı ilin 31 dekabrına qədər qüvvədə hesab olunurdu.

Beş dövlət sazişi İngiltərə ilə ABŞ arasında xətt gəmilərində bərabərliyi rəsmiləşdirdi. Amerika nümayəndə heyəti həmçinin hərbi kreyserlərin də məhdudlaşdırılmasını təklif etdi, çünki İngiltərə bu sahədə birinci yeri tuturdu. Lakin İngiltərə nümayəndə heyəti bunu qətiyyətlə rədd etdi, çünki kreyser donanması dənizdə kommunukasiya xətlərinə nəzarət etmək üçün mühüm əhəmiyyət kəsb edirdi və İngiltərə onun vasitəsi ilə müstəmləkələri ilə əlaqə saxlaya bilirdi. Beləliklə İngiltərə bir sıra sahələrdə dənizdə üstünlüyünü qoruya bildi.

ABŞ-ın Sakit okeanda yeni dəniz bazaları tikməsi sazişə əsasən qadağan edilirdi. Lakin bu qadağa ABŞ-ın adalarına, Kanadaya, Avstraliyaya, Yeni Zelandiyaya, Panama kanalı zonasına, Havay adalarına aid edilmirdi.

Konfransın müzakirə etdiyi mühüm məsələlərdən biri də Çin məsələsi idi. Vaşinqton konfransında Pekin hökuməti nümayəndələri Çinin maraqlarını müdafiə etmək qabiliyyətinə malik deyildi. Cənubi Çin hökumətinin nümayəndələri, hansı ki, ona Sun-Yatsen başçılıq edirdi, konfransa buraxılmamışdı.

Ancaq Çində baş verən antiimperialist hərəkatlar Çin nümayəndə heyətini məcbur etmişdi ki, konfransda Çinin milli maraqlarını qismən olsa da, müdafiə edən tələblər proqramı irəli sürsün. Çin böyük dövlətlərdən tələb edirdi ki, onun ərazi

bütövlüyünə toxunulmasın və ona hörmət edilsin., həmçinin onun siyasi və iqtisadi müstəqilliyi təmin edilsin. Çin nümayəndə heyəti habelə öz tərəfindən vəd edirdi ki, öz ərazisinin müəyyən hissəsini xarici kapitalistlərə icarəyə verə bilər. Çin nümayəndə heyəti "Açıq qapılar və bərabər imkanlar" prinsipi ilə razılaşdığını bildirdi. Lakin Çin nümayəndə heyəti bağlanan sazişlərdə özünün bərabərhüquqlu dövlət kimi iştirakını tələb edirdi, hansı ki, bu sazişlər Sakit okeanla və Çinlə birbaşa bağlı idi. Çin nümayəndə heyətinin irəli sürdüyü "on maddə"də həmçinin bir sıra mühüm tələblər vardı ki, bunlar Çin ərazisində bütün xarici dövlətlərin hər cür imtiyaza və üstünlüyə malik olmasının qadağan edilməsi, Şandunun Çinə qaytarılması və Yaponiyanın 17 tələbinin rədd edilməsi", "nüfuz dairəsi" və "icarə"lər formasında xarici dövlətlərin Çin ərazisində ağalığının ləğv edilməsi, xarici qoşunların çıxarılması və başqaları idi.

Bu proqram xarici dövlətləri, ilk növbədə ABŞ-ı təmin etmirdi. ABŞ ancaq o maddələri müdafiə edirdi ki, onlar Yaponiyanın əleyhinə çevrilmişdir. ABŞ özü də Çinə müdaxiləsini genişləndirmək istəyirdi, lakin bunu hərbi təzyiq yolu ilə yox, özünəməxsus xüsusi vasitələrlə həyata keçirmək istəyirdi. Çində ABŞ-ın "Standard oyl" inhisarının, Düponun konserninin, "Betlaxem stil"in, "Vesteri elektrikin" və başqalarının filialları yerləşirdi. ABŞ-ın təşəbbüsü ilə 1920-ci ilin oktyabrında burada beynəlxalq bank konsersumu da təşkil edilmişdi. Bundan məqsəd Çinə dəmiryol, sənaye müəssisələri, iqtisadi islahatlar üçün təqdim edilən istiqrazları cəmləşdirmək idi. 1919-cu ilin martılndan ABŞ-ın təşəbbüsü ilə dəmiryollara aid saziş imzalanmağa başlandı. ABŞ çalışırdı ki, ideoloji metodla Çinə nüfuz etməyə xüsusi diqqət yetirsin. Çinli tələbələrin ABŞ universitetlərində oxumasına xüsusi şərait yaradılırdı. Həmçinin Çinin özündə ABŞ-ın köməyilə tədris müəssisələri açılırdı. Məsələn 1920-cı ildə Çindəki 16 universitetdın 8-ni ABŞ özü, 3-nü isə Kanada və İngiltərə birlikdə açmışdır.

ABŞ çalışırdı ki, Çində İngiltərə, Yaponiya və Fransanın təsir dairələrini ləğv etsin. O əslində istəyirdi ki, Çinin birləşməsi Amerikapərəst Çin hökuməti tərəfindən yenidən təşkil edilsin. Yaponiyanın Çinə hər cür müdaxiləsinin məhdudlaşdırılması Vaşinqton konfransında ABŞ-ın başlıca məqsədlərindən biri idi. ABŞ-ın digər məqsədi Çində milli-azadlıq hərakatını zəiflətmək idi, çünki bu dövrdə etiraf etmək lazımdır ki, Çində Rusiyadakı Oktyabr



çevrilişinin təsiri ilə milli-azadlıq hərəkatı başlanmış, və geniş vüsət almışdı. Kommunist partiyası yaranmışdı. Çində milli-azadlıq hərəkatının ən bariz nümunəsi özünü 1919-cu ilin 4 may hərəkatında tapdı. Bu hadisə Şandun əyalətinin Yaponiyaya verilməsi haqqında Paris sülh konfransının qərarına qarşı yönəlmişdi. Bu hərəkat Pekin hökumıtini məcbur etdi ki, o, Versal müqaviləsini imzalamaqdan imtina etsin. Belə bir şəraitdə isə maraqlı tərəf kimi ABŞ çıxış etməyə başladı.

ABŞ-ın Çinə münasibəti Vaşinqton konfransında hər şeydən əvvəl, iri kapital nümayəndələrinin planına uyğun gəlməli idi. Onları isə ən çox Çində baş verən siyasi hadisələr narahat edirdi. ABŞ köhnə müstəmləkə metodlarının əleyhinə çıxış etməklə bərabər, Çindəki inqilabi demokratik antiimperialist hərəkatdan qorxaraq ona dominion hüququ verilməsini təklif edirdi.

Konfransda Kontondakı demokratik hökumətin nümayəndələrinin iştirakına icazə verilməmişdi. Çinin tələbləri içərisində mərkəzi yeri Şandun məsələsi tuturdu.

1922-ci il fevralın 4-də Yaponiya və Çin saziş bağladılar. Yaponiya öz qoşunlarını Şandundan çıxartmağı öz öhdəsinə götürdü. Kömür və dəmir filizi mədənləri Çin-Yaponiya birgə kompaniyasının əlinə keçdi. Taidao-Teinan dəmiryol xətti Çinə qaytarıldı. Yaponiya Çinə istiqraz təqdim etdi. Şandun əyaləti ilə bağlı Versal müqaviləsinə yenidən baxılması Yaponiyanın məğlubiyyəti, ABŞ diplomatiyasının isə böyük qələbəsi demək idi.

1922-ci ilin fevralın 6-da konfransda "Doqquz dövlət müqaviləsi" adlanan müqaviləni ABŞ, İngiltərə, Fransa, Yaponiya, Belçika, İtaliya, Hollandiya, Portuqaliya, Çin imzaladı. Müqavilənin iştirakçıları üzərlərinə öhdəlik götürdülər ki, Çinin suverenliyinə hörmət edirlər, onun ərazi və inzibati bütövlüyünə toxunmayacaqlar. Lakin Çinin suverenliyini təmin etmək üçün böyük dövlətlər heç bir təminat vermədilər.

ABŞ "Doqquz dövlət sazişi"nin bağlanmasını özünün ən böyük nailiyyəti hesab edirdi. Yuz göstərirdi ki, bu sazişə minnətdar olmaq lazımdır ki, o "açıq qapılar"ı reallığa çevirdi. Bu yolla onlar Çin bazarında ağalıqlarını həyata keçirmək istəyirdilər.

Çin üçün "Açıq qapılar" doktrinası onun müsətqilliyinə böyük zərbə demək idi. Çin böyük dövlətlərin sövdələşmə obyektinə çevrildi. Bu müqavilə Çinin milli-azadlıq hərəkatını boğmaq üçün

imperialistlərin birləşməsi demək idi. Çində xaricilərin rabitə şöbələri və radiostansiyaları ləğv edilmədi. Çin gömrük məsələsində bərabər hüquq almadı, xarici dövlətlər polis və qoşununu onun ərazisindən çıxartmadı. Mühüm strateji ərazilər yenə də böyük dövlətlərin sərəncamında qaldı. Yaponiya Lyaodun yarımadasını, İngiltərə isə Honkonqu öz əraziləri hesab etdilər.

"Doqquz dövlət müqaviləsi" Uzaq Şərqə dair imperialist dövlətləri arasındakı ziddiyətləri həll etmədi. Şandun məsələsinə 36 iclas həsr edilmişdi ki, burada yapon diplomatları ilə kəskin mübarizə getmişdi. ABŞ və İngiltərə burada "barışdırıcı" mövqedə olan tərəflər kimi çıxış edərək bildirirdilər ki, Şandun dəmiryolu konsorsiuma verilsin. Tsindao limanı açıq limana çevrilsin. Bu isə əslində Şandunun ABŞ və İngiltərənin olmasının təmin edilməsi demək idi.

"Doqquz dövlət sazişi"nə əlavə olaraq dörd əlavə saziş də bağlandı. Gömrük tarifi haqqında müqaviləyə görə Çin gömrüyü 5 % yüksəldə bilərdi. Qiymətləri isə 1843-cü ildəkindən cəmi 7,5 % yüksəldə bilrərdi. Halbuki Çin nümayəndə heyəti tələb edirdi ki, 12,5 % yüksəltməyə hüququ olsun. Həmin doqquz dövlət qətnamə qəbul etdilər ki, Çindən xarici qoşunlar çıxarılsın. Nəhayət, qərar qəbul edildi ki, səkkiz dövlətin iştirakı ilə komissiya yaradılsın ki, bu komissiya eksterritoriallıq hüququnun təxirə salınması haqqında məsələni diqqətlə öyrənsin.

Paris sülh konfransında olduğu kimi, Vaşinqton konfransında da "rus məsələsi" vacib yer tuturdu. Dövlətlərin Sovet Rusiyasını və Uzaq Şərq Respublikasını konfransa dəvət etməkdən imtina etmələri Sovet Rusiyasının bəyanat verməsinə səbəb oldu.

Konfransın antisovetizm əhval-ruhiyyəsində olması burada tez-tez ŞÇDY (Şərqi Çin Dəmir Yolu) məsələsinin müzakirə obyektinə çıxarılmasında da özünü göstərirdi. ABŞ hakim dairələri çalışırdılar ki, ya onu neytrallaşdırsınlar, ya da onun üzərində, beynəlxalq nəzarət qoysunlar. Konfransda texniki-ekspertlər komissiyası yaradıldı ki, o yolun idarə edilməsini yeni şəkildə təşkil etməli idi.

RSFSR hökuməti qəti surətdə buna etirazını bildirdi və göstərdi ki, bu məsələ Çin və Rusiyaya aid məsələdir. Sovet hökumətinin qəti mövqeyi və iştirakçılar arasında fikir müxtəlifliyi konfransda bu məsələ ilə əlaqədar qərar qəbul edilməsinə mane oldu.



Konfransa dəvət edilməsə də, Uzaq Şərq respublikasının nümayəndə heyəti konfransa gəldi və öz bəyanatını ABŞ nümayəndə heyətinin başçısı Yuza 1921-ci il dekabrın 22-də təqdim etdi. Burada Uzaq Şərq respublikasının kənarlaşdırılmasına etiraz öz əksini tapmışdı. Həmçinin Yaponiyanın Uzaq Şərq respublikasına aid verdiyi "17 tələb" də rədd edilirdi.

1922-ci ilin yanvarın 23-də konfransın Uzaq Şərq komissiyasının iclasında Yaponiyanın nümayəndəsi Sidexara bildirdi ki, o, Rusiyanın ərazi bütövlüyünə hörmət edir və Priamuryedən və Saxalindən qüvvələrini evakuasiya edəcək. Lakin bunun saxtalığı o idi ki, burada müddət göstərilmirdi. ABŞ sözdə Yaponiyanın fikri ilə razılaşsa da həqiqətdə isə Sovet hakimiyyətinə qarşı mübarizədə Yaponiyadan istifadə etmək istəyirdi Ona görə də konfrans Sovet Uzaq Şərqindən yapon qoşunlarının çıxarılması məsələsinin üzərindən sükutla keçdi.

Vaşinqton konfransı Sakit okeanda qüvvələrin yeni quruluşunu müəyyənləşdirdi. Konfransın qərarları 1919-1920-ci illərin Paris konfransının qərarlarını müəyyən dəyişikliklərlə tamamlamış oldu.

Vaşinqtonda bağlanmış sazişlər əslində ilk növbədə ABŞ imperialistlərinin maraqlarına cavab verirdi. Yaponiya bir sıra güzəştlərə getməli oldu. Onlardan ən vacibi Şandundan imtina idi. Lakin bununla belə o Şimal-Şərqi Çinin cənub hissəsində və Sakit okeanın qərb hissəsində güclü hərbi-dəniz bazalarını saxlaya bildi. İngilis-Yapon sazişinin ləğv edilməsi də Yaponiyanın məğlubiyyəti idi.

Həm ABŞ və İngiltərənin təzyiqi və həm də Uzaq Şərqdə yapon müdaxiləsinə qarşı qalxan uğurlu mübarizə, ölkənin daxili vəziyyəti özü də Yaponiyanın güzəştə getməsinə səbəb olan amillərdən idi. .

Çin xalqının milli azadlıq mübarizəsi də göstərdi ki, artıq Çinlə əvvəlki kimi rəftar etmək qeyri-mümkündür. Bununla bərabər konfransdan sonra imperialst dövlətləri Çin uğrunda mübarizəni gücləndirdilər. Vaşinqton konfransı həmçinin sovet dövlətinə qarşı çevrilmişdi. Konfransın qərarları vahid antisovet cəbhə yaradılmasında əməkdaşlıq yaratmağa kömək edirdi. Onlar Uzaq Şərqdə "hasar" yaratmaq və sovet ölkəsini mühasirəyə almaq istəyirdilər.

Vaşinqton konfransının qərarları bir sıra məsələlərdə tam müvəffəqiyyətsizliyə uğradı. Belə ki, Uzaq Şərqdə Sovet hakimiyyəti quruldu. Sovet Rusiyasının Sakit okean dövləti kimi rolu atmağa başladı. Çində milli azadlıq hərəkatının yüksəlişi də Vaşinqton konfransının qərarlarının möhkəm olmadığını göstərdi. Həmçinin Uzaq Şərqə aid ingilis-yapon və yapon-amerikan ziddiyətləri nəinki ləğv olunmadı, əksinə daha da artdı.

## ABŞ Kalvin Kulicin prezidentliyi dövründə

1923-cü ilin avqustun 2-də Alyaskaya səfəri zamanı Hardinqin ölümündən sonra vitse-prezident respublikaçı Kalvin Kulic onun yerini tutdu 1924-cü il prezident seçkilərində Kulic qələbə qazandı. Onun daxili siyasəti ölkə iqtisadiyyatının gücləndirilməsinə yönəldilmişdi. İri kapitala qoyulan vergi azaldıldı Kulic "ABŞ-ın işi biznesdir" şüarını irəli sürdü. İstehsal üzərində dövlət nəzarəti ləğv edildi. İri kapitala qoyulan vergi azaldıldı. Məcmu milli məhsul istehsalı 54% artdı. Dünya sənaye məhsulu istehsalında, ABŞ-ın payı 44,8 faiz təşkil etdi. İri biznesin özünü tənzimləmə sistemi təşəkkül tapdı. Çiçəklənmə illərində istehsala yeni texnika, texnologiya və konveyer sistemi tətbiq edildi.

Kulic hökuməti 1924-cü ildə yeni vergi qanunu qəbul etdi. Qanuna görə yüksək gəlirli şəxslərin ödəyəcəyi vergi 50 %-dən 40 %-ə endirildi. Dövlət borcu azaldıldı. Dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılması nətisəsində xüsusi biznes inkişaf etdi. İri biznesin özünü tənzimləmə sistemi təşəkkül tapdı.

Hökumət fermer təsərrüfatını inkişaf etdirmək məqsədi ilə onlara kredit verdi. Fermer təsərrüfatlarının problemlərinin həllinə başlanıldı. «Kənd təsərrüfatınının bərabərliyi» şüarı irəli sürüldü. 1924 – cü ildə kənd təsərrüfatı istehsalını genişləndirmək ideyası gücləndi. Hökumət fermer kooperasiyasını təşviq edərək onlara kredit verdi.

Həyat səviyyəsi yaxşılaşdı. Avtomobil, soyuducu, telefon, radio və başqaları gündəlik məişətə daxil oldu. İstehlak kreditləri sisteminin tətbiq edilməsi xalqın rəğbətini qazandı. 1924 – 1929 – cu illərdə ölkədə yeni həmkarlar təşkilatları yaradılması ətrafında



səylər genişləndi. Sahibkarlar kompaniyası həmkarlar ittifaqları yaratdılar. 20 – ci illərin əvvəllərində bu ittifaqların 1,5 milyon yzvü var idi. Müəssisə sahibləri ixtisaslı fəhlələrin əmək haqlarını artırmaq və pensiya tətbiq etmək yolu ilə sosial ziddiyətləri yumşaltdılar. Həmkarlar ittifaqlarının iştirakı ilə kreditverən fəhlə bankları yaradıldı. AƏF liderləri sinfi sülhün yaradılmasında mühüm rol oynadılar. Əlverişli iqtisadi şərait və bərabər imkanlar fəhlə sinfinin fəallığını aşağı saldı. Həmkarlar ittifaqları və fermer hərakatı zəiflədi. Sosial etiraz çıxışları azaldı. Bu isə ölkədə sosial gərginliyi zəiflətdi. Bütün bunlarla bərabər bu dövrdə "Ku-kluks-klan" təşkilatı yəhudilərə, zəncilərə, katoliklərə və mühacirlərə qarşı mübarizəni gücləndirdi. Onların başlıca məqsədi, ənənəvi ağ, kənd, protestant və anqlosakson Amerikasının qurulması idi.

Bu dövrdə ölkəyə mühacir axını son dərəcə artmışdı. Bu problemi həll etmək üçün 1924-cü ildə yeni mühacirət qanunu qəbul edildi. Şərqi Asiyadan mühacirət axını qadağan edildi, digər ölkələrdən mühacirət edənlərə isə məhdudiyyət qoyuldu.

Kulic hökuməti xarici siyasətdə proteksionizm tətbiq etdi. 1929 – cu ildə xarici ticarətin həcminə görə ABŞ İngiltərəni ötüb keçdi. Kulic hökumətinin xarici siyasəti xammal və satış bazarlarına yiyələnməyə doğru yönəldilmişdi. Avropa ölkələri ilə iki tərəfli münasibətlər inkişaf etdirildi. O, Almaniya ilə əlaqədar "Daues planı"nının qəbul edilməsinə nail oldu. borclar məsələsinə diqqət yetirdi. Böyük Britaniya, Fransa, İtaliya, Belçika və Çexoslavakiya ilə hərbi borcların bir hissəsinin ödənməsinə dair saziş bağlandı. 1923-1929-cu illərdə Latın Amerikası ölkələrinə yardımlar edərək bu regionda iqtisadi, siyasi və hərbi cəhətdən xeyli möhkəmləndi.

ABŞ – ın müharibəyə girməsinin on illiyi munasibəti ilə Fransanın xarici işlər naziri A. Brianın təşəbbüsü ilə 1928 – ci il avqustun 27 – də Parisdə Milli siyasətdə müharibələrdən imtina edilməsi barədə «Brian – Kelloq paktı» ( Kelloq ABŞ – ın dövlət katibinin adıdır) bağlandı.

ABŞ – ın xarici siyasətinin istiqamətlərindən biri Latın Amerikası və Kanada ilə münasibətlərin inkişaf etdirilməsi oldu. Meksika, Kuba, Mərkəzi və Cənubi Amerika ölkələrinə kapital

qoyuluşu artırıldı. Latın Amerikası ölkələrinə qoyulan kapital 5,7 milyard dollar təşkil etdi.

20 – ci illərdə ABŞ – Yaponiya münasibətlərində xeyli mürəkkəbliklər var idi. 1924 – cü ilin aprelin 16 – da ABŞ konqresi yapon mühacirlərinin ölkəyə gəlməsini qadağan edən qanun qəbul etdi. Buna baxmayaraq, amerikan xüsusi kapitalı Yaponiyaya istiqrazlar verirdi. Çinə münasibətdə "açıq qapılar" siyasəti yeridildi. ABŞ-ın Filippin və Havay adalarında hərbi-strateji mövqeləri möhkəmləndi. Bir sözlə, Kulicin hakimiyyəti illərində ABŞ-ın beynəlxalq nüfuzu xeyli gücləndi.

### *ABŞ dünya iqtisadi böhranı dövründə (1929-1933-cü illər)*

1928-ci ildə prezident seçilən respublikaçıların liderlərindən olan Herbert Huverin "çiçəklənmə" və "ABŞ kapitalizminin müstəsnalığı" siyasəti özünü doğrultmadı. Onun prezidentliyi dövründə "ciddi fərdiyyətçilik" və "şəxsi təşəbbüsə yol verilməsi" prinsipləri yeganə prinsip oldu. Huver hökuməti daxili siyasətdə yoxsulluğu aradan qaldırmaq üçün plan işləyib hazırladı. Lakin başlanan dünya iqtisadi böhranı bu planın həyata keçirilməsinə mane oldu. ABŞ Huverin dövründə dolların sabit valyuta kimi tanınması və onun beynəlxalq pul vahidinə çevrilməsinə nail oldu.

20-ci illər ABŞ tarixində «prosperiti» yəni «çiçəklənmə» adlandırılır və göstərilirdi ki, guya ABŞ kapitalizmi «xüsusi», «müstəsna» vəziyyətdədir və digər kapitalist ölkələrinin inkişafı yolundan kökündən fərqlənən öz yolu ilə gedir.

1928-ci ilin seçkilərində ölkəyə hakimlik edən respublikaçılar partiyası lovğalıqla tam maddi firavanlıq, biznesə isə qızıl əsr vəd edirdi. Prezident seçilmiş keçmiş ticarət naziri Huver bildirdi ki, iqtisadi böhranların sonu çatmışdır. Həyat tez bir zamanda yalançı «ümumi firavanlıq» nəzəriyyəsini bütünlüklə təkzib etdi. Çünki hadisələrin axarı başqa çür idi. ABŞ kapitalizimi daxilində tədricən dərin iqtisadi sarsıntıların yeni ilkin şərtləri yetişirdi. Sənaye tam gücü ilə işləmirdi, onun bəzi sahələri isə durğunluq səviyyəsində idi. Kənd təsərrüfatı uzun çəkən böhran keçirirdi. Ölkədə 2-3 milyon nəfər işsiz var idi. Əhalinin gələcək gəlirləri hesabına nisyə satışların miqdarı arası kəsilmədən artırdı. Kütlələrin alıcılıq qabiliyyətinin



azalması məhsulun satılması probleminin kəskinləşməsindən xəbər verirdi. Bütün bunlar böhranın inkar edilməzliyni nəzərə çatdırdı. Tezliklə böhran bütün kapitalizim dünyasını bürüdü. 1929-cu ilin oktaybrın 24-də Nyu-York birjasındakı iflas dağıdıcı qüvvəsinə görə misli görünməmiş iqtisadi böhranın başlandığını bildirdi.

1929-1933-cü illərin iqtisadi böhranı kapitalizmin bütün tarixi boyu ən dərin böhran kimi səciyələndirilə bilər. Demək olar ki, dörd il ərzində kapitalist ölkələrinin iqtisadiyyatı tam təşkil edilə bilməyəcək durğun bir vəziyyətdə qalmış odu.

1929-cu ilin oktyabr ayının 24-də dünya maliyyə mərkəzi olan Nyu-Yorkun birjalarında 12,8 milyon səhm satıldı ki, buda əvvəlkidən 1,5 dəfə çox idi. Oktyabr ayının 29-da isə satılan səhmlərin sayı 16,4 milyona çatdı. qiymətli kağızların kursu sürətlə aşağı düşməyə başladı. Əgər 1929-cu ilin 1-də səhmlərin dəyəri 87 milyard dollar idisə, cəmi bir ay sonra 0,55 milyard dollara yendi. belə sürətlə azalma daha üç il davam etdi. 1933-cü ilin martına qədər 1929-cu illə müqayisədə səhmlərin dəyəri 4,5 dəfə azaldı.

Dünya iqtisadi böhranı aparıcı kapitalist dövlətlərinin iqtisadiyyatını ən azı bir rüb geri atdı. Dünya sənaye istehsalının həcmi 38%, ticarətin həcmi 30%, kənd təsərrüfatı məhsullarının istehsalı 30% azalmış oldu.

Dünya bazarında rəqabət kəskinləşərək ticarət müharibəsi xarakteri almağı başladı. Təkcə 1929-1934-cü illərdə 76 ölkə gömrük vergilərini artırdı.

Ticarət rəqabətinin artması ilə əlaqədar ölkələr arasındakı maliyyə əlaqələrinin ənənəvi əsasları pozulmuş oldu. İnfiliyasiya ABŞ-ı dolların qızıl standartından əl çəkməyə məcbur etdi. Nəticədə 56 dövlətin dollarla bağlı valyutası qiymətdən düşdü. 1932-ci ilin əvvəli üçün tam işsizlər 26 mln., işini tamam itirməyənlərlə birlikdə 36 mln. nəfərə çatdı.

Dünya iqtisadi böhranı beynəlxalqlar iqtisadi münasibədlər sahəsinə də əhəmiyyətli dəyişikliklər gətirdi. Məhz bu dövürdə Versal-Vaşinqiton siyasi sisteminin əməli iflası başlandı. İqtisadi böhran fərdiyyətçilik, şəxsi təşəbbüs və sahibkarlığın hüdudsuz azadılğı ideyalarının parlıtısını söndürmüş oldu.

ABŞ-da böhran ölkənin təsərrüfat həyatında böyük sarsıntıya səbəb oldu. Böhranın nəhəng dağıdıcı qüvvəsi hər şeydən əvvəl sənaye istehsalının azalmasına səbəb oldu 1929-cu ilin oktaybr

ayının 24-ə qədər olan dövrlə müqayisədə ABŞ-da sənaye məhsul istehsalının ümumi həcmi 1930-cu ildə 80,7% -ə, 1931-ci ildə isə 68,1%-ə endi. 1932-ci ilin yayından 1933-cü ilin yazınadək böhranın daha da dərinləşdiyi müşahidə edilirdi.

Ağır sənaye sahəsində böhran xüsusi ilə güclü idi. 1929-32-ci illərdə ABŞ-da kömür istehsalı 535 mln. tondan 310 mln. tona, polad əridilməsi 61,7 mln. tondan 15.1 mln. tona enmişdi. Başqa sözlə desək, dörd dəfə azalmışdı. Çuqun əridilməsi isə 1896-cı il səviyyəsinə enmişdi. 285 domna sobasından cəmi 46-sı işləyirdi.

Böhran ölkənin bank sisteminə də güclü təsir göstərdi. 1929-1932-ci illərdə ölkədə 5660 bank fəaliyyətini dayandırdı ki, buda bütün bankların 1/5-i demək idi. Böhranın sosial nəticələri daha acınacaqlı idi. Öləkənin milli gəliri 1929-cu ildə 86,5 milyar dollar təşkil edirdisə, 1933-cü ildə bu rəqəm 40,3 milyar dollara enmişdi. Artıq 1931-ci ildə ABŞ-da korparasiyalar öz balansını 487 milyon dollar itki ilə başa vurdular.

Böhran biznes üçün uzun sürən fəlakət oldu. Böhrandan aşağı təbəqələr, xüsusi ilə fəhlələr daha çox əzab çəkməli oldular. Böhranın dərinliyi və davamlılığı vahimə doğrurdu. Avropa ölkələrindən fərqli olaraq ABŞ-da sosial sığorta sisteminin olmaması vəziyəti daha da ağırlaşdırdı. Amerikalılarda o vaxtı belə bir psixologiya formalaşmaşdar ki, hər bir fərd həyatda ancaq özünə arxalanmalıdır, dövlətə ümüd etməməlidir. Onlar cətin vəziyyətdə ancaq xeriyyəçilərə ümüd bəsləyə bilərlər. Böhran illərində onların psixologiyasıda dəyişiklik yarandı. Onların diqqəti dövlətə yönəlməyə başladı. Böran illərində meydana çıxan ən böyük kütləvi hərakatlar dövlətin köməyini tələb edirdilər.

On minlərlə zavodun, fabrikin, müəssisələrin və digər istehsal sahələrinin bağlanması işsizliyin kütləvi sürətdə artmasına səbəb oldu. 1933-cü ilin statistik məlumatlarana əsasən ABŞ-da tam işsilərin sayı 12830 min nəfər idi. Lakin ABŞ-ın mütərəqqi iqtisadçılarının dəqiq hesablamasına görə, 1933-cü ildə ABŞ-da işsizlərin dəqiq sayı 16,9 milyon nəfərə çatmışdı. Bu o demək idi ki, ABŞ-da işləyən hə üç nəfərdən biri işsiz qalmışdı. Nisbi işsilik getdikcə daha geniş miqyas alırdı.

Amerika Əmək Federasiyasının üzvlərindən 1932-ci ilə tam işlə cəmi 10%-i məşğul olurdu. Böhranın başğlancından, xüsusi ilə 1931-ci ilin ikinci yarısından başlayaraq əmək haqqı sürətlə aşağı



düşməyə başladı. 1929-cu illə müqayisədə 1993-cü ilədə əmək haqqı 30% aşağı düşmüşdü. Ümumi əmək haqqı fondu böhran illərində 30% aşağı endi.

Fermerlərin də vəziyyəti xoşa gələn deyildi. Fermer təsərrüfatı iflas vəziyyətə düşdü. Fermerlər içərisində həyat səviyyəsinin aşağı olma faizi 1932-ci ildə 92%-ə qalxdı. Kənd təsərrüfatı məhsullarının qiyməti sürətlə aşağı düşməyə başladı. 1929-1934-ci illər ərzində borc və vergini ödəyə bilmədiyinə görə 897 fermer təsərrüfatı, başqa sözlə, ölkədəki fermer təsərrüfatların 14%-i satılmışdı.

Fermerlərin iflasa uğraması onların yenidən icarədarlara çevrilməsinə və onların yenidən yarımnatural təsərrüfat formasına keçməsinə səbəb oldu. Həmçinin fermerlərin içərisində ailələri ilə birlikdə birlikdə böyük bir işsizlər ordusu yarandı ki, onlarda iş axtarmaq üçün bütün ölkəni dolaşmağa başladılar.

1931-ci ilin payızında sənaye və aqrar böhranın daha da dərinləşməsi maliyyə böhranına səbəb oldu. Böhran ən kəskin səviyyəyə 1933-ci ilin fevral-martında çatdı. Ölkənin banklarının məhvi dalğası bürüdü. Milyonlarlı xırda əmanətçilər-fəhlələr, fermerlər, şəhərin orta təbəqəsinin nümayəndələri özlərinin son ehtiyatlarını itirdilər və dilənçilərə çevrildilər.

Demək lazımdır ki, ən dəhşətli zərbə zəncilərə dəydi. Zəncilərdə yoxsullaşma prosesi dahə sürətlə getdi. Yüz minlərlə zənci çox milyonlu işsilər və evsizlər ordusuna çevrildi. Ölkədə irqiçilik gücləndi. Təkcə rəsmi məlumatlara görə, 1929-1933-cü illərdə 69 zənci üzərində məhkəmə prosesi olmuşdur.

Ölkədəki faciəli vəziyyət 30-cü illərin Amerika ədəbiyyatında da öz əksini tapmışdır. Məsələn bu illərdə məhşur Amerika yazıçısı Teoder Drayzerin «Amerika faciəsi» meydana gəldi.

1929-1933-cü illər böhranı təkcə Amerika kapitalizminin sosial –iqtisadi əsaslarına toxunmaqla qalmadı. O, həmçinin milyonlarla amerikalıların şüuruna psixoloji təsir göstərdi, kütləvi srürətdə koklü dəyişikliklərə səbəb oldu. O, həlledici şəkildə biznesə zərbə endirdi və 20-ci illərdəki kapitalist «çiçəklənməsi» haqqındakı ideyaları alt-üst etdi. İndi kütləvi psixologiya iqtisadi böhranın günahını «sənaye kapitalında» görməyə başladı. Böhran göstərdi ki, iri biznesin təşkiledici rolu daimi deyilmiş.

İqtisadi böranın ən yüksək zirvəsinə çatdığı bir dövürdə amerikalılar artıq öz kapitalist sistemlərinin ədalətli və müdrük

olduğuna şübhə etməyə başladılar. Ancaq bir şey aydın idi ki, «Amerika həyat tərzinə» ümüdi şübhə əvəz etmək üzrədir.

XX əsrin 30-cu illərinin əvvələrində ölkədə siyasi şəraitin də kəskinləşdiyi də açıq hiss olunurdu.

1929-1933-cü illər iqtisadi böhranı ABŞ-ın hakim dairələri qarşısında sosial iqtisadi, siyasi və ideoloji problemləri həll etmək zərurətini qoydu. Ölkənin iqtisadi mexanizminin tam laxlaması, kütləvi işsilik, fermerlərin müflisləşməsi, milyonlarla sadə amerikalıların aclıqdan və yoxsulluqdan əzab çəkməsi, brujaziyanın öz içərisində vəziyyətlə bağlı həyacanlar inadla tələb edirdi ki, bütün real imkanlar səfərbərliyə alınsın və böhranın nəticələri aradan qaldırılsın. «Sərt fərdiyyətçiliyə» yenidən «nəzər» salınmağın vacibliyini vəziyyət tələb edirdi.

Eyni zamanda lazım gəlirdi ki, dövlət iqtisadi və sosial münasibətlərə fəal müdaxilə etsin. Ölkədə ziddiyətlərin kəskinləşməsinin bir səbəbi də ABŞ inhisarçı brujaziyasının, fərdiyyətçilik idealogiyasının bayrağı altında istədiyinə nail olması, dövlət nəzarətindən uzaqlaşması idi. Onların əksəriyyəti yenə də fərdiyyətçilik nəzəriyyəsinin təsiri altında qalaraq əvvəlki mövqelərində dayanırdılar. Bir qismi isə özünü idirmiş və bundan sonra nə edəcəyini müəyyənləşdirməyi bacarmırdı.

«Sərt fərdiyyətçilik» prinsipinə sadiq qalaq Huverin inzibati idarəsi bütün böhran boyu sosial-iqtisadi prosesləri tənzimləməkdə dövlətin rolundan istifadə etməsinə qəti etirazlarını bildirirdilər. Onlar inadla belə bir nöqteyi-nəzərdə durudular ki, ABŞ-ın iqtisadi mexanizmi sağlamdır, amerkan biznesinin işinə qarışmaq, onu dövlət inhisarçı kaptalizminə çevirməklə «sosializmə» yol açıla bilər.

Uzun müddət Huver və respublika hökumətinin başqa nümayəndələri böhranın ciddiliyi fikiri ilə raılaşmaq istəmirdi.

Önlar hər ay öz rəsmi bəyanatlarında bildiridilər ki, ABŞ heç bir iqtisadi böhran keçirmir, Avropadakı hadisələrlə bağlı müvəqqəti çətinliklər vardır ki, o da ölkə biznesinin koməyi ilə aradan qaldırılacaqdır.

Lakin 1933—cu ildə artıq çox az adam şübhə edirdi ki, kapitalist dünyası çox ağır iqtisadi böhran içərisindədir. Lakin Huver amerka bankirləri assosasiyasının qurultayındakı nitqində göstərmişdir ki, 1929-cu ildə ABŞ-da baş verən hadisələr bu böyük millətin çiçəklənməsində hər şeydən öncə, müvəqqəti fasilədir.



Hətta sərt həqiqət prezident və onun tərəftarları qarşısında ABŞ-dakı iqtisadi vəziyyətin ciddiliyini qoyduqda da Hulver və respublika inzibati aparatının digər nümayəndələri «fərdiyyətçilik» idealogiyasında qalaraq belə fikirləşirdilər ki, ancaq biznes və başqa iqtisadi qrupların köməyi və iştirakı ilə bu vəziyyətdən yaxa qurtarmaq olar. Məsələn, 1930-cu ilin dekabrında prezident ölkədəki vəziyyət haqqında konqresə göndəriyi məktubunda bildirdi ki, iqtisadi durğunluq qanunverici orqanın təsiri və inzibati idarələrin sərancamı ilə həll edilə bilməz.

Bu «fərdiyyətçilik» fəlsəfəsi prezident kürsüsündə əyləşdiyi son günədək Huverdə davam etmişdir. Bunu onun 1932-ci ildə konqresə göndərdiyi sonuncu məktubda sübut edir. Məktubda göstərilirdi ki, biz fərdiyyətçiliyin xüsusi sistemini təşkil etmişik, buna dövlət dəyişiklik etməməlidir. Sosial və iqtisadi qüvvələrin axınına sərbəst imkan yaratmaq vacibdir. Vətandaşlarda təşəbbüskarlıq hissini söndürəmk olmaz. Fedaral hökumət heç kimə və heç bir sosial qruppa üstünlük vermir. Onların hamısı öz qüvvələrini mərkəzləşdirməli, cəmiyyətin iqtisadi və sosial həyatının iştirakçısı olmalıdırlar.

Məhz, ona görədə, Hulver 1929-cu ilin noyabrında «iqtisadi qrupların könüllü koorparasiyası» təşkil etmişdi. Prezident biznes nümayəndələrini inandırdı ki, onlar əmək haqqlarını əvvəlki qaydada saxlasınlar. Eyni zamanda AƏF-nin rəbər nümyaəndələri danışıqlar apardı ki, fəhlələrin tətil etməsinə yol verməsinlər. Bütün bunlar «milli birlik» naminə edilməli idi. Xüsusi kapital qoyuluşunu stumullaşdırmaq və işguzar fəallığı canlandırmaq üçün respublika iqtisadi aparatı federal ehtiyatlar sisteminin fəaliyyətini fəallaşdırmağa yönəldilən təcili tədbirlər planı qəbul etdi. Korporasiylaırn gəlirə görə vergiləri konqresin 1929-cu ildə qəbul etdiyi qanuna görə azaldıldı.1930-cu ilin iyununda protoksionizm siyasətinə himyəadarlıq etmək üçün yeni tarif qanunu – Xoul-Sumt qanunu qüvvəyə mindi.

Lakin bütün bunlar böhranın qarşıyı qoyduğu problemləri həll etmədi.

Ümumiyyətlə,1929-1933-cü ilin iqtisadi böhranının ABŞ tarixində anoloqu olmadığından Huver hakimiyyətinin gördüyü tədbirlər onun nəticələri aradan qaldıra bilmədi.

Huverin inhisarçıları dilə tutmasına baxmayaraq onlar fəhlələrin əmək haqqları 1931-ci ilin payızında azaltamağa başladılar. İşgüzar dairələr 1931-ci ilin sentyabrında yekdiliklə bildirdilər ki, Huverin ekspermenti tam məğlubiyyətlə nəticələnmişdir.

Böhran şəraitində «sərt fərdiyyətçilik» ideologiyasının anti xalq, inhisarpərəst mahiyyəti daha da aşkara çıxdı. Həm prezident Huver, həmdə onun kabinetinin görkəmli xadimləri – maliyyə naziri Mellon, ticarət naziri R. Lamont xüsusi ilə çalışırdılar ki, biznesi situmullaşdırsınlar, xüsusi sahibkarlıq təşəbbüsünü inkişaf etdirsinlər, inhisarlar daha az itkiyə məruz qalsınlar. Eyni zamanda onlar dövlətin işsizlərə koməyi və xüsusi sosial sığorta haqqında istənilən təklifi qətiyyətlə rədd edirdilər. Onlar göstərirdilər ki, bu işlə xeyriyyə cəmiyyətləri məşğul olmalıdrlar. Həm də onlar qeyd edirdilər ki, bu məsələlərə ştatların özlərində yerli səviyyədə baxmaq lazımdır.

Əhali arasında narazılığın artması Huver hökumətini məcbur ediki, 1930-1931-ci illərdə bir birinin ardınca məşğulluq məsələləri üzrə iki məsləhət komitəsi təşkil etsin. Lakin bu orqanların heç birinin qarşısında işsizliklə real mübarizə aparmaq üçün konkret vəzifə qoylumamışdı. Onlar ancaq sahibkarlara, xeyriyyə cəmiyyətlərinə və yerli hakimiyyət orqanlarına müraciət edə bilərdilər ki, işsizlərə kömək tədbirlərini fəallaşdırsınlar. Bu orqanların fəaliyyətinin əslində heç bir pozitiv nəticəsi olmadı.

İşsizlərə dövlət köməyi göstərmək haqqında mütərəqqi respublikaçılar və sol demokralar tərəfindən irəli sürülmüş daha cəsarətli planlar müntəzəm sürətdə konqress tərəfindən rədd edilirdi. Hətta, 1932-ci ilin fevralında- böhran kəskinləşdiyi bir dövrdə senat kiçik R.Lafolettin və E. Kostiqanın qanun layihələrini rədd etdi.

Hansı ki, bu qanun layihəsində işsizlərə bir başa 375 mln.dollar dövlət yardımı göstərilməsi nəzərdə tutulmuşdu. Yalnız 1932-ci ilin iyul ayında seçki kampaniyası zamanı, növbəti bir qanun qəbul edildi ki, ştatların fedaral büdcəsindən 300 mln. dollar ayrılaraq işsizlərə pul yardımı göstərilsin.

Konqres həmçinin belə sanksiya da verdi ki, təşkilatlara ictimai iş üçün 322 milyon ştatların istiqrazlarından dollar həcmində ayrılsın.



Bu aktları imzalamaqla əslində Huver öz siyasətinin iflasa uğradığını təsdiq etmiş oldu. Lakin respublika hökuməti təsdiq etdiyi qanunları həyata keçirməyə tələsmədi. Bu məsələ üçün 1932-ci ilin sonuna qədər cəmi 32 mln. dollar ayrılmışdı.

Huverin aqrar siyasəti də dövrün tələblərinə cavab vermirdi. Doğrudur ki fermerlərin tələbi əsasında 1929-cu ilin iyununda kənd təsərrüfatı məhsullarının satışı haqqında qanun qəbul edildi. Bu qaunun əsasında xüsusi hökumət agentliyi- Federal fermerlər idarəsi təşkil edildi, hansı ki, kənd təsərrüfatı bazarının sabitləşdirilməsnə nail olmaq üçün fermerlərə kömək etməyi qarşısına məqsəd qoymuşdur. Bu işin həyatın keçirilməsi məqsədi ilə 500 milyon dollar ayrılmışdı.

Sənaye istehsalının azalmağa başlaması ilə əlaqadar olaraq aqrar böhranın dərinləşməsi fermer idarələrini daha qəti tədbirlər görməyə vadar etdi. Bu məqsədlə 1930-cu ilin fevralında Sabitləşmiş Taxıl Korporasiyası, iyun ayında isə pambıq üzrə sabitləşmiş korporasiya təşkil edildi. Onlar fəal əməliyyatları 1931-ci ilin ortalarına qədər davam etdirdilər. Bu dövrdə dövlət ambarlarına 257 milyon taxıl yığılmış oldu. Fermerlərin yuxarı təbəqəsi yaxşı gəlir əldə etdi. Onların əlində xeyli sərvət toplandı. Lakin 1931-ci ilin ikinci yarısından fermerlərin əsas kütləsinin vəziyyəti pisləşməyə başladı.

1929-cu il müşavirəsindən dərhal sonra hökumət bizneslə daha sıx əməkdaşlıq etəmək üçün çevik tədbirlər görəmyi planlaşdırdı ki, biznesmenlərin işgüzar fəallığını stimullaşdırsın, həmçinin kapital qoyluşu proqramını reallaşdırsın.

1931-ci ilin payızında respublika inzibati aparatının maliyyə-iqtisadi siyasətin yeni mərhələsi başlandı. Təsərrüfat mənafelərinin pişləsməsi, kredit-maliyyə böhranın dərinləşməsi, iri bankların iflası bütün bunlar Huver hökumətini məcbur etdi ki, «sərt fərdiyyətçilik» prinsipindən müəyyən dərəcədə geri çəkilsin, birbaşa inhisarları müdafiə etsin. 1931-ci ilin oktyabrında o, Milli korporasiya yaratmaq təşəbbüsü ilə çıxış etdi və bu sahə üçün 500 mln.dollar pul ayırdı ki, bu bank qruplarının könüllü verdiyi üzvlük haqqlarından yığılmalı idi. İnhisarçı maliyyə idarələrinin xilas etəmək üçün iri dövlət fondları fəaliyyətə başladı. 1932-ci ilin yanvarında konqress maliyyə korporasiyasının yenidən təşkili haqqında qanun verdi.

İlk başlanğıcda onun 2 milyard dollar kapitalı olmalı, sonra bu tədricən artmalı idi. 1933-cü ilin martına qədər Huver hökuməti korporasiyaya 2.1 milyar dollarlıq istiqraz verdi ki, onun da 3/2 hissəsi bankların əlində toplaşdı.

Yuxarda qeyd etdiklərimiz bir daha sübut edir ki, 1929-1933-cü illərin iqtisadi böhranı dövründə ABŞ hökuməti yenidən dövləti –inhisarçı meylləri gücləndirməyə cəhd etmişdir.

Huver hökuməti vaxtında iqtisadi vəziyyətin dəyişdiyinə düzgün siyasi qiymət verməyi bacarmadı. ABŞ-ın inkişafının obyektiv yolunu tapmaqda çətinlik qarşısında qaldı. 30-cu illərin əvvəllərində ABŞ-ın hakim dairələri qarşısında belə bir vacib məsələ dururdu ki, «böyük böhranın» zərbə sarsıntılarından azad olsun, həmçinin kapitalizim qurluşunu xilas edib möhkəmləndirsin.

İqtiadi böhranın ağır zərbələri, hansı ki, ölkənin uzun müddətdir ki, bürümüşdü, milyonlarla zəhmətkeşlərin ehtiyac və fəlakətini daha da kəskinləşdirdi. 30-cu illərin əvvəllərində kütləvi fəhlə və demokratik hərakatın meydana gəlməsi üçün şərait yaratdı.

Doğrudur müəyynə müddət ABŞ-da fəhlə sinifi hələ vəziyyətin mahiyyətini dərk edə bilməmişdi. Bu qanunauyğun idi. Çünki, onun təşkilatçılıq səviyyəsi çox aşağı idi. Hələ 20-ci illərin sonunda fəhlələrin cəmi 10%-i həmkarlar təşkilatının üzvü idi. Sənayenin əsas sahələrində əvvəlki kimi «açıq sex» sistemi ağalıq edirdi. Tred-yunan təşkilatları, hansı ki, fəhləlrin maddi vəziyyətini müdafiə edən əsas təşkilatlar idi, onlar 20-ci illərdə böyük çətinliklərlə qarşılaşırdılar. Əgər 20-ci illərdə ölkənin həmkarlar təşkilatında 5034 üzv vardırsa, 1929-cu ildə onların sayı daha da azaldı. 1933-cü ildə onların sayı cəmi 2857 min idi.

Şübhəsiz ki, fəhlə sinifinin ABŞ-da təşkilatlarda cəmləşməsi onun sosial tələblər uğrunda mübarizəsinə mənfi təsir göstərirdi. Amerika əmək fedarasiyasınn üzvləri inhisarların fəhlə sinifi üzərinə hücumunun qarşısını almaq üçün heç bir ciddi addım atmağı bacarmırdılar. Onlar hətta fəhləlrin ən elementar tələblərini də müdafiə etmədilər. 1932-ci ilə qədər onlar işsizələrə və dövlət sığortası haqqında təklifləri qəti rədd edirdilər. Həmkarlar təşkilatlarının bir çoxu Amarika Əmək Fedarasiyasının tərkibindən çıxmağa başladı. Müstəqil həmkarlar təşkilatının sayı artmağa başladı.



1929-1933-ci illərdə AƏF üzvlərinin sayı 2934 mindən 2127 minə endi və ya 28% azaldı.

1930-cu ilin rəsmi məlumatına görə, ölkədə cəmi 183 min fəhlə tətil etmişdi. Nəhayət fəhlələr hadislərə düzgün qiymət verməyi bacardılar. Onlar sahibkarlara qarşı fəal mübarizəyə başladılar. Artıq 1931-ci ildə ABŞ tətilçilərinin sayı 342 min nəfərə çatdı. 1932-ci ildə də bu vəziyyət qalmaqda idi.

İşsizlər hərakatı daha geniş vüsət aldı. Onlar əhalinin təxirəsalınmaz tədbirlərinin dərhal həyata keçirilməsini tələb edirdilər. İşsizlər hərəkatı ABŞ fəhlə sininfinin ilk kütləvi çıxışı idi. 1930-cu ilin mart ayının 6-da işsizliyə qarşı kütləvi nümayiş keçirlidi. Yüz minlərlə fəhlə Nyu-Yorkun, Çikaqonun və digər sənaye mərkəzlərinin küçələrinə çıxdı. Həmin gün 1250 min nəfər yaxın fəhlə çıxış etdi.

İşsizlərin yerli şuralarının yaranması prosesi gücləndi. Onlar yerli hökumətdən tələb edirdilər ki, işini itirmiş fəhlələrə kömək etsinlər. 1930-cu ilin iyununda Çikaqoda işsizlərin birinci ümummilli qurultayı keçirildi. Qurultayın nümayəndələri ölkənin müxtəlif ərazilərindən gəlmişdilər. Qurultay işsizlərin Milli Şurasını yaratdı və bu işsizlər hərakatının nüfuzlu orqanına çevrildi.

Kominstlər tərəfindən təşkil olunmuş çox saylı fəhlə nümayişlərini və işsizlərin ölkənin müxtəlif rayonlarında aclıq yürüşlərini zəhmətkeşlər müdafiə edirdilər. Ən iri aclıq yürşlərindən biri 1930-cu ilin oktyabrında Nyu-Yorkda, onun ardınca isə Çikaqoda oldu. 1931-ci ilin fevral mart ayında başlayaraq kütləvi şəkildə ölkənin müxtəlif yerlərində başlanan bu hərakat tezliklə 11-ə qədər ştatı əhatə etdi.

1931-ci ilin dekabr ayının 7-də konqresin növbəti açılışı günü yürüş iştirakçılarının böyük bir qrupu ABŞ paytaxtının küçələrindən keçdilər. Onlar həm konqresdən həm də ölkə prezidentindən tələb etdilər ki, işsizlərə kömək üçün təcili tədbirlər həyata keçirsinlər.

ABŞ-da sinifi mübarizənin daha mühüm təzahürlərindən biri də birinci dünya müharibəsi veteranlarının 1932-ci ilin yayında Vaşiqtona yürüşləri oldu. Keçmiş əsgərlər, zəncilər və ağlar öz ailələri ilə birlikdə Vaşinqtona yollandılar ki, prezidentdən onlar üçün müəyyən edilmiş qanuni güzəştlərin ödənilməsini tələb etsinlər. Bu qanun 1925-ci ildə qəbul edilsə də, kompensasiyaların ödənilməsi 1945-ci il üçün nəzərdə tutulurdu. Lakin veteranlar maddi

vəziyyətlərinin ağırlığı ilə əlaqadar onun tezliklə ödənilməsini tələb edirdilər.

Müharibə iştirakçılarının birinci dəstələri 1932-ci ilin mart ayında gəlib çıxdılar, iyunun ortalarına qədər onların sayı 24 minə çatdı.

Nümayəndələr palatası əksər səslə veteranların tələbi ilə razılaşmaq qərarına gəldi. Lakin senat Huverin təkidi ilə bu təklifi rədd etdi. Bu veteranları həycanlandırdı onlar mübarizəni davam etdirdilər. Onlar həmçinin yeni bir tələb də irəli sürdülər ki, bu da sosial sığortanın həyata keçiriləsi tələbi idi. Hökumət məsələyə ciddi yanaşmağa məcbur oldu. 1932-ci il iyul ayının 28-də Huverin əmri ilə Amerikan ordusunun ştab rəisi genaral Makarturun rəhbərliyi ilə veteranlara qarşı qoşun göndərildi. Hərakat qısa, lakin amansız oldu. Bütün veteranları güclə Vaşinqtondan çıxardılar, onların yerləşdikləri düşərgələr isə yandırıldı. Lakin veteranlara qarşı edilmiş bu amansızlıq zəhmətkeşləri qorxutmadı.

İşsizlər hərakatı daha böyük vüsət aldı. 1932-ci ilin dekabrında Vaşinqton sakinləri paytaxtın küçələrində ikinci milli aclıq yürüşünün iştirakçılarını da qarşıladılar. Onlar tələb edirdilər ki, konqres fəhlə və fermərlərin vəziyyətini yaşılaşdırmaq üçün fövqaladə tədbirlər görsün. 30-cu illərin əvvələrində sosialistlər və həmkarlar rəhbərlərinin yeni müxalifət qurumu-fəhlə alyansı təşkil etmək ideyasını irəli sürdülər.

Ölkədə sürətlə sol mövqedə dayanan həmkarlar ittifaqının sayı və nüfuzu armağa başladı. Onun 1933-cü ildə 100 min nəfər qədər üzvü vardı.

Sosial etirazların kütləvi hərakatı təkcə milyonlarla fəhləlri əhatə etmirdi. Demokratik antiinhisar hərakatının fəal iştirakçıları kimi fermerlərin geniş təbəqələri də çıxış edirdilər. Ölkədə fermerlər təşkilatı təsis edildi. Bu təşkilat başqa fermer təşkilatlarından fərqli olaraq təkcə aqrar brujaziyanın deyil, xırda fermerlərində mənafeyini müdafiə edirdi. Fermerlərin birinci iri çıxışı 1931-ci ilin yazında başladı. Bu hərakat Ayovada malların vərəm xəstəliyinə tutulması və onlara qarşı tədbirlərin görülməməsi nəticəsində təzahür edirdi. Bu, özünə məxsus «inək müharibəsi» fasilələrlə 1931-ci ilin sentyabrına qədər davam etdi. Lakin bu hərakatında polis və milli qvardiya ilə silahlı toqquşması oldu. Hərakat iştirakıçlarını ən çox qıcıqlandıran səbələrdən biridə bu idi ki, bu mallar ucuz qiymətə müəyyən



müəssisələrə verilir və onlardan müxtəlif məhsullar hazırlanıb əhaliyə satılırdı. 1932-ci ilin yayında, yəni iqtisadi böhranın dahadə dərinləşdiyi bir dövürdə fermerlər hərakatınında yeni bir mərhələsi başlandı. Fermerlərin ayrı-ayrı çıxışları açıq mübarizəyə keçdi. Bu mübarizə formalarından ən çox istifadə edilən fermer baykotu oldu. 1932-ci ilin mayında Ayova ştatındakı Do-Moyne şəhərində konqress keçirildi.

Konqress öləkənin bütün fermerlərinə müraciət etdi ki, kənd təsərrüfatı məhsullarının qiyməti artırılmasa, onu satmasınlar. Baykot hərakatına rəhbərlik etmək üçün xüsusi təşkilat fermerlərin tətil assosasiyası təşkil edildi. Fermerlər kənd təsərrüfatı məhsullarını satmaqdan imtina etəmyə başladılar. Güc və hədə ilə hakimiyyət fermer hərakatını zəifllədtəməyə və 1932-ci ilin oktyabrında onun qarşısını almağa nail oldu.

Bununla belə 1932-ci ilin sonu 1933-cü ilin əvvəlilərində bu hərakat yenidən başlandı. Mübarizə artıq gündəlik formaya keçdi. Konqress tələb etdi ki, təcili sürətdə fermerlərə komək etmək üçün dövlət fondu yaradılsın, orada 500 milyon dollar olsun ki, fermerlər borcu və vergini ödəsin. Bu məsələni həyata keçirmək üçün Milli Fermer Hərakatı komitəsi yaradıldı. Bu fermer hərakatının sol qüvvələrin kordinasiya rolunu oynamalı idi.

1933-cü ilin yazına yaxın fermer hərakatının əhatə dairəsi daha da genişləndi. Ümumilli fermerlərin tətillərinin keçirilməsi populyar xarakter aldı.

Sosial etiraz hərakatı tədricən qara dərili amerikalılrı da əhatə etdi. Onlar da ağlarda birlikdə hərakatın fəal iştirakçılarına çevrildilər. Cənub ştatlarında zəncilər daha çox olduğundan burada onların mübarizəsi daha çox nəzərə çarpırdı. Lakin iri torpaq sahibəlri Cənubda bu hərakatı hər vasitə ilə sarsıtmağa çalışırdı.

Kütləvi sosial hərakatın güclü inkişafı ölkədə kəskin siyasi şərait yaratdı. «İşsizlərin nümayişləri», tətillər, müharibə veteranlarının yürüşləri, ölkə qarşısında sinifi mübarizənin daha da kəskinləşməsi prespektivini açdı.

ABŞ inhisarçı brujaziyasının xilası vacib məsələ kimi dövlətin qarşısında idi. Çünki milyonlarla fəhlələr, fermerlər, şəhər əhalisinin orta təbəqəlri bu hadissələrdə başlıca günahkar inhisarçıları görürdülər.

İri kapital yenə də əsas tənqid obyektinə çevrildi. Həmçinin böhranın dağıdıcı təsiri, bütün ağırlığını zəhmətkeşlərin çiyninə düşməsi xalqda bu sistemin ədalətliliyinə qarşı şübhə yaratdı. Vacib amillərdən biri də o idi ki, ölkədə əsas hakim burjuaziya partiyalarının fəaliyyətinə qarşı böyük bir inamsızlıq meydana gəlmişdi. Huver hökumətinin qeyri-qənaətbəxş sosial-iqtisadi siyasəti tamamilə xalqın nəzərində respublikaçılar partiyasının nüfuzunu aşağı salmışdı. Lakin demokratlar 30-cu illərin əvvəlində heç bir konkret təklif irəli sürə bilmirdilər. Ona görə də, Amerika hökumətinin radikal dairələrində belə bir populyar ideya yaranmışdır ki, üçüncü bir partiya yaradılmasına ehtiyac vardır.

Daha mütərəqqi üçüncü bir partiyanın yaradılması təşəbbüsü kimi 30-cu illərin əvvəllərində müstəqil siyasət uğrunda Liqa çıxış edirdi. Bu liqanın əsası Sosialist Partiyasının ideya təsiri ilə 1929-cu ildə əsası qoyulmuşdur. Yeni təşkilata görkəmli filosof Djon Dyu, iqtisadiyyat professoru Pol Duqlas, «Neymi» jurnalının redaktoru Osvald Harrison, sosial xiristian hərakatının xadimlərindən Hovard Uilyams və başqaları daxil olmuşlar. Liqanın rəhbərləri xalqın ehtiyac içərisində yaşamasının başlıca səbəbini maliyyə olaqraxiyasının ağalığında görürdülər, hansı ki, onların əlində istehsalın başlıca sahələri və siyasi hakimiyyət toplanmışdır. Liqa rəhbərləri xilası korporativ cəmiyyət təşkil etməkdə görürdülər. Onlar bununla bütün Amerika xalqının təlabatlarının ödəniləcəyini düşünürdülər. Bunun üçün isə siyasi hakimiyyət xalq tərəfindən ələ alınmalı idi. Təşkilatın rəhbərləri inqilabi metodlarla mübarizəni inkar edirdilər.

Bütün bu mütərəqqi təbliğatlar xalq tərəfindən 1931-1932-ci illərdə rəğbətlə qarşılandı. 1929-1933-cü illərdə Fermer Fəhlə partiyasının fəaliyyətində yeni mərhələ başlandı. Bu partiya 20-ci illərin əvvəllərində təşkil edilmişdir. Zəhmətkeşlərin burjua partiyalarının fəaliyyətindən narazılığı onların ştatın siyasi həyatında önə çıxmasına səbəb oldu. 1930-cu ilin seçkilərində onlar böyük qələbə qazandılar.

Demokratik hərakatda mütərəqqi respublikaçılar qrupu da böyük rol oynayırdı. R.Lafolletin ölümündən sonra bu qrupa Dj. Norris başçılıq edirdi. Onu respkblikaçılar partiyasının sol qrupu da müdafiə edirdi. Onlar hər iki hakim partiyaya alternativ ola biləcək praqram işləyib hazırlamaq fikirində idilər. Bu məqsədlə 1931-ci ilin



martında Vaşinqtonda mütərəqqiçilərin konfransı keçirildi. Konfransın işində respublikaçılar və demokratlar partiyasının sol qanadının nümayəndələri də iştirak edirdilər. Lakin nümayəndələr arasında ki, fikir müxtəlifliyi vahid bir proqram qəbul edilməsinə imkan vermədi.

Lakin bununla bərabər, 1931-1932-ci illərdə mütərəqqi respublikaçılar qrupunun tələbi ilə bir neçə qanun layihələri işlənib hazırlandı və konqresə çıxarıldı. 1932-ci ilin martında konqres fəhlə hərakatının təzyiqi nəticəsində bunlardan birini, yəni münaqişələrə məhkəmələrin müdaxilə etməsinin məhdudlaşdırılması haqqında qərarını bəyəndi.

Siyasi mübarizənin kəskinləşməsi nəticəsində demokratik hərakatın əksər iştirakçıları, o cümlədən respublikaçıların sol qanadı tədricən dərk edirdilər ki, irəli sürdükləri xətt nöqsanlıdır və müstəqil siyasi hərakatın daha radikal formaların keçmək zəruridir.

Fövqaldə dərəcədə gərgin vəziyyətdə- iqtisadi böhranın kəskinləşdiyi, sosial etirazlar hərakatının artığı, qeri-adi dərəcədə antiinhisar əhval-ruhiyyəsinin güclndiyi bir şəraitdə - 1932-ci ildə ölkədə prezident seçkiləri kampaniyası başlandı. Belə bir şəraitdə seçki kampaniyalarında irəli sürülmüş proqramlar çətinliklərin həlli ilə bağlı olmalı idi.

1932-ci ildə respublikaçılar partiyasını çox ciddi çətinliklər qarşısında qaldığı bir daha aydın oldu. Seçicilərin böyük əksəriyyəti böhranın və əhalinin ehtiyac içərisində yaşamasının səbəbini respublikaçılar partiyasının düzgün siyasət yeritməməlrinin nəticəsi hesab edirdilər. Ən çox xalqı Huver hökumətindən narazı salan onun işsizlərə kömək etməməsi idi. Huver «Sərt fərdiyyətçilik» prinsipini müdafiə etməklə ancaq varlılarn sosial üstünlüklərini saxlamağa xidmət etmiş olurdu.

1932-ci ilin iyulunda Çikaqoda keçirilən qurultayda respublikaçılar partiyasnın seçki proqramı qəbul edildi ki, burada da onlarnı əvvəlki, siyasətinə heç bir dəyişiklik edilmədi. Kəskinləşən işsizlik probleminin həlli yenə də ştatların üzərinə qoyulurdu. Sosial sığorta haqqında bir kəlmə də olsun danışılmırdı. Borclarla yüklənmiş fermerlərin vəziyyətini yüngülləşdirmək nəzərdə tutulmurdu. Onlar, əksinə, defisitsiz büdcəni müdafiə etməklə sosial xərclərə mənfi münasibətlərini göstərmiş oldular.

İşin mahiyyətinə gəldikdə, onlar seçki kampaniyalarında vəzifələrini Huverin xidmətlərini təriflməməklə və onun yenidən seçilməsinə nail olmaqda görürdülər. Bütün partiyanı belə bir xoşa gəlməz psixologiya bürümüşdü. Veteranlara qarşı tətbiq edilən hərakatdan sonra, təbiidir ki, respublikaçılar partiyasının sekilərdə qələbə qazanması məsələsi ümidsiz bir şey idi. Hadissələrin gedişi göstərdi ki, Huver hökuməti iqtisadiyyatda və sosial sahədəki çətinlikləri aradan qaldırmağa qadir deyildir. İşgüzar dünyanın artıq bəzi rəhbərləri belə bir nəticəyə gəldilər ki, məqsədə uyğun şəkildə dövlətin iqtisadiyyatı tənzimləməsi zəruridir. Hələ 1931-ci ilin sentyabrında maliyyə kapitalının ən böyük maqnatlarından biri «Djenral elektirik» korporasiyalarının prezidenti Dj.Svou Amerika sənayesini yenidən qurmaq planı irəli sürdü.

«Svou planı» inhisarın dövlət miqyasında necə tənzim etmək məsələsini yenidən nəzərdən keçirdi. Svounun təklifləri 1931-ci ilin dekabrında ABŞ ticarət palatasının öz üzvləri arasında keçirilən referendumda bəyənildi. «Svou planın»ı nəzərdən keçirdikdən sonra iri kapital dairələrində prinsip və islahatlar keçirilməsinin vacibliyi fikri genişlənməyə başladı. Ticarət palatasının üzvlərindən biri göstərmişdir ki, hədsiz fərdiyyətçilik bizi çox arxada qoymuşdur. 1929-1933-cü ilin iqtisadi böhranı işguzar dairələrdə belə bir ideya-psixoloji fikir formalaşdırmışdır ki, ABŞ dövləti- inhisarçı inkişaf yolunu keçməlidir.

Prezident Huver «iqtisadi planlaşdırmanın» əleyhinə çıxaraq bildirdi ki, bu yol «inhisar yaranmasına», «faşizimə» və «sosializmə» aparır. Respublikaçılar partiyasının bir qismi Huveri müdafiə etsə də, digərləri isə başa düşürdülər ki, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə ciddi ehtiyac vardır. 1932-ci ilin sentyabrında seçki kampaniyasının qızğın vaxtında ABŞ ticarət palatasının prezidenti Q. Harriman birbaşa Huverə bildirdi ki, əgər o «Svou planından» imtina edərsə, biznesin nüfuzlu dairələri seçkilərdə onu müdafiə etməyəcəklər. Bu, doğrudanda real təhlükə idi.

Demokratlar partiyasının(DP) vəziyyəti seçki kampaniyasında daha əlverişli idi. Müxalifətdə dayanaraq demokratların liderləri dağıdıcı böhranın və xalqın fəlakətinin əsas səbəbkarlarının respublikaçılar partiyasının sağ dairələrinin nümayəndələri olduğunu xalqa çatdırmığı bacarırdılar. Bu təbliğat onsuz da Huver hökumətindən narazı olan milyonlarla adamın demokratların tərəfinə



keçməsinə səbəb oldu. Həmçinin, demokratlar partiyası 1930-cu ildən keçən müddət ərzində konqresdə öz mövqeyini xeyli gücləndirmişdi. Onlar nümayəndələr palatasında əksəriyyət təşkil edirdi. Həmçinin demokratlar ölkədəki vəziyyəti məsuliyyətlə təhlil etməyi bacarırdı. Kütlənin əksəriyyətini öz tərəfinə çəkməkdən ötrü demokratlar partiyası üçün alternativ proqram təklif etmək zəruri idi. Bu isə fərdiyyətçilikdən əl çəkməyi və dövlət nizamlanmasına keçməyi tələb edirdi. Lakin etiraf etmək lazımdır ki, 1929-1933-cü illərin iqtisadi böhranı da Amerika brujaziyasını fərdiyyətçilikdən tam uzaqlaşdıra bilməmişdi. Ona görədə demokratlar partiyası özünün 1932-ci ilin iyununda Çikaqoda olan qurultayında qəbul etdiyi seçkiqabağı platformada dövlətin iqtisadi siyasətinə əsaslı dəyişiklikdən danışdı, lakin öz məqsədini tam açıq elan etmədi. Proqramda işsilərin tələblərinə dövlət səviyyəsində baxmağın zəruriliyi ancaq qeyd edildi. Demokratlar partyisaının daha uzaqgörən nümayəndələri isə iqtisadi siyasətdə daha dərinə getməyin zəruriliyini dərk edirdilər. Bunlardan biri demokratlar partiyasından prezdentliya namizəd göstərilmiş Nyu-York şatıtının qubernatoru Franklin Delano Ruzvelt idi. O, «Yeni xətt» şüarını irəli sürdü.

O, özünün seçkiqabağı çıxışlarında milyonlarla «unudulmuş amerikalıların» xeyrinə liberal islahatlar keçirəcəyinə vəd etdi. O qətiyyətlə «sosial ekspermentə» keçəcəyinə vəd etdi. O göstərdi ki, sağlam fikir təsdiq edir ki, yeni bir metod seçmək və onu sınaqdan keçirmək zəruridir. Əgər o uğursuz olarsa, onu cəsarətlə etiraf edib, yenisini sınaqdan keçirmək lazımdır. Ən başlıcası isə hərəkət etməkdir. Milyonlarla ehtiyac içərisində olanlar həmişə dözməyəcəklər. Əslində, hər iki partiyanın platformalarında ciddi fərq yox idi, ciddi fərq onların ancaq fəlsəfi baxışlarında idi ki, bunu da Huver 1932-ci ilin oktyabrın 31-də açıq etiraf etmişdir.

Demokratların namizədinin çevik taktikası, fərdiyyətçilik yoluna az meyl etməsi, liberal islahatlar vəd etməsi, həm də vəziyyətlərinin əlverişli olması 1932-ci ilin prezident seçkilərində F.Ruzveltə qələbə qazandırdı. Ona seçkilərdə 22810 min seçici, Huverə isə 15750 min seçici səs verdi. Bundan belə demokratlar hər iki palatada əksəriyyət yerləri tutdular.

## F. RUZVELT İNZİBATI İDARƏSININ İSLAHATLARI

Franklin Daleno Ruzvelt 1882-ci ildə Nyu-York ştatının Hudzon çayının vadisində varlı biznesmen ailəsin də doğulmuşdur. Onun ulu babası Amerikaya XVII əsrdə Hollandiyadan gəlmişdir. Ruzveltlər Nyu-Yorkda ən adlı-sanlı ailələrdən biri idilər. Ruzvelt alman və fransız dillərini mükəmməl bilirdi. O, Harvard Unversitetini sonra isə Kolumbiya Unversitetinin hüquq fakultəsini bitirmişdir. Ruzvelt hələ 1910-cu ildə demokratlar partiyasından Nyu-York ştatının senatına seçilmişdir. 1913-cü ildə o, dəniz nazirinin müavini təyin edilmişdir. 1920-ci ilin prezident seçkilərində demokratların məğlubiyətindən sonra Ruzvelt siyasətdən uzaqlaşdı. 1921-ci ildə o, polimelit xəstəliyinə tutuldu. Ruzveltin ayaqları ömrünün sonuna qədər iflic vəziyətində qaldı. Lakin Ruzvelt anasının mənəvi köməyi ilə özünün möhkəm iradəsi nəticəsində yenidən siyasətə qayıtdı. 1928 və 1930-cu illərdə Nyu-York ştatının qubernatoru seçildi. Ruzvelt burda ehtiyacı olanlara dövlət proqrammı həyata keçirmişdir. Hadisələrdən baş çıxarmaq və dövürlə ayaqlaşmağı bacarmaq, praktik adam olmaq qabiliyyəti onu Ağ evə gətirib çıxaran ən mühüm amillərdən hesab oluna bilərdi.

Ruzvelt prezident seçildikdən sonra ilk aylarda böhranın sonu görünmürdü. Siyasi şərait yenə də son dərəcə gərgin idi. Milyonlarla amerikalılar səbirsizliklə inzibati idarənin Ruzvelt komandasının əlinə keçməsini gözələyir, ümid edirdilər ki, ölkədə yaranmış bu vəziyyət ancaq onun müdrik siyasəti nəticəsində aradan qalxa bilər.

Konsitutisiyaya görə yeni prezident 1933-cü ilin dekabrında fəaliyyətə başlamalı idi. Lakin bu qayda konsitutisiaya edilmiş 20-ci əlavə ilə dəyişdirildi. 1933-cü ilin yanvarın 23-də konqress bu dəyişikliyi təsdiq etdi. Yeni qaydaya görə, yeni prezident yanvarın 20-də kreslosuna əyləşə bilərdi. Franklin Ruzveltin qələbəsini Amerika mətbuatı «güclülərin qələbəsi» kimi qiymətləndirdi.

Ruzvelt konsepsiyası Huver konsepsiyasından böhranından çıxmağın həllinə münasibətdə aşağdakı cəhətlərlə fərqlənirdi. Birinci, «yeni kursun» yardıcıları bunu «beynəlxalq səbəblərə» yox, ölkə daxildindəki sosial-inqtisadt səbəblərə bağlayır və vacib hesab edirdi ki, ABŞ-ın sosial-iqtisadi insitiut strukturunda bəzi islahatlar keçiriləmsi zəruridir. İknicisi, o bu vaxta qədər ABŞ-da hököm sürən



«fərdiyyətçilik» prinsipindən daha cəsarətlə yan keçərək fedaral hökumətin funksiyalarını gücləndirmək prinsipinə üz tuturdu. Ücüncüsü, əgər Huver kütləvi etirazlara qarşı qulağını bağlayırdısa, lakin Ruzvelt Amerika xalqının əhval-ruhiyyəsini nəzərə almağı vacib bildi. F.Ruzvelt öz partiyasının mühavizəkar qanadına çox ehtiyyatla yanaşırdı. Onların qorxusunu batırmağı, ölkənin etibarını itirməməyi risk etməyi daha vacib bilirdi.

Sosial-iqtisadi həyatın bütün sahələrində dəyişiklik edilməsi vacib idi. Çünki sənaye müəssisələrinin işini bərpa etmək və işsizlik problemini həllə etmək vacib idi. Amerika xalqı yeni prezidenti etibarlı, optimist və energiyalı bir adam görəmək istəyirdi. O, bir fraza ilə işə başladı ki, «bizim qorxu hiss etdiyimiz bir şey varsa, o da qorxunun özüdür». O, xalqı «milli birliyə» çağırdı. «Yeni xəttin» iqtisadi siyasəti iki yolla inkişaf edirdi; dərin institut islahatları, nadir maliyyələşdirmə.

73-cü çağrış konqres ilk növbədə bank-maliyyə problemi ilə məşğul olmağa başladı. Ruzvelt «beyinlər testi» təşkil etdikdən sonra işə iqtisadiyyatın şah damarları olan banklardan başladı. Çünki, ölkədə bankların iflası dalğası başlamışdı. Amerikalılar öz əmanətlərini xilas etmək üçün küçələrdə bankları mühasirəyə alırdılar. Ruzvelt hakimiyyətə keçdiyi gün nəğd pul çatışmadığından ABŞ-ın maliyyə mərkəzləri olan Nyu-York və Çikaqonun bankları əməliyyatları dayandırmalı oldular. Bankların böhranı Ruzveltin qətiyyət və navotorçuluq qabiliyyətini üzə çıxardı. Zəruri təklifləri hazırlamağa vaxt qazanmaq və ehtirasları sakitləşdirmək üçün Ruzvelt konqresin fövqəladə sesiyasını sağırdı. Konqresdən lazımi səlahiyətləri alan prezident bank sistemini xilas etməyin təcili proqramını həyata keçirərək bankların bəzilərinə kömək etdi, diğərlərini ləğv etdi. Bununla ölkədə bankların bağlanması başlandı. Ağ ev əvvəlcə Nyu-York və İllinoys ştatlarındakı bankları bağladı ki, hansı ki, burada ABŞ-ın maliyyə gücü toplanmışdı. Ağ Evin 32-ci prezidenti maliyyə sistemində islahatlar keçirmək qərarına gəldi. Məqsəd maliyyə sistemini sağlamlaşdırmaq idi. 1933-cü ilin martın 9-da banklar öz fəaliyyətlərini dayandırdılar. Həmçinin icra hakimiyyətinə bildirildi ki, beynəlxalq maliyyə əməliyyatlarına nəzarət etməkdə onlar böyük səlahiyyətə malikdirlər. 1933-cü ilin mart yaının 10-da F.Ruzvelt icraedici əmr etdi ki, qızıl üzərində tam dövlət nəzarəti təmin edilsin, həm də bu daxili bazarda həyata

kesirilsin. Dolların qızıl dəyərini təmin etməyə xüsusi diqqət yetirildi. Artıq martın 13-də banklar yenidən fəaliyyət göstərməyə başladılar. Həmin gün 12 şəhərdə, səhərisi gün 250 şəhərdə, martın 15-də isə bütün ölkədə «sağlamlaşdırılmış» banklar fəaliyyətə başladılar. 1932-ci ildə ABŞ-də 22,3 milyard dollar sərmayəsi olan 6145 bank fəaliyyət göstrirdi. Bir ildən sonra onların sayı 4897-yə endi. Hesablamalara görə ABŞ-də 1939-cu ildə 5203 bank fəaliyyət göstərirdi ki, onların da kapitalı 33,1 milyard dollar idi.

Bank quruculuğu ilə əlaqədar olaraq 1933-cü ildə iyunun 16-də Qlass-Stiqall qanunu qəbul edildi. Bu qanunla bankın depozit və investisiya funkusiyası ayrıldı. Alver əməliyyatlarına qəti çəpər çəkilmiş oldu. Banklarda depozitin sığortası 2500 dollar çərçivəsində olmalı idi. 1934-cü ilin qanununa görə bu sığorta 5000 dollara qədər qalxa bilərdi. 1933-1935-ci illər qanunvericilikləri Federal Ehtiyyat sistemini formalaşdırdı. Banklar dövlət nəzarəti altında fəaliyyət göstərməli idilər.

1933-cü ilin may ayının 12-də qəbul edilən qanun prezidentə səlayhiyyət verirdi ki, təminatsız kağız pulları böyük miqdarda buraxa, həmçinin dolların qızıl dəyərini aşağı sala bilərdi. 1934-cü ilin yanvarında qızıl ehtiyyatları haqqında qanun qəbul edildi. Ruzvelt 31 yanvar 1934-cü ildə əmr verdi ki, dolların qızıl dəyəri 25 4/3-dən 15 5/21 qrama qədər endirilsin və qızılın rəsmi qiymətini müəyyən etdi, onun bir unsiyası 35 dollar olsun. Başqa sözlə dollar 14% devalivasiya edildi. Bu imkan verdi ki, hökumət bankirlərdən qiyəmtili kağızlar alsın. Onların faizi isə 1932-ci ildəki 3,76%-dən 1940-cı ildə 2,39%-ə endirildi. Bankirlər fərdi əməliyyatlarda da faizləri aşağı salmağa məcbur oldular. Bank-pul tədbirləi ilə sıx bağlı olaraq fond birjalarındakı əməliyyatları da nizama salmaq haqqında qanunvericilik qəbul edildi. 1933-1934-cü ildə birjaların fəaliyyətini nizama salmaq haqqında iki qanun qəbul edildi. Bu işlə ticarət səhmləri üzrə Komissiya məşğul olurdu. 1937-ci ilin oktyabrına qədər komissiya 3500 kompaniyaya müraciət etmişdir ki, onların səhmlərinin ümumi dəyəri 13 mlyard dollar idi.

Ayrı-ayrı müəssisələr və şəxslərə səhm buraxmaq qadağan edilirdi. Dövlət – inhisarçı istiqamətdə sənaye mexanizmini dirçəltməyə xüsusi cəhdlər göstərildi. Bununla əlaqədar, 1933-cü il iyun ayının 16-da sənayeni bərpa etmək haqqında qanun qəbul edildi. Biznes demokratlar hökumətindən təclili tədbirlər görəmyi tələb



edirdi. Xüsusi idarə yaradıldı ki, NİRA adlanırdı. «Vicdanlı rəqabət kodeksi» müəyyən edilirdi. Bu kodekslər federal ticarət komisiyası tərfindən müəyyən edilirdi. Kodekslər istehsalın həcmini, qiymətini, əmlak şəraitini müəyyənləşdirdi. İstehsalın və kapitalın mərkəzləşməsi şəraitində anti-trestlər haqqında qanunlar dövləti daha çox maraqlandırdı. Milli inzibati bərpa idarəsi istehsalın planlı sürətdə azalmasını, korporasiyaların böhrandan ən az xərclə çıxmasını təmin etməyə cəhd göstərdi. Milli inzibati bərpa idarəsinə Xyu Conson başçılıq edirdi. Qısa müddətdə müxtəlif sahələri əhatə edən 557 əsas və 189 əlavə kodeks hazırlandı. 500 yeni sahibkarlıq assosasiyası meydana gəldi. Zəhmətkeşlər sənaye sahəsində görülən işləri bəyəndilər.

«Yeni xətt»in aqrar siyasəti bir neçə mərhələdə keçirildi. Kənd təsərrüfatı naziri Henri Uolles arıq 1933-cü ilin martında iri fermerlərin liderləri ilə konfrans keçirdi və kənd təsərrüfatına kömək haqqında Bill qəbul edidi.

F.Ruzvelt tərəfindən 1933-cü ilin may ayının 12-də fermerlərə kömək haqqında qəbul edilmiş Bill mühüm qanunvericilik aktı idi.

Onun əsas bölməsi kənd təsərrüfatını nizama salmaq haqqında qanun adlanırdı. Bu işlə məşğul olan idarə isə AAA kimi işarə edilirdi. Kənd təsərrüfatı məhsullarının qiyməti qaldırıldı ki, mal-qaranın və əkin sahələrinin miqdarı azaldılsın.

Kənd təsərrüfatı naziri istehsalın həcmini könüllü sürətdə məhdudlaşdıran fermerləri mükafatlandıra bilərdi. Bu kənd təsərrüfatı məhsullarından alınan vergidən yığılan fonddan verilirdi. İkincisi, fermerlər üçün əlverişli şərait yaradılmasına nail olmağa çalışmalı idi. 10,5 milyon akr əkin sahəsi, 6,5 milyon baş donuz, 23 milyon baş mal-qara xeyli digər məhsullar məhv edildi. Fermerlərə əmək haqqında qanun fermerlərin borcunu vermək məsələsini də nizama saldı. Borcun ödənilmə müddəti uzadıldı və borclar üzrə faizlər azaldıldı.

Dövlət bəzən sınaqlar və səhvlər metodu ilə getsə də, 1933-ci ilin yayında iqtisadiyyatda canlanma başlandı. Bu möcuzə idi. Böhran aradan qalxdı. Ruzveltin nüfuzu müqayisə edilməz dərəcədə qalxdı. O, millətin xilaskarı kimi tanındı.1933-cü ilin mayından 1937-ci ilin oktyabrına qədər 540 min fermerə 2200 milyon dollar həcmində istiqraz verildi. Banklar fermerlərin borc öhdəliklərini 37%-ni öz üzərinə götürdülər. Lakin dövlət dotasiyasından ən çox iri

fermer təsərrüfatları gəlir əldə etdilər. 1936-cı ilin mart ayının 1-dək aqrar siyasətdə hökumətin siyasəti əvvəlki kimi qalmaqda idi. Bu da məhsulun qiymətini yüksəltəmək, iri fermer təsərrüffatının mənafeyini müdafiə etmək idi. Bunun üçün 500 milyon dollar pul ayrılmışdı. 1938-ci ilin fevral ayının 16-da kənd təsərrüfatını nizama salamaq haqqında yeni qanun qəbul edildi, hansı ki, aqrar sahəsində həlledici mərəhəlni açırdı. Bu qanun belə bir konsepsiya irəli sürdüki həmişə «normal anbar» olmalıdır. Burada iş 1932-ci ildə olduğu kimi «artıq» məhsulun məhv edilməsi yolu deyil, onun qorunması yolu ilə gedilirdi. Qiyməti və borcun yükünü saxlamaq sahəsində görülən tədbirlər fermerlərin var-yoxdan çıxması prosesinin qarşısını xeyli aldı. Müflüs olmaq sürəti 1932-ci illə müqaisədə 71%-ə düşdü. Borclar 2 milyard dollar azaldı. Fermerlərin pul gəlirləri 1932-ci ilə də 4,7 milyard dollardan 1935-ci il də 8,5 milyard dollara çatmış oldu. Lakin qiymətlər hələ də 1909-1914-cü illər səviyəsində qalırdı.

İqtisadiyyatda dövlət-inhisarçı istiqamətin formalaşması «yeni xətt»-in ancaq bir tərəfi idi. Onun digər hisəsini isə sosial problemlərin həllinə dövlətin necə yanaşması məsələlri təşkil edirdi. Xalq kütlələrin tələbi hökuməti sosial manevrlər etməyə məcbur edirdi.

Hökuməti ən çox narahat edən məsələ işsizlik idi. Rəsmi məlumata görə 1933-cü ildə işsizlərin sayı 13 milyon nəfər idi. 1937-ci ildə onların sayı 7.7 mliyon nəfərə ensə də, 1938-ci ildə yenidən bu rəqəm 10,4 mliyon nəfərə çatdı. Ruzvelt hökuməti belə hesab edirdi ki, işsizliyi aradan qaldırmaq üçün ilk növbədə iqtisadiyyatı nizama salmaq lazımdır. İctimai iş yerləri açmaq və işsizlərə fasiləsiz kömək etmək də mühüm rol oynamalı idi. İşsilər üzrə sığorta sistemi keçirmək və pensiya təminatı təşkil etmək də qarşıya vəzifə kimi qoyulurdu. 1933-cü ilin may ayının 12-də Ruzvelt inzibati idarəsi işsizlərə 500 milyon dollar kömək göstərmək haqqında qanunu bəyəndi. Fövqaladə kömək göstərmək haqqında Federal İnzibati İdarəyə «yeni xətt» sosial problemləri həll etmək kimi mühüm bir vəzifə tapşırıldı.

Hökumət işsizlərə kömək üçün ümumilikdə 4 milyprd dollar vəsait ayrımışdır. 25 milyondan çox adam dovlətdən müavinət alırdı. Bunula belə bu pul onlara yardım kimi deyil, ictimai işlərdə iştiraklarına görə verilməli idi. Bu köməyin birinci obyekti kimi hökumət gəncləri seçdi. Çünki, bu təbəqə həyacan qaldıra biləcək



gücülü bir qüvvə idi1933-cü ilin aprelindən başlpyaraq işsiz gənclər üçün meşə düşərgələri təşkil edilməyə başlandı. Onlar altı ay müddətində tam təmin olunur, onlara hər ay 30 dollar maaş verilir, bundan başqa onlara hər ay 25-dollar da ailələrinə göndərmək üçün pul verilirdi. 19933-39-cu illərdə yaşı 25-ə qədər olan 2 milyona qədər gənc bu düşərgələrdə yerləşdirilmişdi. İştimai işlərin təşkili üçün 3300 milyon dollar pul ayrılmış və bunun üçün inzibati idarə yaradılmışdır. Bu tədbirdə məqsəd işsizlər üçün iş yerləri təşkil etmək və sosial gərginliyi zəiflətmək idi. Ruzvelt mülki iş üzrə inzibati idarə təşkil etdi. 1934-cü ilin yanvarın ortalarında artıq onun obyektlərində 4,3 mliyon adam çalışırdı.

1936-1937-ci illərdə Ağ ev sosial xərcləri bir qədər ixtisar etdi. 1937-1938-ci illərdə baş verən iqtisadi böhran yenidən sosial xərclərin artırılmasına səbəb oludu. Bu illərdə artıq 8,5 milyon adam obyektlərdə çalışırdı. Belə tədbirlər üçün dövlət 10,8 milyard dollar pul xərcləmişdir. «Yeni xətt» in daxili siyasətin ən mühüm aktlarından biri sosial təminat sisteminin təşkili idi. Bu haqqda 1935-ci ilin avqustunda qanun qəbul edildi. İki tip insanlar –işsizər və qocalar sığorta olunmalı idilər. Şikəstlərə və xəstələrə dövlət yardımı göstərilməli idi. Kənd ğəsərrüfatı fəhlələri, ev qulluçuları, dövlət qulluçularına da qanun şamil edilmişdir. Pensiya təminatı federal proqramla gedirdi. Pensiya fondu fəhləlrin və qulluqçuların maaşlarından 1937-ci ilədən başlayaraq 1%-dən 1949-cu ildə 3%-ə qədər ayrılmaq yolu ilə yaradıldı. Qanuna görə pensiya ayda 85-dollar müəyyən edilirdi. Pensiya yaşı 65 yaş müəyyən edilirdi.. Lakin onlar ancaq 1942-ci ilin yanvar ayının 1-dən pensiya ala bilərdilər.

İşsizlərin sığorta edilməsi federal ştat əsasında müəyyən edilirdi. Qanunda göstərilirdi ki, 8 və daha çox fəhləsi olan müəssisələrin sahibləri vergi verməldidirlər. Onların verdiyi vergi 1936-cı ildən 1%-dən başlayaraq 1938-ci ildə 3%-ə çatmalı idi. Bu vəsait maliyyə nazirliyində təşkil edilmiş xüsusi fonda toplanmalı idi.

1937-1938-ci illər böhranın təsiri nəticəsində 1935-ci il qanuna əlavələr edildi. Pensiyaların verilməsi 1940-ci ilin fanvarın 1-dən müəyyən edildi və belə bir hüquq da verildi ki, pensiyaçı ölən zaman onun himayəsində olan onun pensiyasını ala bilər.

1940-cı ildə Sosial Təminat İdarəsi 13 min pensiyaçı üçün ilk çekləri yazdı. Onun həcmi hər ayda 22,1 milyon dollar idi.

«Yeni xətt» in islahatları əmək şəraitini, fəhlərlə sahibkarlar arsaında qarşılıqlı münasibətlərin müassir dövlət tənzimlənməsinin əsasını qoydu. 7[a] maddəsində iş gününü uzadılma müddəti, fəhlələrin həmkarlar ittifaqlarında təşkil olunma hüququ, minunmum əmək haqqı və digər əmək şəraiti və s. məsələlərin aydın şərhi verilmişdir. İş həftəsi 35 saatdan çox olmamalı idi. Fəhlələrin hər saatına 40 sent verilməli idi. Bu əmək haqqı 1929-ci ilin 15-iyuluna qədər olan miqdarla uyğun gəlirdi. Saathesabı əmək haqqı 30 sent müəyyən edilirdi. Bu saziş müəssisələrdə birgə götürüldükdə 16,3 milyon fəhlə işləyən sahibkarlar imzaladılar. Bütün kodekslər 22,5 milyon fəhləni əhatə etdi. 1936-cı ildə Uols-Xill qanunu qəbul edildi ki, burda maksimum iş həftəsinin uzunluğu və minumum əmək haqqı müəyyən edilirdi. İş həftəsi 40 saatdan yuxarı olmamalı idi. 16 yaşından aşağı gənclər və 18 yaşından aşağı qadınlar qadağan edilmiş işlərə götürülməməli idilər. 1938-ci ilin iyununda konqres "Ədalətli əmək şəraiti haqqında" qanun verdi.

"Əmək münasibətləri haqqında" Vaqner qanunu prezident tərəfindən 1935-ci ilin iyul ayının 5-də imzalandı. ABŞ tərəfindən ilk dəfə olaraq həmkarlar ittifaqlarının hüquqları dövlət orqanları tərəfindən müdafiə edildi, həmkarlar ittifaqları real hakimiyyət hüququ qazandılar. Həmin qanunun 13-cü madəsinə əsasən fəhlələrə tətil hüququ verilirdi. 7-ci maddəyə əsasən fəhlələrin hüquqlarını pozmaq sahibkarlara qadağan edilirdi.

Fəhlələrin və həmkarlar ittifaqlarının şikayətlərinə baxmaq üçün əmək münaqişələri üzrə inzibati idarə təşkil edilmişdir. Vaqner qanununu ABŞ-da demokratiya yolunda edilən mühüm addım kimi qiymətləndirmək olardı.

«Yeni xətt»in sosial siyasəti təkcə fəhlələri və fermerləri deyil həmçinin şəhərlərin orta təbəqəlrini, ziyalıları da əhatə edirdi.

«Yeni xətt» zəncilərin vəziyyətində nəzərə çarpacaq irəliləyişə səbəb olmadı. Bir sözlə «yeni xətt» Amerikada irqi münaqişələri tuxunulmaz saxladı. Əgər 1933-cü ilin oktyabrında 2117 min zənci (bütün zəncilərin 17,8%-i) yardım alırdısa, 1935-ci ilin əvvələrində 3500 mini (bütün zəncilərin 23%-i) yardım alırdı. Bu rəqəmlər zəncilər arasında yoxsulluğun daha çox olduğundan xəbər verirdi.

İrqi məsələlərdə «yeni xətt»in zəifliyi özünü Linc məhəkəmsi haqqına qanunda da göstərdi. «Linc məhkəməsi» hadisələrinin



sayı «yeni kurs» dövründə xeyli artmışdır. Linc məhkəməsi haqqında qanun 1940-cı ilin yanvar ayının 10-da nümayəndələr palatası tərəfindən bəyənilsə də, senat onu qəbul etmədi.

«Yeni xətt»in islahatları ABŞ-da ikipartiyalı dovlət hakimiyyət sisteminə toxunmadı. «Yeni xətt» siyasətində «sola dönüş» ölkədə siyasi mübarizəni xeyli kəskinləşdirdi. Mühafizəkar qüvvələr hökümətə qarşı açıq mübarizəyə keçdilər. Onlar əvvələr Ruzvelti «millətin xilaskarı» adlandırdıqları halda indi onu satqınlıqda ittiham edirdilər. İri kapital nümayəndələrinin çoxu, bir çox qəzetlər, hər iki partiyanın mühafizəkar siysətçiləri 1936-cı ilin prezident seçkilərində Ruzvelti məğlubiyyətə uğratmaq üçün birləşdilər. Eyni zamanda Ruzvelt bütün islahatçı qüvvələrin meyl mərkəzi oldu. 1936-cı ilə seçkilərindəki, Respublikaçılar partiyasının namizədi, Kanzas ştatının qubernatoru A. Lendon 16,8 milyon səs, F.D.Ruzvelt isə 27,7 milyon səs topladı. Konqresdə respublikaçıların sayı azaldı. 1936-cı il seçkiləri bir növ «yeni xətt»in müqəddaratı üzrə referendum oldu.

1937-ci ilin sonunadək Ali məhkəmənin mövqeyi müəmmalı qalmışdı. Ali məhkəminin «yeni xətt» əleyhinə birinci qərarı 1935-ci ilin yanvarın 1-də verildi. 1935-1936-cı illərdə Ali məhkəmə «yeni xətt»in 12 qanunu ləğv etdi. Məhkəmənin qərarları əsasən ona qarşı çevrilmişdir ki, dövlət iqtisadiyyata müdaxilə etməməlidir, həm də fəhlələrə həddindən artıq güzəştlər edilməməlidir.

Bütün bunlara baxmayaraq Ali məhkəmə «yeni xətt»i ləğv etməyi bacarmadı, XX əsrin 30-cu illərinin ortalarında Ruzveltin tərəfdarlarının güclü olduğu bir daha aydınlaşdı. F.Ruzvelt mərkəzdən bir qədər sola getməkdən heç də qorxmadı. 1937-ci ilin fevralın 5-də F.Ruzvelt yeni məhkəmə islahatı təşəbbüsü ilə çıxış etdi. O Federal məhkəmə korpusunun tərkibini artırmaq istədi. Ruzvelt təklif etdi ki, 70 yaşına çatmış məhkəmə işçilərini öz maaşlarını saxlamaq şərti ilə istefaya çıxsınlar. Lakin Ali məhkəməninin 9 üzvündən 7-si bunun əleyhinə çıxdı. Ruzvelt məhkəmə islahatı haqqında qanunu keçirə bilmədi. Çünki konqresin bir çox üzvləri belə hesab edirdi ki, məhkəmə hakimiyyətini prezidentin şəxsində hakimiyyətdən aslı etmək ABŞ dövlət qurluşunun əsas prinsipinin - hakimiyyətin bölünməsi prinsipinin pozulması demək olardı. Ruzvelt bu hadisə ilə əlaqədar olaraq demişdir ki, o, döyüşdə uduzsa da, müharibəni udmuşdur. «Yeni xətt» illərində demokratlar partiyası daha real siyasət yeritməyə qadir

olduğunu sübüt etdi. Onun sıralarına çoxlu sayda fəhlələr (onların çoxu həmkarlar ittifaqlarınında təmsil olunmuşdur), fermerlər, seçicilərin orta təbəqələri və ziyalılar daxil oldular. Respublikaçılar partiyasının siyasi tərəfdarlarının əksəriyyəti ondan aralandı. Çünki respublikaçılar «qəti fərdiyyətçilik» ideylararından çox yavaş uzaqlaşırdılar.

Burujaziya müxtəlif formada «yeni xətt»ə münasibət bəsləyirdi. Müəyyən hissə Ruzveltin «yeni xətt»inin bəyəndiyini bildirirdi. Lakin işguzar dairələr əvvəl Ruzveltin tərəfində çıxış etsələr də, sonralar «yeni xətt»ə qarış çıxmağa başladılar. Milli Sənayeçilər Assosiasiyasının nümyayəndələri, ABŞ-ın Ticarət Palatası, sahibkarların və tacirlərin sahə region birlikləri, respublikaçılar partiyasının rəhbərliyi, ABŞ-ın Ali Məhkəməsi və ABŞ mətbuatının nüfuzlu hissəsi də islahatların əleyhinə idilər. Doğrudur, inkar etmək olmaz ki, hakim sinif içərisində müəyyən qruplar Ruzveltin siyasətinə loyal münasibət bəsləyirdilər. 1935-ci ildə işgüzar dünyanın nüfuzlu liderləri Ruzveltin siyasətini müdafiə etməkdə davam edirdilər. Onların arasında Ticarət Palatasının keçmiş prezidenti Q.Harriman, «Amerika telefon end teleqraf K» kompaniyasının başçısı U.Cifford, «Cenral elektirik» firmasının prezidenti C.Svou və digər bəzi şəxslər də vardır.

İslahatlar əleyhinə bəzi təşkilatlar meydana gəldi ki, bunlardan biri 1934-cü ilin 15 avqustunda yaranan Amerik Azadlıq Liqası idi. Bu təşkilat Düponun və «Ceneral motor»un rəhbərliyinin təşəbbüsü ilə yaradılmışdır. 1936-cı ildə onun şöbələri 20-ə qədər ştatda yerləşirdi. 1936-cı illin əvvəlində müxalifətçi qüvvələr ölkəni «xilas» pərdəsi altında çıxış edərək özlərini «Cefersonun demokratları» adlandırırdılar. Onların Tolmecin və Nirbinin başçılığı altında Makonada (Corciya ştatı) toplaşaraq Ruzveltin islahatlarının əleyhinə olduqlarını bildirdilər. Hələ 1935-ci ildə İllinoys ştatında onların respublikaçılarla təşkil etdikləri görüşdə ABŞ-ın 10 orta-qərb ştatlarının nümayəndələrindən ibarət mindən yuxarı adam iştirak edirdi. İştirakçılar hökumətin korporasiyaların işinə müdaxiləsini kəskin tənqid etdilər. Sosial ehtiyaclar üçün çəkilən xərclərin çox olduğunu göstərdilər. «Yeni xətt» sosializimlə eyniləşdirilirdi. 1935-ci ilin mayın əvvələrində ABŞ ticarət palatasının hər il keçirilən qurultayında onun prezidenti Sibli təsdiq etdi ki, ölkə üçün ağır zamanda keçirilən bütün tədbirləri diqqətlə nəzərdən keçirmək



lazımdır. Qurultay belə bir fikir irəli sürdü ki, hökumət xüsusi biznesin maraqlarına zidd olan bütün hərəkətlərdən imtina etməlidir. Onlar ilk növbədə vergi qanunvericiliyinə qarşı çıxış etdilər. Bunula əlaqədar olaraq Ruzvelt 1935-ci ilin mart ayının 12-də konqresə göndərdiyi məktubunda xüsusi qanunvericilik aktı qəbul etməyi təklif edirdi ki, sənayenin komunal sahəsində bədxərclik məhdudlaşdırılsın və xırda investorların maraqları müdafiə edidilsin. Sağdan hücumun genişlənməsi senatı xüsusi komissiya yaratmağa məcbur etdi.

Vaqner qanununa qarşı müxalifətin hücumları gücləndi. Lakin onu ləğv etməyi bacarmadılar. 1937-ci ildə Ali məhkəmə Veqner qanununu tanıdıqdan sonra sənaye assosiasiyaları məcbur oldular ki, təkliflərini dəyişdirsinlər və bu qanununa müəyyən əlavələr edilmsinə nail olsunlar. ABŞ-ın ticarət palatasının qətnaməsində təklif olunurdu ki, həmkarlar ittifaqlarının fəaliyyətləri üzərində hökumətin nəzarəti həyata keçirilsin. Sənayeçilərin milli assosiasiyası isə belə bir təkliflə çıxış etdi ki, fəhlələr həmkarlar ittifaqlarında çıxış etmədən də sahibkarlarla müqavilə bağlaya bilsin. Əslində bütün bunlar fəhlələri həmkarlar ittifaqlarında iştirak etməkdən və kollektiv müqavilələr bağlamaq hüququndan məhrum etmək demək idi. Sənayeçilərin həmkarlar ittifaqına müqavimət o qədər güclü idi ki, Senat məcbur oldu ki, R. Lafolletin başçılığı altında bu işlərlə əlaqədar xüsusi komisiyya təşkil etsin.

1937-ci ilin böhranı «yeni xətt»in əlehadarlarına yeni təkan verdi hər iki partyianın mühafizəkar dairələri yeni böhranda günahkar hökuməti hesab edirdilər.

1938-ci ilin parlament seçkiləri respublikaçılara imkan verdi ki, senatda və nümayəndələr palatasında öz siyahılarını çoxaltsınlar. Bu onların mövqeyini möhkəmlətdi və şərait yaratdı ki, sahibkarların mənafeyini daha qətiyyətlə müdafiə etsinlər. Bu dövrdə konqesdə amerikan fəaliyyəti ilə məşğul olanlar aşkara çıxmaq üçün xüsusi komisiyya yaradıldı. 1938-ci ilin oktyabrında ədliyyə nazirliyinə siyahı təqdim edildi ki, orda 1121 qulluqçunun adı vardı. Onlar şübhəli fəaliyyətlərinə görə ittiham olunurdular. 1938-ci ilin oktyabr ayının 14-də komisiyyanın üzvü Tomson radio ilə çıxışında «yeni xətt»i kommunist partiyasının proqrammı ilə əlaqələndirdi.

Ruzveltin əleyhdarları çox saylı «vətənpərvərlik» təşkilatları və qruplar da, həmçinin «Amerika legionunda» çalışırdılar. 30-cu ilin ortalarında, xüsusilə 1937-ci ildəki iqtisadi böhrandan sonra bütün

anti-Ruzvelt qüvvələr vahid mühəfizəkar koalisiyada gələcək sosial ekspermentlərin qarışısını almaq üçün birləşməyə cəhd göstərdilər. Onlar tələb edirdilər ki, sosial xərclər ixtsar edilsin. Büdcə balanslaşdırılsın, gəlirlərə görə vergi faizi azaldılsın. Lakin mühəfizəkar kolaliysiya uğur qazana bilmədi. Çünki, həm demokratların, hə də respublikaçıların uzaqgörən dairələri yaxşı dərk edirdilər ki, islahatların dayandırılmasının hələ vaxtı deyildir.

Ruzveltin siyasətinə qarşı XX əsrin 30-cu illərində Luiziana ştatının qubernatoru Xui Lonqun fəallığı güclənirdi. 1928-ci ildə o, qubernator seçkilərində qalib gəlmişdi. O, qələbyə ona görə nail oldu ki, özünün sadə adamların müdafiəçisi, inhisarın əleyhdarı kimi göstərirdi. Lonqun maarif, səhiyyə, yol və mülkü qulluq sahəsində gördüyü tədbirlər, həmçinin bir neçə iri korporasiyaya qarşı mübarizəsi onu sadə adamların içərisində populyarlaşdırdı.

1930-cu ildə Lonq ABŞ senatına üzv seçildi. 1933-ci il prezident seçkilərində o, Ruzvelti müdafiə etdi. Lakin tezliklə onun islahatlarına qaşı çıxmağa başladı. 1934-cü ilin yazında o senata belə bir qətnamə təqdim etdi ki, 1 milyon dollardan və irsi əmlak 5 milyon dolardan çox olanların qalan əmlakı müsadirə edilsin. Lonqun digər tələbi bu idi ki, hər bir ailənin yaşaması üçün azı ildə 5 min dollar qazanc olmalıdır., ona vacib yaşayış vasitələri təqdim edilməli, mənzil avtomabil, radio verilməlidir. Kənd təsrrüfatı mallarının federal hökumət tərəfindən alınması təmin edilməlidir. İş günün məhdudlaşdırılmalıdır. Qocalar üçün pensiya verilməli, müharibə vetranları üçün maddi yardım göstərilməlidir. Kolleclərin nəzdində ümumi təhsil həyata keçirilməlidir. Yol quruculuğunu inkişaf etirmək, təhsil və səhiyyə müəssisələri şəbəkəsini genişləndirmək nəzərdə tutulurdu. Yəqin ki, bu tədbirlərin reallığa çevrilməsinə o özü də şübhə edirdi. Lakin siyasi uduş nəzərə çarpacaq idi. Onun papulyarlığı tezliklə ştatın sərhəddini aşdı, Cənub, Orta Qərb, Sakit okean hüdudlarına qədər yayıldı. Ölkədə Lonqun tərəfdarları klubları yaranmağa başladı. Onların sayı bəzi məlumatlara görə 100 minə çatırdı ki, bunlarda 6-7 milyon adam var idi.

Sadə adamların etibarını qazanan Lonq bundan Luizina ştatında özünün qeyri məhdud diktaturasını qurmaq üçün istifadə etdi. O, iradəsindən aslı olan siyasi mexanizmi yaratdı. Luizianada hakimiyyətə nəzarət etməyə başladı. Onun göstərişi ilə əleyhdarları oğurlanmağa, onlar üzərində istintaqlar aparılmağa başlandı. Onun



şüarı belə idi ki, “Luizjananın konsitutisaysı mənəm». Lonqun fəailiyyətini öyrənlələrin əksəriyyəti belə bir fikrə şərik idilər ki, bu Amerika torpağında faşizmin bir növüdür. Çünki Luizianada o, özünün despotik idarə üsulunu yaratmışdı.

XX əsrin 30-cu illərində katolik müqqədəs ata Koflinin siyasi fəaliyyətinin xeyli fəallaşdığı müşahidə olunurdu. Ku-kluks-Klan təşkilatı katolik əhaliyə qarşı fəal mübarizə aparırdı. Bu hərakatdan Koflin kütlələri öz tərfinə çəkmək üçün istifadə etdi. 1926-cı ilin oktyabr ayının 17-də Koflinin radio ilə birinci çıxışı oldu. Tezliklə onun ideyaları ölkənin bir sıra şəhərlərinə yayılmağa başladı. İqtisadi böhran illərində onun çıxışlarıda sosial-iqtisadi mövzulara daha çox yer verilirdi. Koflin söyləyirdi ki, kaptalizim və onun doğurduğu azad bazar imkanları insanları sıxır, ona görə də xüsusi mülkiyyət ictimai mülkiyyətlə və ictimai nəzarətlə tamamlanmalıdır. Onun fikrinə görə, dövlət maliyyə hüquqlarını deyil, ilk növbədə insan hüquqlarını müdafiə etməlidir. Əvvəl Koflin «yeni xətt»in ilk illərində bir necə vacib tədbirləri müdafiə etdi. Bu tədbirlərdən sənaye və ictimai işlərə aid olanlar xüsusi ilə müdafiə edirdi. İlk dövürdə o, «Ya Ruzvelt, ya da iflas» şüarını irəli sürdü. Lakin 1934-cü ildə Koflin Ruzveltdən ayrılmağa başladı. Koflin «Sosial ədalət uğrunda milli ittifaq» təşkil etdi. Koflin indi şüarını dəyişərək «Ruzvelt və iflas» şüarını irəli sürdü. Koflin dərk edirdi ki, Ruzveltin proqramından daha radikal proqram təklif etməklə kütlələri öz tərəfinə çəkə bilər. O, «kapitalın və əməyin birliyi» təklifini irəli sürdü. O göstərdi ki, hər bir fəhlə işlədiyi müəssisədən «ədalətli payı»nı almalıdır. Onun fikrincə, ancaq bu yolla «sosial ədalət» bərpa oluna bilər.

Koflin bu dövrdə əmək haqqını ixtisar etmədən daha qısa iş həftəsi bilirdi. O, həm ixtisaslı, həm də ixtisasız fəhlələri eyni təşkilatda birləşdirməyi təklif edirdi. Onun fikrincə, AƏF-nın yeganə funksiyası ondan ibarət olmalıdır ki, fəhlələrlə sahibkarların müəssisələrdə sosial patnyorluğunu təşkil etsin və gəlirlərin düzgün bölgüsünə nəzarət etsin . Burda kaptalizmin əlamətləri artıq aydın hiss edilirdi. Koflin tələb edirdi ki, vahid bank yaradılsın və o, federal ehtiyyat sistemini əvəz etsin. Onun fikrincə, fermerləri Uoll Stritin tiranlığından xilas edə bilən, müharibə veteranlarını təmin edə bilən vahid bank yaradılmalıdır. Həmçinin Kofilin proqramında insanların əmək, hmkarlar ittifaqlarında təşkil olunmaq hüququ, daha mühüm müəsisələrin milliləşdirilməsi, zəhmətkeşlərin vergi yükünnün aşağı

salınması, xüsusi mülkiyyəti qorumaq hüququ və s. məsələlrdə öz əksini tapmışdır.

1936-cı ilin avqustunda Koflin təsdiq edirdi ki, onun təşkilatında 1,6 milyon fəal üzv, 6 milyon isə ona rəğbət bəsləyən vardır. Koflində açıq çıxışlarındakı tələbləri bir sıra sosial-reformistlərin tələbləri ilə üst-üstə düşürdü.

1936-cı ilin prezident seçkiləri kampaniyası zamanı Koflin və Lonqun tərfdarlarının birləşməsi istiqaməti müşahidə olunurdu. 1935-ci ilin fevralında aralarındakı bir sıra görüş onları xeyli yaxınlaşdırdı. Senator Lemke də onların tərfində idi. Koflin və Lemke pul mübadiləsi üzərində ciddi dövlət nəzarəti tələb edirdilər. Həmçinin onlar belə bir nəzarəti bütün bank sistemi və milli sərvətlərə də şamil edirdilər. Senator Lemke fermerlərin vəziyyətini yaxşılaşdırmaq və dövlət bankı təşkil etmək haqqında bir neçə fikirlərin müəllifləri olmuşdur. Lakin onların təklifləri Ruzvelt hökuməti dövründə konqresin komissiyalarında dəfn edlmişdir. Lonq konqresdə həmişə Lemkenin tərəfdarı olmuş və onun təkliflərinin qəbul edilməsi üzərində təkid etmişdir. Ruzveltə qarşı çıxış edən liderlərdən biri də “Yaşlılar hərakatı”nın lideri F. Taunsend idi. O, ixtsasca həkim edi. O, təklif edirdi ki, yaşı 60-dan yuxarı olanların hamısına ayda 200 dollar yardım edilsin. Bunlar üçün fond işləyənlərin hesabına təşkil edilsin. 1936-cı ilə yaxın ölkənin Orta Qərb və Qərbində “Yaşlılar hərakatı”nın üzvlərinin sayı 3,5 milyon adamı əhatə edirdi. Onları müdafiə edənlər isə 20 milyondan çox idi. Bununla belə konqres onun da təklifini qəbul etmədi.

1936-cı ildə Koflin, Lamke, Taunsend və Smut antiruzvelt koalisiyası təşkil etdilər. Sonra isə onun çərçivəsində «ittifaq partiyası» təşkil etdilər. Lakin koalisiyada daxili birlik yox idi. Taunsendin tərəfdarları olan anqlosaks mənşəlilər Orta Qərb və Şərq şəhərlərinin Koflinin sosial dayağını təşkil edən sadə katolik əhalisinə yaxşı münasibət bəsləmirdilər. Cənubun protestantları öz nöbəsində katolik əhaliyə etibar etmirdilər. Həmçinin liderlər arasında fikir ayrılığı mövcud idi. Kofilin və Lemke bütövlükdə Taunsendin planını müdafiə etmirdilər, hər bir lider öz şəxsi məqsədlərinə çatmağa çalışırdı.

«İttifaq» partiyası əslində faşizmə keçid partiyası idi. 1936-cı ilin oktyabrında Koflin müsahibələrinin birində göstərirdi ki, ABŞ faşizimlə komunuzim arasında durur və o, faşizmi seçir. 1936-cı ilin



prezident seçkilərində Kofilin siyasi evolyusiyası məğlubiyyət uğradıqdan sonra o qəti faşizim mövqeyinə keçdi. Müntəzəm olaraq millətçi liderlərin çıxışları çap olunmağa başladı. Kofilin Avropa faşist təcavüzünü və militarist Yaponiyasının Asiyadakı müdaxilələrini ürəkdən bəyənirdi. 1938-ci ilin avqustunda Koflin tipik faşist təşkilatı olan «Komunizmə qarşı xiristian cəbhəsi» təşkilatını yaratdı. Hələ 1938-ci ilin martında o, ABŞ-ı kooporativ dövlət etməyə çağırdı. O, ABŞ-ı Almaniya və İtaliya tipində dövlət kimi görmək istədiyini bildirdi. Koflinin çıxışlarında anti-fəhlə əhval-ruhiyyəsi gücləndi.

XX əsrin 30-cu illərində ölkədə açıq faşist qruplaşmaları meydana gəldi ki, bunlardan «Gümüş köynəklilər», «Respublikaının müdafiəsində», «Amerika millətçiləri», «Amerika milli sosialist partiyası», «Səfərbər edilmiş xiristianlar» və s. göstərmək olar. Onların məqsədi amerikanı «komunuzim» təhlükəsisndən xilas etmək idi. Onlar “Amerika amerikalılar üçündür” şüarını irəli sürürdülər. Faşist qrupları Almaniya və İtaliyanın agentlikləri ilə sıx əlaqə saxlayırdılar. Lakin belə bir faktla hesablaşmaq lazım idi ki, ABŞ-da faşizmin sosial bazası o qədər də güclü deyildi. Çünki bütün demokratik qüvvələr, xüsusi ilə fəhlə sinfi faşizmə qarşısı ciddi müqavimət göstərir və onu hakimiyyətə yaxın buraxmırdılar.

Ruzveltin «yeni xətt» i əleyhinə göstərilən bütün cəhdlər onun əhəmiyyətini kölgədə qoya bilmədi. Sənaye istehsalı indeksi 1932-ci illə müqayisədə 1939-cu ildə 90% artdı. 1938-ci ildə Ruzvelt «yeni xətt» siyasətini dayandırdı. O artıq həyata keçirilmiş islahatların möhkəmləndirilməsinə daha çox diqqət yetirməyə başladı.

«Yeni xətt» dövlət inhisarçı kapitalizmin gələcək inkişafı üçün yol açmış oldu. Sosial sahədə aparılmış olan islahatlar Ruzveltin dediyi kimi «unudulmuş» adamların həyatında mühüm dəyişikliklər yaratdı. Onlara edilən güzəştlər demokratik qüvvələrin böyük qələbəsi kimi qiymətləndirilə bilər. Dövlətin funksiyaları qeyr-adi dərəcədə genişləndi. Lakin ABŞ-da dövlət müdaxiləsinin artması demokratiyanın ləğvinə gətirib çıxarmadı. Seçkilər yenədə müntəzəm keçirilir, çoxpartiyalılıq qalır, vətandaşların konstitusiyada təsbit edilmiş hüquqları daha da genişlənirdi. Bütün amerikalılar – sosial müdafiə, fəhlələr sosial müdafiə və tətil, fermerlər dövlətdən yardım almaq hüququ aldılar. ABŞ-da dövlət müdaxiləsi

Almaniyadan fərqli olaraq liberal islahtçılıq formasında oldu. ABŞ vətəndaşlarına da aydın oldu ki, dövlətin təminat verdiyi firəvanlıq olmadan şəxsiyyətin azadlığı reallıqdan çox uzaqdır.

Bir sözlə, F. Ruzveltin «Yeni Xətt» siyasəti nəticəsində həyata keçirilən tədbirlər böhrandan yaxa qurtarmağa imkan verdi. Bu həqiqət isə sübüt etdi ki, kapitalizim özünü islah etmək yolu ilə iqtisadi və sosial çətinliklərin öhdəsindən gəlmək imkanına malikdir.

## F. RUZVELTİN İNZİBATİ İDARƏSİNİN XARİCİ SİYASƏTİ

F. Ruzvelin «yeni xətt» siyasətinin mühüm tərkib rissələrindən biri də beynəlxalq münasibətlər sahəsi idi. F.Ruzvelt göstərirdi ki, xarici siysətdə son dərəcə dəqiq olmaq lazımdır. Çünki bu səhədə buraxılan hər hansısa səhv bəşəriyyət üçün fəlakət törədə bilər.

Beynəlxalq vəziyyət ABŞ-ın xarici siyasətinin əsas iki mühüm amilini nəzərə almağı zəruri edirdi. Bu amillərdən biri 1929-1933-cü dünya iqtisadi böhranı, digəri isə faşist Almaniyası və militarist Yaponiyaının fəallaşması prosesində yeni dünya müharibəsi təhlükəsinin artması idi. Əgər böhran dünya iqtisadi ticarət əlaqələrini pozub, ABŞ-ın təcridçiliyə sürükləmişdirsə, dünya müharibəsi təhlükəsi isə ümumi sülhün qorunması naminə beynəlxalq əməkdaşlığı zəruri edirdi. ABŞ-ın xarici siyasətində izolyasionizm və internasionizm meyilləri aydın əksini tapmışdır. İqtisadi, sosial, siyasi, ideoloji sahədə bu ölkədə hökm sürən durğunluq xarici siyasətə də öz təsirini göstərməyə bilməzdi. Xarici siyasət böhranla mübarizədə diqqətdən kənarda qala bilməzdi. ABŞ-ın xarici siyasəti XX əsrin 30-cu illərində də ənənəvi əsaslara söykənərək istiqamətlənmişdi. Belə ki, Latın Amerikasının qarşı Monro doktirinası, Asiyaya qarşı «açıq qapılar» prinsipi, Avropaya münasibətdə isə iziolyasionizm əsas götürülrdü. Xüsusi ilə izolyasinizm əsas götürülürdü. Çünki bu qeyri-amerikan dünyasına amerikan dünyasının spesfik yanaşma prinsipi idi. Bu prinsiplərə əsasən onlar «bitərəf mel» xəttini irəli sürürdülər. Bu da Avropa dovlətlərindəki ziddiyətlərdən çox ustalıqla istifadə etdilməsini nəzərdə tuturdu.



İzolyasinizm, şübhəsiz düyna müharibəsinə qədər ABŞ diplomatiyası üçün öz xüsusi əhəmiyyətini saxlayrıdı. Bu prinsip xalq tərəfindən müdafiə edilirdi. Çünki, xalqa aşılanrıdı ki, bu siyasətlə ABŞ başqa öləkələrin daxili işinə qarışmır, işğalçılıq müharibəsində iştirak etməkdən imtina edir. Bu siyasətin əslində siyasi-diplomatik, antihərbi, antiinhisar səngərində aparıldığını qeyd etmək lazımdır.

Böran «milli iqtisadiyyatı» gücləndirmək xəttini zəruri edirdi ki, bu da Ruzveltin hakimiyyətinin ilk illərində onun rəsmi siyasəti idi. Onun siyasətinin obyekti amerikan daxili bazarının həcmi idi. O, idxal tariflərini yüksəlmək, ixracları isə aşağı salmağı vacib bilirdi. Bir sözlə, F. Ruzvelt merkantilizmi, yəni vətən sənayesinə himayəçiliyi vacib hesab edirdi «İqtisadi millilik» ideyasının banisi professor R.Moli idi ki, F.Ruzveltlə birlikdə o, «beynilər trestində» aparıcı rol oynayırdılar. 1933-cü ilin yayında Londonda F.Ruzveltin təşəbbüsü ilə dünya iqtisadi konfransı keçirildi ki, bunda da məqsəd kapitalist öləklərinin böhrandan çıxma yollarını birgə həll etmək idi. Burada nəzərdə tutulurdu ki, əsas vəzifə ölkələrin sağlam daxili iqtisadi sisteminin yaradılmasıdır. ABŞ bu konfransda Avropa dövlətlərinin böranı əsas götürürək ABŞ-a olan borclarının verməkdən imtina etdiklərindən narazılığını bildirdi. Bununla əlaqədəar konqres 1934-cü il Conson qanununa belə bir əlavə etdi ki, borclu öləkələrə kredit və istiqraz verilməsin.

Lakin 1934-cü ildə dövlət katibi K.Xellin təkidi ilə «beynəlxalq ticarəti» liberallaşdırma tərəfdarları xüsusi qanun qəbul edilməsinə nail oldular ki, xarici malların tarifi 50% həcminə qədər ixtisar edilsin. ABŞ öz ixracını artırmağa nail ola bilmədi. Belə ki, ixrac 1929-cü ilə səviyyəsindən aşağı olaraq qalırdı.

F.Ruzvelt prezident səlahiyyətlərinə başlayrarkən etdiyi çıxışında Latın Amerikası ölkələrinə qarşı «mehriban qonşuluq» siyasətini irəli sürdü. O, belə hesab edirdi ki, bu Qərb yarımkürəsi ölkələrinə qarşı bir ekspansiya üçün ən yaxşı vasitə ola bilər. F.Ruzvelt dərk edirdi ki, Latın Amerikası ölkələrinə qarşı vaxtı ilə ABŞ tərəfindən irəli sürülmüş «böyük dəyənək» və «dollar diplomatiyası» siyasəti prinsipi müasir dövürə uyğun gəlmir. İndi daha incə siyasət irəli sürmək vacibdir və açıq müdaxilədən əl çəkmək lazımdır. Latın Amerikası xalqlarının əhval-ruhiyəsini ABŞ-a qarşı müsbət istiqamətdə dəyişməyin vaxtı çatmışdır. Həm də «mehriban qonşuluğun» əsas prinsipləri aşğıdakılardan ibarətdir:

1. Latın Amerikası ölkələrinin daxili işinə qarışmamaq;
2. Onlara əsasən texniki kömək təklif etmək;
3. Millətin bərabərliyi prinsipini həyata keçirmək;
4. Bərabər hüquqlu ticarət müqavilələri bağlamaq.

Lakin bu heç də o demək deyildir ki, ABŞ regionda ağalıq fikrindən daşınır. Əslində ABŞ «mehriban qonşuluq» siyasətindən istifadə edərək «Amerikarası sistemdə» öz mövqeyini daha da möhkəmləndirməyə çalışırdı. Hitler Almaniyası, İtaliya və Yaponiyanın buraya təsirinin güclənməsinin qarşısını almaq da ABŞ-ın mühüm məqsədlərindən biri idi. Çünki, 1929-1936-cı illərdə Latın Amerikası ölkələrinə bu dövlətlərin idxalı 17%-dən 28%-ə qalxmışdı. Bu öləkələrdə almanların xeyli olması da millətçilik təbliğatı üçün zəmin yaradırdı.

ABŞ və İngiltərə bu regionda başlıca rəqib olsalar da, Almaniya, İtaliya və Yaponiyaya qarşı birləşməyə daha çox üstünlük verirdilər. Yeni siyasət həm də ABŞ iqtisadi maraqlarından irəli gəlirdi. Çünki Latın Amerikası ölkələri ilə ticarət 1929-1932-ci illərdə 70% aşağı düşmüşdür. 1933-cü ilin dekabrında Montevideoda keçirlilən VII Panamerika konfransında bu məsləyə xüsusi ilə toxunuldu. Konfransda ABŞ nümayəndə heyyətinə dövlət katibi Xell başçılıq edirdi. Konfransda kəskin mübahisələrdən sonra belə bir qərar qəbul edildi ki, heç bir ölkənin başqa ölkələrin daxili işinə qarışmağa ixtyarı yoxdur. Bu konfransdan sonra ABŞ 1934-cü ildə Kuba ilə bağladığı müqaviləyə görə müstəmləkəçilik xarakterli «Plata düzəlişindən» imtina etdi. ABŞ-ın dəniz piyada qoşunları 19 illik işğaldan sonra Haiti ərazisini tərk etdilər. 1936-cı ildə ABŞ-la Panama arasında bağlanan müqaviləyə əsasən 1903-cü il müqaviləsinə qismən baxıldı, Lakin Panama kanalı zonası ABŞ-ın hüquq mühafizə orqalarının nəzarətində qaldı.

ABŞ-la Latın ölkəlri arasında bağlanan sazişlərin əksəriyyəti qarşılıqlı surətdə tariflərin aşağı edilməsinə həsr edilmişdir. 1934-cü ildən 1935-ci ilə qədər ABŞ-ın idxal-ixrac bankı 18 Latın Amerikası ölkəsinə 500 milyon dollar həcmində istiqraz təqdim etmişdir.

«Mehriban qonşuluq» siyasətində xüsusi yeri Ruzveltin təşəbbüsü ilə Buenes-Ayresdə 1936-cı ilin 1-23 dekabrında çağrılmış, sülhün qorunması məsələsinə həsr edilmiş Amerika dövlətlərarası konfrans idi. Konfransda qarışmamaq haqqında protokol qəbul edildi ki, bu da 1933-cü il bəyamnaməsini həm təsdiq edir, həm də onun



gücünü artırırdı. Sonra bu sənədləri ABŞ senatı da təsdiq etdi. Orada göstərilirdi ki, istər bilavasitə, istərsədə dolayı yolla hər cür müdaxilə qadağandır.

Konfransın digər mühüm sənədi konvensiya bağlaması idi ki, bu konvensiya qərb yarımkürəsində ABŞ-ın başçılığı ilə siyasi blokun yaranmasının başlanğıcını qoydu.

«Mehriban qonşuluq» siyasəti ən güclü sınağa 1933-cü ildə məruz qaldı. Meksikada aqrar islahat keçirdiyi üçün ABŞ vətandaşlarının iri torpaq sahəlrini müsadirə edilməyə başlandı. Həmin il Meksika kapitalist öləkələri içərisində birinci olaraq neft sənayesini milliləşdirdi. ABŞ hökuməti Meksikaya güclü diplomatik təzyiq göstərdi və konpensasiya ödəməsini tələb etdi. Meksikadan gümüş almaq haqqında sazişi pozdu.

ABŞ-ın mehriban qonşuluq siyasəti 1938-ci ilin dekabr ayının 9-27-də olmuş VIII Panamerikan kofransında nəticəni verdi. Bu Amerika həmrəyliyi haqqında Limada deklarasiya elan edildi. Konfransda 100-ə qədər qətnamə qəbul edilmişdir. Almaniyanın Perudakı səfiri Berlinə xəbər verdi ki, konfransın qətamələrinin əksəriyyəti bizə qarşı çevrilmişdir. Lima konfransı Latın Amerikası öləkəlrinin gələcək siyasətlərinin ABŞ-a tərəf istiqamətləndirdiyini nümayiş etdirdi. «Amerika amerikalırar üçündür» şüarı olan Monro doktorinası XX əsrin 30-cu illərində daha mühüm əhəmiyyət kəsb edirdi. Hökumətin xarici siyasətinin mühüm istiqamətlənrindən biri də Sovet İttifaqını diplomatik tanınması idi. Ruzvel hökuməti Sovet-Amerikan münasibətlərinin normallaşmasına Uzaq Şərqdə ABŞ-ın mövqeyinin güclənməsinin mühüm amili kimi baxılırdı. 1933-cü ilin noyabrın 16-da SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yarandı. Uzaq Şərqdə vəziyyət kabinetin artıq ikinci iclasında müzakirə edildi. Orada həmçinin qərara alındı ki, artıq «SSRİ-ni «tanımamaq» diktorinasını davam etdirmək olmaz. Çünki ABŞ-ın Uzaq Şərqdə çox ciddi diplomatik münasibətləri toqquşdu. Amerika-yapon ziddiyətləri qaçılmaz idi. Mancuriyanın Yaponiya tərəfindən işğalından sonra bu münasibətlər daha da kəskinləşdi. Siyasi diplomatik rəqabətdə ABŞ 1921-1928-ci illərdə Vaşinqton konfransında bağlanmış sazişdən istifadə etdi. 1928-ci ildə bağlanmış pakt da ABŞ-a imkan verdi ki, Yaponiyanı günahlandırısın. Onlar Yaponiyanı həmçinin 1922-ci ildə Vaşinqtonda Çinin ərazi bütovlüyü haqqında 9 dövlət sazişini pozmaqda da günahlandırdı.

ABŞ-ın Uzaq Şərqdə Yaponiyaya qarşı siyasətinin əsas məqsədi Yaponiya ilə konfilikdən uzaqlaşmaq idi. 1934-cü ilin 24 martında ABŞ konqersi qanun qəbul etdi ki, 10 ildən sonra Filippinə müstəqillik verəcəkdir.

ABŞ-ın Avropada vəziyyətinin kəskinləşməsindən də Yaponiya ilə kompromisə gəlməkdə istifadə etdi. Bu dövrdə Yaponiya ABŞ-dan vacib hərbi-strateji materialların, demək olar ki, yarısını alırdı. Doğrudur, bu ABŞ ictimaiyyəti tərəfindən kəskin tənqid edilir, Yaponiyaya qarış qəti tədbirlər görülməsini tələb edilirdi.

1933-cü ilin dekabrında SSRİ müharibənin qarşısını almaq üçün kollektiv təhlükəsizlik sistemi yaratmaq təklifi ilə çıxış etdi. 1934-cü ilin sentyabr ayında Millətlər Cəmiyyətinə girmək haqqında təklif qəbul edildi. Artıq 1933-cü ilin sonunda Sakit Okeanda təhlükəsizliyi və hücum etməməyi təmin etmək haqqında akt bağlamaq ideyası irləi sürüldü, çünki, Yaponiya burada təkcə Çini və SSRİ-ni deyil, həmdə Böyük Britaniya, Fransa və ABŞ-ı hədəlyirdi.

Təsadüfü deyildir ki, həmin layihə uzun illər gündəlikdən çıxarılmadı. Lakin ABŞ-ın Yaponiya təhlükəsi haqqında bəyanatları heç cür möhkəmləndirilmirdi. ABŞ çalışırdı ki, SSRİ və Yaponiya toqquşsun, ABŞ isə kənarda qalsın. Səfir Bolfur bildirdi ki, ABŞ Uzaq Şərqdə müharibə aparmağı bacarmaz, sadəcə Sovet İttifaqına mənəvi yardım edə bilər. 1937-ci ilin yayında ABŞ qəti sürətdə sovet təklifini qəbul etmədiyini bilidirdi.

1934-cü ilin ortalarında SSRİ yenə Avropada təhlükəsizlik sistemi yaratmaq məsələsini ortaya atdı. Həmin ilin sonunda xarici işlər naziri M.M. Litvinov ABŞ hökumətinə konfransın Baş komissiyasının təşkili haqqında layihəni təqdim etdi. Lakin həm ABŞ, həmdə digər kapitalist ölkələri SSRİ ilə əməkdaşlıq etmək istəmədiklərini bildirdilər. Litvinovun layihəsi həyata keçirilməmiş qaldı.

Hər halda söhbət ümumdünya miyqasında sülhdün gedirdisə, ABŞ uzun müddət Uzaq Şərqdə və Avropada təcavüzü genişlənməsinə heç bir münasibət bəsləyə bilməzdi. Bu mövqe 1935-ci ilin avqustunda ABŞ-ın bitərflik haqqında qəbul etdiyi qanunda özünü göstərdi. ABŞ SSRİ ilə siyasi əməkdaşlıqdan imtina etmək üçün SSRİ-dən inqlaba qədərki borclarını verməyi tələb etdi.



Bu SSRİ-ni məcbur etdi ki, o da qarşılıqlı tələblər irəli sürsün. SSRi bildirdi ki, ABŞ-a xarici hərbi müdaxilə və vətandaş müharibəsi dövründə SSRİ-yə vurduğu ziyanı ödəsin. Həmçinin öz növbəsində SSRi bildirdi ki, onlar üçün ən səas, ciddi məsələ sülhü qorumaqdır, bütün digər mənafelər buna qurban verilməlidir. Belə bir mövqeni həmçinin bəzi uzaqgörən ABŞ xadimləri, həmçinin məşhur diplomat N. Devis də müdafiə edirdi. 1935-1936-cı illərdə keçirilən dəniz konfransında ihtirak edən Devis sovet nümayəndə heyyətinə bildirmişdir ki, bütün maliyyə və iqtisadi mübahisələri təclili ləğv etmək lazımdır. Həmçinin göstərdi ki, böyük siyasi problemləri nizama salmaq üçün ABŞ-la SSRİ-nin əməkdaşlığı son dərəcə vacibdir.

Mübahisəli məsələri nizama salmaq haqqında məsələ hələ 1933-cü ilin noyabrında olmuş Litvonovla Ruzvelt arasında danışıqlarda da öz əksini tapmış və onların arasında «Centelment sazişi» bağlanmışdır. Həmin sazişdə göstərirdi ki, ABŞ-ın SSRİ-yə təqdim edəcəyi istiqrazların faizi yüksək olsun və bunlar tədricən köhnə borcları ödəsin. Borcsun miqdarı 75 milyondan 150 milyon dollara qədər məbləğində müəyyən edilmişdir.

1935-ci ilin yanvarın sonunda dövlət departamenti rəsmi olaraq elan etdi ki, maliyyə-iqtisadi məsələlrə dair sovet-amerikan danışıqları qurtarır. Bunun ardınca qərar qəbul edildi ki, ABŞ-ın Moskvadakı baş konsulluğu bağlanır, həmçinin SSRİ-də ABŞ-ın səfirliyi ixtisar edilir, hərbi-hava və hərbi-dəniz atteşesi geri çağrılır. ABŞ-la SSRİ arasında münasibətlər pisləşdi.

SSRİ bildirdi ki, o, ABŞ-la ticarət etmədən də keçinə bilər. Sovet-Amerika münasibətləri 1935-ci ilin iyun-avqust aylarında keçirilən Kominternin VII konqresinin qərarları ilə əlaqdadar olaraq ABŞ-ın SSRİ-nin onun daxili işlərinə qarışdığının bildirilməsi ilə əlaqdar olaraq daha da kəskinləşdi. SSRİ ABŞ-ın notasını təxirə salaraq bildirdi ki, ümumi sülh naminə SSRİ ABŞ-la əməkdaşşlıq etməyə hazırdır. Əvəzində isə ABŞ tələb etdi ki, SSRİ ABŞ-da kommunist təbliğatını dayandırsın, həmçinin köhnə borclarını ödəsin. Ticarət münasibətlərini nizama salmaq sahəsində bir sıra müsbət addımlar atıldı. 1935-ci ilin aprelində başlayan danışıqların gedişində SSRİ bildirdi ki, SSRİ ABŞ-dan mal almağı artıra bilər, bu şərtlə ki, ABŞ-ın SSRİ-dən tələbləri bir qədər yumuşaldılsın. 1935-ci ilin iyul ayının 13-də ABŞ-la SSRİ arasında ticarət sazişi bağlandı. Bu saziş

iki il üçün nəzərdə tutulmuşdu. Tarifin aşağı salınması başqa ölkələrdə nəzərdə tutulduğu kimi SSRİ-yə də şamil edildi.

1937-ci ilin avqustunda ABŞ-la SSRİ arasında ticarət sazişi imzalandı. Bu saziş 1951-ci ilə qədər davam etdi. Ansaq 1951-ci ildə ABŞ birtərəfli qaydada ondan imtina etdi.1935-1937-ci ilin ticarət sazişləri nəticəsində sovet ixracında ABŞ-ın payı 7% təşkil edirdi. ABŞ-dan SSRİ-yə idxal edilən ABŞ malları isə yenə də başqa dövlətlərlə müqayisədə birinci yeri tuturdu. ABŞ-a SSRİ-dən ixrac əsasən, marqans, dəri materialı, polimateriallar, asbest, konserv, ikra, tütün, parça idi. ABŞ-dan ixrac isə müxtəlif növ maşınlar və dəzgahlar idi ki, bunlar da ABŞ-ın bütün SSRİ-yə ixracının 67%-i təşkil edirdi.

Bir sıra siyasi xadimlər, o cümlədən ABŞ-ın SSRİ-də ki, səfri belə hesab edirdi ki, ABŞ-la SSRİ arasında siyasi əməkdaşlıq arzu edilən formada ola bilər. Onlar 1936-1937-ci illərdə SSRİ-nin sülhü qorumaq sahəsində maraqlarını dərindən öyrənərək bu nəticəyə gəlmişdilər. Moskvadan gələrkən Devis özü ilə belə bir inam gətirmişdir ki, ABŞ-a münasibətdə SSRİ-nin dostluğu və səmimliliyi başqa ölkələrə nisbətən daha yüksək dərəcədədir. Hər iki ölkənin xalqları arasında qarşılıqlı anlaşma və inamın artmasında və onlar arasında dostluq münasibətlərinin inkişafında Devisin böyük xidmətləri olmuşdur. Artıq İkinci Dünya müharibəsi başlanana qədər ABŞ-da ictimai rəydə SSRİ-yə qarşı dostluq münasibətləri formalaşmışdır. Təkcə onu demək kifayətdir ki, SSRİ-nin ABŞ tərəfindən tanınması beynəlxalq münasibətlərdə çox böyük hadisə idi. ABŞ-da 1934-cü ildə keçirilən Amerika gənclər konqresində də SSRİ-nin sülh uğrunda mübarizəsi yüksək qiymətləndirilmişdir. Mühafizəkar qüvvələr hər vəchlə sovet-Amerikan münasibətlərinin inkişafına mane olmağa çalışırdılar. Lakin tədricən bu anti-sovet kampaniya məğlubiyyətə uğradı. 1936-cı ilin may ayında ABŞ-dakı sovet səfirliyi Moskvaya məlumat verdi ki, ABŞ əhalisinin çox geniş dairələrində SSRİ-yə marağın artması şübhəsizdir. Artıq bu dövürdə ikitərəfli mədəni və elmi-texniki əlaqələrin inkişafında mühüm irəlləyişlər var idi. Belə ki, ABŞ-da sovet filimləri nümayiş etdirilir, sovet sərgiləri təşkil edilir, Moskvadan konsertlər, musiqi verlişləri verilirdi. 1937-ci ildə A.Eynşteyn, T. Drayzer, P.Robson və digər elm və mədəniyyət xadimlərinin iştirakı ilə Puşkinin ölmünün 100 illiyi ilə əlaqədar ABŞ-ın böyük şəhərlərində tədbirlər keçirilmişdir.



Amerika xalqının əhval-ruhiyyəsini nəzərə alan ABŞ hökuməti də SSRİ ilə münasibətləri normal məcaraya doğru yönəltməli oldu. İkinci Dünya müharibəsi gedişində bunun vacibliyi bir daha sübut edildi.

1935-1941-ci illərdə fəaliyyətdə olan ABŞ-ın birtərəfliliyi haqqında qanunvericilik aktı gərgin ideya mübarizəsi ilə müşayət olundu. Bir sıra tarixçilər göstərirlər ki, ABŞ İkinci Dünya mübaribəsinə özünun milli mənafeyi naminə deyil, təmannalı məqsədləri naminə girmişdir. Bir sıra xadimlər isə qeyd edirlər ki, ABŞ milli mənafeyi naminə bitərəflilik siyasətindən əl çəkmiş və Ikinci dünya müharibəsində iştirak etmişdir.

Bitərəflilik haqqında qanunvericilikdə ilk əvvələr demokratik və liberal elementlər çoxluq təşkil edirdi. Milli mənafe nəzər alındığına görə, əlbbəttə müsbət əhəmiyyət kəsb edirdi. Lakin artıq Uzaq Şərqdə və Avropada müharibə ocaqlarının yarandığı və təcavüzün genişləndiyi bir şəraitdə ABŞ dünya birliyinə üzv olduğu üçün milli mənafeyi ümumi mənafeyi ilə toqquşdu. Lakin 1939-cu ilə qədər ABŞ öz milli mənafeyini daha üstün tuturdu.

Bitərəflik haqqında qanunvericilik aktında nəzərtə tutulurdu ki, müharibə edən ölkələrə ABŞ istiqrazlarının verilməsi qadağan edilsin. Amerika vətandaşlarının hərbi əməliyyat zonalarında üzməsi qadağan edilirdi. Müharibə edən ölkələrə silah ixracı üzərində embarqo qoyulurdu. Silah alveri ancaq qeydiyyat yolu ilə ola bilərdi. Silah ixracı üzərində embarqo qoymaq bitərəflik haqqında qanunvericilik aktının əsas müddəalaından biri idi.

Beynəlxalq gərginliyin artması şəraitində geniş ictimaiyyətə bitərəflik məsələsinə maraq artmağa başladı. Bitərəflik formulu Amerikanın izolyasionizm ənənəlrinə cavab verdi. Bu cavab belə idi ki, biz Avropanın, Avropada bizim işimizə qarışmır. 1935-ci ilin yazına yaxın, yəni Almaniyanın Versal müqaviləsini pozaraq ümumi hərbi mükəlləfiyət elan etməsindən və faşist İtaliyasının Efopiyaya hücumundan sonra bitərəflik ətrafında diskusiya gücləndi. Konqresdə mübahisələr və müzakirələr müharibə edən ölkələrə silah satılması üzərində gedirdi.

31 avqust 1935-ci ildə Ruzvelt bitərflik haqqında qanunu imzaladı. 1937-ci ilin ortalarında is onu tam qəbul etmiş hesab etdi.

Qanunda birinci maddə əsas idi. Bu maddədə müharibə edən öləkələrə silah satlıması qadağan edilirdi.

Digər maddədə isə göstərilirdi ki, Amerika gəmilərində silah satılması qadağan edilsin. Birinci dəfə bitərəflik haqqında qəbul edilən qanun altı ay müddətində qüvvədə ola bilərdi. Sonra qəbul edilən bitərəflik haqqında qanunda onun müddəti uzadlıdı, bir qədər sonra daimi oldu. Bitərəflik haqqında qanun ABŞ-ın xarici siyasətinin iki bir-biri ilə bağlı olan məqsədini həyata keçirdi. Bunlardan biri, həlledici qərarlar qəbul etmək üçün «sərbəst qol»u özündə saxlamaq, istənilən «nizama salma» məsələsində onun həll edici səsini təmin etsin. Artıq bu zaman «ox» dövlətləri özlərinə inanırdılar ki, ABŞ o, zamanə qədər kənarda qalacaqdır ki, onlar Avropanın və Asiyanın xəritəsini öz xeyrinə böləcəkdirlər.

ABŞ-ın xarici siyasəti faşizmin əl-qol açması üçün imkan yaradırdı. İtaliya-Efiopiya müharibəsi və Yaponiya–Çin müharibələri zamanı bitərəflik haqqında qanunda heç bir dəyişiklik edilmədi. ABŞ-ın bitərflik siyasəti bu dövrdə İngiltərə və Fransanın «qarışmamaq» siyasəti ilə üst-üstə düşürdü.

İtaliyanın təcavüzündən sonra Millətlər Cəmiyyətində İtaliyaya qarşı iqtisadi sanksiya tədbiq edilərkən, neft buraya daxil edilmədi. Çünki o zaman dünyada əsas neft ixrac edən ölkə ABŞ idi. Bu illərdə ABŞ-dan İtaliyaya neft ixracı nəinki azaldı, əksinə artdı. Təkcə bir faktı demək kifayətdir ki, 1935-ci ilin 11 ayı ərzində İtaliyanın Afrikadakı müstəməlkəlrəninə göndərilən amerikan neftinin miqdarı 4,5 milyon tondan 6,72 milyon tona çatdı.

Xarici siyasət kursunu müəyyən etmək üstündə izolyasionistlərlə internasionalistlər arasındı müntəzəm mübarizənin əsas arenası konqres idi. İnternasionalistlərin başında Ruzvelt durudu. Onun kabinetinin üzvlərindən Q.İkes, dövlət məmurlarının nümayəndələrindən N.Devis, Q.Feys, səfirlərdən C.Devis, K.Baures. respublikaçılardan keçmiş dövlət katibi Stimson da Ruzveltin tərəfində idilər.

Senatda Ruzveltin tərəfdarlarına demokratlardan olan K.Pitmmen, nümayəndələr palatasında isə demokrat S.Mikreynolds başçılıq edirdi.

İzolyasionistlər dövlət departamentində güclü idilər və onlar daha çox konqresdə fəallıq göstərirdilər. Senatdakı izolyasionistlər qrupuna U.Bor və X.Conson başçılıq edirdilər ki, onlar yaşlı və nüfuzlu senatorlar idilər. Onlar respublikaçılar partiyasının sol qanadına mənsub idilər. Onlar belə hesab edirdilər ki, Avropa



müalicəsi mümkün olmayan xəstədir, ona görə biz diqqəti ABŞ-ın daxili problemlərinə verməliyik. Onlar ABŞ-ın beynəlxalq mənafeyninin müdafiəsindən imtina etmirdilər, lakin belə hesab edirdilər ki, bunun üçün bitərəflik statusundan istifadə etmək vacibdir. Digər halda ABŞ müharibəyə cəlb edilə bilər. İzolyasionistlərin digər qrupuna isə respublikaçı-senatorlardan C.Noyrd, A. Vanderberq və senator demokrat B.Klark başçılıq edirdi. Onlar isə belə hesab edirdilər ki, müharibəyə qarışmadan Avropanın işlərində fəal iştirak etmək lazımdır. Ancaq bitərəflik hüqüqunu bütün hallarda saxlamaq, hətta müharibə baş verəcək hallarda da dəyişməmək, xüsusi ilə xarici ticarətdə bu prinsipi gözləməyi vacib hesab edirdilər. Nümayəndələr palatasında izolyasionistlərin nümayəndəsi demokrat M.Meverin, respublikaçı Q.Fiş və başqaları idi.

İzolyasionistlərin və internasianistlərin düşərgəsində konqresdən kənarda də müxtəlif qüvvələr toplaşmışdır. İzolyasionistələrə meyl edənlərdən «iqtisadi millətçilər», tarixçi Ç.Mirdş, publisist Ç.Birdn və iqtisadçı S.Çeyzin başçılıq etdiyi «kontinentalistlər», yazıçı T.Drayzerin, sosiolist N.Tomasın başçılıq etdikləri antiimperalistlər, C.Murun, həmkarlar ittifaqları nümayəndələrinin müəyyən hissəsinin də daxil olduğu neytralistlər, ABŞ-ın keçmiş prezidenti Q.Huverin, polkovnik Ç.Lindenberqin, qəzet maqnatı U.Xaratın başçılıq etdiyi konservatorları göstərmək olardı. Lakin nə təşkilati cəhətdən, nə də ideya-siyasi cəhətdən onlar bir stolda əyləşməyi bacarmırdılar. Huver belə hesab edirdi ki, həlledici anda müharibəyə müdaxilə etmək üçün hazırlaşmaq lazımdır.

İnternasionalistlərin cəbhəsində nisbətən yekdillik var idi. Onlar belə hesab edirdilər ki, müasir dünyada beynəlxalq əməkdaşlıqdan kənarda qalmaq mümkün deyil. Əslində ABŞ-ın bitərəflik siyasətini gözləmə strateygiyası kimi səciyələndirmək olardı.

1936-cı ilin fevralında İtlayanın Efiopiyaya qarşı təcavüzkarlığı davam edən dövrdə konqres yenidən bitərəflik haqqında məsələyə baxdı. Hökumət ictimaiyyətin xeyli hissəsinin tələbi ilə bitərəflik siyasətində dəyişiklik etmək qərarına gəldi. Məsələ belə idi ki, bu qanun ya təxirə salınsın, ya da onda prinsipal dəyişkliklər edilsin. Uzunmüddətli müzakirələrdən sonra belə qərara

alındı ki, embarqonun vaxtı 1937-ci il may ayının 1-ə qədər uzadılsın və bitərəflik haqqında üç yeni dəyişiklik edilsin. Bu dəyişikliklər aşağıdakılar idi:

1. Müharibə edən ölkələrə kredit və istiqraz verilməsi qadağan edilsin;

2. Hazırda müharibə aparan ölkələrə embarqo qoyulması mütləq genişləndirilsin;

3. Latın Ameriksı ölkələrinə qeyri-amerkan dövlətləri hücum edərlərsə, qanunun fəaliyyətində dəyişiklik edilsin.

Bitərəflik haqqında qanunun uzadılması imperalistlərin daha da əl-qol açmasına imkan verdi.

1936-cı ilin prezident seçkiləri kampaniyasında respublikaçılar yenə də «ABŞ-ın ənənəvi xarici siyasətini əlində dayaq edərək» ABŞ-ın Milltlər cəmiyyətindəki üzvlərinə qarşı, ümumiyyətlə istənlilən ittifaqa qarşı çıxır, «xarici işlərə» qarışmamağı tələb edirdilər. İzolyaisonistlərin fikirlərini daha çox «ittifaq partiyası» müdafiə edirdi. Bu partiya xarici işlərə hər hansı bir formada müdaxilə etməyin əleyhinə idi.

Ruzvelt aydın xətt götürdü. O, amerikalıları əmin etdi ki, ölkəni müharibədən qoruyacaq, eyni zamanda ABŞ-la bağlı beynəlxalq sazişləri pozanlara da laqeyd qalmayacaqdır. Ruzvelt göstərdi ki, biz izolyasionist deyilik, ancaq biz çalışırıq ki, özümüzü müharibədən təcrid edək. Məhz Ruzveltin bu çıxışları 1936-cı ilin noyabrın 3-də keçirilən seçkilərdə ona qələbə gətirdi.

ABŞ-da 1936-cı ilə prezident seçkiləri ərəfəsində İspaniyada faşist qiyamının başlanması ilə orada vətandaş müharibəsi başlamış oldu. Berlin və Romada faşist diktatorlar dərhal onu müdafiə etdilər.

1936-1939-cu illər İspaniya hadisələrində ABŞ-ın rəsmi xətti əslində İngiltərə və Fransanın təşəbbüsü ilə 27 Avropa dövlətinin imzaladğı «qarışmamaq» haqqında sazişlə üst-üstə düşürdü. ABŞ İspaniyaya silah satışı üzərində embarqo qoymaqla əslində beynəlxlalq hüquq normalarını pozmuş oldu. Bu embarqo faşist dövlətləri tərəfindən çox razılıqla qprşılandı. Bu hadisədən dərhal sonra ABŞ-ın özündə kütləvi narazılıq başlandı. ABŞ xalqı İspaniya demokratiyası ilə həmrəy olduğunu bildirdi. İspaniyaya kömək məqsədi ilə bir sıra təşkilatlar yarandı. Onların içərisində ən görkəmlisi Şimaili Amerika komitəsi idi. Bu komitə vasitəsi ilə



İspaniya Respublikasına kömək üçün 1305 min dollar pul toplanmışdı.

1937-ci ilin may ayının 1-də bitərəflik haqqında yeni qanun layihəsi qüvvəyə mindi. Bu qanunda əvvəlkindən fərqli olaraq edilən əsas dəyişiklik ondan ibarət idi ki, müharibə edən ölkələrə silahdan başqa, yerdə qalan mallar ancaq «Keş end kerri» Prinsipi üzrə satlımalı idi, yəni ABŞ-a malların dəyəri birbaşa ödənilməli, bu mallar həmin öləkəlrin öz gəmilərində aparılmalı idi.

Yaponiyanın Çinə soxulması ilə ABŞ-Yaponiya ziddiyətləri dahada gücləndi və onlar arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Lakin ABŞ münasibətləri çox da gərginləşdirmək istəmirdi. O, Yaponiyanı sakitləşdirmək xəttini götürdü. Bitərəflik haqqında qanunda dəyişiklik edilmədiyinə görə ABŞ Yaponiya ilə ticarətini davam etdirirdi, çünki bu ABŞ inhisarlarının maraqlarına uyğun idi. Məhz bu qanun nəticəsində Yaponiya uzun müddət bir sıra strateji malların əksəriyyətini ABŞ-dan alırdı. Ölkədə isə xalq Yaponiya ya mal satmağa embarqo qoymağı, yapon mallarını daxili bazarda baykot etməyi tələb edirdi.

Belə bir zamanda 1937-ci ilin oktyabr ayının 5-də Çikaqoda F.Ruzveltin çıxışı ABŞ daxilində və başqa öləkələrdə, çox böyük əks-sədaya səbəb oldu. Prezident kəskin ifadə ilə «terror rejimlərinin mövcud olduğunu» və bunun beynəlxalq hüquq qaydalarına zidd olduğunu göstərdi. O, beynəlxalq təcavüzə son qoymağa çağırda və bu yolxucu xəstəliyi məhv etmək mümkün olmasa da, ona karantin qoymağın vacibliyini qeyd etdi.

1937-ci ilin noyabrında ABŞ öz nümayəndə heyətini Brüsseldəki maraqlı dövlətlərin Uzaq Şərqdə sülhün bərpasına həsr edilmiş konfransa göndərdi. Orada 18 dövlət, o cümlədən SSRİ-də iştirak edirdi. Onlar Çinin ərazi bütövlüyünü və müstəqilliyini müdafiə etdiklərini bildirdilər. ABŞ Britaniya ilə danışıqlar apardı ki, Yaponiyadan dinc yolla Çindən əl çəkməyi tələb etsin. Bu «Uelles planı» adlanırdı.

Yaponyia Uzaq Şərqdə ABŞ üçün təhlükə törətməsinə baxmayaraq ABŞ belə hesab edirdi ki, ən böyük təhlükə ocağı Avropadandır, ən böyük müharibələr orada törədilə bilər. Ona görə Almaniyaya daha çox diqqət yetirməyi vacib bilirdi. Artıq 1937-ci ilin sonunda Ruzvelt Almaniya, İtaliya və Yaponiyanı «quldur» ölkələri kimi səciyələndirdi. ABŞ hökuməti ictimaiyyətin tələbi ilə,

Almaniya əleyhinə bir sıra qərarlar qəbul etdi, konqesin liberal nümayəndəlri tərəfindən faşizm tənqid edilməyə başlandı. Nəhayət ,ABŞ hökuməti qərara aldı ki, Almaniyaya strateji məhsul olan helium satışını dayandırsın. 1938-ci ildən başlayaraq ABŞın xarici siyasətində İngiltərə ilə yaxınlaşma hiss ediləməyə başlandı. Ruzvelt bildirdi ki, İngiltərə dominionları təhlükə qarşısında qalarsa, ABŞ bu məsləyə laqeyd qalmayacaqdır.

1939-cu ilin əvvələrində Ruzvelt konqresə məktubla müraciət etdi ki, ABŞ-ın təhlükəsizliyi qorxusu artmaqdadır. O, məktubda göstərdi ki, bu qanun təcavüzkarın qurbanını köməkdən məhrum edir.[1] O, göstərdi ki, ABŞ hökuməti qarşısında öz siyasətini dəyişmiş şəraitə uyğun qurmaq vəzifəsi durur.

Münhen sövdələşməsindən sonra ABŞ xarici siyasətində əsas istiqamətlərdən biri İngiltərə və Fransa ilə yaxınlaşmaq və ölkənin hərbi hazırlığını gücləndirmək idi. Almaniyada həyata keçirilən antisemitizim proqramı ABŞ-la Almaniya arasında münasibətləri daha da kəskinləşhdirdi. ABŞ öz səfiri X.Vilsonu ordan geri çağırdı.

1939-cu ilin yazında Avropada vəziyyət çox kəskinləşmişdi. İspaniya respublikası süqut etmiş, Çexslovakiya, Albaniya işğal edilmiş, Qlaypeda Litvadan qoparılmışdır. Ruzvelt inzibati idarəsi növbəti dəfə Almaniya və İtaliyanın məsələsini konqesdə müzakirə etmək təklifi ilə çıxış etdi. ABŞ Almaniya tacirləri ilə mal mübadiləsi haqqında sazişləri ləğv etdi və alman malları üzərindəki tarifləri 25% artırdı. Bu əslində Almaniyaya iqtisadi müharibə élan etmək idi.

ABŞ-ın Asiyadakı mövqeyində də həyəcan artdı. Senatın xarici işlər üzrə komissiyasının sədri Pitmen təklif etdi ki, nə qədər ki, Yaponiya öz siyasətini dəyişmir, ABŞ-ın Yaponiyadan aldığı mallar içərisində xüsusi yer tutan ipək alınmasın, ABŞ-da ona hərbi mallar satmasın.

ABŞ Yaponiyanın 1939-cu il fevralında Tayvanı tutmasını, onun Cənub-Şərqi Asiyaya müdaxiləsini pislədi. 1939-cu ilin fevral-aprel aylarında ABŞ hökuməti Yaponiyaya qarşı iqtisadi sanksiya tətbiq etməyin bir neçə variantını müzakirə etdi. Lakin ABŞ-ın Yaponiyadakı səfiri bunun tərəfdarı olmadığını bildirdi. O deyirdi ki, bu ABŞ-Yaponiya münasibətlərini daha da kəskinləşdirə bilər. Ona görə də, ABŞ hökuməti bu məsələdə heç bir qərara gələ bilmədi. ABŞ hökumətinin SSRİ ilə münasibətlərində 1938-ci ilin yazında çox böyük soyuqluq var idi. Hətta Moskvada ABŞ səfiri də yox idi. 1939-



cu ilin avqust ayının 16-da F.Ruzvelt Moskvaya xüsusi məktub göndərəmklə «qəhramanlıq gücü» göstərmiş oldu. Lakin bu vaxt artıq SSRİ Almaniya ilə bir-birinə hücum etməmək haqqında 10 illik müqavilə bağlamaq qərarına gəlmişdir. Ona görə də məktub əməli səmərə vermədi. Lakin hər halda məktubda göstərilmişdir ki, SSRi və ABŞ-ın maraqları üst-üstə düşür. Çünki, «ox» dövlətlərinin Avropada və Asiyada hər hansı bir uğuru istər ABŞ-ın, istərsədə SSRİ-nin mənafeyinə toxunur. Lakin bütün bunlarla bərabər ABŞ-ın bitərəflik siyasətindən əl çəkməsi 1939-cu ilin sentyabr ayında İkinci dünya müharibəsinin başlanmasında mühüm amillərdən biri oldu. Lakin İkinci Dünya müharibəsi başladıqdan heç bir ay keçməmiş ABŞ bitərəflik siysətində dəyişiklik etmək qərarına gəldi.

Ümumiyyətlə, Franklin Ruzveltin «Yeni xətt» proqramı XX əsrin 30-cu illərində ABŞ xalqının əhval-ruhiyyəsinə və beynəlxalq vəziyyətinə cavab verəcək bir səviyyədə hazırlanmışdır. Məhz buna görə də bu siyasət ABŞ xalqı tərəfindən dəstəklənmiş, Franklin Ruzvelt ABŞ tarixində dörd dəfə prezident seçilən yeganə şəxsiyyət olmuşdur. Onun müdrik bir insan, real siyasətçi və böyük tarixi şəxsiyyət kimi İkinci Dünya müharibəsində faşizim üzərində qələbədə göstərdiyi xidmət şəksizdir.

Bir sözlə, Franklin Ruzveltin xidmətləri həm ABŞ xalqı həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Təsadüfü deyildir ki, o, XX əsrin ikinci böyük adamı hesab edilmişdir.

**ABŞ İkinci Dünya müharibəsi illərində**

İkinci dünya müharibəsi 1939-cu ilin sentyabrın 1-də Almaniyanın Polşaya hücumu ilə başladı. İngiltərə və Fransa isə sentyabrın 3-də Almaniyaya müharibə elan etdilər.

İkinci dünya müharibəsi başladıqdan az sonra sentyabrın 3-də F.D.Ruzvelt amerikan xalqına müraciət edərək ölkəni müharibədən kənarda saxlayacağını qeyd etdi. Konqresin 1939-cu ilin sentyabrın 5-də keçirilən xüsusi sessiyasında 1937-ci ildə qəbul edilmiş «Bitərəflik haqqında» qanun qüvvəyə mindi. Ruzvelt 1935-ci ilin avqustundan sonra «Bitərəflik haqqında» sayca dördüncü olan qanunu 1939-cu ilin noyabrın 5-də imzaladı. Lakin tezliklə Qərbi Avropada Hitlerin işğalları ABŞ-ı da narahat etməyə başladı. Müharibə konqresi və hökuməti hərbi qüvvələrin artırılması üzrə iri planların yerinə yetirilməsinə başlamağa məcbur etdi. Çox gizli şəraitdə atam bombasının yaradılması işi inkişaf etdirildi. 1939-cu

ildə ABŞ-a böyük italyan fiziki Ferme gəldikdən sonra, zəncirvari nüvə reaksiyasının qiyməti müəyyənləşdirildi. Nüvə silahı hazırlamaq layihəsi «Manxetten» adlanırdı. ABŞ-ın Los-Alamos şəhərində laboratoriya təşkil edildi. 2 min elmi işçi və 150 min işçi bu işə cəlb edildi. Görkəmli alimlərdən R.Oppenqeymer, N.Bor, B.Buş, A.Komerton bu işlə məşğul olmağa başladılar. Hələ 1939-cu ilin payızında «Bitərəflik haqqında» qanuna yenidən baxıldı və Almaniya ilə müharibə edən ölkələr haqqını nəğd ödəmək və öz gəmilərində aparmaq şərti ilə ABŞ-dan silah və müharibə materilaları almaq imkanı əldə etmiş oldular. 1940-cı ilin sentyabrın 2-də bağlanmış sazişə əsasən İngiltərənin 1941-ci ilin əvvəllərində işləyib hazırladığı plan müharibədə onların koalision strategiyasının əsasını qoydu. ABŞ müharibədə iştirak etməsə də, getdikcə Böyük Britaniyaya hərbi-iqtisadi yardımı artırdı.

ABŞ-ın hərbi büdcəsi 1940-cı ildə 5 dəfə artırılaraq 10,5 milyard dollar təşkil etdi. ABŞ-ın 47 ştatı neytralitetin ləğv edilməsinə tərəfdar çıxdı. Avropada «qəribə» müharibə başa çtadıqdan sonra Ruzvelt «Milli müdafiə proqramı»nı irali sürdü. Bu proqrama əsasən konqress hərbi xərcləri 17,7 mld. dollara, ordunun sayını isə 280 min nəfərdən 1 mln. 200 min nəfərə çatdırmaq barədə qərar qəbul etdi. 1940-cı ilin sentyabr ayında «dinc dövrdə» ilk dəfə olaraq seçmə hərbi mükəlləfiyyət haqqında qanun qəbul edildi. Müəyyən ixtisası şəxslər orduya çağırıldı. İqtisadiyyatı yenidən qurmaq məqsədi ilə 1941-ci il iyulun 30-da vitse-prezident H.Uelles başda olmaqla İqtisadi Müdafiə İdarəsi yaradıldı. İqtisadiyyatı yenidən qurmaq üçün 20 yeni idarə təşkil edildi. Müharibənin başlanması amerikan iqtisadiyyatının inkişafına müsbət təsir göstərdi. 1940-cı ilin oktyabr ayında kapitalın amortizasiyası (kapitalın işlənməsi nəticəsində get-gedə onun qiymətinin azalması) haqqında qanun qəçbul edildi. Bu qanuna görə korporasiyaların ödədiyi vergilərin həcmi aşağı salındı. Ölkə iqtisadiyyatında iri şirkətlərin xüsusi çəkisi artdı. Lakin onu da qeyd etmək lazımdır ki, bu dövrdə ABŞ-dakı 184-min sənaye müəssisəsinin 150-yə qədəri ancaq hərbi sənaye ilə məşğul olurdu. Perl-Harbordakı hadisə ərəfəsində dünya silah istehsalında ABŞ-ın payı 12%-dən çox deyildi.

1940-cı ilin dekabr ayında Ruzvelt «ox» ölkələrinə qarşı döyüşən dövlətlərə amerikan yardımı göstərməyi təklif etdi. 1941-ci il yanvarın 10-da ABŞ konqresinə təqdim olunan amerikan silahlarını



və digər materiallarını başqa ölkələrə icarəyə verməyi nəzərdə tutan qanun layihəsi martın 11-də qəbul edildi. Bu «Lendz-liz sistemi» adlandırıldı. Lend-liz proqramının rəhbəri H.Hopkins idi. Həmin qanuna görə düşmənə qarşı müdafiəsinin ABŞ üçün həyati əhəmiyyəti olan ölkələrə borc olaraq və ya icarə qaydası ilə silah və ya hərbi material verilməsi nəzərdə tutulurdu. Bu, əslində ABŞ-ın öz təhlükəsizliyini müharibədə iştirak edən ölkələrin səyi ilə təmin etmək istədiyini göstərirdi. Lend-liz üzrə kömək alan dövlətlər ABŞ hökuməti ilə sazişlər imzalayırdı. Bu sazişlərə əsasən həmin dövlətlərə göndərilən və müharibə vaxtı məhv edilmiş, itirilmiş, yaxud işlədilmiş maşınların, müxtəlif hərbi texnikanın, silahın və sair predmetlərin haqqı müharibə qurtardıqdan sonra ödənilməli deyildi. Müharibədən sonra salamat qalmış və mülki istehlak üçün istifadə edilə biləcək malların və materialların haqqını Amerikanın verdiyi uzunmüddətli kredit əsasında tamamilə, yaxul, qismən ödəmək nəzərdə tutulurdu. Hərbi materialların qaytarılmasını ABŞ tələb edə blərdi. Əslində bu qanun ABŞ-ın «ox dövlətlərinə» qarşı elan edilməmiş müharibəsi demək idi. Qanun elə həmin gün İngiltərə və Yunanıstana tətbiq edildi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum etdikdən iki gün sonra iyunun 24-də Ruzvelt sovet hökumətinə kömək göstərməyə hazır olduğunu bildirdi. ABŞ hökumətinin 1941-ci il iyunun 23-dəki bəyanatında deyilirdi ki, «Hitlerizm əleyhinə hər hansı mübarizə onun mənşəyindən asılı olmayaraq, indiki alman rəhbərlərinin sonunu sürətləndirir. Hitler orduları bu gün Amerika qitəsi üçün başlıca təhlükədir». SSRİ-yə Almaniyanın hücumundan iki gün sonra ABŞ-ın ictimai rəyi öyrənən institutunun keçirdiyi sorğu zamanı əhalinin 72%-i Rusiyanın, 4%-i isə Almaniyanın qalib olmasını istədiyini bildirdi. Lakin ABŞ SSRİ-yə kömək etməzdən əvvəl bir neçə ay müddətində «Rusiyanın müqavimət göstərmək qabiliyyətinin» necə olduğunu özü üçün aydınlaşdırmış, bundan sonra isə öz mövqeyini müəyyənləşdirmişdir. 1941-ci ilin iyulun axırlarında Stalinlə Hopkinsin danışıqlarında müəyyən edildi ki, Qızıl Ordunun ən çox ehtiyacı olan şeylər – zenit topları, iri kalibrli pulemyotlar, tüfənglər, yüksək oktanlı aviasiya benzini və təyyarə istehsalı üçün lazım olan alüminiumdur. ABŞ əslində bu malları SSRİ-yə tez göndərməyə çalışmırdı. ABŞ-ın keçmiş xarici işlər naziri İkes yazırdı ki, ABŞ rəhbərliyi çalışırdı ki, «ruslar özlərinin bütün

qızılını, lap tükənənə qədər bizə versinlər, bu qızıl onlara göndərilən malların haqqı kimi hesab ediləcək. Həmin andan etibarən biz Lend-liz haqqında qanunu Rusiyaya tətbiq edəcəyik. Göndərilən malların haqqı olaraq SSRİ Birləşmiş Ştatlara həm də strateji xammal-manqan, xrom, asbest, platin və s. verirdi.

1941-ci ilin oktyabrın 1-də ABŞ prezidentinin nümayəndəsi A.Harriman Moskvada 9 ay müddətində – 1942-ci il iyunun 30-dək SSRİ-yə mal göndərilməsi barədə ilk protokolu imzaladı. İdxal edilən malların dəyəri 1 milyard dollar təşkil edirdi. Bu malların haqqını ödəmək üçün verilən müamiləsiz kredit müharibə qurtardıqdan 5 il keçdikdən sonra başlayaraq 10 il müddətinə qaytarılmalı idi. ABŞ-dan ilk dəfə SSRİ-yə mal göndərilməsi 1941-ci ilin oktyabr ayında oldu. Həmin ildə SSRİ ABŞ-dan 545 min dollar dəyərində müxtəlif silahlar və hərbi materilalar aldı. 1942-ci ilin fevralında Ruzvelt ikinci milyard dolları avans vermiş və kredit verilməsi şərtlərinə yenidən nəzər salmağı arzu etmiş, sonra isə Stalinə yazmışdı ki, amerikan silahlı qüvvələrindən istifadə etməyi də planlaşdırır. Bu məsələlər 1942-ci ilin mayında Molotovun ABŞ-a səfəri zamanı Vaşinqtonda müzakirə edilmişdi. Bir illik ikinci protokol hazırlandı, bu protkola müvafiq olaraq başlanğıcda 8 milyon ton material göndərmək nəzərdə tutulurdu. Lakin F.Ruzvelt əvvəl vəd edilmiş, amma 1942-ci ildə hələ açılmamış ikinci cəbhənin açılmasını təmin etməyi dəlil gətirərək SSRİ-yə mal göndərilməsi həcmini 2,5 milyon tona qədər azaltdı.

1941-ci ilin avqust ayında Nyufaundlend adasında Ruvelt və Çörçilin görüşündə müharibənin aparılması məqsədlərinə dair «Atlantika Xartiyası» qəbul edildi. Sənəddə aşağıdakı umumi prinsiplər elan edilirdi: bu dövlətlər ərazi iddialarına can atmırlar, hər hansı ərazi – sərhəd dəyişikliklərinə imkan verməyəcəklər, bütün xalqların öz müqəddəratını təyin etmə hüququna tərəfdardırlar; Almaniya məğlub ediləcək və nasional-sosializm rejimi tam məhv ediləcəkdir; dövlətlər mübahisəli məsələləri zor gücünə həll etməyəcəklər; dəniz və okeanlarda gəmilər sərbəst üzəcəklər; səmərəli əməkdaşlıq edəcəklər. ABŞ 1935-ci ildə qəbul edilmiş «Bitərəflik haqqında qanunu»nun bütün müddəalarından 1941-ci ilin dekabrınadək imtina etdi. ABŞ-ın bu addımı atmasına səbəb o idi ki, Almaniya bloku ölkələrinin iddialarının həyta keçirilməsi ABŞ-ın mövqeyinə ciddi zərlə endirərdi. Avropada qələbə qazanan və



Avrasiyaya nəzarət edən Almaniya ABŞ-ın fiziki mövcudluğunu sual altına qoymağa imkan qazanardı. Belə şəraitdə ABŞ-ın Almaniya bloku əleyhinə müharibəyə qoşulacağı şəksiz idi.

Yaponiya 70-ci meridiandan Şərqdə Avrasiyanı öz nüfuz dairəsi hesab edirdi. Müttəfiqləri də buna razılıq vermişdi. Şahzadə Konol Yaponiyada hakimiyyətə gəldikdən sonra 1940-cı ilin iyulunda Cənub-Şərqi Asiyanı işğal etmək və Sakit okeanda İngiltərə və ABŞ-la müharibə etmək qərarına gəldi. 1941-ci ilin yayında o Hind-Çinə qoşun yeritdi. ABŞ iqtisadi təzyiq və diplomatiya yolu ilə Yaponiyanı güzəştə getməyə məcbur etmək istəyirdi. 1941-ci ilin oktyabrında müdafiə naziri Todzio Yaponiyanın Almaniyadakı keçmiş səfiri Kurusu Vaşinqtona göndərdi ki, ABŞ-dakı səfir Nomurla birilkdə ABŞ hökuməti ilə danışıqlar aparsın. Lakin bu danışıqlar bir nəticə vermədi. 1941-ci ilin dekabrın 7-də Yaponiya Havay adalarında yerləşən Perl-Xarbordakı hərbi-dəniz bazasını bombardman etdi. 272 təyyarə, 5 gəmi sıradan çıxdı, 3 min adam öldü. Dekabrın 8-də Ruzvelt yaranmış vəziyyətlə bağlı konqresin hər iki palatasında çıxış etdi. Bundan dərhal sonra ABŞ İkinci dünya müharibəsinə qoşuldu. Elə həmin gün Fransa və İngiltərə Yaponiyaya, İtaliya və Almaniya isə ABŞ-a müharibə elan etdilər. Sakit okeanda müharibənin yeni mərhələsi başladı.

1941-ci ilin dekabrın 11-də Almaniya, İtaliya və Yaponiya arasında Berlin paktından əlavə yeni pakt bağlandı ki, onlar bir-birinin razılığı olmadan İngiltərə və ABŞ-la sülh bağlamasınlar. Yaponlar Tailandı, Filippini tutdular. Sakit okeanda Yaponiyanın rolunu azaltmağa çalışmaq məqsədi ilə 1941-ci il dekabrın 19-da ABŞ, Böyük Britaniya və Çin hərbi nümayəndələrinin Çinçində keçirilən konfransında hərbi əməliyyatları əlaqələndirmək barədə razılığa gəlindi. ABŞ Sakit okeanda müharibəyə tam hazır olmadığına görə vaxtda udmaq istəyirdi. ABŞ-ın Sakit okean donanmasına Makartur və Nimits başçılıq edirdi. 1941-ci ilin dekabrın 25-də Honkonq alındı. 1942-ci ilin fevralın 15-də Sinqapur yaponlar tərəfindən tutuldu. ABŞ və İngiltərənin Sakit okeanda mövqeyi zəflədi.

Latın Amerikası ölkələrinin hərbi əməliyyatlarda iştirak etmək arzularına baxmayaraq, ABŞ buna imkan vermədi. Çünki onların müharibədə iştirakı vəziyyəti ağırlaşdırar və ABŞ-ın qayğılarını

artırardı. Həmin ölkələrin əsas vəzifəsi müttəfiqləri əsasən ərzaq və digər məhsullarla təmin etmək idi.

1941-ci il dekabrın 22-dən 1942-ci il yanvarın 14-dək Vaşinqtonda ABŞ və Böyük BRitaniya rəhbərlərinin görüşündə «Arkadiya» adı altında müharibənin birgə strateji planını işləyib hazırlamaq, Sakit okeanda və Şimali Afrikada əməliyyatları aparmaq məsələləri müzakirə edildi.

1942-ci ilin yanvarın 15-19-da Rio-de-Janeyroda Amerika dövlətlərinin xarici işlər nazirlərinin üçüncü məsləhət məclisi keçirildi. Məclisdə «ox» ölkələri ilə diplomatik münasbətlərin kəsilməsi barədə məsələ müzakirə edildi. Amerika qitəsində «ox» dövlətlərinin təxribatçılıq hərəkətlərinə qarşı birgə fəaliyyəti gücləndirmək qərara alındı. Siyasi müdafiə üzrə fövqəladə məsləhət komitəsi yaradıldı. Müşavirənin yekununda Amerika dövlətlərarası müdafiə şurası yaradıldı. Konfransdan sonra Latın Amerikasında ABŞ-ın rolu xeyli üçləndi. 1942-ci il aprelin 1-də ABŞ prezidenti Ruzvelt Qərbi Arvopada hərbi əməliyyatların aparılmasına dair strateji planı təsdiq etdi.

Cənub-Şərqi Asiyada və Sakit okeanın Qərb hissəsində ABŞ-ın, Böyük Britaniyanın və Niderlandın ən mühüm müstəmləkələrinə və hərbi bazalarına yiyələnən Yaponiya Avstraliyanı hücumla hədələyirdi. Lakin artıq 1942-ci ildə ABŞ iqtisadiyyatının hərbi qaydada qurulması başa çatdırıldı. Amerika həri donanması dünyada ən güclü donanmaya çevrildi. O, 17 xətt, 8 təyarə daşıyan, 40 zirehli, 178 minadaşıyan gəmidən, 114 sualtı qayıqdan ibarət idi. Təyyarə daşıyan gəmilərdə yerləşdirilmiş amerikan təyyarələri yapon dəniz desantçılarının yerini müəyyənləşdirərək yapon gəmilərinə zərbə endirdilər. 1942-ci ilin may döyüşləri nəticəsində Yaponiya Mərcan dənizində bir təyyarə gəmisi, bir kreyser və 70-dən çox təyyarə itirdi. Bu, ABŞ-ın müharibədə qazandığı ilk qələbə idi. Yaponiyanın Miduey adasındakı (Havay adalarından Şimal-qərbə doğru) amerikan bazasını tutmaq təşəbbüsü onun özünün böyük məğlubiyyəti ilə qurtardı. 1942-ci ilin iyununda yapon donanması 4 təyyarə gəmisi və 260-dan çox təyyarə itirdi. Yaponiyanın hərbi dəniz qüvvələrinin qüdrəti sarsıldı və o, Sakit okean hövzəsində müdafiəyə keçməli oldu. Üstünlük Sakit okeanda ABŞ donanmasının əlinə keçdi. Bununla da, İkinci dünya müharibəsinin birinci mərhələsi başa çatmış və ikinci mərhələsi başlamış oldu.



1942-ci ilin iyununda Miduey adası yaxınlığındakı döyüşdə yapon admiralı Yamamatonun vəziyyəti düzgün qiymətləndirə bilməməsi nəticəsində ABŞ donanması yapon donanması üzərində qələbə çaldı. İkinci dünya müharibəsinin birinci mərhələsi başa çatdı. 1942-ci il avqustun 7-də 10 min nəfərlik amerikan dəniz piyadaları Quadolkanal adasında hərbi əməliyyata başladılar. Amerikan komandanlığı eyni zamanda Solomon adalarında və Tulaqi adasında hərbi əməliyyata girdi. 1942-ci ilin avqust – noyabr ayları arasında olan altı döyüşün hamısı ABŞ silahlı qüvvələrinin qələbəsi ilə qurtardı. Yaponiyanın hərbi dəniz qüvvələrinin qüdrəti sarsıldı və Sakit okean hövzəsində müdafiəyə keçməli oldu. Bu qələbə ilk növbədə həm də ABŞ hərbi sənayesinin sürətli inkişafının nəticəsi idi. Artıq 1942-ci ildə ölkə sənayesinin ⅓-i silah istehsalı ilə məşğul idi.

1942-ci ilin oktyabrın 2-də konqres iqtisadi sabitlik haqqında qanun qəbul etdi. Qanunun həyata keçirilməsi məqsədilə C.Birns başda olmaqla İqtisadi Sabitləşdirmə Şurası yaradıldı.

1943-cü ildə ölkədə sənaye məhsulu istehsalı ən yüksək səviyyəyə çatdı. Elektrik enerjisi istehsalına görə ABŞ Almaniyanı 5, Yaponiyanı 8 dəfə ötüb keçdi. Ölkə sənayesinin ⅔ hissəsi silahlanmaya yönəldildi. 1943-cü il iyulun 1-də "Federal gəlir vergisi haqqında qanun" qüvvəyə mindi. 1943-cü ildə ölkə iqtisadiyyatı tamamilə hərbi relsə keçirildi. 1943-cü ilin yazında artıq ABŞ 8 milyon 540 min hərbi qüvvəyə malik idi. 1943-cü ildə ölkədə 80 milyard dollarlıq silah istehsal edilirdi. Lend-liz qanunu üzrə Berlin paktı üzvləri ilə müharibə aparan ölkələr üçün 11 milyard 733 milyon dollar vəsait ayrılmışdı. Müharibənin gedişində antihitler koalisiyasının keçirdiyi konfrans və görüşlərdə ABŞ fəal iştirak etdi.

1943-cü ilin yanvarın 14-də Kasablanka şəhərində keçirilmiş ABŞ və İngiltərə hökumət başçılarının konfransında Qərb müttəfiqlərinin 1943-cü il üçün hərbi planın hazırlanmasında necə razılığa gəlmək məsələsi müzakirə edildi. Qərara alındı ki, 1943-cü ildə Siciliya adasına qoşun çıxarılsın. Siciliya adasına çıxmaq planı "Xaski" planı adlandırıldı. Konfransda ABŞ təklif etdi ki, Çinə kömək edilsin. F.Ruzvelt həmçinin Fransa məsələsinə də xüsusi diqqət yetirməyi vacib hesab etdi. Konfrans qərara aldı ki, fransız ordusunun silahlanmasına qayğı artırılsın. Fransa generalı Jiro bu işə

başçılıq etməli idi. Fransada 250 min nəfərlik yeni ordu yaradılması qərara alındı.

1943-cü il iyul ayının 10-da ingilis-amerikan ordu hissələri Siciliyaya çıxarıldı. İtaliyada Mussolini devrildi. 1943-cü ilin sentyabrın 3-də Müttəfiqlər Siciliya adasında Kassibilye adlanan yerdə İtaliya ilə barışıq sazişi bağladılar. 1943-cü il sentyabrın 29-da Malta adasında Eyzenhauer və İtaliya tərəfdən general Bodolyonun İtaliyanın təslim olmasının geniş şərtlərini imzalaması ilə İtaliya Almaniya blokundan çıxdı və oktyabrın 13-də Almaniyaya müharibə elan etdi.

1943-cü ilin yazında Vaşinqtonda növbəti ingilis-amerikan konfransı keçirildi. Danışıqlar 1943-cü ilin may ayının 12-dən 25-nə qədər davam etdi. Konfransda Stalinqradda qələbə F.Ruzvelt tərəfindən yüksək qiymətləndirildi. Konfransda mühüm diqqət Yaponiya ilə müharibə məsələsinə verildi. ABŞ çalışırdı ki, Sakit okean və Uzaq Şərqdə vəziyyətə nəzarət etsin, buradan bütün metropoliyaları, o cümlədən, Böyük Britaniyanı sıxışdırıb çıxarsın. İngiltərə baş naziri Çörçill buna qəti etirazını bildirdi. Konfransda Birmanı azad etmək yolu ilə Çinə kömək etmək qərara alındı.

1943-cü ilin fevralında yapon donanmasının Solomon adalar arxipelaqından çıxarılması ilə Sakit okeanda müharibənin gedişində ABŞ-ın xeyrinə kəskin dönüş başa çatmış oldu.

1942-ci ilin oktyabrında ingilis ordusu tərəfindən Əl-Əlameyn yaxınlığında italyan-alman birləşmələri mühasirəyə alınıb darmadağın edildikdən sonra, noyabr ayında general Duayt Eyzenhauerin komandanlığı altında ABŞ qoşunları Mərakeşdən Şimali Afrikaya çıxarıldılar. İtlayan-alman qoşunları həm şərqdən, həm də qərbdən sıxışdırılaraq təslim edildi.

1942-ci ildə və 1943-cü ilin əvvəllərində Atlantik okeanda kommunikasiyaları ələ keçirmək uğrunda alman donanması total dəniz müharibəsinə başladı. 1943-cü ilin mart ayında Amerika sahillərində ən böyük dəniz döyüşü oldu. Döyüşdə almanların 40-a qədər sualtı qayığı iştirak edirdi. Onlar ABŞ-ın 21 gəmisini batırdılar. Lakin sualtı qayıqlardan müdafiə olunmağın mükəməl texnikasına amerikanların sürətlə yiyələnməsi Almaniyanı böyük sualtı müharibədə uğursuzluğa düçar etdi. Atlantik okean uğrunda döyüş ABŞ-ın qələbəsi ilə başa çatdı.



Hərbi əməliyyatların qızğın gedişi vaxtı 1943-cü il avqust ayının 14-ü ilə 24-ü arasında ABŞ prezidenti F.Ruzvelt və İngiltərə baş naziri U.Çörçillin iştirakı ilə Kvebekdə konfrans keçirildi. Konfransda sovet-alman cəbhəsində hər iki tərəfdən 4 milyon adamın iştirak etdiyi, 60 min silah və minomyotdan, 13 mindən çox tankdan, 12 min döyüş təyyarəsindən istifadə edilmiş Kursk döyüşündə Sovet silahlı qüvvələrinin qələbəsi yüksək qiymətləndirildi. Konfransda ABŞ qəti bildirdi ki, o, ikinci cəbhənin Fransadan açılmasına tərəfdardır. Bu əməliyyatın "Overlord" adlandırılması qərara alındı. Konfransda Britaniya adalarında ekspedisiya korpusu yerləşdirmək haqqında "Denkin" planı da bəyənildi.

Avqustun 19-da konfransda atom bombasının yaradılması haqqında gizli saziş bağlandı. Bununla belə, ABŞ atom silahının istehsalında elmi tədqiqatlar sahəsində öz hakim mövqeyini saxlayırdı. Kvebekdə Fransa Milli Azadlıq Komitəsinin rəsmən tanınması məsələsində fikir müxtəlifliyi meydana çıxdı. Şimali Fransa ABŞ-a ərazi baxımdan daha yaxın olduğu üçün ABŞ yenə də ikinci cəbhənin Şimali Fransadan açılması tərəfdarı olduğunu nümayiş etdirdi.

1943-cü ilin oktyabr ayının 19-dan 30-a qədər ABŞ, SSRİ və İngiltərənin hökumət başçılarının Tehran görüşünə hazırlaşmaq məqsədi ilə Moskvada bu ölkələrin Xarici İşlər Nazirlərinin konfransı keçirildi. Konfransda müharibənin vaxtını qısaltmaq (Sovet təklifi), BMT-nin yaradılması (ABŞ təklifi), Almaniya problemi, İtaliyada vəziyyət, Avstriyanın taleyi, Avropa məsləhət komissiyasının təsisi və s. məsələlər irəli sürüldü. Uzun müzakirələrdən sonra tərəflər ancaq müharibəni tezliklə qurtarmaq barədə razılığa gələ bildilər.

Almaniyanın gələcək taleyi məsələsindən danışılarkən ABŞ-ın dövlət katibi Xell ABŞ-ın Almaniyanın parçalanmasına tərəfdar olduğunu bildirdi. SSRİ bu məsələnin hərtərəfli araşdırmaq üçün Avropa məsləhət komissdiyasının yaradılmasını məqsədəuyğun hesab etdi. Konfransda müharibədən sonra Avropa dövlətlərinin birləşməsi məsələsi də müzakirə edildi. İngiltərə tərəfindən Avropada iki konfederasiyalı dövlətin – Mərkəzi Avropa və Cənub-Şərqi Avropa konfederasiyalarının yaradılması təklifi SSRİ tərəfindən qəti rədd edildi. İtaliya və Avstriya haqqında bəyannamə, "Azad edilmiş Fransanın idarə edilməsinin ümumi sxemi" adlı sənəd qəbul edildi.

BMT-nin yaradılması haqqında SSRİ, ABŞ, Çin, İngiltərə ümumi bəyannamə imzaladılar.

1943-cü ilin noyabrında, Tehran konfransı ərəfəsində Misirin paytaxtı Qahirədə Ruzveltlə Çörçillin görüşü təşkil edildi. Böyük Britaniya Sovet hökuməti ilə Tehranda danışıqlar üçün ABŞ-la birgə xətt işləyib hazırlamaq və strategiyalarını birləşdirməyə cəhd etsə də, Ruzvelt buna qəti etirazını bildirdi. Ruzvelt Stalinə qarşı vahid cəbhə təşkil etməyi arzu etmədiyini bildirdi. Qahirə görüşündə Uzaq Şərq məsələsi, həmçinin Birmadan yaponların qovulması üçün hazırlanmış "Bakanur" əməliyyat planı geniş müzakirə edildi. İngiltərə bununla razılaşmadı. Konfransda Çin nümayəndə heyətinə başçılıq edən Çan-Kayşi İngiltərənin Honkonqu qaytarmasını tələb etdi. Çörçill bu tələbi qəti rədd etdi. Yaponiyanın məğlub edilməsinin birinci dərəcəli vəzifə olması barədə bəyannamə qəbul edildi.

1943-cü ilin noyabr ayının 28-dən dekabr ayının 1-dək "Evrika" şərti adı altında Tehranda antihitler koalisiyasının konfransı keçirildi. Burada ABŞ prezidenti F.Ruzvelt, İngiltərə baş naziri U.Çörçill, SSRİ rəhbəri İ.Stalin ilk dəfə görüşdülər. Konfransda ikinci cəbhənin açılması və müharibənin tezliklə qurtarması əsas məsələ idi. İkinci cəbhə ilə əlaqədar bəzi fikir ayrılıqları meydana çıxdı. Çörçill kommunizmin Avropaya yayılmasının qarşısını almaq məqsədi ilə ikinci cəbhənin Balkanlardan, Stalin isə alman ordusunun bir hissəsinin qərbə istiqamətlənməsi, parçalanması üçün Almaniya sərhədlərinə daha yaxın olan Şimali Fransadan açılmasını istəyirdi. Avropada müharibənin tez qurtarmasında və bütün qüvvələrin Yaponiyaya yönəldilməsində maraqlı olan Ruzvelt Stalinin fikrini müdafiə etdi. 1944-cü ilin mayında ikinci cəbhə Şimali Fransadan (Normandiyadan) açılmalı, "Overlord" əməliyyatı 1944-cü ilin iyulun 25-nə qədər yerinə yetirilməli idi. Beləliklə ilk dəfə olaraq antihitler koalisiyasının ümumi hərbi strategiyasının əsasları işlənib hazırlandı. Bundan başqa Almaniyanın gələcək taleyi və Polşa məsələsi də diqqət mərkəzində idi. Konfransda Çörçill təklif edirdi ki, Polşanın əsas həlledici sərhəddi Kerzon xətti ilə müəyyənləşdirilsin. Keniqsberq və onun ətraf rayonlarının SSRİ-yə verilməsi barədə razılıq əldə edildi. Bunun müqabilində isə SSRİ Almaniya ilə müharibə qurtardıqdan sonra Yaponiya ilə müharibə edəcəyinə razılıq verdi Tehranda hər üç dövlət başçısının İranın ərazi bütövlüyünü qorumaq niyyətində olduqlarını bildirən bəyannamə



qəbul edildi. Müttəfiq dövlətlər Türkiyənin antihitlerçi koalisiya tərəfinə qoşulması və Yuqoslaviya partizanlarına yardımına dair tədbirləri barədə razılığa gəldilər.Konfransda Almaniyanın taleyi məsələsi də müzakirə olundu. Ruzvelt Almaniyanı beş dövlətə bölməyi təklif etdi. Bu dövlətlər Prussiyada, Hannover və Almaniyanın şimal-qərb rayonlarının, Saksoniya və Leyspiqdə, Hessen əyaləti, Darmstadt, Kessel, Reyndən cənubda olan rayonlar, Vestfaliyanın qədim şəhərlərində, Bavariya, Baden və Vürtenberqdə təşkil edilməli idi. Ruzvelt həmçinin təklif edirdi ki, Almaniyadan Hamburq və Kil kanalı rayonu ayrılaraq, ya Birləşmiş Millətlərin, ya da dörd dövlətin idarəçiliyinə verilsin. Rur və Saar vilayətlərinə də Birləşmiş Millətlər nəzarət etməli idi. Çörçill bu təklifi bəyəndi. Stalinin təklifi ilə Almaniya haqqında məsələ Avropa məsləhət komissiyasının müzakirəsinə verildi.

1943-cü ilin noyabrında Vaşinqtonda ABŞ-ın təşəbbüsü ilə 14 dövlət tərəfindən Millətlər cəmiyyətinin bərpası və inzibati idarəsinin təsis edilməsi haqqında saziş imzalandı.

1944-cü ilin iyunun 6-da Normandiya sahillərində (Şimali Fransada) La-Manş zonasında İngilis-amerikan aviasiyası desant çıxardı. Hərbi əməliyyata 6 min gəmi cəlb edildi. Ikinci cəbhə amerikan generalı D. Eyzenhauerin komandanlığı altında açıldı. Bu hadisə Almaniyanın beynəlxalq mövqelərinə ciddi zərbə vurdu, antihitlerçi koalisiyanın isə nüfuzunu artırdı.

1944-cü ilin iyun ayında ABŞ-ın Brutton-Vuds şəhərində ABŞ nümayəndə heyətinin rəhbəri Q.Morqentaunun rəhbərliyi altında 44 dövlətin iştirakı ilə konfrans keçirildi. Konfrans Beynəlxalq Valyuta Fondunun (BVF) təşkil edilməsi haqqında qərar qəbul etdi. Konfransda həmçinin Beynəlxalq yenidənqurma və inkişaf bankı da təsis edildi. ABŞ təşkil edilən hər iki qurumda aparıcı rola malik oldu.

Müharibənin son dövründə BMTinin yaradılması işi sürətləndirildi. 1944-cü ilin avqustun 21-dən sentyabrın 28-ədək Vaşinqton yaxınlığındakı Dumbarto-oksda ABŞ, Böyük Britaniya və SSRİ nümayəndə heyətlərinin konfransında Birləşmiş Millətlər Təşkilatının yaradılması məsələsi müzakirə edildi. Təşkilatın fəaliyyət prinsipləri müəyyənləşdirilərək razılaşdırıldı. Tərəflər üzvlük və səlahiyyətlər haqqında da razılığa gəldilər.

1944-cü ilin sentyabr ayının 11-i ilə 16-sı aradında Kvebekdə hökumət başçıları səviyyəsində ingilis-amerikan danışıqları keçirildi. Rur hövzəsinə və Saar vilayətinə hücumu genişləndirmək və tezliklə “Almaniyanın ürəyinə müdaxilə etmək” qərara alındı. Bu danışıqlarda həmçinin Uzaq Şərq və Sakit okeanda hərbi əməliyyatların aparılması probleminə də baxıldı. Konfransda əsas diqqət Almaniya və onun Avropada rolu məsələsinə yetirildi. Konfrans iştirakçıları ABŞ-ın maliyyə naziri Q.Morqentaunun öz köməkçiləri ilə Almaniyanın bölüşdürülməsinə dair hazırladığı planla tanış edildi. Həmin plana görə Rur və şimali-qərbi alman əraziləri beynəlxalq zonaya çevrilməli, Saar və Reynlə Mozelon arasındakı ərazi Fransaya verilməli idi. Ölkənin qalan ərazisinin isə Şimali və Cənubi alman dövlətlərinə bölünməsi nəzərdə tutulurdu. Londonda isə əksinə müharibədən sonrakı Avropada silahlı qüvvələərin saxlanılması nəzərdə tutulurdu. Onlar həm Rusiyanın “Ac qarnından” həm də Duvrun ağ qayasından qorunmaq üçün bunu vacib hesab edirdilər. London belə bir “hasarı” imperialist Almaniyasının şəxsində görürdü.

İngiltərə və ABŞ-ın Almaniyaya dair planlarında ölkəni hər şeydən əvvəl, əkinçilik və heyvandarlıq ölkəsinə çevirmək əsas məqsəd idi.

1944-cü ildə ABŞ xarici siyasətini xeyli fəallaşdıraraq Latın Amerikası ölkələrinə, Yaxın və Orta Şərq regionuna xüsusi diqqət yetirməyə başladı. ABŞ həmin il ərazində İranla iqtisadi-siyasi müqavilə bağladı. ABŞ Abadanda aerodrom tikdirdi. 1944-cü ilin iyunundan Misirdə ABŞ tərəfindən hərbi bazalar tikilməyə başlandı. Əfqanıstan ərazisində də 1943-cü ildən başlayaraq hərbi bazalar tikintisi davam etdirildi.

1944-cü ilin avqustun 8-də ABŞ neft kompaniyalarının Səudiyyə Ərəbistanı və Küveytdə bərabər konssesiyalarına dair ingilis-amerikan sazişi bağlandı. ABŞ Sakit okean regionuna xüsusi diqqət yetirərək Avstraliya və Yeni Zellandiyada hərbi bazaların tikintisinə başladı.

1944-cü ildə ABŞ-da sənaye məhsulu müharibədən əvvəlki illərlə müqayisədə iki dəfədən çox artdı. Hərbi sənaye inkişaf etdi. 1944-cü ilin oktyabr ayında artıq ölkədə atom bombasının hazırlanmasına başlanıldı. Ölkədə kənd təsərrüfatı istehsalı da müharibədən əvvəlki dövrlə müqayisədə 40% artdı.



1944-cü il noyabrın 4-də keçirilən prezident seçkilərində ABŞ xalqına sosial-iqtisadi rifah, tam məşğulluq təmin edəcəyini vəd edən F.Ruzvelt 26 milyon, respublikaçılaçılar partiyası namizədi T.Dyui isə 22 milyon səs topladı. F.Ruzvelt dördüncü dəfə ABŞ-ın prezidenti seçildi.

1944-cü ildə ABŞ yapon silahlı qüvvələri tərəfindən Sakit okeanda tutulmuş adaları azad etmək uğrunda müharibəyə başladı. 1944-cü ilin fevralında Marşall adaları, iyun-avqust aylarında isə Mariana adaları yaponlardan təmizləndi. Bu Yaponiyanın vəziyyətini ağırlaşdırdı. ABŞ yapon donanmasına və Sakit okeanın qərb hissəsinə nəzarət imkanı qazandı. Yaponiyanın öz adaları üçün də təhlükə yarandı. Yaponlardan azad edilmiş adalarda isə ABŞ tərəfindən Hərbi-hava və Hərbi dəniz qüvvələri tikilməyə başlandı.

1944-cü ilin oktyabrında general Makarturun başçılığı altında ABŞ qoşunu yaponları Filippin adalarından qovmağa başladı. Bu Yaponiyanı mühüm xammal bazasından məhrum etmək, eyni zamanda cənub dənizlər zonası ilə əlaqəsini kəsmək demək idi. 1944-cü ilin sonunda yaponlar Filippinin mərkəz hissəsindən məhrum oldular. Leyte adası yaxınlığındakı böyük dəniz döyüşündə (1944-cü il 23-25 oktyabr) yaponlar məğub oldular. Bismark arxipelaqı adalarında, Yeni Qvineya və Karolin adalarında 10-a yaxın yapon diviziyası mühasirəyə düşdü. Müttəfiqlərin qoşunları və Birma vətənpərvərləri Birmanın şimal və mərkəz hissəsini yaponlardan təmizlədilər. Yaponiya mühüm kauçuk və neft mənbələrini itirmiş oldu.

1944-cü ilin sonlarında ABŞ və İngiltərə Sakit okean və Cənub-Şərqi Asiyada böyük silahlı qüvvələr cəmləşdirdilər. Ən ciddi zərbəni yaponlara ABŞ Filippin adasında – Lusonda vurdu. 1945-ci ilin martına qədər Filippin adalarının xeyli hissəsi azad edildi. Amerikanlar Yaponiyanın İzdoneziya ilə dəniz əlaqəsini kəsməklə onu daha bir mühüm neft mənbəyindən məhrum etdilər. 1945-ci ilin mayından avqustuna qədər yaponlar Birmadan da qovuldular. 1945-ci ilin yayında ingilis-avstraliya qoşunları İzdonezyanı yaponlardan təmizləməyə başladılar.

ABŞ-ın silahlı qüvvələrinin Yaponiyanın əsas adalarından 600 km məsafədə yerləşən Okinava adası uğrunda mübarizə apardığı döyüşlər üç aydan sonra adanın ABŞ tərəfindən tutulması ilə nəticələndi. Adanın coğrafi vəziyyəti Şərqi-Çin dənizində ABŞ-ın

ağalığına və onun Yaponiyanın öz ərazisi üçün də təhlükə təşkil etməsinə imkan verirdi.

1945-ci ilin birinci yarısında Yaponiya öz ərazisini müdafiə etmək üçün hələ kifayət qədər güclü olduğundan ABŞ və İngiltərə onu tam məğlub edə bilmədilər. Lakin Almaniyanın danışıqsız təslim olması, Avropada müharibənin başa çatması, yapon komandanlığını müdafiə strategiyasına keçməyə məcbur etdi. Yaponlar öz qoşunlarını ikinci dərəcəli rayonlardan geri çəkərək onları nisbətən daha vacib nöqtələrdə mərkəzləşdirdilər.

1945-ci ilin yanvarın 17-də Amerikanın xarici işlər naziri Ribberton tərəfindən memorondum verildi. Həmin sənəddə Avropa sivilizasiyasını Sovet təhlükəsindən qorumaq üçün Qərbə birləşməsi təklif edilirdi.

F.D.Ruzvelt 1945-ci ilin yanvarında radio ilə çıxışında bildirdi ki, "Dünya azad və sülhsevər xalqların yalnız vahid qərarı ilə saxlanıla və ləyaqətli ola bilər. Bu xalqlar hörmət istəyirlərsə, bir-birlərinə səbrli münasibət göstərməyə çalımalıdırlar. İnsanlar bir-birinin fikirlərini və əhval-ruhiyyələrini başa düşməlidirlər. Yaşadığımız dünyaya bədxah qüvvələr "güc siyasəti" terminindən yanaşıb onu ağırlaşdırırlar. Lakin bueynəlxalq həyatda bu termin ağalıq etməməlidir.

1945-ci ilin fevraln 2-də (Yaltada keçiriləcək konfransdan əvvəl) Çörçill və Ruzvelt Maltada görüşərək Qərbi Avropada hərbi əməliyyatların aparılması məsələlərini yenə də müzakirə etdilər. 1945-ci ilin fevralın 4-ü ilə 11-i arasında Krımda (Yaltada) Antihitler koalisiyasının növbəti konfransı oldu. Konfransa Fransaya Almaniyada işğal zonası ayrılması məsələsi müsbət həl edildi. Fransanın nümayəndəsi Nəzarət Şurasının üzvü oldu. Almaniyadan alınacaq təzminatın ümumi məbləği 20 milyard dollar həcmində müəyyənləşdirildi. Onun 50%-i, yəni 10 milyard dolları SSRİ-yə çatmalı idi. Konfransda "Azad Avropa haqqında bəyannamə" qəbul edildi.

1945-ci ilin aprelin 12-də Ruzveltin gözlənilmədən vəfatından sonra prezident səlahiyyətlərini vitse-prezident Harri Trumen həyata keçirməyə başladı.

1945-ci ilin aprelin 25-də BMT nizamnaməsinin qəbuluna həsr edilmiş konfransda ABŞ nümayəndə heyəti də iştirak etdi.



1945-ci ilin mayın 8-də Berlində Antihitler koalisiyasının üzvü olan böyük dövlətlərin Almaniyanın danışıqsız təslim olması haqqında aktı imzalaması ilə Avropada müharibə qurtarmış oldu.

1945-ci ilin iyunun 16-da Almoqordoda ABŞ dünya tarixində ilk dəfə olaraq atom bombasını sınaqdan çıxartdı.

ABŞ nümayəndə heyəti 1945-ci ilin iyulun 17-dən avqustun 2-dək keçirilən Potsdam konfransında da iştirak etdi.

1945-ci ilin iyulun 26-da tarixə Potsdam bəyannaməsi kimi daxil olan sənədi ABŞ, Böyük Britaniya və Çin imzaladılar. Yaponiya isə bu ultimatumu rədd etdi və müharibəni davam etdirməyi qərara aldı. Yaponiyanı antifaşist koalisiyasını parçalamaq planı baş tutmadı. 1945-ci il avqustun 9-da SSRİ Yaponiyaya müharibə elan etdi. 1945-ci il avqustun 6-da Xirosima, avqustun 9-da isə Naqasaki şəhərlərinə ABŞ atom bombası atdı. Bu hərbi zərurətdən irəli gəlmirdi. Sadəcə olaraq bu addımla ABŞ bütün dünya qarşısında öz strateji üstünlüyünü nümayiş etdirmək istəyirdi. Atom bombasının atılması nəticəsində bu şəhərlərdə 270 min dinc əhali həlak oldu, sonrakı illərdə isə şüalanmadan 180 min adam öldü. Həmin ərazilərdə bu hadisələrin təsirindən bugün də xeyli insan əziyyət çəkir.

1945-ci il avqustun 14-də Yaponiya hökuməti təslim olmağı qərara alaraq Potsdam bəyannaməsinin şərtlərini qəbul etdiyini bildirdi. Lakin müttəfiqlər hücumu davam etdirdilər. 1945-ci il avqustun 28-də ABŞ komandanlığı öz qoşunlarını Yaponiya ərazisinə çıxarmağa başladı.

ABŞ müharibənin sonunda mübahisəsiz dünyada hegemon dövətə çevrilmişdi. Bu üstünlük onun bir sıra mühüm iqtisadi və hərbi göstəricilərinin digər ölkələrlə müqayisəsində aydın görünür. Artıq 1944-cü ilin sonunda ABŞ-ın ticarət donanması Böyük Britaniyanın ticarət donanmasını 2,5 də ötüb keçmişdi. 1945-ci ilin birinci yarısında ölkədə 30,2 min gəmi istehsal edilmişdi. 1945-ci ilin əvvəllərində ABŞ Yaponiyanı xətt gəmilərində 6, ağır kreyserlərdə 7, sualtı qayıqlarda 3 dəfə ötüb keçdi. ABŞ artıq hərbi sahədə dünyanın ən qüdrətli dövlətinə çevrilmişdi.

1945-ci ilin sentyabr ayının 2-də isə ABŞ-ın "Missuri" linkorunda Yaponiya danışıqsız təslim olmaq haqda aktı imzalandı. Bu aktı Yaponiya tərəfdən Xarici İşlər Naziri Siqeminu və Yaponiya silahlı qüvvələrinin Baş Ştabının rəisi Ymedzu imzaladı. Sonra akta

ABŞ, Çin, SSRİ, Böyük Britaniya, Avstraliya, Kanada, Fransa, Hollandiya, Yeni Zellandiya, da öz imzalarını qoydular.

İkinci dünya müharibəsindən sonra ABŞ dünyanın birinci super dövlətinə çevrildi və dünyaya rəhbərlik etmək arzusunu reallaşdırmaq üçün fəaliyyətini genişləndirdi.

### İkinci dünya müharibəsinin ABŞ üçün nəticələri.

ABŞ İkinci dünya müharibəsində də ən çox qazandı və Yer kürəsində özünün birinci super dövlət olduğunu bir daha sübut etdi. Müharibədə iştirak edən digər ölkələrlə müqayisədə onun əsas üstünlüyü ərazisinin (Havay adalarından başqa) hərbi əməliyyat meydanına çevrilməməsi və heç bir dağıntıya məruz qalmaması idi. ABŞ müharibə dövründə antihitler koalisiyasının əsas cəbhəxanasına çevrildi, ölkə inhisarçılarının gəliri 87 milyard dolları ötüb keçdi. Bu dövrdə ölkədə avtomobil istehsalı dörd dəfə artdı. Onun silahlı qüvvələri döyüş texnikasına və sayına görə dünyada birinci yeri tuturdu və tərkibində 12 milyondan çox əsgər və zabit vardı. ABŞ-ın müharibədə itkisi cəmi 300 min nəfər oldu ki, bu da SSRİ ilə müqayisədə 70 dəfədən az idi. Müharibədən sonra o, dünya sənaye məhsulunun 54,6%-nı istehsal edirdi. Dünya qızıl ehtiyatlarının isə 53,3%-i bu güclü dövlətin əlində mərkəzləşmişdi. ABŞ-ın belə inkişafını həm daxili, həm də xarici amillər müəyyən edirdi. Müharibə illərində Avropanın qabaqcıl dövlətlərindən olan İngiltərə və Fransa indi ona borcu olan dövlətlərə, Almaniya və Yaponiya isə müharibədə məğlub edilərək, müvəqqəti də olsa, zəif və gücsüz rəqiblərə çevrilmişdi. Digər tərəfdən isə ABŞ-ın özündə daxili bazarın geniş tutumu, sürətli kapital yığımı və onun ixracı, həmçinin məhsuldar qüvvələrin coşğun yüksəlişi imkan verirdi ki, o, super dövlət statusunu qoruyub saxlasın.

ABŞ-ın bu dövrdə öz daxilində və dünyada 2367 hərbi bazası var idi. Əgər 1940-cı ildə ölkədə silahlanmaya 3,5 milyard dollar xərclənirdisə, 1948-ci ildə hərbi xərclər 13,4 milyard dollar təşkil edirdi.



### ABŞ H.Trumenin prezidentliyi dövründə (1945-1952-ci illər)

1945-ci ilin aprelin 12-də ABŞ tarixində müstəsna rol oynamış, real və çevik siyasətçi F.Ruzvetin ölümündən sonra prezident kürsüsünə Harri Trumen əyləşdi. Şəxsiyyət etibarilə Trumen bu vəzifəyə hazır olmadığını özü də etiraf edirdi. Ruzvelt özü bir çox vacib məsələləri Trumenə etibar etmirdi. Lakin Trumen bir cəhətdə – çeviklikdə Ruzvelt kimi idi. Ruzveltin siyasətini davam etdirməyi qarşısına məqsəd qoyan Trumen ilk növbədə «dollar imperiyası» yaratmaq planını həyata keçirməyə başladı. Hazırda Ağ Evdə onun arxasında oturduğu stolun üstündə bu sözlər yazılıb: «Dollar hər yerdə ayaq açıb yerisə də, Ağ Evdə dayanır». Müharibədən sonra dərhal iqtisadiyyat hərbi xətdən dinc xəttə keçirildi ki, bu rekonversiya adlanırdı. Trumen ordudan tərxis edilən əsgərləri işlə təmin etmək məsələsini ön plana çəkdi. O öz siyasətini 1945-ci ildə «ədalətli xətt» adlandırdı. 1944-1946-cı illərdə o bir sıra qanunların konqress tərəfindən qəbul olunmasına nail oldu ki, bunlardan biri «Hüquqlar haqqında əsgər Billi idi. Həmin qanuna görə ordudan tərxis edilən əsgərlərə kredit ayrılırdı ki, onlar mənzil ala, işlə təmin oluna, bizneslə məşğul ola bilsinlər. Konqres 1946-cı ildə əhalinin tam məşğullunu təmin etməyə yönəldilmiş iqitsadi fəaliyyət proqramını həyata keçirməyə kömək edən «Məşğulluq haqqında» xüsusi qanun qəbul etdi. 1948-ci ildə isə minimal əmək haqqı haqqında qanun verildi ki, həmin qanuna əsasən ABŞ-da saathesabı əmək haqqı 40 sentdən 75 sentə qədər artırıldı. Sosial müdafiə sistemi genişləndirildi, ucuz mənzillər tikilməsi proqramı qəbul edildi. Müharibə illərində yaradılmış və dövlətə məxsus olan sənaye müəssisələrinin taleyi məsələsi də həll olundu. Trumen hökuməti 17 milyard dollar dəyərində olan 2800-ə qədər dövlət müəssisəsinin yarı qiymətinə 250 korporasiyaya satılmasını təmin etdi. Ölkədə konqlomeratların, yəni müxtəlif sənaye sahələrini əhatə edən iri şirkətlərin fəaliyyəti üçün geniş imkanlar yaradıldı. Bununla bərabər, Trumen inzibati idarəsi imkanı verdi ki, xırda və orta müəssisələr də öz fəaiyyətlərini genişləndirsinlər. 1948-1949-cu illərdə ölkədə sənaye məhsulu istehsalı 10% artdı. ABŞ-da «firavanlıq dövləti» yaranmış oldu.

Trumenin dövründə kommunizm təhlükəsinə qarşı mübarizə dövlət siyasəti səviyyəsinə qaldırıldı. 1947-ci ilin mart ayının 22-də Trumen dövlət qulluqçularının loyallığını yoxlamaq haqqında xüsusi qanun qəbul edilməsinə nail oldu. Həmin qanuna əsasən azacıq şübhə yaradan dövlət qulluqçuları vəzifələrindən kənar edildilər. 90-a qədər demokratik təşkilat fəaliyyətini dayandırmalı oldu. 1947-ci ilin iyun ayının 23-də senator Taft və Xartli tərəfindən hazırlanmış və onların adı ilə adlanan «Sənayedə əmək münasibətlərini nizama salmaq haqqında» yeni qanun qəbul edildi. Həmin qanun 1935-ci ildə qəbul edilmiş Vaqner qanununun həmkarlar ititfaqlarına verdikləri geniş hüquqları məhdudlaşdırırdı. O zaman ABŞ-da həmkarlar ititfaqının 15 milyona qədər üzvü vardı. Bunlardan 7 milyonu Amerika Əmək Federasiyasının, 6 milyonu isə 1936-cı ildə təşkil edilmiş, ixtisassız fəhlələri əhatə edən İstehsalçıların Həmkarlar İttifaqı konqresinin üzvləri idilər. Bu qanuna görə həmkarlar ititfaqları öz üzvləri və maliyyə fondu haqqında hökumətə qabaqcadan məlumat verməli idi. Həmkarlar ittifaqları öz fondundan siyasi məqsədlər üçün pul ayırmamalı idi. Dövlət qulluqçuları həmkarlar ittifaqının üzvü olmamalı və tətildə iştirak etməməli idilər. Prezidentin səlahiyyəti çatırdı ki, tətilləri 80 günə qədər təxirə salsın. Həmçinin məhkəməyə hüquq verilirdi ki, tətilləri qadağan etsin. Bütün bunlar isə Vaqner qanununda nəzərdə tutulanların əleyhinə idi. Əslində demokratik cəmiyyət yaratmaq istəyən Harri Trumen bu qanunla antidemokratik prezident olduğunu sübut etdirdi.

1946-cı ilin avqustunda atom üzərində nəzarəti həyata keçirmək üçün xüsusi komissiya təşkil edildi. 1947-ci ilin iyulunda iki mühüm təşkilat – Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) və Federal Təhqiqat bürosu (FTB) yaradıldı. Trumen 1947-ci ildə hidrogen bombasının istehsalı haqqında göstəriş verdi. 1950-ci ilin sentyabrında konqress tərəfindən «Daxili təhlükəsizlik haqqında» qanun qəbul edildi. Həmin qanuna əsasən demokratik təşkilatlar ədliyyə nazirliyində təxribatçı təşkilatlar kimi qeydiyyatdan keçməli idi. Qeydiyyatdan keçməyənlər 10 min ABŞ dolları dəyərində cərimə olunmalı və 5 il həbs cəzasına məhkum edilməli idilər. 1952-ci ildə isə xarici mənşəli amerikalıların fəaliyyəti ilə əlaqədar Makkaren-Uolter qanunu adlı xüsusi qanun qəbul etdi. Həmin qanuna əsasən 14-15 milyona qədər xarici mənşəli Amerika vətəndaşı ölkədən qovuldu.



Zənci əhaliyə qarşı münasibətdə Harri Trumen loyal idi. İkinci dünya müharibəsində ABŞ-dan bir milyona qədər zənci vuruşmuş və onların çoxu xüsusi qəhrəmanlıq göstərmişdir. Lakin buna baxmayaraq zəncilərin, xüsusilə cənubda yaşayanların seçki hüququ yox idi. O zaman ABŞ-da isə təxminən 25 milyondan artıq zənci yaşayırdı. Trumen belə hesab edirdi ki, zəncilərə qarşı münasibətdə mülki bərabərlik olmasa da, siyasi bərabərliyə razılaşmaq lazımdır. Ona görə də onlara seçki hüququ verilməsi məsələsini ilk dəfə konqresdə Harri Trumen qoydu.

Hindulara da münasibətdə dəyişiklik yarandı. 40-cı illərin II yarısında hinduların sürətlə öz yaşayış yerlərindən məhrum edilib şəhərlərə qovulması prosesi başladı. Bu proses çox böyük narazılığa səbəb oldu. 1950-cı ildə hindular bildirdilər ki, onlar öz yaşayış yerlərini tərk etməyəcəklər. Dövlət onlara güzəştə getməli oldu. Rezervasiya siyasəti yeridildi.

1951-ci ilin avqustunda ABŞ konstitusiyasına 22-ci əlavə edildi. Həmin əlavəyə əsasən ABŞ-da hər prezident ancaq iki dəfə - 8 il müddətinə seçilə bilərdi. Yalnız H.Trumen üçün bu şamil edilmirdi.

Bu dövrdə ABŞ-ın yeni xarici siyasət xətti «atom diplomatiyası» adını aldı. 1946-cı ildə ABŞ-ın dövlət departamentinin məmuru D.Kennon tərəfindən «Rusların müdaxilə meylinin qarşısını almaq» konsepsiyası irəli sürüldü ki, bu tezliklə ABŞ-ın rəsmi doktrinası oldu. Bunun əsasında xarici siyasətdə «zor işlətmək», «müharibə həddində müvazinət», «total qarşıdurma» doktrinaları da irəli sürüldü. Müharibə qurtardıqdan sonra dərhal antihitler koalisiyasının üzvləri, xüsusilə SSRİ ilə ABŞ arasındakı ziddiyyətlər daha qabarıq üzə çıxdı. Qütbləşmə gücləndi. 1946-cı ilin martında Çörçillin Fultondakı çıxışında Trumen də iştirak edirdi. Bu çıxış SSRİ-yə qarşı düşmənçilik mövqeyində idi və «soyuq müharibə» siyasətinin başlanması demək idi. «Soyuq müharibə» terminini ilk dəfə 1947-ci ildə siyasi ədəbiyyata məşhur amerikan diplomatı Con Foster Dalles gətirmişdir. ABŞ-la SSRİ arasındakı ixtilatları gücləndirən amillərdən biri də 1948-ci ildə baş vermiş Berlin böhranı idi. ABŞ, İngiltərə və Fransanın Almaniyanın qərb hissəsində seperat pul islahatı keçirmələri SSRİ-nin böyük narazılığına səbəb oldu. Çin məsələsində də SSRİ ilə ABŞ arasında ixtilaf yarandı. ABŞ tələb edirdi ki, Çinə Şanxayçı hökumət rəhbərlik

etsin. SSRİ isə bunun əleyhinə idi. 1948-ci ildə ABŞ SSRİ-nin də iştirakı ilə siyasi və hərbi təşkilat yaratmaq məsələsini irəli sürdü. Lakin SSRİ buna razı olmadığına görə ABŞ-ın rəhbərliyi ilə 1949-cu il aprelin 4-də Şimali Atlantika paktı (NATO) yaradıldı. Yenə ABŞ-ın iştirakı ilə 1951-ci ildə yeni bir hərbi pakt olan ANZYUS təşkil edildi.

1951-ci ilin sentyabr ayında San-Fransisko şəhərində 48 dövlətin iştirakı ilə Yaponiya ilə sülh müqaviləsi imzalandı. Həmin müqaviləni Çin və Koreya məsələsində narazı qaldığına görə SSRİ və onun təsiri altında olan Polşa və Çexoslovakiya imzalamadılar.

ABŞ-ın xarici siyasətində Avropa da əsas yer tuturdu. İkinci dünya müharibəsindən sonra ABŞ-ın Yunanıstan və Türkiyəyə təsiri xeyli gücləndi. Bundan məqsəd SSRİ-yə qarşı həmin ərazilərdən bir plasdarm (meydan) kimi istifadə etmək idi. 1947-ci ildə İngiltərə hökuməti vəziyyətinin maddi cəhətdən kifayət qədər yaxşı olmadığına görə bu ölkələrə yardım etməkdən imtina etdi. Bu əlverişli imkandan istifadə edən ABŞ bu missiyanı dərhal öz üzərinə götürdü. 1947-ci ilin martın 12-də məşhur «Trumen doktrinası» elan edildi. Həmin doktrinaya əsasən Yunanıstan və Türkiyəyə 400 milyon dollar yardım göstərilməsi nəzərdə tutulurdu. Əslində isə onun arxasında SSRİ-yə qarşı həmin ərazilərdə özünə hərbi dayaq yaratmaq məqsədi gizlənirdi.

1947-ci il iyun ayının 5-də ABŞ-ın dövlət katibi Marşal tərəfindən hazırlanmış xüsusi plan konqres tərəfindən bəyənildi ki, bu da tarixə «Marşal planı» adı ilə daxil edildi. Həmin planda İkinci dünya müharibəsində zərər çəkmiş Avropa ölkələrinə ABŞ-ın kömək etməsi nəzərdə tutulurdu. İkinci dünya müharibəsi nəticəsində Avropada dağıdılmış təsərrüfatı bərpa etməyə bu köməyi etməzdən əvvəl ABŞ-ın özünün həmin ölkələrdəki daxili vəziyyəti öyrənməyi bir şərt kimi irəli sürülürdü. SSRİ buna razı olmadı. 1948-1952-ci illərdə Avropanın 16 ölkəsi 12,5 milyard dəyərində olan Marşal planına qoşuldu. Ancaq Finlandiya, İspaniya və Avropanın «sovet modeli» əsasında qurulmuş sosialist ölkələri bu plana qoluşmadılar.

ABŞ-ın xarici siyasətində bu dövrdə 3-A ölkələrinə, yəni Asiyanın, Afrikanın və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinə «kömək etmək» məsələsi də mühüm yer tuturdu. Əslində bu kömək altında ABŞ onları öz təsiri altına almağı planlaşdırırdı. 1947-ci ilin sentyabrın 2-də ABŞ bu məqsədlə Latın Amerikası



ölkələri ilə «Qərb yarımkürəsinin müdafiəsi» paktı adlanan Rio de Janeyro paktını imzaladı. 1948-ci ilin aprelində isə 29 dövlətin iştirakı ilə Amerika dövlətləri təşkilati yaradıldı. Onu bəzən istehsza ilə «Vaşinqton müstəmləkələri nazirliyi» də adlandırırdılar. 1949-cu ilin yanvarın 20-də Trumen asılı ölkələrə texniki-iqtisadi «kömək» təklifini irəli sürdü. Lakin belə bir şərt irəli sürüldü ki, əgər onlar inqilabi mübarizədən əl çəksələr və ABŞ-ın «demokratik» ənənələrinə əməl etsələr, onlara bu «kömək» ediləcəkdir.

ABŞ-ın 1950-ci ilin iyununda Koreyaya müdaxiləsi Trumenin nüfuzunu zəiflətdi. Eyzenhaner öz memuarlarında yazırdı ki, vətəndaş müharibəsi və iki dünya müharibəsindən sonra bu ABŞ tarixində ən qanlı müharibə idi. Çünki bu müharibədə ABŞ 398 min, onun müttəfiqləri isə 29 min adam itirdilər.

## ABŞ D.Eyzenhauerin prezidentliyi dövründə (1952-1960-cı illər)

1952-ci ilin noyabrında keçirilən prezident seçkilərində Koreyada aparılan müharibəyə son qoymağı seçki qabağı platformasında elan etmiş, Avropada müharibə dövründə ABŞ qoşunlarının baş komandanı olmuş, «Overlord» əməliyyatına başçılıq etmiş, Almaniyanın dörd işğal zonasından birinə rəhbərlik etmiş, həmçinin əvvəllər bir idmançı kimi ABŞ-da tanınmış Duayt Eyzenhauer qələbə çaldı. O, respublikaçılar partiyasından idi. Eyzenhauer ABŞ-ın hakimiyyətə gəldikdə Amerika xalqı tərəfindən rəğbətlə qarşılanan, hakimiyyətdən getdikdə də rəğbətlə yola salınan prezidentlərindən olmuşdur.

Eyzenhauer hakimiyyətə gəlməmişdən qabaq demokratların dövlətin iqtisadiyyata fəal müdaxiləsi prinsipini tənqid etmiş və fərdiyyətçiliyə qayıtmağın əlverişli olduğunu göstərmişdir. Lakin hakimiyyətə gəldikdən sonra o öz iqtisadi siyasətini «dinamik mühafizəkarlıq» adlandıraraq bir növ Ruzveltin siyasətini davam etdirdi. Siyasətdə realist olan Eyzenhauer tezliklə başa düşdü ki, ABŞ kapitalizmi artıq çoxdan korporativ kapitalizmə çevrilmişdir və dövlətin iqtisadi və sosial sahədə rolunu nəinki ixtisar etmək, əksinə, artırmaq lazımdır. 50-ci illərdə ABŞ-ın dövlət mülkiyyəti 276 milyard dollar təşkil edirdi. Bu rəqəm 1960-cı ildə birlikdə götürüldükdə Fransa, AFR, İtaliya, Belçika, Hollandiya və

Lüksemburqun dövlət mülkiyyətindən çox idi. Eyzenhauer daxili siyasətində, xüsusilə sosial sahədə özündən əvvəl hakimiyyətdə olmuş demokratların siyasətini bir neçə əlavələrlə davam etdirməyə başladı. O, azad rəqabət və azad ticarət prinsiplərini bərpa etmək tezislərindən əl çəkdi. Bununla bərabər o, Trumen hökumətinin tətbiq etdiyi iqtisadiyyat üzərində nəzarət tədbirlərini ləğv etdi. Məqsəd durğunluğu aradan qaldırmaq, işsizliyi minimum həddə endirmək, inflyasiyaya yol verməmək idi. Görülən tədbirlər nəticəsində ABŞ iqtisadiyyatında irəliləyiş təmin olundu. Yüksək məşğulluq səviyyəsi və qiymətlərin sabitliyi saxlandı. Bütün ölkədə kütləvi istehslakın rəmzi olan ticarət mərkəzləri yarandı. İri müəssisələr – konqlomeratlar meydana gəldi. 500 nəhəng korporasiya ölkənin həyatı üzərində nəzarəti öz əlinə aldı. Amerikalılar ilk dəfə olaraq «firavanlıq dövləti»nin bəhrəsini gördülər. Təsadüfi deyildir ki, XX əsrin 50-ci illərindən 70-ci illərinin sonuna qədər olan dövrü ABŞ-ın «Qızıl əsri, varlanma və çiçəklənmə əsri" adlandırılır. O, vergiləri azaltdı, səmərəli kredit siyasəti yeritməyə başladı. Həmçinin əhalinin həyat səviyyəsinin yüksəlməsinə nail oldu. Sosial təminat sistemi genişləndirilərək daha 10 milyon adama şamil edildi. Onun dövründə bir nəfərə 50 $m^2$ mənzil sahəsi düşürdü. Bu dövrdə Leyvit evlərinin tikilməsinə başlandı. Leyvit xüsusi mənzillər quraşdırırdı ki, onları hazır şəkildə istənilən yerdə aparıb qurmaq mümkün idi. Əhalinin çoxunun xüsusi mənzilləri oldu. Təsadüfi deyil ki, Eyzenhauerin dövründə əhalinin yarıdan çoxu orta təbəqəyə çatdı. 50-ci illərdə ABŞ-da güclü elmi-texniki inqilab baş verdi. Bu dövrdə ABŞ-ın üçüncü böyük şəhəri olan Pensilvaniya ştatındakı Filadelfiyanın yerini Koliforniya ştatındakı Los-Anceles tutdu. Bu zaman əhalinin ¾ hissəsinin evində artıq televizor var idi. Ölkədə bu dövrdə 7,5 min mil şosse yolu çəkildi. 50-ci illərdə ölkədə sənaye məhsulu istehsalı 45%, kənd təsərrüfatı isə 17% artmışdı. 50-ci illərdə ABŞ iqtisadiyyatı üçün səciyyəvi cəhət istehsalın avtomatlaşdırılması oldu.

Bununla bərabər elmi-texniki inqilab ABŞ fermer təsərrüfatının dağılmasını sürətləndirdi. Bu dövrdə, kənd təsərrüfatı əhalisinin sayı 5 milyon azaldı. Hər il kənd əhalisində 5% ixtisar getdi.

Eyzenhauerin dövründə ölkədə makkartizm tüğyan etməyə başladı. Onun əsası hələ Trumenin dövründə senator seçilmiş Cosef Makkarti tərəfindən qoyulmuşdur. Bu kampaniya güya SSRİ başda



olmaqla dünya kommunizminin ABŞ-a qəsd təşkil etməsi barədə vahimə yaradılması əsasında aparılırdı. O, 1950-ci ilin fevralında bildirdi ki, ABŞ-ın dövlət departamentində 205 nəfər kommunistin olduğunu müəyyənləşdirmişdir. Əslində bu siyasət SSRİ-yə qarşı çevrilmiş, antisovet, antikommunist mahiyyət daşıyırdı. Respublikaçıların hakimiyyəti dövründə konqresin tərkibində Cosef Makkartinin başçılığı altında xüsusi komissiya da yaradılmışdı. Onlar göstərirdilər ki, Ruzvelt ölkədə sosializm qurmağa çalışırmış. Ona görə də onun dövrü «satqınlıq dövrü»dür. Həmçinin bir sıra mütərəqqi Amerika mədəniyyət xadimlərinə, o cümlədən, Çarlz Çaplinə qarşı təqiblər başlandı. O, ölkəni tərk etməyə məcbur oldu. Ölkədə bir sıra irticaçı təşkilatlar, o cümlədən «Amerika legionu», «Ku-kluks-klan», «Kolumbiya cəngavərləri», «Xarici müharibənin veteranları» təşkilatları Makkartinin fəaliyyətini müdafiə edirdilər. 1953-1954-cü illərdə sağ qüvvələrin hərəkəti son həddinə çatdı. Külli miqdarda dövlət vəsaiti bu işə sərf olundu. Bu kampaniya 1954-cü ildə sona yetdi. Makkarti artıq ordunu da günahlandırdıqda və bu televiziya ilə verildikdə Amerika xalqı dözmədi. Nüfuzdan düşdüyünü görən konqres 1954-cü il dekabrın 2-də onu müqəssir bildi.

Bu dövrdə hakim dairələrdə antikommunist əhval ruhiyyə yenə də davam edirdi. Belə ki, 1954-cü ilin avqustunda Eyzenhauer konqress tərəfindən «Kommunistlərin fəaliyyəti üzərində nəzarət haqqında» qanun verilməsinə nail oldu. Həmin qanunla Kommunist partiyasının fəaliyyəti qadağan edildi.

1950-ci ildə zəncilər öz azadlığı uğrunda mübarizəni gücləndirdi. 1954-cü ildə Eyzenhauer məktəblərdə seqreqasiya – irqi ayrı-seçkilik prinsipindən qəti əl çəkilməsi haqqında konqress tərəfindən qanunun qəbul edilməsinə nail oldu. 1955-ci ildə Alabama ştatında avtobusda irqi ayrı-seçkilik böyük həyəcana səbəb oldu. Ona görə 1957-ci ildə konqres yeni bir qanun verdi ki, zəncilər ağlarla bərabər vətəndaşlıq hüqüquna malikdirlər. Lakin bu qanunlar yerinə yetirilmədi. Ancaq 60-cı illərdə bu siyasət reallığa çevrildi.

Bu dövrdə ABŞ-ın xarici siyasətində də müəyyən cəhətlər özünü göstərməyə başladı. İlk növbədə Eyzenhauer verdiyi vədə əməl edərək 1953-cü ilin iyulun 27-də Koreyada müharibənin qurtarmasına nail oldu. Hələ prezident Trumenin dövründə Moskvada ABŞ-ın səfiri işləmiş Kennon tərəfindən işlənib

hazırlanmış «rusların hər hansı bir cəhdinin qarşısını almaq siyasəti» yenə də öz aktuallığını saxlayırdı. ABŞ-ı xarici siyasəti yenə də zor işlətməkdə öz əksini tapırdı. Eyzenhauer silahların və bütün iqtisadiyyatın modernləşdirilməsi xəttini yeritdi. Onun prezidentliyi dövründə hərbi xərclər iki dəfə artdı, strateji yollar çəkildi. 1954-cü ildə SEATO hərbi blokunun yaradılmasının təşkilatçılarından biri ABŞ oldu. Əgər Trumen hidrogen silahının istehsalı haqqında sərəncam vermişdisə, Eyzenhauer hətta onu işlətməyi mümkün hesab edirdi. Buna baxmayaraq Eyzenhauer dediyinə əməl etməyi bacarmadı. 1954-cü ildə Vyetnama Fransa tərəfindən müstəqillik verilməsini müdafiə etdi. 1955-ci ilin iyulunda Cenevrə konfransında «açıq səma» doktrinasını irəli sürdü. Lakin bu doktrina SSRİ tərəfindən rədd edilsə də, böyük dövlətlərin başçıları arasında əlaqələrin başlanğıcını qoydu. Eyzenhauer 1956-cı ildə Suveyş kanalı Misir tərəfindən milliləşdirirlərkən Fransa, İngiltərə və İsraillə müharibədə Misiri müdafiə etdi. 1957-ci ilin yanvarında Eyzenhauer xüsusi doktrina irəli sürdü ki, bu tarixə «Eyzenhauer doktrinası» adı altında daxil oldu. O zaman bu regionda dünya neft ehtiyatlarının 2/3 hissəsi yerləşirdi. Həmin doktrina Bağdad paktı üzvlərinə və İsrailə aid edilirdi. Həmin doktrinaya əsasən ABŞ öz mövqeyini Yaxın və Orta Şərqdə möhkəmləndirdi. Bu doktrina həmin dövrədək ABŞ siyasətində hələ də mövcud olan bitərəfliyi rədd edərək «boşluğu güclə doldurmaq» nəzəriyyəsinin əsasının qoydu. Bu doktrina, ABŞ-ın Yaxın və Orta Şərq siyasətində yeni mərhələnin başlanğıcını qoydu. 1958-ci ildə ABŞ Livana qoşun göndərdi, Konqoda 1961-ci ilin sentyabrında P.Lumumba hökumətinin devrilməsini təşkil etdi.

Eyzenhauer dövründə silahlanmaya vəsait qoyuluşu artırılsa da, lakin ABŞ raket texnikası sahəsində SSRİ-dən geri qalırdı. 1957-ci ilə qədər ABŞ SSRİ ilə zor dili ilə danışmağa daha çox üstünlük verirdi. 1957-ci ildə SSRİ-də Yerin süni peyki buraxıldıqdan sonra ABŞ başa düşdü ki, SSRİ ilə münasibətləri mülayimləşdirmək lazımdır. 1959-cu ildə ilk dəfə vitse-prezident Riçard Niksonun rəhbərliyi ilə Moskvada ABŞ mallarının sərgisi açıldı. Elə həmin ilin sentyabrında SSRİ-nin dövlət başçısı ABŞ-a səfər etdi. Lakin 1960-cı ildə ABŞ-la SSRİ arasında münasibətlər yenidən pisləşdi. Buna səbəb Sverdlovsk üzərində ABŞ-ın xüsusi kəşfiyyat təyyarəsinin (U-2) vurulması idi. Bu hadisə ABŞ-ı inandırdı ki, SSRİ güclü döyüş hazırlığına malikdir.



Eyzenhauer hökuməti öz xarici siyasətində Latın Amerikası ölkələrinə xüsusi diqqət yetirirdi. ABŞ burada fəallaşaraq mövqelərini möhkəmləndirdi. 1954-cü ilin yanvarında ABŞ Qvatemalada inqilabi hərəkatın yatırılmasında iştirak etdi. Eyzenhauerin 1959-60-cı illərdə Qərbi Avropa və Latın Amerikası ölkələrinə səfərləri də qarşılıqlı münasibətlərin xeyli inkişaf etməsinə səbəb oldu.

## ABŞ Con Kennedinin prezidentliyi dövründə (1960-1963-cü illər)

1960-cı ilin noyabrında keçirilən prezident seçiklərində demokratlar yenə də üstünlüyü ələ aldılar. Con Kennedi bu seçkilərdə qalib gəldi. O, ABŞ tarixində 43 yaşlı ən gənc prezident idi. O, həm də, XX əsrdə ABŞ-ın yeganə və ilk katolik prezidenti idi. O seçki kampaniyası zamanı platformasında belə bir müddəaya əsaslanırdı ki, «Dünyanın hansı bir yerinə getsən, sərhəd ABŞ-dan başlanır» və belə bir şüarla çıxış edirdi ki, «Cəsarət və təşəbbüslə irəli yerimək, üfüqlərə doğru getmək» lazımdır.Kennedi seçki qabağı platformasında iqtisadi artımın dövlət tərəfindən stimullaşdırılmasının zəruriliyi tezisini irəli sürdü. Prezident seçildikdən sonra o, konqress qarşısında ilk çıxışını aşağıdakı sözlərlə bitirdi: «Hər bir Amerika vətəndaşı özünə belə bir sual verməməlidir ki, vətən onun üçün nə edə bilər? Belə bir sual verməlidir ki, o vətən üçün nə etməlidir». V. Vilson və F.Ruzveltin ənənələrini davam etdirərək C.Kennedi «Yeni üfüqlər» adını almış islahatlar proqramını irəli sürdü. Özünün siyasi dünyagörüşünə görə o, F.Ruzveltə yaxın idi. Ölkə daxilində və beynəlxalq aləmdəki vəziyyətə realist və praqmatik baxışı ilə fərqlənirdi. Kennedi yaxşı dərk edirdi ki, əhalinin geniş təbəqələrinin vəziyyətini yaxşılaşdırmaq sahəsində dövlətin siyasətini və siyasi demokratiyanı daim təkmilləşdirmək zəruridir. O göstərirdi ki, əhalinin həyat tərzi bazar iqtisadiyyatını üstələməlidir. Onun dövründə sahibkarlara həvəsləndirici güzəştlər təqdim edildi. İstehsal gücünü artırmaq üçün vergi kreditlərindən istifadə edildi. Əhalinin yüksək gəlirli təbəqələri üçün vergi azaldıldı. Hökumət il ərzində əmək haqqının 3,2 % artımını ən yüksək hədd hesab etdi. Kennedi – iqtisadiyyatın sabitləşdirilməsi və sosial yardımla bağlı proqramı genişləndirmək sahəsində bir sıra tədbirlər həyata keçirdi. Onun

sosial-iqtisadi siyasətinin əsasını keynsçi ideya təşkil edirdi. Bu ideya büdcə kəsirindən iqtisadi artım sürətini sabit saxlamaq üçün bir vasitə kimi istifadə etməyi nəzərdə tuturdu. O, elektrotexnika və poladtökmə sənayesində qiymətlərin qaldırılmasını qadağan etdi. Yoxsul regionlara kömək proqramı hazırlandı. Yeni sənətlər üzrə fəhlələrin ixtisaslaşması həyata keçirildi. Ölkə tarixində ilk dəfə konqress 1962-ci ildə bu barədə qanun qəbul etdi. Kennedi inzibati idarəsinin ən böyük nailiyyəti ağlarla qaralar arasındakı hər cür ayrı-seçkiliyi aradan qaldırmaq üçün respublikaçıların dövründə (1957, 1960) verilmiş qanunların öz reallığını tapması oldu. O, konqresə ağlarla dərisi rəngli adamların ictimai yerlərdə və işə götürülərkən bərabərliyi haqqında qanun layihəsinin təqdim edilməsinə nail oldu.

1961-68-ci illərdə ABŞ-da sənaye istehsalı 52% artdı. Kennedi hakimiyyətə gəldikdən sonra dövlət mexanizmini tənzimləməyi əsas götürdü. O, Eyzenhauerdən fərqli olaraq sosial siyasətə xüsusi üstünlük verdi. Çünki Eyzenhauer insandan danışarkən liberal olsa da, puldan danışanda mühafizəkar idi. Con Kennedi üçün isə sosial sahə xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə o vergiləri azaltdı, sosial xərcləri çoxaltdı. 1961-ci ilin martında işsizliyə görə verilən müavinatən miqdarı daha üç ay uzadıldı. Saat hesabı minimum əmək haqqı 1 dollardan 1,25 dollara qaldırıldı. ETİ şəraitində ölkədə təhsil sistemi təkmilləşdirildi. Universitetlər bağlı mədəniyyət alaçıqları vəziyyətindən silahların və iqtisadiyyatın inkişafını yeniləşdirən nəhəng laboratoriyalara çevrildilər. XX əsrin 50-60-cı illərində ABŞ hökuməti elmin inkişafına bütün tarixi boyu olmadığı bir miqdarda, 6 dəfə dotasiyanı artırdı. «Tələbələrin demokratik cəmiyyəti» təşkilatı yaradıldı. Qadınlara da diqqət artırıldı. 1963-cü ildə qadınlarla kişilərin bərabər əmək haqqı alması haqqında qanun verildi. Əvvəllər onlar kişilərdən 40% az əmək haqqı alırdılar.

ABŞ-da raket texnikasına xüsusi diqqət yetirilməsinə nail oldu. Büdcədən 12 milyard dollar ancaq raket texnikası üzrə işə sərf olundu. Kennedinin «Appolon» adlı doktrinasında kosmosu tədqiq etməyə xüsusi diqqət yetirilməsi nəzərdə tutulurdu. Onun «Appolon» proqramı ancaq ölümündən sonra - 1969-cu ildə ilk dəfə ABŞ vətəndaşının - Hil Armstronqun Aya uçuşunun təşkilində özünü göstərdi.

Kennedinin dövründə ölkədə irticaçı təşkilatların fəaliyyəti gücləndi. Xüsusilə «Con Barça cəmiyyəti» faşist təşkilatının



fəaliyyəti canlandı. Bu təşkilat 1958-ci ildə yaranmışdı. 1960-cı ildə irticaçı hərbiçilər «Minitmenlər» təşkilatını təşkil etdilər. «Milli partiya» və digər irticaçı təşkilatların da fəaliyyəti genişləndi. 1961-ci ilin sonunda irticaçı təşkilatların nümayəndələrinin Çikaqoda qurultayı keçirildi.

Dünyada baş verən qlobal dəyişikliklər, Asiya, Afrika və Latın Amerikası ölkələrində güclənən milli-azadlıq hərəkatı ABŞ-ın xarici siyasətinə də ciddi təsir etdi. ABŞ-ın xarici siyasətində dövlətin xarici ölkələrdə iqtisadi maraqlarının etibarlı mühafizə edilməsi aktuallaşdı. Çünki, İkinci dünya müharibəsindən sonra ABŞ-ın xarici ölkələrə birbaşa kapital qoyuluşu 4 dəfədən çox artaraq 1946-cı ildəki 7,2 milyard dollardan 1960-cı ildə 31,9 milyard dollara çatmışdı. Con Kennedinin ən məşhur doktrinalarından biri də «Məhvedici təsir etmə» doktrinası idi. Bu doktrinaya görə ABŞ dünyanın istənilən yerində gedən müharibəyə müdaxilə edə bilərdi. Bu ABŞ-da atom və digər silahların geniş istehsalına şərait yaradırdı. Latın Amerikası üçün Kennedi «Tərəqqi naminə ittifaq» siyasətini irəli surdu ki, bundan da məqsəd bu ölkələrdəki xalq inqilablarının inkişafına mane olmaq və Latın Amerikası burjuaziyasını ABŞ-ın tərəfinə çəkmək idi. Onun dövründə «Sülh korpusları» adlanan qruplar yaradıldı ki, bu qruplar geridə qalmış ölkələrdə iqtisadiyyat, təhsil, səhiyyə sahəsində fəaliyyət göstərməli idilər. Bundan məqsəd əslində həmin ölkələrdə ABŞ-ın mövqeyini gücləndirmək idi. Kennedi xarakter etibarilə ziddiyyətli adam idi. O, bir tərəfdən ölkə əhalisinin vəziyyətinin qayğısına qalsa da, digər tərəfdən onun dövründə Karib böhranı baş verdi və «soyuq müharibə» özünün ən yüksək zirvəsinə çatdı. Bu hadisədən sonra böyük dövlətlər arasında nüvə tərksilahı problemli daha da aktuallaşdı. Kennedi hökuməti 1963-cü ilin avqustunda Moskvada İngiltərə və SSRİ ilə birlikdə nüvə silahlarının sınaqdan keçirilməməsi haqqında sazişi imzaladı. Kennedi göstərirdi ki, müharibə iradələrin mübarizəsinin nəticəsidir. Düz yolla gedənlər heç vaxt toqquşmurlar. Kennedinin 1962-ci ilin yanvarında konqresə təqdim etdiyi xarici ticarət proqramında ABŞ-ın AİB və NATO ölkələri ilə əlaqələrinin yaxşılaşdırılması nəzədə tutulurdu. Onun xarici siyasətdə başlıca məqsədi beynəlxalq aləmdə ABŞ-ın nüfuzunu daha da gücləndirmək idi.

Qloballaşma amillərini nəzərə alan C.Kennedi xarici siyasətdə "Yeni üfüqlər" doktrinasının müddəalarını əsas götürürdü. O, 1960-cı

ildə general M.Teylor tərəfindən irəli sürülmüş «Çevik münasibət» doktrinasını qəbul etdi.

1963-cü ilin payızında ABŞ-da vəziyyət kəskinləşdi. Ultrasağ qüvvələr hökumətdən daxili və xarici siyasətdə kəskin dönüş tələb edirdilər. Prezident seçkiləri ilə əlaqədar olaraq mübarizə daha da gücləndi.

**ABŞ L.Consonun prezidentliyi dövründə (1963-1968-ci illər)**

1963-cü il noyabrın 22-də C.Kennedi növbəti prezident seçkiləri kampaniyası ilə əlaqədar ölkəni gəzərkən Texas ştatının Dallas şəhərində öldürüldü. Onun ölümü «Əsrin faciəsi» hesab edildi. Bu məsələ indiyə qədər müəmmalı bir şəkildə qalır. Con Kennedinin ölümündən sonra vitse-prezident Lindon Conson prezident kürsüsünə əyləşdi. Qərarlarını həyata keçirmək üçün hər cür üsuldan, hətta yalvarmaqdan belə çəkilməyən Lindon Conson yaxşı dərk edirdi ki, Con Kennedidən sonra nüfuz qazanmaq üçün ən yaxşı vasitə onun başladığı işi davam etdirməkdir. Onun konqresə təklif etdiyi proqramda federal büdcə kəsirini ləğv etmək, vergi işini nizama salmaq, mülki məsələyə dair qanunvericilik aktı qəbul etmək, yoxsulluğa qarşı müharibə elan etmək və digər məsələlər öz əksini tapmışdı. 1964-cü ilin fevralında Lindon Conson vergi islahatı haqqında qanunu konqresdə keçirməyi bacardı. Həmin qanuna görə gəlirin 15-20%-i qədərində vergi müəyyən edilirdi.

1964-cü ilin martında yoxsulluğa qarşı müharibə, iyulunda isə mülki hüquq haqqında qanun qəbul olundu. Mülki hüquq haqqında qanuna əsasən işə götürülmədə, ictimai yerlərdə ağlarla qaralara eyni hüquq verilirdi. 1965-ci ildə seçki hüququ haqqında qanununun qüvvəyə minməsi ilə zənci əhalinin seçkilərdə iştirakı təmin edilmiş oldu. Minimum saat-hesabı əmək haqqı 1961-ci ildəki 1,25 dollardan 1968-ci ildə 1,70 dollara çatdırıldı. 1967-ci ildə hər həftəlik orta əmək haqqı 102 dollar təşkil edirdi, iş həftəsi isə 38,2 saat oldu. Fermerlərə subsidiyalar və kreditlər artırıldı. 1964-cü ildə verilmiş «Vətəndaşların bərabər hüquqları haqqında» qanunda cinsi əlamətlərə görə ayrı-seçkilik qadağan edildi. Bütün bunlar Consona və demokratlar partiyasına rəğbət yaratdı. 1964-cü ilin prezident seçkilərində o respublikaçılar partiyasından namizədliyi irəli



sürülmüş Harri Qolduoterə qarşı səslərin 61%-nı toplayaraq qalib gəldi. O, prezident kürsüsünə yenidən əyləşdikdən sonra 1965-ci ildə konqresdə «Böyük cəmiyyət qurmaq» proqramı ilə çıxış etdi. Bu proqram 80-ə qədər təklifi əhatə edirdi. Lindon Consonun «böyük cəmiyyət qurmaq» arzusu əslində kağız üzərində qaldı. Onun sosializmin alternativi olan bir cəmiyyət yaratmaq istəyi reallığa çevrilmədi. Onun yoxsulluqla mübarizə planı da tam həyata keçirilmədi. «Böyük cəmiyyət» qurmaq məqsədi ilə büdcədən ayrılmış 99,7 milyar dollardan, demək olar ki, ancaq 3,2 milyard dolları «böyük cəmiyyət qurmaq» işinə, 50 milyard dollardan çoxu isə silahlanmaya xərcləndi. Kennedinin dövründə raket texnikasının inkişafı üçün 12 milyard dollar ayrılmışdısa, Lindon Conson dövründə bu rəqəm daha da yüksəldi.

1967-ci ilin yayında ABŞ-ın 100 şəhərində «irqi» müharibə oldu. 1968-ci ildə zənci hərəkatının görkəmli xadimlərindən olan Marten Lüfer Kinqin başçılığı altında Vaşinqtona yürüşə hazırlıq başlandı. Lakin 1968-ci ilin aprelin 4-də Memfisdə onu öldürdülər. L.Consonun inzibati idarəsi nüfuzdan düşməmək üçün zəncilərin ağlarla hüquq bərabərliyini dövlət səviyyəsində təmin etməyə məcbur oldu. 60-cı illərdə ABŞ-da «yeni sol hərəkat» adlanan sosial etiraz hərəkatının yeni dolğası başlandı. Bu mübarizənin əsas istiqamətlərindən biri cəmiyyətin nöqsanlarına qarşı mübarizə aparan radikal gənclər hərəkatı idi. 60-cı illərdə ABŞ fəhlə hərəkatında isə böhran təmayülləri gücləndi. 1966-cı ildə qadınların milli təşkilatı yaradıldı. 60-cı illlərin əvvəllərində ölkədəki qadınların yalnız 36%-i işləyirdi.

1924-cü ildə qəbul edilmiş mühacirat haqqında qanun 1965-ci ildə təxirə salınması ABŞ-a mühacir axınını genişləndirdi.

Lindon Conson xarici siyasətdə sərt mövqe tutdu.Consonun hakimiyyəti illərində «Quruculuq», «Körpülər salma» doktrinası meydana çıxdı. Bundan məqsəd ABŞ başda olmaqla qərb dövlətləri ilə bəzi sosialist ölkələri arasında hərtərəfli münasibətləri inkişaf etdirməklə bu ölkələrdə millətçilik əhval-ruhiyyəsinin artmasına, onların bir-birindən, xüsusilə, Sovet İttifaqından təcrid olunmasına nail olmaq idi. Conson Latın Amerikasında «böyük dəyənək» siyasətinə qayıtdı. 1964-cü ilin əvvəllərində Panama ilə ABŞ arasında münaqişə yarandı, 1965-ci ilin aprelində Dominikan Respublikasına hərbi qüvvələr göndərildi. Yaxın Şərq münaqişəsində

İsraili müdafiə etdi. Tankin körfəzində Amerika gəmilərinə Vyetnam gəmilərinin güya hücumu haqqında bəhanədən istifadə edərək 1964-cü ilin aprelində Vyetnam səmasını bombalamağa başlamaq haqqında əmr verdi. Əslində bundan məqsəd Sakit Okean və Uzaq Şərqdə ABŞ-ın mövqeyini daha da gücləndirmək idi. Məhz bu məqsədlə 1965-ci ildə ABŞ Vyetnamda 550 minə qədər qoşun kontingenti yerləşdirdi. Müharibə ölkə daxilində real əmək haqqının aşağı düşməsinə səbəb oldu. Ölkədə Vyetnamdakı müharibə əlyehinə hərəkat gücləndi. 1965-ci ildə ABŞ-ın 100-ə qədər şəhərində Vyetnam günləri keçirildi. Artıq 1968-ci ilin payızı üçün Veytnamda ABŞ hərbçilərindən 30 min nəfər ölmüş, 180 min nəfər yaranmış və itkin düşmüşdü. 1966-cı il iyulun 12-də Conson «Asiya doktrinası»nı irəli sürdü. Bu, doktrinaya əsasən ABŞ Asiyada sülhsevərlik missiyasını öz üzərinə götürdü. Lindon Consonun daxili və xarici siyasəti onu nüfuzdan saldı.

## ABŞ Riçard Niksonun prezidentliyi dövründə (1968-1974-cü illər)

1968-ci ilin noyabrında keçirilən prezident seçkilərində respublikaçılar yenidən təşəbbüsü öz əllərinə aldılar. Riçard Nikson Respublikaçılar partiyasından ABŞ-ın prezidenti seçildi. Həmişə düşünərək qərar qəbul etməyi sevən Riçard Nikson 1974-cü ilin avqustuna qədər ABŞ-ın prezidenti oldu. 1969-cu ilin ikinci yarısından etibarən sənaye istehsalı nəzərə çarpacaq şəkildə aşağı düşməyə başlamışdır. Sənaye məhsulları istehsalı 1969-cu ilin sentyabrına nisbətən 1970-ci ilin noyabrında 8,3%, illik sənaye istehsalının göstəricisi 1969-cu ildə 110,7% təşkil etdiyi halda, 1970-ci ildə 107,8% aşağı düşmüşdü. Əgər 1969-cu ilin dekabr ayında işsizlərin ümumi sayı ABŞ-da 2,8 milyon nəfər təşkil edirdisə, 1971-ci ilin yanvarında onların sayı artaraq 8 milyon nəfərə çatmışdı ki, bu da ölkədə ümumi işçi qüvvəsinin 6%-ni təşkil edirdi.

1969-1970-ci illərin iqtisadi böhranı təkcə sənayeni əhatə etmirdi. O, hər şeydən öncə müharibədən sonrakı dövrdə daha çox kredit-birja böhranı kimi müşayiət olunurdu. Birjalarda olan səhmlərin dəyəri 300 milyard dollar aşağı düşmüşdü. Korporasiyaların mənfəəti aşağı düşmüş, iri firmaların müfsizləşməsi prosesi tezləşmişdi.



1970-ci ilin sonunda ölkənin iqtisadiyyatında olan böhran daha da dərinləşmişdi. Sənaye istehsalının göstəricisi 1967-ci illə müqayisədə 1971-ci ildə 109,6% təşkil edirdi. 1972-ci ildən etibarən ölkənin iqtisadiyyatı dirçəlməyə başladı vəsənaye məhsullarının həcmi yüksəldi. 1970-ci il ilə müqayisədə sənaye məhsullarının həcmi 1973-cü ildə 17% yüksəlmişdi. Bununla yanaşı, ölkənin iqtisadi vəziyyəti ağır olaraq qalırdı. İşsizlərin sayı artır, inflyasiya gündən-günə güclənirdi. Ölkədə hələ 60-cı illərin sonundan enerji çətinliyi yaranmışdı. İri inhisarların nəzarəti altında olan Amerika energetikası yanacağa tələbatın ödənilməsi səviyyəsində deyildi.

1973-cü ilin payızında Yaxın Şərqdə siyasi vəziyyətin yenidən kəskinləşməsi ilə əlaqədar, həmin ərazinin neft istehsal edən ölkələri Birləşmiş Ştatları neftlə təmin etməkdən imtina etdilər və bununla da, ölkədə dərin enerji böhranı başladı.

Elektrik təchizatının pisləşməsi əsas sənaye sahələrinin dayanmasına və qiymətlərin yenidən artımına səbəb oldu. Artıq 1974-cü ilin sentyabr ayında ABŞ-da işsizlərin ümumi sayı yüksələrək 5,8%-ə çatdı. Digər tərəfdən enerji böhranı ölkədə inflyasiyanı sürətləndirdi. Ancaq 1973-cü ilin aprelindən 1974-cü ilin aprelinədək olan dövrdə Birləşmiş ştatlarda həyat səviyyəsi 10% yüksəlmişdi. Təsadüfi deyildir ki, prezident R.Nikson 1974-cü ilin fevral ayında Konqresə özünün iqtisadi məsələlərlə əlaqədar müraciətində 1973-cü ili «amerika iqtisadiyyatının mürəkkəbləşməsi və tərəqqisi ili kimi» adlandırmışdır.

İqtisadiyyatın böhranlı vəziyyəti və güclü sosial ziddiyyətlərlə bağlı Amerika ictimaiyyəti respublikaçılar hökumətini federal dövlət hakimiyyətinə doğru çəkilməyə məcbur edir və həmin hökuməti vaxtı çatmış sosial iqtisadi və siyasi problemlərin həllinə sövq edirdi.

Prezident Nikson özünün iqtisadi görüşlərində demokrat-neoliberalların iqtisadiyyatın artımının stimullaşdırılması ideyasına əsaslanırdı. O, 1970-ci ilin əvvəlində Konqresə iqtisadi müraciətində qeyd edirdi ki, «iqtisadi siyasətimizdə bizim əsas dayağımız ölkəmizin istehsal ehtiyatlarından tam şəkildə səmərəli istifadə etməkdir. Biz iqtisadiyyatımızın artımını və dinamikliyini daim təmin etməliyik». 1969-1970-ci illərdə onun siyasəti birinci növbədə inflyasiyanın aradan qaldırılmasına və ölkə iqtisadiyyatının sağlamlaşdırılmasına yönəldilmişdi. 1971-ci ildə avqust ayının 15-də prezident R.Nikson «yeni iqtisadi siyasət»ə keçid elan etdi. Nikson

hökumətinin yeni iqtisadi siyasəti öz inkişafında 4 mərhələdən keçmişdir. 1971-ci ilin avqust-noyabr aylarını əhatə edən birinci mərhələdə respublikaçılar hökumətinin əsas məqsədi qiymətlərin və əmək haqqının «dondurulması» olmuşdur.

«Yeni iqtisadi siyasət»in 1971-ci ilin noyabrından 1973-cü ilin yanvar ayınadək olan ikinci mərhələsində əmək haqqının və qiymətlərin dondurulmasını onların üzərində nəzarət əvəz etdi. Bu əmək haqqının və qiymətlərin saxlanılmasında daha çevik sistem idi. Bu sistemin fəaliyyətində həmkarlar ittifaqının nümayəndələri iştirak edirdilər. Hökumət öz tapşırıqlarında qiymətlərin illik həcminin 2,5%-dən artıq olmamasını irəli sürür, yeni kollektiv müqavilələrə əsasən əməyin ödəniləmsi dərəcəsini 5,5% müəyyən edirdi. Həmkarlar ittifaqlarının nümayəndələri hökumətin siyasətinə qarşı çıxrdılar. Respublikaçılar hökumətinin bu siyasətinə etiraz əlaməti olaraq 1972-ci ilin mart ayında həmkarlar ittifaqı nümayəndələrinin çox hissəsi əmək haqqı üzrə dövlət şurasının tərkibindən çıxdılar.

«Yeni iqtisadi siyasət»in 1973-cü ilin yanvar-iyun aylarını əhatə edən üçüncü mərhələsinin gedişində qiymətlərin və əmək haqqının üzərinə birbaşa dövlət nəzarəti dayandırıldı. 1973-cü ilin beş ayı ərzində inflyasiyanın dərəcəsi dövlət orqanlarının plan bölgüsüsündən yan keçmişdi. 1973-cü ildə Niksonun yenidən təkidi ilə 60 gün müddətinə qiymətlər yenidən «donduruldu». Nikson bu müddəti qiymətlər və əmək haqqı üzərinə yeni sistemin hazırlanması ilə əlaqədar təyin etmişdi. 1973-cü ilin iyunundan Nikson hökumətinin yeni iqtisadi siyasətinin dördüncü yəem axırıncı mərhələsi başladı. Bu mərhələ iqtisadiyyatda qismən sabitliyin yarandığı dövrədək, yəni 30 aprel 1974-cü ilədək davam etmişdir.

Ölkədə gedən infilyasiyanı dayandırmaq bu dəfə də mümkün olmamışdır. Əksinə yeni iqtisadi siyasətin bu mərhələsində qiymətlər daha sürətlə qalxmağa başlamışdır. Xüsusən yeyinti məhsullarının qiyməti daha artıq qalxmışdı. Bu hər şeydən əvvəl respublikaçılar hökumətinin aqrar siyasət sahəsində etdiyi böyük dəyişikliklərlə, birinci növbədə, 1973-cü ilin avqustunda qəbul olunmuş kənd təsərrüfatı haqqında yeni qanunla bağlı idi. Həmçinin hökumət kənd təsərrüfatı məhsulları istehsalının məhdudlaşdırılmasına dair bütün qanunları ləğv etmişdir.

Nikson hökuməti həmçinin enerji böhranını da həll edə bilmədi. 1973-cü ilin noyabr ayında prezident R.Nikson dövlət enerji



proqramı ilə çıxış etdi. Həmin proqrama görə xarici bazara müraciət edilmədən prezident Nikson ölkənin qarşısında «yanacaq müstəqilliyi» məsələsini bir vəzifə olaraq qoydu. Proqramda Appalare kömür hövzəsinin işlənməsinin gücləndirilməsi və Alyaskada neft hasilatının sürətləndirilməsi nəzərdə tutulurdu.

70-ci illərdə ölkədə həmçinin dövlət maddi yardımı sistemi geniş yayılmışdı. Yoxsulluq səviyyəsində yaşayan ailələr dövlətdən xüsusi vəsa it almaq hüququna malik idilər.

60-cı illərin sonundan etibarən inflyasiyanın genişlənməsi və zəhmətkeşlərin vəziyyətinin pisləşməsi ilə əlaqədar «minimum gəlirlərlə təmin olunmaq» nəzəriyyəsi cəmiyyətdə geniş yayılmışdı. Respublikaçılar bu nəzəriyyəyə qarşı çıxdılar. Xalqın bu nəzəriyyəyə qarşı diqqətsizliyini və laqeydliyini görüb qorxan Nikson 1969-cu ildə Konqres qarşısına «ailələrə yardım» planını bir vəzifyə olaraq qoydu. Niksonun yardım planına görə aşağı səviyyədə yaşayan ailələr dövlətdən minimum təminat vəsaiti olaraq il ərzində 1600 dollardan çox olmamaq şərti ilə vəsait ala bilərdilər.

Beləliklə, R.Niksonun dövlət maddi yardımı sistemini islahat yolu ilə dəyişdirmək istəyi mümkün olmadı. Ona görə də respublika hökuməti yoxsullara maddi yardım göstərilməsi işini davam etdirməli oldu. 70-ci illərin əvvəllərində onun miqyası əhəmiyyətli dərəcədə böyümüşdü. Xüsusilə ərzaq talonlarının proqramı ölkədə geniş yayılmışdı. 1969-cü ildə talon alanların sayı 3 milyon nəfər olmuşdur. 1974-cü ildə isə onların sayı artaraq 13,5 milyon nəfərə çatmışdır. 70-ci illərin ortalarında Federal hakimiyyətdən və ştatların hökumətlərindən talon alanların sayı 33 milyon nəfər olmuşdur.

Niksonun hökuməti əvvəl həmçinin «ədalətli əmək şəraiti» haqqında qanuna qarşı da mənfi münasibət bəsləmişdir. Fəhlə sinfinin təsiri altında 1973-cü ildə Konqresin hər iki palatası «Fəhlə və qulluqçuların əmək haqqının yenidən qaldırılması» haqqında qanun layihəsi qəbul etdi. Ancaq 1973-cü ilin aprelində «Ədalətli əmək şəraiti» aktına əlavələr qanuniləşdi. 1974-cü ilin 1 iyulun 1-dən bir saat iş vaxtı üçün minimum əmək haqqı artırılaraq 1,60 dollardan 2,20 dollara kimi yüksəlmişdir.

Nikson hökuməti demokratik hərəkatın iştirakçılarına, zəncilərə və gənclərə qarşı represiyanı gücləndirmişdi. Artıq 1970-ci illərin əvvəllərində məhkəməsiz və mühakiməsiz «Qara pantera»nın

30 nəfərə yaxın rəhbəri öldürülmüşdür. Zəncilərin çıxışları və tələbələrin tətilləri dəfələrlə gülləbaran edilmişdir.

70-ci illərin birinci yarısında ABŞ-ın xarici siyasətində əhəmiyyətli dəyişiklik baş verdi. Beynəlxalq aləmdə qüvvələr hislətində əsaslı dəyişikliklər baş vermişdi: dünya sosializm sisteminin mövqeyi güclənmiş, «üçüncü dünya» ölkələrinin nüfuzu böyümüş, imperialistlərarası münasibətlərdə böyük dəyişikliklər baş vermiş, bütün dünyada sülhsevər qüvvələr çoxalmışdır. Ona görə də ABŞ-ın xarici siyasətində siyasi realizm xətti üstünlük təşkil etdi.

İkinci Dünya müharibəsindən sonra Birləşmiş Ştatların xarici siyasətində əsaslı konsepsiyalar hazırlanmışdır. Prezident Nikson hakimiyyətinin ilk günlərindən ABŞ-la Sovet İttifaqı arasında danışıqlar dövrünə keçilməsini elan etmişdi. 1969-cu ilin payızında ABŞ və SSRİ arasında strateji silahların məhdudlaşdırılmasına dair danışıqlara başlanıldı. Bu danışıqlar Amerika xalqı tərəfindən geniş müdafiə olundu. Prezident Noksonun Konqresdə xarici siyasət istiqamətində realist fikirləri demokratların və respublikaçıların nüfuzlu qrupları tərəfindən müdafiə olunurdu. Həmin qrupa nüfuzlu siyasi xadimlər olan senatorlar-D.Y.Fulbrayt, M.Mensfild, E.Kennedi, K.Skot və başqaları daxil idilər.

İki partiya-respublikaçılar və demokratlar partiyalarının qruplaşması Amerika xarici siyasət konsepsiyasında mühüm dəyişiklik əldə edilməsinə istiqamətlənmişdi. Senatda xarici işlər üzrə konsepsiyasının sədri D.Y.Fulbrayt Konqresdəki çıxışında təsdiq etmişdir ki, Birləşmiş ştatlar birtərəfli fəaliyyətdən çəkinməlidir. O, birtərəfli münasibətlərdən beynəlxalq münasibətlər konsepsiyasını irəli sürürdü.

Nikson hökumətinin fəaliyyətinin ilk günlərində əsas xarici siyasət məsələlərindən biri Vyetnam məsələsi idi. Niksonun «Quam doktrinası»nın əsasında «vyetnamlaşdırma» proqramı işlənilmişdi.

70-ci illərin əvvəllərində ABŞ-ın Hind - Çindəki təcavüzünün miqyası genişlənmişdi. 1970-ci ildə Amerika qoşunları Kambocaya, 1971-ci ildə isə Laosa girdilər. 1971-ci ildə Nikson Vyetnam Demokratik Respublikasının yenidən bombalanması əmrini verdi. Lakin ABŞ-ın hakim dairələri Vyetnam xalqının iradəsini qıra bilmədilər. 1973-cü ilin yanvar ayının 27-də Parisdə Vyetnamda müharibənin dayandırılmasına dair razılıq imzalandı. Amerika orduları Cənubi Vyetnamdan çıxarıldı.



60-cı illərin sonu, 70-ci illərin əvvəllərində Vaşinqtonu təəccübləndirən ciddi məsələlərdən biri Latın Amerikasındakı hadisələrlə bağlı idi. Xüsusilə bütün ABŞ-ın hakim dairələri və inhisarçı burjuaziya 1970-ci ildə Çilidə S.Alyendenin rəhbərliyi altında Vahid Xalq hökumətinin yaranmasını düşmənçiliklə qarşıladılar. Amerika sağ inhisarçı dairələri və Vaşinqtonun rəsmi nümayəndələri S.Alyendenin hökumətini devirməyin planını hazırladılar. Amerika qitəsi Birləşmiş Ştatların göstərişini Latın Amerikası xalqları böyük müqavimətlə qarşıladılar. Amerika qitəsi xarici işlər nazirliklərinin növbəti konfransında Amerika dövlətlərinin təşkilatının sıralarından çıxmaq məsələsi də qoyulmuşdu. 1974-cü ilin əvvəllərindən təşkilatın hər bir iştirakçısı öz xarici siyasətini müstəqil həyata keçirirdi.

70-ci illərdə Yaxın Şərq həmçinin ABŞ-hakim dairələrinin diqqət mərkəzində idi. Yaxın Şərqdə Amerikanın mövqelərinin möhkəmlənməsində İsrail strateji əhəmiyyət kəsb edirdi. Birləşmiş Ştatlar tərəfindən İsrailin hərbi-iqtisadi və siyasi cəhətdən müdafiə olunması İsrail ekstremistlərinin ərəb ölkələri əleyhinə təcavüzkar planlar həyata keçirməsinə şərait yaradırdı.

70-ci illərin əvvəllərində Birləşmiş Ştatların Qərbi Avropa ölkələri və Yaponiya ilə münasibətlərində son dərəcə əlverişsiz şərait yaranmışdı. Buna görə də «Ümumi bazar» ölkələri və Yaponiya Amerika üçün təhlükəli imperialist rəqiblər idilər. ABŞ-ın kapitalist ölkələrinin sənaye məhsulları istehsalı sırasındakı yeri 1948-ci ildə 53% olduğu halda 70-ci illərin əvvəllərində azalaraq 40% olmuşdur. Əksinə «Ümumi bazar» ölkələrinin və Yaponiyanın payı bu sahədə yüksələrək 13,5%-dən 28%-ə çatmışdır.

Amerika imperializminin maliyyə-iqtisadi mövqeyinin zəifləməsi ABŞ-ın hakim dairələrinin qarşısına «atlantik cəmiyyətində» özünün hərbi-siyasi nüfuz dairəsinin möhkəmləndirilməsi vəzifəsini qoymuşdu. Nikson hökumət 70-ci illərin ortalarında öz diqqətini əsasən Qərbi Avropa ölkələrinə yönəltmişdi. Belə ki, qeyd etdiyimiz dövrdə Birləşmiş Ştatların Qərbi Avropa və Yaponiyada iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsi Amerika xarici siyasətinin ilk növbəli problemlərindən biri idi.

70-ci illərin birinci yarısında ABŞ hökumətinin xarici siyasət xəttinin mərkəzində Sovet İttifaqı ilə münasibətlərin optimal

istiqaməti dururdu. Bu dövrdə ABŞ-ın xarici siyasətində yeni əlamət Amerika-Sovet münasibətlərində lazımi dəyişikliklər etmək idi. Birləşmiş Ştatlarla Sovet İttifaqı arasındakı münasibətlərdəki böyük yaxınlaşma meyllərini prezident Nikson özü həyata keçirirdi. Nikson öz növbəsində «soyuq müharibə» tərəfdarlarından biri idi.

Moskvada sovet-Amerika danışıqları ( 1972-ci ilin mayın 22-dən 30-dək olan dövrdə) lazımi sazişlərin imzalanması ilə başa çatmışdır. Həmin sazişlər sırasında «Sovet Sosialist Respublikaları İttifaqı və Amerika Birləşmiş Ştatları arasında qarşılıqlı əlaqələrin əsasları» böyük əhəmiyyət kəsb edir. Həmin müqavilənin birinci bəndində deyilirdi ki, hazırkı nüvə əsrində bu və ya digər ölkə dinc yanaşı yaşamaq prinsipinə əməl etmədən mövcud ola bilməz. Həmin müqavilə Amerika-Sovet İttifaqı münasibətlərinin bütün sahələr üzrə beynəlxalq-hüquqi qaydalarını müəyyən etmişdir.

Həmçinin SSRİ və ABŞ arasında raket əleyhinə müdafiə və strateji hücum silahlarının məhdudlaşdırılması və azaldılması sahəsində bağlanmış müqavilə də böyük əhəmiyyət kəsb etmişdir. Həmin müqavilələrin bağlanması nüvə müharibəsi təhlükəsini azaltmış, silahların güclü növlərinin azaldılmasını təmin etmişdir.

Moskva danışıqlarında həmçinin əməkdaşlığın siyasi sahəsi deyil iqtisadi, elmi, mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə əlaqədar başqa sazişlər də imzalanmışdır. Ticarət məsələləri üzrə birgə Sovet-Amerika komissiyası təsis olunmuş, SSRİ və ABŞ arasında ticarət danışıqlarının hazırlanmasının vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin danışıqlarda yuxarıda qeyd etdiyimiz kimi, hər iki ölkə arasında elmi-texniki sahələrdə, səhiyyə sahəsində, elm, təhsil və mədəniyyət sahəsində mübadilələrin təşkili məsələləri müəyyənləşdirilmişdir.

1972-ci ilin Moskva sazişləri amerikalıların böyük əksəriyyəti tərəfindən bəyənilmişdir. Lakin Sovet-Amerika münasibətlərinin normalaşdırılmasının qaydaya salınmasının əleyhinə çıxanlar da var idi. Bunlar inhisarçılardan, strateji silah istehsalı ilə bağlı olanlardan, yüksək mənsublu bürokratlardan, mürtəce fikirli, sionist düşüncəli nümayəndələrdən ibarət idi.

Sovet-Amerika münasibətlərinin qaydaya salması işi ardıcıl davam etdirilirdi. 1973-cü ilin iyun ayında Sov.İKP.MK-nın Baş katibi L.İ.Brejnevin ABŞ-da görüşə gedişi bu yolda yeni əsaslı addımların başlanğıcını qoydu. Növbəti danışıqların nəticəsi olaraq



yüksək səviyyədə nüvə müharibəsinə yol verməmək, sazişi imzalanmış, həmçinin strateji hücum silahlarının gələcəkdə də məhdudlaşdırılmasının ümumi prinsipləri təsdiq edilmişdir. Bir ildən sonra 1974-cü ilin iyun ayında Niksonun Sovet İttifaqına ikinci gəlişindən sonra nüvə silahlarının yeraltı sınaqdan çıxarılmasının məhdudlaşdırılmasına dair müqavilə imzalanmışdır.

Qısa müddət ərzində Sovet-Amerika münasibətləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. SSRİ və ABŞ arasında ticarət yüksək dərəcədə artmışdır. Məsələn, bu artım 1971-ci ildə bütövlükdə 200 milyon dollar olduğu halda, 1973-cü ildə 1,5 milyard dollar olmuşdur. İki ölkənin alimləri və mədəniyyət xadimləri arasındakı əlaqələr möhkəmlənmişdir. Həmçinin iki ölkə arasında nəqliyyat əlaqələri yaxşılaşdırılmışdır. Bu göstərirdi ki, 70-ci illərin əvvəllərində Sovet-Amerika münasibətləri «soyuq müharibəni» çıxılmaz vəziyyətdən çıxarırdı.

İqtisadiyyatın böhranlı tənəzzülü, ölkənin iqtisadi inkişafının zəifliyi, işsizliyin xroniki artımı, bütün bunlar ABŞ-ın hakim dairələrinin qarşısına burjua dövlətinin iqtisadi və sosial vəzifələrinin sürətləndirilməsi vəzifəsini qoyurdu. Dövlət inhisarçı kapitalizmi ölkədə olan vəziyyətin qaydaya salınmasında aciz idi. Onlar iqtisadiyyatın sürətli inkişafını təmin edə bilmir, inflyasiya və işsizliyin qarşısını ala bilmirdilər.

70-ci illərin əvvəllərindən, demokratlar partiyasının sosial bazasının arasında inhisarçılar əleyhinə fikir gündən-günə güclənirdi. 1972-ci ildə növbəti seçki kampaniyasına hazırlığın gedişində zəhmətkeşlərin hüquq və rifahının yaxşılaşdırılması üçün Milli Təşkilat da yaranmışdı. Cənubda xristian rəhbərlərinin konfransında və başqa qruplarda geniş əməkçi kütləsinin maraqlarının müdafiəsi məqsədilə «yoxsullar platforması» işlənib hazırlanmışdı. Platformanın proqramında ABŞ-ın iqtisadi-sosial və siyasi həyatında geniş dəyişiklər edilməsi, ölkənin ictimai həyatının bütün sahələrinin demokratikləşdirilməsi, inhisar hakimiyyətinin məhdudlaşdırılması kimi məsələlər əks etdirilmişdir. Yoxsullar platformasında bütün fəhlə və qulluqçuların əmək və digər hüquqlarının tam təmin olunması, vergi prinsiplərinin dəyişdirilməsi, ölkənin iqtisadi və siyasi həyatında inhisarların mövqeyinin məhdudlaşdırılması idarəetmə işinə əməkçilərin nümayəndələrinin cəlb edilməsi vəs. məsələlərə də baxılmışdır.

Bütün bu proseslərin təsiri altında 70-ci illərin əvvəllərində demokratlar partiyasının sollarla əhəmiyyətli yaxınlaşması baş verdi. Partiyaya rəhbərliyə «yeni demokratik koalisiya» ilə bağlı xadimlər gəldilər.

Ölkədə «Uotergeyt məsələsi» burjua demokratiyasının dərin böhran keçirdiyini göstərdi. 1972-ci ildə seçki kampaniyası zamanı R.Niksonun yenidən prezident seçilməsi üzrə komitə ilə əlaqədar bir qrup şəxs «Vaşinqtonda demokratlar partiyasının ştab mənzilinin yerləşdirdiyi Uotergeyt» hotelində dinləmə qurğusu quran anda yaxalandı. Təhqiqat yolları Ağ evə aparıb çıxarırdı. Dövlət başçısının köməkçilərinin və vəkil edilmiş şəxslərinin bir qrupu məhkəmə məsuliyyətinə cəlb edildi. Vəzifədən kənar edilmə perspektivi qarşısında qalan Nikson 1974-cü ilin avqust ayında prezidentlik səlahiyyətindən əl çəkdi.

70-ci ilin əvvəllərində ABŞ-ın fəhlə sinfi mürəkkəb problemlərlə üzləşdi. Bunlar iqtisadi böhranın başlanması, işsizliyin artması, infilyasiya prosesinin güclənməsi, inhisarların və hökumətin fəhlələr əleyhinə yönəldilmiş siyasəti ilə bağlı idi. 70-ci illərin əvvəlində ABŞ fəhlə sinfinin vəziyyəti son dərəcə aşağı düşmüşdü. 1971-ci ilin avqustunda «yeni iqtisadi səyasətin» təntənə ilə qəbulu ona daha ağır zərbə olmuşdu.

Fəhlə sinfinin və əhalinin digər təbəqələrinin 70-ci illərdəki çıxışlarının əsas demokratik vəzifələri inhisarlar əleyhinə mübarizə olaraq qalırdı.

Amerika burjua siyasətçiləri və ideoloqları qeyd etdiyimiz dövrdə daim göstərirdilər ki, ABŞ azadlıq, demokratiya və insan hüquqları hakim kəsilmiş dövlət nümunəsidir. Etiraf etmək lazımdır ki, amerikalıların əksəriyyətinə konstitutsiya və hüquqlar haqqında billə ( İngiltərədə, ABŞ-da, Kanadada və digər ingilisdilli ölkələrdə konstitutsiya aktlarının adı ) yəni qanunun qüvvəsinə inam xasdır.

Hələ 60-cı illərin başlanğıcında zənci xalqının hərəkatı yeni mərhələyə qalxmışdı. O, sosial hüquqlar uğrunda, əsl vətəndaşlıq hüquq bərabərliyinə nail olmaq və siyasi hakimiyyətə yol tapmaq uğrunda kütləvi mübarizə xarakteri aldı. Hərəkat elə qüvvətləndi ki, hökumətdən və konqresdən böyük güzəştlər qoparmağa nail oldu. Hələ Kennedinin prezidentliyi dövründə işlənib hazırlanmış və 1964-cü ildə qəbul olunmuş vətəndaşlıq hüquqları haqqında qanun ictimai yerlərdə, habelə işçi qüvvəsini işə götürən və işdən çıxan zaman irqi



ayrı seçkiliyi qadağan etdi. 1965-ci ildə başqa bir qanun qüvvəyə mindi. O, bəzi ştatlarda qaradərili əhalini səs verməyə buraxmamaq məqsədilə tətbiq olunmuş bir sıra senzləri ləğv etdi. Mənzil kirayə götürən zaman yol verilən ayrı-seçkilik xüsusi qanunla qadağan olundu. 70-ci illərin zənci hərəkatının əsas ilkin məqsədi və qarşıya qoyduğu əsas vəzifə sosial-iqtisadi sahədə ağlarla-qaralar arasında bərabərliyə nail olmaq idi. 70-ci illərin əvvəllərində ABŞ-da demokratik hərəkatlarda başqa istiqamətlərdə əhəmiyyətli dəyişiklik baş vermişdi. Bu planda gənclər və tələbə hərəkatları xüsusilə xarakterik idi. Tələbə çıxışlarının, tətillərin qarşısının alınmasında hökumət tez-tez polis, silahlı dəstələrdən və milli qvardiyadan istifadə edirdi. Bu cür toqquşmalar əsasən zənci gənclərin ölümü ilə də nəticələnirdi. 1973-cü ilin mayında Kent universitetinin ağ irqdən olan tələbələrinin dinc nümayişinə milli qvardiyanın açdığı atəş nəticəsində dörd tələbə öldürülmüşdür. 1972-ci ildə Konqres tərəfindən qəbul olunmuş ali təhsil haqqında yeni qanuna əsasən tələbələrimn müzakirəyə cəlb olunması və universitet həyatının bəzi məsələləri müzakirə olunmuşdur. Zənci gənclərin ali təhsil almasında bir sıra imkanlar qanuna əsasən genişlənmişdir. Hökumətin tələbələri və gəncləri «sakitləndirmə» planında konstitusiyada 18 yaşdan aşağı seçki senzinin qoyulması az əhəmiyyət kəsb etməmişdir. ABŞ-da yaş senzi 1972-ci ildə 21 yaşdan 18 yaşa endirildi. Konstitusiya cinslərin hüquq bərabərliyini élan edən əlavə 1972-ci ildə konqres tərəfindən qəbul edilsə də ştatların ¾-ü tərəfindən qəbul edilmədiyi üçün qüvvəyə minmədi.

## ABŞ C.Fordun prezidentliyi dövründə (1974-1976-cı illərdə)

Ehtiyatlı adam olan 1974-cü ilin avqust ayının 9-da prezident R.Nikson istefaya getdi. O, ABŞ prezidentləri içərisində vaxtından əvvəl yeganə istefa verən şəxs idi. Onun yerini vitse-prezident Gerald Ford tutdu.

1973-cü ildə ABŞ-da növbəti iqtisadi böhran başlandı və 1975-ci ilə qədər davam etdi. 1975-ci ilin yazına yaxın sənaye istehsalı 1973-cü illə müqayisədə 13,5% aşağı endi. Böhran güclü inflyasiya ilə müşaiyət olunurdu. Qiymətlər qalxdı, Əmək haqqı aşağı düşdü, işsizlik artdı. 1975-ci ildə ölkədə 13 milyon tam və qismən işsiz var

idi. Bir çox tədqiqatçılar belə hesab edirdilər ki, bu ABŞ-da 1929-1933-cü illər böhranından sonra ən güclüsü idi. Hakim dairələr daxilində siyasi mübarizə kəskinləşdi. Respublikaçılar partiyasından olan ABŞ-ın yeni prezidenti Cerald Ford iqtisadi geriliyi və inflyasiyanı aradan qaldırmaq proqramı ilə çıxış etdi. 1974-cü ilin əvvəllərində Ağ ev inflyasiyanı təcili ləğv etmək siyasətindən əl çəkib iqtisadiyatın aşağı düşməsi, işsizlik və enerji böhranı ilə mübarizəni ön plana keçirdi. 1975-ci ilin əvvəllərində işsizlərə fövqəladə yardımlar edilməsinə dair iki qanun qəbul edildi. İşsizliyə görə yardım alan şəxslərin kateqoriyası genişləndirildi. 1975-ci ildə qüvvəyə minən yeni qanunvericilik aktına görə həyat bahalaşdıqca qocağığa görə verilən pensiyalar və digər müavinatlar da artırılmalı idi. 1976-cı ilin seçkiqabağı kampaniyası yaxınlaşdıqca Ford öz rəsmi çıxışlarında daha çox fərdiyyətçilik, xüsusi mülkiyyətçilik prinsipləri irəli sürməyə və sağlam xüsusi bölməni inkişaf etdirməyin zruriliyini qeyd etməyə başladı. 1975-ci ilin yazında işsizlik əleyhinə mübarizə üçün proqram qəbul edildi.

Ford hökuməti 1974-cü ilin sentyabr ayında Niksonu əvf etdi.

Ford hökumətinin daxili siyasətində irqi ayrı-seçkiliyə qarşı mübarizə və qadınların hüquq bərabərliyi mühüm yerlərdən birini tuturdu. 70-ci illərin ortalarında ABŞ-da qadın təşkilatlarının fəaliyyətinin başlıca məqsədi hələ 1972-ci ildə konqress tərəfindən qəbul edilmiş və qadınlara hüquq bərabərliyi verən konstitusiyaya 27-ci düzəlişin qəbul edilməsi idi. 1977-ci ilin əvvəllərində 35 ştatın qanunverici məclisi 27-ci düzəlişi qəbul etdi. Lakin düzəlişin qüvvəyə minməsi üçün onu 38 ştat qəbul etməli idi.

1974-cü ildə ilk dəfə prezident seçkilərinin dövlət tərəfindən maliyyələşdirilməsi sistemi hazırlandı. Bu dövrdə MKİ və FTB-nin qeyri-qanuni hərəkətləri haqqında xalq xəbər tutdu.

1976-cı ildə ABŞ-ın təşkilinin 200 illiyi təntənə ilə qeyd edildi.

C.Ford hökumətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri Hind-Çində 1975-ci ilin yazında müharibənin dayandırılması oldu. ABŞ bu mühabirəyə 150 milyard dollar xərcləmişdi. Müharibədə ABŞ 56 min insan itirmişdi.

Ford hökuməti Yaxın Şərq ölkələri ilə münasibətdə yenə də İsraili müdafiə edirdi. Ford hökumətinin xarici siyasətində LAtın Amerikası ölkələri xüsusi yer tuturdu. 1974-cü ilin dekabr ayında qəbul edilən yeni ticarət qanununa əsasən Latın Amerikasından ABŞ-



a gətirilən bir sıra mallar üzərinə məhdudiyyətlər qoyuldu. Bu hal Latın Amerikası ölkələrinin xarici siyasətinə mənfi təsir göstərdi 1975-ci ilin may ayında ABŞ qanunun bir sıra maddələrini ləğv edərək onu bir qədər yumşaltdı.

ABŞ hökuməti NATO ilə əməkdaşlığa, Avropa siyasətində Atlantika həmrəyliyinə üstünlük verirdi.

Ford hökumətinin xarici siyasətinin istiqamətlərindən biri Asiya və Sakit okean regionu dövlətləri ilə münaisbətlər idi. 1975-ci ilin dekabrında bəzən «Sakt okean doktrinası» adlanan Ford doktrinası elan edildi. Bu doktrinada Asiya-da ABŞ-ın hökmranlığı, strateji baxımdan Yaponiyaya xüsusi diqqət yetirilməsi, Çinlə münaisbətlərin normallaşdırılması, Cənub-Şərqi Asiyada sabitliyin qorunması, bölgədə bütün siyasi münaqişələrin, ilk növbədə Koreya məsələsinin nizamlanması, Asiya ölkələri ilə iqtisadi əməkdaşlıq öz əksini tapmışdı. Bu doktrina ABŞ-ın siyasətinin regionda yeni dövrə qədəm qoyduğunu göstərirdi. Cerald Ford hökumətinin xarici siyasəti ziddiyyətli xarakter daşıyırdı. ABŞ Seul rejimini müdafiə edir, İsrailin təcavüzünə haqq qazandırırdı, Latın Amerikası və ərəb ölkələrinin daxili işlərinə müdaxilə edirdi. Xalqların sülh uğrunda mübarizəsinin artdığı şəraitdə güzəştə getməyə məcbur olaraq 1974-cü ilin noyabrında Vladivostokda Cerald Fordla SSRİ rəhbərliyi arasında danışıqlarda Strateji Silahları məhdudlaşdırmaq haqqında ikinci saziş bağlamaq qərara alındı. 1975-ci ildə ABŞ və SSRİ-nin birlikdə kosmosa «Soyuz-Apollon» gəmilərini göndərməsi və bu sahədə əməkdaşlıq etmələri hər iki ölkə xalqları arasında dostluq münasibətlərinin yaranmasında mühüm addım oldu. 1975-ci ilin iyul-avqustunda çağrılmış Helsinski müşavirəsində ABŞ da iştirak etdi və Müşavirənin Yekun aktını imzaladı.

Bütün bunlarla bərabər iqtisadi böhran, «Uotergeyt işi», Mərkəzi Kəşfiyyat İdarəsi və Federal Təhqiqat bürosunun fəaliyyətinin siyasi ifşası və başqa hadisələr seçicilərin əksəriyyətinin respublikaçılardan üz döndərməsinə gətirib çıxartdı.

Lakin 1976-cı il seçki kampaniyası nəticələrinə görə demokratlar partiyasından olan Ceyms (Çimmi) Karter yeni prezident kürsüsü uğrunda mübarizədə qələbə qazandı.

## ABŞ Ceyms Karterin prezidentliyi dövründə (1976-1980-ci illər)

70-ci illərdə respublikaçıların siyasətindəki spirallıq demokratlara yenidən imkan verdi ki, prezident seçkilərində qələbə qazansın. 1976-cı ilin noyabrında keçirilən prezident seçkilərində demokratlar partiyasından olan, əslində, siyasi cəhətdən tamamilə hazırlıqsız, texnokrat Ceyms Karter prezident seçildi. Əslində onun prezident seçilməsi təsadüfi bir hal idi. C.Karterin bu vəzifəyə seçilməsində ABŞ-ın Cənub-Şərqi və Cənub ştatlarının inhisarçı dairələrinin böyük rolu olmuşdur.

Karter prezident seçildikdən sonra həyata keçirdiyi bir sıra tədbirlərlə ABŞ tarixində müəyyən iz buraxmış oldu. 1973-1974-cü illər enerji böhranı ABŞ- rəhbərliyini düşünməyə vadar etdi. Bu böhrana səbəb 1973-cü ildə İsrail-Ərəb müharibəsində ABŞ və digər böyük dövlətlərin İsraili müdafiə etməsi idi. Belə ki, bu müharibə ərəb dövlətlərini məcbur edirdi ki, neftin qiymətini qaldırsınlar və bu yolla böyük dövlətlərə təzyiq göstərsinlər. Ona görə də Karter əlavə enerji mənbələri yaratmaq məsələsini ABŞ dövlətinin qarşısında mühüm məsələ olduğunu göstərdi. O, ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq xətti yeritməyə başladı. Şəxsi gəlirdən və korporasiyaların gəlirindən alınan vergiləri azaltdı. İş yerlərin açılması üçün vəsait ayrıldı, elektrik enerjisinə qənaət prinsipi irəli sürüldü. C.Karter 1977-ci ilin aprelində neft və neft məhsullarının ehtiyatlarının artırılması, kömürçıxarılmasının, atom enerjisinin inkişafı, günəş enerjisindən istifadə etmək proqramı hazırladı. İnflyasiya ilə mübarizə genişləndi. 1978-ci ilin oktyabrında və 1980-cı ilin martında C.Karter antinflyasiya proqramını təklif etdi. O, inflyasiyanın qarşısını almaq üçün ilk növbədə dolların sabitliyini təmin etməyi düşündü. Ölkə daxilində benzin və digər neft məhsullarının qiymətləri artırıldı.

70-ci illərin sonunda istehsalın yenidən qurulması üzrə proqramlar qəbul edildi ki, onlardan məqsəd keyfiyyətcə daha yüksək əmək məhsuldarlığına, nadir xammal növlərində qənaətə nail olmaq, yanacaq-energetika balansını əsaslı sürətdə yaxşılaşdırmaq idi. 30 miyard dollar dəyərində xarici valyuta fondu yaradıldı ki, qızılın hər aylıq satışı artırılsın. Lakin bütün bunlar istənilən nəticəni vermədi.



Karter hökuməti öz fəaliyyətinin ilk illərində sosial sahədə bir sıra mühüm tədbirlər həyata keçirdi. 1977ci ilin noyabr ayında konqress dörd il ərzində 1 saatlıq minimum əmək haqqının 2,30 dollardan 3,35 dollara çatdırılması haqqında qərar qəbul etdi. İşçi qüvvəsinin eynidən ixtisaslaşmasına diqqət artırıldı. 70-ci illərin sonu üçün sosial sığorta sistemi ilə əhatə olunanların sayı 35 milyon nəfərə çatdı. Hökumət yeni liberalizm xəttinə sadiq qalaraq sosial sahəyə çəkilən xərcləri artırdı. İşsizliyin aşağı salınması ön plana çəkildi. Əmək haqqının 1980-ci ildən başlayaraq 9,5% artırılmasına icazə verildi.

1978-ci ilin oktyabr ayında əmək qabiliyyətli əhalinin işlə təmin edilməsini nəzərdə tutan Hemfri-Hokins qanunu verildi. Həmin qanuna görə, işsizlik əmək qabiliyyətli əhalinin 4%-indən çoxunu təşkil etməməli, inflyasiya 3%-i ötməməli idi. 1978-ci ildə sosial təminat xərclərindən ötrü 100 milyard dollara qədər vəsait ayrıldı. 1977-ci ilin avqust ayında Energetika Nazirliyi yaradıldı. Konqres energetika haqqında qanun qəbul etdi.

70-ci illərin sonunda işsizliyin yüksəlməsi, infilyasiyanın güclü inkişafı, enerji böhranı, büdcənin azalması, sürətlə silahlanmanın yüksəlişi, sosial ziddiyyətlərin kəskinləşməsi – bütün bunlar ABŞ-ın sosial-iqtisadi vəziyyətini xarakterizə edən əsas cəhətlər idi. 1978-ci ildə ölkənin iqtisadiyyatı 1974-1975-ci illərin dünya iqtisadi böhranının fəlakətindən yan keçərək az-çox qaydaya salınmışdı. 1978-ci ildə ümumi milli gəlir real hesablamalara görə 4,4% yüksəlmişdir ki, o da orta hesabla altı böyük sənaye ölkəsindən 4,1% yüksək idi. Lakin 1980-cı ilin proqnozlarına görə, altı iri sənaye ölkəsində milli gəlirin həcmi 2,6% yüksəldiyi halda, ABŞ-da 0,6% təşkil etmişdir. ABŞ-ın iqtisadiyyatı üçün yeni hadisə əmək məhsuldarlığının aşağı düşməsi idi. 1980-ci ilin yanvar ayında prezidentin Konqresə iqtisadi müraciət məsələləri üzrə məktubunda 1979-cu ildə iqtisadi göstəricilərin birdən-birə 2% aşağı düşməsi həyəcanla qeyd edilirdi.

Dövlət məlumatlarına əsasən ölkənin iqtisadiyyatında normalaşdırma işi aparıldıqdan sonra işsizliyin səviyyəsi tədricən aşağı düşmüşdür. Bu məlumat 1976-cı ildə 7,7%, 1977-ci ildə 6,6%, 1978-ci ildə 5,8% təşkil etmişdir. Lakin 1979-cu ildə işsizlərin sayı artaraq 6 milyondan yuxarfı olmuşdur ki, bu da 5,9% təşkil etmişdir. İstehlak qiymətləri 1977-ci ildə yüksələrək 6,6%, 1978-ci ildə 9%,

1979-cu ildə 12,7% olmuşdur. Fəhlələrin əmək haqqı infilyasiyaya uyğun olaraq 1978-ci ildə 0,6%, 1979-cu ildə 4,2% aşağı düşmüşdür. Həmin qeyd olunan mənzərə digər sosial sahələrdə də özünü göstərirdi. Korporasiyaların xalis gəliri 1979-cu ildə 19%, neft inhisarlarının xalis gəliri isə 1979-cu ilin 9 ayı ərzində 75% yüksəlmişdir.

1970-ci illərdə Amerika həyatının mürəkkəb problemləri sırasında energetika problemi əsas olaraq qalırdı. Ölkənin energetika balansında neft idxalı hissəsi xeyli genişlənmişdi. 1970-1971-ci illərdə daxili tələbata uyğun olaraq neft idxalı 23%, 1976-cı ildə 43%, 1978-1979-cu illərdə 50% təşkil etmişdir.

Karter hökumətinin fəaliyyətində görkəmli yeri energetika problemi tuturdu. 1977-ci ilin avqust ayında energetika nazirliyi təşkil olundu. 1978-ci ilin oktyabr ayının 15-də yarımillik müzakirədən sonra Konqres Energetika haqqında qanun qəbul etdi. Qanun neftin və qazın daxili qiymətlərinin tədricən artırılmasını nəzərdə tuturdu. Perspektiv inkişafda qazın üzərində qiymət nəzarətini aradan qaldırmaq məqsədilə hökumət və Konqres ümumi enerji balansında onun rolunun artırılmasını müəyyən edən stimullaşdırma təşkil edilməsini müəyyənləşdirdi. Bu nəinki iqtisadi-energetika problemini həll etdi, əksinə, 1979-cu ildə ölkədə güclü enerji böhranı partlayışına səbəb oldu. Belə olan təqdirdə prezident Karter 1980-ci ildə yenidən işlənilmiş formada Konqresə yeni enerji proqramı təqdim etdi. Yeni qanunda ölkənin daxili enerji mənbələrinin işlənilməsi və istismarı ilə məşğul olan inhisarlar haqqında güzəştlər müəyyənləşdirilmişdir. Karter hökuməti həmçinin ölkədə qiymətlər qaydaya salmaya dair əmrlər də vermişdir. 1979-cu ildə prezident həmçinin «Qaydaya salma şurası» təsis etmişdir. Bütün bunlar ölkədə iqtisadiyyatın nizama salınmasında dövlət-inhisarçı kapitalizminin aşağı keyfiyyətliliyini göstərirdi.

1976-cı il seçki kompaniyasında C.Karter il ərzində hərbi xərclərin 5-7 milyard dollar azaldılmasına söz vermişdi. Sonrakı illərdəki fəaliyyətində isə prezident Karter tamamilə bu sözündən yan keçmişdir. Demokratlar hökuməti Pentaqonun güclənməsi üçün ona pul vəsaitinin ayrılmasını sürətləndirmişdilər. Əgər 1977-ci il maliyyə ilində hərbi xərclər 100,1 milyard dollar təşkil etmişdirsə, 1980-ci ildə Konqres Pentaqonun büdcəsinin həmçinin 124,2 milyard dollar həcmində təsdiq etmişdir. Ümumi hərbi xərclər, digər sahələrə



qoyulan xərclərlə müqayisədə 1980-ci ildə 130 milyard dollardan artıq idi. Qanuni dövlət borcları 1980-ci illərin ortalarında 479 milyard dollar olduğu halda, 1981-ci ilin fevralında qalxaraq 525 milyard dollar olmuşdur. Buna görə də sosial xərclərin hissəsinə görə ABŞ aparıcı kapitalist ölkələri arasında səkkizinci yerdə, hərbi xərclərin hissəçsinə görə isə birinci yerdə dururdu.

Demokratlar hökuməti öz daxili siyasətində sosial-təminat və sosial- maddi yardım sahəsində xeyli işlər həyata keçirmişdir. Sığorta fondları bir neçə illər idi ki, taraş olunmaq nəticəsində zəifləmişdi.

Sosial-təminat sistemi sahəsində 1978-ci ildə 100 milyard dollara yaxın vəsait ödənilmişdi. Bu məqsədlə hökumətə maddi yardıim və xeyriyyəçilik məqsədi ilə əhəmiyyətli vəsait sərf etmək lazım gəlirdi. Dövlət bu gəlirlərin ayrılmasına etiraz edə bilməzdi, bu etiraz sosial partlayışa gətirib çıxara bilərdi. Karter hökuməti bu sahədə xərclərin azaldılmasını iqtisadiyyatın yüksəldilməsi ilə bağlı ölçülərin qəbulunda görürdü.

Ölkədə yuxarıların idarəçilik sisteminə qarşı geniş xalq kütlələrinin etirazları, inamsızlığı yüksəlirdi. Bunu hiss edən Karter hökuməti sosial ədalət platformasında da fəaliyyətini canlandırmağa çalışırdı. Karterin söz verməsinə baxmayaraq işsizliyin aradan qaldırılmasında heç bir iş görməməsi, inflyasiyanın aradan qaldırılmaması, büdcə gəsirinin qalması və s. hesabatlarda təqdim olunmuşdu. Prezidentə 1976-cı ildə onun prezident seçilməsində böyük rol oynamış həmkarlar ittifaqları tərəfindən böyük tələblər verilsə də, lakin hökumət əmək münasibətlərinə dair qanunvericilikdə fəhlələrin mənafeyi naminə heç bir əhəmiyyətli dəyişikliklərə cəhd etməmişdir.

Karter hökumətinin keyfiyyətsiz və səmərəsiz sosial – iqtisadi siyasəti, real şəraiti gərginləşdirərək Amerika fəhlə-hərəkatının inkişafını sürətləndirirdi.

1978-ci ilin mart ayının 25-də şaxtaçıların tətili yeni kollektiv müqavilənin bağlanması ilə nəticələndi. Müqavilədə əmək haqqının və təqaüd təminatının artırılması, həmçinin həmkarların texniki təhlükəsizliyinə nəzarət hüququnun qorunması və s. məsələlər əhatə olunmuşdur. Yeni müqavilə şaxta sahibləri ilə kompromis xarakteri daşımasına baxmayaraq, şaxtaçıların böyük qələbəsi kimi qiymətləndirilirdi.

Şaxtaçıların ümumi tətili, tətil döyüşləri, 1978-ci ildə baş vermiş dəmiryolçuların, nəqliyyatçıların tətili və başqa çoxlu tətillər 70-ci illərin sonlarında həmkarlar ittifaqlarının sosial məqsədlərinin genişlənməsini açıq şəkildə göstərirdi. Mexaniklərin Millətlərarası Assosiasiyasının prezidenti Uilyam Uinpisincer ədalətcəsinə qeyd etmişdir ki. həmkarlar ittifaqları fəallarının kütlələri inandırması tədricən güclənir ki, nəzəriyyə və praktikanın müdafiəsi baxımından bu vaxta qədər onlar zamanın tələblərindən çox geridə qalırdı.

ABŞ-da müasir fəhlə hərəkatının səviyyəsinin yüksəlməsinin əsas göstəricisi hələ 70-ci illərin əvvəllərindən fəhlələrin tələbi ilə Konqres tərəfindən «İqtisadi hüquqlar haqqında qanunun» qəbulu olmuşdur. Qanunda əməkçilərin əməyi müqabilində hüquqları, gəlirlərin saxlanması, əmək qabiliyyətini itirən şəxslərin əhəmiyyətli vəsaitlə təmin olunması və s. göstərilmişdir. Çox zaman təşkilatı cəhətdən güclü olan fəhlə hərəkatlarında ancaq kütlələrin elementar sosial-iqtisadi hüquqları tələb və müdafiə olundu, həmçinin milliləşdirmənin radikal şüarları, xüsusilə, neft sənayesinin milliləşdirilməsi şüarları irəli sürülürdü. Dərin enerji böhranı şəraitində bu şüarlar o qədər geniş əhəmiyyət daşımırdı.

70-ci illərin ikinci yarısında Amerika Birləşmiş Ştatlarında demokratik hərəkatlar da genişlənirdi. Belə ki, 1977-1978-ci illərdə, kütləvi fermer hərəkatı baş vermişdi. Orta Qərb və cənub, həmçinin Vaşinqtonda fermerlərin güclü nümayişi baş verdi. Onlar öz çıxışlarında kənd təsərrüfatı qiymətlərinin dövlət sisteminin qaydaya salınmasını, fermerlərin və tələbatçıların xərclərinin ödənilməsini tələb edirdilər.

Həmçinin 1978-ci ildə Vaşinqtonun küçələrində milli-irqi ayrı-seçkiliy ilə əlaqədar hinduların da güclü etiraz nümayişi baş vermişdi.

Qadınların bərabərliyi uğrunda hərəkat onları böyük siyasi qüvvəyə çevirdi. Bu mübarizənin əsas diqqətində konstitutsiyanın 27-ci əlavəsinin təsdiq edilməsi idi. Qadın təşkilatlarının təkidi altında Konqres 1978-ci ildə onun təsdiq edilməsi müddətini 1982-ci ilin 30 iyununadək uzatdı.

Karter hökumətinin fəaliyyətində əsas yerlərdən birini yenə də əvvəlki illərdə olduğu kimi, xarici siyasət məsələləri tuturdu. Yeni iqtidar hakimiyyətə gəldiyi gündən ABŞ-ın xarici siyasət xəttinə əsaslı dəyişikliklər etməyə can atırdı. Bu siyasətin əsasında



Vaşinqton strategiyasının qlobal məsələləri dururdu. Bu siyasət Birləşmiş Ştatların imperialist maraqlarının müdafiəsinə, kapitalizm dünyasında onun liderlik rolunun saxlanmasına, bu rolun stabilliyinin azaldılmasına qarşı yönəldilmiş bütün qüvvələrə qarşı mübarizəyə yönəldilmişdir.

Düzdür, C.Karter və onun kabinet üzvləri bir neçə dəfə ABŞ-ın xarici siyasətində onun bütün ölkələrlə «əməkdaşlıq» etmək istəyi barədə bəyanatlarla çıxış etmişlər. Dünya ictimaiyyətinin diqqətini cəlb etmək məqsədilə Karter hökuməti xarici siyasətdə «insan hüquqları» və «əxlaq prinsipləri»nin əsas təbliğatçısına çevrilmişdir.

Karter hökuməti Qərbi Avropa və Yaponiya ilə əlaqələrində iri kapitalist dövlətlərinin vahid cəbhəsini gücləndimək məqsədilə «qarşılıqlı əməkdaşlıq» konsepsiyasını fəal təbliğ edirdi. Bu işdə qarşılıqlı planların işlənməsində Birləşmiş ştatların rəhbər rol oynayacağı nəzərdə tutulurdu. Aparıcı kapitalist ölkələrinin rəhbərlərinin (ABŞ, AFR, Yaponiya, Fransa, İngiltərə, İtaliya və Kanada) bütün illik müşavirələrində Birləşmiş Ştatların nümayəndələri öz müttəfiqlərini iqtisadi, enerji, maliyyə çətinliklərinin aradan qaldırılmasına dair proektlərlə bağlamağa can atırdılar. Bu proektlər söz yox ki, ilk növbədə Amerika tərəfi üçün mənfəətli idi. Lakin Qərbi Avropa ölkələri və Yaponiya qəti şəkildə Amerikanın göstərişlərindən imtina etdilər. İri kapitalist ölkələrinin iqtisadi sahədə qarşılıqlı planlar işləmək təşəbbüsləri səmərəsiz nəticələndi.

Hərbi siyasət məsələlərində Birləşmiş ştatların və onun Qərbi Avropa müttəfiqlərinin birliyi yüksək dərəcədə müdafiə olunurdu. Belə ki, 1978-ci ilin may ayında NATO-nun sessiyasında ABŞ-ın təşəbbüsü ilə hərbi xərclərin ildə 3% artırılmasına dair qərar qəbul edildi.1979-cu ilin dekabr ayında Birləşmiş ştatlar NATO-da öz müttəfiqlərini Qərbi Avropa ölkələrində orta mənzilli raket-nüvə vasitələrinin yerləşdirilməsi haqqında qərarla razı saldı. Lakin NATO-nun gücünün sonrakı illərdə artırılmasına dair Amerikanın planı Qərbi Avropanın aparıcı dövlətlərinin rəhbərləri tərəfindən sönük ilə qarşılandı. 1980-ci ilin iyun ayında «Böyük yeddilərin» axırıncı müşavirəsində ( Venetsiyada keçirilib ) ABŞ nümayəndələri özlərinin Qərbi Avropa müttəfiqlərini öz məqsədlərinə ram etməyə nail olmadılar.

Karter hökumətinin Latın Amerikası ölkələri ilə münasibətinə dair siyasəti böyük daxili ziddiyyətlə xarakterizə olunurdu. Yeni hökumət Latın Amerikası ölkələri məsələsinə respublikaçıların münasibətindən fərqli münasibət bəsləyirdi. Karter hökumətinin bu məsələ ilə bağlı planları sırasında Panama kanalı haqqında yeni müqavilənin işlənməsi və bağlanması dururdu. Vaşinqtonun rəsmi numayəndələrinin fikrincə bu Latın Amerikası ölkələrində Amerika əleyhinə əhval-ruhiyyənin zəifləməsinə gətirib çıxarmalı idi. 1977-ci ilin sentyabr ayının 7-də Vaşinqtonda təntənəli şəraitdə Panama kanalının yeni statusu ilə bağlı müqavilə imzalandı. 1978-ci ilin mart-aprel ayında keçirilən müzakirələrdən sonra senat müqaviləni təsdiq etdi. Yeni müqavilədə göstərilirdi ki, Panama kanalı tədricən Panamanın tabeçiliyi altına keçir. Kanalın istismarından alınan pulla kanal işi yaxşılaşdırılmalı və 2000-ci ilədək o tam şəkildə Panamanın nəzarəti altına keçməlidir. Lakin Panama kanalı haqqında bir qanunda Birləşmiş Ştatlar Panama kanalı ərazisində özünün əsas hüquqlarını saxlamışdı.

Birləşmiş Ştatlar diktator A.Somosaya 1979-cu ilin iyul ayında Nikaraqua xalqının onun hökumətinin devirməsi məqsədilə üsyanının yatırılmasına çoxlu miqdarda iqtisadi və hərbi köməklik göstərmişdir. Həmçinin Vaşinqtonun hakim qüvvələri tərəfindən Salvodorun, Qvatemalanın, Qondurasın irticaçı qüvvələrinə, xalqların milli-azadlıq hərəkatı əleyhinə hər cür mübarizəyə fəal köməklik göstərilirdi.

70-ci illərin sonlarında Ağ evin sahiblərinin, ümumiyyətlə, ABŞ-ın Yaxın və Orta Şərq siyasəti dəyişməmiş qalmışdır. Düzdür, 1977-ci ilin oktyabr ayında dünyada sülhün qorunması və beynəlxalq gərginliyin azaldılması məqsədilə «Ərəb-israil ziddiyyətlərinin ədalətli həlli və qaydaya salınmasına dair» qarşılıqlı Sovet-Amerika bəyanatı dərc edilmişdir. Lakin Birləşmiş Ştatlar bu məsələdə «hakim» rolunu oynamasına baxmayaraq yenə də imperialist mahiyyətini gizlətmir, ərəb xalqlarının vahid cəbhəsini parçalamaq, İsrailin vəziyyətini möhkəmlətmək məqsədi güdürdü. Bu işin ssenarisi Vaşinqtonda hazırlanırdı. 1978-ci ilin sentyabr ayında ABŞ prezidentinin iqamətgahında, Kemp-Deviddə C.Karterin Misir prezidenti Ə.Sadatla və İsrailin baş naziri M.Beginlə «Misir-İsrail» razılaşmasına dair görüşü keçirilmişdir. Görüşdə bir sıra siyasi məsələlər, həmçinin İordan çayının Qərb sahilinə – Qəzzə ərazisinə



muxtariyyət verilməsi və bu əarzidən İsrail ordularının çıxarılması məsələləri də müzakirə edildi. (Həmin ərazi 1967-ci ildə İsrail işğalına məruz qalmışdır). Karter hökumətinin Yaxın Şərq siyasəti İsrailin işğalçılıq planlarının genişlənməsinə yardım etmişdir.

Karter hökumətinin sözü ilə işi arasında ciddi əlaqəsizlik başqa xarici siyasə məsələlərində də özünü göstərirdi. Belə ki, məsələn, 1979-cu ilin yanvar ayının 1-də ABŞ və ÇXP arasında rəsmi diplomatik əlaqələr yaradılmış oldu. Həm də prezident Karter, həm də Xua Qoorenin rəhbərlik etdiyi Çin rəhbərləri ABŞ və ÇXP arasında münasibətlərin normalaşdırılmasına can atırdılar. Bu normalaşdırma hər hansı bir üçüncü dövlət əleyhinə aparılmamalı, sülh işinə, beynəlxalq təhlükəsizliyə xidmət etməli idi. Lakin Amerika-Çin əlaqələrinin sonrakı inkişafı göstərmişdir ki, Birləşmiş ştatların sağ dairələri «Çin faktorundan» Sovet İttifaqının əleyhinə istifadə etməyə çalışmışlar.

70-ci illərin ikinci yarısında Sovet-Amerika münasibətlərinin inkişafı böyük çətinliklərlə üzləşmişdir. Düzdür, C.Karter və onun xarici siyasət üzrə müşavirləri özlərinin dünyanın iki sistemi arasında münasibətlərin normalaşdırılmasını bəyanatlarla göstərmişlər. Bununla ABŞ_ın hakim dairələri sürətlə silahlanmada yeni imkanlar qazınır və Birləşmiş Ştatların günahı üzündən strateji hücum silahlarının məhdudlaşdırılmasına dair yeni uzunmüddətli razılığın əldə olunması və müqavilənin bağlanması gedişini ləngidirdi.

1979-cu ildə SSRİ və ABŞ arasında strateji hücum silahlarının məhdudlaşdırılmasına dair saziş imzalandı. Bu sənəd də əvvəllər imzalanmış sənədlər kimi tərəflərin bərabərliyi və eyni dərəcədə təhlükəsizliyi prinsipinə əsaslanmışdır. Saziş də müxtəlif ictimai quruluşlu dövlətlərin dinc yanaşı yaşaması prinsipinə müvafiq olaraq ikitərəfli əməkdaşlığı uzunmüddətli əsas üzərində inkişaf etdirmək üçün zəmin yarada bilərdi.

1979-cu ilin iyun ayının 18-də Vyanada Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev və ABŞ prezidenti C.Karter arasında strateji hücum silahlarının məhdudlaşdırılmasına dair müqavilə imzalandı. Hər iki tərəf strateji hücum silahlarının sayının məhdudlaşdırılması və onların təkmilləşdirilməsinin saxlanılmasına dair razılaşma əldə etdi. Onlar həmçinin öz üzərlərinə strateji silahların yeni növlərinin təşkilinin məhdudlaşdırılması vəzifəsini də götürmüşdülər. 1979-cu ilin Vyana

görüşü özündə Sovet-Amerika münasibətlərinin və bütünlükdə beynəlxalq siyasi iqlimin yaxşılaşması yolunda irəliyə mühüm addım atıldığını əks etdirmişdir. 1979-cu ilin dekabrında SSRİ-nin Əfqanıstana qoşun yeritməsi bu sazişin ABŞ tərəfindən ratifikasiya edilməməsinə səbəb oldu.

Lakin müqavilənin şərtlərinə baxmayaraq Karter hökuməti bu dövrdəsürətlə silahlanma yolunu davam etdirirdi. ABŞ-ın illik hərbi xərclərinin 4,5-5% artmasına dair qərarlar qəbul edilmişdi.

Karter hökuməti hərbi xərcləri 1977-ci ildəki 100,1 milyard dollardan 1980-ci ildə 130 milyard dollara çatadırdı.

Onun xarici siyasəti əvvəlkilərdən çox da fərqlənmirdi. Lakin qeyri ardıcıl idi. Ümumiyyətlə, ABŞ-da prezidentlər dəyişsə də, dövlətin siyasəti heç vaxt dəyişmir. Ceyms Karter 1977-ci ildə ABŞ konqresində belə bir qanunun qəbul edilməsinə nail oldu ki, dünyanın hər hansı bir yerində pozulan insan haqlarını ABŞ müdafiə etməlidir. 1980-ci ildə məşhur «Karter doktrinası» irəli sürüldü. Həmin doktrinaya görə ABŞ-a icazə verilirdi ki, müəyyən ərazilərdə lazım gəldikdə nüvə müharibəsi aparsın. «ABŞ-ın həyat sahəsi» adlanan dünyanın hər yerində ABŞ-ın zonaları meydana gəldi. C.Karterin dövründə neytron bombası və qanadlı raketlər istehsalı gücləndirildi. «MX» raketləri və «Traydent» adlı sualtı qayıqlar meydana gəldi. 1978-ci ildə ABŞ-ın təkidi ilə NATO-nun hərbi xərclərinin hər il 3% artırılması haqqında qərar qəbul edildi, 1979-cu ildə ABŞ Qərbi Avropada nüvə raketlərini yerləşdirməyə razılıq aldı.

ABŞ geniş miqyasda həm Səudiyyə Ərəbistanına, həm də İrana silah göndərirdi. 1978-1979-cu illərdə ABŞ İran körfəzində və Hind okeanında öz hərbi-dəniz bazalarını genişləndirdi. 1979-cu ildə Tehranda ABŞ səfirliyinin işçilərinin girov götürülməsindən istifadə edərək ABŞ-da şovinist təbliğat gücləndirildi, 1980-cı ilin aprelində İrana qarşı fitnəkar aksiya tərtib edildi. Şah öldükdən sonra ABŞ İranın doldurulmuş aktivlərini qaytardı. İran isə girovları azad etdi. Bütün bunlar Karterin nüfuzunu daha da sarsıtdı.

Xarici və daxili siyasət məsələləri üzrə mübarizə 1980-ci il seçki kampaniyası gedişində daha da kəskinləşmişdi. Seçki qabağı mübarizənin mərkəzində ölkədə iqtisadi çətinliyin aradan qaldırılması və ölkənin idarə edilməsi bacarığı məsələsi dururdu.

Demokratlar partiyası 1976-cı ildə Ağ evdə nailiyyət qazanmasına və Konqresdə çoxluq təşkil etməsinə baxmayaraq



seçkilərə parçalanmış halda gəldi. Partiyada istənilən qədər daxili sosial-iqtisadi çətinliklərin aradan qaldırılmasının yolları kifayət qədər müzakirə edilməmişdi.

1978-ci ilin dekabr ayında demokratlar partiyasının konfransı keçirildi. Konfransda sosial-iqtisadi problemlərə münasibətdə iki nöqteyi-nəzər üz-üzə gəldi. Senator Eduard Kennedi sosial xəoclərin genişləndirilməsi, dövlət tibbi sığortasının aparılması istiqamətində çıxış etdi. Prezident Karter isə infilyasiyanın qarşısını almaq üçün qiymətlərin endirilməsi və sosial tələbat üçün pul vəsaitinin ayrılması üzrə öz proqramını müdafiə etdi.

ABŞ Kommunist Partiyası Mərkəzi Komitənin 1979-cu ilin 17-18 noyabrında çağırılmış plenumunda namizədlərini təyin etmişdirlər. Bunlar Kes Xoll və Ancella Devis olmuşdur. 1980-ci il bir may çıxışında Kes Xoll demişdir: «İndi Amerika xalqı ancaq bir yol-siyasi müstəqillik yolunu tutmalıdır. Bizim ölkəmiz istər xarici siyasətdə, istərsə də daxili siyasətdə ciddi böhran şəraitində yaşayır. Ona görə də realist sağlam düşüncə platformasında dayanmaq üçün radikal dəyişikliklər etmək lazım gəlir».

Respublikaçılar öz qurultaylarında R.Reyqanı prezidentliyə namizəd irəli sürdülər. Demokratlar isə C.Karteri əsas namizəd kimi saxladılar. Seçkilərdə qələbəni R.Reyqan qazandı.

## ABŞ Ronald Reyqanın prezidentliyi dövründə (1980-1988-ci illər).

1980-ci ildə ABŞ-ı yenidən iqtisadi böhran bürüdü. Ölkə daxilində sağ neomühafizəkar qüvvələr fəallaşdılar. Karter komandasına etiabar azaldı. 1979-cu ildə prezidentin təcrid olunması prosesi daha da gücləndi. İnzibati dairənin bir çox nüfuzlu xadimləri istefaya getdilər.

1980-cı ilin noyabrında keçirilən prezident seçkiləri demokratlar partiyasına uğur gətirmədi. Təşəbbüs respublikaçıların əlinə keçdi. Ölkədə sağa doğru dönüş baş verdi. Sağ respublikaçılar dairəsinə mənsub olan, məşhur aktyor, gözəl natiq, hələ 1964-cü ildə Qolduoteri müdafiə etdiyi zaman çıxışları ilə yadda qalan, ABŞ tarixində ən populyar prezident kimi tanınan Ronald Reyqan bu vəzifəyə seçildi. Reyqanın fəaliyyətində özünə məxsus cəhətlərdən biri onun bütün məsələlərə dövrə uyğun şəkildə yanaşmağı bacarması

idi. Reyqanın dövründə ABŞ-da universal dövlət yaradılmış oldu. Bütün bunlara görə o tarixə böyük kommuniator kimi daxil oldu.Xalq onu «böyük ünsiyyət ustası» adlandırırdı.

Yeni iqtisadi böhran 1982-ci ilə qədər davam etdi. Sənaye məhsulu istehsalı 1979-cu illə müqayisədə 1980-ci ildə 3,6% aşağı düşdü. 1982-ci ildə isə bu rəqəm 8,2% oldu. Böhrandan avtomobilqayırma, qara metallurgiya, sənayenin digər qabaqcıl sahələri zərər çəkdilər. Böhran kənd təsərrüfatına və qeyri-istehsal sahələrinə də toxundu. Ölkədə 12 milyon işsiz var idi. ABŞ ancaq 1983-cü ildə iqtisadi böhrandan çıxmağa başladı. Həmin ilin payızında sənayedə artım 6,6% oldu. Reyqan fəaliyyətində «mühafizəkar inqilab» xəttini götürdü. Reyqan inzibati idarəsi daxili siyasət sahəsində bütün diqqətini ölkənin iqtisadi böhrandan çıxarmağa verdi. Bu sahədə ilk addım 1981-ci ilin avqustunda konqres tərəfindən bəyənilmiş vergi islahatı idi. Reyqanın dövründə şəxsi vergilər 5%-dən 20%-ə qədər azaldıldı.1980-1982-ci illərdəki energetika böhranından sonra Reyqan xaricdən gətirilən neft üzərində hökümət nəzarətini aradan götürdü. Neft və neft məhsullarının qiyməti 20 % qalxdı. Bu isə ölkədə neftin sərbəst satışını təmin etməyə imkan verdi. Bir sözlə, Reyqan istehsalın texnoloji struktur baxımdan yenidən qurulmasını təmin etdi. Sosial xərclər 54%-dən təxminən 48%-ə endirildi. Onun dövründə ölkədə trans- milli korporasiyaların mövqeyi gücləndi. ABŞ-da bu illərdə ümumi məhsul istehsalı xeyli artdı. (Ümumi məhsul dedikdə ölkənin həm daxilində, həm də həmin ölkənin başqa ölkələrdəki müəssisələrində istehsal edilən məhsul nəzərdə tutulur). Reyqanın dövründə inflyasiyanın qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirildi. Onun hakimiyyətdə olduğu 8 il ərzində inflyasiya 2%-ə endi. 13 milyon iş yeri açıldı. Məşğulluq problemi həll edilmiş oldu Reyqanın gördüyu bu tədbirlər «Reyqanomika», yəni Reyqan iqtisadiyyatı kimi tarixə düşdü. 1984-cü ildə xalq onu yenidən prezident seçdi. Xalq artıq onu «tefton prezident» adlandırırdı.

1970-ci illərin sonundan etibarən ABŞ-da iqtisadiyyatın uzun sürən struktur-texnoloji yenidən qurulması başlandı. Bu yenidənqurmanın mahiyyəti istehsalatın elmi-texniki tərəqqi sahəsində ən yeni nailiyyətlərinin tətbiqi ilə texniki cəhətdən əsaslı surətdə yenidən təchiz etmək idi. İstehsalın yenidən qurulması üzrə iri proqramların məqsədi keyfiyyətcə daha yüksək əmək



məhsuldarlığına, defisit xammal növlərinə qənaətə nail olmaq, yanacaq enerji-balansını əsaslı surətdə yaxşılaşdırmaq idi. Avtomatlaşdırılmış sistemlərin, sənaye robotlarının, lazer texnikası və texnologiyasının geniş tətbiqi metallurgiya, maşınqayırma, avtomobilqayırma və digər aparıcı istehsal sahələri üçün səciyyəvi idi. Radioelektron, aerokosmik, cihazqayırma və s. bu kimi elm tutumlu sahələr sürətlə inkişaf edirdi. Mikroprosessor texnologiyasından istifadənin miqyası getdikcə genişlənirdi. 1987-ci ildə EHM-nin sayı 20 milyon ədəddən artıq ( o cümlədən 19 milyon personal komputer ) olmuşdur.

Prezident Ronald Reyqan hökuməti iri kapitalın mənafeyinə xidmət edərək inflyasiyanı cilovlamaq və iqtisadiyyatı yenidən qurmaq, ABŞ-ın dünya bazarında rəqabət mövqeyini gücləndirmək siyasəti yeritməyə başladı. «Reyqanomika» ( yəni Reyqan iqtisadiyyatı) adı almış və proqram milli gəlirin iri kapitalın və əhalinin varlı təbəqələrinin xeyrinə sonrakı yenidən bölgüsünə və burada fəhlə sinfinin payının azalmasına gətirib çıxardı. Sosial xərclər azaldıldı. Eyni zamanda hərbi təxsisatlar getdikcə artırıldı.

Lakin elmi-texniki inqilabın inkişafı və hökumətin biznesi təşviq etmə proqramı iqtisadiyyatın inkişafının mövcud qeyri-stabilliyini aradan qaldıra bilmədi. İqtisadiyyatın struktur- texnoloji baxımdan yenidən qurulması bir sıra müəssisələrin bağlanması, iş yerlərinin ləğv edilməsi, işsizliyin artması ilə müşayiət olundu. 1980-1983-cü illərdə ABŞ-da istehsal növbəti dəfə azaldı və yalnız sonrakı illərdə sənaye yüksəlişi başladı.

ABŞ üçün istehsalın və kapitalın, o cümlədən bank işinin, yüksək dərəcədə təmərgüzləşməsi maliyyə oliqarxiyasının təzyiq göstərməsi ilə səciyyələndirdi. 200 iri korporasiya ölkənin sənaye istehsalının təxminən yarısına nəzarət edir.

80-ci illərdə Cənub və Cənub-Qərb ştatlarının sənaye cəhətdən coşğun inkişafı ilə əlaqədar olaraq inhisarçı kapitalın Texas və Koliforniya qruplarının xüsusi çəkisi artmışdı. Eyni zamanda onların və maliyyə burjuaziyasının köhnə qrupları arasında iqtisadiyyatın və siyasətə nəzarət uğrunda mübarizə kəskinləşmişdi.

Kapitalist ölkələrini və inkişafda olan ölkələri geniş miqyasda istismar edən Amerika transmilli korporasiyasının fəaliyyəti böyük vüsət almışdı. 80-ci illərin birinci yarısında Qərb ölkələrindəki 50 iri transmilli korporasiyalardan 24-ü Amerika kapitalına məxsus olmuş,

bütün xalis mənfəətin 2/3-dən çoxu onun payına düşmüşdür. Amerika transmilli korporasiyalarının xarici ölkələrdəki müəssisələri AFR, Fransa, yaxud İngiltərədən çox məhsul buraxırdı.

Məlumdur ki, ABŞ-da hərbi sənaye kompleksi 60-cı illərdə təşəkkül etmişdir. Həmin kompleksə silah istehsal edən inhisarlar, generalitetin yuxarı təbəqələri, dövlət-hökumət bürokratiyasının bir hissəsi, Amerika imperializminin ideoloji aparatı, militaristləşdirilmiş elm daxildir. Bu qüvvələr birlikdə hərbi məhsul istehsalının artırılmasında və təcavüzkar siyasətin həyata keçirilməsində başlıca vasitə idi.

80-ci illərdə Hərbi sənaye kompleksinin əsasını silah istehsalını inhisara alan iri hərbi-sənaye firmaları təşkil edirdi. Hərbi sifarişçilərin 2/3 hissəsini Pentaqonun 100 əsas podratçısı alırdı. Bu sifarişlərin yerinə yetirilməsindən gələn mənfəət mülki istehsalatdakına nisbətən 2-3 dəfə yüksək idi. Hərbi istehsalın artırılması milli sərvətin Amerika xalqının mənafeyinə yad olan qeyri-məhsuldar məqsədlərə sərf edilməsi demək idi. Hərbi xərclər hər il artırılırdı.

İstehsalın militaristləşdirilməsi iqtisadi qeyri-sabitliyi artırır, maliyyə disproporsiyası yaradırdı. Məsələn, hərbi xərclərin daim artırılması nəticəsində ABŞ-ın dövlət büdcə kəsiri 1986-cı ildə 220 milyard dollardan artıq olmuş, dövlət borcu 2 trilyon dollar astronomik məbləği keçmişdi.

Hərbi-sənaye inhisarların nümayəndələri dövlə departamenti və Konqresdə ABŞ siyasətinin formalaşdırılmasında mühüm rol oynayırdı. Hərbi sənaye, Pentaqon və icraiyyə hakimiyyəti arasında bütün səviyyələrdə daim kadr mübadiləsi praktikası yaranmışdır.

Reyqanın dövründə senatda təhlükəsizlik və terrorizmə qarşı mübarizə aparmaq üçün xüsusi komissiya yaradıldı. Bu dövrdə xüsusi diqqət yetirilən sahələrdən biri də xidmət sahəsinin inkişafı idi. Məşğulluğun artmasının əsas mənbəyinin biri bu, digəri isə hərbiləşdirmənin sürətləndirilməsi idi. 80-ci illərdə ABŞ transmilli korporasiyalarının xarici ölkələrdəki müəssisələri AFR, Fransa və ya İngiltərənin istehsal etdiyi məhsuldan daha çox məhsul buraxırdı. ABŞ dövlət-inhisarçı kapitalizminin bu dövrdə ən mühüm əlamətləri kredit, borc vermək və digər kapital ixracı formalırı idi. 80-ci illərdə ölkəyə mühacirət edənlərin sayı xeyli artdı. ABŞ-a Asiya və Latın Amerikasından axın gücləndi. 80-cı ildə təkcə Vyetnamdan buraya 800 minə qədər adam gəldi.



Muzdlu işçilərin 75%-i qeyri-maddi istehsal sahələrində çalışırdı və bu işçilər içərisində 44%-ini qadınlar təşkil edirdi. Cəmiyyətin «avara» adamları hesab edilən aktyorların, jurnalistlərin vəziyyəti yaxşılaşdı. Onlar cəmiyyətdə öz yerlərini tutdular. ABŞ-da artıq kompüterlərin kütləvi istehsalı sürətləndi. Onların sayı 20 milyonu ötüb keçdi. Bu zaman ABŞ cəmiyyətini varlılar, orta sinfin üç təbəqəsi, yoxsullar, dilənçilər, evsizlər kimi sosial qruplara bölmək olardı.

Bu qruplar arasında gəlirlərin və yığılmış sərvətlərin səviyyəsinə görə böyük fərq var idi. 80-cı illərdə yüksək təminatlıların sayı artdı. Ailələrin böyük əksəriyyəti orta rifaha malik qrupa aid edildi. Bir çox amerikalılar müxtəlif kampaniyaların səhmlərini əllərində cəmləşdirərək əmək haqlarından başqa, kollektiv mülkiyyətdən də hər il gəlir əldə edirdilər.

Renald Reyqanın respublikaçı hökuməti iqtisadiyyatın inkişafına kömək etməyə, inflyasiyanın qarşısını almağa və sabitliyi təmin etməyə çalışaraq, dövlətin iqitsadiyyata qarışmasını məhdudlaşdırmaq yolunu götürdü. 80-cı illərdə gəlir vergisinin və mənfəətə görə verginin norması əhəmiyyətli dərəcədə azaldıldı, kapital qoyuluşu üçün vergi güzəştləri edildi. Dövlət biznesin bir çox növlərini nizama salmaqdan imtina etdi, trest əleyhinə qanunçuluğun tətbiqi sahəsini kəskin surətdə ixtisara saldı, şəxsi təşəbbüs üçün əlverişli şərait yaratdı. Korporasiyaların gəlirləri görünməmiş şəkildə artdı. Eyni zamanda sosial proqramlar azaldıldı və bu proqramlar qismən hissə-hissə ştatlara və yerli orqanlara verildi.

«Reyqanomika» şəraitində Amerika sənayesi elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini səmərəli surətdə tətbiq edirdi. Onun beynəlxalq miqyasda rəqabətə davamlılığı artdı. İşsizliyin və inflyasiyanın səviyyəsi aşağı düşdü. Bu, istehlak tələbatının artmasına səbəb oldu. Bu nəticələrə hərbiləşdirmənin sürətləndirilməsi şəraitində, daxili və xarici borcun çox böyük ölçüdə artması hesabına nail olunmuşdu.

80-ci illərin ikinci yarısından başlayaraq ABŞ iqtisadiyyatına xarici kapital axını güclənməyə başladı. Bu, başlıca olaraq qiymətli dövlət kağızlarının, bank əmanətlərinin qoyulmasından, şəxsi kompaniyaların səhmlərinin əldə edilməsindən, müstəqil kapital qoyuluşundan ibarət idi. Sabitliyə və yüksək mənfəətə ümid bəsləyən Böyük Britaniya, Niderland, Yaponiya, Kanada, AFR daha çox

fəallıq göstərirlər. 80-ci illərin axırına yaxın xarici kapital qoyuluşu Amerikanın xarici aktivlərini 0,5 trln. Dollar ötüb keçdi. ABŞ borclu ölkə oldu. Xarici firmalar daha çox Amerikanın emaledici sənayesinə və müasir elmtutumlu sahələrinə geniş yayılmağa başladı. Xarici kapital Amerika iqtisadiyyatında əsaslı keyfiyyət dəyişiklikləri edilməsinə, onun beynəlxalq kooperasiyada və elmi-texniki mübadilədə iştirakına kömək edir. Bu, ABŞ-ın daha açıq tipli təsərrüfatı keçdiyini göstərir.

Eyni zamanda xarici ticarətin müvazinətsizliyi saxlanır: ABŞ-ın idxalı ixracını əhəmiyyətli dərəcədə üstələyir. Yaponiya ilə ticarətdə fərqin onun xeyrinə xeyli artması xüsusilə diqqəti cəlb edir.

Federal büdcə defisiti böyük problem idi. Bu, Reyqan idarəsindən qalan miras idi. O zaman 8 il ərzində hərbi məqsədlər üçün 2,5 trln. Dollar xərclənmişdi. Dünyada baş verən dəyişikliklər və bir sıra hərbi proqramların ixtisarı Pentaqona büdcəsini azaltmaq üçün əlverişli şərait yaratdı. Lakin silahların müasirləşdirilməsi və yeni silah növlərinin yaradılması davam etdirilir.

Demoarktik partiyası uzun zaman ABŞ-ın Ən nüfuzlu və kütləvi partiyası olub. Bu partiya sosial manevr etməyi yaxşı bacarırdı. 60-cı illərin ikinci yarısından başlayaraq o, uzunmüddətli böhran vəziyyətinə düşdü. Buna səbəb ölkədəki sosial fəlakətlər, ABŞ-ın Vyetnamda təcavüzü və sosial-iqtisadi tənzimləmənin səriştəsizliyi idi. Altı prezident seçkisindən (1968-1988) beşində demokratlar məğlub oldular. Orta təbəqədən olan seçicilərin uzaqlaşması və aztəminatlı seçicilərin süstlüyü hesabına onların sosial bazası daraldı. Partiya ideya-siyasi istiqamətini dəyişdirmək və yeni uzunmüddətli proqram axtarışı perspektivi qarşısında qaldı.

İri kapitalın köməyindən istifadə etməsinə baxmayaraq respublikaçılar partiyası uzun müddət azlığın partiyası olaraq qalırdı. 60-cı illərin axırından etibarən partiyanın rəhbərliyi özünün siyasi strategiyasını seçicilərin kütləvi bazasını yaratmağa yönəltdi. 70-ci illərin ikinci yarısında ABŞ-da yeni siyasi dövr başlandı – mühafizəkar sağların üstünlüyü, respublikaçılar partiyasının hakimiyyətə gətirilməsi ilə başlanan bir dövr. Onların proqramı dövlətin iqtisadi və sosial tənzimləmədəki rolunu məhdudlaşdırmağı, «böyük biznesin» mövqeyinin möhkəmləndirilməsi üçün əlverişli şərait yaradılmasını, «güclü Amerikanın bərpasını» tələb edirdi. 1983-1984-cü illərdə özünün zirvəsinə çatmış «reyqanizm» bu



kursun təcəssümü oldu, sonra mühafizəkar dalğa tədricən enməyə, Amerikanın siyasi həyatında mərkəzə doğru hərəkət etmək meyli üstünlük qazanmağa başladı.

80-ci illərdə dövlətin sosial siyasətinə mühafizəkar mbvqedən yeni baxış meydana çıxdı. Reyqan idarəsi sosial bərabərsizliyi yumşaltmaq və böyük sosial ədalətə nail olmaq üçün dövlətin məsuliyyət daşıması ideyasını rədd tdi. Bu çoxlu sosial proqramlara çəkilən xərclərin ixtisar edilməsinə və kasıbların, gəliri yoxsulluq həddindən aşağı olanların sayının artmasına səbəb oldu. Cəmiyyətdə sosial və əmlak bərabərsizliyi daha da gücləndi. Yeni iş yerləri açıldı. Yeni iş yerləri başlıca olaraq xidmət sahəsində açılırdı. Burada əmək haqqı xalq təsərrüfatındakı orta əmək haqqında aşağıdır. Eyni zamanda emaledici sənayedə işçilərin sayı azaldı. Elmtutumlu və işgüzar xidmət sahələri işçilərinin sayı və onların əmək haqqı artdı.

80-ci illərdə əmək münasibətlərinin nizama salınması həmkarlar ittifaqları əleyhinə açıq mübarizə xarakteri aldı. İnzibati hakimiyyət əmək münaqişələrinə birbaşa müdaxiləni gücləndirdi. Bunu 1981-ci ildə tətil etmiş 12 min aviasiya dispetçerinin Reyqanın əmri ilə işdən çıxarılması və onların həmkarlar ittifaqının qovulması açıq göstərdi. Korporasiyalara həmkarlar ittifaqları ilə sazişi pozmağa, müəssisələri bağlamağa, istehsalı muzdla qeyri-mütəşəkkil işçi qüvvəsi tutmaq mümkün olan rayonlara köçürməyə icazə verilmşidi. Həmkarlar ittifaqlarını zəiflətmək və ləğv etmək, onların sıralarının artmasına yol verməmək üçün müxtəlif üsullardan eniş istifadə olunmağa başladı. Nəticədə həmkarlar ittifaqları üzvlərinin sayı on il ərzində 4 mln. nəfər azaldı. 1990-cı ilin başlanğıcında muzdla işləyənlərin ancaq 17%-i həmkarlar ittifaqlarının üzvü idi. Tətillərin fəallığı kəskin surətdə azaldı.

İşçiləri bir-birindən ayırmaq üçün kollektiv müqavilələrə «ikiyarusluəmək haqqı sistemi» barədə maddə əlavə olundu. Köhnə işçilər və muzdla tutulmuş yeni işçilər üçün müxtəlif saathesabı tariflər müəyyən edildi. Bu, həmkarlar ittifaqının bərabər əmək üçün bərabər haqq prinsipinin ləğv olunması demək idi. Sahibkarlar qüvvələrinin həm də kollektiv müqavilələrdəki «sürüşkən şkala» maddəsinin ləğv olunmasına yönəltmişdilər. Bu şkalaya əsasən yaşayış vasitələri bahalaşdıqda saathesabı tarif avtomatik surətdə artırdı.

Reyqan dünya siyasətində özünəməxsus məktəb açmış bir prezident kimi qaldı. O, siyasətin özündə bir incəsənət yaratdı. Reyqanın dövründə silahlanma daha yüksək mərhələsinə qalxdı. Belə ki, onun dövründə hərbi büdcə ölkənin federal büdcəsinin 23%-indən 27%-nə qalxdı. Hərbi sənaye komplekslərinin (bu komplekslərə hərbiçilərin yüksək dairəsi, dövlətin müəyyən quluqçuları, Silah istehsal edən korporasiyalar və hərbiləşdirilmiş elm daxildir) fəaliyyəti gücləndi. Onlardan on ikisi ABŞ-ın Müdafiə nazirliyi olan Pentaqonun sifarişlərini həyata keçirirdi. ABŞ-da ən çox inkişaf edən və böhranlı vəziyyət keçirməyən sahə hərbi sahə idi. Çünki bu sahə hökumətin nəzarəti altında idi. Hərbi xərclər 1979-1980-cı illərdəki 134 milyard dollardan 1988-ci ildə 291 milyard dollara qalxdı.

Reyqanın xarici siyasəti C.Karterin siyasətinin, demək olar ki, davamı idi. Reyqan da C.Karter kimi NATO-nun hərbi xərclərinin 3% artırılması və Qərbi Avropada orta mənzilli raketlərin yerləşdirilməsi işini bəyəndi və davam etdirdi. 1983-cü ildə ABŞ Qərbi Avropanın beş ölkəsində 600-ə yaxın orta mənzilli raketlərini yerləşdirməyə başladı. O da Əfqanıstan məsələsi ilə əlaqədar SSRİ ilə münasibətləri gərgin şəkildə saxladı. ABŞ Latın Amerikası ölkələrinə qarşı yenidən «Böyük dəyənək» siyasətinə qayıtdı. Reyqan hökuməti Latın Amerikası ölkələrinə münasibətdə panamerikan həmrəyliyi prinsipini irəli sürdü. Karib höfzəsində öz mövqelərini möhkəmləndirdi, Nikaraquaya qarşı elan edilməmiş müharibə apardı, Salvadorun mühafizəkar dairələrinə hər cür kömək göstərdi. 1982-ci ildə Malvin (Folklend) adaları üstündə İngiltərənin Argentina ilə müharibəsində İngiltərəni müdafiə etdi. İsrail-Ərəb münaqişələrində İsrailin dayağına çevrildi. 1982-ci ildə Yaxın Şərqin əzab çəkmiş xalqları üçün «Amerika sülh təşəbbüsləri»nin irəli sürdü. 1983-cü ildə cəmisi 100 min əhalisi olan Qrenadaya qoşun çıxartdı. Reyqan hökuməti xarici siyasətində Asiya və Sakit okean regionuna xüsusi diqqət yetirirdi. 1986-cı ilin sonunda ABŞ bu regiona 35,7 milyard dollar sərmayə ayırdı.

1983-cü ildə «Demokratiya və kütləvi diplomatiya proqramını» qəbul etdildi ki, bundan da məqsəd sosialist ölkələrinə qarşı fəaliyyətinin istiqamətləri və metodlarını müəyyən etmək idi.

1985-ci ilə qədər o, SSRİ-ni «Şər imperiyası» elan edərək onu iqtisadi cəhətdən zəiflətməyi ABŞ-ın əsas məqsədi olduğunu



bildirirdi. 1985-ci ildə SSRİ-də hakimiyyətə Mixail Sergeyiviç Qorbaçov gəldikdən sonra ABŞ-la SSRİ arasındakı münasibətlərdə mülayimləşmə baş verdi. Reyqan sosializmi «zibilliyə» atmaq planını həyaia keçirməyə başladı. Qorbaçovla Reyqan 1985-ci ildə Çenevrədə, 1986-cı ilin oktyabrında isə İslandiyanın paytaxtı Reykyavikdə görüşdülər. 1987-ci ilin dekabrın 7-8-də M.S.Qorbaçov Vaşinqotonda oldu. Vaşinqtonda «Qısa mənzilli raketlərin məhv edilməsi haqqında» iki dövlət arasında saziş bağlandı. Bu tarixdə nüvə silahlarının ləğv edilməsini nəzərdə tutan ilk saziş idi. Reyqan bu sazişi bağlayarkən etdiyi çıxışlarında göstərdi ki, biz SSRİ ilə saziş bağlayarkən rusların çox sevdiyi bir atalar sözünü işlətmək istəyirəm: «İnan, lakin yoxla». 1988-ci ilin mayında Reyqan Moskvaya gəldi. Danışıqlar mehribanlıq şəraitində keçdi. Reyqan Moskvadan qayıdarkən bildirdi ki, onun sosializm cəmiyyəti haqqında təsəvvürlərində yanlışlıqlar var və sosializmdən də çox şey öyrənmək olar.

80-ci illərdə ABŞ-ın dünya ölkələri barəsində siyasəti iki prinsipin müəyyən ahəngi üzərində qurulmuşdu: dünyada baş verən dəyişikliklərə qüvvə ilə müqavimət göstərilməsi və həmin dəyişikliklərə uyğunlaşma. Bir çox amillərin təsirindən asılı olaraq bu prinsiplərin konkret tətbiq nisbəti dəyişirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, ABŞ-ın hərbiçilik tendensiyaları yenidən baş qaldırmış hakim dairələri Sovet-Amerika münasibətlərinin pozitiv inkişafını pozdular və əslində, əldə edilmiş razılaşmalardan imtina yolu tutdular. Onlar mövcud hərbi- strateji tarazlığı pozmaq və SSRİ üzərində hərbi üstünlüyə nail olmaq qərarına gəldilər. 70-80-ci illərin hüdudunda, xüsusilə respublikaçılar hökuməti hakimiyyət başına gələndən sonra, ABŞ-ın SSRİ-yə qarşı siyasəti çox kəskinləşdi. ABŞ-ın hökuməti və hərbi –sənaye inhisarları miqyasına görə misli görünməmiş yeni sürətlə silahlanma yoluna qədəm qoydular.

1983-cü ilin mart ayında Ronald Reyqan kosmik baza elementləri olan raketə qarşı geniş miqyaslı müdafiə sistemi yaradılmasına dair uzun müddətli proqram elan etdi. Həmin proqramın rəsmi adı «strateji müdafiə təşəbbüsü idi. ( SMT ). Onun vəzifəsi SSRİ-yə qarşı nüvə silahını birinci tətbiq edə bilməkdən və Amerika ərazisinə cavab zərbəsinin nəticələrini zəiflətməkdən ötrü kosmik zərbə etalonu yaratmaqla ABŞ ərazisi

üzərində raket «əleyhinə» sədd yaratmaqdır. Bu proqram üzrə tədqiqatlara, elmi işlərə və sınaqlar keçirilməsinə milyardlarla dollar vəsait ayrılmışdı. Strateji müdafiə təşəbbüsünün məqsədi kosmos vasitəsilə SSRİ üzərində hərbi üstünlüyə nail olmaq və ABŞ-ın dünyada hakim mövqe tutmasını təmin etmək idi. ABŞ-ın qüvvəyə arxalanan bu ümidləri perspektivsiz olsa da,, lakin sürətlə silahlanmanın kosmosa keçirilməsi planları ümumi sülh işinə ciddi təhlükə törədirdi.

«Uotergeyt» və «İrangeyt» qalmaqalları 80-ci illərdə amerikalıların icra hakimiyyətinə inamını xeyli zəiflətdi.

80-ci illərin ortalarında «İran kontras» adlanan geniş əks-səda doğurdu. Onun mahiyyəti belə idi ki, İrana silah satılmasında əldə edildən vəsaitin bir hissəsini konqresin icazəsi olmadan Ağ ev gizli sürətdə hərbi kömək şəklində inqilabi hökumət tərəfdarlarına qarşı vətəndaş müharibəsi aparan Nikaraqua «kontras» rəhbərlərinə göndərmişdi.

70-80-ci illərin hüdudunda beynəlxalq vəziyyət yenidən kəskinləşdi. ABŞ-ın barışmaz imperialist dairələri kəskinliyin zəiflədilməsini özlərinin dünyada hegemonluğunun bərqərar olması planlarının həyata keçməsi yolunda əngəl hesab etdiklərinə görə, ona əks hücuma keçdilər.

Beynəlxalq gərginliyin artmasına ABŞ-ın digər ölkələrin daxili işlərinə qarışması, dövlətlərin milli istiqlaliyyətinin və suverenliyinin məhdudlaşdırılması cəhdləri də səbəb oldu. ABŞ-ın yardımına arxalanan təcavüzkar qüvvələr öz işğalçılıq planlarını genişləndirdi. 1980-ci ildə İsrail hökuməti müsəlman və xristian dini ziyarətgahlarının yerləşdiyi Qüds şəhərini İsrailin vahid və bölünməz paytaxtı elan etdi. 1981-ci ildə Təl-Əbub hakimləri Suriyaya mənsub olan Holan yüksəkliklərini ilhaq edildiyini bildirdilər. Bu BMT tərəfindən qanunsuz bir hərəkət kimi rədd edildi. BMT Baş Məclisinin fövqəladə sissiyasının 1982-ci ildə qəbul etdiyi qətnamədə bütün dövlətlərə – BMT üzvlərinə müraciət olundu ki, onlar təcavüzkarla bütün əlaqələri kəssinlər.

Bütün bunlara baxmayaraq ABŞ özünün Yaxın Şərq mövqelərini möhkəmləndirmək ümidi ilə İsrailin təcavüzkarlıq hərəkətlərinə tərəfdar çıxırdı. 1981-ci ilin sonunda ABŞ və İsrail ərəblər əleyhinə yönəldilmiş «Strateji əməkdaşlıq haqqında» saziş bağladılar.



İsrail özünün Şimal ərazilərinin «təhlükəsizliyini qorumaq» kimi saxta bir bəhanə ilə 1982-ci ilin iyul ayında ABŞ hökumətinin köməyinə arxalanaraq Livana qarşı müharibəyə başladı. Təcavüzkarın Amerika silahı ilə təchiz edilmiş yüz minlik ordusu Beyruta gəlib çataraq, Livan paytaxtının Fələstin azadlıq hərəkatı rəhbərlərinin və onun əsas hərbi dəstələrinin olduğu qərb hissəsini blokadaya aldı. Lakin tarixi fakt kimi bu müharibədə İsrail öz məqsədlərinə nail ola bilmədi. ABŞ-ın öz müttəfiqinə Beyrutu və digər yaşayış məntəqələrini vəhşicəsinə bombalamaqla köməklik cəhdi də biabırçılıqla qurtardı.

Ümumiyyətlə, 80-ci illərdə Yaxın Şərq, Afrika, Hind Okeanı, ABŞ-ın «həyati mənafeyi» sferası elan edildi. Pentaqon ABŞ-ın regionlarda hərbi iştirakını genişləndirməyə başladı. 70-ci illərin sonun 80-ci illərin başlanğıcında Livan, Əfqanıstan, İran, Nikaraqua, Salvador, Qrenada, Liviya və digər dövlətlər Amerikanın açıq-aşkar müdaxilə obyektləri oldu.

SSRİ və onun müttəfiqləri sürətlə silahlanmanın dayandırılmasına, tərk-silaha, xalqların dincliyinə və təhlükəsizliyinin qorunmasına yönəldilmiş geniş konstruktiv tədbirlər irəli sürdülər.

Başda ABŞ olmaqla NATO-nun və SSRİ-nin tutduğu yol, onların bəşəriyyət üçün 10 illərdən bəri törətdikləri daimi təhlükə – bütün bunlar planet əhalisinin yətin nüvə uçurumuna sürüklənməsində dönüş yaratmağa imkan verən qəti tədbirlər görülməsini tələb edirdi.

SSRİ və ABŞ arasında siyasi dialoqun inkişaf etməsi və dərinləşməsi böyük nailiyyət olmuşdur. Bu dialoq ikitərəfli münasibətlərin və dünya siyasətinin bütün əsas məsələlərini əhatə etmişdir. Nüvə müharibəsi heç vaxt olmamalıdır, çünki belə müharibədə qalib ola bilməz. Bu barədə əldə edilmiş qarşılıqlı anlaşılmanın prinsipial əhəmiyyəti vardır. Tərəflər SSRİ və ABŞ arasında hər hansı müharibənin -nüvə müharibəsinin yaxud adi müharibənin qarşısının alınmasının vacibliyini qeyd etmiş, hərbi üstünlüyə çalışmayacaqlarını öhdələrinə götürmüşlər.

Cenevrədə (1985-ci il), Reykyavikdə (1986-cı il), Vaşinqtonda (1987-ci il) və Moskvada (1988-ci il) yüksək səviyyəli Sovet-Amerika danışıqları nüvə silahlarının real azaldılması sahəsində irəliləyişlə nəticələnmişdir. SSRİ və ABŞ arasında onların

orta və kiçik mənzilli raketlərinin ləğv edilməsi haqqında müqavilə, tarixdə nüvə silahlarının qarşılıqlı ciddi nəzarət altında ləğv edilməsini nəzərdə tutan ilk saziş 1987-ci ilin dekabrında imzalanmış və 1988-ci ilin iyun ayında qüvvəyə minmişdir. Bununla da nüvə silahı olmayan dünya quruculuğunun əsası qoyulmuşdur. Raketdən müdafiə müqaviləsinin qüvvədə qalması şərtilə SSRİ və ABŞ arasında strateji hücum silaşlarının 50 faiz ixtisara salınması haqqında birgə müqavilə layihəsi hazırlanan zaman tərəflərin mövqelərinin yaxınlığı təsbit olunmuşdu.

Nəticədə Sovet-Amerika münasibətləri yaxşılaşmışdır. Müharibə təhlükəsini geri çəkmək mümkün olmuşdur. Beynəlxalq həyat mərkəzinin qarşıdurmadan qarşılıqlı anlaşma və əməkdaşlıq tərəfə yeri dəyişmişdir.

Cenevrədə sazişlər bağlanması və sovet hərbi kontingentinin Əfqanıstandan tamam çıxarılması regional münaqişələrin siyasi yolla tənzimləməsi işində irəliyə doğru mühüm addım olmuşdur.

Prezident Corc Buşun ( 1924-cü ildə anadan olmuşdur ) hökuməti Amerika-Sovet münasibətlərindəki öz yolu ilə davam etdirilmişdir.

Beləliklə, 1980-ci illərdə beynəlxalq münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsi prosesi tədricən inkişaf edir, beynəlxalq vəziyyət yaxşılaşırdı. Ancaq realist tendensiya beynəlxalq məsələlərdə köhnə münasibət, sərt siyasət tərəfdarlarının müqaviməti ilə inadlı mübarizədə özünə yol açırdı. Müsbət proseslərin dönməzliyinə təminat hələ yaranmamışdır, lakin hazırda zor işlətmək siyasətinə qarşı əvvəllərdəkinə nisbətən daha geniş siyasi imkanlar yaranmışdır.

**ABŞ Corc Buşun prezidntliyi dövründə (1988-1992-ci illər).**

1988-ci ilin prezident seçkilərində Amerika xalqı öz sevimli prezidenti olan Ronald Reyqanla vidalaşmalı oldu. Onun dövründə vitse-prezident olan Corc Buş hakimiyyətə gəldi. Bu dövrdə ölkə bir sıra maliyyə problemləri ilə qarşılaşdı. C.Buş inzibati idarəsi bir sıra əmanət müəssisələrini ləğv etdi və 1989-cu ildə maliyyə institutlarının islahatı haqqında qanun verdi. Lakin bu islahat uğursuzluqla nəticələndi. 1991-ci ildə iqtisadi inkişafın aşağı düşməsi C.Buşu məcbur etdi ki, Reyqanın mühafizəkar maliyyə proqramını davam etdirmək xəttindən əl çəksin. Böyük C.Buşun inzibati idarəsi tezliklə vergiləri artırdı, sosial və nisbətən də hərbi xərcləri azaltdı.



Eyni zamanda kiçik sahibkarları müdafiə və azad ticarəti təmin edən proqram işlənib hazırlandı. Lakin o, bu proqramı həyata keçirə bilmədi.

Corc Buş ABŞ-ın İkinci dünya müharibəsində iştirak etmiş sonuncu prezidenti idi. Xarici siyasətdə o, SSRİ ilə danışıqları davam etdirdi. 1989-cu ilin dekabrında Malta adasındakı görüş SSRİ-nin dağılması, Almaniyanın birləşdirilməsi, Avropadakı sosialist dövlətlərin əvvəlki quruluşa qayıtması və dünya xəritəsində yeni geosiyasi dəyişikliklərin əmələ gəlməsi üçün bir sıqnal rolunu oynadı. 1991-ci ilin fevralında Corc Buş 30-a qədər dövlətin birgə iştirakı ilə «Səhrada tufan əməliyyatı» adı altında İraqa hücum təşkil etdi. Buna səbəb o idi ki, 1913-cü ilə qədər İraqın tərkibində olan Küveyti 1990-cı ilin avqustunda İraq yenidən tutmuşdu. ABŞ təkid edirdi ki, İraq Küveytin müstəqilliyini yenidən tanısın. Lakin əvvəlcədən şəxsiyyəti müəyyən edilməyən bir lider olan Səddam Hüseyn bu tələblə razılaşmadı. Belə olduqda BMT-nin Təhlükəsizlik şurasının 4 üzvü-İngiltərə, Fransa, ABŞ, SSRİ İraqa hücumun lehinə, Çin isə bitərəf qaldığını bildirdi. Lakin bir ay keçməmiş İraq Küveyti azad etməyi və ona olan borcunu verməyi öhdəsinə götürdü.

Corc Buşun dövrü həm də onunla xarakterik idi ki, hələ İkinci dünya müharibəsinin sonlarında başlamış olan «soyuq müharibə» SSRİ-nin dağılması ilə başa çatdı. Böyük Corc Buşun dövründə ABŞ-ın dünyanın yeganə lideri kimi tanınması və dünyanın «amerikasayağı» idarə olunması üçün imkan yaradılmış oldu. Qloballaşma, həqiqətdə isə «amerikanlaşma» prosesi surətləndi və tezliklə bütün dünyanı əhatə etməyə başladı. Dünya təsərrüfatı dolların musiqisi altında rəqs etməyə başladı.

**ABŞ Bill Klintonun prezidentliyi dövründə**
**(1992-2000-ci illər)**

1992-ci ildə keçirilən prezident seçkilərində demokratlar təşəbbüsü ələ aldılar. 1946-cı ildə anadan olmuş, «Amerikaya yeni dəyişikliklər lazımdır» şüarı altında prezident seçkilərinə qoşulan Arkanzas ştatının qubernatoru Bill Klinton bu vəzifəyə seçildi. Bill Klinton hakimiyyətə gəldikdən sonra bildirdi ki, o nə respublikaçıların, nə də demokratların yeritdiyi siyasəti müdafiə etməyəcəkdir. O, ikisinin də müsbət cəhətlərini götürüb «üçüncü yol»

siyasətini həyata keçirəcəyini bildirdi. Bill Klinton hakimiyyətə gələndə ABŞ-da 300 milyard dollar büdcə kəsiri var idi. Əhalinin 10%-i işsiz idi. O hakimiyyətə gəldikdən sonra dərhal sosial xərclərin artırılmasını təmin etdi. O göstərirdi ki, sosial sahəyə diqqət dövlətin əsas funksiyalarından biridir, o, kəsirsiz maliyyələşmə yolu ilə həyata keçirilməlidir. Klintonun ən başlıca məqsədlərindən biri beynəlxalq aləmdə ABŞ-ın liderlik mövqeyini təmin etmək üçün ABŞ iqtisadiyyatının çiçəklənməsini və daxili sabitliyi təmin etmək idi. Bunun üçün o, sərbəst rəqabətin olmasını başlıca vasitə hesab edirdi. Klinton inzibati idarəsi əvvəl iqtisadiyyatı sabitləşdirmək, sonra isə onun inkişafını təmin etməyə müvəffəq oldu. Bütün bunlar B.Klintona imkan verdi ki, 1996-cı il prezident seçkilərində də qalib gəlsin. Öz prezidentliyi dövründə o, sosial təmintat sahəsində islahatlar keçirmək xəttini götürdü. Onun dövründə ABŞ əhalisinin həyat səviyyəsi yüksəldi. Hərbi xərclər xeyli ixtisar edildi. 1998-ci ildə büdcənin ancaq 16%-i hərbi xərclər üçün ayrılmışdı. Nəticədə sosial xərclər hərbi xərcləri üç dəfə üstələmiş oldu. Hökümət proqramında təhsilin müdafiəsinə xüsusi diqqət yetirildi, Fasiləsiz Elmi Texniki İnqilabın iqtisadiyyatda öz əksini tapması şəraitində fəhlə qüvvəsinin ixtisas səviyyəsi artırılması əsas vəzifə kimi irəli sürüldü. Klintonun dövründə federal büdcənin 1/3 hissəsi elmin inkişafına ayrılmışdı. Onun yarıdan çoxu isə fundamental tədqiqatlara sərf olunurdu. Ölkədə 20 milyon nəfərlik iş yeri açıldı. 1999-cu ildə isə ABŞ tarixində ilk dəfə olaraq kəsirsiz büdcəyə nail olundu.

Bill Klinton öz xarici siyasətində liberal mövqe tutdu. Klinton inzibati idarəsinin xarici siyasət strategiyası ABŞ üçün «dünya lideri» rolunu saxlamağa yönəldilmişdi. 1993-cü ildə Şimali Amerika azad ticarət zonasının təşkili haqqında saziş qüvvəyə mindi. 1994-cü ildə ABŞ-ın təşəbbüsü ilə «Amerika azad ticarət zonasının təşkili » haqqında qərar qəbul edildi. ABŞ-ın Asiya-Sakit okean regionu ölkələri ilə iqtisadi əməkdaşlıqda fəal iştirakı təmin edildi. Yeni «Avroatlantik bazarı»nın təşkili haqqında plan işə başladı. NATO-nun Şərqə doğru genişlənməsi məsələsində ABŞ Rusiyaya güzəştə getməli oldu. 1997-ci ildə ABŞ-Rusiya danışıqlarında ABŞ öhdəsinə götürdü ki, Polşa, Çexiya, Macarıstan NATO-ya qəbul olunsa da, həmin dövlətlərin ərazisində ABŞ-ın hərbi bazaları yaradılmayacaqdır. Yuqoslaviya ilə əlaqədar Bill Klinton 1995-ci ildə münasibətlərin sahmana salınmasına və Deyton müqaviləsinin



(1995-ci il) bağlanılmasına nail oldu. Yaxın və Orta Şərq məsələsində 1994-cü ildə Vaşinqtonda, 1995-ci ildə Qahirədə, 1996-cı ildə Osloda İsrail ilə Fələstin arasında münasibətlərin nizama salınmasına cəhd göstərdi. 1996-cı ildə Oslo müqaviləsi əsasında Fələstinə muxtariyyat verildi. ABŞ 1990-cı ildə SSRİ-dən ayrılmış Pribaltika respublikalarında öz nüfuzunu gücləndirməyə xüsusi səy göstərdi. 1997-ci ildən ABŞ ATƏT-in Qarabağ məsələsini nizama salmaq üçün hələ 1992-ci ildə təşkil etdiyi Minsk qrupunun həmsədrlərindən biri oldu. Amerika Azərbaycan münasibətləri haqqında birgə bəyanat adlanan sənədi B.Klintonla Azərbaycan prezidenti bu dövrdə imzaladılar. Bu sənəd iki ölkə arasındakı münasibətlərin prinsip və gələcək istiqamətlərini göstərirdi.

1998-ci ildə ABŞ yenidən İraqa qarşı möqeyində sərtləşdi. Belə ki, ABŞ İraqı kimyəvi silahlar istehsalında günahlandırmağa başladı. Lakin Bill Klinton vəziyyəti müharibə həddinə gətirmədi. Atlantika həmrəyliyi gücləndirildi. Kosovada münaqişənin nizama salınması zamanı NATO-dan istifadə edildi. 1999-cu ilin payızında ATƏT-in İstanbul sammitində ABŞ Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin çəkilməsi haqqında sazişi bəyəndi. Klintonun dövründə ABŞ-ın demokratiya və azad bazar iqtisadiyyatı konsepsiyasının bütün dünyada qəbul edilməsi, iqtisadi amirlik metodllarından əl çəkilməsi, informasiya mübadiləsinin artması, azad bazarla demokratiyanın yanaşı addımladığı yeni şərait yaratmış oldu. Bill Klinton İkinci cahan müharibəsindən sonrakı dövrdə ABŞ-ın ən ağıllı prezidenti kimi tarixə düşdü.

**XX əsrin 90-cı illərində ABŞ-ın Yaxın Şərq siyasəti**

Regional münasibətlərdə tam qarşılıqlı etimadsızlıq yaranması, regionun malik olduğu potensialdan maksimal istifadə olunmasının arxa plana keçməsi, kollektiv sülh və təhlükəsizliyə olan tələbin daha da artması, zorakılığın, təzyiqin gündəlik həyatda təlabata çevrilməsi ABŞ-ı Yaxın Şərqə diqqətini daha da artırmağa məcbur edirdi.

Yaxın Şərq ABŞ-ın xarici siyasətində hərbi, iqtisadi, siyasi, ideoloji spektrləri özündə cəm edən region kimi qəbul olunur. ABŞ siyasətçi və strateqlərinin siyasi təyinatına əsasən, Yaxın Şərqin dünya sistemindən kənarda qalması beynəlxalq münasibətlərdə qüvvələr balansının pozulmasına səbəb ola bilər.

Dünyanın heç bir regionu Yaxın və Orta Şərq qədər ABŞ üçün böyük əhəmiyyət və prioritet kəsb etmir. Çünki bu region həm zəngin sərvətlərə malikdir, həm də beynəlxalq əhəmiyyətli su, quru və hava yolları buradan keçir. Dünyanın üç aparıcı dinlərinin – iudaizmin, xristianlığın və islamın müqəddəs məkanları burada yerləşir.

Üç qitənin kəsişdiyi yerdə yerləşən Yaxın Şərq, eyni zamanda Vaşinqton üçün fəal rəqabət meydanı kimi də qəbul edilir. Müasir dövrdə bu rəqabət ABŞ-ın Avropa birliyi, Asiya tərəfdaşları və rəqibləri arasında gedir. Bu da ABŞ-ın regional münasibətlərində özünü üç amillə aydın biruzə verir: Regional iqtisadi əməkdaşlıq və inteqrasiya; Neft amili; Dini amil.

Regional iqtisadi əməkdaşlıq və inteqrasiya istiqamətində atılacaq addımların əsası 1993-cü ilin noyabrında Kopenhagendə regional iqtisadi inkişafın təmin edilməsi məqsədilə yaradılan İşçi Qrupu ilə qoyulmuş oldu. 1994-cü il oktyabrın 30-dan noyabrın 1-ədək ABŞ prezidenti Bill Klinton, Rusiya prezidenti Boris Yeltsin və Mərakeş kralı II Həsənin təşəbbüsü ilə Kasablankada birinci Yaxın Şərq-Şimali Afrika İqtisadi Sammiti keçirildi. Qeyd edək ki, 90—cı illərdə dörd anoloji sammit keçirilmişdir. “Sammitin keçirilməsindən məqsəd regionda özəl mülkiyyətin genişləndirilməsini asanlaşdırmaq, investisiya imkanlarını artırmaq, özəl sektorda əməkdaşlığın əlverişli imkanlarına inam və etimadı formalaşdırmaq, regional iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə stimul yaratmaqdır”.
Sammitin işində ərəb dövlətləri ilə birgə İsrail də iştirak edir və ona tətbiq olunmuş boykot aradan qaldırılırdı. Bu onun göstəricisi idi ki, “ərəb dövlətləri İsrail ilə ənəkdaşlıqda maraqlıdır, lakin ərəb birliyində olan ziddiyət buna imkan vermir”.

Neft amilinin ABŞ xarici siyasətində əhəmiyyəti 70-ci illərdən başlayaraq daha da artmışdır. 1985-ci ildən başlayaraq artan təlabat 90-cı illərin əvvəllərində 43% təşkil edirdi. İdxal olunan neftin 30%-ə qədəri isə həmin dövr münaqişə zonalarından, xüsusilə Yaxən Şərqdən gətirilirdi. Əslində isə ABŞ-ın özü dünyanın ən güclü neft istehsal edən ölkələrindən biri idi.
Körfəz müharibəsindən sonra, əsasən monarxiya rejimli ölkələrdən neft idxal eən ABŞ üçün İran və İraqdakı rejimlərin dəyişilməsi, ümumi sabitlik və beynəlxalq təhlükəsizliyin Vaşinqtonsayağı təminatı kimi qəbul olunurdu. Körfəz müharibəsi ərəfəsində və ondan



sonra regionun Qətər, Oman, Bəhreyn və Səudiyyə Ərəbistanı kimi müasir dövrün anoxranizm rejimləri bu sahədə ABŞ və Avropadan müasir silah, və texnologiya alınmasına önəm verdilər.
Dini amilə gəldikdə qeyd edək ki, 80-ci illərin əvvəllərinə qədər İslam faktoru ABŞ xarici siyasətində xüsusi yer tutmamışdır. Bunun başlıca səbəbi islamın bir din kimi Yaxın Şərq ölkələrinin xarici siyasətində əsaslı yer tutmamasıdır. Buna səbəb isə islam ölkələrinin müharibədən sonrakı dövrdə əsasən ölkənin sosial-iqtisadi inkişafı, milli-azadlıq hərəkatı, həmçinin bu dövrdə əsasən dövlətçiliyin dirçəldilməsi və möhkəmləndirilməsi istiqamətindəki fəaliyyəti olmuşdur ki, bu prosesdə islam bir din kimi arxa plana keçmişdir.

70-ci illərin sonlarında, 80-cı illərin əvvəllərində Yaxın Şərq ölkələrinin ictimai-siyasi həyatında islamın mühüm rol oynaması, Vaşinqtonu xarici siyasətində islam amilini nəzərə almağa və yeni siyasi strategiyanı hazırlamağa vadar edirdi. Yeni siyasi strategiyaya uyğun olaraq Vaşinqton, müsalman ölkələri, xüsusilə Yaxın Şərqin islam dövlətləri ilə münasibətlərində ciddi dəyişikliklər etməyə başladı. Nəticədə müsəlman cəmiyyətinə xarakterik olan ənənəvi tezislər gündəmə gətirildi.

ABŞ-ın Yaxın Şərq siyasətinə təsir edən əsas amillərdən biri olan yəhudi lobbisi təkcə Vaşintonun xarici siyasətinə deyil, həmçinin bütövlükdə regionda cərəyan edən hərbi-siyasi proseslərə kifayət qədər öz təsirini göstərməkdədir.
Bugün ABŞ-da mövcud olan və öz dövlətlərinin milli maraqlarını müdafiə edən lobbilər arasında heç bir ölkənin lobbisi yəhudi lobbisi ilə müqayisə oluna bilməz. Sionist lobbisinin ABŞ-ın icra və qanunverici orqanları ilə geniş əlaqələrinin yaradılması, formalaşdırılması və tədricən inkişaf etdirilməsi Vudro Vilsonun ABŞ-da prezidentlik illərinə təsadüf edir. Bugün artıq ABŞ milyonçularının 20 %-i yəhudi mənşəli sahibkarlardır. Aparıcı siyasi partiyaların seçki fondlarına yəhudi ödəmələrinin həcmi respublikaçılarda 40 %-ə, demokratlarda isə 60 %-ə çatır. İllik büdcəsi 1 milyard dollar təşkil edən filantropik qurumların şəbəkəsinə nəzarət də yenə yəhudi icmasının əlindədir.

Bir sıra faktorlar vardır ki, həmin faktorlar yəhudilərə ABŞ-ın siyasi həyatına kifayət qədər təsir etməyə imkan verir. Bunlar aşağıdakılardır:

Amerika yəhudi kapitalistlərinin yuxarı təbəqəsinin ABŞ iqtisadiyyatında güclü maliyyə və iqtisadi mövqelərə malik olması; Ölkə həyatında xüsusi əhəmiyyət daşıyan rayonlarda yerləşməsi. ABŞ əhalisinin cəmi 3 %-ni təşkil edən yəhudilərin 89 %-i faktiki olaraq ABŞ-ın 12 ən mühüm ştatında yaşayırlar. Məhz bu ştatlarda prezident və senat seçkilərində, həlledici səsə malik olmaq vacib əhəmiyyət kəsb edir. Nyu-york, Kaliforniya, Pensilvaniya, İllinoys, Massaçusets kimi ştatlarda faktiki olaraq yəhudilərin səsi həlledici əhəmiyyətə malikdir. Prezident seçkilərində hər iki rəqibin, demokratların və respublikaçıların seçki kampaniyalarına külli miqdarda maliyyə sərf edən yəhudi lobbisi, nəticə etibarı ilə seçkilərin nəticələrindən asılı olmayaraq Ağ Evdə öz mövqeyini qoruyub saxlamaq imkanı əldə edir; Kütləvi informasiya vasitələrində yəhudilərin güclü mövqeləri, Sionist və sionizmyönlü təşkilatların geniş şəbəkəsinin ABŞ-da fəaliyyət göstərməsi.

Ərəb lobbisinin bir sıra təşkilarlarda təmsil olunmasına və kifayət qədər maliyyə potensialının mövcudluğuna baxmayaraq, ABŞ-ın Yaxın Şərq siyasətinə kifayət qədər təsir edə bilmir. Ərəb lobbisinin əsas təsir vasitəsi təbii ki neft və neft embarqosudur. Ərəb lobbisinin vahid mexanizmi işlənib hazırlanmamışdır ki, buna səbəb də ərəbdaxili ziddiyət və qarşıdurmalardır. Məhz bu faktor da yəhudi lobbisinin nəinki regionda uğurlu manevr etməsinə, həmçinin rəsmi Vaşinqtonun Yaxın Şərq siyasətinə güclü və hiss ediləcək təsir göstərməsinə əlverişli imkan yaradır.

1973-cü il Ərəb-İsrail müharibəsindən sonra ABŞ bu münaqişənin həllində öz diplomatik fəaliyyətinin davamlı xarakter almasına qərar vermişdir.

1991-ci ilin oktyabrında Helsinki razılaşmasına uyğun olaraq Vaşinqton və Moskva Yaxın Şərq sülh prosesinə dair Madriddə növbəti sammitin çağırılmasını reallaşdırdılar. Konfransda əldə olunmuş razılığa əsasən Yaxın Şərq sülh prosesinin aparılması üçün iki istiqamətdə - ikitərəfli və çoxtərəfli danışıqların aparılması qərara alındı.

İshaq Rabinin İsraildə hakimiyyətə gəlməsi, istər ABŞ-İsrail münasibətlərinin, istərsə də Fələstin probleminin həllinin yeni müstəviyə keçməsini əsslandırırdı. Çünki Rabin torpaqların bir hissəsinin verilməsi ilə razılaşır, yəhudi məskənlərinin tikintisinin dayandırılması mövqeyindən çıxış edirdi. İsrailin baş nazirinin ABŞ-



a bu səfəri iki ölkə arasındakı münasibətlərdəki soyuqluğun aradan qaldırılması və vasitəçilik missiyasının ABŞ-a keçməsini təmin etdi.

Madrid konfransından 1994-cü ilin fevralınadək İsrail ilə Suriya arasında 12 raundda danışıqlar aparılmışdır və heç bir nəticə verməmişdir. Lakin buna baxmayaraq 1994-cü ilin ortalarında Cenevrədə Suriya prezidenti Hafiz Əsədlə ABŞ prezidenti B. Klinton arasında görüş keçirildi.

1995-ci il 28 sentyabr tarixli Vaşinqton müqaviləsi isə İsrail və FAT (Fələstin azadlıq təşkilatı) arasındakı danışıqların ikinci mərhələsi başa çatdı.

Münaqişə tərəfləri arasında birbaşa danışıqların bərpa edilməsi məqsədilə ABŞ prezidenti B.Klinton tərəflərin səlahiyyətli nümayəndələrini oktyabrın ortalarında ABŞ-a dəvət etdi. Bir həftə çəkən danışıqlardan sonra Marilenddə 1998-ci il oktyabrın 23-də Uay River (çay) razılaşması kimi düşən, Uay Planteyşn (plantasiya ) razılaşması imzalandı.

ABŞ-ın təklif etdiyi varianta əsasən İsrail İordan çayının Qərb sahilindəki 13% ərazidən öz qoşunlarını çıxarırdı. İsrail üç mərhələdə öz qoşunlarını çıxarmalı, bundan sonra Fələstin adminstrasiyası Qərb sahilinin 18 % ərazisində öz nəzarətini tətbiq etməli idi. Razılaşma noyabr ayının 2-də qüvvəyə minirdi.

Bundan əvvəlki dövrlərlə müqayisədə 1998-ci il Yaxən Şərq sülh prosesində ən uğurlu il olmuşdur. Bu baxımdan 1998-ci ilin dekabrında Bill Klintonun yaxın Şərqə, o cümlədən İsrailə və Fələstin muxtariyyatına səfəri xüsusi qeyd edilməlidir. Həmin səfər zamanı ABŞ prezidenti Qəzzə bölgəsində beynəlxalq hava limanının açılışında iştirak etmişdi.

1999-cu il sentyabrın əvvəllərində Misirin vasitəsilə Klinton adminstrasiyası tərəfləri yenidən danışıqlar masası arxasına keçməyə məcbur etməyə müvəffəq oldu. Sentyabrın 5-də Şarm-əş-Şeyxdə memerandum imzalandı. Memerandumu ABŞ dövlət katibi Madlen Olbrayt və İordaniya kralı Hüseynin iştirakı ilə İsrail tərəfindən Exud Barak, Fələstin tərəfindən Yasir Ərafat imzalamışlar.

Memeranduma əsasən İsrail öz hərbi hissələrini İordan çayının Qərb sahilindən tamamilə çıxarılmasını 2000-ci il yanvarın 20-nə kimi, bu istiqamətdə birinci mərhələni sentyabrın 10-da başa çatdırmalı idi.

1990-cı il avqustun 1-dən 2-nə keçən gecə 150 min nəfərlik İraq ordusu Küveytə hücum etdi. İraqın Küveytə təcavüz etməsi ilk gündən beynəlxalq etiraz dalğası ilə qarşılandı. Bu təcavüz dünya bazarlarında neftin qiymətinin qalxmasına, maliyyə bazarlarında dərin böhrana səbəb olduğundan, təcavüzün kollektiv olaraq aradan qaldırılmasında ABŞ-ın liderliyi ön plana çıxdı. ABŞ İraqa qarşı tətbiq olunan BMT qətnamələrinin qeyd-şərtsiz olaraq həyata keçirilməsini tələb edirdi.

İraqın Küveytdən çıxarılmasından sonra Körfəzin ərəb dövlətlərinin yeni təhlükəsizlik sistemi yaratmaq cəhdinin boşa çıxması həmin dövlətlərin rəsmi Vaşinqtonla ikitərəfli müqavilələr bağlamaq variantı ilə üz-üzə qoydu ki, bu da ABŞ üçün iki cəhətdən əlverişli idi. Birincisi ABŞ Avropadan çıxarılan hərbi birləşmələrin yerləşdirilməsi, ikincisi isə bu regionda möhkəmlənmək kimi məsələləri həll etmiş oldu.

Körfəzin ərəb dövlətləri ABŞ ilə ikitərəfli hərbi əməkdaşlıq müqavilələri bağladılar ki, bu halda ABŞ-ın mövqeləri regionda daha da güclənmiş oldu. İraqa qarşı sanksiyalar tətbiq edildi.

1992-1996-cı illər ərzində Klinton adminstrasiyası İraqa münasibətdə yeritdiyi siyasətdə əsas etibarilə BMT TŞ-nın (Təhlükəsizlik Şurası) qətnamələrinin həyata keçirilməsi, xüsusilə BMT müfəttişlərinin İraqdakı fəaliyyətlərinə əlverişli şərait yaradılması istiqamətində siyasi kursu həyata keçirmişdir.

1996-cı ilin yanvar ayında Nyu-Yorkda İraqın Yuneskodakı nümayəndəsi Ə. Ə. Əl-ənbərinin rəhbərliyi altında İraq nümayəndələri ilə BMT nümayəndələri arasında başlanan rəsmi danışıqlar may ayının 20-də "Qarşılıqlı anlaşma haqqında Memorandumun" imzalanması ilə başa çatdı. İraqa ilk üç ay ərzində 1 milyard dollarlıq neft satmağa icazə verilirdi.

1998-ci ildə ABŞ İraqa münasibətdə bir neçə istiqamətdə konkret mövqedən çıxış edirdi. Bunlar ABŞ prezidentinin çıxışında aşağıdakı kimi əhatə olunmuşdur:

ABŞ və koalisiya qüvvələrinin Fars körfəzində hərbi fəaliyyəti; "Notern Uotç" və "Sazern Uotç" əməliyyatları; Dəniz gəmilərinin saxlanılması və yoxlanılması; Kimyəvi silahlar; Bioloji silahlar; Uzaq radiuslu raketlər; Nüvə silahları; BMT-nin "neft əvəzində ərzaq" proqramı; İraqın şimalındakı kürd müxalifətinə



dəstək; İraq müxalifəti ilə əməkdaşlıq; BMT-nin kompensasiya komissiyası.

BMT-nin xüsusi komissiyasının məlumatlarına əsaslanaraq Vaşinqton adminstrasiyası İraqın 80-ci illərdə 8 min litr sibir yazvasını istehsal etdiyini, 20 min litr isə botulinus toksininə malik olduğunu bildirir. Bununla bərabər İraqın kimyəvi silahlara malik olduğunu digər faktorlar da təsdiq edirdi. Belə ki, İraq, 1980-1988-ci illərdə İran ilə aparılmış müharibədə, eləcə də 1988-ci ildə ölkənin şimalında kürd seperatçılarına qarşı mübarizədə həmin silahları tətbiq etmişdir. Bu da artıq məlumdur ki, İraq silahlarının bir hissəsi başqa ölkələrdə saxlanılır.

ABŞ "səhrada tülkü" əməliyyatı (1998-ci ilin dekabrın 16-da qrinviç üzrə saat 22:00-da başlamışdı) ilə hərbi məqsədlərinə nail olsa da, siyasi məqsədlərinə tam nail ola bilmədi.

ABŞ hakim dairələri Misiri həmişə ərəb dövlətləri arasında güc mərkəzi kimi qəbul etmiş və bu ölkənin istər geostrateji, istərsə də iqtisadi potensialından maksimum olaraq yararlanmağı rəsmi Vaşinqtonun milli və dövlət maraqları çərçivəsində qəbul etmişlər.

Əsası hələ ötən əsrin 70-ci illərində Ənvər Sədat hökuməti tərəfindən qoyulmuş "açıq qapılar"siyasəti çərçivəsində iki ölkə arasında iqtisadi – siyasi əlaqələr inkişaf etdirilməkdədir. ABŞ isə öz növbəsində Misirin regionda aparıcı dövlətə çevrilməsində mühüm rol oynamışdır.

90-cı illərin əvvəllərində Misir ölkə iqtisadiyyatının dirçəldilməsi istiqamətində ABŞ ilə hələ 70-80-ci illərdə bağlanmış müqaviləni əsas götürərək 1991-ci ildən etibarən Beybəlxalq Valyuta Fondu və Dünya Bankının proqramı çərçivəsində makroiqtisadiyyatı sabitləşdirməyə başlamışdılar.

Qahirə ABŞ ilə münasibətlərini daim yeniləşdirmə kursu mövqeyindən çıxış etmiş və buna müvəffəq olmuşdur. Bu məqsədə nail omaqda isə ABŞ-ın Kemp – Devid sövdələşməsi çərçivəsində Qahirəyə hər il etdiyi 1 milyard dollar həcmindəki maliyyə yardımı müstəsna rol oynamaqdadır.

Ölkədaxili siyasətdə "Müsəlman Qardaşları" təşkilatına və hökumətin fundamentalistlərə qarşı mübarizəsi də ABŞ-ın daim dəstəyi və nəzarəti altındadır.

Körfəz müharibədəsindən sonra Misir ABŞ-dan və onun formalaşdırmış olduğu beynəlxalq maliyyə qurumlarından hər il 4 milyard dollar həcmində maliyyə yardımı alır.

Səudiyyə Krallığının hakimiyyəti belə uzun müddət əlində saxlamasının başlıca səbəblərindən biri Vaşinqtonun bu sülalə ilə münasibətlərində müəyyən etdiyi və qoruduğu dövlət və milli maraqlarıdır.

ABŞ-la münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində quran Səudiyyə Ərəbistanı ilk növbədə regionun ən iri neft istehsal və ixrac edən, eləcə də enerji ehtiyatlarına malik dövlət kimi ABŞ üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Təkcə onu demək kifayətdir ki, XX əsrin 90-cı illəri ərzində ABŞ neft idxalının 25-32 %-ni Səudiyyə Ərəbistanı nefti təşkil etmişdir.

Səudiyyə Ərəbistanında 60-dan çox neft yatağını kəşf edən ARAMKO neft şorkəti 300 milyard barrel həcmində neft, 180 trilyon kub metr isə qaz ehtiyatına malikdir. 1990-cı ildə bu şirkətdə 2600 amerikalı, 1700 nəfər isə ingilis mütəxəssisi çalışırdı.

ABŞ – Səudiyyə Ərəbistanı münasibətlərinin dinamikasını izlədikdə iki ölkə arasında münasibətlərin kifayət qədər yüksək səviyyədə olduğunu söyləməyə əsas yaranır. Belə ki, 1990-cı ildə İraqın Küveyti işğal etməsi ilə bağlı ABŞ-ın bütün tələb və tədbirlərini Səudiyyə Ərəbistanı dəstəkləmiş və strateji müttəfiq kimi mövqe nümayiş etdirmişdir. Bununla yanaşı ABŞ – Səudiyyə Ərəbistanı münasibətlərində ticarət və kommersiya əlaqələri də əsas diqqət mərkəzində olan məsələlərdən biridir.

90-cı ıillərin əvvəllərində, xüsusilə də 1993 – 1994-cü illərdə Səudiyyə Ərəbistanı təkcə regional məsələlərə deyil, həm də beynəlxalq miqyasda davam edən münaqişələrə qəti şəkildə reaksiya vermişdir.

Səudiyyə Ərəbistanının regionda fəaliyyət göstərən terrorçu qruplaşmaları maliyyələşdirməsinə dair Ağ Ev ilə rəsmi Ər – Riyad arasında fikir ziddiyətləri mövcuddur. İsrail rəsmiləri iddia edir ki, "Həməs" terror təşkilatının büdcəsinin 50%-ni - bu 10 milyon dollar – hər il Səudiyyə Ərəbistanı tərəfindən ödənilən maliyyə vəsaiti təşkil edir.

Ər – Riyadın Ağ Evə qarşı irəli sürdüyü ittihamlar sırasında ABŞ-dan İsrailə ən müasir silah və texnikanın göndərilməsi də iki ölkə arasında mübahisə obyekti olaraq qalmaqdadır. Əslində ABŞ-ın



Səudiyyə Ərəbistanına ən müasir texnika satışına qarşı İsrail hökumətinin də etiraz etməsi, rəsmi Vaşinqtonu dilemma qarşısında qoysa da, bu amil faktiki olaraq ABŞ-a regiona münasibətdə, xüsusilə də bu məsələdə ikili standart siyasətindən çıxış etməyə əlverişli şərait yaradır.

## ABŞ, Corc Buşun (kiçik) prezidentliyi dövründə (2000-2008 - ci illər)

ABŞ konstitusiyasına əsasən Bill Klinton 2000-ci il prezident seçkilərində iştirak etmədi. Demokratlar partiyasından olan Albert Qor respublikaçı Corc Buşdan 542 min çox səs toplasa da, lakin seçki kollegiyası respublikaçıların xeyrinə məsələni həll etdi. Səslər hesablanarkən ABŞ seçki sisteminin xüsusiyyətləri nəzərə alınmalı oldu. Qoru 20 ştat və Kolumbiya federal dairəsi, Buşu isə 30 ştat müdafiə edirdi. Əhalisi yarım milyondan çox olan şəhərlərin 1/3-i A.Qoru, 60%-isə Buşu müdafiə edirdi. A.Qor ölkənin sahilətrafı, C.Buş isə daxili əyalətlərində qələbə çalmışdı. Həmçinin respublikaçılar demokratlar üçün əhəmiyyət kəsb edəcək bülletenlərin yenidən hesablanmasına imkan vermədi və Florida məhkəməsi Buşu qalib hesab etdi. Nəticədə ABŞ Ali məhkəməsi ölkənin 43-cü prezidentinin Corc Buş (kiçik) olması haqqında qərar qəbul etdi.

Corc Buş hakimiyyətə gəldikdən sonra respublikaçıların siyasətini davam edirməyə başladı. 2001-ci ildə konqresin qəbul etdiyi yeni vergi islahatı haqqında qanunda vergilərin 10 il ərzində 1,35 trilyon ixtisar edilməsi nəzərdə tutulurdu. Kiçik Corc Buşun dövründə əmək məhsuldarlığı 4 il ərzində 2.5 dəfə artdı. Amerika xalqının həyat səviyyəsi yüksəlməkdə davam etdi. O, 2004-cü ildə yenidən prezident kürsüsünü tutdu.

Ölkədə indi də keçmişdə olduğu kimi Şimal-Şərq (Nyu-York) və Orta-Qərb (Çikaqo) maliyyə kapitalı qruplaşmaları nüfuzlu mövqe tuturlar. Bununla bərabər Texas və Kaliforniya maliyyə qruplarının da xüsusi çəkisi artır. XXI əsrin ilk illərində ABŞ-da 15 min bank fəaliyyət göstərirdi. 100 başlıca korporasiyanın payına bütün istehsalın 1/3-i, sənaye aktivliyin isə 1/2-i düşür. Bütün bank əməliyyatlarının 1/3-i onların əlindədir. Hazırda ABŞ dünyanın əsas güc mərkəzlərindən biridir. Dünya ticarətində, demək olar ki,

generator rolunu oynayır. Müasir silahların yarıdan çoxu onun payına düşür. Dünyada yeganə və güclü hərbi və siyasi təşkilat olan NATO-da rəhbər rol oynayır. ABŞ ETİ-nin bütün nailiyyətlərini özündə cəmləşdirən inkişaf etmiş sənaye və kənd təsərrüfatına malikdir. O, dünyanın inkişaf etmiş ölkələrinin təşkil etdiyi «Səkkizlər qrupunun» üzvüdür. 2005-ci ildə ABŞ-ın ümummilli məhsulu 12,9 trilyon dollar olmuşdur.

Güclü potensiala malik olması XXI əsrin əvvəllərində ABŞ iqtisadiyyatının səciyyəvi cəhəti idi.

C.Buş xarici siyasətdə yenidən Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. 2001-ci ilin sentyabrın 11-də Nyu-Yorkda baş vermiş terror aktından sonra elə həmin ilin sonunda ABŞ Əfqanıstana müdaxilə etdi. Əfqanıstanda taliban rejimi devirdi. 2003-cü ilin martın 21-də İraqın bakteroloji silahlara sahib olduğunu bəhanə edərək İraqa hücum təşkil etdi. Səddam Hüseyn rejimi devrilsə də, İraqda sakitlik yaranmadı. 2001-ci il 11 sentyabr hadisələrindən sonra hərbi büdcə 393 milyard dollara çatdırıldı.

ABŞ-ın 2002-ci ilin may ayında Rusiya Federasiyası ilə strateji silahların məhdudlaşdırılması haqqında bağladığı müqaviləyə əsasən tərəflərdən hər biri ancaq 1700-2000 həcmində nüvə başlığı saxlaya bilərdi. Buş hökumətinin xarici siyasətinin sərtləşdiyini göstərən əlamətlərdən biri 2002-ci ilin iyun ayında onun raketdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müqavilədən imtina etdiyini bildirməsi idi.

2006-cı ilin noyabrın 7-də keçirilən parlament seçkilərində demokratlar partiyası qələbə çaldı. Bu qələbə ilk növbədə İraq amili, Cənubda baş verən qasırğa zamanı ayrılmış pulun xeyli hissəsinin mənimsənilməsi, ölkədəki korrupsiya, yeni terror qorxusu, bir sözlə, Buşun siyasətindən narazılıq ilə əlaqədar idi.

2008-ci ilin noyabrın 4-də keçirilən prezident seçkilərində demokratların namizədi Barak Obama respublikaçıların namizədi Con Makkeynə qalib gəldi. O, ABŞ-ın 44-cü prezidenti oldu. 2008-ci ilin ikinci yarısında ABŞ-ı yeni maliyyə böhranı bürüdü. Bunun səbəbi bankların kreditlər verməsi və nəticədə iflasa uğraması idi. Tezliklə bu böhran dünya maliyyə və iqtisadi böhranına çevrildi. Dünya bazarında neftin qiyməti sürətlə aşağı düşdü. Barak Obama prezident kürsüsünə əyləşərkən büdcə kəsiri 1.3 trilyon dollar idi. Barak Obama 2009-cu ilin fevralın 11-də "İqtisadiyyata yardım



planını" senata təqdim etdi. Planda yüksək gəlirdən vergiləri artırmaq, İraqdakı hərbi xərcləri azaltmaq, 4 milyon iş yeri açmaq nəzərdə tutulurdu.

## ABŞ – AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

Azərbaycanın düçar olduğu çoxsaylı problemlərin müvəffəqiyyətli həlli planetin güc mərkəzi olan dövlətləri ilə qura biləcəyi əlaqələrin keyfiyyət göstəricisindən xeyli asılıdır. Bu baxımdan, ABŞ öz potensialı ilə Azərbaycanın milli dövlətçilik maraqları dairəsinə daxildir.

Hər şeydən əvvəl, ABŞ dünyanın yeganə fövqəl dövləti olub, planetin nəhəng siyasi güc mərkəzidir. Birləşmiş Ştatlar dünyada mövcud olan təqribən 4 mindən çox beynəlxalq və məhəlli təşkilatın ya yaradıcısı, ya da ən əsas maliyyələşdiricisidir. Şübhəsiz, belə geniş təmsilçilik imkanları olan ABŞ-ın dünyanın hər hansı bir nöqtəsində baş verəcək hadisə və ya münaqişəyə dərhal və qədərincə təsir etmək, prosesləri planlaşdırıcı məcraya salmaq qətiyyəti kifayət qədərdir.

ABŞ dünyanın ən böyük iqtisadi güc mərkəzidir. Statistik rəqəmlərin aşağıdakı kiçik siyahısı da bunu təsdiqləyir:

Onun bütün müəssisələri 100% gücü ilə işləyir. 1991-ci ildə ABŞ iqtisadiyyatına kapital qoyuluşu 407,6 mlrd dollar olmuşdur. 1995-ci ildə ölkənin ixracı 685 mlrd dollar, idxalı isə 746 mlrd dollar olmuşdur.

Bugün inkişafda olan dünya dövlətləri ABŞ ixracının təqribən 40%-ni alır.

ABŞ, həmçinin, dünyanın hərbi güc mərkəzidir. Dövrümüzün ən böyük hərbi təşkilatı olan NATO-nun yaradılmasının və genişləndirilməsinin ilhamçısı məhz ABŞ olmuşdur.

Yeni dövrün siyasi reallıqlarına uyğun olaraq Pentaqonun müdafiə büdcəsi 35 % və hərbi qüvvələrin strukturu 33 % ixtisar edilsə də, əvəzində silahlı qüvvələrin modernləşdirilməsinə xeyli vəsait ayrılmışdır.

Azərbaycan isə zəngin təbii ehtiyatları, bölgənin ən iri, varlı və perspektiv inkişaf imkanları olan dövləti kimi ABŞ-ın diqqət

mərkəzində saxladığı ölkələrdəndir. Xüsusilə ABŞ-ın milli təhlükəsizlik sistemində enerji təhlükəsizliyi amili aparıcı roil oynadığından Azərbaycanın zəngin neft ehtiyatlarına bu dövlətin olduqca böyük marağının olması təsadüfi sayılmamalıdır.

Azərbaycanın əlverişli geosiyasi mövqeyi ABŞ-ın maraqlarına tamamilə uyğundur. Dövlətimiz şimaldan Rusiya, cənubdan isə İranla həmsərhəddir və regionda üstünlük uğrunda bu dövlətlər də mübarizə aparırlar.

ABŞ-ın respublikamıza marağının artmasında ölkəmizdə demokratik inkişaf yolunun seçilməsi, iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatına keçilməsinin də danılmaz əhəmiyyəti vardır.

1991-ci il dekabrın 25-də ABŞ Azərbaycan Respublikasının müstəqilliyini tanımış və 1992-ci il martın 18-dən etibarən bu dövlətlər arasında diplomatik münasibətlər qurulmuşdur.

İkitərəfli əlaqələrin başlanğıc mərhələsi kəşfiyyat xarakterli yönümü və istiqaməti ilə seçilir, ziddiyətlər və anlaşılmazlıqlarla xarakterizə olunurdu.

Azərbaycan – ABŞ münasibətlərinin tədqiq etdiyimiz dövr tarixinin ən ziddiyətli məsələsi 1992-ci il oktyabrın 24-də Konqresin 102-ci çağırışının 2-ci sessiyasının qəbul etdiyi və keçmiş SSRİ-nin Azərbaycandan savayı digər 11 respublikasına demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində, yardımı nəzərdə tutan və ona "907-ci əlavə"nin qəbulu oldu.

Azərbaycana qarşı iqtisadi yardıma qadağa aksiyasının məzmunu belədir: " Bu və ya digər qanunvericilik aktları çərçivəsində Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı o zamana qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyən etmiş olsun və bu haqda Konqresə xəbər çatdırsın ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli iş görür".

Keçmiş sovetlər birliyinin yenicə müstəqillik qazanmış respublikaları içərisində niyə məhz Azərbaycanın iqtisadi qadağa aksiyasına məruz qalmasının səbəblərini araşdırmağa çalışaq.

ABŞ-da güclü erməni lobbisi və diasporunun mövcudluğu, ABŞ-da məskunlaşmış Azərbaycan icmasının zəifliyini mühüm səbəblər kimi qeyd etmək olar.



Nəhayət, Azərbaycanda o zamanlar hakimiyyəti təmsil edən iqtidarın xarici siyasət sahəsində buraxdıqları səhvlər də öz mənfi rolunu oynamışdır.

1993-cü ilin aprelində Vaşinqtonda Azərbaycan səfirliyinin açılması ilə ikitərəfli əlaqələr intensivləşməyə başladı.

Azərbaycan – ABŞ əməkdaşlığı BMT çərçivəsində də davam etdirilmişdir. BMT təhlükəsizlik şurasının beş daimi üzvündən biri olan ABŞ Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal olunması ilə bağlı sözügedən təşkilatın qəbul etdiyi 7 bəyannamə və 4 qətnamənin (822 saylı – 1993-cü il 30 aprel, 853 saylı – 1993-cü il 29 iyul, 874 saylı – 1993-cü il 14 oktyabr və 884 saylı – 1993-cü il 11 noyabr) lehinə səs vermişdir. Adı çəkilən sənədlərdə Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərinin pozulmazlığı və ərazilər ələ keçirmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi prinsipi təsdiqlənmiş, ölkəmizin bütün zəbt olunmuş ərazilərindən işğalçı erməni hərbi birləşmələrinin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur.

Azərbaycan Respublikasının ABŞ prezidenti B. Klintonun xarici siyasət təşəbbbüsü olan "sülh naminə tərəfdaşlıq" proqramına qoşulması da (1994-cü il mayın 4-də) ölkəmizin rəsmi Vaşinqtonla hərbi – siyasi əməkdaşlığına təkan verən amillərdəndir.

Azərbaycan – ABŞ münasibətlərində baş vermiş mübət dəyişikliklər 1994-cü ilin dekabrında ATƏM-in Budapeşt zirvə görüşü zamanı öz konkret nəticələrini verdi.

Budapeşt sammitində ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. ABŞ-ın yaxından köməkliyi nəticəsində Budapeşt sammitinin qəbul etdiyi qətnamədə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏT-in ixtiyarına verildi. Eyni zamanda münaqişə zonalarında, o cümlədən Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində hansısa bir ölkənin deyil, ATƏT sülhməramlı qüvvələrindən istifadə edilməsi qərara alındı.

Azərbaycan – ABŞ münasibətlərində dönüş 1996-cı ildən etibarən özünü göstərməyə başladı.

1996-cı il yanvarın 26-da ABŞ Konqresinin Nümayəndələr Palatası, sonra isə Senatı Azərbaycana birbaşa humanitar yardım

göstərilməsini nəzərdə tutan qanun layihəsini (konqresmen Çarlz Vilsonun düzəlişi) təsdiq etdi. Elə həmin gün ABŞ prezidenti qanun layihəsini imzaladı.

Konqresmen Çarlz Vilsonun təşəbbüsünün hədəfi "Azadlığı Müdafiə Aktı"na "907-ci əlavə"yə düzəlişdir. "Vilson düzəlişi"nə qədər Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə yardım göstərilməsi mümkün idi. Qəbul edilmiş yeni düzəlişdə isə deyilirdi: "Azərbaycan hökumətinə humanitar yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir".

Bu sənəd Azərbaycanı hər cür dövlət yardımından məhrum edən və bütünlükdə erməni maraqlarına xidmət göstərən "907-ci əlavə"nin ləğvi istiqamətində ABŞ konqresinin ilk uğurlu addımı kimi qiymətləndirilir.

1996-cı il iyulun 11-də ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə yönəlmiş növbəti addımı "Porter düzəlişi" meydana gəldi.

"Porter düzəlişi"nə görə ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulurdu.

Azərbaycan və ABŞ ali icra hakimiyyəti orqanlarının qarşılıqlı səmərəli fəaliyyəti son nəticədə "Porter düzəlişi" adlı bədnam sənədin Nümayəndələr Palatası və Senatın uzlaşdırıcı komissiyasının sentyabrın 17-də keçirilmiş iclasında tamamilə rədd edilməsini təmin etdi.

Respublikamızın ən ağrılı Dağlıq Qarabağ probleminin də geniş müzakirələr obyektinə çevrildiyi ATƏT-in Lissabon sammiti ( 1996 dekabr) Azərbaycan – ABŞ münasibətlərinin strateji tərəfdaşlığa doğru istiqamətləndiyini növbəti dəfə təsdiqlədi. Sammitdə Ermənistan – Azərbaycan münaqişəsinin həllini 3 prinsip əsasında tənzimləməyi nəzərdə tutan formul ATƏT-in sədri F. Kottinin bəyanatında irəli sürüldü. ATƏT-in əsas prinsiplərini nəzərdə tutan bu formul, Ermənistan istisna olmaqla qalan bütün iştirakçı dövlətlər, o cümlədən ABŞ tərəfindən qəbul edildi.



Beləliklə başlamaqda olan 1997-ci ildə Azərbaycan – ABŞ münasibətlərinin vəziyyəti yuxarıda bəhs etdiyimiz real mənzərə ilə şərtlənirdi.

Həmin ildə təhlükəsizlik sahəsində də Azərbaycan – ABŞ münasibətləri inkişaf etdirilmişdir. Belə ki, martın 12-13-də Bakıda Azərbaycan və ABŞ arasında təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair ikitərəfli məsləhətləşmələr aparılırdı. Məsləhətləşmələr gedişində geniş spektrli təhlükəsizlik məsələləri araşdırılmış, o cümlədən:

- Regional məsələlər, sərhədə nəzarət;
- Avropada Ali Silahlı Qüvvələr məsələsi və onunla bağlı narahatlıq doğuran suallar;
- "Sülh naminə tərəfdaşlıq" proqramının yaratdığı imkanlar;
- NATO-nun genişlənməsi və Avropa təhlükəsizliyin arxitekturası, habelə enerji və nəqliyyat dəhlizinin təhlükəsizliyi problemlərinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

1997-ci il iyulun 27-dən avqustun 7-dək Azərbaycan prezidenti H. Əliyevin ABŞ-a ilk rəsmi səfəri oldu. Bu səfərlə iki dövlət arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu.

Səfər zamanı 5 mühüm sənəd:

- ABŞ – Azərbaycan münasibətləri haqqında birgə bəyanat;
- Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Azərbaycan Respublikası ilə ABŞ hökuməti arasında müqavilə;
- ABŞ ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barəsində birgə bəyanat;
- Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat; - Layihələrin təşviqinə dair baş saziş – imzalandı.

Bununla yanaşı, dəyəri 8 mlrd. ABŞ dolları məbləğində qiymətləndirilən yeni 4 neft müqaviləsi bağlandı.

Ölkə prezidentinin ABŞ-a ilk rəsmi səfəri gedişində qazanılmış uğurların daha da möhkəmləndirilməsini təmin etmək məqsədilə Azərbaycanın dövlət başçısı 1997-ci il sentyabrın 2-də "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında

partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzalandı.

Azərbaycan – ABŞ iqtisadi münasibətlərinin yaranması və bütün sonrakı inkişafında neft amili həlledici rol oynamışdır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) xarici enerji kompaniyaları ilə 1994-cü il sentyabrın 20-də imzaladığı ilk neft müqaviləsində ABŞ-ın 4 iri neft şirkəti aşağıdakı mühüm pay faizləri ilə təmsil olunmuşdur.

1. Amoko – 17.01 %
2. Yunokal – 10.0489 %
3. Ekson – 8.0006 %
4. Penzoyl – 4.8175 %

Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olması ABŞ-ı respublikamızla sıx iqtisadi və siyasi münasibətlər qurmağa vadar edən olduqca əhəmiyyətli amil olsa da, hər halda yeganə cəhət deyildir. Azərbaycan – ABŞ əlaqələri iqtisadiyyatın digər sahələrində də qurulmuşdur.



# BÖYÜK BRİTANİYA 1918 – 2007 – Cİ İLLƏRDƏ

**Böyük Britaniya üçün Birinci dünya müharibəsinin nəticələri**

1914-1918-ci illəri əhatə edən Birinci dünya müharibəsinin başlıca iştirakçılarından biri də Antantanın əsas təşkilatçılarından olan Böyük Britaniya idi. Antanta dövlətlərinin canlı qüvvə və maddi cəhətdən üstünlüyü onların, o cümlədən, Böyük Britaniyanın müharibədə qələbəsinə səbəb oldu. 1918-ci ilin noyabr ayının 11-də səhər saat 11-də İngiltərədə birinci dünya müharibəsinin qurtardığı elan edildi. Müharibənin başa çatdığı ərəfədə İngiltərədə Lloyd Corcun koalision hökuməti dururdu ki, onun da tərkibinə üç partiyanın – liberalların, mühafizəkarların və leyboristlərin nümayəndələri daxil idi. İkipartiyalı sistem ingilis burjuaziyasının ənənvi xüsusiyyəti olsa da, müharibənin yaratmış olduğu şərait ingilis burjuaziyasını koalisiyalı hökumət yaratmağa məcbur etmişdi. Leyborist partiyasının və tred-yunionların liderlərində koalisiyaya münasibət məsələlərində fikir ayrılığı mövcud idi. Leyborist partiyasının sadə üzvləri burjuaziya ilə əməkdaşlığın qəti əleyhinə idilər. Onlar liberallar və mühafizəkarlarla əlaqəni kəsməiyn tərəfdarı idilər.

1918-ci ilin dekabrında keçiriləcək parlament seçkilərində koalisiya məhdud tərkibdə çıxış etdi. Onun tərkibinə ancaq mühafizəkarlar partiyası və Lloyd Corcu müdafiə edən liberallar partiyasının bir hissəsi daxil oldu. Onlar parlament sekilərini Almaniya üzərində qələbə ilə əlaqədar xalq kütlələrinin əhval-ruhiyyəsinin hələ yüksək olduğu üçün tez keçirmək istəyirdilər. Onlar parlamentdə əksəriyyət qazanmaq və hakimiyyəti əldə saxlamaq istəyirdilər. Həmçinin ölkədə inqilabi «əhval-ruhiyyənin qarşısını almaq üçün də seçkilərin tez keçirilməsində burjuaziya maraqlı idi.

Koalisiya seçkilər ərəfəsində demaqoq bir proqramla çıxış etdi. Onlar öz proqramlarında göstərirdilər ki, bütün xalqın, ilk növbədə isə fəhlə sinfinin vəziyyətini yaxşılaşdırmaq üçün mümkün olan bütün tədbirləri görəcəklər. Lloyd Corc belə bir şüar irəli sürmüşdür ki, «İngiltərəni döyüş səhnəsindən qayıtmış qəhrəmanlara layiq bir ölkəyə çevirmək lazımdır. Bunun üçün pulu haradan tapılacağı sualına isə Lloyd Corc cavab verirdi ki, «bütün vəsaiti almanlar ödəyəcəklər».



1918-ci ilin parlament seçkilərində leyboristlər partiyası da geniş proqramla çıxış etdi. Bu proqramda göstərilirdi ki, həyat üçün vacib olan xidmət sahələrində demokratik nəzarət təmin edilməli, təxirə salınmadan millliləşdirmə aparılmalıdır. Milliləşdirmə ilk növbədə daş kömür sənayesini, dəmir yolları, ticarət gəmiçiliyini, silah istehsalını və elektrik enerjisini əhatə etməlidir. Minimum əmək haqqı təyin edilməli, işsizlik təhlükəsinə son qoyulmalıdır.

Leyboristlər həmçinin vəd edirdilər ki, Rusiyaya hərbi müdaxiləyə son qoyulacaq, ingilis qoşunları Rusiyadan çıxarılacaqdır. İrlandiya və Hindistana azadlıq verilməsi də onların proqramlarında öz əksini tapmışdır.

Seçkilər ərəfəsində yeni parlament islahatı keçirildi. Bu islahat nəticəsində seçicilərin sayı 8 milyondan 21 milyon nəfərə qədər artdı. İlk dəfə olaraq 30 yaşına çatmış qadınlar parlamentə seçmək və seçilmək hüququ əldə etdilər. Həmçinin 21 yaşına çatmış bütün kişilər də seçki hüququ qazandılar. Ordudan tərxis edilmiş əsgərlərə işlə təmin edilənə qədər yaşayış xərci ayrıldı. Hərbi istehsalın ixtisarı ilə əlaqədar işsiz qalan fəhlələrə də maddi yardım göstərildi.

1918-ci ilin dekabrında parlament seçkiləri ölkədə hərbi vəziyyətin qaldığı bir vəziyyətdə keçirdiyi üçün onu «Xaki» seçkiləri də adlandırırdılar. Bu seçkilərdə mühafizəkarlarla liberalların bloku əksəriyyət qazanaraq 484 yer tutdular. Mühafizəkarlar 338, liberallar isə 136 yer qazandılar. Leyboristlər partiyası 59 mandat qazandı. Yenə də koalisiyalı hökumət təşkil edildi və bu hökumətə Lloyd Corc rəhbərlik etdi. 1918-ci ilin parlament seçkiləri liberallar partiyasının necə dərin böhran keçirdiyini göstərdi. Bunun səbəbi ilk növbədə onunla izah olunmalıdır ki, liberallar partiyası azad rəqabətin hökm sürdüyü dövrdə ticarət və sənaye burjuaziyasının mənafeyini müdafiə edən siyasi partiya kimi meydana gəlmişdi. Bu partiya XIX əsrin sonuna qədər İngiltərənin siyasi həyatında mühüm rol oynamışdır. 1900-1903-cü illərin dünya iqtisadi böhrana nəticəsində kapitalizm özünün yüksək mərhələsi olan imperializmə keçdi. Azad rəqabətin yerini inhisarlar tutdu. İqtisadiyyatda baş verən bu dəyişiklik siyasətdə də öz təzahürü tapdı. Ona görə də liberallar partiyası öz siyasi nüfuzunu itirməyə başladı. İngiltərədə ikipartiyalı sistemdə liberallar partiyasının yerini tədricən leyboristlər partiyası tutmağa başladı. Leyboristlər partiyasının 1918-ci ildə qəbul edilmiş nizamnaməsində partiyaya üzvlük məsələsində belə bir dəyişiklik

edildi ki, partiyaya kollektiv forma ilə yanaşı fərdi formada da üzr qəbul oluna bilər. Bu isə xırda, orta, hətta iri burjuaziyanın nümayəndələrinin də bu partiyaya daxil olmasına şərait yaratmış oldu.

Birinci dünya müharibəsi İngiltərə iqtisadiyyatında mühüm dəyişikliklər yaratdı. Müharibədən qabaq İngiltərə iqtisadiyyatında özünü göstərən iqtisadi böhranın təzahürləri daha qabarıq formada özünü büruzə verdi. Müharibə dövründə ingilis mallarının ixracı əsaslı şəkildə ixtisar edildi. İdxal isə iki dəfə artdı. İngiltərə xarici dövlətlərdən istiqraz almağa məcbur oldu. Onun ABŞ-a borc 1919-cu ildə 850 milyon funt-sterlinqə çatdı. Əgər müharibəyə qədər ABŞ İngiltərəyə borclu idisə, müharibədən sonra İngiltərə ABŞ-a borclu oldu. Müharibə dövründə İngiltərə məcbur oldu ki, xaricə kapital qoyuluşunu 25% ixtisar etsin. Müharibə ərzində İngiltərənin daxili borcları 10 dəfə artaraq 645 milyon funt-sterlinqdən – 6600 milyon funt-sterlinqə çatdı». İngiltərə iqtisadiyyatı müharibə dövründə qeyri-bərabər inkişaf edirdi. Ənənəvi sənaye sahələri olan kömürçıxarma, gəmiçilik, toxuculuq, sənayesi bu dövrdə durğunluq keçirirdi. Yeni sənaye sahələri olan kimya, avtomobil, aviasiya, silah istehsalı sənayesi isə sürətlə inkişaf etdi.

Müharibə İngiltərədə kənd təsərrüfatı məhsulları istehsalının xeyli artımına səbəb oldu. Lakin buna baxmayaraq əhalinin kənd təsərrüfatına tələbatının ancaq 43,6%-i ölkənin öz məhsulları hesabına ödənilirdi.

Müharibə dövründə İngiltərə iqtisadiyyatında baş verən ən mühüm dəyişiklikdən biri dövlət-kapitalizm meylinin güclənməsi, inhisarçı kapitalın gücünün artması idi. 1916-cı ildə Britaniya sənaye Federasiyası yaradıldı. Müharibənin sonunda bu Federasiya 18 min firmanı özündə birləşdirirdi. Bu Federasiya İngiltərə kapitalizmin inkişafında mühüm mərhələ açdı.

İngiltərə zəhmətkeşləri üçün müharibə saysız-hesabsız qurbanlar və əzablar gətirdi. İngiltərənin öz donanmasından əlavə iri miqyasda quru qoşunların müharibəyə cəlb etməsi böyük itkilərə səbəb oldu. 747, 7 min nəfər öldü, 1693 min nəfər yaralandı. Böyük Britaniya imperiyasının bütövlükdə itkisi isə 947 min nəfər öləndən və 2122 min nəfər yaralanandan ibarət idi.

Müharibə ölkədə sinfi ziddiyyətlərin kəskinləşməisnə səbəb oldu. 1918-ci ildə tətil hərəkatı geniş miqyas aldı, ölkədə baş verən



tətillərdə 1116 min nəfər fəhlə iştirak edirdi. Bu dövrdə İngiltərədə fəhlə hərəkatının səciyyəvi cəhəti onun mübariz xarakter daşımasında idi. Müharibə dövründə İngiltərədə həmkarlar ititfqaları üzvlərinin sayı sürətlə artdı. Belə ki, həmkarlar ittifaqları üzvlərinn sayı 1913-cü ildəki 4135 min nəfərdən 1918-ci ildə 6533 min nəfərə çatdı. Müharibə illərinin ən mühüm hadisələrindən biri mədənçilərin, dəmiryolçuların və nəqliyyatçıların ittifaqı olan Üçlər ittifaqının yaranması idi.

Müharibələrin sonuna yaxın ingilis zəhmətkeşlərinin sosial quruluşu dəyişdirmək uğrunda mübarizəsi genişləndi. İngiltərənin hakim dairələri xalq hərəkatını zəiflətmək üçün bir sıra tədbirlər görməyi qərara aldılar. Qadınların ictimai həyatda rolu artdı. 1918-ci ildə artıq sənaye və nəqliyyatda 3 milyon qadın işləyirdi, 150 min qadın hərbi hissələrdə çalışırdı.

1918-ci ilin əvvəllərində Maarif naziri Fiserin rəhbərliyi altında xalq təhsili islahatı haqqında qanun qəbul edildi. Həmin qanuna görə 14 yaşına qədər uşaqlar üçün təhsil pulsuz idi. Yerli orqanların hüququ vardır ki, müəssisələrdə yeniyetmələrin əməyi üzərində nəzarəti həyata keçirsinlər.

İngilis burjuaziyası fəhlə hərəkatının təisri altında iqitsadi sahədə də bir sıra güzəştlərə getməli oldu. 1917-ci ilin noyabrında 200 min hərbi sənaye fəhləsinin əmək haqqı 12,5% artılırdı.

Müharibə nəticəsində mühafizəkarlar partiyası ölkənin aparıcı siyasi qüvvəsinə çevrilərək, inhisarçı kapitalın əsas partiyası oldu. Bu dövrdə mühafizəkarlar partiyası ilə liberallar partiyası arasında prinsipial ixtilaflarda əsas məsələ İrlandiyaya və xarici ticarət siyasətinə münasibət məsələsi idi. Liberallar İrlandiya özünüidarə hüququ verilməsini müdafiə edirdilər. Müharibə qurtardıqdan 1920-ci ilin ortalarına qədər keçən dövrdə ölkədə sənaye-ticarət yüksəlişi dövrü oldu. Bu dövrdə İngiltərə iqtisadiyyatında və xarici siyasətində canlanma özünü göstərdi. 1919-1920-ci illərdə çuqun istehsalı 8,1%, polad istehsalı 15,%, gəmiqayırma 25,4%, ixrac 38,1% artdı.

Sənaye məhsulu istehsalı müharibənin sonuna yaxın ümumilikdə artsa da, 1913-cü il səviyyəsindən 10% geri qalırdı. İxrac isə 1913-cü illə müqayisədə 30% geri qalırdı. Əgər 1913-cü ildə həmkarlar ittifaqları üzvlərinin 2,1%-i işsiz idisə, 1919, 1920-ci illərdə 2,4%-i işsiz idi.

Sənayedəki və ticarətdəki canlanmanı tezliklə güclü inflyasiya əvəz etdi. 1920-ci ildə artıq infilyasiyanın səviyyəsi 225%-ə qalxdı. Əlbəttə, bu inhisarlara daha çox gəlirlərini artırmağa imkan verdi, ölkənin zəhmətkeş kütlələrinin həyat səviyyəsi isə xeyli dərəcədə aşağı endi.

1919-1920-ci illərdə İngiltərənin kənd təsərrüfatı da sənayedən fərqlənirdi. Belə ki, 1919-cu ilin oktyabrın 21-də Lloyd Corc fermerlərin maraqlarını müdafiə edən siyasət yürüdülməsini hökumətin qarşısında qoydu. Bu siyasətdən məqsəd xüsusi kənd sahibkarlarından daha çox ərzaq alınmasına nail omlaq idi.

1919-1920-ci illərin ticarət-sənaye canlanması öz ziddiyyətliliyi ilə seçilirdi. 1920-ci ilin ikinci yarısında İngiltərə iqtisadiyyatını bürüyən, müharibədən sonrakı ilk böhran ingilis burjuaziyasının ciddi sarsıntısına səbəb oldu.

1919-cu ilin aprelin 10-da Lloyd Corc yeni hökuməti təşkil etdi. Onun səhərisi günü isə ingilis nümayəndə heyəti Paris sülh konfransında iştirak etmək üçün yola düşdü.

Başlanmasından sonunadək Paris sülh konfransında əsas məsələlərdən biri Sovet Rusiyası ilə mübarizə problemi idi. İmperialist dövlətləri sovet hökumətini yıxmaq üçün vahid yol tapmağa çalışırdılar. Birinci dünya müharibəsi ərəfəsində Rusiya İngiltərədən 5375 milyon rubl istiqraz almışdı və Rusiyanın hərbi borclarının 70%-i isə İngiltərəyə məxsus idi. İngiltərə ona görə də Rusiyada Sovet hakimiyyətinin varlığı ilə heç cür barışmağı bacarmırdı.

İngiltərə hakim dairələrinin planında Rusiyaya güclü zərbə endirmək lazım olduğu göstərilirdi. Hələ 1917-ci ilin dekabrında 23-də İngiltərə ilə Fransa arasında saziş bağlanmışdır ki, İngiltərə və Fransanın birgə hərbi müdaxiləsi nəticəsində RUsiyada sovet hakimiyyətini devirsinlər. Həmçinin sazişdə nəzərdə tutulurdu ki, Qafqaz, Ermənistan, Gürcüstan, Kürdüstan İngiltərənin, Bessarabiya, Ukrayna, Krım Fransanın təsiri dairəsinə daxil edilsin. İngiltərənin xarici işlər naziri olmuş Kerzonun tərcümeyi-halını yazan Nikolson göstəri ki, Kerzon həmişə Aralıq dənizindən Pamirə qədər İngiltərənin tabeliyində olan vassal dövlətlərinin yaranmasını arzulayırmış.

İngiltərə və ABŞ hökumətləri Sovet hakimiyyəti ilə iqitsadi kömək yolu ilə də mübarizə aparmağı nəzərdən qaçırmırdılar. 1919-cu ilin aprelində «Dördlər şurası» Sovet Rusiyasına müəyyən



miqdarda ərzaq köməyi göstrəmək haqqında qərar qəbul etdi. Onlar əslində dolayı yolla Sovet hakimiyyətini yıxmaq məqsədinə nail olmaq istəyirdilər.

Paris sülh konfransında İngiltərənin vəziyyəti digər dövlətlərlə müqayisədə daha əlverişli idi. Belə ki, o, Almaniyanın iqtisadi qüdrətinin sarsılmasına nail olmuş, beynəlxalq bazarda onun rəqibliiyni məhv etmiş, alman donanması təhlükəsini kənarlaşdırmış, Almaniya müstəmləkə imperiyasını ləğv etmiş, təbii ehtiyatlarla zəngin və strateji cəhətdən əlverişli olan türk ərazilərini tuta bilmişdir.

Konfransda mühüm məsələlərdən biri də ABŞ prezidenti V.Vulson tərəfindən irəli sürülmüş Millətlər Cəmiyyətinin yaradılması məsələsi idi. Yaponiya nümayəndə heyətinin köməyi ilə Millətlər Cəmiyyətində rəhbər rol İngiltərə və Fransaya məxsus oldu ki, onlar da bundan öz mənafeləri xatirinə sovet Rusiyasına və Avropada inqilabi hərəkata qarşı istifadə etməyi bacarırdılar.

Mandat üsulunun tətbiq edilməsi nəticəsində İngiltərə və onun dominionları Türkiyə ərazisi və Almaniya müstəmləkələri hesabına geniş ərazilər əldə etdilər. İngiltərəyə mandat üsulu ilə İraq, Fələstin, Transiordaniya, Tanqanika, Toqo və Kamerunun bir hissəsi, Sakit okeanda bir sıra adalar, dominionları isə Almaniyanın Cənub-Qərbi Afrikadakı müstəmləkələrini, Samao adasını, Yeni Qvineya adasının Almaniyaya məxsus hissəsini aldılar. Bütövlükdə İngiltərə dominionları ilə birlikdə 29 milyon kv.km əraziyə sahib oldu. İngiltərə Almaniya ərazisindən 5,5 milyon əhalisi olan 2,1 mln kv.km ərazi, Türkiyə mülklərindən isə 4 milyon əhalisi olan 500 min kv.km ərazi ələ keçirmiş oldu.

Müharibədən sonra ilk illər İngiltərə kapitalizmi üçün xüsusilə çətin illər idi. Belə ki, İngiltərə fəhlə sinfinin vəziyyəti bu dövrdə o qədər də xoşagələn deyildi. Ölkədə bütün həmkarlar ittifaqları iş gününün qısaldılmasını, əmək haqqının artırılmasını tələb edirdilər. İngiltərə burjuaziyası üçün təhlükəli amil o idi ki, müharibə dövründə milyonlarla fəhlə silahdan istifadə etməyi öyrənmişdi və indi bu silahı ona qarşı çevirə bilərdi. Bu dövrdə İngiltərə əsgər və matroslarını narazı salan əsas səbəblərdən biri o idi, onların tərxis olunmasını hökumət ləngidirdi. Bunun əsas səbəbi isə o idi ki, hökumət bundan ölkədəki inqilabi və müstəmləkələdəki azadlıq hərəkatına qarşı istifadə etmək niyyətində idi. Hökuməti ən çox

qorxuya salan məsələ Üçlər ititfaqının üzvlərinin birgə çıxış etməsi təhlükəsi idi. Onların birgə çıxışı ölkənin bütün iqtisadiyyatını iflic vəziyyətinə sala bilərdi. İngiltərə fəhlə sinifinin ən böyük çıxışı 1919-cu ildə Klayd çayı sənaye raoynunda və onun paytaxtı Qlazqoda oldu. Yanvarın 27-də başlanan tətil tezliklə 100 min nəfəri əhatə etdi. Onların əsas tələblərindən biri 40 saatlıq iş günü idi. Polisin yanvar ayının 31-də tətilçilər üzərinə hücumu bütün ölkədə fəhlə sinfi tərəfindən güclü narazılığa səbəb oldu. Lakin həmkarlar ititfaqları üzvlərinin güzəştə getməsi nəticəsində tətil yanvar ayının 31-də dayandırıldı. Bu hadisə ölkədə yeni tətillərin başlanması üçün siqnal oldu. 1919-cu ilin yanvarın 14-də mədənçilərin Federasiyasının konfransı hökumətdən «əmək haqlarının 30% artırılması, 7 saatlıq iş gününə keçirilməsi, ordunun tərxis edilmiş mədənçilərin tam tənminatı üzərində fəhlə nəzarəti qoyulmaqla şaxtaların tam milliləşdirilməsi tələbinin həyata keçirilməsini tələb etdi. Tələblərin içərisində hökumət üçün ən təhlükəlisi şaxtaların milliləşdirilməsi məsələsi idi. Mədənçilər bildirdilər ki, onların tələbi ödənilməsə, onlar martın 15-də tətilə başlayacaqlar. Hökumət vəziyyətdən fəhlə sinifini aldatmaqla çıxa bildi. Belə ki, hökumət vəziyyəti öyrənmək üçün komissiya yaratdığını bildirdi. Komissiya martın 3-də fəaliyyətə başladı. Komissiyanın sədri isə hakim Senki oldu. Komissiya hökumətə təklif etdi ki, əmək haqqı gündə 2 şlinq artırılsın və 7 saatlıq iş gününə keçirilsin. Milliləşdirmə tədbiri təxirə salındı. 1919-cu ilin payızında ordu tərxis edildi, kömür ehtiyatı yaradıldı. Ştreykbrekerlər dəstəsi hazırlandı ki, tətil pozmaq üçün ondan istifadə edilsin.

1919-cu ilin yayında İngiltərədə yenidən tətil hərəkatı başladı. Dəmiryoçuların birliyi onların tələblərinin ödənilməsinə səbəb oldu. Dəmiryolçuların qələbəsi Lloyd Corc hökumətinin mənəvi-siyasi məğlubiyyəti demək idi. Fəhlə hərəkuatının güclənməsi İngiltərə Kommunist partiyasının yaranması ilə nəticələndi. İngiltərədə bu dövrdə Britaniya sosialist partiyası, Sosialist fəhlə partiyası, Cənubi-Uels sosialist cəmiyyəti, Sosialist fəhlə federasiyası, Şotlandiya Kommunist fəhlə partiyası kimi fəhlə təşkilatları fəaliyyət göstərirdi. 1920-ci ilin iyul ayının 31-dən avqustun 1-nə qədər Londonda keçirilən konfransda İngiltərə Kommunist partyası təşkil edildi. İlk vaxtlar İngiltərə Kommunist partiyasının tərkibində 10 minə qədər üzv var idi! Bunun belə olmasının əsas səbəbi İngiltərədə həmkarlar



ittifaqlarının fəhlə hərəkatı içərisində daha güclü nüfuzunun olması idi. İngiltərə fəhlə sinfi Lloyd Corc hökumətinin antisovet siyasətinə, ingilis qoşunlarının Rusiyaya hərbi müdaxilədə iştirak etməsinə qarşı çıxırdı. Onlar tələb edirdilər ki, Rusiyadan İngiltərə hökuməti əlini və gözünü çəksin. Bu isə hökuməti düşünməyə vadar etdi. «Mən Rusiyaya 14 dövlətin hücumunu təşkil etmişəm ki, bolşevizmin körpəsini beşiyində məhv edəm»» deyən Çörçill özü ingilis qoşunlarının Rusiyadan çıxarılmasına razılıq verməli oldu.

Qısa müddətli müharibədən sonrakı yüksəliş 1920-ci ildə dərin iqitsadi böhranla əvəz olundu. Bu dünya iqtisadi böhranı deyildi, lakin qabaqcıl kapitalist ölkələri olan ABŞ və İngiltərə böhrandan ciddi zərər çəkdilər. Böhran uzun sürmədi. İngiltərədə böhran nəticəsində sənaye indeksi 1913-cü illə müqayisədə 100-dən 1920-ci ildə 61,5-ə düşdü. Daş kömür çıxarılması 1913-cü illə müqayisədə 163 milyon ton azalaraq 230 milyon tona, çuqun məhsulları istehsalı 8 milyon tondan 2,6 milyon tona, polad istehsalı 9,1 milyon tondan 3,7 milyon tona, pambıq istehsalı 10,5 min sentrə endi. Böhran dövründə İngiltərənin xarici ticarət dövriyyəsi azalaraq ixrac 44,6 %, idxal isə 39,8% endi. Sənaye məhsulu istehsalı ən çox 1921-ci ilin ikinci kvartalında azaldı.

Böhran maliyyə sahəsinə xüsusilə ağır təsir göstərdi və iflasların sayı çoxaldı. Böhran zamanı qiymətlərdə də ciddi dəyişikliklər baş verdi. Artıq 1920-ci ilin əvvəllərində qiymətlər aşağı düşməyə başladı. Kəd təsərrüfatı mallarının qiyməti də aşağı düşməyə başladı.

Böhrandan sonra İngiltərə iqtisadiyyatı birdən-birə yüksəliş dövrü keçirmədi, 1922-1923-cü illərdə İngiltərə iqtisadiyyatı durğunluq dövrü keçirdi. Bu da onunla izah olunurdu ki, bu dövrdə mühərəbədən əvvəlki dövrlə müqayisədə sənaye və ticarət xeyli geridə qalırdı. Sənaye indeksini 1913-cü ildə 100 götürsək 1922-ci ildə bu rəqəm 76,6, 1923-cü ildə isə 82,9% təşkil edirdi.

İngiltərənin hakim dairələri birinci dünya müharibəsindən sonra da iri maliyyə dairələrinin mənafeyini müdafiə edən siyasət yeridirdilər. Ölkədə bu dövrdə fəhlə sinfinin həyat səviyyəsi çox aşağı səviyyədə idi. Şaxtaçıların maaşının aşağı olduğunu nəzərə alaraq Federasiya onların maaşının artırılmasını hökumətdən tələb etdi. Bildirdilər ki, əks təqdirdə şaxtaçılar sentyabrın 25-də tətilə başlayacaqlar. Sentyabrın 25-də başlanan tətilə başqa peşə sahibləri

də qoşuldu bu hərəkat noyabrın 3-nə qədər davam etdi. Lakin tətil hərəkatın iştirakçılarına uğur qazandırmadı.Tətil hərəkatından qorxuya düşən burjuaziya 1920-ci ilin avqustunda parlament tərəfindən belə bir antifəhlə qanununun qəbul edilməsinə nail oldu ki, kral ölkədə antihökumət çıxışları baş verən zaman fövqaladə vəziyyət elan edə bilər. Bu qanunla o, Napaleon müharibəsi və birinci dünya müharibəsi dövründə verilmiş hüququ yenidən bərpa etmiş oldu.Bu qanundan sonra şaxta sahiblərinin lokaut elan etmələri şaxtaçıları narazı saldı. Burjuaziya ümumi tətilin başlanacağından ehtiyat edərək əvvəldən ehtiyat tədbirləri gördü. Şaxtaçıların təşəbbüsü nəqliyatçılar və dəmiryolçular tərəifndən müdafiə edilmədiyindən və bu burjuaziyanın fəhlələr üzərinə hücuma keçməsinə şərait yaratdığına görə 1921-ci ili naprel ayının 15-i İngiltərənin fəhlə hərəkatı tarixinə «qara cümə günü» kimi daxil oldu. 1919-1921-ci illərin tətilləriin mübariz xarakteri burjuaziyanı öz siyasətini dəyişməyə, manevrlərə əl atmağa məcbur etdi. 1921-ci ildə 6 milyon fəhlənin hər biririn əmək haqqı həftədə 8 şilinq aşağı salındı. 1923-cü ilin dekabrında İngiltərə fəhlələrinin əmək haqqı müharibədən əvvəlki səviyyənin 67%-ni, həyat səviyyəsinin 77%-ni təşkil edirdi.

Birinci dünya müharibəsindən sonra İngiltərədə işsizlik ölkənin bütün tarixi ərzində ən yüksək həddə çatdı. Bu hadisə 1921-ci ilin sonunda işsizlər hərəkatının Milli Komitəsinin yaranmasına gətirib çıxartdı. Bununla bərabər şaxtaçılar tərəfindən 1923-cü ildə «Azlıqlar hərəkatı» deyilən təşkilat da meydana gəldi.

Birinci dünya müharibəisndə sonrakı illərdə müstəmləkə və asılı ölkələrdə İngiltərə ağalığının böhranı başlandı ki, bu da müharibənin ölkə üçün nəticələrindən biri idi. 1919-1921-ci illərdə İrlandiyada baş vermiş hadisələr İngiltərə müstəmləkə sistemi böhranının ən parlaq təzahürü oldu. 1918-ci ildə İngiltərədə qüvvədə olan qanuna görə İngiltərə parlamentində İrlandiyanın 105 deputat yeri vardır. 1918-ci ilin dekabrında keçirilən parlament sekilərində 105 yerdən 73-nü İrlandiyanın tam azadlığı və İrlandiya respublikası yaratmaq uğrunda mübarizə aparan burjua-millətçi şinfeynlər partiyası tutdu. Onlar İngiltərə parlamentində iclas etməkdən boyun qaçırdılar. Onlar 1919-cu il yanvarın 21-də Dublin şəhər bələdiyyə idarəsinin binasında toplaşaraq İrlandiya parlamentini təşkil etdilər. Bu parlament İrlandiyanı «suveren və müstəqil dövlət» elan etdi və İrlandiya respublikasının qurulduğunu bildirdi. Şinfeynlər



partiyasının rəhbərlərindən biri olan De Valera respublikanın prezidenti seçildi. Şinfeynerlər İrlandiya xalqının yardımına və silahlı könüllü dəstələrindən ibarət olan «İrlandiya respublika ordusu»na arxalanaraq, ölkədə öz dövlət aparatlarını – yerli hakimiyyət orqanlarını, məhkəmələri, polis və s. təşkil etməyə başladılar.

İngiltərə hakimiyyət orqanlarının şinfeynerlərin yaratdıqları dövlət aparatını zorla ləğv etmək təşəbbüsləri silahlı müqavimətə rast gəldi. Lloyd Corc hökuməti güzəştə getmək məcburiyyətində qaldı. 1921-ci il dekabrın 26-da İngiltərə hökuməti ilə şinfeynerlər arasında müqavilə bağlanda. Bu müqaviləyə görə, İrlandiyanın cənub hissəsi - 26 qraflıq «Azad İrlandiya dövləti» elan edildi və dominion hüququ aldı. Sənayenin inkişaf etdiyi Şimali İrlandiya – 6 qraflıq – İngiltərənin tərkibində qaldı. Müqavilə İngiltərənin İrlandiya ərazisində ingilis hərbi-dəniz bazalarının saxlanılmasını, ingilis qoşunlarının olmasını və İrlandiya xarici siyasəti üzərində ingilis nəzarətinin qoşulmasını nəzərdə tuturdu.

1921-ci il müqaviləsini Qriffits başda olmaqla şinfeynlərin ancaq bir hissəsi qəbul etdi. Şinfeynlərin De Valeranın başçılıq etdiyi və İrlandiyanın tam azadlığını tələb edən ən çox radikal cinahı isə müqaviləni qəbul etməkdən imtina etdi. Bundan sonra əmələ gəlmiş təfriqə nəticəsində «Azad İrlandiya dövləti»nin prezidenti Qriffits, baş naziri isə Mayel Kolina oldular. Sağ şinfeynlər İngiltərə hökuməti ilə sazişə girərək onlara qarşı qəddarcasına mübarizəyə başladılar. Belə olduqda De Balera və onun tərəfdarları gizli fəaliyyətə keçdilər. Ölkədə qızğın vətəndaş müharibəsi başlandı və 1923-cü ilin yazında De Balera «atəşin dayandırılması» haqqında bəyənat verənə qədər davam etdi.

İngiltərə-İrlandiya müharibəsi ilə bir zamanda İngiltərənin ən böyük və ən zəngin müstəmləkəsi olan Hinidstanda da ingilis müstəmləkəçilərinə qarşı qızğın milli-azadlıq hərəkatı genişləndi. Birinci dünya müharibəsi illərində Hindistanın sənayesi artmış, fəhlə sinfinin sayı çoxalmışdı. Həm də müharibə Hindistan zəhmətkeşlərinin vəziyyətinin xeyli pisləşməsinə səbəb olmuşdu. Ağır vergilər və kənd təsərrüfatı məhsullarının məcburi surətdə təhvil verilməsi üzündən kəndli əhalisinin çoxu var-yoxdan çıxmışdı. Sənayedə iş günü çox uzun – 14-15 saat, əmək haqqı isə aşağı idi. Hindistanın milli-azadlıq hərəkatına Rusiyadakı oktyabr çevrilişi böyük təsir göstərmişdi. Bundan təşvişə düşən İngiltərə hökuməti

bəzi islahatlar vəd etdi. 1919-cu ildə xalqın inqilabi mübarizəsinə mane olmaq üçün İngiltərə hökuməti bu müstəmləkələri idarə etmək üçün islahatlar layihəsi ilə çıxış etdi. Ölkədə yenə müstəmləkəçilik inzibati idarəsi hakim mövqeyini saxladığı üçün xalq bu layihədən narazı qaldı. Bu zaman Hindistandakı ingilis hökumət orqanları azadlıq hərəkatını amansızcasına yatırmağa başladılar. Bu özünü 1919-cu ilin aprelində Amritsarda baş vermiş üsyanın amansızcasına ingilislər tərəfindən yatırılmasıda bir daha göstərdi. Bu üsyan zamanı hindlilər Pəncab və digər əyalətləri tutub ingilis mallarını almaqdan imtina edib baykot taktikası yeridərək mübarizəni 1921-ci ilə qədər davam etdirsələr də, yenə də məğlub oldular.

Hindistan Milli Konqress partiyasının rəhbərləri kütləvi hərəkatı ingilis hakimiyyət orqanlarına passiv, zor işlətmədən müqavimət göstərmək çərçivəsində saxlamaq üçün var qüvvələri ilə səy göstərirdilər. Bütün bunların nəticəsində azadlıq hərəkatı bir qədər zəiflədi.

İngiltərənin müstəmləkə ağalığı Misirdə də, çox kəskin böhran yaratdı. Zəhmətkeş kütlələrin müharibə nəticəsində daha da dərinləşmiş olan ağır vəziyyəti Misir xalqının azadlıq hərəkatını gücləndirmişdi. Misirlilərin başlıca tələbi ölkənin tamamilə injilislərin ağalığından azad edilməsi idi. Nümayişlər, tətillər, polis ilə toqquşmalar 1919-cu ildə böyüyüb həm şəhər əhalisinin, həm də kəndlilərin iştirak etdikləri silahlı mübarizəyə çevrildi. İngilis müstəmləkəçiləri çıxışları yatırdılar, lakin 1921-ci ilin dekabrında Misir xalqı yenidən üsyan qaldırdı. Misir xalqının inadlı mübarizəsi İngiltərə hökumətini bəzi güzəştlərə getməyə məcbur etdi. O, 1922-ci il fevralın 28-də Misir üzərində ingilis protoktorluğunun ləğv edildiyini bildirdi və Misiri «müstəqil krallıq» elan etdi. Bununla birilkdə İngiltərə hökuməti bildirdi ki, Misirin ingilis qoşunları tərəfindən işğalı davam etdiriləcəkdir. Tam istiqlaliyyət əldə etməyə çalışan Misir xalqı öz ölkəsini ingilis müstəmləkəçilərindən azad etmək uğrunda mübarizəni davam etdirirdi.

Müharibədən sonrakı illərdə İngiltərənin xarici siyasəti bir-birinin ardınca uğursuzluğa düçar olurdu. Bunun əsas səbəbi isə ilk növbədə onunla əlaqədar idi ki, ölkədə xarici siyasətə başçılıq edənlər kifayət qədər təcrübəli və enerjili deyildilər. İngiltərənin xarici siyasətində müharibədən sonrakı ilk dövrdə xarici siyasətdə böhran ən çox Yaxın və Orta Şərqə münasibətdə özünü göstərirdi.



Əfqanıstan bildiyimiz kimi, 1878-1880-ci illər ikinci ingilis-əfqan müharibəsindən sonra əslində İngiltərəyə tabe vəziyyətdə idi. 1919-cu ilin fevralında İngiltərənin əlaltısı olan əmir Həbibullaya qarşı üsyan baş verdi.Üsyanın gedişində Həbibulla öldürüldü. Taxta çıxan onun oğlu Amanulla elan etdi ki, Əfqanıstan hökuməti müstəqil və azad olmalıdır. Buna cavab olaraq İngiltərə hökuməti 1919-cu ilin mayında Əfqanıstanda yenidən müharibəyə başladı. Əfqanıstanla müharibə Hindistanda azadlıq mübarizəsi ilə bir vaxtda düşdüyünə görə İngiltərə hökuməti güzəştə getməli oldu. 1919-cu il avqustun 8-də Əfqanıstanla bağlanan sülh müqaviləsinə əsasən İngiltərə Əfqanıstanın daxili və xarici siyasətinə nəzarətdən imtina etdiyini bildirdi.

Oktyabr çevrilişindən dərhal sonra Rusiyanın öz qoşunlarını İrandan çıxarmasından istifadə edən İngiltərə 1919-cu ilin avqustun 9-da İranın baş naziri Vöşüq-əd-Dövlə ilə «müqavilə bağladı ki, həmin müqaviləyə əsasən İran əslində İngiltərənin himayəsinə keçmiş oldu. Müqavilə İngiltərəyə imkan verirdi ki, İranın ordusu, iqtisadiyyatı, maliyyəsi, kömrük sistemi üzərində nəzarəti həyata keçirsin. Tehranda fövqaladə vəziyyət elan edildi. İranın parlamenti müqaviləni təsdiq etməmiş İngiltərə hökuməti onu həyata keçirməyə başladığından bu İran xalqı tərəfindən çox böyük narazılıqla qarşılandı. Belə olduqda İran məclisi müqaviləni təsdiq etmədi və ondan imtina etdiyini bildirdi.

İngiltərənin xarici siyasətində ən böyük məğlubiyyət Türkiyəyə münasibətində oldu. İngiltərə hökuməti belə güman» edirdi ki, Yaxın Şərqdəki Türkiyə mülklərini ələ keçirməklə strateji cəhətdən əlverişli, təbii sərvətlərlə zəngin yerlər onun sərəncamında olacaqdır. O, Türkiyənin hesabına imperiyasını yaratmaq fikrində idi. Həmçinin İngiltərə Türkiyənin ərəb mülklərindən başqa onun öz ərazisinin də parçalanması tərəfdarı idi. Lakin türk xalqı bununla barışmaq istəməyərək Kamal Atatürkün başçılığı altında azadlıq müharibəsinə qalxdı və ingilis-yunan müdaxiləçilərini ölkədən qovdu. Bununla da, Sevr müqaviləsi qüvvədən düşmüş oldu.

İngiltərənin xarici siyasəti Uzaq Şərqdə də ciddi çətinliklərlə üzləşdi ki, bünün da əsas səbəbi müharibədən sonrakı dövrdə Uzaq Şərqdə İngiltərə ilə Yaponiya, İngiltərə ilə ABŞ və ABŞ-la Yaponiya arasında zididyyətlərin kəskinləşməsi ilə əlaqədar idi.

Birinci dünya müharibəsi illərində İngiltərə və ABŞ əsas diqqətlərini Almaniya ilə mübarizəyə sərf etmişdilər və müttəfiq idilər. Bu vəziyyətdən istifadə edən Yaponiya Çində bir sıra yeni ərazilər əldə etdi və Sakit okeanda mövqeyini gcüləndirdi ki, bu da iNgiltərə və ABŞ-ın maraqlarına zərbə vurmaq demək idi. 1919-cu ildə İngiltərə dünyada ən güclü hərbi-dəniz donanmasına malik idi. Onun sərəncamında 2309 min s. sututumuna malik olan 737 gəmi var idi, yaponiyanın sərəncamında isə 820 min m. su tutumu olan 192 gəmi var idi. Lakin müharibədən az sonra bu vəziyyət dəyişdi. Belə ki, müharibədən sonra ABŞ və Yaponiya böyük miqyasda hərbi-dəniz quruculuğuna başladılar. İngiltərə də müharibədən sonra ağır iqtisadi vəziyyətinə baxmayaraq dənizdə əvvəlki hökmranlığını saxlamağa çalışırdı. Belə bir şəraitdə 1921-ci ilin noyabrın 12-də Vaşinqtonda Uzaq Şərq və dənizdə silahlanma probleminə həsr edilmiş konfrans çağrıldı. Konfransda ABŞ, Britaniya imperiyası, Yaponiya, Fransa, İtaliya, Belçika, Hollandiya, Portuqaliya, Çin nümayəndələri iştirak ediridlər.

Hələ konfransa qədər 1902-ci ilə də bağlanmış və 1911-ci ildə möhkəmləndirilmiş ingilis-yapon sazişi bir neçə dəfə müzakirə edildi.Bu saziş təkcə Rusiyaya qarşı deyil, həm də ABŞ-a qarşı çevrildiyi üçün ABŞ hər vəchlə bu sazişin ləğv edilməsinə çalışırdı. ABŞ bildirirdi ki, əgər İngiltərə bu sazişin pozulmasına razılıq verməsə, onda müharibə dövründə ona verdiyi borcların dərhal geri qaytarmasını tələb edəcək, İrlandiyanın müstəqililk uğrunda mübarizəsini müdafiə edəcəkdir. Vəziyyətin mürəkkəbliyi onda idi ki, İngiltərənin, dominionları da bu məsələdə ABŞ-ı müdafiə edirdilər. İngiltərəni Uzaq Şərq və Çində müharibə illərində və müharibədən sonrakı ilk illərdə güclənməsi də İngiltərəni güzəştə getməyə məcbur edirdi. Belə ki, birinci dünya müharibəsi ərəfəsində Çin sularında gəmiçiliyin 45%-i İngiltərəyə məxsus idi Çinlə Xarici ticarətin 50%-i də İngiltərənin payına düşürdü. Çinə kapital qoyuluşunun, 607,5 milyon dolları və ya 37,7%-i də İngiltərəyə məxsus idi.

1921-ci ilin dekabrın 23-də Vaşinqtonda 1902-ci il ingilis-yapon sazişini ləğv edən İngiltərə, ABŞ, Yaponiya və Fransanın iştirakı ilə «dörd dövlət» sazişi bağlandı. İngiltərə 1922-ci ilin fevralında «beş dövlət» sazişinə qol çəkməklə, ABŞ-a dəniz qüvvələrinin bərabərləşdirilməsində güzəştə getmiş oldu və dəniz



hökmranlığından yavaş-yavaş geri çəkilməyə başlamış oldu. Çinə dair başlanmış «doqquz dövlət»i müqaviləsini imzalamaqla İngiltərə əslində Çində öz hegemon mövqeyeni ABŞ-a güzüştə getmiş oldu İngiltərə həmçinin Veyxoveyi limanını da Çinə qaytardı.

Bu dövrün ən mühüm xarici siyasət problemlərindən biri də İngiltərənin Sovet Rusiyası ilə münasibətləri problemi idi. Belə ki, Antantanın üç hücumunun Sovet Rusiyasında məğlubiyyətlə nəticələnməsi İngiltərə hakim dairələrini, artıq dinc vasitələrlə Sovet Rusiyasını məhv etmək planı haqqında düşünməyə vadar etdi. İngiltərə ilk növbədə Sovet Rusiyası ilə ticarət əlaqələrini bərpa etməyə çalışırdı. Bunun səbəbləri isə, İngiltərədəki iqtisadi böhran, ingilis mallarının satılması üçün Rusiya bazarının əlverişli olması, digər tərəfdən isə İngiltərənin özünün bir sıra malları, xüsusilə, meşə materialları və buğda almaqda maraqlı olması idi. Həmçinin İngiltərənin fəhlə sinfi də Sovet Rusiyası ilə münasibətləri normal məcrada qurmağı öz hökumətlərindən tələb edirdilər. Bütün bu amilləri nəzrə alan Lloyd Corc hökuməti sovet nümayəndə heyəti ilə ticarət sazişi bağlamaq üçün danışıqlar aparmağa başladı. Onu da qeyd etmək lazımdır ki, İngiltərənin hərbi naziri Çörçill və xarici işlər naziri Kerzon Sovet Rusiyası ilə ticarət danışıqlarının qəti əleyhinə idilər. Onlar Sovet Rusiyası ilə danışıqların kəsilməsini və hərbi yolla onunla mübarizənin davam etdirilməsini tələb edirdilər. Lakin bütün bunlara baxmayaraq mühafizəkarların əksəriyyətinin koalisin hökumətdə Lloyd Corcu müdafiə etməsi nəticəsində 1921-ci ilin martın 16-da İngiltərə ilə Sovet Rusiyası arasında ticarət sazişi bağlanmış oldu.

İngiltərə ilə Sovet Rusiyası arasında bu sazişdən sonra ticarət əlaqələri bərpa edilmiş oldu, əslində bu yarı ticarət, yarı siyasi bir saziş idi. Bu sazişlə İngiltərə SSRİ-ni de-fakto tanmımış oldu. İngiltərə sovet sazişinin bağlanması əslində heç də o demək deyildir ki, İngiltərə mövcud vəziyyətlə barışmışdır və Rusiyada kapitalizmi bərpa etmək fikrindən əl çəkmişdir. İngiltərənin Rusiyaya qarşı siyasəti yenə də sovet hakimiyyətinin yıxmağa yönəldilmiş düşmənçilik siyasəti idi. Təkcə Sovet Rusiyası ilə danışıqların əleyhinə olan Çörçill deyil, Sovet Rusiyası ilə ticarət sazişi bağlamaq tərəfdarı olan Lloyd Corc da Sovet hakimiyyətinin düşməni idi. Fərq bunda idi ki, Çörçill bunu silahlı yolla, Lloyd Corc isə iqtisadi təzyiq yolu ilə həll etmək istəyirdi. Lloyd Corc belə hesab edirdi ki, iqtisadi

yolla Rusiya bazarını və xammal ehtiyatlarını ingilis inhisarlarının maraqlarına tabe etdirə bilər. Hələ 1913-cü ildə Rusiyanın bazarında birinci yer Almaniyaya, ikinci yer isə İngiltərəyə məxsus idi. 1922-ci ildə çağrılmış Genuya konfransının əsas təşkilatçılarından və iştirakçılarından biri olan İngiltərənin Rusiyadan alınacaq pullar hesabına iqtisadi böhrandan çıxmaq ümidi də puca çıxdı. Rusiya ona qarşı irəli sürülmüş iddiaya qarşı əks iddia ilə çıxış etdi, bu isə Antanta dövlətlərinin heç bir şeyə nail olmamasına gətirib çıxardı.

Lloyd Corcun Genuya konfransında öz planını həyata keçirə bilməməsi koalision hökumətdə bir ümidsizlik yaratdı. 1922-ci ilə yaxın fəhlə hərəkatının zəifləməsi müşahidə edilməyə başladı. Koalisiyanın aparıcı qüvvələri arasında, yəni mühafizəkarlar arasında, koalisiyanın gələcək taleyi məsələsində ciddi fikir ayrılığı meydana çıxdı. Mühafizəkarlar pariyasının lideri Ostin Çamberlen, hansı ki, koalision hökumətdə baş nazirin müavini vəzifəsini daşıyırdı, belə hesab edirdi ki, ölkədə siyasi vəziyyətin qeyri-sabitliyi tələb edir ki, liberallarla koalisiya gələcəkdə də saxlanılsın.

Onu mühafizəkarlar partiyasından olan Balfur və başqaları müdafiə edirdilər. Çemberlen belə hesab edirdi ki, leyboristlər partiyasına qarşı vahid burjua partiyaları cəhbəsini saxlamaq lazımdır. O, belə hesab edirdi ki, leyborist partiyasının hakimiyyətə gəlməsinə imkan verməк lazım deyildir. Mühafizəkarlardan Boldinin və Bonar Lou başda olmaqla başqa bir hissəsi isə belə hesab edirdi ki, koalisiyanı parçalamaq lazımdır. Onların fikrincə, koalisiyanın saxlanılması mühafizəkarlar partiyasının özündə birliyin pozulmasına səbəb ola bilər, liberallar partiyasının kədərli taleyi onun da başına gələ bilər. Onlar ənənəvi ingilis praktikası olan bir partiyalı sistemə qayıtmağı lazım bilirdilər.

Bu dövrdə İngiltərə burjuaziyasının əhəmiyyətli hissəsində Lloyd-Corc hökumətinin yeritdiyi daxili və xarici siyasətlə əlaqədar olaraq narazılıq var idi. Fəhlə hərəkatının yüksəlişi zamanı Lloyd-Corc hökumətinin fəhlələr bir sıra güzəştlərə getməsinə burjua dairələri mane olmalıdılar. Lakin fəhlə hərəkatının vüsətinin aşağı düşdüyü dövrdə onlar bu güzəştlərdən narazı olduqlarını bildirirdilər və bunun üçün məsuliyyəti Lloyd Corcun üzərinə qoydular. Onlar Lloyd Corcu 1918-ci ildə yeni seçki qanunu verməkdə, tərxis olunmuş əsgərlərə, işini itirmiş hərbi zavodların fəhlələrinə əlavə vəsait ayırmaqda, işçizlərə müavinat verməkdə, mənzil quruculuğunu



genişləndirməkdə, Hindistanda islahat keçirməkdə, İrlandiyaya dominion hüququ verməkdə, Uzaq və Yaxın Şərqdə, xüsusilə «rus məsələsində» İngiltərənin xarici siyasətinin uğursuzluğa düçar olmasında günahlandırırdılar».

1922-ci ilin sonunda ingilis liberalizmi tam iflasa uğradı. İngiltərə zəhmətkeşlərinin çoxuna artıq aydın oldu ki, Lloyd Corcla mühafizəkarlarla arasında əslində heç bir prinsipial fərq yoxdur. Lloyd Corcun koalisiyalı mühafizəkar – liberallar hökuməti liberalların mühüm rol oynadıqları sonuncu ingilis hökuməti oldu. 1922-ci ilin sonunda mühafizəkar liberalların koalisiyasının taleyi həll olunmuş oldu.

1922-ci ilin oktyabrın 19-da Karlton klubunda mühafizəkarların sonuncu iclası oldu və bu yığıncaqda Bolduin liberallarla koalisiyanın parçalanması təklifi ilə çıxış etdi. Boldunini Bonar-Lou müdafiə etdi. Təklifə 187 lehinə, 87 səs əleyhinə səs verildi. Elə həmin gün Lloyd Corc baş nazir vəzifəsindən istefa verdi.

Bonar-Lou yenidən siyasi həyata qayıdaraq 1922-ci il oktyabrın 24-də ancaq mühafizəkarlardan ibarət hökumət təşkil etdi. Bu hökumətdə Stenli Bolduin başlıca rol oynayaraq maliyyə naziri vəzifəsini tutdu. Bolduin İngiltərənin ağır sənaye nümanyədələrindən biri idi, iri poladəritmə firmalarının sahibi idi. Xarici işlər naziri vəzifəsini Kerzon tutdu.

Bonar-Lon hökuməti parlamenti buraxdı və 1922-ci il noyabrın 15-də yeni sekilər təiyn etdi. Bu seçkilərdə mühafizəkarlar 344 yer olaraq qələbə qazandılar. Leyboristlərin əldə etdiyi səslərin sayı bu seçkilərdə xeyli çoxaldı. Belə ki, əgər keçən seçkilərdə onlar 59 yer almışdılarsa, bu seçkilərdə 142 yer aldılar. Liberallar partiyasının Lloyd Corcun başçılıq etdiyi qanadı 57 namizəd, Askvitin başçılıq etdiyi qruppu isə 60 namizəd keçirə bildi. Müxtəlif partiya və qruplar isə 16 namizəd keçirdilər.

1922-ci il seçkilərinin ən mühüm nəticələrindən biri leyboristlər partiyasına verilən səslərin təxminən 2 (iki) dəfə artması və bu partiyanın parlamentdə ikinci yeri tutması idi. Bonar-Lou-Bolduin hökuməti bir ildən bir qədər artıq - 1924-cü ilin yavarına qədər yaşadı. Xarici siyasət sahəsində mühafizəkarlar hökuməti əvvəlki hökumətin xarici siyasətini davam etdirirdi. Avropada Fransanın hegemon olmasından ehtiyat edərək Fransanın mövqeyini zəiflətməyə çalışırdı. O, Rur böhranın Fransanın məğlubiyyəti ilə

nəticələnməsinə səy edənlərdən biri idi. Bu dövrdə İngiltərə ilə ABŞ arasında da münasibətlər gərgin idi. Müharibə borclarının İngiltərə üçün çox ağır olan şərtlərlə ödənilməsinin ABŞ-ın tələb etməsi Bonor-Lou hökumətinin ABŞ-la münastbətlərini daha da çətinlişdirirdi. 1923-cü ilin fevralında Bolduin Vaşinqtonda ABŞ ilə İngiltərənin ABŞ-la olan borclarını 30% azaldan, İngiltərəni qalan brcları 62 il müddətinə ödəməyə məcbur edən sazişi imzalamağa məcbur oldu.

1922-ci ilin sonunda SSRİ-nin təşkil edilməsi böyük beynəlxalq əhəmiyyət kəsb edirdi. Çünki bu sovet hakimiyyətinin gələcəkdə daha da möhkəmlənməsi təhlükəsini doğururdu. Bundan narahat olan dövlətlərdən birincisi isə İngiltərə idi. Mühafizəkarlar hökuməti İngiltərəyə qarşı düşmənçilik siyasətini davam etdirirdi. İngiltərənin xarici işlər naziri Kerzon tərəfindən 1923-cü ilin may ayının 8-də Sovet hökumətinə belə bir ultimatum təqdim edildi ki, SSRİ İranda və Əfqanıstanda Böyük Britaniya əleyhinə təbliğatı dayandırsın, bu ölkələrdən öz nümayəndələrini geri çağırsın, həmçinin ingilis casus Levisonun və ingilis agenti Hardinqin güllələnməsi ilə əlaqədar kompensasiya ödəsin. Kerzon həmçinin ona da nail oldu ki, Sovet orqanları tərəfindən tutulmuş balıqçı gəmiləri buraxılsın və onların tutulub saxlanması ilə əlaqədar sovet hökuməti kompensasiya ödəsin. İngiltərə hökuməti bildirirdi ki, bu tələblər 10 gün ərzində yerinə yetirilməzsə, onda 1921-ci il sovet-ingilis ticarət sazişi pozulacaqdır.

Bütün bunlar əslində sovet hökumətinə yeni müdaxilə təşkil etmək üçün göstərilən təşəbbüs idi. İngiltərə zəhmətkeşlərinin yekdil etirazı nəticəisndə İngiltərə hökumətinin planları iflasa uğramış oldu. Bu hadisədən sonra may ayının 21-də Bonar-Loy baş nazir vəzifəsindən istefa verdi. Onun yerini Stenli Bolduin tutdu.

Bonar-Lou-Bolduin hökumətinin daxili siyasət sahəsində tədbirləri və fəaliyyəti İngiltərə iqtisadiyyatını düşmüş olduğu durğunluqdan çıxarmaq üçün çıxış yolu axtarmaqdan ibarət oldu. Bu məqsədə hökumət müxtəlif tədbirlər qəbul etdi ki, bunlardan da ən mühümü proteksionizm siyasətinə keçirilməsi idi. Ümumiyyətlə, bu İngiltərədə mühafizəkarlar partiyasının ənənvi siyasəti idi. Bu isə ilk növbədə ixracı artırmağı, İngiltərəyə idxalı azaltmağı nəzərdə tutan bir siyasət idi. Lakin bu siyasət də sənayenin canlanmasına, durğunluğun aradan qaldırılmasına ən başlıcası, işsizliyin aradan



qaldırılmasına gətirib çıxartmadı. Hətta 1923-cü ildə digər kapitalist ölkələrində olduğu kimi, İngiltərədə də iqtisadi böhranın qurtarmasına baxmayaraq, İngiltərənin sığortalanmış fəhlələrinin 11,7%-nin işi yox idi.

1923-cü ilin sonunda Bolduin hökuməti belə hesab etdi ki, proteksioniz siyasətini davam etdirmək üçün ən yaxşı vasitə, parlamenti buraxmaq və yeni seçkilər təyin etməkdir. Onlar buna İngiltərə burjuaziyasını və İngiltərə iqitsadiyyatını xilas etməyin yeganə yolu kimi baxırdılar və özlərinin seçkilərdə qələbə qazanacaqlarına tam əmin idilər. Ona görə də Bolduin parlamenti buraxdı və 1923-cü il dekabrın 6-da yeni seçkilər təyin etdi. Seçkilər mühafizəkarlara məğlubiyyət gətirdi. Onlar yeni parlamentdə 259 yer aldılar, liberallar 155, leyboristlər isə 191 yer aldılar. Mühafizəkarların seçkilərdə məğlubiyyəti onların apardığı uğursuz daxili və xarici siyasətin nəticəsi idi.

## Ingiltərə kapitalizmin nisbi sabitləşməsi dövründə (1924-1929-cu illər)

1924-cü ilə yaxın kapitalizmin nisbi sabitləşməsi dövrü başlandı.İqtisadiyyat sahəsində kapitalizmin sabitləşləsi özünü onda göstərdi ki, müharibədən sonrakı ilk illərdə başlanmış istehsal, ticarət, maliyyə böhranından kapitalizm dünyası çıxmağı bacardı.

Ticarət və istehsal sahəsində kapitalist ölkələri 1913-cü il səviyyəsinə yaxınlaşdılar. Kapitalizmin sabitləşməsi prosesində həlledici rol ABŞ-a məxsus idi. Əgər əvvəllər dünyanın maliyyə cəhətdən istismarında İngiltərə, Fransa, Alimaniya əsas rol oynayırdılarsa, müharibədən sonra dünyanın maliyyə mərkəzi ABŞ oldu. Avropada kapitalizmin sabitləşməsində ABŞ kapitalizminin köməyi müəyyən dərəcədə rol oynadı. Bu isə nəticədə ona səbəb oldu ki, ABŞ-ın Qərbi Avropaya aid problemlərin həllinə təsiri gücləndi.

Kapitalist ölkələrinin, o cümlədən İngiltrənin daxili vəziyyəti bu dövrdə bir qədər möhkəmləndi. Avropa inqilabi vəziyyətdən çıxdı.

Beynəlxalq münasibətlər sahəsində kapitalizsin sabitləşməsi özünü Almaniyaya aid təzminat məsələsində ABŞ, İngiltərə və Fransanın dil tapmağı bacarmasında göstərdi. Həmçinin müstəmləkə

xalqlarının istismarı prosesində də həmrəy ola bildilər. Onların hər üçü, məsələn Çində öz nüfuz dairələrini möhkəmləndirdilər.

Lakin kapitalizsin sabitləşməsi möhkəm deyildi. Sabitləşmə illərində kapitalist ölkələrinin öz daxilində və kapitalist dövlətləri arasında ziddiyyətlər kəskinləşdi. Həmçinin bu dövrdə metropoliyalarla müstəmləkələr arasındakı ziddiyyətlər də gücləndi. Bu dövrdə birinci dünya müharibəsindən qalib və məğlub çıxmış dövlətlər arasındakı ziddiyyətlər də kəsiknləşdi.

Müharibədən sonrakı ilk onillikdə İngiltərənin hakim dairələri belə hesab edirdilər ki, İngiltərənin iqtisadiyyatının bərpasına nail olmaq üçün ən yaxşı vasitə ingilis valyutasının, yəni funt-sterlinqin beynəlxalq vəziyyətini möhkəmləndirməkdir. Ona görə də müharibədən sonrakı illərdə İngiltərənin iqtisadi siyasətinin əsasını funt-sternlinqin müharibəyə qədərki paritetini bərpa etmək tuturdu.

Müharibə nəticəsində baş verən iqtisadi böhran kapitalist ölkələrinin valyutasına da təsir göstərdi. Müharibə dövründə İngiltərə məcbur oldu ki, funt-sterlinqin qızıl paritetindən imtina etsin. 1920-ci ilin əvvəllərində funt-sterlinqin kursu müharibəyə qədərki kursun 67,8%-ni təşkil edir. Funt-sterlinqin dəyərinin aşağı düşməsi ölkənin maliyyə dairələrin mənafeyinə ciddi zərər vururdu. Eyni zamanda bu İngiltərənin beynəlxalq aləmdə maliyyə vəziyyətini pisləşdirir, dünyanın maliyyə cəhətdən istismarında iştirakını azaldırdı. Funt-sterlinqin stabilləşməsi İngiltərə büdcəsinin tarazlaşması üçün də vacib idi. Bu dövrdə əhalidən alınan vergilər artırıldı. 1924-1925-ci ilin mayında İngiltərədə əhalidən alınan gəlir vergisi 3,5 dəfə artırıldı. Həmçinin sosial xərclər üçün ayrılmış vəsait də xeyli ixtisar edildi. İlk növbədə səhiyyə, maarif, pensiyalara çəkilən xərclər nəzərə çarpacaq dərəcədə ixtisar edildi.

1925-ci ilin aprelində İngiltərə hökuməti funt-sterlinqin qızıl paritetini bərpa etdi ki, nəticədə bir funt-sterlinq 4,86 dollara bərabər oldu. Bu hadisə İngiltərənin maliyyə dairələrinin mənafeyinə cavab vermiş oldu. Onların xaricə kapital qoyuluşundan, istiqrazlardan, qiymətli kağızlardan əldə etdikləri gəlirlər xeyli artdı. Lakin bu siyasətin yeridilməsi nəticəsində İngiltərənin xarici ticarəti və sənayesi əvvəlkinə nisbətən daha ciddi problemlərlə qarşılaşmalı oldu. 1925-ci ildə keçirilən maliyyə islahatı dünya bazarında ingilis mallarının qiymətinin 12% artmasına səbəb oldu ki, bu da onun satılmasını çətinləşdirirdi. İngiltərənin məşhur burjua iqtisadçısı



Keyns bununla əlaqədar yazırdı ki, əgər 1924-cü ilin iyununda Braziliyaya İngiltərə kömrünü ABŞ kömüründən 45 sent ucuz satmaq mümkün idisə, artıq 1925-ci ilin ABŞ kömürü ingilis kömüründən 63 sent ucuz idi. Eyni vəziyyəti Cənubi Amerikanın bütün ölkələrinə, Kanadaya da aid etmək olardı. İngiltərə maliyyəsinin sabitləşməsi möhkəm deyidir və müvəqqəti xarakter daşıyırdı. 1929-cu ildə əgər İngiltərənin dövlət xərcləri müharibədən əvvəlki dövrə nisbətən 320% artmışdırsa, milli gəlir isə cəmi 80% artmışdı. Maliyyə vəziyyətinin qeyri-sabitliyini təsdiqləyən faktlardan biri də dövlət xərclərinin əsas hissəsinin bu dövrdə silahlanmaya sərf edilməsi idi. Polis aparatında işləyənlərin sayı artırılmışdı. Həmçinin dövlət borcları üzrə faizlər də getdikcə artırdı. 1913-cü illə müqayisədə İngiltərənin hərbi xərcləri 1929-cu ildə 2 dəfə artaraq 77 milyondan 166 milyona çatmışdı. Dövlət borclarının ödənilməsi bu dövrdə 15 dəfə artaraq 24,5 milyon funt-sterlinqdən 369 milyon funt-sterlinqə çatmışdı. Bu fakt həmin dövrdə İngiltərənin maliyyə vəziyyətinin sabit olmadığını göstərirdi.

Kapitalizmin nisbi sabitləşməsi dövründə İngiltərə iqtisadiyyatı üçün xarakterik olan cəhətlərdən biri istehsalın və kapitalın mərkəzləşməsi, təmərküzləşməsi iri inhisar birliklərinin təşkili idi. Başqa ölkələrin iri inhşisar birlikləri ilə rəqabətə davam gətirmək üçün İngiltərə burjuaziyası köhnə trestləri, kartelləri, konsernləri böyüdür, yeniləşdirir, yenilərini təşkil edirdi. Həmçinin çalışırdı ki, beynəlxalq bazarda ingilis mallarının rəqabət qabiliyyətini artırsın, müvəffəqiyyətlə rəqabət mübarizəsi aparmağı bacarsın.

1926-cı ildə İngiltərədə dörd iri konserni birləşdirən iri inhisar birliyi təşkil edildi ki, bu da «İmperiya kimya tresti» adlandı. Bu trest əvvəl öz əməliyyatlarına 42 milyon funt-sterlinqlə başladı. Bu qüdrətli trest İngiltərənin ancaq kimya məhsulları istehsalına deyil, həmçinin digər məhsullar istehsal edən onlarla kompaniyaların fəaliyyətini də öz nəzarəti altına aldı. Kimyadan başqa bu trest ingiltərinin mis və nikelinin istehsalına da nəzarət edirdi. Həmçinin elektrik, polad və hərbi sənayeni də lazım olan materilalarla təchiz etməkdə bu şirkət xüsusi rola malik idi. Kimya tresti kömür kombinatları ilə sıx əlaqə saxlayırdı. Bu trestin fəaliyyəti İngiltərənin sərhədlərindən çox kənara çıxırdı. Kanada, Cənubi Afrika və Avstraliyada o əməliyyat apırırdı, ABŞ-da mator, kimya məhsulları

və süni ipək üzrə iri müəsisələr ona məxsus idi. Kimya tresti Almaniyanın kimya sənayesi ilə sıx əlaqə saxlayırdı. Trest Yuqoslaviya, Çili, Malayziya və Çində güclü təsirə malik idi.

Sabitləşmə illərində ərzaq məhsullarının istehsalı və satışı üzrə «Unilever» inhisarı meydana çıxdı ki, o özündə 400 konsern birləşdirərək və Yer kürəsinin bütün nöqtələrində, demək olar ki, öz təsirlərinin yaymağı bacarmışdılar. «Unilever» kompaniyasının fəaliyyətinə ingilislərdən leverlər, hollandlardan yurqener və vandenberqlər, almanlardan şixtlər nəzarət edirdi.

Həmçinin bu dövrdə Mərkəzi İngiltərənin kömür sənayeçilərini birləşdirən «Dörd qraflığın sxemi» birliyi təşkil edilmişdi. Eyni zamanda buna oxşar İrlandiya və Cənubi Uelsdə də birilklər təşkil edildi.

İngiltərə metallurjiya sənayesinin mərkəzləşməsi nəticəsində dəmir və poladın 70%-inin 20 iri firmanın əlində mərkəzləşməsinə nail oldu. 1929-cu ildə «Alşed İron Finderk» kompaniyası təşkil edildi ki, bu da tikinti sənayesi üçün metal istehsalı ilə məşğul olurdu.

Həmçinin toxuculuq, spiçka, spirtli içkilər sənayesi üzrə də iri inhisar birlikləri yarandı. Bu isə İngiltərədə avtomobil sənayesi üzrə mərkəzləşmiş firmaların sayının azalmasına səbəb oldu. Belə ki, əgər 1920-ci ildə ölkədə 90 avtomobil firması fəaliyyət göstərirdisə, 1929-cu ildə bunların sayı 41-ə endi. Bununla belə avtomobil sənayesi məhsullarının sayı bu dövrdə bir neçə dəfə artdı.

İqtisadiyyatda gedən bu mərkəzləşmə İngiltərə zəhmətkeşlərinin həyat səviyyəsinə də öz təsirini göstərməyə bilməzdi. Belə ki, bu dövrdə zəhmətkeşlərin həyat səviyyəsi xeyli aşağı düşdü. Digər tərəfdən bu dövrdə kapital qüvvələrinin iqitsadi və siyasi cəhətdən mərkəzləşməsi dövlətin diqqətini daha çox özünə cəlb etdiyinə görə, zəhmətkeşlərin iqtisadi və siyasi hüquqları üzərinə hücumlar da genişləndirildi.

Dövlət XX əsrin 20-30-cu illərdə inhisarların mənafeyini nəzərə alaraq vahid energetika sistemi yaratdı və burada bir çox xərclər dövlət tərəfindən ödənilməyə başladı. Dövlət isə bu xərcləri vergilərin artırılması hesabına ödəyirdi.

Ölkənin maliyyə əməliyyatlarına bu dövrdə «Böyük beşlik» adlanan inhisar rəhbərlik edirdi ki, burada da ingilis bankirləri,



İngiltərə bankı və Maliyyə maqnatları öz fəaliyyətlərini birləşdirmişdi.

İngiltərədə hökumətin və inhisarların fəaliyyətinin koordinasiya edilməsi nəticəsində keçmiş nazirlər və dövlət xidmətinin yüksək rütbəli məmurları inhisarlarda rəhbər postlarda əyləşmiş oldular. Mühafizəkarlar hakimiyyətdə olarkən hökumətə daxil olmuş mühafizəkarlar partiyasının bir çox görkəmli xadimləri rəsmən mühafizəkar müxalifətdə olanda da inhisarlara rəhbərlik edirdilər.

İngiltərə kapitalizmin nisbi sabitləşməsi dövründə iqitsadiyyatını inhisarlaşdırmaqla yanaşı dünya bazarında da, öz rəqabət qabiliyyətini yüksəltməyə xüsusi səy göstərirdi. İnhisarlaşma prosesi çoxlu xərc tələb edən bir çox köhnə müəssisələrin iflasına səbəb oldu. Çünki ingilis burjuaziyası belə müəssisələrə xərc qoymaq,onu yeni avadanlıqla təzələməkdənsə, xarici ölkələrə kapital qoymağı və xeyli gəlir götürməyi daha üstün tuturdu. Çünki, İngiltərənin bu dövrdə təkcə öz ərazisindən 109 dəfə çox əraziyə malik müstəmləkələri var idi. Həmçinin bu dövrdə ölkə burjuaziyası bütün ağırlığı zəhmətkeşlərin üzərinə yıxmağa çalışırdı. Mərkəzləşmə işsizliyin sayının artmasına və fəhlə sinfinin müəyyən hissəsinin bayıra atılmasına gətirib çıxartdı. Külli miqdarda işsizlər ordusunun yaranması ölkədə sosial ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarmaya bilməzdi. Bu isə ingilis burjuaziyasının rasionalizasiya prosesini həyata keçirməsinə mane olurdu. Məhz bu baxımdan, İngiltərə bu sahədə ABŞ və Almaniyadan xeyli geridə qalırdı.

İngilis hakim dairələrinin ölkənin iqitsadiyatının düşdüyü ağır vəziyyətdən çıxartmaq üçün keçirdiyi maliyyə islahatları, kapitalı və istehsalı mərkəzləşdirmək siyasəti, zəhmətkeşlərin həyat səviyyəsinin xeyli aşağı səviyyəyə düşməsi, sosial xərcərin ixtisar edilməsi gözlənilən nəticəni vermədi. İngiltərə iqtisadiyyatı sabitləşmə illərində də yerində saymaqda idi. ABŞ-dakı «çiçəklənmə» İngiltərəyə yad idi. Ancaq 1929-cu ildə İngiltərə sənayesi 1913-cü il səviyyəsinə qalxa bildi.

Xarici ticarət də müharibədən əvvəlki səviyyədən yuxarı qalxa bilmədi. Sənayenin əsas sahələri, məsələn, Daş kömür, metallurgiya, gəmiqayırma, toxuculuq, hətta 1929-cu ildə də müharibədən əvvəlki səviyyəyə çatmamışdı. Sənayedə müharibədən əvvəlki səviyyəyə çatmaq ancaq yeni sənaye sahələrinin maşınqayırmanın,

elektromşınqayırmanın, kimyanın, avtomobil və aviasiya sənayesinin inkişafı hesabına mümkün olmuşdu.

İngiltərə iqitsadiyyatı inkişaf tempinə görə sabitləşmə illərində başqa kapitalist ölkələrinin iqitsadiyyatından xeyli geridə qalırdı. Dünya iqtisadiyyatında onun payı xeyli azalmışdı. Əgər 1911-ci ildən 1913-cü ilə qədər İngiltərənin ixracı dünya ixracının 15,2 %-ni təşkil edirdisə, 1920-1928-ci ildə bu rəqəm 12,5 %-ə düşmüşdü.

1913-cü illə müqaiysədə 1926-cı ildə İngiltərədə kömür çıxarılması 17% azalmışdı, halbuki bu dövrdə dünyada kömür çıxarılması 6% artmışdı.

Həmçinin bu dövrdə İngiltərədə çuqun əridilməsi 55% aşağı düşmüş, dünyada isə 12% artmışdı. Həmçinin toxuculuq məhsulları üzrə payı da 39%-dən 34%-ə enmişdi.

İngiltərə istehsal apparatı kapitalizmin nisbi sabitləşməsi illərində bütün gücü ilə işləməyi bacarmadı.

Daş kömür, gəmiqayırma, maşınqayırma sənayelərinin gücü ilə işləyə bilməməsi kütləvi işsizlər ordusunun yaranmasına səbəb olurdu. 1929-cu illərdə işsizlərin sayı, ölkə əhalisinin 10%-ni təşkil edirdi.

Kapitalizmin nisbi sabitləşməsi illərində istehsalda işləyən fəhlələrin sayı azalmağa, qeyri-istehsal sahələrində işləyənləri sayı isə artmağa başladı. 1923-1930-cu illər arasındakı dövrdə kömür sənayesində işləyən fhələlərin sayı 30,8%, toxuculuq sənayesində işləyən fəhlələrin sayı 24,9%, qara metallurgiyada isə 21,2% azaldı. Bu dövrdə əvəzində ticarətdə işləyənlərin sayı 40% mehmanxanalarda işləyənlərin sayı 36% artdı.

Sabitləşmə dövründə İngiltərə kənd təsərrüfatı geridə qalmaqda davam edirdi. Əkin sahələri xeyli ixtisar edildi. Dənli bitkilər əkini sahələri 1923-cü ildə 7171021 akr təşkil edirdisə, bu rəqəm 1929-cu ildə 613744 əkr təşkil edirdi. Nəticə kənd təsərrüfatı məhsullarının istehsalını da xeyli azaltdı. Kənd təsərrüfatı sahibkarlarının sayı əgər 1924-cü ildə 923 805 nəfər idisə, 1929-cu ildə onların sayı 888 286-ya endi. Dövlətin kənd təsərrüfatına köməyi tamamilə hiss edilmirdi.

1924-1929-cu illərdə İngiltərə iqtisadiyyatındakı durğunluq bir daha sübut etdi ki, İngiltərənin hakim dairələrinin kapitalizmin nisbi sabitləşməsi sahəsində gördüyü tədbirlər əslində heç bir səmərəli



nəticə verməmişdir. İngiltərə hakim dairələrinin daxili, xarici və müstəmləkə siyasəti də həmin nəticəni verirdi.

1924-cü ilin başlanğıcına yaxın İngiltərə hakim dairələri son dərəcə fövqaladə mürəkkəb iqitsadi, daxili-siyasi və beynəlxalq problemlər qarşısında durmuş oldular ki, bütün bu problemlər təcili həllini tələb edirdi.

Ölkənin iqitsadi vəziyyəti ağır idi. Xarici ticarət və sənayedəki durğunluq davam edir, işsizlər ordusu artırdı. Fransa qoşunlarının Rur hövzəsini tutması Avropada siyasi vəziyyəti gərginləşdirdi, Avropa iqitsadiyyatının təşkilini pozdu, ingilis-fransız ziddiyyətləri kəskinləçşdi ki, bunun da əsasında Avropada hegemonluq uğrunda mübarizə dayanırdı.

Belə bir mürəkkəb şəraitdə hökumətin təşkili məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. Bununla belə, 1923-cu ildə keçirilən parlament seçkilərinin nəticəsi mühafizəkarların və liberalların möhkəm hökumət təşkil edə biləcəklərinə ümidi azaltdı. Ölkədəki mürəkkəb şərait ölkənin hakim dairələri arasıdakı mübarizəni kəskinləşdirdi. Bu şərait imkan vermədi ki, mühafizəkar və liberallar ya koalisiyanı, ya da birpartiyalı hökumət təşkil etsinlər. Mühafizəkarlar imkan vermək istəmirdilər ki, liberallar Lloyd Corcun başçılığı altında hökumət təşkil etsinlər. Lloyd Corc da həmçinin öz növbəsində razı deyildi ki, mühafizəkarlar birpartiyalı Bolduninin başçılığı altında hökumət təşkil etsinlər. Bundan başqa liberalların tərkibindən çıxmış Askvit də vardır ki, o da çalışırdı ki, özünün rəhbərliyi ilə hökumət təşkil etsin Askvit əslində arzu edirdi ki, hökumət antiproteksianist siyasət yeridən leyborist partiyanın üzvlərindən təşkil edilsin. Leyborist partiyasının üzvləri bu dövrdə artıq özlərinin kapitalizmə sədaqətini sübut etmişdir. Partiyanın lideri Ramsey Makdonald «Tayms» qəzetindəki məqaləsində göstərirdi ki, leyboristlər partiyası İngiltərənin konstitusiya prinsipləri və konstitusiya ənənələrinə sadiq qalan partiyalardan biridir.

1924-cü ilin yanvar ayının 23-də leyborist partiyasının lideri Ramsey Makdonald İngiltərə tarixində ilk dəfə olaraq leyborist hökumətini təşkil etdi. Baş nazir və xarici işlər naziri Makdonald özü oldu. Maliyyə naziri vəzifəsini Filipp Snouden tutdu. Tomas müstəmləkə naziri oldu. Artur Henderson isə daxili işlər naziri vəzifəsini tutdu. Bir qədər leyborist partiyası içərisində «sol» mövqedə dayanan Con Uitli səhiyyə naziri porfelini aldı. Hərbi-dəniz

donanması naziri Celmsford təyin edildi ki, hansı ki, HİnidstanIn keçmiş vitse-kralı idi. Birinci dünya müharibəsinin təşkilatçılarından biri olan vəkil lord Xoldeyn Palmur lordlar palatasının sədri oldu.

Lordlar leyborist hökumətinin tərkibinə ona görə daxil olmuşdular ki, ingilis burjuazisyasını sakitləşdirsinlər ki, bu hökumət fəhlə sinfinin maraqları çərçivəsində fəaliyyət göstərməyəcəkdir. İngilis burjuazisyası on illərlə fəhlə aristokratiyasının və leyborist partiyasının sağ qanadının liderlərini və tred-yunanları burjua ruhunda tərbiyə etmiş və ələ almışdır və bilirdi ki, bu hökumət ancaq onun iradəsini yerinə yetirəcəkdir. İngilis burjuaziyası əmin idi ki, leyborist hökuməti İngiltərə hakim dairələrinin maraqları çərçivəsində fəaliyyət göstərəcək və bu çərçivədən kənara çıxmayacaqdır. Lakin ingilis burjuaziyasının ehtiyat edə biləcəyi bir şey vardırsa, o da fəhlə sinfi tərəfindən leyboristlər hökumətinə təzyiq göstərilməsi təhlükəsi idi. Belə bir təzyiqdən əslində leyboristlərin liderləri də qorxurdu.

İngiltərədə təşkil edilən birinci leyborist hökuməti özündən sonra təşkil edilən leyborist hökumətləri kimi əslində fəhlə hökuməti deyil, burjua hökuməti idi. Leyboristlər hökumət təşkil etdikdən sonra praktik olaraq ilk növbədə seçicilərə verdikləri bir neçə vədi yerinə yetirməli oldular. Daxili siyasətdə onlar vəd etmişdilər ki, daş kömür sənayesini, dəmir yolları və elektrostansiyaları milliləşdirəcəklər. Leyboristlər söz vermişdilər ki, kapital üzərinə xüsusi vergi qoyacaqlar, zəhmətkeşlərin çiynində dayanmış ağır dövlət borclarını yüngülləşdirəcəkdir. Leyboristlərin proqramında belə bir müddəa öz əksini tapmışdır ki, «Ancaq leyborist partiyası işsizliyin ləğv edilməsi üçün etibarlı vasitə ola bilər». Makdonald hökuməti təşkil edilidkdən sonra bu proqramın həyata keçirilməsinə müəyyən diqqət yetirildi. Çünki leyborist hökuməti belə bir faktla hesablaşmaya bilməzdi ki, onun üzvlərinin əksəriyyətini fəhlələr təşkil edir. Ona görə də onlar fəhlələrin mənafeyini müdafiə edən bir sıra tədbirlər keçirməyə məcbur oldular. Bu tədbirlər içərisində birinci yeri «Uintlini mənzil planı» tuturdu ki, hansı ki burada mənzil tikintisi üçün xüsusi təxsisat ayrılması nəzərdə tutulurdu. Leyborist hökuməti işsizlər üçün sığorta sistemini yaxşılaşdırdılar, qocalara və işsizləə verilən pensiyanı artırdılar.1924-cü ilin avqustundan başlayaraq kişilər üçün işsizliyə görə verilən müavinat 15 şilinqdən



18 şilinqə, qadınlar üçün isə 12 şilinqdən 15 şilinqə çatdırıldı. Valideynləri işsiz olan ailələrdə yaşayan uşaqlar üçün müavinat həftədə 1 şilinqdən 2 şilinqə çatdırıldı.

Bununla belə Snouden tərəfindən işlənib hazırlanmış dövlət büdcəsi bütünlüklə və tamamilə ingilis burjuaziyasının maraqlarına cavab verirdi, ona görə də liberallar və mühafizəkarlar tərəfindən dərhal müdafiə edildi. Büdcə müharibə və müharibədən sonrakı ilk illərdə təxirə salınmış proteksionizm siyasətini təkrar nəzərdən keçirdi. Leyborist hökumətiin digər tədbirləri də kapitalizm sisteminin möhkəmləndirilməsinə xidmət edirdi. Leyborist hökuməti mühafizəkarlar hökumətinin silahlı qüvvələri artırmaq siyasətini davam etdirirdi. O beş yeni kreyser tikintisinə başladı. O, cümlədən əvvəlki illərlə müqayisədə hərbi-hava qüvvələri üçün ayrılan vəsait 2,5 milyon funt sterlinq artırıldı.

Müstəmləkə siyasəti sahəsində leyborist hökuməti yenə də mühafizəkarların siyasətini davam etdirirdi. İraqda üsyan edən tayfalara qarşı təyyarələrlə bormbardmandan istifadə edildi.

Makdonald hökuməti dövründə HİnidstandA terror davam etdiridi. Bombeydə toxucuların üsyanı zamanı qoşun işə salındı, hindlilər məhkəməsiz həmbsxanalara salındı.

Makdonald hökuməti fəhlə tətillərinə münasibətdə də həmin mövqeyi tutdu. Doğrudur, bu hökumət ölkədə tətillərin miqdarını xeyli azaltmışdı. Fəhlələr 1924-cü ildə tətilə çıxaraq belə ümid edirdilər ki, onlar lyboristlər hökuməti tərəfindən müdafiə ediləcəklər. Lakin tezliklə bunun xəyal olduğu aydınlaşdı. Hökumət hər bir tətildə fhələlərin tərəfində deyil, sahibkarların tərəfində çıxış edirdi. 1924-cü ilin yanvar ayının 21-də dəmiryolçular tətil etdilər ki, iş şəraitləri yaxşılaşdırılsın və əmək haqları artırılsın. Hökumətin işə qarışması ona səbəb oldu ki, dəmiryolçular öz tələblərinin həyata keçirilməsinə nail ola bilmədilər.

1924-cü ilin fevralında nəqliyyatçıların tətili başladı, onların yekdil çıxışı hökuməti məcbur etdi ki, əmək haqları bir qədər artırılsın. 1924-cü ili martında isə Londonda tramvay sürənlər tətil etdilər ki, əmək haqları artırılsın. Metro işçiləri də həmrəylik tətili edəcəklərini elan etdilər.

Makdonald hökuməti bildirdi ki, fəhlələr tətil etsə, lazım gəlsə, tətili pozmaq üçün ştreyxbrexerlərdən istifadə edəcəkdir. Hökumət tətillərin artdığını gördükdə hökumətin fövqaladə

səlahiyyətləri haqqında 1920-ci il qanununa əsaslanaraq ölkədə fövqaladə vəziyyət elan etdi. Tətilləri yarıtmaq üçün xüsusi komissar təyin edildi. Ancaq Tred-yunion konqrsinin Baş şurasının xəbərdarlığı hökuməti belə bir addım atmaqdan çəkindirdi. 1924-cü ilin yazında daş kömür sənayesində ümumi tətil başlandı. 1924-cü ilin iyulunda tərəflər kompromisə gələrək mədənçilərin maaşlarının artırılması qərarına gəldilər. 1925-ci ilin ortalarına yaxın bu həyata keçirlirdi.

1924-cü ildə işsizlər hərəkatı işsizlərin xartiyasını qəbul etdi. Xartiyada tələb olunurdu ki, işsizlər ya işlə təmin edilsinlər, ya da onların tam yaşayışı təmin edilsin. Həmçinin ictimai işlər üzrə hökumət təşkilatlarının bu işlə məşğul olmaları tələb edilirdi. Həmçinin tələb edilirdi ki, hökümətin sifarişlərini təmin etmək üçün xüsusi dövlət idarələri təşkil edilsin. İş saatı ixtisar edilsin. Fəhlələr üçün həmçinin rahat mənzil şəraiti təmin edilsin.

1924-cü ilin iyun ayının 1-i işsizlərin xartiyasının həyata keçirilməsinin milli günü kimi keçirildi. Həmin gün İngiltərənin bütün şəhərlərində demək olar ki, nümayiş keçirildi və bü nümayişlərdə on minlərlə işsizlər iştirak etdi. 1924-cü ildə həmçinin həmkarlar ititfaqlarında azlıqlar hərəkətinin artması prosesi getdi. Bu hərəkatda daha fəal fhələlər iştirak edirdilər. Mədənçilərin, maşınqayırmaların və nəqliyyatçıların azlıq hərəkatları yarandı.

Leyboristlər partiyası 1923-cü ilin parlament seçkilərində vəd etmişdilər ki, SSRİ ilə İngiltərə arasında iqitsadi və diplomatik münasibətləri bərpa edəcəklər və Versal müqaviləsinə yenidən baxacaqlar. İqitsadi əlaqələrin bərpa edilməsi İngiltərənin iqitsadi maraqlarına cavab verdiyinə görə hətta liberallar da öz platformalarında bu məsələni qoymuşdular.

Makdonald hökuməti SSRİ ilə diplomatik münasibətlər yaratmaq məsələsinə dərhal başlamışdı. İngiltərə fəhlə sinfi bu məsələ ilə əlaqədar öz hökumətinə təzyiqi gücləndirdi. Makdonald hökuməti güzəştə getməli oldu. 1924-cü ilin fevralın 2-də İngiltərə ilə SSRi arasında diplomatik münasibətlər yaradıldı. Leyboristlər partiyası seçkiqaağı vəd vermişdi ki, Versal sisteminə yenidən baxacaqdır. Lakin hakimiyyətə gəldikdən sonra bu vəd yerinə yetirilmədi. Makdonald hökuməti Avropada Fransanın mövqeyinin zəifləməsindən istifadə edərək öz mövqeyini möhkəmlədirməyə çalışdı. 1924-cü ilin iyul-avqust aylarında Londonda keçirilən



konfransda Almaniyanı təzminat məsələsinə həsr edilmiş Dayes planı qəbul edildi. «Dayes planı»nın qəbul edilməsi göstərirdi ki, Avropa işlərində həlledici rol Fransadan ingilis-amerikan blokunun əlinə keçir.

Leyboristlərin öz vədlərinə naxələf çıxması «İngiltərə fəhlə sinfində çox böyük pərişanlıq yaratdı. Fhələ sinfi yəqin etdi ki, leyboristlər partiyasının daxili və xarici siyasəti heç də mühafizəkarlarınkından fərqlənmir. Bu hal leyboristlər partiyasının kütlələr içərisində sürətlə nüfuzdan düşməsinə səbəb oldu. Kütlələr içərisində tam etibarını itirməkdən qorxan leyboristlər 1924-cü ilin oktyabrında istefaya getdilər və belə bir bəyanətlə çıxış etdilər ki, onlar hökumətdə olsalar da, hakimiyyətdə olmayıblar.

Lebyoristlər hökumətinin istefaya getməsi üçün bəhanə «Kempbellin işi» oldu. Kempbell kommunistlərin orqanı olan «Uorgeçs Uukli» qəzetinin redaktoru idi. O qəzetdə bir sıra məqalələr çap etdirmişdi ki, bu məqalələrdə fəhlələrin tətillərinə hökumətin qoşun göndərməsi pislənilirdi. Bu hərəkatın rəhbəri Kempbell leyboristlər hökumətinin sərəncamı ilə həbs edilmiş, onun haqqında cinayət işi qaldırılmışdır. Leyboristlər hökumətinin bu addımı İngiltərə zəhmətkeşlərində hiddətə səbəb oldu. Onların hökumətə təzyiqi nəticəsində Kembell həbsdən azad edildi və onun barəisndəki cinayət işinə xitam verildi.

Makdonaldın zəhmətkeşlərə güzəştə getməsi hakim dairələr tərəfindən böyük etiraza səbəb oldu. Mühafizəkarları və liberalları ən çox qorxudan cəhət o idi ki, Makdonald hökumətə digər məsələlərdə də zəhmətkeşlərə güzəştə gedə bilər. Parlamentdə mühakizəkarlar hökumətə etimad göstərib-göstərməmək məsələsini qoydular. Liberallar da öz tərəflərindən təklif etdilər ki, xüsusi koalisiya yaratsınlar və bu koalisiya «Kempbellin işi» məsələsini təhqiq etsin. Səsvermədə liberalların təklifi mühafizəkarlar tərəfindən qəbul edildi və oktyabr ayının 8-də qəbul edildi.

Makdonald bu hadisədən istifadə edərək bildirdi ki, parlament hökuməti etimad göstərmədiyi üçün o, parlamenti buraxır. İcmalar palatasına seçkilər 1924-cü ilin oktyabr aynıın 29-na təyin edildi. 1924-cü il seçkiləri mühafizəkarlara uğur gətirdi. Onlar parlamentdə 413 yer tutdular. Leyboristlər 151, liberallar isə cəmi 40 yer aldılar.

1924-cü ilin noyabrın 7-də mühafizəkarların hökuməti təşkil edildi. Hökumətin başçısı Stenli Bolduin oldu. Xarici işlər naziri

vəzifəsini isə Nevil Çemberlen tutdu. Maliyyə naziri vəzifəsini isə Uinston Çörçill tutdu. Bu hökümət özünün birinci dərəcəli vəzifəsini ingilis kapitalizmini sabitləşdirmək hesab edirdi. Lakin, onlar bunu fəhlə sinfinin əmək haqqını aşağı salmaq, sosial xərcləri ixitsar etmək hesabına etmək Istəyirdilər. Bu İngiltərə fəhl sifniinin kəskin etirazına səbəb oldu. 1925-ci ildə ilk tətilə mədənçilər başladılır. Kömür sənayesi İngiltərə iqitsadiyyatında mühüm rol oynayırdı və metallurgiya, gəmiqayırma, maşınqayırma sənayesi üçün baza hesab edilirdi. Ölkə əhalisinin 1/12 hissəsi kömür sənayesi ilə bağlı fəaliyyət göstərirdi.

1925-ci ilin yazında dördlərin ititfaqı təşkil olundu ki, buraya mədənçilərin, dəmiryolçuların, nəqliyyatçıların və maşınqayıranların həmkarlar ititfaqları daxil oldular. Baş Şura Xüsusi Sənaye komitəsi təşkil etdi.

Fəhlə sinfinin birgə hərəkatı İngiltərə hakim dairələrini qorxuya saldı, 1925-ci il 31 iyul İngiltərə tarixinə «qırmızı cümə günü» kimi daxil oldu. Hökumət məcbur oldu ki, elan etsin ki, 9 ay müddətində fəhlələrin əmək haqqı olduğu kimi qalacaqdır. Bu hadisədən sonra hökumət fəhlə sinfi ilə yeni toqquşmalara ciddi hazırlıq görməyə başladı. Tred-yunionların Britaniya konqresinin baş şurası sazişçi mövqe tutdu, danışıqlar yolu ilə hökumətlə razılığa gəldi. On aylıq müddət qurtaran kimi şaxta sahibləri lokaut elan etdilər, lakin mədənçilər yenidən onların şərtlərini rədd etdilər. Hökumət ölkədə fövqaladə vəziyyət elan etdi. Fəhlələrin mübarizədə qətiyyətliliyi Baş Şuranı ümumi tətil elan etməyə məcbur etdi. Ümumi tətil 1926-cı ilin may ayının 4-də başladı, yekdililk və mütəşəkkillik şəraitində keçdi. Ümumi tətil iştirakçılarının sayı ailələri ilə birlikdə 18 milyon nəfərə yaxın idi. Bu isə ölkə əhalisinin 40%-i demək idi. Hər yerdə tətil komitələri və fəaliyyət şuraları yaradıldı. Çox hallarda bu orqanlar yerli hakimiyyətin funksiyasını yerinə yetirirdilər. İngilis fəhlələrinin mübarizəsi bütün dünyada proletar həmrəyliyi dalğası yaratdı. Bəzi ölkələrdə tətilçilərin xeyrinə vəsait toplanması işi başlandı. Ordu, polis, dövlət aparatı, təbliğat maşını, ştreykbrexerlər - bütün tədbir və vasitələrdən tətilləri yatırmaq üçün istifadə edildi. Tredyunonların liderləri fəhlə sinfinin qələbəsini istəmirdilər və ondan qorxurdular. Onlar özlərinin bütün səylərini tətili pozmağa yönəltdilər. 1926-cı ilin mayın 12-də Baş Şuranın rəhbərliyi ümumi tətilin dayandırıldığını elan etdi. Fəhlələr



bu qərarı narazılıqla qarşıladılar. Fəal tətilçilərə divan tutulmasına başlanıldı. Mədənçilər yeddi ay müddətində tətil etdilər. Kömür sənayeçilərinin və hökumətin təzyiqi, həmkarlar ititfaqı liderlərinin sazişçilik siyasəti, aclıq və ehtiyac şaxtaçıları geri çəkilməyə məcbur etdi. 1926-cı ilin dekabrında onlar işə qayıtdılar. Mədənçilərin əmək haqqı aşağı salındı, iş günü isə artırıldı. Məğlub olmasına baxmayaraq ümumi tətilin mühüm siyasi əhəmiyyəti var idi. Bu XX əsrdə Britaniyada ən böyük siyasi döyüş idi. O, fəhlələrə qiymətli dərs verdi.

Tətilçilərin məğlubiyyəti burjuaziyanın fəhl sinfi üzərinə hücumunu asanlaşdıdı. Bu fəhlələrin istismarının güclənməsində və onların həyat səviyyəsinin aşağı düşməsində əks olundu. Parlament 1927-ci ildə həmkralar ittifaqları və sənayedə «münaqişələr haqqında» qanun qəbul etdi. Fhələlərin «ştreykbrekerlər xartiyası» adlandırdığı bu qanun ümumi tətilləri və piketləri qadağan edirdi.

Ümumi tətil edənlərin məlğub olmasının əsas səbəbi ingilis burjuaziyasıın daha təcrübəli və mütəşəkkil olması idi. Fəhlə sinfinin siyasi hüquqlarına və yaşayış səviyyəsinə burjuaziyanın basqını sənayenin səmərələşdirilməsini və ingilis kapitalizminin sabitləşməsini əldə etmək məqsədi ilə edilirdi. Tred-yunionların rəhbərliyində 1927-ci ildən başlanmış burjuaziya ilə tam sinfi əməkdaşlığa keçmək hərəkatı da bu məqsədə yönəlmişdi. Tred-yunionların 1927-ci ilin sentyabrında keçirilmiş konqresində konqresin sədri Corc Hiks sahibkarları müraciət edərək «birgə cəhd göstərərək sənaye məhsuldarlığını artırmaq və fəhlələrin yaşayış səviyyəsini yüksəltmək» üçün əməkdaşlıq etməyi təklif etdi.

1927-ci ilin noyabrın sonunda ən böyük ingilis inhisarı olan imperiya Kimya trestinin rəhbəri Alfred Mondun başçılığı altında 20 inhisar bildirdi ki, sənayenin və sənaye münasibətlərinin yenidən təşkilinin» ümumi məsələlərini onunla müzakirə etməyə hazırdır. Bu «mondizm» adı ilə məşhur olan sinfi mübarizədən tamamilə əl çəkmək və burjuaziya ilə hərtərəfli əməkdaşlıq etmək siyasətinin yeridilməsinin başlanması demək idi.

Baş şuranın rəhbərləri mahiyyət etibarı ilə ingilis həmkarlar ititfaqlarını sinfi əməkdaşlıq alətinə çevirməyi və tətillərin başlanmasının qarşısını almağı öz öhdələrinə götürmüşdülər. Bu təhhüdün müqabilində sahibkarlar həmkarlar ititfaqlarının bəzi hüquqlarını qəbul etməyə razılıq vermişdilər.

1928-ci ildə seçki islahatı keçirərək yaşı 21-ə çatmış qadınlara seçki hüququ verməklə də mühafizəkarlar hökumətinin xarakteri dəyişilmədi. 1928-ci ilin seçki hüququ islahatı xalq kütlələrinə güzəşt idi, lakin o, yaxın gələcəkdə olacaq növbəti seçiklərdə hakim partiyanın üstünlüyünü əldə etmək məqsədini güdürdü. Bu islahat həm də ona görə lazım idi ki, 1928-ci ilin sonunda ingilis burjuaziyasının fəhlə sinfini cilovlamaq təşəbbüslərinin boşa çıxacağını göstərən əlamətlər meydana gəlmişdi. 1928-ci ilin sonunda və 1929-cu ilin əvvəlində olan tətillər göstərdi ki, İngiltərədə tətil hərəkatı yenidən fəallaşmağa başlamalıdır.

Birinci dünya müharibəsi vaxtında və müharibədən sonrakı dövrdə İngiltərə ilə onun dominionları arasındakı münasibətlərdə böyük dəyişikliklər əmələ gəldi. Dominionlarda kapitalizmin inkişaf etmiş və möhkəmlənmişdi, bunun əsasında isə dominionlarda ayrıca millətlər və dövlətlər formalaşmağa başlamışdı. Bu amillərin təsiri İngiltərə imperializminin zəifləməsi dominionlara, İngiltərədən bir sıra siyasi və iqtisadi xarakterli güzəştlər almağa imkan verirdi.

Dominionlar muxtariyyət hüququna malik olduqlarından müharibədən sonra onların cəhdləri xarici siyasət sahəsində öz hüquqlarının genişləndirilməsinə yönəldilmişdi. Metropoliyalarla dominionların münasibətlərini tənzim edən hüquq normaları ilə Britaniya imperiyasındakı dominionların əsil vəziyyətləri arasında əmələ gəlmiş uyğunsuzluq ildən-ilə daha aydın nəzərə çarpırdı. 1926-cı ilin oktyabr-noyabr aylarında İngiltərə və dominioların nümayəndələrinin iştirakı ilə keçirilən imperiya konfransı bu normaları faktiki vəziyyətə uyğun şəklə salmalı idi.

İmperiya konfransı qərara aldı ki, İngiltərə və dominionlar «nizamnaməyə əsasən bərabərdirlər, daxili və ya xarici işlərdə heç bir cəhətdən biri digərinə tabe deyildir, ümumi dövlət tərkibində və Britaniya millətlər birliyinin üzvü kimi azad surətdə birləşmiş olsalar da Britaniya imperiyasının tərkibində muxtar cəmiyytələrdir». Bununla da daxili və xarici siyasət sahələrində dominionların sərbəstliyi və onların İngiltərə ilə hüquq bərabərliyi elan edilirdi. Bu dominionların hakim dairələrinin arzularına uyğun gəlirdi. Eyni zamanda dominionlar Britaniya imperiyasının tərkibində qalırdılar ki, bu da İngiltərənin mənafeyinə uyğun idi.

İngiltərənin hakim dairələri nisbi sabitləşmə dövründə antisovetizm siyasəti yeridirdilər ki, bu da 1927-ci ilin fevralında



İngiltərə tərəfindən SSRİ ilə diplomatik münasibətlərin kəsilməsinə səbəb oldu.

Nisbi sabitləşmə illərində İngiltərə ilə digər kapitalist dövlətlər arasında münasibətlərdə soyuqluq artdı. 1926-cı il dekabr ayının 12-də qalib ölkələr Almaniya iqtisadiyyatı üzərindəki hərbi nəzarəti götürdülər. Bununla da, Versal sülh müqaviləsinin müddəalarından birindən imtina etməli oldular. Almaniyanın iqtisadi qüdrəti ona imkan verdi ki, O, İngiltərə, Fransa və ABŞ qarşısında məsələ qaldırdı ki, qoşunlarını tezliklə Reyn zonasından çıxartsınlar, həmsinin təzminatın miqdarını aşağı salsınlar. Bu məsələ ilə əlaqədar 1929-cu ilin avqustunda Haaqada keçirilən konfransda kəskin müzakirələr oldu. Təzminat məsələsi ilə əlaqədar «Yunq planı» qəbul edildi. Təzminatın miqdarı aşağı salındı. Haaqa konfransı həmçinin qərar qəbul etdi ki, qalib dövlətlərin qoşunlarının Reyn zonasından köçürülməsi 1930-cu ilin ortalarından başlansın.

Bu dövrdə İngiltərə ilə ABŞ arasında xammal mənbələri üstündə mübarihə gücləndi.

1924-1929-cu illərdə hakimiyyətdə olan mühafizəkarlar ingilis kapitalizminin sabitləşməsinə nail olmaq uğrunda inadlı mübarizə aparmalarına baxmayaraq buna tam nail ola bilmədilər.

İngiltərə iqtisadiyyatı 1929-cu ilə qədər 1913-cü il səviyyəsini keçə bilmədi, ona isə çox çətiniklə çata bildi. İngiltərə tarixçiləri etiraf edirlər ki, "İkinci Bolduin hökumətinin fəaliyyətinin nəticələri təsəlliverici deyldir".

Növbəti parlament seçkiləri 1929-cu ilin may ayının 13-də eçirildi. Leyboristlər bu seçkilərdə parlamentdəki yerlərin 287-ni mühafizəkarlar – 260-nı, liberallar isə 59-nu tutdular.

Lebyoristlər partiyası icmalar palatasında digər iki partiya ilə müqayisədə çoxluq qazandı.

1929-cu ilin iyun ayının 7-də Makdonald ikinci leyborist hökumətini təşkil etdi. Portfellər leyborist rəhbərlərindən olan Makdonald, Tomas, Snouden, Klaynç, Hendersona verildi. Baş nazir Makdonald, Xarici işlər naziri Henderson, maliyyə naziri Snouden, daxili işlər naziri Klayns oldu. İkinci leyborist hökuməti birinciyə nisbətən daha sağ mövqedə dayanırdı. Leyborist hökumətinin ilk tədbirlərindən biri Lankaşir toxucularının əmək haqqının aşağı salınması oldu. Toxucuların həmkarlar ittifaqı buna kəskin etirazını bildirdikdə, sahibkarlar lokaut elan etdilər.

Leyboristlər partiyası seçkiqabağı platformalarında SSRİ ilə diplomatik münasibətləri bərpa edəcəklərini vəd etmişdilər. Lakin onlar hakimiyyətə gəldikdən dərhal sonra bunu etmədilər. Ancaq 1929-cu ilin oktyabr ayının 3-də SSRİ ilə İngiltərə arasında diplomatik münasibətlər bərpa edildi.

Ümumiyyətlə nisbi sabitləşmə illərində İngiltərə iqitsadiyyatı durğunluq dövrü keçirdi. 1930-cu ilin birinci kvartalında İngiltərədə istehsalın səviyyəsi özündən qabaqkı illərlə müqayisədə aşağı düşdü, bu da onu göstərirdi ki, ölkə iqtisadi böhranının başlanğıcı fazasına daxil olmuşdur.

## Böyük Britaniya dünya iqtisadi böhranı illərində (1929-1933-cü illər)

1929-cu ilin oktyabrında ABŞ-da başlanan iqtisadi böhran öz miqyasına görə 20-ci əsrin ən böyük böhranı kimi tarixə daxil oldu.

1929-1933-cü illərin iqtisadi böhranı kapitalizmin bütün tarixi boyu ən dərin böhran kimi səciyyələndirilə bilər. Demək olar ki, dörd il ərzində kapitalist ölkələrinin iqtisadiyyatı tam təşkil edilə bilməyəcək durğun bir vəziyyətdə qalmış oldu.

Böhran, dünyada 50 milyondan daha çox insanın işsiz qalmasına səbəb olmuşdur. Dünyada ümumi istehsalın həcmi 42%, dünya ticarətinin həcmi isə 65% azalmışdır. Bu rəqəmlərin hansı dərəcədə təsirli olduğunu başa düşmək üçün 1929-cu ildən əvvəl baş verən heç bir iqtisadi böhran nəticəsində dünya ticarətinin 7%-dən daha çox kiçilmədiyinə nəzər salmaq kifayətdir.

Dünya iqtisadiyyatına belə güclü təsir edən böhranın səbəb və nəticələrini araşdırmaq üçün Birinci dünya müharibəsi sonrasında yaranan sosial – iqtisadi və siyasi almiləri nəzərdən keçirmək vacibdir.

Müharibədən sonra kapitalist dünyasında hegemonluğu əlində saxlayan ABŞ 1924-1929-cu illərdə stabilizasiya dövrü keçirdi. ABŞ bu dövrdə dünya dövlətləri arasında yeganə kreditor idi. Sənayenin yeni sahələrinə olan çox yüksək tələbat, iqtisadiyyatın inkişafına zəmin yaratmaqla bərabər, eyni zamanda ölkədə iqtisadi mühitin olduqca spekulativ xarakter almasına şərait yaradırdı. Buna misal olaraq 1926-1928-ci illərdə Floridada yaşanan daşınmaz əmlak böhranını göstərmək olar. 1926-cı ildən başlayaraq təbii şəraitlərə



əlaqədar olaraq (Bu əyalətdə qış qonşu ərazilərlə müqayisədə daha münasib idi) Floridadakı daşınmaz əmlakların qiymətinin həddindən artıq dəyər qazanması ümüdi ilə buraya böyük investisiyalar qoyulmuşdu. 1928-ci il 18 sentyabrda isə gözlənilmədən baş verən qasırğa bütün planları alt-üst etdi və bu əraziyə qoyulan investisiyalar böyük zərərə səbəb oldu. Yüksək qiymətə satın alınmış daşınmaz mülk və torpaq sahələrini nəinki öz dəyərinə, dəyərindən bir neçə dəfə ucuz qiymətə belə satmaq mümkün olmadı.

Yuxarıda qeyd edilən spekulasiyanın iqtisadiyyatın normal fəaliyyətinə nə qədər güclü təsir etdiyini nəzərə alsaq dünya böhranı öncəsi ABŞ iqtisadiyyatının nə dərəcədə həssas olduğunu görərik.

Dünya böhranının baş vermə səbəbləri:

1. ABŞ-dakı böyük şirkətlərin maliyyə gücləri idi. Birinci dünya müharibəsindən sonra bir çox xırda və orta müəssisələr birləşməiş və iri inhisar birlikləri meydana gəlmişdi. Böhran astanasında ABŞ iqtisadiyyatının 50%-dən çoxunu cəmi 200-ə qədər holdinq təşkil edirdi. Bu hpldinqlərdən hər hansı birinin iflası ümumilikdə iqtisadiyyata ciddi zərbə vura bilərdi ki böhran dövründə də gözlənildiyi kimi oldu.

2. İkinci səbəb Amerikada həmin dövr üçün Bankçıqla bağlı qanunvericiliyin təkmil olmaması ilə əlaqədar bankların ehtiyat limitlərinin olmaması idi. Bank sisteminin iqtisadiyyatın “qan – damar sistemi” funksiyasını olduğunu nəzərə alsaq bu sahədəki problemlər iqtisadi sistem üçün böyük təhlükə idi.

3. Böhranla bağı ən mühüm səbəblərdən biri isə Amerikanın dünya dövlətləri arsında yeganə kreditor olması idi. Bu isə, hər şeydən əvvəl bütün dünyanın Amerika iqtisadiyyatından asılılığını artırırdı. Yəni Amerikada yaran biləcək hər hansı bir problem bütün dünya ölkələrinə bilavasitə təsir edirdi.

Yuxarıda göstərilən amillərin təsiri nəticəsində 1929-cu il 3 oktyabr tarixindən başlayaraq artıq Nyu-York birjasında qiymətlərin artımı tamamilə dayanmış, hətta qiymətlər aşağı düşməyə başlamışdı. Bir neçə iri holdinqin səhmləri də birjada dəyərdən düşməyə başladı. 21 oktyabr tarixində artıq bütün investorların əllərində olan səhmləri satmağa başlaması artıq fəlakətin əsas xəbərçisi rolunu oynadı. 24 oktyabr tarixində isə artıq birjada bütün qiymətlər son həddə qədər aşağı düşdü. 1929-cu ilin qiymətləri ilə 4,2 milyard

dollar yox oldu. 21-29 oktyabr tarixlяri aras;nda 400-dən artıq bank iflas etmiş, minlərlə insan bütün mal varlığını itirmişdi. Bu müddətdə pul kütləsi tamamilə tükəndiyindən alış-verişdə barter metodu (əmtəənin əmytəəyə dəyişdirilməsi) geniş yayılmışdı. Qeyd edək ki, bu böhranın nəticələri özünü İkinci Dünya Müharibəsinin başlanğıcına qədər göstərmişdir.

1929-cu il oktyabr ayının 24-də dünyanın maliyyə mərkəzi olan Nyu-yorkun birjalarında 12,8 milyon səhm satıldı ki, bu da əvvəlkilərdən 1,5 dəfə çox idi. Oktyabr ayının 29-da isə satılan səhmlərin sayı 16,4 milyona çatdı. Qiymətli kağızların kursu sürətlə aşağı düşməyə başladı. Əgər 1929-cu il oktyabr ayının 1-də səhmlərin dəyəri 87 milyard dollar idisə, cəmi bir ay sonr 0,55 milyard dollara endi. Belə sürətlə azalma daha üç il davam etdi. 1933-cü ilin martına qədər 1929-cu illə müqayisədə səhmlərin dəyəri 4,5 dəfə azaldı.

Dünya iqtisadi böhranı aparıcı kapitalist dövlətlərinin iqtisadiyyatını ən azı bir rüb geri artdı. Dünya sənaye istehsalının həcmi 38%, ticarətin həcmi 30%, kənd təsərrüfatı məhsullarının istehsalı 30% azalmış oldu. Dünya bazarında rəqabət kəskinləşərək ticarət müharibəsi xarakteri almağa başladı. Təkcə 1929-1934-cü illərdə 76 ölkə gömrük vergilərini artırıldı.

Ticarət rəqabətinin artması ilə əlaqədar ölkələr arasındakı maliyyə əlaqələrinin ənənəvi əsasları pozulmuş oldu. İnflyasiya ABŞ-ı dolların qızıl standardlarından əl çəkməyə məcbur etdi. Nəticədə 56 dövlətin dollar ilə bağlı valyutası qiymətdən düşdü. 1932-ci ilin əvvəli üçün tam işsizlər 26 milyon, işini tamam itirməyənlərlə birlikdə 30 milyon nəfərə çatdı.

Dünya iqtisadi böhranı beynəlxalq münasibətlər sahəsinə də əhəmiyyətli dəyişikliklər gətirdi. Məhz bu dövrdə, Versal-Vaşinqton sisteminin əməli iflası başlandı. İqtisadi böhran fərdiçilik, şəxsi təşəbbüs, və sahibkarlığınn hüdudsuz azadlığı ideyalarının parıltısını söndürmüş oldu.

Ümumdünya iqtisadi böhranı dünyanın ən qüdrətli ölkəsi olan ABŞ-da 1929-cu ilin oktyabr ayında Nyu-York birjalarından birində başladı və tezliklə bütün kapitalizm dünyasını bürüdü. Böhran 1930-cu illərin əvvəllərində İngiltərədə də özünü göstərdi. 1932-ci ilin ikinci kvartalına qədər iqtisadi böhran daha da dərinləşdi.



1933-cü ildə İngiltərənin iqtisadiyyatı artıq durğunluq dövründəki vəziyyətini aldı.

İqtisadi böhran illərində İngiltərənin sənaye məhsulları böhrandan əvvəlki 1929-cu illə müqayisədə 82,5 % aşağı düşdü. 1933-cü ildə isə 1929-cu ildəkinin 93%-ni təşkil edirdi. Lakin həmin dövr sənaye məhsulları ABŞ-da 52%, Almaniyada 60%, Fransada isə 74%-ə qədər aşağı düşmüşdü[5]. Sənaye məhsullarının digər kapitalist ölkələri ilə müqayisədə nisbətən az aşağı düşməsi faktı belə bir həqiqəti sübut edirdi ki, İngiltərə kapitalizmin sabitləşdiyi dövrdə yuxarıda adı çəkilən ölkələr kimi "çiçəklənmə" keçirməmişdi.

İqtisadi böhran İngiltərənin əsas və ənənəvi sənae sahələrini daha çox sarsıtdı. Daş kömür istehsalı hiss ediləcək səviyyədə aşağı düşdü. Əgər İngiltərə 1929-cu ildə 258 milyon ton daş kömür istehsal edidisə, 1933-cü ildə bu rəqən 208 milyon tona düşdü. Çuqun istehsalı həmin dövrlər arasında 7,59 milyon tondan 3,57 milyon tona düşdü. Böhran çuqun əridilməsi sahəsində isə İngiltərəni 70 il arxaya atdı. Polad əridilməsi həmçinin 9,6 milyon tondan 5,20 milyon tona endi. Əgər İngiltərədə 1929-cu ildə gəmilərin ümumi tonnajı 1522 min ton idisə, 1933-cü ildə cəmi 133 min ton idi. İngiltərənin ticarət gəmiçiliyi də xeyli aşağı endi. 1929-cu ildən 1934-cü ilə qədər İngiltərənin dünya dəniz ticarətində tonnajı 2,43 milyon ton ixtisar edilmiş oldu.

Böhran kənd təsərrüfatını da əhatə etdi. 1930-1932-ci illərdə kənd təsərrüfatı məhsullarının qiyməti 34% aşağı endi ki, bu da ölkənin kənd təsərrüfatına ciddi çətinliklər yaratdı. İngilis fermerlər belə bir çətin dövrdə dövlətdən heç bir yardım ala bilmədilər. Ona görə də Ümumdünya bazarındakı rəqabətdə İngiltərənin kənd təsərrüfatı məhsulları əlverişsiz vəziyyətə düşdü. Yeni Zellandiyanın yağı İngiltərə bazarlarında ölkə ərazisində istehsal edilən yağlardan daha ucuz qiymətə satılmağa başladı. Belə bir vəziyyət ölkədə Fransa ununun satışı üçün də xarakterik idi.

İngiltərənin dəniz ticarətində vəziyyəti xüsusilə kəskin idi. Belə ki, ***1920-cu*** ildə İngiltərənin ixracı 729,3 milyon ton funt sterlinq təşkil edirdisə, 1932-ci ildə bu rəqəm 365 milon funt sterlinq idi.

Sənaye, kənd təsərrüfatı və ticarət sahəsindəki böhran İngiltərədə işsizlər ordusunun sayının artmasına səbəb oldu. Əgər 1930-cu ildə işsizlər bütün fəhlələrin 16,8%-ni təşkil edirdisə, 1931-

ci ildə bu rəqəm 23,1%, 1932-ci ildə isə 23,5% təşkil edirid. Bu dövrdə İngiltərədə hər dörd fəhlədən biri işsiz idi.

Xüsusilə İngiltərənin ənənəvi sənaye sahələri olan daş kömür, gəmiçilik və metallurgiyada işsizlik daha yüksək həddə çatmışdı. Kömür sənayesinin mərkəzi olan Uelsdə, toxuculuğun mərkəzi olan Lankamirdə, əsas gəmiçilik rayonu olan Klaydda vəziyyət daha da ağır idi. Bu rayonlar "durğunluq" rayonları hesab edilirdi.

1929-cu ildə leyboristlər partiyası parlament seçkiləri qabağı vəd etmişdi ki, hakimiyytə gələcəyi təqdirdə ilk növbədə kömür şaxtalarında çalışan mədənçilərin vəziyyətini yaxşılaşdıracaq və orada iş gününü 7 saata endirəcəkdir. Lakin onlar hakimiyyətə gəldikdən sonra bu vədlərinə əməl etmədilər. Leyboristlərin bu hərəkəti İngiltərə fəhlə sinfində, ilk növbədə isə mədənçilərdə çox böyük narazılıq törətdi. Kömür sənayesi fəhlələrinin aramsız tətilləri leyborist hökumətini məcbur etdi ki, 1930-cu ilin iyulunda kömür şaxtaları haqqında yeni qanun qəbul etsin. Bu qanuna əsasən iş günü 7,5 saat müəyyən edilsin. İki həftəlik iş həftəsi isə 90 saat müəyyən olunurdu. Lakin fəhlələr bu qanuna qaşı kəskin etiraz bildirdilər. Fəhlələr nəhayət onlar üçün iş saatı sistemi tərtib edilməsinə nail oldular.

Leyborist liderləri seçkiqabağı vəd etmişdilər ki, fəhlələrin "Ştreykbrexerlər qanunu" adlandırdıqları 1927-ci ildə qəbul edilmiş həmkarlar ittfaqları haqqındakı qanunu ləğv edəcəklər. Lakin hökumət bu qanunu da ləğv etmədi. Uzun müzakirələrdən sonra ancaq bu qanuna bəzi əlavələr edildi.

Burjuaziyanın fəhlə sinfi üzərinə basqını bütün ölkədə inqilabi hərakatın yüksəlməsinə səbəb oldu. İngilis fəhlə sinfinin 1931-32-ci illərdəki mübarizəsi öz gərginlik dərəcəsinə və kəskinliyinə görə yalnız müharibədən sonrakı ilk illər və 1926-cı illə müqayisə edilə bilər.

1931-ci ilin sentyabrında işsizlərin çıxışları İngiltərənin az – çox böyük şəhərlərinin hamısını bürümüşdü. İşsizlərin nümayişləri kütəvi xarakter daşıyır və bir qayda olaraq polis ilə qızğın toqquşmalara səbəb olurdu.

İşsizlərin milli hərakatı işsizlərə izah edirdi ki, yalnız onların qüdrətli müqaviməti hakim dairələrin onların yaşayış səviyyəsinə hücumunun qarşısını ala bilər. Təşkilat "ehtiyacı yoxlamaq" əleyhinə



geniş etiraz kampaniyası aparıdı. Hərakat tərəfindən toplanış və 1932-ci ilin mayında olmuş konfrans "ehtiyacı yoxlamağın", "anomaliyalar haqqında qanunun", işsizlər üzrə verilən maddi yardımın 10% azaldılmasını, habelə digər ictimai ehtiyatlara çəkilən ictimai xərclərin azaldılmasının ləğv edilməsini tələb edən ərizənin altına imza toplamağı nəzərdə tutan planı bəyəndi. Bu kampaniya 1932-ci ilin payızında Londona aclıq yürüşü təşkil etməklə nəticələndi. "Ehtiyacı yoxlamaq" əleyhinə etiraz ərizəsinin əleyhinə oktyabr ayına qədər bir milyondan artıq imza toplanmışdı.

İşsizlərin mübarizəsi fabrik və zavodlarda əmək hqqının azaldılması əleyhinə fəhlələrin etiraz çıxışları ilə bir zamanda aparılırdı.

Böhran illərində Kompartiya işsizlər arasındakı işə ciddi fikir verirdi. İşsizlərin nümayişlərində, yürüşlərində və digər çıxışlarında kommunistlər fəal iştirak edirdilər.

İngiltərə Kommunist partiyasının 1932-ci ilin noyabrında toplanmış XII qurultayı kütlələr içərisində partiya işinin bir qədər yaxşılaşdığını qeyd etməklə bərabər, onun kütlələrlə əlaqəsinin qeyri-qənaətbəxş olduğunu etiraf etdi.

Başda Henderson olmaqla Leyborist partiyasının yeni rəhbərliyi öz təsirini kütlələr içərisində mühafizə etmək üçün manevr etməyə əl atdı. Kütlələr leyboristlərin "təcridçilik" şüarından əl çəkməsini və möhkəm, əsl sosialist siyasəti yeritməsini tələb edirdilər. Leyborist rəhbərliyinin "sol" bəyannamələri bu cür tələblərə cavab oldu. Leyborist partiyasının 1932-ci ildə olmuş konfransının qərarında göstərilirdi ki, "gələcəkdə leyborist hölumətinin və parlamentdəki leyborist partiyasının rəhbərləri, parlamentdə leyborist çoxluğuna əsaslanan və ya əsaslanmayan hökumət təşkil etdikdə, müəyyən sosialist qanunvericiliyi proqramını dərhal elan etməlidirlər. Partiya parlamentdə etiqad etdiyi prinsiplər uğrunda sona qədər mübarizə aparmalı və lazım gələrsə bu mübarizədə məhv olmalıdır".

Gələcək göstərdi ki, leyborist partiyasının rəhbərlərinin sosializmə sədaqət haqqındakı bu andlarının onların burjuaziya əleyhinə mübarizə aparmaq istəkləri ilə heç bir əlaqəsi yoxdur.

Leyborist partiyasının kollektiv üzvlərindən biri olan Müstəqil fəhlə partiyası içərisində leyborist partiyasından çıxmaq tələbləri güclənirdi. Müstəqil fəhlə partiyasının 1932-ci ilin iyulunda

olmuş konfransı səs çoxluğu ilə leyborist partiyasından çıxmaq haqqında qərar qəbul etdi.

1932-ci ilin oktyabrında Artur Henderson rəsmi olaraq leyborist partiyasının rəhbəri vəzifəsindən getdi. Onun yerini nisbətən sol hesab edilən, sosializmin təbliğini dini ayinləri yaymaqla birləşdirən Corc Lensberi tutdu.

Bu dövrdə Liberallar partiyasının öz mövcudluğunu itirməsi prosesi davam etməkdə idi. Bu partiyanın tənəzzülü prosesini iqtisadi böhran daha da dərinləşdirdi. Belə ki, bu dövrdə partiya bir-biri ilə düşmənçilik edən üç qrupa parçalandı[1]. Bu qruplardan biri 1932-ci ildə xüsusi partiya şəklində yaranmış və milli liberallar partiyası adlanan "milli" hökumətin tərkibinə daxil olan Con Saymonun tərəfdarları idi. İkinci qrup 1932-ci ilin sentyabrında İngiltərədə proteksionizmin təbliğ edilməsi ilə əlaqədar olaraq hökumətdən çıxmış Herbert idi. Üçüncü qrup isə Lyoyd Corcun başlıca olaraq ailə üzvlərindən ibarət olan tərəfdarlarından ibarət idi.

İngiltərənin böhran dövründə maliyyə vəziyyəti ölkədə hakim dairələri ciddi təşvişə saldı. İngiltərə artıq çoxdan ticarətdə passiv balansa malik idi, belə ki, idxal ixracı üstələmişdi. İngilis malları bazarda azlıq təşkil dir, idxal isə artırdı. Dünya ticarəti İngiltərə üçün demək olar ki, dondurulmuşdu. Gəmiçilikdən gələn gəlir 130 milyon funt - sterlinqdən 80 milyon funt - sterlinqə qədər azalmışdı. Digər tərəfdən əgər 1929-cu ildə İngiltərənin xaricə kapital qoyuluşu 270 milyon funt - sterlinq idisə, bu rəqəm 1931-ci ildə 170 milyon funt - sterlinqə endi. Böhran tezliklə maliyyə sahəsini də əhatə etdi. İngilis banklarının beynəlxalq maliyyə əməliyyatları xeyli ixtisar edildi. İngiltərənin bu əməliyyatlardan əldə etdiyi gəlirlər 1929-cu ildə 65 milyon funt – sterlinq idisə, 1931-ci ildə bu rəqəm 30 milyon funt - sterlinqə endi.

1931-ci ildə İngiltərənin büdcə defisiti 100 milyon funt-sterlinq oldu. Funt-sterlinqin məzənnəsi xeyli aşağı düşdü. Bu dövrdə İngiltərə banklarında xarici dövlətlərin əmanətləri var idi və İngiltərə bu əmanətlərdən istifadə edərək vəziyyətdən çıxa bilərdi. Lakin xarici dövlətlər funt-sterlinqin dəyərinin aşağı düşməsini gördükdə öz əmanətlərini London banklarından götürdülər ki, bu da ölkənin maliyyə vəziyyətinin daha da ağırlaşmasına səbəb oldu.

Ölkədə mövcud olan maliyyə vəziyyətini öyrənmək və Makdonald hökumətinin vəziyyətini yüngülləşdirmək üçün



məsləhətlər aparmaq məqsədilə 1931-ci ilin martında bankir Corc Meyin başçılığı altında xüsusi komissiya yaradıldı.

1931-ci ilin iyul ayında Meyin komissiyası göstərdi ki, 1932-33-cü büdcə ilində İngiltərə büdcəsinin kəsiri lazımi tədbirlər görülməsə 120 milyon funt – sterlinq olacaq. Bu miqdar ancaq vergilərin artırılması və dövlət xərclərinin azaldılması yolu ilə ödənilə bilər. Komissiya məsləhət gördüki, yaxınlaşan 24 milyon funt – sterlinq ancaq vergilərin 96 milyon funt – sterlinqlə ödənilməsinə nail olar.

Meyin iqtisadi komissiyası məsləhət görürdü ki, işsizlərə verilən müavinət 20 % ixtisar edilsin. Belə ki, onlara verilməli olan 66,6 milyon funt – sterlinq 53 milyon funt – sterlinqə endirilsin, müəllimlərin maaşı azaldılsın, ictimai işlər üçün ayrılan vəsaitin 8 milyon funt – sterlinqə yaxını ixtisar edilsin.

Beləliklə komissiya iqtisadiyyatda olan bütün çətinliklərin aradan qaldırmağın sosial xərcləri ixtisar etməklə mümkün olduğunu göstərdi. Hökumətin rəhbər üzvləri Meyin məruzəsindəki məsləhətlərlə razı idilər və onların həyata keçirilməsinə başlamağa hazır idilər. Lakin bu təklifin qəbul edilməsi fəhlə sinfinin üzərinə basqın etmək üçün kapitalistlər tərəfindən bir alət kimi istifadə edilən hökuməti xalqın gözündə ifşa edərdi. Buna görə də hökumət Meyin təkliflərini qismən həyata keçirməyi qərara aldı. Dövlət xidmətçilərinin maaşlarının azaldıması və ictimai xərclərin 56 milyon funt – sterlinqə endirilməsi hesabına qənaət etmək qərara alındı. Lakin mühafizəkarlar və liberallar, habelə ingilis bankirləri qənaətin həcminin artırılmasında təkid edirdilər.

Mey komissiyasının məruzəsi bir çox xarici ölkələrin maliyyə dairələrində ingilis funt- sterlinqinin vəziyyətinin möhkəm olmadığının sübutu hesab edilirdi.

Bir çox xarici əmanətlərin London banklarından çıxarılması bu məruzənin çap olnumasının bilavasitə nəticəsi idi. İngiltərənin hakim dairələri ABŞ və Fransadan borc almaq vasitəsilə vəziyyəti düzəltmək istədilər. Avqustun 1-də amerikan və fransəz bankirləri İngiltərəyə 50 milyon funt – sterlinq borc verdilər. Bu pul xərcləndikdən sonra, hökumətin tapşırığına görə, ingilis bankı amerikan bankirlərinə müraciət edərək 80 milyon funt – sterlinq miqdarında yeni borc verməlærini xahiş etdi. Amerika bankirləri

bildirdilər ki, yalnız hökumət Mey komissiyasının təklif etdiyi məsləhətləri qəbul etdiyi təqdirdə yeni borc verilə bilər.

Leyborist hökuməti əlavə qənaət haqqında qərar qəbul etdi. Bu isə işsizlərə göstərilən maddi yardımın 10% azaldılması demək idi. Fəhlələrin hiddəti o qədər artdı ki, Makdonald hökumətinin həmin qərarı bəyənmiş olan bəzi üzvləri tərəddüd etdilər. Avqustun 23-də kabinetin 10 üzvü bu təklifi müdafiə etməkdən boyun qaçırdı. Hökumətdə təfriqə əmələ gəldi və Makdonalddın, bütün hökumətin istefaya çıxması tələb edildi.

Ertəsi gün Makdonald mühafizəkarların və liberalların iştirakı ilə koalisyon hökumət təşkil etdi ki, burada mühafizəkarlar rəhbər rol oynadılar. Koalision hökuməti özünü "milli" hökumət adlandıraraq, iddia etdi ki, ingilis xalqının bütün əsas siyasi partiyalarını təmsil edir. "Milli" hökumətin tərkibinə ikinci leyborist hökumətinin sabiq üzvləri – Makdonald, Snouden, Tomas daxil oldular. Hökumətə mühafizəkarların ən görkəmli nümayəndələri – Bolduin, Nevil, Çemberlen, Xor, liberallardan isə - Semuel və Lord Redine daxil edilmişdilər. "Milli" hökumətin yaradılması, mühafizəkarların, leyboristləri və liberalların arasında aparılmış gizli sövdələşmənin nəticəsi idi.

Leyborist partiyasının rəhbərləri olan Makdonald, Tomas, və Snoudenin bu hökumətə daxil olmalar onların açıqdan – açığa ingilis burjuaziyası tərəfinə keçməsi demək idi. Bu, leyborizmin rəhbər xadimləri tərəfindən fəhlə sinfinə edilmiş açıq xəyanət idi.Makdonald, Tomas və Snoudenin bu xəyanətindən sonra onları leyborist partiyası sıralarından xaric etdilər. Makdonaldın yeni – milli ardıcılları çox olmadı. Parlamentdəki 289 leyborist üzvdən cəmi 13 nəfəri onun ardınca getdi.

Leyborist partiyası rəhbərliyinin başında Henderson qaldı. Partiyanın yeni rəhbərliyi Makdonald, Tomas və Snoudenə qarşı özünün düşmən münasibət bəslədiyini qeyd etdi və onları satqın adlandırdı. Əslində isə bu, partiya rəhbərliyini öz əlində saxlamaq üçün leyborist partiyasının rəhbərliyi tərəfindən boşboğazlıqla işlədilən kələkdən başqa bir şey deyildi. Yeni rəhbərlik suravi leyboristləri inandırmağa çalıçırdı ki, satqınlıqda yalnız Makdonald, Tomas və Snouden müqəssirdirlər, leyborizmin digər rəhbərləri sə partiyanın sıravi üzvləri kimi satqınlara qarşı nifrət bəsləyirlər.



"Milli" hökumət öz fəaliyyətinə Mey komissiyasının məsləhətlərini həyata keçirməklə başladı. 1931-ci ilin sentyabrında işsizlərə verilən yardım 10% azaldı. "Miili" hökumət təkcə işsizlərin maddi yardımına deyil, hərbi dənizçilərin yaşayış səviyyəsinə də hücum etdi. İngiltərə hərbi donanmasında icbari hərbi mükəlləfiyyət olmadığı bir şəraitdə donanma könüllülər toplamaq əsasında təşkil edilir, həm də donanmandan şəxsi müvafiq maaş alırdı. Sentyabrın 12-də hərbi dəniz donanması naziri donanmanın şəxsi heyətinin maaşlarının azaldıldığını elan etdi. Üç gündən sonra İngiltərənin manevr keçirmək üçün Şotlandiyanın şimal sahilində, İnverqordon limanında toplanmış olan Atlantik donanması dənizə çıxmaqdan boyun qaçırdı. Sentyabrın 17-də hökumət güzəştə getməyə məcbur oldu və maaşların azaldıması məsələsinə dənizçilərin xeyrinə olaraq yenidən baxıldı.

1931-ci ilin payızında "Milli" hökumət parlamentə vaxtından əvvəl seçkilər keçirdi. Mühafizəkarlardan, milli leyboristlərdən və liberallardan ibarət təşkil olunmuş koalisiya seçki kampaniyası zamanı seçiciləri iqtisadi böhranın nəticələri ilə qorxutmaq və leyboristləri hər vasitə ilə gözdən salmaq üçün var qüvvəsini toplamışdı. Seçkilərdə koalisiya, əslində isə nümayəndələr palatasında 472 yer almış olan mühafizəkarlar qalib gəldilər. Milli leyboristlər mühafizəkarların yardımı sayəsində parlamentdə 13 yer ala bildilər. Liberallar 72 yer aldılar. Leyborist partiyası ciddi məğlubiyyətə uğradı. Onun parlamentdəki deputatlarının sayı 1929-cu ildəki 289 – dan 46 – ya endi.

Seçkilərdən sonra ingilis burjuaziyasının fəhlə sinfinin yaşayış səviyyəsinə və siyasi hüquqlarına hücumu daha da gücləndi. Hökumət hələ leyboristlər hakimiyyət başında olan zaman qəbul olunmuş və işsizlərə maddi yardımı azaltmağa yönəldilmiş, sığorta məbləğlərinin verilişindəki xətalar haqqındakı qanunu amansızlıqla həyata keçirməyə başladı. Bundan başqa hökumət, noyabrın 12-də işsizlik üzrə verilən maddi yardımı daha da azaltmaq məqsədilə ehtiyacı yoxlamaq haqqındakı qanunu qüvvəyə mindirdi. İngilis burjuaziyası bu qanunun köməyilə işsizlərə verilən onsuz da cüzi miqdar maddi yardımın ümumi məbləğindən 30 milyon funt – sterlinq kəsdi.

İngiltərənin hakim dairələri fəhlə sinifi üzərinə hücum etmək yolu ilə öz gəlirlərini iqtisadi böhranın zərərlərindən müdafiə etməyə

cəhd edirdilər. Lakin bu vasitələri yalnız müəyyən çərçivə içində tətbiq etmək mümkün idi. Zəhmətkeşlərin yaşayış səvyyəsinə hücumun davam etdirilməsi burjuaziya üçün böyük siyasi çətinliklər törədə bilərdi. Buna görə də ingilis burjuaziyası böhranı aradan qaldırmaq üçün göstərdiyi səylərdə başqa vasitələrdən də istifadə edirdi.

Bu vasitələrdən biri 1931-ci il sentyabrın 21-də funt – sterlinqin qızıl standardını ləğv etməkdən ibarət oldu. Bu tədbir dünya bazarında ingilis mallarının rəqabət qabiliyyətini artırdı. Funtun dəyərinin aşağı düşməsi nəticəsində ingilis malları hələlik möhkəm valyutanı mühafizə edən ölkələrin, məsələn ABŞ-ın mallarına nisbətən xeyli üstünlük qazandı.

İngiltərənin hakim dairələri eyni zamanda beynəlxalq miqyasda öz maliyyə mövqelərini möhkəmlətmək uğrunda mübarizə aparırdılar. 1931-ci ildə İngiltərənin və bir sıra digər kapitalist ölkələrinin, sterlinq ittifaqı adlandırılmış valyuta qruplaşması əmələ gəldi. Sterlinq ittifaqına daxil olmuş ölkələr öz valyutalarının dəyərini ingilis funtunun dəyərinə uyğunlaşdırdılar, onların valyuta ehtiyatları əsasən Londonda saxlanırdı, ittifaqa daxil olan ölkələr arasındakı ticarətdə haqq hesab vahidi ingilis funtu idi. Sterlinq ittifaqının əsasını – itifaq iştirakçıları olan ölkələrin iqtisadi və siyasi cəhətdən İngiltərədən asılılığı təşkil edirdi. Sterlinq ittifaqı, qızıl standardının iflasına baxmayaraq, ingilis funtuna dünya əmtəə tədavülünün 40-50%-nə xidmət etmək imkanı verirdi.

İqtisadi böhranı aradan qaldırmaq üçün İngiltərə kapitalizminin istifadə etdiyi tədbirlərdən ən mühümü proteksionizmin tətbiq edilməsi idi. Dünya iqtisadi böhranının təsiri altında 1931-32-ci illərdə İngiltərə azad ticarətdən tamamilə əl çəkdi. Proteksionizmin tətbiq edilməsi İngiltərə iqtisadiyyatı üçün müsbət rol oynadı. İngiltərənin daxili bazarı başqa ölkələrin mallarının rəqabətindən qorundu.

Bir müddət sonra proteksionizm 1932-ci il iyul-avqustunda Ottavada olmuş imperiya konfransında qəbul edilən preferensial tarif sistemi ilə təkmilləşdirildi. İngiltərə, dominionların keçmişdə gömrüksüz gətirilən mallarını yenə də gömrük rüsumu olmadan öz bazarına buraxmağı öz öhdəsinə götürdü. Bu, imperiya ğlkələrindən İngiltərəyə gətirilən malların 80%-nin gömrüksüz buraxılması demək idi. Yerdə qalan 20% mallara isə az miqdar vergi qoyulmalı idi.



İngiltərə dominionların müvafiq mallarının ingilis bazarında üstünlük qazana bilməsi üçün başqa ölkələrdən gətirilən mallara yeni gömrük qoymağı və yaxud köhnə gömrükləri artırmağı öhdəsinə götürürdü.

Öz növbəsində dominionlar da ingilis mallarına qoyulan gömrüyü bir qədər azaltmağa və müəyyən miqdarda ingilis mallarını öz bazarlarına gömrüksüz buraxmağı öhdələrinə götürürdülər. Dominionların bazarlarında ingilis malları digər ölkələrin mallarına nisbətən üstün mövqe tuturdu. Lakin bu mallar, dominionların milli sənayesinin istehsal etdiyi mallara nisbətən daha zəif mövqeyə malk idilər.

İngiltərənin hakim dairələri böhranın ingilis iqtisadiyyatına olan təsirini öz müstəmləkələrinin və hamıdan əvvəl, Hindistanın istismarını gücləndirmək yolu ilə azaltmağa çalışırdılar. Bu illərdə ingilis müstəmləkələrinin vəziyyəti xüsusilə ağır idi. Çünki böhran onların da iqtisadiyyatını bürümüşdü.

Böhran illərində ingilislərin müstəmləkələrə gətirdikləri malların qiymətləri, onların müstəmləkələrdən apardıqları malların qiymətlərinə nisbətən xeyli az aşağı düşmüş oldu. Qiymətlərinin səviyyəsinin dəyişməsindəki bu fərq İngiltərə ilə müstəmləkələrin arasındakı mübadilənin ekvivalentsizlik dərəcəsini artırıdı.

Dünya iqtisadi böhranı illəri ingilis müstəmləkələrində milli azadlıq mübarizəsinin yeni yüksəliş dövrü olmuşdu.

Hindistanda çox vaxt polis və qoşunlarla toqquşmaya gətirib çıxaran böyük tətillər, kütləvi nümayişlər baş verirdi. Müstəmləkəçilər çıxışların iştirakçılarına vəhşicəsinə divan tuturdular. 1930-31-ci illərin 10 ayı ərzində Hindistanda antiingilis çıxışlarına görə 90 min adam məhkun dilmişdi. Bu cəza tədbirlərini Makdonaldın leyborist hpkuməti ciddi cəhdlə həyata keçirirdi, məhz onun dövründə Hindistanda Hindistan fəhlə hərakatının 32 rəhbəri üzərində biabırçı mirut məhkəmə prosesi qurulmuşdu.

Eyni zamanda İngiltərənin hakim dairələri Hindistan burjuaziyasının və mülkədarlarının yuxarı təbəqəsi ilə sazişə gəlmək üçün yollar axtarırdılar. Bu məqsədlə Saymonun başçılığı ilə İngiltərədə komissiya təşkil edilmişdi ki, bu komissiya 1930-cu ilin yayında təqdim etdiyi məruzədə Hindistanın konstitusiyasını dəyişdirmək haqqında təkliflər irəli sürmüşdü. Bu təkliflər 1930 1931-ci illərdə "dəyirmi masa" adlanan konfransda ingilis hökumətinin və Hindistan burjuaziyasının nümayəndələrinin iştirakı

ilə müzakirə edilmişdi. Hindistan burjuaziyasının yuxarı təbəqəsinə güzəşt edilməsini layihələşdirənlərin Hindistanda ingilis ağalığının ləğv edilməsini nəzərdə tutmamalarına baxmayaraq, müstəmləkə xalqları ingilis imperializmi əleyhinə çıxış edirdilər.

1932-ci ilin ortalarından başlayaraq ingilis iqtisadiyyatı yavaş-yavaş böhran vəziyyətindən çıxmağa başladı. 1934-cü ildə sənaye məhsulunun həcmi 1929-cu il səviyyəsinə gəlib çatmışdı. Sənaye məhsullarının indeksi, 1929-cu il 100 götürülərsə, 1932-ci ildə 82,5-ə enmiş, 1937-ci ildə isə 123-ə qədər qalxmışdı. Keçən illərdə olduğu kimi, indi də ingilis təsərrüfatının ayrı-ayrı sahələrərinin inkişafı bir səviyyədə deyildi. Sənaye məhsulunun artımı əsasən yeni sənaye sahələrinin (aviasiya, kimya, avtomobol, elektrik maşınqayırma sənayesi) və intensiv mənzil tikintisinin xeyli inkişaf etdirilməsi hesabına baş verirdi. Hərbi sənaye də sürətlə inkişaf edirdi. Kömür, gəmiqayırma, və toxuculuq kimi ənənəvi sənaye sahələri tənəzzül vəziyyətində idi. İstehsal aparatının işlə təmin olunması və daimi kütləvi işsizlik böhran illərinin səviyyəsində qalırdı.

İngiltərə sənayesində baş verən canlanmanın başlıca səbəbərinədn birisi hərbi sənaye sahələrinin sürətlə inkişaf etməsi idi. Proteksionizm də ingilis sənayesinin canlanmasına kömək etmişdi. Böhran nəticəsində sənaye mallarının qiyməti aşağı düşmüş olsa da, ingilis idxalatının əsas hissəsini təşkil edən ərzaq və xammala nisbətən qiymətlərin nisbətən az aşağı düşməsindən İngiltərə iqtisadiyyatı xeyli qazanmışdı. Bunun nəticəsində İngiltərənin ticarət şəraiti xeyli yaxşılaşmışdı.

Lakin 1937-ci ilin ortalarında İngiltərədə başlanmış yeni iqtisadi böhran nəticəsində 1938-ci ildə sənaye məhsulunun indeksi aşağı düşmüş və 1937-ci ilə nisbətən 115,7 təşkil etmişdi. Böhran ingilis təsərrüfatının bütün sahələrinin ixtisar olunmasına gətirib çıxarmışdı. 1939-cu ildə iqtisadi böhranın güclənməsi İkinci Dünya Müharibəsinin başlanması ilə dayandırıldı.

Almaniyada faşizmin hakimiyyət başına gəlməsi digər kapitalist ölkələrində irticanın güclənməsinə səbəb oldu. İngiltərədə faşist təşkilatlarının fəaliyyəti artdı. Hələ 1932-ci ildə İngiltərənin faşist partiyası – “Faşistlərin Britaniya İttifaqı” əmələ gəlmişdi. Onun



rəhbəri, ingilis aristokratları dairələrindən çıxmış 1929-1931-ci illərin leyborist hökumətində nazir vəzifəsində işləmiş Osvald Mosle idi.

İngiltərə faşistlərinin proqramı ölkə daxilində demokratiya əleyhinə mübarizə aparmaq, fəhlə hərakatını boğmaq və xarici siyasət sahəsində ingilis imperializminin dünya ağalığını qurmaq, Sovetlər İttifaqı əleyhinə müharibə əleyhinə müharibə təşkil etmək məqsədini güdürdü. İngilis faşistləri alman faşistlərini yamsılayırdılar. 1937-ci ildən sonra ingilis faşizminin iflasa uğradığı nəzərə çarpırdı. Bunu onunla izah etmək lazımdır ki, ingilis burjuaziyası, Almaniya və İtaliyanın hakim dairələrinə nisbətən özünü daha möhkəm hiss edirdi. İngilis leyboristləri fəhlə sinfini tabelikdə saxlamaqda burjuaziyaya müvəffəqiyyətlə kömək edirdilər. Burjuaziya nöqteyi nəzərindən fəhlə hərakatını yatırmaq üçün lazım olan bütün zəruri tədbirlər “Milli” hökumət tərəfindən həyata keçirilirdi. Digər tərəfdən, İngiltərə faşizminə ingilis fəhlə sinfinin göstərdiyi müqavimətin onun müqəddaratı üçün böyük əhəmiyyəti var idi. Leyborist rəhbərlər faşşizm əleyhinə mübarizədən boyun qaçırıdılar. Lakin kommunistlərin və fəhlə hərakatının mübariz ünsürlərinin rəhbərliyi altında ingilis fəhlələri faşizm təhlükəsinə qarşı mübarizəyə qalxışırdırlar, bu isə nəticə etbarı ilə ingilis faşistlərinin kütlələrdən təcrid edilməsinə və onların fəaliyyətinin məhdudlaşmasına səbəb olmaya bilməzdi.

1933-cü ilin sonunda işsizlər hərakatı güclənmişdi. İşsizlər, maddi yardımın 1931-ci ilin sonundakı azaldımasının ləğv edilməsi uğrunda, işsizlər üçün yarımhərbi qaydada “tədris mərkəzi” yaradılmasını nəzərdə tutan işsizlik haqqındakı yeni qanun layihəsinə qarşı mübarizə aparırdılar. İngilis zəhmətkeşləri bu qanun layihəsini “köləlik” adlandırmışlar. İşsizlərin milli hərakatı 1934-cü ilin yanvarında ümumingiltərə aclıq yürüşü təşkil etmişdi, bu yürüşdə 2000 nəfər iştirak edirdi. Yürüş həm işsizlərin, həm də işləyən fəhlələrin yaşayış səviyyəsini müdafiə etmək üçün fəhlələri mübarizəyə çağıran birlik və hərəkət konqresi ilə başa çatdı. İşsizliyə görə verilən maddi yardımın azaldılmasının ləğv edilməsi haqqında yürüş iştirakçılarının irəli sürdükləri tələb, ingilis xalqının müxtəlif təbəqələri içərisində qızğın müdafiə edldi. Nəticədə hökumət güzəştə getməli oldu və 1934-cü ildə maddi yardımın azaldılmasını ləğv etdi.

Fəhlə sinfi yeni dünya müharibəsi təhlükəsinin getdikcə artdığını dərindən dərk edir və onun qarşısını almaq üçün tədbirlər

görməsini tələb edirdi. Fəhlələrin bu əhval-ruhiyyəsi 1933-cü ilin payızında leyborist konfransının qəbul etdiyi qətnamədə öz əksini tapmışdı. Leyborist partiyası "müharibədə iştirak ***etməməyi*** və ümumi tətil də daxil olmaqla fəhlə hərakatının sərəncamında olan bu vasitələrlə onun əleyhinə mübarizə aparmağı" öz ğhdəsinə götürdü. Bu qərar İngiltərə fəhlə hərakatının mürtəce rəhbərlərinin xoşuna gəlmirdi, onlar Sovetlər İttifaqı əleyhinə müharibə hazırlayan "milli" hökumətin xarici siyasətini müdafiə edərək, bu qərarı pozmaq üçün hər şeyi edərdilər. Bir neçə aydan sonra, leyborist partiyasının və tredyunionların nümayəndələrinin daxil olduqları Milli əmək şurası, 1933-cü il leyborist konfransının qərarını əslində ləğv etmiş olan bir bəyanatla çıxış etdi.

Həmkarlar ittfaqları rəhbərlərinin fəhlə sinfinin bərabərliyi əleyhinə, həmkarlar ittifaqında inqilabi ünsürlərin təsiri əleyhinə mübarizəsi 1935-ci ilin martında özünü göstərdi.

İngilis burjuaziyasının ayrı-ayrı qruplar arasında uzun müddət proteksionizm məsələsi ilə əlaqədar olaraq mübarizəsi davam etdi. Mühafizəkarlar proteksionizm siyasətinin yeridilməsinin ardıcıl tərəfdarları kimi çıxış edirdilər. Liberallar və leyboristlər isə azad ticarətin tərəfdarı idilər. 1931-ci ilin sentyabrında İngiltərəyə bir sıra malların gətirilməsində proteksionizm siyaəsti yeridilsə də, amma o yenə də azad ticarət ölkəsi olaraq qalırdı. Bu dövrdə geniş sosial proqpramlar da həyata keçirildi. Yeni iş yerləri açıldı. 1931-ci ilin avqustunda işsizlərə yardım haqqında yeni qanun qəbul edildi. Qanuna gölə mövsümü fəhlələr, ailəli qadınlar, fasiləsiz iş stajı olmayan şəxslər yardım almaqdan məhrum edildilər. 1932-ci ilin noyabrında qəbkl edilmiş «Ehtiyacların yoxlanılması haqqında» qanuna əsasən yardımların ödənilməsi üzərinə ciddi nəzarət qoyuldu.

1931-32-ci illərdə isə dünya iqtisadi böhranının təsiri altında İngiltərə qəti olaraq sərbəst ticarətdən əl çəkib proteksionizmə keçdi. Bu keçid bir neçə mərhələdə həyata keçirildi. 1931-ci ilin noyabr ayında parlament mehriban qonşuların mallarına qarşı qanun qəbul etdi. 1931-ci ildə həmçinin proteksionist siyasətə keçmək haqqında qanun qəbul edildi. Ümumiyyətlə 1932-ci ilin fevralında qəbul edilmiş qanun hökumətə imkan verirdi ki, gömrüyü 100%-ə qədər qaldırsın. Proteksionizm göstərdi ki, İngiltərə böhranı azad ticarət şəraitində aradan qaldırmağa qabil deyildir, onu ancaq proteksionizm



öz rəqiblərinin pəncəsindən azad edə bilər. 30-cu illərdə bu siyasətin yeridilməsi dünya bazarında ingilis iqtisadiyyatı üçün əlverişli rol oynadı. İngilis burjuaziyası həmçinin iqtisadi böhranı müstəmləkə xalqlarını istismar etmək hesabına azaltmağa çalışırdı. Böhran müstəmləkə ölkələrinin ticarətini kəskin surətdə ixtisar etdi. Maliyyə böhranı ilə əlaqədar İngiltərə 1931-ci ilin ortalarından 1934-cü ilin əvvəllərinə qədər Hindistandan funt – sterlinq mövqeyini möhkəmləndirmək üçün 2 milyard funt – sterlinq dəyərində qızıl aparmışdır. Böhran dövründə müstəmləkə xalqlarında ingilis imperializminə qarşı milli azadlıq hərəkatı gücləndi. Bu ilk növbədə özünü Hindistanda göstərdi. Rəsmi məlumatlara görə 1930-31-ci illərin 10 ayı ərzində Hindistandan antiingilis çıxışlarına görə 90 mindən artıq adam istintaqa cəlb edilmişdi. Leyborist hökunəti Hindistanda İngiltərə tarixində biabırçı hal kimi qalan Mirut məhkəmə prosesini keçirdi ki, 1929-cu ilin martında Hindistan fəhlə hərəkatının 32 lideri məhkəməyə cəlb edildi. 1930-cu ildə İngiltərə hökuməti Hindistandakı fəhlə hərakatının qarşısını almaq üçün Saymonun başçılığı altında xüsusi komissiya yaratmağı qərara aldı ki, həmin komissiya Hindistanın konstitusiyasını işləyib hazırladı.

Bu dövrdə həmçinin İngiltərənin Asiya və Afrikadakı müstəmləkələri də azadlıq hərəkatını genişləndirdi. Qeyd etmək lazımdır ki, bu dövrdə İngiltərə öz ərazisindən daha böyük olan müstəmləkələrə malik idi.

İqtisadi böhranın inkişafı kapitalist dövlətləri arasında ziddiyətləri kəskinləşdirdi. Böhran ilk növbədə İngiltərə ilə ABŞ arasındakı satış bazaları, xam mal mənbələri, kapital qoyuluşu sferaları, və Çinin hərbi dəniz silahlanması sahəsində mübarizəni kəskinləşdirdi. Hərbi dəniz donanması quruculuğunu nizama salmaqməsələsi ilə əlaqədar olan məsələni həll etmək üçün Londonda İngiltərə, ABŞ, Yaponiya, Fransa və İtaliyanın iştirakı ilə konfrans keçirildi. İtaliya və Fransa arasında Aralıq dənizində ağalıq uğunda ziddiyyət meydana çıxdı. İngiltərə Aralıq dənizində onu gözləyən təhlükədən, yəni dəniz silahlanamsında mövqeyini itirmək təhlükəsindən yaxa qurtara bilmədi. 1930-cu ilin London konfransında hərbi dəniz qüvvələri üzrə münasibətlər ABŞ-ın xeyrinə dəyişildi. İngiltərənin dəniz hökmranlığı keçmişdə qaldı. İqtisadi böhran İngiltərə, ABŞ və Fransa hökumətlərinin yenidən Almaniyanın təzminat məsələsi ilə məğul olmağa vadar etdi. 1931-ci

ilin iyununda ABŞ hökuməti təklif etdi ki, Almaniyadan artıq təzminat alınmasın. Bu məsələ ilə əlaqədar olaraq 1932-ci ildə Lozannada xüsusi konfrans çağırıldı və orada Almaniyadan təzminat alınması saxlanıldı. Almaniya ancaq 15 il müddətinə 3 milyard marka təzminat verməli idi ki, sonralar Almaniya bunu da verməkdən boyun qaçırdı.

1932-ci ilin noyabrında İngiltrə hökuməti Almaniyanın silahlanması haqqında tədbirlərini müdafiə etdi.

1932-ci ilin dekabrında 5 dövlətin – ABŞ, İngiltərə, Fransa, İtaliya, Almaniyanın birgə keçirilən konfransında Almaniyanı onlarla bərabərhüquqlu olduğunu İngiltərə də qəbul etdi. İngiltərə bu dövrdə öz xarici siyasətində SSRİ-yə qarşı antisovet siyasətini davam etdirirdi. 1931-ci ilin fevralında İngiltərə burjuaziyası ticarəti qorumaq adı altında xüsusi təşkilat yaratdı ki, bu da SSRİ-ni iqtisadi blokadaya almaq siyasəti yeridirdi. İngiltərə xarici siyasətində Yaponiyaya qarşı elə bir mövqe tuturdu ki, bu Yaponiyanın Uzaq Şərqdə yeni işğallara başlaması üçün şərait yaradırdı.

1934-cü ildə artıq İngiltərədə sənaye məhsulunun həcmi 1929-cu il səviyyəsinə çatdı. Keçən illərdə olduğu kimi, indi də ingilis təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı eyni səviyyədə deyildi. İngiltərə sənayesində baş verən bəzi canlanmanın başlıca səbəblərindən biri də hərbi sənaye sahələrinin sürətlə inkişaf etməsi idi. Proteksionizm də ingilis sənayesinin canlanmasına kömək etmişdi.

1937-ci ilin ortalarında İngiltərədə başlamış yeni iqtisadi böhran nəticəsində 1938-ci ildə sənaye məhsulunun indeksi aşağı düşmüş, 1937-ci ilə nisbətən 115,7 təşkil etmişdi. Lakin böhran uzun sürə bilmədi. Müharibənin başlanması buna mane oldu.

1929-1933-cü illəri əhatə edən ümumdünya iqtisadi böhranı Avropa ölkələrini sarsıtdı. Böhran həmçinin bölünmüş dünyanı yenidən bölüşdürmək üçün yeni cahan müharibəsinin başlanmasında başlanğıc rolunu oynayan, ona təkan verən amillərdən biri oldu. Almaniyada faşizmin hakimiyyət başına gəlməsi ilə bu proses daha da gücləndi. Aydındır ki, Almaniyanın Avropada hegemonluq iddiası ən çox İngiltərənin mənafeyinə toxuna bilərdi. 30-cu illərin ikinci yarısında bəşəriyyət günbəgün yeni dünya müharibəsinə doğru getməyə başladı. Əlbəttə İngiltərə kimi bir dövlətin 30 cu illərin ikinci yarısında Almaniyaya verdiyi imkanlar da bu prosesdə az rol



oynamamışdı. 1935-ci ildən İngiltərədə mühafizəkarlar partiyası hakimiyyətdə idi. 1937-ci il seçkilərində də onlar qələbə qazandılar.

Fəhlə sinfi yeni dünya müharibəsi təhlükəsinin artdığını dərindən dərk edir və onun qarşısını almaq üçün tədbirlər görülməsini tələb edirdi. 1934-cü ildə dövlətin "Qiyama təhrik haqqında" qanunu ən mürtəce tədbirlərdən biri idi, çünki o, əslində antimüharibə təbliğatı əleyhinə yönəldilmişdi.

1935-ci ildə müharibə təhlükəsi daha çox artdıqda, ingilis xalqı Millətlər cəmiyyəti ittifaqı və bəzi digər təşkilatlar tərəfindən keçirilmiş "sülh haqqında rəy sorğusu" ilə cavab vermiş və xalqın böyük əksəriyyəti öz səslərini kollektiv təhlükəsizliyə, tərksilah olunması və təcavüzkar dövlətlər əleyhinə sanksiya tətbiq edilməsinə vermişdi. 1935-ci ildə keçiriləcək seçkilərdən qabaq Makdanald istifadəyə getməli oldu. 1935-ci ilin iyununda mühafizəkar Balduini baş nazir etdilər. Mühafizəkarlar seçkiqabağı kampaniyada daxili siyasət sahəsində heç bir nəzəri vədlər verməyərək əməli fəaliyyət göstərəcəklərini, xarici siyasət sahəsində isə beynəlxalq aləmdə kollektiv təhlükəsizlik sistemi yaratmaq və sülh uğrunda mübarizə aparmaq niyyətlərini bəyan etdilər.

1935-ci ilin noyabrında İngiltərədə növbəti parlament seçkiləri keçirildi.

1935-ci ilin yayında hökumət yenidən formalaşdırıldı. İyun ayından ona Bolduin başçılıq etməyə başladı. Noyabr ayında isə parlamentə yeni seçkilər keçirildi.

Seçkilərdə mühafizəkarlar 387, leyboristlər isə 154 yer aldılar. Hökuməti mühafizəkarlar təşkil etdilər. Baş nazir İngiltərənin mövqelərinin gücləndirilməsi uğrunda siyasəti fəal müdafiə edən S.Bolduin oldu. Hökumətdə xarici işlər naziri vəzifəsini Semuel Xor, maliyyə naziri vəzifəsini isə Nevil Çemberlen tutdular.

Leyboristlər isə «Sosializm və sülh uğrunda» adlı yeni proqram qəbul etdilər. Əvvəlki «Leyborizm və millət» proqramından xeyli geniş olan bu proqramda bank, nəqliyyat, enerji sistemlərinin yenidən qurulması, daş kömür, gəmiqayırma və maşnqayırma sahələrinin bir qisminin milliləşdirilməsi irəli sürülürdü. Bundan ötrü milliləşdirmə prosesinin hüquqi əsaslarının işlənib hazırlanması zəruriliyi göstərilirdi. Leyboristlər demokratiya və sülh ideyalarına sadiq olduqlarını bəyan etdilər. 1935-ci ildə leyboristlərin lideri Klement Ettli seçildi.

Liberallar partiyasında bu zaman qruplaşma mövcud idi. L.Corcun tərəfdarları "Milli hökumət"lə əməkdaşlıq ideyasını rədd edirdilər. Con Saymonun milli liberalları hökumətlə əməkdaşlıq etməyə, Herbert Samuelin tərəfdarları isə əməli müxalifətdə qalmağa üstünlük verirdilər. Partiyanın yeni ideoloji platforması tarixçi professor Ramsey Myuar və iqtisadçı Con Keyns Meynardın 1928-ci ildə çap olunmuş "Britaniyanın sənaye gələcəyi" (bu əsərə bəzən "Sarı kitab"da deyilir) adlı kitabı oldu. Onlar dövlətin geniş sosial siyasət yeritməsinin, istənilən forma və təzahürləri ilə sosializmin əleyhinə çıxaraq fərdin azadlığını və rəqabəti irəli sürürdülər. Buna görə dövlət cəmiyyətin inkişafının mexanizmlərini işləyib hazırlamalı idi. Bütün bunlar əslində "Keyniz inqilabı" olub "yeni kurs" mahiyyətini daşısa da, liberalların proqramı geniş tərəfdar qazanmadı.

Bolduin hökumətinin daxili siyasəti başlıca olaraq ölkə iqtisadiyyatının sağlamlaşdırılmasına yönəldilmişdi. Hökumətin həyata keçirdiyi geniş iqtisadi və sosial tədbirlər nəticəsində iqtisadiyyat sağlamlaşmağa başladı. Sənaye və kənd təsərrüfatında yüksəliş əldə edildi. Əmək məhsuldarlığı 1932-37-ci illərdə 20% artdı. İqtisadi yüksəliş 1937-ci ilədək davam etdi. İşsizliyin səviyyəsi aşağı düşdü. Əgər 1934-cü ildə ölkədə işsizlərin sayı 2 mln. nəfər idisə, 1935-37-ci illərdə 1,7 mln. nəfər oldu.

Parlamentin hələ 1934-cü ildə qəbul etdiyi işsizlərə yardım verilməsi haqqında qanun uğurla tətbiq edildi. 1936-cı ildə isə ictimai qayda-qanun haqqında qanunlar qəbul edildi. Bununla belə, hakimiyyətin yuxarı dairələri arasında narazılıqlar da hökm sürürdü. 1936-cı ildə ölkənin siyasi həyatı qalmaqallarla müşayiət olundu. Həmin ildə vəfat edən kral V Georqun yerinə VII Eduard kral olmalı idi. Lakin duyğusal, əhlikef və subay olan VII Eduard 1937-ci ildə evləndikdən sonra kral olacağını bəyan etdi. Onun sevgilisi bundan əvvəl iki dəfə ailə qurmuş və boşanmış Uellis Simpson idi. Hökumət kral ailəsinin şərəfi üçün alçaldıcı olan bu nigaha qarşı çıxdı. Bolduin yaranmış vəziyyət haqqında VII Eduarda radio ilə çıxış etməyi qadağan etdi. Onun qarşısına iki şərt qoyuldu: ya həmin qadından imtina edib kral taxt-tacına yiyələnsin, ya da onunla evlənib kral taxt-tacından imtina etsin. VII Eduard kral taxt-tacından imtina etdi. Onun əvəzinə qardaşı VI GEorq kral oldu. Beləliklə, böhran aradan qaldırıldı.



Bundan sonra ölkədə idarəçilik sisteminin daha da təkmilləşdirilməsi davam etdirildi. 1937-ci ildə nazirlər haqqında qanunun qəbul edilməsi ilə icra hökümətin səlahiyyətləri xeyli genişləndirildi və baş nazir üstün hüquqlar aldı.

Bolduin hökumətində Makdonald da təmsil olunmuşdu. Nəşriyyat işləri naziri kimi o, 1937-ci ildə Latın Amerikasında səfərdə ikən vəfat etdi.

Bolduin hökumətinin xarici siyasətində Avropa ölkələri ilə münasibətlər xüsusi yer tuturdu. İngiltərə Almaniya və İtaliya ilə əlaqələrini sıxlaşdıraraq faşizmi «sakitləşdirmək» xəttini götürdü. 1935-ci ilin iyununda Almaniya və İngiltərə hökumətləri hərbi dəniz sazişini imzaladılar. Bu sazişə görə Almaniyanın hərbi dəniz donanması İngiltərə donanmasının 35%-i qədər ola bilərdi.

1935-ci ilin iyulun 15-də İngtiltərə Almaniya, İtaliya və Fransa ilə birlikdə Versal sülh müqaviləsi ilə Almaniya üçün nəzərdə tutulan məhdudiyyətlərə yenidən baxılmasını mümkün sayan «Razılıq və əməkdaşlıq paktı»nı imzaladı.

İtaliya Həbəşistana hücum edərkən İngiltərə hökuməti Millətlər Cəmiyyətindən İtaliyaya qarşı iqtisadi sanksiyalar tətbiq olunmasını tələb etdi. Lakin bu tələb heç bir nəticə vermədi. 1935-ci ilin dekabrında Samuel Xor və Fransanın xarici işlər naziri naziri Laval Həbəşistanın bir hissəsinin İtaliyaya verilməsini nəzərdə tutan saziş imzaladılar.

Hökumət 1936-cı ildə yeni silahlanma proqramını qəbul etdi. Həmin ildə Böyük Britaniya İspaniya işlərinə Avropa dövlətlərinin qarışmamasına dair sazişin işlənib hazırlanmasının iştirakçısı oldu. İngiltərə Sakit okeanda Yaponiya ilə digər dövlətlər arasında mövcud olan ziddiyyətlərdən məharətlə istifadə edərək Uzaq Şərqdə yaponların hərəkətlərini şirnikləşdirir və regionda yapon hökumətini sabitliyin təminatçısı kimi qəbul edirdi.

İngiltərənin xarici siyasətində mühüm yerlərdən birini Hindistan tutdu. Milli azadlıq mübarizəsinin genişləndiyi bir vaxtda ingilis və hind ictimai-siyasi xadimlərinin nümayəndələri 1935-ci ildə yeni konstitusiyanı qəti hazırlayaraq qəbul etdilər. Hindistan federasiya oldu. Hindistanlıların iştirakı ilə mərkəzi və yerli icraedici və qanunverici orqanlar yaradıldı. Beləliklə, Hindistanda qarşıdurma və antiingilis əhval-ruhiyyəsi zəiflədi.

**İngiltərə İkinci dünya müharibəsi ərəfəsində**

1937-ci ilin iyununda «Milli hökumət»in tərkibində dəyişiklik edidi. Stenli Bolduin istefaya getdi. Yeni baş nazir N.Çemberlen (1869-1940) oldu. . O, aristokrat mənşəyinə və qohumluq əlaqəsinə görə bu vəzifəyə gəlmişdi. O, İngiltərə ağır sənaye inhisarçıları ilə sıx əlaqəli adam idi, Birmingemdə silah istehsalı üzrə iri zavodlardan birinin sahibi idi. N.Çemberlen Sovet İttifaqına qarşı düşmən mövqedə dayanırdı. Almaniya faşizminin təcavüzü ilə razılaşan N.Çemberlen əslində İngiltərə üçün Balduinlə müqayisədə daha münasib fiqur idi. Ona görə də İngiltərə hakim dairələri onu baş nazir kürsüsündə əyləşdirdilər. Bolduinin istefaya getməsi onun başlıca olaraq təcavüzkarı «sakitləşdirmək» siyasətinin iflasa uğraması ilə bağlı idi. Çemberlen hökuməti fəal daxili siyasət yeritməyə başladı. O, hökumətin içində «daxili kabinet» yaratdı. Bütün hakimiyyət məsələləri, demək olar ki, Çemberlen, Halifaks, maliyyə naziri Saymon və daxili işlər naziri Samuel Xor tərəfindən həll edilirdi. Hökumət aqrar bölmənin inkişafına kömək məqsədilə əsas kənd təsərrüfatı məhsullarının alınmasına təminatlı qiymətlər qoydu. Fermenlər Birlik ölkələrinə öz mallarını gömrük rüsumu olmadan satmağa başladılar. 30-cu illərdə kənd təsərrüfatına kapital qoyuluşu artırıldı. Çemberlen hökuməti 1937-ci ildə İrlandiya parlamentinin qəbul etdiyi konstitusiyanı bəyəndi.

Hökumət geniş xarici siyasət həyata keçirməyə başladı. 1937-ciildə İtaliya ilə İngiltərə arasında saziş bağlandı. Bu sazişə görə İngiltərə Həbəşistanın İtaliya tərəfindən tutulmasını bəyəndi. Tərəflər Aralıq dənizi rayonunda bir-birlərinin mənafelərinə hörmət edəcəkləri barədə qarşılıqlı öhdəlik götürdülər. Ingiltərə və Fransanın hakim dairələri Hitler Almaniyasına öz güzəştləri ilə bu dövləti yeni işğallar yoluna istiqamətləndirmiş oldular. 1937-ci ildə İngiltərə hökuməti Hitlerə bildirdi ki, o, bəzi üçüncü dünya ölkələrinin hesabına Almaniyanın işğalçılıq planlarını həyata keçirməsinə mane olmayacaq.1937-ci ilin 19 noyabrında portfelsiz nazir olan Qalifaks Hitlerlə görüşdü və ona belə bir təklf etdi ki, İngiltərəni, həmçinin Fransanı da Alman-İtlayan hərbi-siyasi ittifaqına daxil etsin. Cavabında Hitler bildirdi ki, Versal müqaviləsini tam ləğv etmək lazımdır. Qalifaks bu təkliflə razı olduğunu bildirdi. O, Hitlerlə görüşündə qeyd etdi ki, ingilislər realistdirlər, ona görə də Versal müqaviləsinin səhvləri düzəldilməlidir. İngiltərə keçmişdə də realist



fikrə öz müsbət münasibətini bildirmişdir. Qalifaksla Hitlerin danışıqlarında həmçinin Dansikə, Avstriyaya və Çexoslavakiyaya münasibətdə hitlerçilərin planına müsbət münasibət göstərildiyi qeyd edildi. Bir sözlə, həm Qalifaks, həm də Hitler belə bir fikrə gəldilər ki, Avropanın quruluşunda dəyişikliklər baş verməlidir. Lakin İngiltərə maraqlıdır ki, bu dəyişiklik təkamül yolu ilə olsun. Həmçinin İngiltərə belə hesab edirdi ki, Hitler Almaniyası bolşevizmə qarşı mübarizədə ən yaxşı vasitədir. Bununla belə, Almaniyanın hərbi-iqtisadi potensialının, onun hərbi qüvvələrinin sayının artması, ingilis-alman münasibətlərinin gərginləşməsinə doğru gedirdi. Təsadüfü deyildir ki, İngiltərənin maliyyə naziri Saymon parlamentdə fevralın 21-dəki çıxışında göstərmişdi ki, İngiltərə Avstriyanın təhlükəsizliyinin qorunması üçün xüsusi təminat verməmişdir. Çemberlen özü də göstərirdi ki, Avstriya ətrafındakı digər dövlətlərə Almaniyanın təcavüzü ilə razılaşa bilməz. Məhz İngiltərənin Avstriyanı işğal etməsi üçün Hitlerin tərtib etdiyi plana xeyir-duası Hitlerə kömək etdi ki, 1938-ci ilin martında Avstriyanı işğal etsin. Bu məsələdə Qalifaks dünya ictimaiyyəti qarşısında nüfuzunu itirməmək üçün 1938-ci ilin martın 14-də icma palatası qarşısında elan etdi ki, Almaniyanın bu hərəkəti ciddi mühakimə tələb edir.

Çemberlen hökumətinin siyasətinə qarşı xalqın əsas təbəqələri içərisində narazılıq yarandı. Təkcə İngiltərənin mütərəqqi adamları deyil, mühafizəkarlar partiyasının bir çox üzvləri də etiraz etdilər. 1938-ci ilin fevralında xarici işlər naziri İden istefa verdi. Onun istefa verməsi bir daha sübut etdi ki, mühafizəkarlar partiyasının rəhbərliyində fikir müxtəlifliyi yaranmışdı. İdenlə birlikdə onun xarici işlər üzrə müavini lord Kronborn, lordlar palatasında mühafizəkarlar fraksiyasının rəhbəri lord Sesil də istefa verdi. Həmçinin Çemberlenin siyasətinə qarşı tanınmış mühafizəkarlar olan Uinston Çörçill, Daff, Kuper müxalifətdə dayandılar. Müxalifətçilər Çemberlenin xarici siyasətinin antisovet istiqamətini müdafiə edirdilər. Lakin onlar belə hesab edirdilər ki, təcavüzkarlarla işə gələndə ehtiyatla hərəkət etmək lazımdır, hədsiz dərəcədə Hitlerə və Mussoliniyə etibar etmək olmaz. Ona görə də İngiltərənin hərbi mövqelərini möhkəmlətmək məqsədilə zərurui tədbirlər görülməsini lazım bilirdilər. Onların fikrincə, ancaq bu yolla təcavüzkar dövlətlərlə İngiltərə üçün daha faydalı şəraitdə

danışıqlar aparmaq mümkünidi. Çemberleni “daxili kabinet” adlanan kabinetə daxil olan ifrat mürtəce siyasi xadimlər qrupu müdafiə edirdi. Bu qrupun üzvləri Qalifaks (1938-ci ilin fevralında İdeni Xarici işlər naziri kimi əvəz etdi),Samuel Xor, Djon Saymon, Mesto Qrenborn, Riçard Balter və başqaları idi. “Daxili kabinet”in ətrafında toplaşanlar faşistpərəst əhval-ruhiyyəli siyasət yeridirdi. Bu qrup “Klayvden qrupu” adı ilə məşhur idi. Qrupun üzvləri iri ingilis kapitalistlərinin görkəmli nümayəndələrindən olan Astorlar ailəsinə mənsub olan Klayvden malikanəsində görüşdükləri üçün belə adlanırdı. Klayvden qrupuna Londonde də daxil oldu ki, o, Ribertropla sıx əlaqədə olan adam idi. Bu qrup “Times” adlı qəzet də buraxırdı. N.Çemberlen və onun həmfikirləri İngiltərənin daxili siyasi həyatında burjua diktaturasını gücləndirmək, xarici siyasətdə isə Sovet İttifaqı ilə birgə mübarizə üçün Almaniya və İtaliya ilə İngiltərənin sıx əməkdaşlıq etməsi ruhunda çıxış edirdilər.

Hitlerçilər gözəl başa düşürdülər ki, Çemberlen hökumətində ən irticaçı - hitlerçilərlə saziş yolunu tutan siyasi xadimlər toplaşmışlar. Bu barədə İngiltərənin Berlində səfiri olan Dirksen də 1938-ci il iyulun 10-da Hitler hökumətinə məlumat vermişdir.

Avstriyanı işğal etdikdən sonra Almaniya Çexoslavakiyanı tutmaq üçün hazırlığa başladı. Çemberlen 1938-ci ilin martın 24-də icma palatasındakı çıxışında göstərdi ki, Çexoslavakiya alman təcavüzü zamanı İngiltərəyə bel bağlamamalıdır. Bu əslində Hitlerin Çexoslavakiyanı işğal planını bəyənmək idi. 1938-ci ilin mayında alman qoşunları Çexoslavakiya sərhədinə toplaşdılar. Bu digər ölkələr, xüsusən Fransa üçün real təhlükə yaratdı. Bu halda İngiltərə Fransaya güzəştə getməli ldu. Ona görə də Almaniyanı müdafiə edə bilmədi. Belə bir şəraitdə almanlar hücumlarını saxladılar. İngiltərə Almaniyanı inandırmağı bacardı ki, əgər Çexoslavakiya sərhədində Almaniya qoşunlarını toplamağı davam etdirərsə, Fransa hərbi səfərbərlik elan edəcək, İngiltərə də onu müdafiə edəcək. 1938-ci ilin sentyabrın 15-də Çemberlen Berxtesqadenə Hitlerin yanına gələrək Çexoslavakiya məsələsini müzakirə etdi. Hitler qəti tələb etdi ki, Sudet problemi həll edilməlidir, əgər dinc yolla həll edilməsə , o qüvvə ilə həll ediləcək. Hitler burada həmçinin elan etdi ki, Çexoslavakiya bir müddət sonra öz mövcudluğunu itirəcək. İngiltərə və Fransanın təzyiqi altında Çexoslavakiya hökuməti Hitlerin belə bir tələbini yerinə yetirməyə məcbur oldu ki, əhalisinin 50%-dən çoxunu



almanlar təşkil edən Sudet vilayətinin Almaniyaya verilməsinə razı olsun. 1938-ci il sentyabrın 22-də Hitlerlə Çemberlen yenidən Qodesberqdə görüşdülər və Hitler tələb etdi ki, Çexoslavakiya qoşunları Sudeti tezliklə tərk etsinlər. Çemberlenin Hitlerlə razılığa gəlməsi İngiltərə hökumətində çox böyük narazılığa səbəb oldu. Hətta nazirlərdən bəziləri ona qarşı çıxdılar. Vəziyyəti belə görən Çemberlen hökuməti bir tərəfdən çalışırdı ki, Çexoslavakiyaya qarşı Hitlerin tələbini ödəməklə onu “sakitləşdirsin” və yeni işğallardan geri çəkilməsinə inandırsın. Digər tərəfdən isə, İngiltərə xalqını inandırmağa çalışırdı ki, bu yol ən doğru yoldur. Çünki digər yol müharibədir. Ona görə də İngiltərə hökuməti nümayiş etdirməyə başladı ki, o, hərbi əməliyyatları başlamağa hazırlıq görür. Ölkədə şüurlu surətdə müharibə təhlükəsi hay-küyü yaradıldı. Hökumət əhaliyə müraciət etdi ki, könüllü surətdə hava hücumundan müdafiə dəstələrinə daxil olsun. Yanğından mühafizə dəstələrinin, ərazi qoşunlarının təşkilində iştirak etsin. Mətbuat, televiziyada qaz əleyhinə hazır olmaları elan edildi. İngiltərədə bu dövrdə əhaliyə 38 milyon əleyhiqaz verildi. Belə bir tədbir İngiltərənin təklifi ilə Fransada da görülməyə başlandı.

1938-ci ilin sentyabrın 28-30-da Çemberlenin təşəbbüsü ilə, Hitlerin, Mussolininin və Daladyenin də iştirak etdiyi müşavirə keçirildi. Həmin müşavirədə qərara alındı ki, “Majino xətti”ndən Almaniyaya tərəf rayonlar Almaniyaya verilsin, qalan hissəyə isə İngiltərə, Almaniya, Fransa tərəfindən təminat verilsin. 1938-ci ilin sentyabrın 30-da Çexoslavakiya hökuməti bu tələblə razılaşmağa məcbur oldu. Münxen sövdələşməsi təkcə Şərqi Avropada təhlükəsizlik işini zəiflətmədi, həmçinin Fransa və İngiltərənin təhlükəsizliyinə zərbə vurdu. Fransa və İngiltərə imperialistləri öz ölkələrinin həyati mənafelərini Almaniyanın Sovet İttifaqına hücum etməsi üçün qurban vermiş oldular. 1939-cu ilin əvvəllərində məhşur burjua tarixçisi A. Toynoi yazırdı ki, Münxen sövdələşməsini imzalamaqla İngiltərə və Fransa Hitlerə Mərkəzi Avropada sərbəstlik vermiş oldu.

Bu hadisədən sonra parlamentin leyborist fraksiyası icma palatasında onun əleyhinə səs verdi. Leyboristlər partiyasının nümayəndəsi Corc Leynsori 1938-ci ildə yazırdı ki, nə Almaniya hökuməti, nə də alman xalqı müharibə istəyər. Bu şərtlə ki, ona dünya ehtiyatlarının bazarının bir hissəsi verilsin. Almaniyanın

Avstriya və Çexoslavakiyanın bir hissəsini işğal etməsi alman hərbi sənaye potensialını gücləndirdi və gələcəkdə daha güclü silahlanmasını asanlaşdırdı. Bu isə İngiltərə hökumətinin gözünü açmış oldu. Hələ 1938-ci ilin aprelində İngiltərə hökuməti yenidən silahlanma haqqında xüsusi proqram tərtib etdi. Bu proqramın sxemində nəzərdə tutulurdu ki, yaxın illər ərzində 12 min yeni təyyarə buraxılsın. Aviasiya sənayesi inkişaf etdirilsin. Bununla bərabər ingilis ordusunun yenidən silahlanması üçün tədbirlər qəbul edildi. Yeni dövlət, həmçinin xüsusi silah zavodları tikildi. 1937-ci ildən başlayaraq strateji materiallar ehtiyatı toplanmağa başlandı. 1938-ci ildə ərazi üzrə ordudakıların sayı 186 min idi. Bütün bu tədbirlərə baxmayaraq İngiltərə Almaniyadan xeyli geri qalırdı. Əgər 1938-ci ildə Almaniya öz milli gəlirinin ¼ hissəsinin və ya 1710 min funt- sterlinqi silahlanmaya sərf edirdisə, İngiltərə isə milli gəlirinin cəmi 7%-ni, yəni 358 min funt-sterlinqi silahlanmaya sərf edirdi. Əgər 1934-38-ci illərdə İngiltərədə silahlanma faizi 250-yə çatmışdısa, bu Almaniyada 470-ə bərabər idi. Bunu səbəbi İngiltərənin hakim dairələrinin belə bir fikrə əsaslanması idi ki, Almaniya zərbəni Qərbə yox, Şərqə vuracaqdır və bu müddətdə İngiltərəninöz silahlı qüvvələrini yenidən təşkil etməsi üçün kifayət qədər vaxtı olacaqdır .

1939-cu ildə beynəlxalq hadisələr İngiltərə hökumətinin təsəvvür etdiyindən daha çox inkişaf etdi. Yeni dünya müharibəsinin reallığa çevrilməsi bir həqiqət oldu. Halbuki İngiltərənin baş naziri Çemberlen yenə də özünü inandırmağa çalışırdı ki, o, Münxen sözləşməsini imzalamaqla bütöv bir nəsli dünya müharibəsindən xilas edib. Lakin 1939-cu ilin martında Almaniyanın Çexoslavakiyanı işğal etməsi onun bu fikrini alt-üst etdi. 1939-cu ilin martında Çemberlenin xarici siyasətindən narazılıq kəskinləşdi. Xüsusilə mühafizəkarların arasında da ona qarşı qəzəb yarandı. Çemberlen hökuməti hiss etdi ki, artıq Hitleri sakitləşdirmək mümkün deyil. Çexoslavakiyanın işğalı Almaniyanın qüdrətini artırdı. Çemberlenin siyasətinə qarşı münasibəti kəskinləşməsinin hə daxili, həm də beynəlxalq səbələri vardır. Artıq Almaniya İngiltərə və Fransa üçün ciddi rəqibə çevrilmişdi. Eyni zamanda İngiltərə hökuməti inandırıcı məlumat aldı ki, alman hərb maşını Polşaya qarşı deyil, qərbə yürüşə hazırlaşır. Bu isə İngiltərə üçün dəhşətli təhlükə idi. 1939-cu ilin yanvarında İngiltərə hökuməti ABŞ prezidentinə



məlumat verirdi ki, Hitler belə bir məsələyə baxır ki, qərbə hücuma keçməklə, şərqdəki əməliyyatları üçün əlverişli şəraiti təmin etsin. Bununla əlaqədar 1939-cu ilin aprelində İngiltərədə silahlanma 1938-ci il ilə müqayisədə 2 dəfə artırıldı. 1939-cu ilin iyulunda hərbiyə qoyulan vəsaitin yenidən artırılması nəzərdə tutuldu. İngiltərənin hərbi doktrinası kəskin dəyişdirildi. Quru qoşunları üçün məhdud funksiya anlayışından əl çəkildi .İngiltərə hökuməti Fransanın müdafiəsinin özünün müdafiəsi üçün vacib olduğunu elan etdi. Bunun üçün yüksək səviyyədə fransız-ingilis danışıqları başladı. Belə bir qərar qəbul olundu ki, Avropa materikində birgə hərəkət üçün 19 piyada və 2 süvari diviziya təşkil edilsin. 1939-cu ilin yanvarın15-də İngiltərə tarixində birinci dəfə olaraq dinc dövrdə məcburi hərbi mükəlləfiyyət elan olundu.

1939-cu ilin martında Almaniya Polşaya bir sıra tələblərini elan etdi. Almaniyanın Polşaya tələblər sürməsi İngiltərənin Avropada maraqlarına uyğun deyildi. 1939-cu ilin martın 31-də Çemberlen Polşanın təhlükəsizliyinə təminat verdiyini elan etdi. Çemberlen parlament qarşısında çıxışında göstərdi ki, əgər Polşa təcavüzə məruz qalarsa, İngiltərə öz xüsusi qüvvələri ilə Polşa hökumətinə təcavüzkara qarşı müqavimət göstərməkdə kömək edəcəkdir.

Mussolini Hitlerdən geri qlamamağa çalışaraq 1939-cu ilin aprelin 7-də Albaniyanı işğal etdi. Çemberlen hökuməti bu hadisədən bir az keçməmiş Mussoliniyə məktub göndərdi ki, əgər o daha bir təcavüzə əl atsa, İngiltərə onunla müharibəyə başlayacaqdır. Albaniyanın işğalına cavab olaraq Çemberlen hökuməti Yunanıstanın və Rumıniyanın təhlükəsizliyinə təminat verdiyini elan etdi. Eyni zamanda Çemberlen hökuməti Türkiyə ilə əməkdaşlıq haqqında danışıqlara başladı. Bu hadisədən çox keçməmiş Britaniya hökuməti Hollandiyanın, İsveçrə və Danimarkanın da təhlükəsizliyini təmin etmək barədə təklif irəli sürdü. Lakin bu ölkələr bu təklifdən imtina etdilər. Bütün bu sazişlərə Hitler 1939-cu ilin 27 aprelində 1936-ci il İngiltərə -Almaniya dəniz sazişini və Polşaya hücum etməmək haqqında paktdan imtina etməklə cavab verdi. 1939-cu il mayın 22-də Almaniya ilə İtaliya arasında hərbi ittifaq haqqında müqavilə bağlandı. Çemberlen hökumətinin 1939-cu ilin mart-aprel aylarında apardığı danışıqla isə ingilis xalqını sakitləşdirməyə, həmçinin Hitlerə təyzyiqi gücləndirməyə xidmət edirdi. Lakin Berlində

Çemberlenin apardığı tədbirlərə kifayət qədər əhəmiyyət verilmirdi. İngiltərə hökuməti öz hərbi qüvvələrinin qüdrətini çox ləng artırırdı. İngiltərənin real siyasət yeridən xadimləri, məsələn, Uinston Çörçill belə hesab edirdi ki, artıq müharibə real idi, ondan qaçmaq olmazdı. Bir cüzi ümid qalmışdı ki, bu da Rusiya iilə ittifaq idi. Lakin Çemberlen hökuməti və onun tərəfdarları Çörçillə hesablaşmırdılar. Bu zaman Almaniya artıq Avropada müharibəni genişləndirirdi və hər gün bəşəriyyət fəlakətə doğru gedirdi. 1939-cu ilin martın 19-da artıq Almaniyanın Rumıniya üçün də təhlükə yaratdığını görəndə İngiltərə SSRİ-yə müraciət etməli oldu. 1939-cu ilin aprelin 14-də İngiltərə SSRİ-yə Almaniyanın ona qonşu olan dövlətlərdən hər hansı birinə hücum edəcəyi təqdirdə müqavimət göstərəcəyini bəyan etməyi təklif etdi. Lakin SSRİ rəhbərliyi başa düşdü ki, İngiltərə bununla Almaniya ilə SSRİ-ni təkbətək müharibə aparmağa sövq etmək istəyir. 1939-cu ilin mayın 9-da İngiltərə hökuməti Moskvaya bildirdi ki, sovet hökuməti İngiltərə və Fransaya kömək etmək mənasında öz üzərinə öhdəlik götürməlidir. Lakin onların verdikləri təkliflər SSRİ üçün qəbuledilməz idi. 1939-cu il mayın 27-də SSRİ bu barədə öz fikrini İngiltərə və Fransaya bildirdi. İngiltərə və Fransa SSRİ ilə danışıqları 1939-cu ilin yayınadək davam etdirdi. Lakin bu danışıqlar heç bir nəticə vermədi.

1939-cu ilin martında Almaniyanın Düsseldorf şəhərində Britaniya sənaye federasiyası ilə Alman impriya sənaye qrupu arasında saziş bağlandı. Sazişdə nəzərdə tutulurdu ki, hər iki sənaye sistemi daha geniş əməkdaşlıq edə bilər. Bu sazişdən sonra İngiltərə ilə Almaniya arasında danışıqlar başlandı. Bu danışıqlar 1939-cu ilin iyununda başlanmışdı və iyula qədər davam etdi.

İngiltərə belə güman edirdi ki, onun Almaniya ilə danışıqları Almaniyanın SSRİ-yə qarşı müharibəyə başlaması ilə nəticələnər. Ona görə də onlar bir tərəfdən SSRİ, digər tərəfdən Almaniya ilə danışıqlar aparmaqla onun diqqətini qərbdən yayındırmaq istəyirdilər. 1939-cu ilin yayında Almaniya SSRİ-yə müraciət etdi ki, onunla hücum etməmək barədə müqavilə bağlasın. 1939-cu ilin avqustunda beynəlxalq vəziyyətin kəskinləşdiyi bir dövrdə SSRİ iki şərtdən birini qəbul etməli idi. Ya Almaniyanın təklifini qəbul etməli, ya da ona qarşı müharibəyə başlamalı idi. Nəticədə 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında müqavilə bağlandı. Bu müqavilə ilə SSRİ müəyyən müddətə vaxt qazandı.



**İkinci dünya müharibəsi dövründə İngiltərənin beynəlxalq vəziyyəti və xarici siyasət fəaliyyəti**

İngiltərə, Fransa, ABŞ-ın təcavüzkara qarşı vahid cəbhə yaratmaq istəməmələri İkinci dünya müharibəsinin başlanması səbəblərindən biri oldu. 1939-cu ilin sentyabrın 1-də Almaniya Polşaya hücum etdi. Hitler belə güman edirdi ki, İngiltərənin hakim dairələri Polşaya görə Almaniyaya müharibə elan etməzlər. Hitler Polşaya hücum ərəfəsində öz generallarına demişdi ki, "mən bu yazıq Çemberlen və Daladyeni Münxendə tanımışam. Onlar hədsiz qorxaqdırlar və hücum etməzlər." Əslində Çemberlenin xarici siyasəti Hitleri buna inandırmışdı. Polşanın işğalı Almaniyanın hərbi gücünü daha da artırdı. Əgər İngiltərə hakimiyyəti bilsəydi ki, Almaniya oradan birbaşa SSRİ-yə hücum edəcək, narahat olmazdı. Lakin Polşaya hücum İngiltərədə belə başa düşüldü ki, Almaniya nəinki Qərbi .Avropada, hətta dünyada da öz hegemonluğunu qurmaq istəyir. Bu İngiltərənin maraqlarına zidd olduğundan İngiltərə Almaniyanın bu mövqeyi ilə barışa bilməzdi. Məhz buna görə də İngiltərə ilə .Almaniya arasında müharibə başladı. Belə ki, İngiltərə Almaniyaya ultimatum verdi ki, Polşadan qoşunlarını geri çəksin. Almaniya isə buna əhəmiyyət vermədi. Ona görə də 1939-cu il sentyabrın 3-də İngiltərə Almaniyaya müharibə elan etdi.

İngiltərənin Almaniyaya müharibə elan etməsi daxili vəziyyətlə də əlqədar idi. 1939-cu ilin sentyabrında Londonda olan ABŞ-ın səfiri Kennedi göstərirdi ki, Əgər İngiltərə hökuməti Almaniya ilə sülh bağlasa idi, bu hökumət ilk növbədə öz xalqı tərəfindən kənara atılmış olardı. İngiltərə ilə eyni vaxtda Fransa da Almaniyaya müharibə elan etdi. İkinci dünya müharibəsi yanğını Avropanı əhatə etdi.

İkinci dünya müharibəsi italyan-alman qrupu ilə ingilis-fransız qrupu arasında imperialist müharibəsi kimi başladı. Bununla bərabər qeyd etmək lazımdır ki, İngiltərə üçün müharibə hələ başlandığı andan müəyyən mənada antifaşist, ədalətli xarakter daşıyırdı. 1939-cu ilin sentyabrından 1940-cı ilin aprelinə qədər Qərbi Avropada hərbi əməliyyatlar çox kiçik həcmdə olduğundan bu tarixdə "oturaq" müharibə də adlanır.

İngiltərə Almaniyaya müharibə elan etdikdən dərhal sonra mühafizəkarlar koalision hökumət təşkil etmək istədilər. Bu hökumətin tərkibinə leyboristlər və liberallar da daxil edilməli idi.. Leyboristlər İngiltərənin Almaniyaya müharibə elan etməsini bəyənsələr də, liberallarla birlikdə Çemberlenin təklifini qəbul etmədilər. 1939-cu ilin sentyabrın 8-də mühafizəkarlar, leyboristlər və liberlallar "siyasi saziş imzaladılar. Çemberlen hökumətinin tərkibinə məşhur siyasi xadim U.Çörçill də daxil oldu. Çörçill hələ vaxtilə İngiltərənin müharibə təhlükəsi ilə əlaqədar silahlandırılması tərəfdarı idi. Həmçinin A.İden də hökumətin tərkibinə daxil edildi. Bütün bunları Çemberlen xalqın nəzərində öz nüfuzunu qaldırmaq üçün edirdi.

İngiltərə və Fransa tərəfindən aparılan hava müharibəsi çox məhdud xarakter daşıyırdı. Ancaq açıq dənizdə Alman gəmilərinə hücumla kifayətlənirdi. İngiltərə bombardımançı aviasiyası öz funksiyasını Almaniya üzətində təbliğat aparmaqla bitmiş hesab edirdi. Almaniya isə "qəribə" müharibədən Qərbi Avropanın digər ölkələrinə hücuma hazırlaşmaq üçün istifadə etdi. 1939-cu il noyabr ayının 17-də və dekabr ayının 4-də İngiltərə və Fransa arasında iqtisadi və maliyyə məsələlərinə dair müqavilə imzalandı. 1940-cı il mart ayının 29-da isə ingilis-fransız ali hərbi şurası birgə qərar qəbul etdi ki, istər İngiltərə, istərsə də Fransa bir-birilə razılaşmadan ayrılıqda Almaniya ilə sülh bağlamayacaqlar. Artıq 1940-cı ilin yazında İngiltərə kontinentə 400 min qoşun çıxartdı. İngiltərənin silahlı qüvvələrinin və ingilis hərbi təsərrüfatının təşkili müharibənin birinci mərhələsində nizamsız idi. İngiltərənin hakim dairələri belə hesab edirdilər ki, ölkəni hərbi sistemə salmağa tələsmək lazım deyildir. Onlar iqtisadi siyasətdə biznesi yenə də əsas iş hesab edirdilər.

Sovet-Fin müharibəsi başlanan zaman İngiltərənin hakim dairələri SSRİ-yə qarşı böhtan kampaniyasına başladı. İngiltərə mətbuatı, kilsəsi, parlament və hökumət üzvləri Sovet ittifaqını təcavüzkar dövlət kimi göstərdilər və onun Millətlər Cəmiyyətindən çıxarılmasına səs verdilər. Ölkədə antisovetizm dalğası gücləndi. Fəhlə sinfinin qabaqcıl dairələri ingilis hakim dairələrinin SSRİ əleyhinə təbliğatına qarşı çıxırdılar. İngiltərədə çoxsaylı mitinq və yığıncaqlar keçirildi ki, onun iştirakçıları Sovet ittifaqını müdafiə edən qətnamə qəbul etdilər. İngiltərənin hakim dairələri belə güman



edirdilər ki, Sovet-Fin müharibəsi SSRİ-nin xeyli zəifləməsinə gətirib çıxardacaqdır. Onlar Finlandiyaya kreditlə, hərbi ləvazimatla kömək edirdilər. 1940-cı il martın 19-da icma palatasındakı çıxışında Çemberlen məlumat verirdi ki, İngiltərə Finlandiyaya Sovet-Fin müharibəsi zamanı 101 təyyarə, 114 min silah, 185 min mərmi 100 top vermişdir. Həmçinin 400 dəniz minası, 50 min əl qumbarası, 15700 bomba, 800 rabitə vasitəsi, 200 tank əleyhinə silah və s. vermişdir. Bununla bərabər İngiltərə hökuməti Finlandiyaya könüllü dəstələr də göndərmişdi. Həmçinin İngiltərə Finlandiyaya silahlı qoşun da göndərməyə hazırlaşırdı. 150 min nəfərdən ibarət İngiltərə - Fransa ekspedisiya korpusu Finlandiyaya getmək üçün hazırlanmışdı. Eyni zamanda Sovet İttifaqına Şimaldan İngiltərə və Fransa fakim dairələri hücuma keçməyə hazırlaşmağı planlaşdırırdılar. Bu tarixdə Şimal planı da adlanırdı.

İngiltərə və Fransa Türkiyə ilə danışıqlar aparmağa başladılar ki, o, SSRİ-yə qarşı müharibədə iştirak etsin.

Fransız generalı Qamelen öz memuarlarında yazırdı ki, ingilis-fransız qoşunlarının hücumu Almaniya ilə İngiltərə və Fransa arasında müharibəyə son qoymalı idi. Cənubdan SSRİ-yə qarşı hücuma keçmək üçün Yaxın Şərq aviasiya bazasına çevrilməli idi. Oradan onlar SSRİ-nin iqtisadi cəhətdən ən mühüm strateji nöqtələrini - Bakını, Batumini, Potini, Qroznını tutmağı planlaşdırmışdılar. Bu əməliyyat "yağ və bıçaq" adlanırdı. Bu zərbəni dənizdən ingilis-amerikan donanması müdafiə etməli idi. Sonra Türkiyə, İran və Əfqanıstan ərazisindən SSRİ-yə qarşı quru qoşunlarının əməliyyatı nəzərdə tutulurdu. SSRİ əleyhinə şimaldan və cənubdan eyni vaxtda hücuma keçilməli idi. Lakin onların gözlədiyi kimi alınmadı. Məğlub olduğunu görən Finlandiya hökuməti SSRİ-dən sülh istəməyə məcbur oldu. 1940-cı il martın 12-də Moskvada SSRİ və Finlandiya arasında sülh müqaviləsi bağlandı. SSRİ ilə Finlandiya arasında bağlanan sülh müqaviləsi SSRİ-yə hücum etmək haqqında ingilis-fransız planını puça çıxartdı. 1940-cı ilin 27 martında Londondakı İmperiya müdafiə komitəsində ingilis və fransız hərbi xadimlərinin müşavirəsi təşkil edildi. Belə qərara gəlindi ki, Qara dəniz blokadaya alınsın və bu yolla Qafqaz nefti ələ keçirilsin, Aralıq dənizinin şərq hissəsində isə hərbi hava qüvvələri yerləşdirilsin.

Nevil Çemberlendə beynəlxalq hadisələrin gedişini əvvəlcədən görmək və düzgün başa düşmək bacarığı yox idi. Onun

bu keyfiyyəti 1940-cı ilin aprelin 5-dəki çıxışında da özünü göstərdi. O çıxışında bildirdi ki, "müharibədən keçən 7 ay göstərdi ki, biz müharibə başlanandan daha çox indi qələbəyə on qat artıq ümid edirik. Bir şey müəyyən edilmişdir ki, Hitler avtobusa gecikmişdir." Lakin bu nitqdən cəmi üç gün sonra Almaniyanın Danimarka və Norveçə hücum etməsi Çemberlenin real siyasətçi olmadığını sübut etdi.

1940-cı ilin aprelində Almaniya Qərbdə fəal hərbi əməliyyatlara başladı. 1940-cı ilin aprelin 9-də alman komandanlığı hücum etməmək haqqında Almaniya-Danimarka müqaviləsini pozaraq Danimarkaya yeridi və bir gündə onu tutdu. Həmçinin onlar Norveçin mühüm limanlarına da desant çıxartdılar. Danimarka və Norvaeçin işğalı almaniyanın şimalda vəziyyətini yaxşılaşdırdı. Danimarka və Norveçin işğalı "qəribə müharibə"yə də son qoydu. Almaniya, İngiltərə və Fransa arasında həqiqi müharibə başladı. Nəhayət, İngiltərə hökuməti onun üçün nə qədər böyük təhlükə yarandığını başa düşdü. Ona görə də Norveçin köməyinə gəldi. İngilis və fransız qoşunları Norveçin şimalında və cənubunda yerləşdirildi. Lakin onlar tezliklə Norveçi tərk etməli oldular.

Norveçin məğlubiyyəti İngiltərənin hərbi və beynəlxalq nüfuzunu azaltdı. Bu ölkə daxilində də narazılığı artırdı. 1940-cı ilin 7-8 mayında icmalar palatasında hərbi vəziyyət haqqında debat başlandı. Çemberlen hökuməti təkcə müxalifət tərəfindən deyil, mühafizəkarlar tərəfindən də ciddi tənqidə məruz qaldı. Mühafizəkarlar qrupuna Emeri və Daff Kuper başçılıq edirdi. Hökumət müharibə aparmaqda gücsüzlükdə və bacarıqsızlıqda günahlandırılırdı. L.Corc Çemberlenə məsləhət gördü ki, baş nazir postundan istefa versin. Emeri Çemberlenə müraciət etdi ki, o bu kürsüdən getsin və xalq ondan azad olsun. Hökumətə etimad məsələsi üzrə keçirilən səsvermədə Çemberlenin leyhinə cəmi 81 səs verilmişdi. Halbuki onun keçməsi üçün ən azı 200 səs yığması lazım idi. Höhumətin əleyhinə təkcə leyboristlər və liberallar deyil, həmçinin 33 nəfər mühafizəkarlardan da səs verdilər. Mühafizəkarların 60 üzvü isə bitərəf qaldı. Nəticədə sübut olundu ki, Çemberlen hökuməti hakimiyyətdə qalmağa qadir deyil. Çemberlen çalışdı ki, koalision hökumət yaratsın. Lakin leyborist və liberallar bundan imtina etdilər. Bundan sonra Çemberlen yenidən özünün yaxın dostları ilə və ilk növbədə həmfikiri Qalifaksın rəhbərliyi ilə hökumət qurmağa çalışdı. Lakin



bu cəhd də alınmadı. Bütün bunlardan sonra Çemberlen 1940-cı il mayın 10-da istefa verməyə məcbur oldu. Yeni kabinet isə mühafizəkarların liderlərindən olan U. Çörçill tərəfindən təşkil edildi. Çörçill hökumətinin tərkibinə leyboristlər və liberallar da daxil olduğuna görə o koalision hökumət idi. Yeni hökumətin tərkibində 54 mühafizəkar, 17 leyborist. 4 liberal, 4 nasional-leyborist, və 8 müstəqil var idi.

Çemberlen hökumətin tərkibində qaldı. Lakin onun həmfikirləri hökumətə daxil olmadılar. Onların yerinə Çörçillin tərəfdarları, o cümlədən Daff Kuper, Emeri və s. daxil oldular. Əksər mühafizəkarlar ingilis bank və inhisarlarına rəhbərlik edənlər idi. Çörçill bildirdi ki, hökuməti hamı müdafiə edərsə, İngiltərə müvəffəqiyyətlə müharibə apara bilər. Leyboristlərin nümayəndələri hökumətdə mühüm yerlər tutdular. əmək naziri vəzifəsi Enni Beninə tapşırıldı. Morlison hərbi təchizat üzrə portfel naziri, Qrinfel dağ-mədən sənayesi naziri, Dalton iqtisadi mübarizə naziri təyin edildi. Qrinbuda hərbi islahatın müəyyən sahələrini idarə etmək tapşırıldı. Qalifaks xarici, Ettle isə daxili siyasətdə mühüm simaya çevrildi. Ölkədə kəskin siyasi böhran şəraitində hakimiyyətdə mühafizəkarlar qaldılar, çünki onları sağ leyboristlər müdafiə etdilər. Çörçill özü də 1940-cı ilin yayında hökumət təşkil edildikdən sonra parlamentdə elan etdi ki, onu məhz leyboristlər partiyası baş nazir təyin etmişdir.

1940-cı ilin mayın 10-da Almaniya Hollandiya, Belçika və Lüksemburqdan sonra Fransaya hücum etdi. Hollandiya təslim oldu və Hollandiya hökuməti İngiltərəyə köçdü. Fransa hökuməti İngiltərəyə əlavə kömək üçün müraciət etdi. 1940-cı ilin mayın 14-də Fransa baş naziri Reno Çörçill qarşısında məsələ qaldırdı ki, təcili surətdə əlavə 10 eskadrilya təyyarələri vesin ki, bunlar alman tankları və bombardımançı təyyarələrinə qarşı mübarizə aparsın. 1940-cı ilin mayın15-də Çörçill Parisə gələrək faktiki olaraq əlavə köməkdən imtina etdi. O, elan etdi ki, İngiltərənin özünə də əlavə qüvvə lazımdır. 1940-cı ilin 21 mayında almanlar La-manş boğazına çıxdılar və Fransa, Belçika və İngiltərənin iki ekspedsiya ordusunu mühasirəyə aldılar. 22 mayda Çörçill yenidən Parisə gəldi. Bu dəfə hər iki ölkə birlikdə almanların hücumunun təhlükəəsini azaltmaq planı tərtib etdilər. Lakin bu plan İngiltərənin öz öhdəliyini yerinə yetirməməsi üzündən baş tutmadı. Bunu fransız qoşunlarının baş komandanı Beyqan da belə hesab edirdi. İngiltərə ordusu Fransa

döyüşlərində lazımi səviyyədə vuruşmadığına görə almanlar irəlilədilər. 1940-cı ilin mayın 27-də ingilis qoşunlarına əmr verildi ki, Dyunkerkdəki qoşunları təcili İngiltərəyə gətirsinlər. Köçürmə prosesi iyunun 4-ə qədər davam etdi. Lakin köçürmə prosesində 880 səhra silahını, 340 iri kalibri, 500 zenit silahını, 850 tank əleyhinə silahı, 2000 pulemyotu, 700 tankı, 20 min mtoskileti, 45 min avtomatı almanlara qoyub çıxdılar.

Dyunkerkdən cəmi 335 min əsgər köçürüldü. Dyunkerk möcüzəsi vasitəsilə Hitler Almaniyası, əslində İngiltərəni yola gətirmək və İngiltərə ilə saziş bağlamaq istəyirdi. 1940-cı ilin iyunun 22-də Fransa təslim oldu. 1940-cı ilin iyunun 10-da faşist İtaliyası da İngiltərə və Fransaya müharibə elan etdi. Bunun nəticəsində 1940-cı ilin yayında İngiltərənin vəziyyəti xeyli pisləşdi. Aralıq dənizində, Afrikada da onun əleyhinə faşist İtaliyası müharibə aparmağa başladı. İngiltərə bu dövrdə Avropada bütün müttəfiqlərini itirmişdi. Bütün tarixi ərzində İngiltərə belə məhv olmaq təhlkükəsi ilə qarşı-qarşıya qalmamışdı. Bu, əslində Hitleri sakitləşdirmək siyasətinin nəticəsi idi. Almaniya Fransanı işğal etdikdən sonra İngiltərəni öz tərəfinə çəkməyə cəhd etdi. Alman generalı Kurt yazır ki, "bu, bizim strateji planımızın uzun müddət mühüm tərkib hissələrindən biri idi". Almaniya çalışırdı ki, İngiltərə ilə birgə Sovet İttifaqına hücum etsin. Lakin İngiltərə bu məsələdə Hilerlə razılığa gəlmədi. Belə olduqda 1940-cı ilin iyunun 16-da Hitler İngiltərəyə qarşı "Dəniz şiri" planını tərtib etdi.

1940-cı ilin yayında Almaniya İngiltərəyə hücum üçün ən əlverişli şəraitdən istifadə edərək avqustda İngiltərə əleyhinə hərbi hava əməliyyatına başladı. Avqustun 15-də alman aviasiyası İngiltərəyə birinci güclü zərbəni vurdu. İngiltərə ilə Almaniya hərbi hava qüvvələri arasında döyüşün başlanğıcı oldu və bu proses sentyabr ayının 15-nə qədər davam etdi. Ilk vaxtlarda üstünlük Almaniya tərəfdə idi. Onların 1990 bombardmançı, 1530 qırıcı təyyarələri, İngiltərənin isə 450 bombardmançı, 600 qırıcı təyyarəsi var idi.

Hava döyüşləri zamanı hər iki tərəf itkilər verdi. İngilis təyyarəçiləri bu döyüşlərdə özlərinin həqiqi vətənpərvər olduqlarını sübut etdilər. Sentyabrın ortalarında "Dəniz şiri" planı qeyri-müəyyən müddətə təxirə salındı.Emissarlar Hess və Kauskofer yenə də İngiltərənin hakim dairələri ilə danışıqlar aparmağa başladılar.



Lakin bu danışıqlar bir nəticə vermədi. İngiltərənin daxili siyasi vəziyyəti də Almaniya ilə danışıqaları qeyri-mümkün edirdi. Faşizmə qarşı ingilis xalqında kəskin nifrət yaranmışdı. və o öz dövlətindən tələb edirdi ki, faşistlərə qarşı qəti tədbirlərə əl atsın.

Fransanın məğlubiyyəti və Qərbi Avropada Almaniyanın işğalları kapitalizm dünyasında münasibətləri dəyişdirdi və ingilis-amerikan münasibətlərinin yaranmasına gətirib çıxartdı. ABŞ hiss etdi ki, İngiltərənin tutulması ABŞ-ın özünün də milli mənafeləri üçün təhlükə yaradır. Onların hər ikisinin faşizmə qarşı birləşməsi zəruridir. 1940-cı ilin iyununda ABŞ Ingiltərəyə 500 mindən artıq tüfəng, 22 min pulemyot, 895 səhra topu, 55 min tapança pulemyot verdi. İngilətrə hökuməti çalışırdı ki, ABŞı tez bir zamanda Almaniyaya qarşı hərbi əməliyyatlara cəlb etsin. Çörçill 1940-cı ilin iyununda İngiltərənin ABŞ-dakı səfiri Lotiana tapşırıq vermişdi ki, ABŞ hökuməti ilə danışıqlar aparsın və onu inandırsın ki, onlar xarici siyasətdə birgə hərəkət etməklə ümumi düşmənə qalib gələ bilərlər. 1940-cı ilin iyunun 23-də ingilis-amerikan danışıqları başladı və bu sentyabrın 2-də ingilis-amaerikan sazişi bağlanması ilə nəticələndi. Həmin sazişə əsasən amerikanlar ingilislərə 50 esminas gəmi verməli idi. Əvəzində isə İngiltərənin Nyufaundlend, Bermud, Yamayka, Santa-Lyuçii, Triniada, Antiqua, Baham adaları və Britaniya Qvineyası 99 il müddətinə ABŞ-a dəniz və hərvi bazalarını yaratmaq üçün icarəyə verilirdi.

1940-cı ilin sonunda İngiltərə ilə ABŞ arasında pul vasitələri ilə əlaqədar məsələ meydana çıxdı. ABŞ prezidenti Ruzvelt bildirdi ki, ABŞ bütün hərbi sürsatı İngiltərəyə yarı qiyməti ilə verəcək. 1941-ci ilin martın 11-də ABŞ-da Lend-liz haqqında qanun qəbul edildi. Həmin qanuna əsasən İngiltərə imkan əldə etdi ki, Amerikadan aldığı malların pulunu dərhal ödəsin. Bütün malların göndərilməsi ABŞ büdcəsi hesabına ödənməli idi. ABŞ-ın hakim dairələri əslində istəyirdilər ki, təhlükəli düşmən olan Almaniyanı zəifllətsinlər, həmçinin İngiltərəni özlərinə tabe və asılı dövlətə çevirsinlər.

İtaliyanın və Almaniyanın Afrikada və Yaxın Şərqdə hərbi əməliyyatlara başlaması İngiltərənin vəziyyətini çətinləşdirdi. İtaliya Afrikada 1940-cı ilin ikinci yarısında Britaniya Somalisinə və Keniyaya soxulmaqla İngiltərəyə qarşı hərbi əməliyyata başladı. Eyni zamanda italyan hərbi qüvvələri Sudana soxuldular, Kassal və

Kallabadı işğal etdilər. Həmçinin onlar Misir və Liviyaya 1940-cı ilin sentyabrında hücum edərək məşhur strateji məntəqə olan Sdi-barranı tutdular. İngiltərə bu hadisələri laqeyd qarşılaya bilməzdi. Ona görə də 1940-cı ilin dekabrında yaxşı hazırlıqdan sonra İngiltərə İtaliyaya qarşı Afrikada müharibəyə başladı. Dekabrın 11-də ingilis qoşunları Sdi-barranı və bütün Kirenaikanı tutdular. 1941-ci ilin aprelinə qədər ingilislər Britaniya Somalisini, Keniyanı, Sudanı İtaliya qoşunlarından təmizləməklə bərabər, italyan müstəmləkələri olan Somalini və Eritoriyanı da tutdular. 1941-ci ilin martında İngiltərənin Ekspedisiya ordusu Yunanıstana daxil oldu. Cənub-Şərqi Avropa ölkələrinin işğalı və satillet vəziyyətinə düşməsi hitlerçilərin Yaxın Şərqdə öz fəaliyyətini fəallaşdırmağa imkan verdi. 1941-ci ilin aprelin 3-də İraqda Almaniyanın köməyi ilə dövlət çevrilişi oldu və hakimiyyətə faşistlərin agenti Vişd-el Haylani gəldi. Bu, İngiltərənin İraq və İran neftindən məhrum edilməsinə, həmçinin Aralıq dənizində mövqelərin itirilməsinə səbəb olardı. Bu səbəbdən 1941-ci ilin mayın 2-də ingilis qoşunları İraqdakı alman-faşist qoşunlarına hücuma keşdilər və bunun nəticəsində yenidən öz hakimiyyətlərini bərpa etdilər. Suriya və Livanda da hitlerçilər məğlubiyyətə uğradılar. Ona görə də onların Yaxın Şərqi tutmaq planı pozuldu. Lakin 1941-ci ilin yazında Afrika və Aralıq dənizində yenidən hərbi vəziyyət İngiltərə üçün əlverişli olmayan şəraitdə dəyişildi. 1941-ci ilin mart-aprel aylarında alman-italyan qoşunları birgə İngiltərəyə qarşı hücuma keçdilər və Misirdə müəyyən əraziləri tutdular.

İngiltərə-SSRİ münasibətləri 1940-1941-ci ilin birinci yarısında müxtəlif istiqamətlər üzrə davam edirdi. Bir tərəfdən hakim dairələr SSRİ əleyhinə təbliğatı gücləndirir, digər tərəfdən isə başa düşürdü ki, SSRİ ilə münasibətlərin normallaşması zəruridir. İngiltərə xarici siyasətində bu iki istiqamətin hər biri ziddiyətli və qeyri-ardıcıl xarakter daşıyırdı. Bu dövrdə SSRi, İngiltərə-Fransa və başqa dövlətlər arasındakı münasibətlərə ehtiyatla yanaşır və bitərəflik siyasəti yeridirdi. 1941-ci ilin mayında Almaniya təkrar cəhd göstərdi ki, İngiltərə ilə danışıqlar aparsın və onunla birgə SSRİ üzərinə hücuma keçsin. Bu məqsədlə missioner Rudof Hess Londona göndərildi. Lakin onun hersoq Kanfatenlə danışıqları faydasız oldu. Hess Hitlerin adından İngiltərəyə təcili sülh bağlamağı təklif etdi. Sülhün şərtləri belə idi ki, Almaniya Avropada, İngiltərə də Britaniya imperiyasında sərbəst siyasət yeridə bilərdi. Keçmiş Almaniya



müstəmləkələri isə Almaniyaya qaytarılmalı idi. Rusiya Almaniyanın həyat sahəsinə daxil edilməli idi. İngiltərə İraqdan əl çəkməli idi. İngiltərə və Almaniya ərazisində ingilis və alman əhalisi yerləşdirilməli idi. Çörçill hökuməti isə başqa hökumətlə əvəz edilməli idi. Hessin təklifləri Britaniya hökumətində dar tərkibdə müzakirə olundu. İngiltərədə xalq bu danışıqlardan hiddətləndi. İngiltərədə çoxsaylı mitinqlər keçirildi ki, Hitlerlə heç bir danışığa gedilməsin. Hitlerin təklif etdiyi şərtlər İngiltərə üçün əlverişli olmadığı üçün qəbul edilmədi.

1941-ci il iyunun 22-də Hitler Almaniyasının elan etmədən Sovet İttifaqına hücum etməsi İngiltərədə də böyük narahatlığa səbəb oldu. Çörçill elə həmin gün saat 9-da radio ilə çıxışında bildirdi ki, İngiltərə Sovet İttifaqına öz imkanları daxilində istənilən iqtisadi və texniki köməyi edəcəkdir. Çörçill və onun hökumət üzvləri Sovet hökumətində sosialist quruluşu olduğunu unutmamışdılar. Bəyanatda məqsəd o idi ki, Sovet İttifaqına kömək İngiltərənin özünün müdafiəsi üçün zəruri idi. Çörçill özü bu barədə Kolbillə söhbətində demişdi ki, əgər Almaniya inanırsa ki, öz ətrafında İngiltərənin silahlı qüvvələrini toplayacaq, o səhv edir. Çünki İngiltərə Sovet İttifaqının tərəfində vuruşacaq. Çörçill deyirdi ki, “mənim ancaq bir məqsədim var, o da Hitleri məhv etməkdir. Əgər Hitler cəhənnəmə düşərsə, mən icma palatasında bu şeytanın ünvanına xoşagələn bir bəyanat verərəm”. Çörçill qarşısına belə bir sual qoyurdu ki, nə üçün Hitler Rusiya ilə müharibə aparır. Bu barədə o 1941-ci ilin avqustun 24-də radio ilə çıxış etdi və öz sualına aşağıdakı cavabı verdi: “Almaniyanın məqsədi odur ki, Rusiyadan sonra öz qüvvələrini Britaniya adasına atsın. Əgər ona bunun üçün ruh verilsə, o bundan sonra bizi, daha sonra ABŞ-ı, sonda isə bütün Qərb yarımkürəsini özünə tabe edəcək”. İngiltərə müharibənin birinci dövründə ikitərəfli siyasət yeridirdi. Çörçill Sovet hökumətinə münasibətdə əvvəlki kimi qalırdı. O, özü etiraf edirdi ki, “son 25 il ərzində heş kim mən qədər kommunizm əleyhinə olmayıb. Mən heç bir sözümü geri götürmürəm”. Çörçill SSRİ ilə ittifaqa girsə də, bundan hər iki dövləti zəiflətməkdə istifadə etməyə çalışırdı. Çörçill 1942-ci iln yanvarın 8-də İdenə yazırdı: “Heç kim qabaqcadan deyə bilməz ki, hansı ordu qalib gələcək. SSRİ-nin bizim köməyimizə daha çox ehtiyacı olacaq.

Çörçill Sovet İttifaqı ilə münasibətlərin inkişafına həm də o baxımdan yanaşırdı ki, müharibədən sonra SSRİ-yə istədikləri tələbləri qəbul etdirsinlər. Bununla belə antifaşist koalisiyasının yaranması Sovet İttifaqının xarici siyaəstinin böyük qələbəsi və SSRİ-yə qarşı ABŞ və İngiltərənin istər-istəməz mühüm məsələlərdə razılaşması idi. 1941-ci ilin iyunun12-də Moskvada Almaniyaya qarşı müharibədə birgə hərəkət haqqında İngiltərə-Sovet sazişi bağlandı. 1941-ci ilin avqustun14-də Nyufaundlend adasında “Ardjenşiya” limanının bazasında İngiltərənin baş naziri Çörçillə ABŞ prezidenti Ruzvelt arasında 8 maddədən ibarət deklarasiya imzalandı. Bu tarixə “Atlantika xartiyası” adı ilə daxil oldu. İngiltərə və ABŞ-ın rəhbərləri bu deklarasiya ilə bildirdilər ki, onlar nasist tiranın qqəti məhvinə nail olacaqlar, dünyada yeni ərazi dəyəişikliklərinə imkan verməyəcəklər, Xalqların mənafeyi əleyhinə gedilməyəcək. Bununla bərabər xalqların hansı idarəetmə formasını seçmək arzusuna da maneçilik göstərilməyəcək. Bütün ölkələrlə iqtisadi, sosial təminat, yüksək həyat səviyyəsinin təmin edilməsi sahəsində əməkdaşlıq həyata keçiriləcək. Həmçinin göstərilirdi ki, dünya silahlanma yükündən azad olacaq. Sovet hökuməti 1941-ci ilin sentyabrın 24-də Atlantika xartiyasına qoşuldu. Atlantika xartiyası ingilis-amerkan blokunun formalaşmasında mühüm mərhələ oldu. 1941-ci ilin avqustunda Sovet İttifaqı və İngiltərə İran haqqında yeni aksiya qəbul etdilər. Nəticədə eyni vaxtda İran ərazisinə şimaldan sovet, cənubdan ingilis qoşunları daxil oldu. 1942-ci ilin yanvarın 29-da İngiltərə-Sovet-İran szişi bağlandı. Həmin sazişdə göstərilirdi ki, İngiltərə və SSRİ İranın suverenliyinə, müstəqilliyinə toxunmayacaq.

Sağ qüvvələr bütün vasitələrdən istifadə edərək Sovet ittifaqına qarşı xalqda nifrət yaratmağa çalışırdılar. Hətta İngiltərə müdafiə nazirliyinin ekspertləri bildirirdilər ki, Sovet ittifaqı ilə müharibə 6 aydan sonra Almaniyanın qələbəsi ilə başa çatacaq. İngiltərənin hakim dairələri Sovet İttifaqı ilə yaxınlaşmaqda iki məqsəd güfürdü. Bir tərəfdən SSRİ-nin köməyi ilə Almaniyanı zəifltəmək, digər tərəfdən isə Alamniyanın köməyi ilə SSRİ-ni zəiflətmək,. birini digəri ilə toqquşdurmaq planı hazırlayırdılar. Çörçilll bu barədə 1941-ci ildə aviasiya sənayesi naziri Mur-Barabazona da etiraf etmişdir.



1941-ci ilin sonunda müharibə Sakit okean hövzəsinə də yayıldı. Burada ingilis-amerikan ziddiyətlərinin uzun illərdən bəri davam etməsi və kəskinləşməsi müharibəyə gətirib çıxartdı. Eyni zamanda Sakit okeanda və Asiyada İngiltərə və Yaponiya münasibətləri kəskinləşdi. Çünki Yaponiya İngiltərənin Uzaq Şərqdə marağı olan ölkələrə soxulmağa başladı. İngilis və amerikan hakim dairələri çalışırdılar ki, Yaponiya da Sovet İttifaqına qarşı müharibəyə cəlb olunsun. Bu Uzaq Şərqdə Münxen siyasəti idi. Avropada olduğu kim Uzaq Şərqdə də bu plan baş tutmadı .Yapon imperialistləri belə hesab etdilkər ki, Uzaq Şərqdə SSRİ-yə yox, İngiltərə, ABŞ-a hücum etsələr daha yaxşı olar. Yapon silahlı qüvvələri 1941-ci il dekabrın 7-də Perl-Xarbor limanını bombardman etdilər. Dekabrın 8-də isə İngiltərə və ABŞ Yaponiyaya müharibə elan etdi. 1941-ci ilin dekabrın 5-dən 6-na keçən gecə Moskva ətrafında Sovet qoşunlarının əks hücuma keçməsi İkinci dünya müharibəsinin gedişində mühüm hadisə idi. “Məğlubedilməz ordu” haqqında əfsanə puç oldu. Uzaq Şərq və Sakit okeanda gedən müharibə İngiltərə və ABŞ-ı belə bir qənaətə gəlməyə məcbur etdi ki, SSRİ-nin köməyi olmadan İkinci dünya müharibəsində qələbə çalmaq mümkün olmayacaq. 1942-ci il may ayının 26-da Londonda Hitler Almaniyasına qarşı müharibədə ittifaq və Avropada müharibədən sonra əməkdaşlıq və qarşılıqlı kömək haqqında müqavilə bğlandı. Müqavilə 1942-ci ilin iyunun 1-dən qüvvəyə mindi. Həmçinin həmin müqavilədə Avropada ikinci cəbhənin açılması məsələsi də öz əksini tapmışdı.

İngiltərənin hakim dairələrinin xalq kütlələrinin diqqətini ikinci cəbhənin açılması məsələsindən yayındırmalarına baxmayaraq, bu məsələ ingilis xalqının və ölkənin siyasi həyatında mühüm yer tuturdu. Müharibənin müddətini qısaltmaq üçün ikinci cəbhənin açılması vacib idi. Hələ 1942-ci ilin avqustunda Çörçill Moskvaya gəldi. O, Sovet İttifaqına söz verdi ki, 1943-cü ilin yayında ikinci cəbhə açılacaq. Etiraf etmək lazımdır ki, o zaman ingilis xalqında Sovet İttifaqına böyük rəğbət var idi. Stalinqrad altında alman faşizmi üzərində qələbə bütün dünya xalqları kimi ingilis xalqında da qələbəyə inam hissini gücləndirdi. Baş nazir Çörçill istəyirdi ki, ikinci cəbhə Şimali Fransadan deyil, Avropanın yumşaq qarınaltısı adlanan Balkanlardan açılsın. Bu yolla SSRİ-nin silahlı qüvvələrinin Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinə daxil olması üçün

"sanitar kardonu" təşkil edilməli idi. Lakin 1943-cü ilin noyabrında olan Tehran konfransında ABŞ və İngiltərə SSRİ qarşısında öhdəlik götürdülər ki, 1944-cü ilin mayın 1-dən gec olmayaraqonlar ikinci cəbhəni Şimali Fransadan açacaqlar.

1943-cü ilin yayında ingilis-amerikan qoşunları Afrikanı faşist qoşunlarından azad etdilər və 1943-cü ilin iyunun 10-da Siciliya adasına çıxdılar. 1943-cü il avqustun 18-də onu tutdular. İtaliyanın cənubunu tutduqdan sonra burada Bodulyonun başçılığı ilə yeni hökumət yaradıldı. 1943-cü il sentyabrın 3-ündə İtaliya təslim oldu. 1943-cü ilin oktyabrın 13-də İtaliya Almaniyaya müharibə elan etdi. 1944-cü il tarixə həlledici qələbələr ili kimi daxil oldu. Sovet silahlı qüvvələrinin qələbəsi 1944-cü ilin iyunun 6-da Şimali Fransada ikinci cəbhənin açılmasına gətirib çıxartdı. İngilis qoşunları Yunanıstanın, Belçikanın, Fransanın, və digər ölkələrin azad edilməsində iştirak etdilər.

1944-cü ilin sonunda ingilis-amerikan qoşunlarının hücum əməliyyatının ləngidilməsindən istifadə edən alman komandanlığı Arden rayonunda əks hücuma keçərək, onları mühasirəyə aldı. Belə olduqda Çörçill SSRİ Ali baş komandanlığına kömək üçün müraciət etdi. 1945-ci ilin yanvarın 12-də Sovet ordusu 1200 km-lik Baltik dənizindən Karpat dağlarına qədər olan bir cəbhədə hücuma keçdi. Bu almanları məcbur etdi ki, Ardendəki qoşunların bir hissəsini şərq cəbhəsinə gətirsinlər. Bu müttəfiqlərin qoşunlarını xilas etdi.

1945-ci ilin fevralın 4-dən 12-ə qədər Krımda Yaltada 3 dövlət başçısının, yəni Çörçillin, Ruzveltin və Stalinin iştirakı ilə konfrans keçirildi. Konfransda əsas məsələ müharibədən sonra Almaniyanın taleyi məsələsi idi. Həmin konfransda İngiltərə və ABŞ çalışırdılar ki, alman xalqını öz təsirlərinə salmaq üçün Almaniya ərazisinin parçalanması haqqında qərar çıxarsınlar. Lakin SSRİ bunun qəti əleyhinə çıxdı.

Krım konfransının qərarlarını İngiltərə hakim dairələri mürəkkəbləşmiş şəraitin təsiri altında qəbul etdilər. Onlar belə güman edirdilər ki, Çörçill Krım konfransının qərarları altından imza atmayacaq.

Əslində Çörçill Krım konfranısının qərarları altından imza etməklə belə hesab edirdi ki, İngiltərə və ABŞ, Almaniya və Yaponiyaya qarşı axıra qədər uğurlu müharibə aparmaq üçün Sovet İttifaqının köməyinə ehtiyac hiss edirlər.



1945-ci ilin aprelin 16-da Sovet ordusu Avropada müharibəni qurtarmaq üçün sonuncu əməliyyata başladı.

Çörçill 1945-ci ilin aprel ayının 25-də Trumenə zəng edərək bildirdi ki, Hitler ona bildirmişdir ki, Almaniya ABŞ və İngiltərə qarşısında təslim olmağa hazırdır. Onlar İsveç kralı Bernardın vasitəsi ilə danışıqlar aparmışdılar. 1954-cü ildə Çörçill özü açıq şəkildə etiraf etmişdi ki, müharibə qurtarqdıqdan dərhal sonra o, ingilis ordusunun baş komandanı Montohomeriyə əmr etmişdir ki, diqqətlə və dəqiqliklə almanların silahını yığıb anbarlarda yerləşdirsin. Bundan isə məqsəd sovetlər hücuma yenidən keçəcəyi təqdirdə bu silahları almanlara təkrar paylamaq idi. 1945-ci il may ayının 2-də Berlin qarnizonu təslim oldu. 1945-ci ilin mayın 8-dən 9-na keçən gecə ABŞ, SSRİ, İngiltərə və Fransanın nümayəndələri qarşısında feldmarşal Keytel Almaniyanın danışıqsız təslim olmaq aktına qol çəkdi.

Lakin müharibə Avropada sona yetsə də, Sakit okean hövzəsində gedirdi. Uzaq Şərqdə müharbə 1945-ci il sentyabrın 2-də Yaponiyanın məğlubiyyəti ilə başa çatdı.

Beləliklə altı il davam edən 61 dövlətin iştirak etdiyi müharibə antihitler koalisiyasının qələbəsi ilə başa çatdı.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ İNGİLTƏRƏNİN DAXİLİ VƏZİYYƏTİ

İkinci dünya müharibəsinin başlanması İngiltərə iqtisadiyyatının müharibə şəraitinə uyğun şəkildə qurulmasını tələb edirdi. Lakin İngilis inhisarları yenə çalışırdılar ki, nəinki öz əvvəlki gəlirlərini itirməsinlər, hətta daha çox qazansınlar. Əmək şəraiti kəskin şəraitdə pisləşdi. Hərbi sənaye ilə məşğul olan müəssisələrdə iş günü 12 saata çatdırıldı. Eyni zamanda iş həftəsi də uzadıldı. Yeddi günlük və 72 saatlıq iş həftəsi tətbiq edildi. Lakin bütün bunlara baxmayaraq fəhlələrin məhsuldarlığı müharibədən əvvəlkindən də daha az idi, çünki onları bu ağır iş həddsiz zəiflədirdi.

1940-cı ilin birinci yarısından hərbi xərclər sürətlə artmağa başladı. Bu işsizliyin artmasına səbəb olurdu. 1939-cu ilin sentyabrında işsizlərin sayı 1 milyon 261 min nəfər idisə 1940-cı ilin birinci yarısında onların sayı 1 milyon 471 minə çatdı. Topdansatış qiymətlər 1938-ci ildə 100 götürsək, 1939-cu ildə bu 101,4 idisə, 1940-cı ildə 134,6, 1941-ci ildə 150,3 oldu. Müharibənin başlanması digər ölkələrdə olduğu kimi İngiltərədə də müxtəlif qanun və qərarların 1939-cu ilin avqustundan başlayaraq verilməsinə səbəb oldu. Bu qanunlardan biri 1939-cu ilin avqustunda verilmiş fövqəladə səlahiyyətlər haqqında akt idi. Bu akt ictimai təhlükəsizliyi, ölkənin müdafiəsini, ictimai əsayişi təmin etməyi, müharibəni səmərəli aparmağı nəzərdə tuturdu. 1939-cu ilin 14 dekabrına qədər 60 akt və 800 müxtəlif sərəncamlar verilmişdir ki, onlar ölkə həyatının müxtəlif sahələrini nizama salmağa xidmət edirdi. Lakin bütün bu aktlardan İngiltərə iqtisadiyyatını hərbi istiqamətdə yenidən qurmaq üçün çox zəif istifadə olunurdu

Ölkə daxilində Çörçillin əlində qeyri-məhdud hakimiyyət toplanmışdı. O, ilk anda hökumətin nəzdində beş nəfərdən ibarət hərbi kabinet təşkil etmişdi. Hərbi kabinetin üzvləri Çörçill, Klementt Ettli, Artur Qrinvid, Nevil Çemberlen, Qalifaks idilər. Müharibənin gedişində hərbi kabinetin üzvləri artırıldı. Kabinet hər gün iclas edir və müharibənin gedişinə dair məsələləri müzakirə edirdi. Bundan başqa Çörçill 60-70 nəfərlik nazirlər heyətinə də rəhbərlik edirdi. Əslində Çörçill diktator kimi fəaliyyət göstərirdi. 1940-cı ilin mayın 22-də hökumət parlament vasitəsilə fövqəladə səlahiyyətlər haqqında



qanun qəbul edildi ki, bu qanuna görə baş nazir bütün səlahiyytləri öz əlində toplayırdı, həmçinin hökumət ölkənin iqtisadi həyatına, insan və material ehtiyatına nəzarət etmək hüququ alırdı. 22 may qanunundan sonra bir sıra qanunlar qəbul edildi ki, bunlar əslində müharibə dövründə İngiltərə konstitusiyasını təxirə salmaq demək idi. Məsələn: 18 B fəramanına görə daxili işlər nazirinə icazə verilirdi ki, istənilən şəxsi günahını elan etmədən və məhkəməsiz tutsun. 2 D fərmanına görə isə istənilən qəzet məhkəməsiz bağlana bilərdi.

1305-ci sərəncamə əsasən tətildə iştirak edən istənilən şəxsə cəza verilə bilərdi. O, cərimə oluna və ya həbs oluna bilərdi.

Çörçill 1941-ci ilin yanvarın 22-də parlament qarşısındakı çıxışında fəhlə sinfinin ölkədə əsas qüvvə olduğunu qeyd edirdi. Çörçill hökuməti 1940-cı ilin yayında qanun verdi ki, hərbi gəmilərin hamısı hərbiyə sərf edilməlidir. İngiltərə hökumətinin ölkənin müdafiəsi üçün gördüyü tədbirlərdən biri də mülkü özünümüdafiə dəstələrinin təşkili idi. Onları dərhal qərb cəbhəsinə, alman qoşunlarına qarşı hücuma göndərirdilər. Bu dəstələrin tərkibində 17 yaşdan 65 yaşına qədər Britaniya sakinləri iştirak edə bilərdi. Könüllülər hərbi forma və silahla təchiz edilirdilər. Könüllülərin dəstələrdə xidməti işdən ayrılaraq olmalı idi. 1941-ci ilin iyununda bu dəstələrin tərkibində 1 milyon 603 min döyüşçü var idi. Ölkənin iqtisadiyyatı müharibənin gedişinə uyğun qurulmağa başladı. Artıq ölkədə 1942-ci ildə 31 aviasiya zavodu fəaliyyət göstərirdi. Maşınqayırma zavodları hərbi zavodlara çevrildi.

İngiltərə ilə eyni zamanda bütün Britaniya imperiyasına daxil olan dövlətlər də müharibə vəziyyətində idi. Onların zəngin ehtiyatları İngiltərənin apardığı müharibə üçün sərf olunurdu. 1939-cu ilin sentyabrın 3-də Yeni Zelandiya və Avstraliya, sentyabrın 5-də isə Cənubi Afrika ittifaqı, sentyabrın 8-də Kanada Almaniyaya müharibə elan etdi. Lakin Cənubi Afrika ittifaqında bir sıra ixtilaflar meydana gəldiyinə görə Hersoq hökuməti istefaya getdi və hakimiyyətə Simesta hökuməti gəldi. Hindistanın vitse-kralı Lilint-Qo sentyabrın 3-də elan etdi ki, bu müharibədə İngiltərənin tərəfində iştirak edir. Dominionların iqtisadiyyatı da hərbi qaydada qurulmağa başladı. Müharibə digər tərəfdən sənayenin inkişafını sürətləndirdi. Kanada sənayesinin istehsal indeksi 1935-1939-cu illə müqayisədə 1941-ci ildə 177-yə çatdı. Avstraliyada hərbi xərclər əgər 1939-1940-cı ildə 55 milyon funt idisə, 1940-41-ci ildə 410-414 milyon funta

çatdı. Kanadadan 1941-ci ildə 470 min adam, Avstraliyadan isə 90 min adam İngiltərənin tərəfində müharibədə iştirak edirdi. Müharibənin ilk ilində Hindistanda insan və material ehtiyatlarının səfərbərliyə alınması İngiltərənin siyasəti üzündən ciddi maneələrə rast gəldi. Bütün İngiltərənin iqtisadiyyatının müharibə üçün səfərbərliyə alınması inhisarçıların maraqlarına təsir etdi. İnhisarlar hökumətin sifarişlərini yerinə yetirməyə başladılar. İngilis inhisarçıları bütün güclərini ona sərf edirdilər ki, müharibədən maksimum qazanc əldə etsinlər. İngiltərə fəhlə sinfi müharibənin ilk ilində müharibə ərəfəsində olduğundan daha pis yaşayırdılar. Əmək şəraiti kəskin pisləşdi. 1940-cı ildə iş günü 12 saat və daha artıq oldu. İş həftəsi isə 72 saata və 7 günə çatdırıldı. İstirahətsiz işləmək fəhlə sinfinin qüvvəsini zəiflətdi. Ona görə də daha az məhsul istehsal olundu. Bunun qarşısını almaq üçün hökumət bu işə qarışmalı oldu. Rəsmi hökumət orqanı – sənaye fəhlələrinin sağlamlıq problemini öyrənən büro təşkil edildi. İş gününün uzadılması və əməyin insentifikasiya edilməsi fəhlələr arasında bədbəxt hadisələrin də sayını çoxaltmışdı. Əgər 1938-ci ildə 179 min adam istehsalatda bədbəxt hadisə ilə qarşılaşmış və ondan 944 adam ölmüşdüsə, 1941-ci ildə 269 min adam bədbəxt hadisə ilə qarşılaşmış və 1646 adam ölmüşdü. Fəhlə sinfi belə şəraitdə işləməsinə baxmayaraq onların əmək haqqı müharibə ərəfəsində olduğuna nisbətən aşağı idi. İngiltərə iqtisadçısı Nikolson hesablamışdı ki, xalis əmək haqqı 1938-ci ilə nisbətən 1940-cı ildə 4%, 1941-ci ildə isə 11% aşağı düşmüşdü. İnhisarçılar ingilis fəhlə sinfinin vətənpərvərlik hisslərindən istifadə edərək öz gəlirlərini artırdılar və fəhlə sinfinin real əmək haqqına hücuma keçdilər. Rəsmi məlumata görə inhisarçıların gəlirləri 1938-ci ildəki 1368 min funt sterlinqlə müqayisədə 1941-ci ildə 2190 min funt sterlinq oldu.

Fəhlə sinfinin əmək haqqının aşağı düşməsi və iş gününün uzadılması müharibənin ilk günündə onun narazılığının artmasına səbəb oldu. İngiltərə zəhmətkeşləri Hitler təcavüzünə qarşı mübarizəni ədalətli iş hesab edirdi. Məhz buna görə də İngiltərə xalqı igidliklə müharibənin bütün ağırlığını öz çiynində çəkməyə razı idi. Bu xalq Hitlerə imkan vermədi ki, onun iradəsini sındıra bilsin. Bu xalqın iradəsini nə hava hücumları, nə Britaniya adasına soxulmaq təhlükəsi, nə də aclıq blokadası təhlükəsi sındıra bildi. Bununla belə ingilis zəhmətkeşləri görürdülər ki, İngiltərənin hakim dairələri



müharibədə imperialist məqsəd güdür və Çemberlen və Çörçill hökumətinin siyasəti də buna xidmət edir. Həmçinin zəhmətkeşlər bunu da görürdülər ki, kapitalistlər müharibədən fəhlə sinfini istismar etmək üçün istifadə edirlər və fəhlənin həyat səviyyəsini aşağı salmaqla öz gəlirlərini artırırlar. Belə şəraitdə İngiltərə fəhlə sinfi iki xətt üzrə mübarizə aparırdı:

1. Onlar faşistlərə qarşı mübarizəni kəsmək və Sovet İttifaqına qarşı mübarizəyə başlamaq haqqında İngiltərə hakim dairələrinin mövqeyinə qarşı idilər.
2. Onlar inhisarların müharibədən istifadə edərək öz gəlirlərini artırmaq və müharibənin bütün ağırlığını fəhlə sinfinin üzərinə qoymaq məqsədinin əleyhinə idilər.

Müharibənin 1939-1941-ci illəri əhatə edən birinci dövründə faşizmə qarşı mübarizə xüsusən güclü vüsət aldı.

1939-1941-ci illərdə tətillərin qadağan edilməsinə baxmayaraq fəhlə sinfi öz həyat səviyyəsini qorumaq uğrunda mübarizəni davam etdirirdi. İlk 3 ayda 40-a qədər yerli əhəmiyyət daşıyan tətillər oldu. 1940-cı ildə iş gününün uzadılması nəticəsində yenidən tətillər artmağa başladı. Həmkarlar ittifaqlarının və leyboristlər partiyasının üzvləri, tredyunionların liderləri hakim dairələrlə əməkdaşlığa qarşı çıxdılar. Onlar göstərirdilər ki, ingilis bujuaziyasının mənafeyini, fəhlə sinfinin həyat səviyyəsinin aşağı salmaq hesabına müdafiə etmək lazım deyildir. Leyboristlər partiyası 1940-cı ildə olan konfransında aşağı təşkilatların ona göndərdiyi qətnamə layihələrini müzakirə etdi. Həmin layihələrdə göstərilirdi ki, leyboristlər partiyası ölkədəki digər siyasi təşkilatlarla siyasi barışığa girməlidir. Yoxsullar komitəsi 1941-ci ilin yanvarında Londonda xalq konventi çağırmaq təşəbbüsü ilə çıxış etdi. Həmkarlar ittifaqının və kooperativ hərakatın 500 nümayəndəsi, şop-stüartların nümayəndələri, yerli özünüidarənin üzvləri, alimlər, hüquqşünaslar və artistlər 1940-cı ilin sentyabrında "İngilis xalqına müraciət" adlı sənəd imzaladılar. Həmin sənəddə xalq konventini təşkil etmək təklif olunurdu. 1941-ci ilin yanvarın 12-də Londonda 2234 nümayəndənin iştirakı ilə xalq konventi açıldı. Konvent geniş xalq kütlələrinin, İngiltərə kökumətinin daxili və xarici siyasətinə qarşı güclü etirazın nümayişi oldu. Koventin proqramının yerinə yetirilməsi İngiltərə hökumətinin fəaliyyətinə böyük təsir göstərdi. Təsadüfü deyildi ki, 1941-ci ilin iyununda Londonda olmuş amerikalı jurnalist Ralf

İnqellas yazırdı ki, İngiltərə hökumətinin vəziyyəti elədir ki, o hadisələrə deyil, hadisələr ona istiqamət verir. Həm də bu sadəcə olaraq xarici siyasi hadisələr deyil, həm də İngiltrənin özündə baş verən hadisələrdir. O zamanki hökumət üzvlərinin hər biri etiraf edirdi ki, onlara bunlar istiqamət verir.

Müharibə dövründə İngiltərənin istehsal qüdrəti xeyli dərəcədə artdı. Bir milyard funt kapital sənayeyə, başlıca olaraq isə hərbi sənayeyə qoyuldu. Fəaliyyətdə olan müəssisələrin bir çoxunda yeni sexlər təşkil edildi. Bu tədbirlər ən çox maşınqayırma sənayesində həyata keçirildi. Demək olar ki, bütün kapital qoyuluşunun 70%-i maşıınqayırma, aviasiya, gəmiqayırma, silah istehsalı, elektrotexnika sənayesinə qoyuldu. Həmçinin sənaye sahələrinin mərkəzləşməsi sahəsində də mühüm işlər görüldü. Mülki sənaye sahələri hərbi sənaye üzrə mərkəzləşdi. Toxuculuq, kağız, ayaqqabı, şüşə sənayesi, fotoaparatura, oyuncaq, parfümeriya, idman ləvazimatı, zərgərlik məmulatı sənayelərinin də mərkəzləşməsi üzə çıxdı. Bu isə o sahədəki işçilərin bir çoxunun hərbi sənayeyə cəlb edilməsinə imkan verdi. İngiltərədə silah istehsalı ən yüksək səviyyəsinə 1943-cü ildə çatdı. Müharibə dövründə İngiltərədə 131 min təyyarə, 264 min aviamotor, 25 min tank, 300 mindən çox pulemyot, 160 milyon artileriya qurğusu, 8,3 milyard patron, 1 milyona yaxın avtobomba istehsal edilmişdir.

İngiltərə sənayesi müharibə illərində son dərəcə qeyri-bərabər inkişaf edirdi. Mexanikləşmənin rolunun son dərəcə artması maşınqayırma sənayesinin inkişafına son dərəcə diqqət yetirilməsinə gətirib çıxartdı. Xüsusi poladların buraxılışı artdı. Yüngül metallar, kimyəvi məhsullar daha çox istehsal edilməyə başladı. Elektirk enerjisinə tələbat gücləndi. Eyni zamanda bu enerjinin əsas hissəsi sənayeyə sərf olunmağa başladı. Maşınqayırma sənayesində ən çox dəzgaqayırma, aviasiya sənayesinə, gəmiqayırma, nəqliyyat vasitələri islehsalına diqqət verildi. Elektrosənaye və rabitə vasitələri istehsalı daha çox artdı. Müharibə illərində İngiltərədə 15 min aviasiya sənayesi müəssisəsi vardı. Burada 2 milyon fəhlə və qulluqçu çalışırdı. Gəmiqayırma sənayesinin işi müharibədən əvvəlki illə müqayisədə 60-70% artdı. 1939-cu ilə 1945-ci il arasında kimya sənayesinin inkişafı daha da sürətləndi. Bu sahədə işləyən fəhlələrin sayı 286 mindən 550 min adama çatdı. Elektrik enerjisi istehsalı 1939-cu ildəki 27733 milyon kilovatt saatdan 1944-cü ildə 39649



milyon kilovatt saata çatdı. İngiltərə metallurgiyası öz məhsullarını İkinci dünya müharibəsi dövründə artırmadı. 1944-cü ildə çuqun istehsalı 6737 min ton idi ki, bu da 1937-ci il səviyyəsindən xeyli aşağı idi. 1937-ci ildə İngiltərənin çuqun istehsalı 8493 ton idi. Polad istehsalı da xeyli ixtisar edildi. Məsələn: əgər 1939-cu ildə 13,2 milyon ton polad istehsal edilirdisə, 1945-ci ildə 11,8 milyon ton polad istehsal edilirdi. Buna səbəb çuqun və lomun çatışmaması idi.

Müharibə İngiltərədə dövlət-inhisarçı kapitalizmin inkişafını irəlilətdi. Müharibə dövründə dövlət aparatının İngiltərə inhisarçılarından asılılığı gücləndi. İnhisarçıların hakimiyyəti həm iqtisadi cəhətdən, həm də ölkənin siyasi həyatında əhəmiyyətli dərəcədə gücləndi. Bu isə nəticədə istehsalın və kapitalın təmərküzləşməsini və mərkəzləşməsini artırdı. İri inhisarlar Ikinci dünya müharibəsində dövlətin təşkil etdiyi əsas ingilis iqtisadi orqanlarını öz əllərində saxlayırdılar. İstehsalat Nazirliyi, Aviasiya sənayesi Nazirliyi, İqtisadi müharibə Nazirliyi, Təchizat Nazirliyi, Hərbi nəqliyyat Nazirliyi, İş və quruculuq Nazirliyi müharibə dövründə xüsusi olaraq ölkənin iqtisadi həyatını idarə etmək üçün yaradılmışdı. Bu nazirliklərə rəhbərlik edənlər – Oliver Lidltlon, Llevelis, Endro, Dunkan, Sandro, Biverbrik, Lord Vulton və başqaları, həm dövlət aparatının başçıları, həm də İngiltərənin iri inhisarçılarının nümayəndələri idilər.

İnhisarlar öz əllərində dövlət hakimiyyətinin olmasından istifadə edərək iqtisadi və siyasi mövqelərini möhkəmləndirərək, xırda və orta müəssisələri aradan qaldırmaq, istehsalı və kapitalı təmərküzləşdirməyi gücləndirmək məqsədi daşıyırdılar. İnhisarlar hərbi sifarişlər qəbul etməklə çoxlu gəlir əldə edərək özləri üçün əlverişli şərait yaratmış oldular. Bir sözlə, müharibədən gələn gəlirlər, ölkənin milli gəlirini artırmağa, xalqın vəziyyətini yaxşılaşdırmağa deyil, inhisarçıların cibinə axırdı.

Bütün bunların əvəzində isə İngiltərənin dövlət borcları 1938-ci ildəki 7,1 milyard funt sterlinqdən artaraq 1945-ci ildə 21,4 milyard funt-sterliqə çatdı. Bu isə 1938 ci illə müqayisədə 3 dəfə çox idi. İkinci Dünya müharibəsi köklü sürətdə əmək bazarında da dəyişikliklərə səbəb oldu. Ordu və hərbi sənaye daha çox adam tələb edirdi. İngiltərədə fəhlə sinfi işçi qüvvəsi problemi vaxtı ilə işdən azad edilmiş işsizlər, əvvəllər işləməmiş adamlar, ən əsas isə qadınlar hesabına həll edilirdi. İş günü, iş vaxtı uzadılırdı. Milyondan artıq

işsiz sənayedə işə cəlb edildi və ya silahlı qüvvələrə çağırıldı. Əgər 1939-cu ildə rəsmi məlumata görə İngiltərədə 1270 min işsiz var idisə, 1944-cü ildə bu rəqəm ixtisar dilərək 54 min oldu. İşsizlik ancaq o sahələrə qalırdı ki, hansı ki, onlarda xammalla təminat yox idi. İngiltərə hökumətinin məlumatına görə, ordu və sənayedə iş üçün səfərbərliyə alınanların sayı 1939-cu illə müqayisədə 3500 min adam artmışdı. Səfərbərliyə alınan bütün kişlərin 93,6%-i 14 yaşdan 64 yaşa qədər olan kişlər idi. Səfərbərliyə alınan qadınların 44,4%-i isə 14 yaşdan 59 yaşına qədər olan qadınlar idi. Bu yaşda olan 16 milyon qadından 7,1 milyonu istehsalla və hərbi xidmətlə məşğul idi. Bu qadınlardan 2 milyonu ilk dəfə İkinci dünya müharibəsi zamanı işləməyə başlamışdır.

İngiltərə silahlı qüvvələrinin köməkçi hissələri əhəmiyyətli dərəcədə qadınlardan ibarət idi. Belə hissələrdə çalışan qadınların sayı 467 min nəfər idi. İkinci dünya müharibəsi dövründə qadınların orduda və istehsalatda rolu xeyli dərəcədə böyük idi. Lakin qadınların daha fəal iştirakına qadın əməyi ilə kişi əməyi arasında fərq qoyulması mane olurdu. Əvvəllər işsiz qalan və işləməyən qadınların hesabına sənaye əlavə 3 milyon işçi qüvvəsi əldə etmiş oldu. İş həftəsinin uzadılması sənaye sahələrində 15-20 %-ə, hərbi sənayedə isə 30%-ə çatdı. Bu yolla ingilis sənayesinə yenidən 1 milyon işçi cəlb edilmiş oldu.

İşçi qüvvəsindən istifadənin dövlət tərəfindən nizama salınması 1914-1918-ci illərlə müqayisədə hərtərəfli deyildi. 1940-cı ilin mayın 22-da fövqaladə səlahiyyətlər haqqında qanun fəhlə sinfini müəssisələrə təhkim edirdi. Milli mükəlləfiyyətlər haqqında qanun isə, kişi və qadınları təkcə xidmət və ordu üçün deyil, həm də sənaye və nəqliyyatda məcburi icbari əməyə cəlb edirdi. Mühüm işlər haqqında 1941-ci il 5 martda verilmiş əmrdə fəhlələrə əmək nazirliyinin xəbəri olmadan işi tərk etməyi qadağan edirdi. Eyni zamanda bu əmrdə sahibkarların da fəhlələri özbaşına işdən azad etməsi qadağan edilirdi. Həyat göstərdi ki, bu qanunlar müəyyən dərəcədə inhisarçıların mənafeyinə uyğun gəlmir. Ona görə də onların narazılığı başladı. Məşhur iqtisadçılar Kuçinski və Xeyni Man 1944-cü ildə yazırdılar ki, “məcburi tədbirlərə ancaq fəhlə sinfi riayət edir. İntizam sahibkarlar üçün deyildir”

Fəhlə sinfi fədakarlıqla çalışaraq Hitler qarşısında faşizmdən xilas olmaqla öz doğma vətəni olan İngiltərəyə kömək etməyi başlıca



məqsədi hesab edirdi. Fəhlə sinfinin vətənpərvərlik əhval-ruhiyyəsi müharibənin gedişində daha da artdı. Əmək təşəbbüsçüləri gücləndi. Fəhlələr müharibə dövründə çoxsaylı təkliflər irəli sürdülər ki, bunlarında əksəriyyəti istehsalın maksimum artmasına yönəldilmişdir. Bu işdə daha fəal rolu sex starostaları və hər şeydən əvvəl maşınqayırma sənayesinin sex starostalarının milli şurası oynayırdı. 1941-ci ilin yayında təşkil edilən istehsal komitələri əmək məhsuldarlığının yüksəldilməsində mühüm rol oynayırdılar. 1941-ci ilin avqustun 23-də onların Londonda konfransı keçirildi. Bu konfransda İngiltərənin iri hərbi müəssisələrinin nümayəndələri toplanmışdı. Milli konfrans Avropada ikinci cəbhənin açılması ideyasını müdafiə etdi və istehsalın artırılması üçün yeni təkliflər hazırlamağı məsləhət gördü. 1941-ci ilin sentyabrında Britaniya tridionlarının növbəti konqresi belə bir qərar qəbul etdi ki, hər şey cəbhə və qələbə üçün səfərbərliyə alınmalıdır. 1943-cü ilin sonuna yaxın artıq maşınqayırma müəssisələrində 2850 istehsal komitəsi fəaliyyət göstərirdi ki, onların da hər birinin 150 nəfər üzvü var idi. Komitələr həmçinin bütün xüsusi və dövlət, sənaye müəssisələrində fəaliyyət göstərirdi. 40 mindən artıq istehsal komitələri kömür şaxtalarında çalışırdı. İstehsal komitələri tikintilərdə də mövcud idi. Bəzi hallarda sənaye komitələri fəhlə nümayəndələri ilə müəssisənin inzibati orqanları arasında toqquşma meydanına çevrilirdi. Buna səbəb o idi ki, fəhlələr komitəyə faşizm üzərində qələbəni sürətləndirən hərəkət orqanı kimi baxırdılar. İstehsal komitələrinin təşəbbüskarlığının nəticəsi idi ki, hansı idarələrdə istehsal komitələri fəaliyyət göstərirdisə orada məhsuldarlıq 52%, digərlərində isə 42% idi.

İngiltərə iqtisadiyyatının yenidən qurulması kənd təsərrüfatına da şamil edilirdi. Kənd təsərrüfatının geri qalması İngiltərə kapitalizminin keyfiyyətinin parlaq nümayişi idi. Koloniyalardan və dominionlardan alınan ucuz ərzaq və xammal ingilis hakim dairələrinin kənd təsərrüfatının inkişafı üçün bütün mümkün imkanlardan istifadə etməkdən uzaqlaşdırmışdır. Bunun nəticəsi idi ki, İngiltərə xalqı, əsasən xaricdən gətirilmiş ərzaqlardan istifadə edirdi. İkinci dünya müharibəsi zamanı xaricdən ərzaq gətirilməsinin çətinləşməsi, nəqliyyat çətinlikləri, həmçinin bir çox ölkələrin düşmənlər tərəfindən tutulması hökuməti məcbur etdi ki, ölkə daxilində kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər

görsün. Bu məqsədlə fermerlərə subsidiyalar verildi. Mühüm kənd təsərrüfatı məhsullarına satınalma qiymətləri qoyuldu. İşçi qüvvəsinin kənd təsərrüfatına cəlb edilməsi və mexanikləşmənin güclənməsi üçün tədbirlər görüldü. Bütün bunlar əkin sahələrinin ümumi sahələrinin xeyli artmasına səbəb oldu. 1939-cu ildə əkin sahəsi 11870 min akr idisə, 1945-ci ildə o 17866 min akra çatdı. Taxıl bitkilərinin məhsul yığımı çoxaldıldı. 1939-cu ildə əgər 1642 min ton taxıl yığılırdısa, 1945-ci ildə 2174 min tona çatdı. Arpa istehsalı 880 tondan 2096 tona çatdı. Darı isə 1783-dən 2862 tona çatdı. Kartofun yığımı isə 4364 min tondan 8702 min tona çatdı. Əgər müharibəyə qədər ölkə ərazisində əldə olunan ərzaq məhsulları ölkə əhalisinin tələbatının 30 %-ni ödəyirdisə, artıq 1943-cü ildə o ölkə əhalisinin tələbatının 40 %-ni ödəməyə başladı. Beləliklə, İngiltərənin ərzaq vəziyyəti bütün müharibə ərzində ABŞ-dakı Lend-liz qanunu əsasında Britaniya imperiyasından böyük miqdarda yeyinti məhsulları gətirilməsinə baxmayaraq, yenə də gərgin olaraq qalmaqda idi.

İngiltərənin fəhlə sinfi bütün müharibə ərzində uzadılmış iş həftəsi şəraitində işləməli oldu. İş həftəsi rəsmi məlumatlara görə 72 saata çatırdı. Demək olar, fəhlələr bazar günü də işləyirdi. İllik məzuniyyətlər və əlavə məzuniyyətlər təxirə salınmışdı. Bütün müharibə ərzində istehsalat səriştəsi olmayan yeni işçilərin istehsalata gəlişi bədbəxt hadisələrin də müharibə ərzində külli miqdarda baş verməsinə gətirib çıxarmışdı. 1938-1942-ci illərdə bədbəxt hadisələrin sayı 75% artmışdı. Ümumiyyətlə müharibənin ilk illəri ərzində yarım milyona qədər adam belə hadisələrin qurbanı oldu ki, onların da əksəriyyəti qadınlar və gənclər idi. İngiltərə fəhlə sinfinin real əmək haqqı müharibəyə qədərki dövrlə müqayisədə müharibə illərində aşağı səviyyədə idi. Nominal əmək haqqı artsa da, bu bazar zənbilini doldura bilmirdi. Lakin nominal əmək haqqı bir də onunla vəziyyəti çətinləşdirirdi ki, o, vergilərin artmasına səbəb olurdu. Sosial konfliktləri müharibə şəraitində həll etmək üçün İngiltərə hökuməti 1941-ci ilin yazında zəruri tələbat malları üzərindəki qiymətin artımının qarşısını almaq üçün müəyyən ölçü götürməyə məcbur oldu. İlk növbədə ərzaq üzərində subsidiyalar yaradıldı. Minimum əmək haqqı məsələsi də hesaba alınmağa başlandı. Üç uşağı olan fəhlələr üçün ailəni fiziki cəhətdən saxlamaq üçün normal əmək haqqı müəyyən olundu. Bu qayda 1943-cü ildən qüvvəyə



mindi. Belə ailələrə hər həftə 105 şillinq verilirdi. Doğrudur, bu sağlamlıq üçün o qədər də kifayət deyildi. Lakin hər halda minimum tələbatı ödəyirdi. Kərpic, kirəmid, toxuculuq, şüşə, dəri, tikiş, yeyinti sənayesində əmək haqqı aşağı idi və onlar minimum əmək haqqının 80-90%-ni alırdı. Kənd təsərrüfatı fəhlələri isə minimum əmək haqqının cəmi 80 %-ni alırdı. Bu qayda ilə fəhlələrin bir hissəsi bütün müharibə ərzində onun iş qabilliyətini bərpa etmək üçün lazım olan əmək haqqını ala bilmədi.

İkinci Dünya müharibəsi dövründə İngiltərə Britaniya imperiyasının resurslarından daha çox istifadə etdi. 1943-cü ildə İngiltərə silahlı qüvvələrində Kanadadan 750 min, Avstraliyadan 800 min, Cənubi Afrika İttifaqından 200 min, Yeni Zelandiyadan 95 min adam iştirak edirdi.

Bütün müharibə ərzində İngiltərədə tətil hərakatı xeyli zəiflədi. Bununla belə, bəzən fəhlələr sahibkarların özbaşınalığına qarşı cavab verməli olurdular. Məsələn: 1942-ci ildə fəhlələr öz əmək haqlarının gündə 2 şillinq artırılmasına nail oldular. Kömür sənayesində vəziyyətlə əlaqədar bu sənaye sahəsində 1944-cü ildə tətillər artdı. Nəticədə hökumət təminat verdi ki, minimum əmək haqqı artırılsın, gənc mədənçilərin vəziyyəti yaxşılaşdırılsın.

İkinci Dünya müharibəsi İngiltərə fəhlə sinfinin siyasi şüurunun artmasında mühüm rol oynadı. Müharibə ərzində həmkarlar ittifaqının rəhbərliyinə çoxlu gənc mütəxəssislər gəldi ki, onlar mübariz əhval-ruhiyyədə idilər. Xalqa yaxşı gələcək ümidi vermək üçün İngiltərənin hakim dairələri iqtisadi həyatı yenidən qurmaq üçün hazırlaşmağa başladılar. Bu plan Birinci Dünya müharibəsi ilə müqayisədə xeyli geniş idi. Bu ümidlə onlar ölkədəki inqilabi əhval-ruhiyyəni zəiflətməyə çalışırdılar. Hələ 1941-ci ildə hökumət başda leyborist Artur Qrannud olmaqla xüsusi komitə təşkil etdi. Qrannud hökumətdə portfelsiz nazir vəzifəsini tuturdu. Bu komitə ayrı-ayrı nazirliklərin yenidən qurma və koordinasiya üzrə problemlərini öyrənmək üçün təşkil edilmişdir. Gələcək üçün planlaşdırılırdı ki, müxtəlif hökumət elmi və digər orqanlar təşkil edilsin. Yenidənqurma problemi təkcə İngiltərə zəhmətkeşləri üçün deyil, İngilis inhisarçıları üçün də maraqlı idi. Yenidənqurma prosesində Britaniya sənaye federasiyası mühüm rol oynayırdı. Bu federasiya hökumətdən tələb edirdi ki, vergi və qiymətlər üzərində nəzarət üzrə mükəmməl sistem yaradılsın. Səhiyyə və xalq təhsilinin

inkişafı sahəsində də bir sıra yenidənqurma işləri görüldü. 1944-cü ilin əvvəllərində 14-15 yaşlı uşaqların xalq təhsili ilə təmin edilməsi haqqında parlament qanun qəbul etdi. Bir çox ingilis fəhlələri müharibə dövründə kömür sənayesinin milliləşdirilməsini tələb edirdilər. Lakin həmkarlar ittifaqlarının və leyboristlər partiyasının rəhbərləri bu tələbə qarşı çıxdılar. Avtomobil, dəmiryolu, daxili su nəqliyyatının milliləşdirilməsi məsələsi də fəhlələr tərəfindən irəli sürülsə də öz real həllini tapmadı.

Müharibənin sonuna yaxın İngiltərənin özündə daxili siyasi problemlər meydana çıxdı. Ən mühüm problemlərdən biri müharibədən sonrakı yenidənqurma problemi idi. Hələ 1943-cü ilin noyabrında İngiltərənin sağ dairələri faşist Mas Şnin və onun tərəfdarlarının həbsdən azad olunmasına nail oldular. Lakin İngiltərənin xalq kütlələri ölkənin iqtisadi həyatının yenidən qurulmasını, iqtisadiyyatın demokratikləşdirilməsini tələb edirdilər. 1945-ci ilin yanvarında həmkarlar ittifaqlarının dünya konqresi keçirildi. Bu konqresdə Ümumdünya həmkarlar ittifaqı konfederasiyası yaradıldı.

Müharibə dövrünün şəraiti ilə əlaqədar olaraq İngiltərədə parlament seçkiləri keçirilmədi və o, müharibənin sonuna qədər təxirə salındı. 1945-ci ilin mayın 24-də Çörçill elan etdi ki, koalisiyalı hökumət istefaya gedir və iyunun 15-də icmalar palatası buraxılır. 1945-ci ilin iyulun 5-də parlamentə seçkilər elan olundu. Iyulun 26-da isə nəticələr elan edilməli idi. Həmin seçkilər nəticəsində Leyboristlər partiyası qələbə qazandı. Klement Ettlinin başçılığı ilə yeni hökumət təşkil olundu.

## BÖYÜK BRİTANİYA 1945 – 1951-ci İLLƏRDƏ

İkincə Dünya müharibəsində İngiltərəyə dəyən zərər SSRİ və Fransa ilə müqayisədə xeyli az idi. Hava bombardımanı İngiltərənin sənaye mərkəzlərinə böyük ziyan vursa da, onun sənaye potensialını o qədər də azaltmadı. İngiltərənin insan itkisi 244 723 nəfər oldu, 277 990 nəfər yaralandı, 50 039 nəfər itkin düşdü. İnsan itkisi Birinci Dünya müharibəsi ilə müqayisədə dörd dəfə az idi.

Bununla belə, İkinci Dünya müharibəsi ingilis imperializminin iqtisadi və siyasi mövqeyinin daha da zəifləməsi ilə nəticələndi. İngiltərə müharibəyə 25,2 mlrd.f.st. xərc çəkdi. Onun



dövlət borcları 1939-cu ildəki 7247,3 mln.f.st-dən 1945-ci ildə 21 473,1 mln.f.st-ə çatdı.

İngiltərənin hərbi itkisi 3000 mln.f.st-ə bərabər idi. Bundan başqa, İngiltərə müharibə dövründə ona Şimali Amerikadan göndərilmiş 1000 mln.f.st-dən artıq qiyməti olan hərbi materialların da xərcini ödəməli idi. Onun digər dövlətlərə də 3000 mln.f.st. borcu vardı.

Müharibə nəticəsində İngiltərənin sənaye məhsullarının ümumi həcmi 1937-ci il səviyyəsinin cəmi 90%-ni təşkil edirdi. İxrac 69 %-ə qədər azaldı. O, Cənubi Amerika, Kanada və Uzaq və Yaxın Şərqdə Avropa və Cənub-Şərqi Asiyada öz mövqelərini ABŞ-a verməli oldu. Bütün bunlar isə büdcə kəsirinin müharibə ərzində 4000 mln.f.st. olmasına səbəb oldu.

Müharibə nəticəsində bir sıra ölkələrin kapitalizm sistemindən qopub-ayrılması başlıca kapitalist dövlətlərinin, xüsusilə İngiltərənin dünya resurslarından istifadə imkanını azaltdı. Dünya bazarında İngiltərənin öz mallarını artırmaq imkanları çətinləşdi.

İkinci dünya müharibəsindən sonra müstəmləkələrdə başlanan milli-azadlıq hərəkatları İngiltərəyə daha çox toxundu. Müstəmləkə və dominionlarla İngiltərənin əlaqələri zəiflədi. Dominionların sürətli inkişafı, onların müstəqilliyini artırdı. Həmçinin, ABŞ-ın İngiltərənin dominionlarına müdaxiləsi də gücləndi.

Xarici siyasət sahəsində də İngiltərənin beynəlxalq mövqeyi zəiflədi. İngiltərə ABŞ-a tabe vəziyyətə düşdü.

Müharibə illərində İngiltərənin vəziyyətində ciddi hərbi-strateji dəyişikliklər baş verdi. Müharibə dövründə ingilis xalqı faşistlərə qarşı igidliklə vuruşsa da, İngiltərə Avropada Hitlet təcavüzünə qarşı dayana bilmədi. Avstraliya və Yeni Zelandiyanı Yaponiyanın təcavüzü təhlükəsindən təkbaşına müdafiə etməyi bacarmadı. Sakit okeanda ingilis donanmasının hərbi əməliyyatlarına rəhbərlik ABŞ komandanlığının əlində idi. Bir sözlə, İkinci dünya müharibəsi nəticəsində İngiltərənin hərbi-strateji mövqeyi ciddi şəkildə pisləşdi. Müharibə İngiltərənin Avropada strateji mövqeyini zəiflətdi. Atom silahının kəşfi də onun Avropada mövqeyinə təsirsiz qalmadı.

Müharibə İngiltərədə istehsalın və kapitalın təmərküzləşməsini, yeni inhisar birliklərinin əmələ gəlməsi prosesini

gücləndirdi. Dövlət tam mənasında inhisarlardan asılı vəziyyətə düşdü. Rəsmi məlumatlara görə İngiltərə inhisarçılarının gəliri 1938-ci ildəki 1368 mln.f.st-dən 1945-ci ildə 2390 mln.f.st-ə çatdı.

Müharibə ölkədə sinfi qüvvələrin nisbətində də əhəmiyyətli dəyişikliklər yaratdı. İri burjuaziyanın mənafeyini müdafiə edən mühafizəkarlar partiyasının nüfuzu bir qədər azaldı, leyboristlər partiyasının mövqeyi möhkəmləndi.

Müharibənin İngiltərə üçün mühüm nəticələrindən biri də onun bu dövrdə SSRİ, ABŞ, Fransa və Çinlə mühüm beynəlxalq müqavilələr bağlaması idi. Bu sazişlər müharibədən sonra dünyanın ədalətli, demokratik quruluşunda birgə səylərin birləşdirilməsini nəzərdə tuturdu.

Müharibədən sonra İngiltərənin xarici kapital qoyuluşundan, gəmiçilikdən və beynəlxalq maliyyə əməliyyatlarından aldığı gəlir onun xarici xərclərini ödəyə bilmirdi. Ölkənin gəliri azaldı, xərcləri isə çoxaldı. Əgər İngiltərə müharibədən əvvəl xaricə kapital qoyuluşundan 175 mln.f.st. gəlir əldə edirdisə, 1946-cı ildə bu rəqəm 73 mln.f.st-ə, 1951-ci ildə isə 120 mln f.st-ə endi. Ticarət gəmiçiliyi də müharibədən sonrakı illərdə az gəlir verməyə başladı. Əgər müharibədən əvvəl bu sahədən 105,6 mln.f.st. gəlir gəlirdisə, 1946-cı ildə bu cəmi 29 mln.f.st. idi. Sonrakı illərdə bu gəlir yenidən bir qədər artdı.

Müharibədən sonrakı dövrdə büdcə kəsiri ingilis iqtisadiyyatının xroniki xəstəliyi idi. Bunun da əsas səbəblərindən biri idxalın ixracı üstələməsi idi. Digər səbəblərdən biri İngiltərə hakim dairələrinin öz xərclərini daim xaricdən gələn gəlirin hesabına qurmaq istəmələri, istehsal avadanlığının təzələnməsinə diqqət verməmələri idi. Səbəblərdən biri də dolların çatışmamasının başlıca amil olması idi. Çünki müharibədən sonra dollar əsas valyutası olan ölkələrin İngiltərəyə idxalının həcmi kəskin surətdə artdı. Əgər 1938-ci ildə İngiltərəyə Qərb yarımkürəsindən idxal 32% təşkil edirdisə, 1947-ci ildə bu rəqəm 46% idi.

İngiltərə hökuməti vəziyyətdən çıxış yolunu xarici dövlətlərdən, ilk növbədə ABŞ-dan kredit almaqla görürdü. Bu isə ölkənin milli mənafeyinə uyğun deyildi.

Leyborist hökumətinin siyasəti ingilis iri burjuaziyasının mənayefi nəzərə alınaraq aparılırdı. 1945-ci ilin avqustun 21-də ABŞ gözlənilmədən bildirdi ki, lend-liz üzrə İngiltərəyə mal



göndərilməsini dayandırır. Bu, əslində İngiltərəyə qarşı ABŞ-ın dost kimi etmədiyi bir jest idi. Burada ABŞ-ın əslində əsas məqsədi başlıca beynəlxalq bazarları öz nəzarəti altına almaq idi.

Leyborist hökuməti dərhal ABŞ-la iqtisadi və maliyyə məsələləri ilə əlaqədar danışıqlara başladı. 1945-ci ilin dekabrında İngiltərə ilə ABŞ arasında maliyyə sazişi bağlandı. Bu sazişə əsasən İngiltərə lend-liz əsasında mal göndərilməsinə görə ABŞ-a 650 milyon dollar ödəməli idi. ABŞ-ın isə İngiltərəyə 3750 mln.dollar formasında verirdi. Bu kreditin 5 il müddətinə – 1946-1951-ci illərdə kredit verməsi nəzərdə tutulurdu. Birinci altı il müddətində ABŞ-a İngiltərə heç nə verməməli idi. Sonrakı illərdə isə 2% əlavə verməklə 50 il müddətinə krediti ödəməli idi. İngiltərə həmçinin funt sterlinqin dollara sərbəst dəyişməsinə də icazə verirdi.

Saziş İngiltərənin nəinki mütərəqqi adamları, hətta hakim dairələrin əksər nümayəndələri tərəfindən də narazılıqla qarşılandı. ABŞ-ın sazişi təsdiq etməyi uzatması İngiltərə hökumətini məcbur etdi ki, kömək üçün Kanadaya müraciət etsin. İngiltərə ilə Kanada arasında 1946-cı ilin martın 7-də bağlanan sazişə əsasən İngiltərənin 1939-cu ilin sentyabrın 3-dən 1946-cı ilin martın 1-ə qədər Kanadaya istiqrazla olan bütün borcları ləgv edildi. Lakin İngiltərə aldığı 150 milyon Kanada dollarını qaytarmalı idi. Kanada İngiltərəyə yenidən 1250 mln.Kanada dolları həcmində yeni istiqraz verməyi öhdəsinə götürdü. Kanadanın verdiyi istiqrazlar imkan verdi ki, ABŞ prezidenti Trumen ingilis-amerikan sazişini 1946-cı ilin iyulun 15-də təsdiq edənə qədər öz büdcə kəsrini ört-basdır etməyi bacarsın.

1946-cı ilin yayında ABŞ-ın qiymətlər üzərində nəzarəti götürməsi ABŞ mallarının qiymətinin qalxmasına səbəb oldu. Bu isə İngiltərə üçün ABŞ istiqrazlarının real qiymətinin 28% aşağı düşməsinə səbəb oldu. 1947-ci ilin avqustun 21-də İngiltərə hökuməti funtun dollara sərbəst mübadiləsini dayandırdı. 1947-ci ilin maliyyə böhranı İngiltərə hökumətini məcbur etdi ki, idxalı ixtisar etsin. Ölkədəki maliyyə böhranı hökumətin təşkilində də dəyişikliklərə səbəb oldu. Maliyyə naziri Dalton istefa verdi. Kripps onun yerini tutdu.

1947-ci ilin iyunun 5-də ABŞ-ın dövlət katibi Marşall Harvard universitetindəki çıxışında bildirdi ki, Avropa ölkələrindəki iqtisadi çətinliklər ABŞ üçün də təhlükəlidir və böhrana səbəb ola bilər. Bu plandan məqsəd həm də Qərbi Avropada kapitalizmin

mövqeyini möhkəmləndirmək, ABŞ-dan asılı dövlətlər bloku təşkil etmək idi.

1948-ci ilin iyulunda Marşall planının İngiltərəyə tətbiqi ilə əlaqədar ingilis-amerikan sazişi bağlandı.

1949-cu ilin sentyabrın 18-də İngiltərə hökuməti funt-sterlinqin 30,5% devolvasiyası haqqında qərar qəbul etdi. Qərarın verilməsindən məqsəd qızıl və valyuta ehtiyatlarının axınının qarşısını almaq, ingilis mallarının ixrac üçün imkanlarını yaxşılaşdırmaq, həmçinin ABŞ-ın təzyiqinə qarşı davam gətirməyi bacarmaq idi. Funtun dəyəri 4,03 dollardan 2,8 dollara düşdü.

Bu hadisədən sonra Fransa, Hollandiya, Kanada, Danimarka, İsveç, Hindistan, Misir, Avstraliya, Norveç, Yeni Zelandiya, İrlandiya, Cənubi Afrika İttifaqı, İspaniya və s. dövlətlər də öz valyutalarını devalvasiya etdilər.

Funt-sterlinqin devalvasiyası onun beynəlxalq valyuta kimi mövqeyini zəiflətdi və onu daha çox dollardan asılı etdi. ABŞ bu yolla kapital ixracı imkanlarını genişləndirdi. İngiltərədə dolların alıcıları çoxaldı, ABŞ-da funt-sterlinqin alıcıları isə azaldı.

1951-ci ildə İngiltərədə qızıl və dollar ehtiyatları 550 mln.f.st. aşağı düşmüşdü ki, bu da ölkənin dərin maliyyə böhranı keçirdiyini sübut edən fakt idi.

Müharibədən sonrakı ilk illərdə yenə də ölkəyə idxalın strukturu dəyişməmişdi. Əsas idxal xammal və ərzaq idi. İxracda maşın və avadanlıqların xüsusi çəkisi artmışdı. Əgər 1950-ci ildə toxuculuq məhsullarının ixracı 1936-cı il səviyyəsində qaldırılsa da, maşınqayırma sənayesi məhsullarının ixracı 250% artmışdı. 1951-ci ilə qədər sənayenin ənənəvi sahələri olan daş kömür və toxuculuq sənayesinin məhsul istehsalı müharibədən əvvəlki səviyyəyə çatmışdı. Müharibədən sonra kömür sənayesinin milliləşdirilməsi də istənilən nəticəni vermədi. Əgər İngiltərədə 1937-ci ildə 240 milyon ton kömür çıxarıldısa, 1951-ci ildə ancaq 222 milyon ton kömür çıxarılmışdı. 1947-ci ilin yanvarında kömürün çatışmaması ilə əlaqədar ölkə yanacaq böhranı ilə qarşılaşdı. İngiltərə sənayesinə elektrik enerjisinin verilməsi 2/3 dəfə ixtisar edildi.

Ölkədə işsizlərin sayı 2300 min nəfərə çatdı. 1951-ci ildə yanacaq böhranı yenidən təkrar olundu. Lakin bu dəfə elə kəskin xarakter almadı.



Müharibədən sonrakı dövrdə kənd təsərrüfatı məhsullarının istehsalı artsa da, İngiltərə yenə də əsas ərzaq idxalçılarından idi. 1951-1952-ci illərdə öz kənd təsərrüfatı məhsulları hesabına öz əhalisinin tələbatını cəmi 41 % ödəyə bilirdi. Doğrudur, müharibədən əvvəl bu rəqəm cəmi 31% idi.

Müharibədən sonrakı dövrdə də İngiltərə «kapitalizminin sağlamlaşması»ndan söhbət gedə bilməzdi. Belə ki, İngiltərədə 1948-51-ci illərdə elektrotexniki sənaye cəmi 30 % kimya sənayesi 33% gücü ilə işləyirdi. Müəssisələrin heç biri tam gücü ilə işləmirdi.

İngilis iqtisadiyyatının bu dövrdə xarakterik cəhətlərindən biri də ölkənin milli gəlirində rantyenin payının artması idi. Müharibədən sonrakı dövrdə kapitalın və istehsalın mərkəzləşməsi prosesi davam etməkdə idi. İngiltərədə kapitalın mərkəzləşməsini 1951-ci ildəə 1929-cu illə müqayisədə bankların 22% ixtisar edilməsində görmək olardı. Xüsusilə «Böyük beşlik» adı altında birləşən Müdlend, Barkleys, Lyoyds, Vestminster və Neyşnl əyalət bankının gücü daha da artdı. Bu proses istehsal sahəsini də əhatə etdi. 1000 nəfərdən çox fəhləsi olan müəssisələrin sayı 1949-cu ildə 1935-ci ildə müqayisədə 21,4%-dən 30,2%-ə qalxdı. Xüsusilə metallurgiya, maşınqayırma, kimya sənayesində istehsalın mərkəzləşməsi daha da artdı.

İngiltərə kapitalizminin iqtisadi və siyasi münasibətlərdə İkinci Dünya müharibəsindən zəif çıxması hakim dairələri ölkənin iqtisadi, siyasi və müstəmləkəçi mövqeyini möhkəmləndirmək üçün bir sıra iri islahatlar aparmağa da məcbur etdi. Belə mühüm islahatlardan biri İngiltərə bankının və bir sıra sənaye sahələrinin milliləşdirilməsi oldu. İngiltərə bankı, kömür sənayesi, elektrostansiyalar, qaz sənayesi, daxili nəqliyyat, poladəritmə zavodlarının bir hissəsi, mülki aviasiya, teleqraf rabitəsi və radio rabitəsi milliləşdirildi. Milliləşdirmənin əsas səbəblərindən biri bu sahələrin zərərlə işləməsi idi. Milliləşdirmə Amerika kapitalının İngiltərə sənayesinə müdaxiləsində əlavə çətinliklər yaradırdı. Əsas səbəblərdən biri də bu yolla İngiltərədə sinfi mübarizəni zəiflətmək idi.

1945-i ilin sonundan bankların milliləşməsi nəticəsində bankın səhm sahibləri 58 mln.f.st. həcmində ildə 3% gəlirlə dövlət istiqrazı formasında kompensasiya almış oldular. 1946-cı ildə kömür sənayesinin milliləşdirilməsi nəticəsində həmin müəssisələrin

sahibləri 400 mln.f.st.dəyərində ildə 3,5% gəlirlə istiqraz şəklində kompensasiya almdılar. 1947-ci ildə elektrik kompaniyalarının milliləşdirilməsi nəticəsində orta birja səhmlərinin dəyəri həcmində onlara kompensasiya ödənilməli idi. Qaz sənayesi və nəqliyyatın milliləşdirilməsi zamanı verilən kompensasiya da bu prinsip əsasında olmalı idi. Milliləşdirilmiş müəssisələrin sahibləri birlikdə götürüldükdə 2,5 mlrd.f.st. dəyərində kompensasiya istiqrazı almalı idilər.

Milliləşdirilmiş müəssisələrin milli idarəsinin 87 üzvündən 43-ü iri kapitalist, 9-u hökumət məmuru, 4-ü yüksək rütbəli hərbiçi, 9-u yüksəktəminatlı mütəxəssis və inzibatçı, 7-si həmkarlar ittifaqlarının rəhbərlərindən idi. Fəhlə sinfinin nümayəndələrindən oraya heç kəs daxil edilməmişdi.

Üçüncü leyborist hökuməti geniş kütlələrin təzyiqi altında bir sıra sosial islahatlar da keçirməyə məcbur oldu. Bunlardan biri həmkarlar ittifaqı haqqında 1927-ci ildə verilmiş antifəhlə qanununun ləğv edilməsi idi. Səhiyyənin yeni sistemi müəyyən edildi, sosial sığorta haqqında qanunvericilik qəbul edildi. 1949-cu ildə keçirilən lordlar palatasının islahatı nəticəsində bu palatanın bir sıra hüquqları məhdudlaşdırıldı. Əgər əvvəllər lordlar palatası icmalar palatasının qəbul etdiyi qanun layihəsini iki il müddətinə təxirə sala bilərdisə, indi ancaq bir il ləngidə bilərdi.

1946-1948-ci ildə keçirilən səhiyyə islahatına əsasən əhaliyə tibbi xidmət pulsuz oldu. Bu müəssisələrin xərcləri dövlət büdcəsi hesabına ödənilirdi. Yeni səhiyyə sistemi 1945-ci ilin iyulun 5-də fəaliyyət göstərməyə başladı.

İngiltərə zəhmətkeşlərinin ən böyük nailiyyətlərindən biri 1945-1948-ci illərdə sosial sığorta sisteminin yenidən təşkili idi. Bu sistem yeni doğulan uşaq üçün, uşaqların tərbiyəsi, xəstəliyə, işsizliyə, hamiləliyə görə müavinətlərin, dul qadın və kişilərə, qocalara pensiyaların və dəfn üçün vəsaitin verilməsini nəzərdə tuturdu. Həmçinin, istehsalatda bədbəxt hadisə zamanı əmək qabiliyyətini itirdikdə və peşə xəstəlikləri zamanı da müavinət ödənilməsi nəzərdə tutulurdu. İngiltərədə bu dövrdə 23 milyon adam belə bir qayğı ilə əhatə olunmuşdu. 1949-1950-ci illərdə sosial sığorta fondu 524 mln.f.st.təşkil edirdi ki, onun 136 mln.f.st.(26%-i) dövlət büdcəsi, 185 mln.f.st. (35,3-i) sığorta edilmiş fəhlələrin üzvlük



haqları, 175 mln.f.st.(33,4%-i) müəssisə sahiblərinin üzvlük haqları, 28 mln.f.st. isə (5,3%-i) digər mənbələrin hesabına toplanırdı.

Leyborist hökuməti vergiləri artırmaq hesabına sosial xərcləri artırır və xüsusilə çalışırdı ki, ərzaq məhsullarının qiymətinin artırılmasının qarşısını alsın. Leyboristlər İngiltərədə «demokratik sosializm qurmaq», «firavanlıq dövləti yaratmaq» proqrammı altında çıxış edirdilər. Onların fikrincə, bu quruluş demokratiya və sosial ədalətə əsaslanmalı idi. Burada planlı iqtisadiyyat fərdi müstəqilliklə vəhdət təşkil etməli idi.

Leyboristlər hökuməti ölkəni iqtisadi çətinliklərdən çıxartmaq yolunu zəhmətkeşlərin həyat səviyyəsinə müdaxilə etməkdə və sürətlə silahlanmada görürdü. 1947-ci ildə yeni maliyyə naziri təyin edilmiş Kripps təklif etdi ki, yeyinti məhsulları da daxil olmaqla, idxal azadılsın, ixrac artırılsın, mənzil, məktəb, xəstəxana və s. tikintisinə ayrılan vəsait ixtisar edilsin. Dolayı vergilər artırıldı.

1949-cu ilin sentyabrında funt- sterlinqin devalvasiya edilməsi zəhmətkeşlərin həyat səviyyəsi üzərinə hücumun yeni mərhələsi oldu. Məktəblərdə uşaqlar üçün ucuz və pulsuz səhər yeməyi, məktəblilərin məktəb avtobuslarında pulsuz getmələri təxirə salındı. İngiltərə fəhlələrinin real əmək haqqı müharibədən əvvəlki dövrlə müqayisədə 20% aşağı idi. 1947-ci ildən 1951-ci ilə qədər olan müddətdə ərzaq məhsullarının qiyməti 36% artmışdı. Qadınların əmək haqqı daha aşağı idi. İngiltərədə qadınlar bütün işləyənlərin 1/3 hissəsini təşkil edirdilər. 1946-cı ildə İngiltərədə işsizlərin sayı 376 min nəfər idi. Ordudan tərxis edilən 700 min nəfər işsiz olsa da, bu siyahıya daxil edilməmişdi.

1946-cı ildə çörək, 1947-ci ilin noyabrında kartof norması qoyulmuşdu ki, halbuki hətta müharibə illərində bu məhsullara norma qoyulmamışdı. İngiltərə zəhmətkeşlərinin geyimi, mənzil şəraiti müharibədən əvvəlki dövrlə müqayisədə xeyli pis idi.

Tətil iştirakçılarının sayı 1947-ci ildə 620 min nəfər idisə, tədricən bu rəqəm azalmış, 1951-ci ildə 379 min nəfərə enmişdi. 1948-ci ilin sentyabrında tred-yunionların konqresi əmək haqlarının dondurulmasını bəyəndisə də, həmkarlar ittifaqında toplanmış kütlənin təzyiqi ilə 1950-ci ilin sentyabrında buna qarşı çıxmalı oldu.

İkinci Dünya müharibəsindən sonra dünya müstəmləkə sisteminin dağılması prosesi sürətləndi. Müharibə illərində İngiltərə və ABŞ «Atlantika xartiyası» adlı imzaladıqları sənəddə

göstərmişdilər ki, bütün xalqların öz idarə formalarını seçməsi, istədikləri kimi yaşaması hüququna hörmət edirlər. Müharibə qurtardıqdan sonra müstəmləkə xalqları həmin ölkələrdən bu prinsipin reallaşmasını tələb edirdilər. 1945-ci ilin sentyabr-oktyabr aylarında İngiltərə və Avstraliya qoşunları İndoneziyanın Yava və Sumatra adasına İndoneziya xalqdlarının demokratik hərəkatını yatırtmaq üçün qoşun çıxartdılar.

İngiltərəni qorxudan İndoneziyadakı demokratik hərəkatın onun Asiyadakı müstəmləkələrinə təsir etməsi təhlükəsi idi. Bütün müstəmləkə sisteminin zəifləməsindən qorxan İngiltərə Fransa, Hollandiya, ABŞ-da milli-azadlıq hərəkatlarına qarşı mübarizəyə kömək edirdi. Lakin milli-azadlıq hərəkatının təsiri altında İngiltərə Hindistan, Birma və Seylonda siyasi hakimiyyətdən imtina etməyə məcbur oldu.

1947-ci ilin iyunun 17-də İngiltərə parlamenti Hindistanın müstəqilliyi haqqında qanun qəbul etdi. Hindistan dini əlamətlərə görə dominion statusu alan iki dövlətə – Hindistan və Pakistana bölündü. Lakin bu hadisədən sonra da İngiltərənin iqtisadi mövqeyinin Hindistanda qüvvədə olduğunu neft sənayesinin 97%-ində, dağ-mədən və kömür sənayesinin 73 %-ində ingilis kapitalının ağalıq etməsi sübut edirdi. İngilis dili hər iki dominionda rəsmi dövlət dili oldu. 1947-ci il oktyabrın 17-də Birma da dövlət müstəqilliyi aldı. 1947-ci ildə Seylon da dominion hüququ aldı. Əgər İngiltərə bu ölkələrdə milli- azadlıq hərəkatının vüsətindən qorxaraq güzəştə getdisə də, Malayya xalqının azadlıq hərəkatını silahlı yolla yatırtmaq yolunu tutdu. Qızıl Sahil, Uqanda, Nigeriyada da İngiltərə bu yolla getdi, Afrikada öz müstəmləkələrini saxlamağı bacardı.

İkinci Dünya müharibəsindən sonra dünya sosializmi sisteminin yaranması dünya kapitalizm sisteminə böyük bir zərbə idi. İngiltərənin hakim dairələri də digər qabaqcıl kapitalist ölkələrinin hakim dairələri kimi bütün dünyada kapitalın ağalığını bərpa etməyə çalışırdılar. Ona görə də xarici siyasətin əsas vəzifəsi sosialist dövlətlərinə, xalqların demokratik və milli-azadlıq hərəkatlarına qarşı mübarizə idi. İngiltərə və ABŞ bu sahədə səylərini birləşdirdilər. 1946-cı ilin martın 5-də Çörçillin ABŞ-ın Fulton şəhərindəki çıxışı ilə dünyada qütbləşmənin və «soyuq müharibə»nin əsası qoyulmuş oldu. Bu çıxışla İngiltərə- ABŞ hərbi-siyasi ittifaqının təşkilinin



proqramı rəsmiləşdirilmiş oldu. Çörçill göstərdi ki, «ruslar hər şeydən çox gücə, qüvvə ilə hesablaşırlar».

Neft uğrunda İngiltərə və ABŞ arasında mübarizə ilk növbədə Yaxın və Orta Şərq üzərində gedirdi. Dünyasının mühüm neft ehtiyatlarının 2/3 hissəsi burada toplanmışdı. Bu rayonda neft uğrunda mübarizədə tezliklə ABŞ üstünlüyü ələ aldı. Əgər 1937-ci ildə burada İngiltərənin payı 76,8%, ABŞ-ın payı isə 13,1% idisə, 1952-ci ildə vəziyət artıq başqa cür idi: İngiltərənin payı 26,6%-ə düşdü, ABŞ-ın payı isə 64,5%-ə qalxdı.

Digər xammal növləri: kauçuk, yun, miss, qalay uğrunda da ABŞ-la İngiltərə arasında mübarizə gücləndi. Ticarət gəmiçiliyi sahəsində də rəqabət artdı. Kapital qoyuluşunda da İngiltərə təxminən 2 dəfə geri qalırdı. Müharibədən sonrakı illərdə dominionlarda da bir sıra tədbirlər görüldü. Məsələn, Kanadada vətəndaşlıq haqqında qanun qəbul edildi. Xüsusi Kanada bayrağı qəbul edildi. «Britaniya millətlər birliyi», «Millətlər birliyi» termini ilə əvəz edildi. 1949-cu ildə İrlandiya Britaniya imperiyasının tərkibindən rəsmi surətdə çıxdığını bildirdi və İrlandiya respublikasının yaradılması haqqında qanun qəbul etdi. İngiltərənin dominionlarla əlaqələri zəifləsə də, ABŞ-ın müdaxiləsi təhlükəsi və müstəmləkələrdən gələn gəlirdən pay almaq istəyi onları İngiltərə ilə əlaqələri axıra qədər kəsməməyə məcbur edirdi.

İkinci dünya müharibəsindən sonra Avropada sülhün təmin edilməsində əsas rol oynayan Almaniya problemi idi. Bu çox mühüm beynəlxalq problem idi. Müharibədən sonra Almaniyanın parçalanmasında İngiltərə də iştirak etdi. İngiltərə intisarçıları Rur iqtisadiyyatına öz təsirlərini gücləndirməyə çalışdılar. 1946-cı ilin dekabrında İngiltərə ilə ABŞ arasında bağlanan sazişə əsasən Bizoniya yaradıldı ki, bunun nəticəsində ABŞ və İngiltərə işğal zonaları birləşdi. 1948-ci ildə Bizoniyaya Fransa işğal zonası da birləşdirildi. 1949-cu ildə onlar Almaniya Federativ respublikasının yaradıldığını elan etdilər. 1949-cu ilin oktyabrın 7-də sovet işğalı zonasında ADR yaradıldı. Almaniya parçalandı. İngiltərə və ABŞ AFR-i silahlandırmaq yolunu tutdular. 1950-ci ilin sentyabrında ABŞ və İngiltərə Qərbi Almaniyanın yenidən silahlanması haqqında qərar qəbul etdilər. Çörçilin çıxışı Trumen doktorinası ilə daha da təkmilləşdirildi.

1946-cı ilin iyul-oktyabr aylarında olmuş Paris sülh konfransında İngiltərə də böyük və aparıcı dövlət kimi iştirak etdi. İngiltərə və ABŞ Avropada demokratik dövlətlərin yaranmasına mane olmağı bacarmadılar.

Müharibədən sonra Almaniya və İtaliyanın məğlubiyyətindən İngiltərə özünün Avropada rəhbər rolunu bərqərar etmək niyyətində idi. Müharibədən sonra Fransanın zəifləməsi də onun xeyrinə idi. Bununla belə Fransa ilə münasibətləri səhmana salmaq xarici siyasətdə mühüm rol oynayırdı. 1947-ci il martın 4-də İngiltərə ilə Fransa arasında Dyunkerkdə iki ölkə arasında ittifaq haqqında müqavilə bağlandı. Bu müqavilədə alman təcavüzü baş verərsə, birgə əməkdaşlıq etmək də nəzərdə tutulurdu. Bu müqavilə Şimali Atlantika paktının və Qərb ittifaqının yaradılması yolunda ilk addım oldu. 1948-ci ilin martın 17-də Qərbi Avropanın beş dövləti Brüssel müqavilələrinə imza etdilər. Əslində bu hərbi-siyasi blok ilk növbədə SSRİ-yə qarşı çevrilmişdi. Onun üzvləri İngiltərə, Fransa, Belçika, Hollandiya, Lüksemburq idi.

1949-cu ilin aprelin 4-də Çörçilin Fultonda qərb dövlətlərinin ABŞ-ın rəhbərliyi altında hərbi-siyasi ittifaq yaratmaq haqqında təklifinin reallaşması nəticəsi olaraq Şimali Atlantika paktı (NATO) yaradıldı. İngiltərə də onun üzvü oldu. Bununla belə, müharibədən sonra İngiltərə – ABŞ ziddiyyətləri daha da kəskinləşdi. Hərbi-sənaye potensialı cəhətdən ABŞ daha güclü idi. ABŞ-İngiltərə iqtisadi ziddiyyətlərində kapital, xammal və satış bazarları uğrunda mübarizə mühüm rol oynayırdı. Müharibədən sonra da ABŞ çalışırdı ki, müharibə dövründə əldə etdiyi özünün ticarət mövqeyini bütün gücü ilə əlində saxlasın. Bu mübarizədə İngiltərə müəyyən qədər müharibədən əvvəlki səviyyəyə çata bildi. 1951-ci ildə İngiltərə parlamentinin qəbul etdiyi qanuna əsasən 1951-ci ildə demokratik ölkələrlə mal mübadiləsi 1937-ci illə müqayisədə 6 dəfə azaldıldı.

İkinci Dünya müharibəsindən sonra beynəlxalq şəraitdə baş verən dəyişikliklər nəticəsində dünya siyasətində Uzaq Şərq və Cənub-Şərqi Asiyanın rolu artdı. İngiltərənin bu regionda nüfuzu Birinci dünya müharibəsindən sonra düşməyə başladı, İkinci dünya müharibəsindən sonra isə daha da zəiflədi. Əvəzində ABŞ-ın bu regionda fəallığı daha da artdı. Bununla belə İngiltərənin burada həm təbii sərvətlərlə zəngin müstəmləkələrinin olması, həm də buradakı



ölkələrlə, ilk növbədə Çinlə ticarət və iqtisadi əlaqələri onu bu regionda öz təsirini artırmaq uğrunda mübarizəyə cəlb edirdi.

Çin Xalq Respublikası təşkil edildikdən sonra ABŞ-dan fərqli olaraq İngiltərə 1950-ci ilin yanvarın 6-da onunla diplomatik əlaqələr yaratdı və onu tanıdı. Hər iki dövlət Çində öz ticarət mövqelərini saxlamağa çalışırdılar. İngiltərə 1950-ci ildə Koreya Xalq Demokratik respublikasına qarşı müdaxiləsi zamanı ABŞ-ın tərəfində çıxış etdi.

İngiltərə Yaponiyaya münasibətlərdə ABŞ-ın siyasətini dəstəklədi. Nəticədə ABŞ Potsdam bəyannaməsini pozaraq Yaponiya ilə 1951-ci ilin sentyabrında qeyri-bərabər San-Fransisko sülhünü bağladı və Yaponiya Uzaq Şərqdə ABŞ-ın əsas hərbi bazasına çevrildi.

İngiltərə 1951-ci ilin sentyabrında ABŞ, Yeni Zelandiya və Avstraliyadan ibarət ANZYUZ adlı hərbi blokun yaranması ilə də razılaşmalı oldu.

İkinci dünya müharibəsindən sonra İngiltərənin Yaxın və Orta Şərqə dair siyasəti bu ölkələrdəki milli-azadlıq hərəkatını yatırmağa, strateji əhəmiyyəti və təbii sərvətlərlə zəngin olan bu regionda ABŞ-ın nüfuzunu zəiflətməyə doğru yönəldilmişdi. Müharibədən sonra burada zəngin neft yataqlarının tapılması
Yaxın və Orta Şərqin əhəmiyyətini daha da artırdı.

İngiltərə 1946-cı ilin martın 22-də Transiordaniyanı müstəqil krallıq kimi tanıdı.

Fələstin məsələsinə gəldikdə isə SSRİ 1947-ci ildə BMT-də təklif etdi ki, Fələstində İngiltərənin mandatı ləğv edilsin və orada iki millət – yəhudilər və ərəblər çoxluq təşkil etdiyinə görə, yəhudi və ərəb dövləti yaradılsın. 1947-ci ilin noyabrında BMT Fələstində İngiltərə mandatının fəaliyyətini dayandırdı. İngiltərə Misirdə ciddi məğlubiyyətə uğradı. Müharibədən dərhal sonra Misir xalqı 1936-cı ildə Misirlə İngiltərə arasında bağlanmış qeyri-bərabər müqavilənin ləğv edilməsini və ölkədən ingilis qoşunlarının çıxarılmasını tələb etdi. İngiltərə güc tətbiq etmək istəsə də, alınmadı. Kütlələrin milli-azadlıq hərəkatının təsiri altında İngiltərə parlamenti 1951-ci ilin oktyabrın 15-də 1936-cı il İngiltərə – Misir müqaviləsini ləğv etdi. Həmçinin Sudan haqqında 1899-cu il konvensiyası da öz qüvvəsini itirmiş oldu.

Müharibədən sonra İranda da antiimperialist hərəkat gücləndi. Bui lk növbədə İngiltərə – İran neft kompaniyasına qarşı çevrilmişdi. Bu dövrdə ABŞ-ın da bu ölkəyə müdaxiləsi gücləndi. Lakin 1951-ci ildə neft sənayesinin İranda milliləşdirilməsi burada həm İngiltərə, həm də ABŞ-ın mövqeyinə ciddi zərbə vurdu.

Atom silahının kəşfindən sonra bu silah vasitəsi ilə dünyada hegemonluqlarını həyata keçirmək istəyən ABŞ və İngiltərə «Barux planı»nı bəyəndilər. Bu plan atom silahı və atom enerjisi üzrə nəzarət qoymağı lazım bilirdi. 1946-cı ildə BMT nəzdində xüsusi komissiya yaradıldı. Müharibədən sonra İngiltərə iqtisadiyyatı dərhal dinc xəttə keçdi. Lakin tezliklə ingilis hakim dairələri hərbi bloklar təşkil etmək, sürətlə silahlanma və Silahlı Qüvvələrin sayını artırmaq yolunu tutdular. İngiltərə tarixində ilk dəfə olaraq dinc dövrdə də məcburi hərbi mükəlləfiyyət saxlanıldı. Əsgəri xidmət ayrı-ayrı hissələrdə 18 aya qədər uzadıldı. Əgər 1938-ci ildə ingilis ordusunda 199 min əsgər və zabit vardırsa, 1950-ci ildə 364 min, 1951-ci ildə isə 439 min var idi. Əgər 1938-ci ildə İngiltərə hərbi xərclərə 254 mln.f.st. xərcləyirdisə, 1950-ci ildə bu rəqəm 801 mln.f.st-ə, 1951-ci ildə isə 1129 mln.f.sterlinqə çatdı. Ölkənin silahlanması ilə əlaqədar 1951-ci ildə üçillik proqram qəbul edildi. İkinci dünya müharibəsindən dərhal sonra İngiltərə SSRİ ilə əməkdaşlıq siyasətini kəsdi.

Müharibədən sonrakı ilk illərdə İngiltərə xalqlarının sülh uyğunda mübarizəsi genişləndi. 1949-cu ildə İngiltərə sülhü müdafiə komitəsi, 1951-ci ildə sülhü müdafiə təşkilatı yaradıldı.

Müharibədən sonrakı dövrdə leyboristlər partiyası daxilində ziddiyyət gücləndi. Bu hökumət İngiltərəni iqtisadi böhrandan çıxara bilmədi. Əhalinin həyat səviyyəsi ağırlaşdı. Yenidən silahlanma vəziyyəti daha da ağırlaşdırdı. «Demokratik sosializm» siyasəti iflasa uğradı. Ölkədə iri kapitalın ağalığı maraqlarına cavab verən siyasət yeridildi. Bütün bunlar isə leyboristlər partiyasının sıravi üzvlərini narazı saldı.

1945-ci il parlament seçkilərində məğlubiyyətdən sonra mühafizəkarlar öz partiyalarında iki istiqamətdə yenidənqurma təşkil etdilər. Birincisi partiyanın təşkilat quruluşuna yenidən baxıldı və o, yaxşılaşdırıldı. Elə proqram işlənib hazırlandı ki, növbəti seçkilərdə mühafizəkarların qələbəsini təmin etsin.



1950-ci ilin fevralın 23-də keçirilən seçkilərdə leyboristlər icmalar palatasında – 315, mühafizəkarlar 298, liberallar 9 yer aldılar. Mühafizəkarlar icmalar palatasında öz yerlərini 85 mandat artırdılar, leyboristlər isə 78 mandat itirdilər.Leyboristlər icmalar palatasında mütləq əksəriyyəti itirdilər. 1949-cu ilin sonu 1950-ci ilin əvvəllərində funt-sterlinqin devalvasiyasının ölkənin iqtisadi vəziyyətini daha da pisləşdirdiyi məlum oldu. Növbədənkənar seçkilərin keçirilməsi günün vacib məsələsi oldu. Leyboristlər hökuməti parlamenti buraxmağa və 1950-ci ilin aprelin 23-də növbədənkənar parlament seçkiləri keçirməyə məcbur oldu. Seçkilərdə leyboristlər 13,3 milyon, mühafizəkarlar isə 12,4 milyon səs topladılar. Yenidən onlar hakimiyyətə gəlsələr də, icma palatasında üzvlərinin sayı azaldı. Dördüncü leyboristlər hökuməti il yarım daha hakimiyyətdə qala bildi. Bu dövrdə ölkə Koreya ilə müharibədə iştirak etdi, İranla münaqişə kəskin xarakter aldı. Leyboristlər parlamenti buraxdılar və «Bizim birinci dərəcəli vəzifəmiz – sülhdür» şüarı altında növbədənkənar seçkilər elan etdilər. Leyboristlər partiyası daxilindəki fikir ayrılığı onlara sosial-iqtisadi islahatlarla əlaqədar kompleks proqram təqdim etməyə imkan vermədi. Ölkənin gələcək inkişaf yolları haqqındakı diskussiyalar sağ və sol leyborist qruplaşmaları arasındakı münasibətləri daha da kəskinləşdirdi. NATO ilə həmrəylik siyasəti də parçalanmanı sürətləndirdi. Sollar sosial islahatlara daha çox diqqət verilməsini tələb edirdilər. Leyboristlər hökuməti yenidən silahlanmağa xərcləri artırdı, sosial xərcləri isə azaltmağa başladı. Bu hökumətin üzvləri arasında narazılıq əmələ gətirdi. Sosial xərclərin azalmasına etiraz əlaməti olaraq 1951-ci ilin aprelində ticarət naziri Harold Vilson, əmək naziri Enyurin Biven və təchizat nazirinin müavini Coq Frimen istifaya getdilər. Bivenin tərəfində olan parlamentin 25 üzvü də hökumətin siyasətinə qarşı çıxdı. Leyboristlər hökuməti vəziyyətdən çıxmaq üçün 1951-ci ilin oktyabrında 25-də yeni seçkilər təyin etdi. 1951-ci ilin oktyabrında mühafizəkarlar «Britaniya – güclü və müstəqildir» manifesti ilə çıxış etdilər. Bu isə artıq «yeni mühafizəkarlığ»ın məlum ideyası idi.

Sülh haqqında məsələ seçki kompaniyasında başlıca məsələ idi. Mühafizəkarlar 13,7 milyon səs leyboristlər 13,9 milyon səs yığsa da, İngiltərə seçki qanununa görə mühafizəkarlar qələbə qazanmış oldular. Çörçill mühafizəkarlar hökumətini təşkil etdi.

Hökumətin tərkibinə daxil olan 33 nazirdən 19-u o dövrdə olan 75 kompaniyanın direktorlarından idilər. Xarici işlər naziri A.Uden, mənzil təsərrüfatı naziri isə Harold Makmillan oldu.

**Mühafizəkarların idarəsi: «13 havaya sovrulmuş illər» və ya «Fasilə küləyi»**

1945-ci il parlament seçkilərində məğlubiyyətdən sonra Britaniya mühafizəkarlar partiyasının ideoloji və təşkilati cəhətdən yenidən qurulması prosesi sürətləndi. Hələ 30-cu illərdə N.Çemberlenlə U.Çörçilin mübarizəsi fonunda tədricən yeni «texnokrat» qanadı yaranmışdı. Məhz onun əsasında Harold Makmillanın rəhbərliyi altında «gənc mühafizəkarlar» qrupu təşkil edildi. Onlar «mütəşəkkil kapitalizm» qurmaq ideyasını irəli sürdülər ki, bu sistemdə istər istehsal, istərsə də sosial sahədə dövlətin tənzimləmə rolu artmalı idi. «Gənc mühafizəkarlar» Dizraeli dövrünün «sosial mühafizəkarlıq» ideyasına qayıtmağı üstün tuturdular. Onlar belə hesab edirdilər ki, həmkarlar ittifaqları ilə səmərəli dialoq qurulsun və ictimai inkişafın «qarışıq modeli» tanınsın. U.Çörçill 1940-cı ildə baş nazir olduqdan sonra «gənc mühafizəkarların» bu mövqeyi daha da gücləndi. Bu mövqeyi bəyənməsə də, Çörçill torilərin «keçmiş qvardiyası» ilə mübarizə üçün islahatçıların fəallığından istifadə etməyə çalışdı. 1945-ci il siyasi məğlubiyyətindən sonra partiyanın daxili həyatını yenidən qurmaq partiyanın yeni sədri lord Vultonun qarşısında bir vəzifə kimi qoyuldu. O, öz fəaliyyətində siyasi rəhbərlikdən deyil, ilk növbədə partiyanın idarə aparatının potensialından istifadə etməyə çalışdı. Vulton xüsusilə mühafizəkarların siyasi mərkəzi və partiyanın mərkəzi bürosunun tədqiqat şöbəsinə bu məsələdə böyük əhəmiyyət verirdi. Geniş kitab mağazaları, yaxşı nəşriyyat bazası, aylıq və həftəlik jurnal və bülletenlərin çıxması mərkəzinin olması partiyanın fəallığını yenidən artırmaq üçün mükəmməl sistemin təşkilinə şərait yaratdı. Partiya rəhbərliyi gənclərin mühafizəkar və Birlik assosiasiyasına xüsusi diqqət və qayğı göstərdi. Bu təşkilatın prezidenti Antoni İden idi. «Keçmiş torilər» arasında etiraz dalğası olmasına baxmayaraq Vulton inadkarlıqla təklif etdi ki, partiyanın hər il keçirilən konfranslarında və partiya rəhbərliyində kişilər və qadınların eyni səviyyədə iştirakı prinsipinə əməl edilsin. 1947-ci



ildə ilk dəfə partiyanın tarixində Mərkəzi Şuranın agentliyi postuna qadın təyin edildi. Çörçill partiya maşınını yenidənqurma təşəbbüsünü irəli sürərkən öz ətrafında partiyanın gələcək ideoloqlarını toplamağa çalışırdı. Onun seçimi H.Makmillan və R.Batleri qurban verdi. Gənc «torilər»in liderləri də Çörçilin ətrafında rəhbərlikdə öz mövqelərini möhkəmləndirməyin tərəfdarı idilər. 1946-cı ildə mühafizəkarların konfransında əsas məsələ partiyanın proqramını təzələməyin prinsipləri haqqında idi. Çörçilin təsiri altında «yeni mühafizəkarlar» daha çox barışdırıcılıq yolunu seçdilər. Çörçill müasir cəmiyyətin reallıqları baxımından çıxış edərək partiyanın strateji quruculuğunu əsaslandırdı.O, qətiyyətlə dövlət tənzimlənməsi əsasında leyborist islahatçılığına qarşı çıxdı. Bütün cəmiyyətin rifahı üçün məsələləri həll etməkdən ötrü «xüsusi mülkiyyətin demokratiyası» sisteminin daha səmərəli olduğu göstərildi. Sonrakı iki ildə «yeni mühafizəkarlar»ın barışdırıcı variant ideyaları mühafizəkarlar partiyasının bütün proqram sənədlərində öz əksini tapdı. Onların hazırladıqları «Sənaye xartiyası»nda xüsusi mülkiyyətin və bazar münasibətlərinin daim qiymətliliyi əsaslandırılırdı. Bununla bərabər iqtisadiyyatın dövlət tənzimlənməsinin də praktikasının qismən saxlanılması məqsədəuyğun hesab edilirdi. Xartiyada bir sıra müəssisə və sahələrin dövlət mülkiyyəti kimi saxlanılmasının məqsədəuyğunluğu göstərilməklə yanaşı, leyboristlərin geniş miqyasda həyata keçirdikləri milliləşdirməyə yenidən baxılmasının zəruriliyi qeyd edilirdi. İqtisadiyyatın milliləşdirilmiş sahələri ilə xüsusi formaları arasında ədalətli rəqabətin təmin edilməsi şəraitində bu məsələyə yenidən baxılmalı idi. Partiyanın imicinin uğurla dəyişməsi, bütün təşkilat imkanlarının səfərbərliyə alınması, ən başlıcası ideoloji platformadakı əsaslı düzəlişlər mühafizəkarlara favorit rolunda 1950-ci il seçkilərinə getməyə şərait yaratdı. 1950-ci ilin yanvarında onların «uzun yol budur» adı altında seçki manifesti nəşr edildi. O, «yeni mühafizəkarlığ»ın əsas prinsiplərini özündə əks etdirirdi. Mühafizəkarların mühüm qələbələrindən biri 1950-ci il seçkiqabağı kampaniyada liberallarla yaxınlaşmaları oldu. 60-a qədər seçki dairəsində onlar birgə mühafizəkar-liberal hərəkat komitələri yaratdılar. Onlar icmalar palatasına əlavə seçkilərdə iki partiyadan bir namizəd irəli sürdülər. Leyboristlər partiyası bu iki partiyanın əməkdaşlığına əsaslanan müxalifətə qarşı dayana bilmədi. 1945-ci il

seçkilərdə konstruktiv praqmatizm bayrağı altında qalib gələn leyboristlər bir sıra ciddi konseptual ideyalarda ciddi səhvlər buraxmış oldular. Bərpa dövründən çıxmaq və sosial-iqtisadi inkişafın uzunmüddətli strategiyasını təklif etməyi, özlərinin xüsusi proqramını hazırlamağı Klement Ettlinin baş nazir olduğu dövrdə leyboristlər bacarmadılar. 1950-ci il seçkilərində onlar «Gəlin birlikdə çətinlikləri aradan qaldıraq» manifesti ilə çıxış etdilər. Onun leytmotivi dövlət siyasətinin ümummilli prioritetlərini möhkəmləndirmək zərurətinə istiqamətləndirilmişdi. Burada mülkiyyətin müxtəlif formalarının birləşməsinin daha səmərəli formalarını axtarmaq, sinfi və dini-etnik münaqişələrdən qaçmaq təklif edilirdi. Xarici siyasətin uğurlu aparılmadığı və maliyyə problemlərinin artdığı bir dövrdə bu mövqe, əlbəttə elektoratın səfərbərliyə alınmasını təmin edə bilməzdi. Leyboristlərin seçkilərdə qələbəsi mümkün olsa da, ancaq partiyanın reytinqi ciddi şəkildə aşağı düşdü.

77 yaşlı Uinston Çörçilin rəhbərliyi avltında mühafizəkarlar hökuməti əsasən torilərin, yəni mühafizəkarların «keçmiş qvardiya»sından təşkil edildi». «Səbirlilik və konstruktivlik» xəttini elan edən Çörçill özündən əvvəlkilərin siyasətini köklü şəkildə dəyişmək mövqeyində dayanmadı. Hökümətin fəaliyyətinin əsas istiqaməti mənzil tikintisi, təhsil və səhiyyə məsələlərinə yönəldildi. Bunların içərisində mənzil tikintisi xüsusi yer tutdu. Əgər 1951-ci ildə 234 min ev tikilmişdirsə, 1954-cü ildə bu rəqəm 347 minə çatdırıldı. Bununla belə səhiyyə fonduna həftəlik üzvlük haqqın 8,5 pensdən 32,5 pensə qaldırıldı. Mühafizəkarların dövründə xüsusi tədris müəssisələrinin statusu böyük ictimai diskussiyaya səbəb oldu. Leyboristlər xüsusi tədris müəssisələrinin çoxluğunda mühafizəkarları ittiham edirdilər. Mühafizəkarlar isə bu sahədə ədaləti gözlədiklərini bildirdilər. Çörçill hökuməti kütləvi məktəblərin inkişafı üçün də səy göstərmiş, təhsil sisteminə çəkilən xərcləri artırmışdı.

Çörçill hökumətinin seçkiqabağı dövlət müəssisələrinin geniş miqyaslı özəlləşdirilməsi cəhdi də tam yerinə yetirilmədi. Özəlləşdirmə ancaq poladtökmə sənayesi, avtomobil yolu nəqliyyatına aid edildi. Mülkiyyətin formasının müəyyənləşdirilməsində əsas prinsip istehsalın səmərəliliyi götürülürdü. Bu dövrdə hökumət dövlətin iqtisadiyyatın tənzim



edilməsinə müdaxiləsini xeyli azaltdı, istehsalın inkişafı üçün yeni strategiya hazırlamağa cəld göstərdi.

Böyük Britaniyada iqtisadi artım dinamikası 50-ci illərdə xeyli yaxşılaşdı. 1937-ci illə müqayisədə 50-ci illərin əvvəllərində iqtisadi göstəricilər 1/3 qədər artdı. Artım elektroenergetika, maşınqayırma, kimya sənayesində daha çox hiss edilirdi. Kömür və toxuculuq sənayesində isə artım müşahidə edilmirdi. Bütövlükdə, 50-ci illərin əvvəllərində Böyük Britaniyada topdansatış milli məhsulun illik artımı 2,7%, sənaye məhsulları üzrə isə 3,3% olmuşdu. İşsizlik xeyli azaldı. Əgər 1953-cü ildə 0,5 mln.adam işsiz idisə, 1955-ci ildə bu rəqəm 298 min idi. Böyük Britaniya ABŞ-dan sonra sənaye məhsulu istehsalına görə bu dövrdə ikinci yerini saxlayırdı.

ETİ şəraitində dövlətin iqtisadiyyata müdaxiləsinin azalması öz mənfi təsirini də göstərmiş oldu. Ayrı-ayrı ölkələrdə dövlət elmin nailiyyətlərinin istehsala tətbiqinə xüsusi diqqət yetirdiyinə görə uğurlar qazanıldı. Böyük Britaniyada dövlət bu sahədə fəallıq göstərmədiyinə görə, xüsusi bölmənin dünya bazarında rəqabətə davam gətirməsi üçün artımın sürətini artırmağa, istehsalın texnoloji bazasını təkmilləşdirməyə, bazar infrastrukturunun yeni formalarını fəal stimullaşdırmağa gücü çatmırdı. İqtisadiyyatın dövlət tənzimləməsinin dünya praktikası artıq antiböhran sisyasətində mühüm əhəmiyyət kəsb edirdi. Dövlətin qüdrətli maliyyə, intellektual, siyasi potensialı imkan verdi ki, mühüm fundamental tədqiqatlara, böyük vəsait qoyuluşu tələb edən strateji elmtutumlu sahələrin inkişafına, ixtisaslı kadrların yenidən hazırlanması sistemini təkmilləşdirməyə şərait yaratsın. Lakin mühafizəkarlar bu sahədə lənglik göstərdilər. Ona görə də leyboristlər onların hakimiyyətdə olduğu dövrü «durğunluq dövrü», «itirilmiş illər» adlandırdılar.

Dövr mühafizəkarlardan xarici siyasətdə də düzəlişlər tələb edirdi. Çörçill və İden hələ müxalifətdə olarkən «üç dairə», konsepsiyasını işləyib hazırladılar. Bu müharibələrdən sonrakı dünyanın reallıqlarına qlobal yanaşma bacarığı kimi səslənirdi. Bu konsepsiyada nəzərdə tutulurdu ki, ölkənin nadir coğrafi şəraiti və tarixi ənənələri əsasında xarici siyasətin əsas üç məşğuliyyətli zona çərçivəsində öz gücünü qoruyub saxlamalıdır. Bu zonalardan biri Atlantika Birliyi, ikinci Avropa, üçüncü isə Britaniya Millətlər Birliyidir. Çörçill göstərirdi ki, bu birlik mentalitet, ideologiya, siyasi birlik amillərini özündə birləşdirməlidir. Çörçill təsdiq edirdi ki,

«mən gələcəyə diqqətlə baxdıqda görürəm ki, dünyada insanların taleyində dəyişiklik azad xalqların və demokratiyanın arasında üç böyük zonada (dairədə) mövcuddur. Əlbəttə, bizim üçün təbii ki, Britaniya birliyi və imperiya özünün bütün komponentləri ilə əsasdır. Sonra anqlosaks dünyasıdır ki, burada ABŞ, biz, Kanada və digər Britaniya dominionları mühüm rol oynayırıq. Nəhayət, bura birləşmiş Avropa daxildir. Bu üç magiya dairəsi mövcuddur və əgər onlar birləşsə, dünyada heç bir qüvvə ona qarşı dura bilməz. Biz onda bu birliyin üzvlərinin hər birinin mühüm rol oynadığı birləşmiş ölkə oluruq».

Millətlər Birliyi və imperiyanın taleyi mühafizəkarlar üçün xarici siyasət xətti çərçivəsində əsas məsələ idi. 1952-ci ildə xüsusi təşkil edilmiş Birliyin baş nazirlərinin konfransı Birliyin 1949-cu il qərarını möhkəmləndirdi və bir daha İngiltərə kralının Birliyin başçısı statusunu təsdiq etdi. Bu titul kraliçə II Yelizavetaya aid edildi. 1952-ci il konfransı qəti olaraq «Birliyin vətəndaşı» anlayışını leqallaşdırdı. Böyük Britaniyanın üçüncü dünya ölkələrində nüfuzunu möhkəmləndirmək üçün Çörçill Koreya münaqişəsinin dinc yolla nizama salınması ideyasını fəal müdafiə etdi. Hind-Çin problemində Böyük Britaniya kifayət qədər sərt mövqe nümayiş etdirdi. Fransanın müstəmləkəçilik siyasətinin Hind-Çində iflası göz qabağında idi. «Koreya variantında» ABŞ-ın bu regionda hadisələri qızışdırmağa yönəldilmiş siyasəti İngiltərəyə sərf eləmirdi. Böyük Britaniya ona görə də Hind-Çində şərait haqqında hökumət başçıları səviyyəsində beynəlxalq müşavirə çağrılması haqqında SSRİ-nin təklifini müdafiə etdi. Bu müşavirə 1954-cü ildə Cenevrədə keçirildi və Hind-Çində hərbi əməliyyatların dayandırılması haqqında qərar qəbul edildi. O cümlədən 1954-cü ildə Tehranda da İran hökuməti ilə beynəlxalq konsorsiumlar arasında İranda neft yataqlarının istismarı şərtləri haqqında saziş bağlandı. Bu müqavilə İngiltərə üçün o qədər də əlverişli deyildir.

50-ci illərin əvvəllərində Misir ətrafında da vəziyyət kəskinləşdi. 1951-ci ilin oktyabrında Misir hökuməti Sudan və Süveyş kanalı üzərində kondominium haqqında 1936-cı il müqaviləsinin ləğv edilməsi barəsində qərar qəbul etdi. Sudan Misirin ayrılmaz hissəsi elan edildi. Lakin bunun Böyük Britaniya ilə açıq münaqişəyə gətirib çıxaracağını görən Misir kralı Fərux qətiyyətsizlik etdi. Uzun sürən danışıqlar başlandı. Bu dövrdə isə



ingilis qoşunları Süveyş kanalı rayonunda yerli əhalinin kortəbii çıxışlarını müvəffəqiyyətlə yatırtdılar. Qahirədə 1952-ci il iyul çevrilişindən sonra C.Ə.Nasirin inqilabi hökuməti Sudana öz müqəddəratını təyin etmək hüququnu təqdim etməyə hazır olduğunu elan etdi. Bu 1953-cü il İngiltərə – Misir sazişində öz əksini tapdı. 1954-cü ilin oktyabrın 19-da Süveyş kanalının taleyi haqqında da müqavilə bağlandı. Həmin müqaviləyə əsasən ingilis qoşunları Süveyş kanalı rayonundan 20 ay müddətinə evakuasiya edilməli idi. Kanal mülki heyətin nəzarəti altında qalırdı.

Çörçill hökuməti Avropa siyasəti məsələlərində müəyyən fəallıq nümayiş etdirirdi. Lakin Britaniyada Avropa iqtisadi inteqrasiyasının millətlər fövqündə duran idarəsinin təşkili ilə əlaqədar Fransa layihəsini şübhə ilə qarşıladılar. «Suman planı»na qarşı çıxaraq London rəsmiləri Avropa azad ticarəti zonasının təşkili ideyasını populyarlaşdırdılar. Onların fikrincə, buraya daxil olan Avropa iqtisadi əməkdaşlıq təşkilatının 17 üzvü bir-birinə münasibətdə kömrük tariflərindən və ixrac məhdudiyyətlərindən imtina etməli, gələcəkdə isə kapitalın və birbaşa malların liberallaşdırmasına çalışmalıdırlar.

1952-ci ildə təşkil edilən Avropa Polad və Kömür birliyi təşkilatı Britaniyanın planı ilə ziddiyyət təşkil edirdi. Siyasi məğlubiyyətinin əvəzini ödəmək üçün Britaniya diplomatiyası hərbi-siyasi inteqrasiya layihəsini fəal müdafiə etdi. «Pleven planı»nın müzakirəsi ərəfəsində Böyük Britaniya 1952-ci ildə Qərbi Almaniya işğal statusunun təxirə salınması və «Avropa ordusu»nda onun hissələrinin də iştirakının mümkünlüyünü müdafiə etdi. Avropanın müdafiə birliyi layihəsi qəbul edilmədikdən sonra Böyük Britaniya ABŞ-la birlikdə AFR-in NATO-ya daxil olması təklifi ilə çıxış etdi.

1954-cü ilin noyabrında U.Çörçillin 80 illiyi bayram edildi. Yaş artıq sakitlik, dinclik tələb edirdi. Lakin liderin bu yubileyi də hakim partiyada əsəbilik yaratdı. İcmalar palatasında sualtı bombaların hazırlanması ilə əlaqədar güclü deltalar çevriliş planının reallaşdırılmasını yaxınlaşdırdı. Çörçillin qeyri-ardıcıl və eyni zamanda döyüşkən, heç bir kompromisə, heç bir güzəştə getməyən mövqeyi mühafizəkarlar partiyasının əksəriyyət üzvlərində narazılıq yaratdı. Bunu hiss edən Çörçillin istefaya getməkdən başqa yolu qalmadı. Onun istefası 1955-ci ilin aprelin 5-də baş verdi. Çörçill konstitusiya qaydaları ilə razılaşaraq kraliçaya istefası və hökumətin

yeni tərkibini formalaşdırmaq üçün «İdenin ardınca göndərmək» zəmanəti haqqında yazılı xahişini təqdim etdi.

### A. İdenin mühafizəkarlar hökuməti

Mühafizəkarlar partiyasının vitse-lideri A.İdenin baş nazir vəzifəsinə gəlməsinə çoxları Çörçill erasının davamı kimi baxdılar. İden əvvəlki dövlət xəttindən imtina etmək fikrində deyildir. Lakin bununla belə İden hökumətdə «orta nəslin» nümayəndələrinin mövqeyini möhkəmləndirdi. Makmillan xarici işlər naziri postunu tutdu. Batler yenə də maliyyə naziri vəzifəsində qaldı. Partiyada gənclərin yeni nəslinin nümayəndələrindən ən məşhuru olan Edvard Hit partiyanın parlament fraksiyasının baş təşkilatçısı («qamçısı») təyin edildi.

Eyni zamanda İden hökumətin tərkibində irsən aristokrat olan «köhnə tori»lərin bir çox nümayəndələrini də saxladı.

İden özünün şəxsi nüfuzunun partiyada möhkəm odmadığını başa düşərək gözlənilməz bir addım ataraq aprelin 15-də parlamenti buraxdı və növbədənkənar parlament seçkiləri təyin etdi. Üç həftə ərzində icma palatasında olan mühafizəkarlar yeni büdcəni qəbul etməyə, gəlir vergisini azaltmağa və digər populyar tədbirlər həyata keçirməyə nail oldular. Baş nazir özü seçkiqabağı mübarizədə dəfələrlə televiziyada çıxış etdi. 1955-ci il seçkiləri mühafizəkarlara inamlı qələbə gətirdi. Onlar 345 deputat mandatı qazandılar. Leyboristlər – 277, liberallar isə 6 yer tutdular. Lakin İden hökumətinin hakimiyyəti ilyarımdan uzun sürmədi. 1955-ci ilin yayından ölkədə iqtisadi konyukturanın pisləşməsi əlamətləri görünməyə başladı. Hökumət bir sıra sosial proqramlarını ixtisar etməyə məcbur oldu, dolayı vergiləri artırdı, poçt xidmətinin dəyərini qaldırdı. 1956-cı il büdcəsi əvvəlki gəlir vergisi səviyyəsində bərpa edildi. Bütün bu tədbirlər kifayət qədər öz vaxtında görüldü. Nəticədə isə ölkədə tətil hərəkatı gücləndi. Dövlət xəttində düzəlişlər etməyin zəruriliyini anlayan İden hökumətin tərkibində dəyişikliklər etdi. Batler öz maliyyə naziri vəzifəsini Makmillana güzəştə getdi.

Uğurlu xarici siyasət yeritmək də xeyli dərəcədə çətinləşdi. SSRİ-dəki siyasi fasilə beynəlxalq gərginliyi yumşaltmaq imkanı verdi. Yaranmış yeni şəraitdən istifadə edərək Böyük Britaniyanın nüfuzunu möhkəmləndirmək üçün A.İden qlobal siyasətin aktual



problemləri üzrə danışıqlar prosesinin genişləndirilməsi təşəbbüsü ilə çıxış etdi. Britaniya diplomatiyasının səyləri uğur qazandı. 1955-ci ilin iyulun 18-də Cenevrədə ABŞ, SSRİ, Fransa və İngiltərə nümayəndələrinin iştirakı ilə yüksək səviyyədə konfransın açılışı oldu. Konfransı gedişi göstərdi ki, SSRİ və qərb ölkələri bir-birinə etdikləri təkliflərə çox ehtiyatla yanaşırlar və hələlik öz strategiyasında düzəlişlər etməyə hazır deyillər. Konfransın yekunu ancaq iqtisadi və mədəni əməkdaşlığı inkişaf etdirmək arzusunu ifadə edən deklarasiyanın elan edilməsi oldu.

1956-cı ilin aprelində Xruşşov və Bulqanin Londona səfər etdilər. Səfərin siyasi proqramı üçüncü dünya ölkələri ilə qarşılıqlı münasibətlər probleminə həsr edilmişdi. Cenevrədə olduğu kimi, burada da tərəflər ciddi razılığa gələ bilmədilər. Səfər kədərli diplomatik mübahisə ilə tamamlandı. Aprelin 19-da Portsmutda gizli surətdə zabit - sudaxilasedici Layonel Krav həlak oldu. Bu anda Portsmutun havanasında içərisində sovet nümayəndələri olan «Orconikidze» kreyseri yerləşirdi. İden icma palatasında ictimaiyyətin sakitliyi mənafeyinə bu məsələləri gizli saxlamağın dövrün tələb etdiyini bildirməyə məcbur oldu.

50-ci illərdə Yaxın Şərq regionu dünya siyasətində çox mühüm rol oynayırdı. Londonda böyük ərəb dövlətlərinin də iştirakı ilə geniş hərbi-siyasi blok təşkil etmək layihəsi hazırlanırdı. Qədim tarixi əlaqələr, regionda İngiltərənin güclü hərbi bazalarının olması, həmçinin Süveyş kanalı ətrafındakı strateji rayonlar üzərində Böyük Britaniyanın nəzarəti müharibədən sonrakı dövrdə belə bir «ingilispərəst» blokun yaranmasına imkan verildi. 1955-ci ildə Britaniya hökumətinin vasitəçiliyi ilə Türkiyə və İraq qarşılıqlı müdafiə öhdəlikləri haqqında saziş bağladılar. Böyük Britaniya da ona qoşularaq İraqla analoji müqavilə bağladı. Beləcə Mərkəzi müqavilə təşkilatı (SENTO) və ya Bağdad paketi yaranmış oldu.. Bu blok 1978-ci ilə qədər mövcud oldu. SENTO-nun tərkibində Britaniya siyasətçiləri Misiri də görürdülər. Lakin Nasir hökuməti bu bloka girməyə tələsmədi və tədricən Sovet bloku ilə əlaqələri genişləndirdi. İden İordaniyanı bu bloka cəlb etmək istəsə də, kral Hüseyn buna qəti etirazını bildirdi və 1956-cı ilin martın 2-də ölkədən ingilis zabitlərinin böyük qruplarının çıxarılmasını tələb etdi. İordaniya 1955-ci ilin payızında Nasirin təşəbbüsü ilə yaradılmış

Misir və Siriya birgə ordu komandanlığına qoşulmaq haqqında qərar qəbul etdi.

1956-cı ilin iyulun 26-da London üçün gözlənilmədən Misir hökuməti Süveyş kanalının milliləşdirildiyini elan etdi. Nasir bunun əsas səbəbini ABŞ və Böyük Britaniyanın Asuan bəndinin tikintisini maliyyələşdirmə məsələsində kömək etməməsi ilə izah edirdi.Nasir SSRİ-dən əhəmiyyətli dərəcədə kömək alacağına ümid bəslədiyinə görə bu sərt qərarı qəbul etmişdi. Süveyş kanalının milliləşdirilməsi Böyük Britaniyanın iqtisadi maraqlarına birbaşa zərər gətirirdi. Çünki onun idxal və ixracının 1/4-dən çoxunu bu kanal təmin edirdi. Böyük Britaniyanın Yaxın Şərqdə çıxardığı neftin 40%-i də bu kanal vasitəsi ilə göndərilirdi. İden hökuməti Nasirin bu hərəkətinə dərhal reaksiya verdi. Belə ki, iyulun 26-dan Misirin xəzinədə olan sterlinq əməliyyatı və aktivi donduruldu. İngiltərə Fransa ilə birlikdə Misirin bu hərəkəti ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurasına şikayət etdi. Lakin SSRİ «veto» hüququndan istifadə edərək bu məsələ ilə əlaqədar heç bir qərar qəbul edilməsinə imkan vermədi. İden ABŞ prezidenti Eyzenhauerlə güc işlətmək imkanları haqqında gizli danışıqlar apardı. Lakin ABŞ prezidenti növbəti seçkilər ərəfəsində olduğuna görə yeni silahlı münaqişədə iştirak etməkdə maraqlı deyildi. Danışıqlar bir nəticə vermədikdə London özü hərbi əməliyyata hazırlaşmaq haqqında qərar qəbul etdi.

1956-cı ilin avqustunda ingilis və fransız hərbi hissələri Yaxın Şərq rayonunda cəmləşməyə başladılar. Bu iki qərb ölkəsinin müttəfiqi İsrail oldu. Avqustun sonunda İsrailin Misir və İordaniya ilə olan sərhədində güclü toqquşma baş verdi. Oktyabrın 15-də İordaniya İsraili təcavüzdə rəsmən günahlandırdı. Oktyabrın 25-də Böyük Britaniya və Fransanın xarici işlər nazirləri və İsrailin baş naziri Ben-Qurion Misirə qarşı birgə hərəkət haqqında gizli protokol imzaladılar. Birgə operativ plan hazırlandı. Həmin plana görə birləşmiş ordu Sinay yarımadasını tutmalı və bütün Süveyş kanalı zonasını nəzarət altına almalı idi. Kompaniyaya başlamaq üçün bəhanə İsrailin Sinay yarımadasına hücumu olmalı idi. Əməliyyat «Kadeş» və ya «Təmizləmə» adlandırdı. İngiltərə və Fransa İsrail və Misir hökumətinə belə bir ultimatum verməyə hazır idilər ki, Misir və İsrail ordularının hissələri Süveyş kanalından 10 mil uzaqlaşsınlar. Lakin Misir bu tələblə razılaşmadığını bildirdilər. Bütün əməliyyat «Muşketer» adlandırdı. Onun komandanı isə ingilis generalı Çarlz



Keytli idi. Bu əməliyyatda Böyük Britaniyanın 50 min əsgəri və 100 hərbi gəmisi iştirak edirdi.

1956-cı ilin oktyabrın 29-da səhər saat 5-də polkovnik A.Şaronun rəhbərliyi altında 400 İsrail paraşütçüsü Sünay yarımadasının mərkəzinə toplaşdı, tank ordusu isə Sinay yarımadasının şimal-şərqindən hücuma keçdi. Oktyabrın 30-da İsrail orduları hələ kanala çatmamış, Britaniya və Fransa hökumətləri «hər iki ölkəyə» atəşi kəsməsi təklifi ilə müraciət etdilər. Misir hökumətinin qəti cavabını gözləmədən ingilis-fransız hərbi-dəniz qruplaşmaları Maltadan çıxdılar. Oktyabrın 31-də Britaniya aviasiyası Misirin bütün aviabazalarına hücum etdi. Prezident Nasir Misir hərbi hissələrinin tədricən yarımadanın dərinliklərindən geri çəkilməsi haqqında əmr verdi. Tezliklə Misir hökuməti BMT-nin atəşi kəsmək çağırışını qəbul etdi. Təcavüzün dayandırılmasında SSRİ-nin kəskin mövqeyi də öz işini gördü. Xruşşovun İdenə göndərdiyi ultimativ məktubunda SSRİ-nin hətta atom silahı işlətməyə hazır olduğu bildirilirdi. Gözlənilmədən Britaniya siyasi dairələri üçün Süveyş avantürası ölkəni nüvə münaqişəsi kənarında qoydu. Londona və Parisə təcili hərbi əməliyyatları dayandırmaq haqqında əmr vermək lazım gəldi. Dekabrın 22-də ingilis-fransız qoşunları Misir ərazisini tərk etdilər. 1957-ci ilin martın 8-də isə İsrail qoşunları Sinay yarımadasından çıxarıldılar. Münaqişə zonasında BMT-nin qoşunları yerləşdirildi. Süveyş münaqişəsi ilə əlaqədar ağır siyasi məğlubiyyətdən sonra İdeen hökumətinin taleyi həll edilmiş oldu.

## Böyük Britaniya Harold Makmillanın baş nazir olduğu dövrdə. «Fasilə küləkləri»

Makmillan belə hesab edirdi ki, partiyanı müasir cəmiyyətin reallıqlarını sakitliklə dərk etməkdən indii inkişafın dinamik və mütərəqqi milli modelini təşkil etməyin fəal işinə keçirmək lazımdır. Ona görə də Makmillan partiya sıralarında parçalanmaya yol verməməyə çalışdı və hədsiz radikal islahatçı ritorikadan qaçdı. O, ən əvvəl «yeni mühafizəkarlıq» adlı siniflər üstü həmrəylik və sosial güzəşt ideologiyasını irəli sürdü. Yeni lider öz həmkarlarını dövlət intizamına, məsuliyyətə və praqmatizmə çağırdı.

Makmillan hökuməti, mahiyyət etibarı ilə sosial siyasəti fəallaşdırdı. Bu yalnız ideoloji prinsipləri deyil, həm də makroiqtisadi strategiyanı diktə edirdi. Qərbin qabaqcıl ölkələrində «firavanlıq dövləti» formalaşmağa başladı. Onun əsasında isə iqtisadi artımı möhkəm təmin etmək, alıcılıq və satıcılıq təkliflərini geniş miqyasda stimullaşdırmaq dururdu. Zəruri tələbat mallarının istehsalını artırmaq bazar mexanizmini tarazlaşdırmağın əsas amili kimi irəli sürülürdü. Bu isə imkan verməli idi ki, əmək münasibətləri ardıcıl nizama salınsın, dövlət sosial infrastrukturu genişləndirilsin.

1957-ci ildə Britaniya hökumətinin fəaliyyətində iki mühüm vəzifə dururdu. Bunlardan biri sosial büdcə proqramının geniş kompleksini saxlamaq, digəri isə xəzinəni tamamlamaq və bank faizlərinin səviyyəsini yüksəltmək məqsədi ilə dövlət qiymətli kağızlarının dəyərini kəskin surətdə artırmaq idi. Lakin sonrakı ilyarım – iki ildə iqtisadi konyuktura əhəmiyyətli dərəcədə pisləşdi. Tələbat mallarının qiymətinin artması inflyasiyaya səbəb oldu. Süveyş böhranı dünya bazarında daha da ölkənin vəziyyətinin pisləşməsinə təsir edən amillərdən biri oldu. Makmillan hökuməti «qiymətli kredit» siyasətindən imtina etməyə məcbur oldu. 1959-1960-cı illərdə müəssisələrin fəallığı yüksəldi. Bu əlverişli şəraitdə mühafizəkarlar 1959-cu il parlament seçkilərində 49,4% səs alaraq qələbə qazandılar. Leyboristlər 43,8%, liberallar isə 2,7% səs aldılar. İcmalar palatasında mühafizəkarlar leyboristlərdən 100 mandat çox yer tutdular. Hökumətin yeni kreditləri hesabına 1960-1961-ci illərdə inflyasiya daha da gücləndi. İqtisadi konyukturanın pisləşməsi səbəblərindən biri beynəlxalq valyuta – maliyyə bazarında kütləvi alverin olması və funt-sterlinqin mövqeyinin düşməsi idi. Bu da öz növbəsində Britaniya iqtisadiyyatında dərin daxili tarazlığın nisbətən pozulmasına səbəb olurdu. Müharibədən sonrakı inkişafın müəyyən müvəffəqiyyətləri olmasına baxmayaraq Böyük Britaniya sənayesi əhəmiyyətli dərəcədə ABŞ, Almaniya, Yaponiya sənayesindən ixtisaslaşma, texnoloji baza, malların dəyəri baxımından geri qalırdı. Britaniya iqtisadiyyatının əvvəlki liderləri – müstəmləkə – xammal inhisarları öz mövqelərini əhəmiyyətli dərəcədə itirmişdilər. Onlar indii müstəmləkələrdən malları müftə deyil, pulla almalı olmuşdular. İdxalın getdikcə artması büdcə defisitinə və inflyasiyaya səbəb olurdu.



60-cı illərin əvvəllərində antiböhran strategiyası məsələlərində hər iki böyük partiyanın iqtisadi eksperimentlərinin ümumi mövqeyi eyni idi. Bu konsensus «batskellizm» (maliyyə nazirni R.Batlerin və leyboristlərin lideri X.Qeytskellin adlarının müəyyən hissəsinin birləşməsindən alınmışdı) adlanırdı.

İqtisadi artımı gücləndirmək və inflyasiyanın artmasının qarşısını almaq üçün hökumətin təsərrüfat fəallığını məhdudlaşdırması məsləhət görülürdü. Maliyyə sistemini sağlamlaşdırmaq üçün sənayedə kapitalhəcmli istehsalı ixtisar etmək və xammal gətirilməsi tələbini azaltmaq lazım gəlirdi. İdxalın azaldılmasıa balansın çəkisinin bərpasına və inflyasiyanın azalmasına kömək edərdi. Sahibkar fəallığını stimullaşdırmaq və qtisadi artımı sürətləndirmək vacib idi. Stimullaşdırmağı saxlamağı nəzərdə tutan müəyyən ziqzaqları olan iqtisadi strategiya Böyük Britaniyada «Dayan- get» siyasəti adını aldı. 1961- 1962-ci ildə Makmillan hökuməti bu siyasət çərçivəsində iqtisadi konyukturanı «istiləşdirmək» sahəsində bir sıra addımlar atdı.

İngiltərə bankının hesab norması yenidən yüksəldi. Kömrük və digər dövlət yığımları artırıldı. Kredit məhdudlaşdırıldı, büdcənin məxaric hissəsi ixtisar edildi. Bununla paralel olaraq iqtisadiyyatın dövlət tənzimləməsinin mexanizmini yaratmaq sahəsində addımlar atıldı. Bu ona görə lazım idi ki, konyukturanı səmərəli şəkildə lazım gəldikdə «istiləşmə»dən «qızdırılma»ya və əksinə keçirmək mümkün olsun. Britaniya hökumətinin «Dayan-get» taktikası iri istehsalçıların» maliyyə və vergi cəhətdən müdafiəsini təşkil edir, dünya bazarında ölkənin rəqabət qabiliyyətini qoruyurdu. Bu vəzifənin həllinin həm də siyasi aspektdən mühüm əhəmiyyəti vardır. Yeni iqtisadi şərait həm Böyük Britaniyanın müstəmləkələri ilə münasibətlərində və həm də Avropaya inteqrasiya prosesində iştirak etməsində xüsusi əhəmiyyət kəsb edirdi.

Britaniya müstəmləkə imperiyasının dağılması 50-ci illərdə qarşısıalınmaz xarakter aldı. Makmillan torilər partiyasının liderlərindən birinci olaraq bunu dərk etdi və bu sahədə birmənalı şəkildə «fasilə küləkləri»nin zəruriliyini elan etdi. Bu siyasət müstəmləkələrə reallıqla yanaşmağı nəzərdə tuturdu. Artıq Makmillan hökuməti 1960-cı ildə Afrika ölkələrinə münasibətdə «rahat və liberal tərəqqi» siyasəti yeritmək niyyətində olduğunu

bildirdi. Böyük Britaniya tədricən Şərqi və Mərkəzi Afrika ölkələrindən çıxaraq hakimiyyəti qara rəngli çoxluğun əlinə verdi.

Britaniya imperiyası bu ölkələrdə etnik və dini münaqişələri heç də həmişə yatırmağı bacarmırdı. Məsələn, Britaniya diplomatiyası Nigeriyada vətəndaş müharibəsinin qarşısını ala bilmədi və 1960-cı ildə ona müstəqillik verməyə məcbur oldu. 1962-ci ildə Uqandada da tayfalararası ədavət zəminində baş verən qanlı toqquşma da müstəmləkə inzibati idarəsinin Uqandanı tərk etməsinə səbəb oldu. Keniya üçün də partizan hərəkatı və siyasi terrorizm yaralı yer olaraq qalırdı. Britaniya diplomatiyası ən ciddi uğursuzluğa Mərkəzi Afrikada düçar oldu. 1964-cü ildə Londonun vasitəçiliyi ilə Malavi, Zambiya və Cənubi Rodeziya da daxil olmaqla federasiya təşkil etmək haqqında layihə hazırlandı. Lakin Cənubi Rodeziyada ağ gəlmələrin siyasi hakimiyyətdə öz hökmranlıqlarını tam saxlamaları ölkədə açıq irqi münaqişənin başlanmasına səbəb oldu. Cənubi Afrikada da onunla analoji olan hadisə baş verdi. 1960-cı ildə Cənubi Afrika özünü respublika elan etdi.

Afrika kontinentində baş verən milli-azadlıq hərəkatları Britaniya diplomatiyasını yeni problemlərin qarşısında qoydu. Birlikdə Afrika «lobbi»si xüsusi güc topladı və onun mövqeyi çox vaxt Britaniyanın maraqları ilə üst-üstə düşmürdü. Makmillan bütün gücü ilə çalışırdı ki, Birliyin iqtisadi və siyasi sisteminə yeni həyat versin.Gənc dövlətlərin liderləri ilə çoxsaylı görüşlərində baş nazir bu məqsədini gizlətmirdi. Məhz Makmillan «çoxirqli assosiasiya»nın ideoloji konsepsiyasının əsasını qoydu.

Bu dövrdə Böyük Britaniya üçün Avropa siyasəti də böyük əhəmiyyət kəsb edirdi. 1957-ci ildə AİB-nin təşkil edilməsi Böyük Britaniyanın Avropa bazarından təcrid olunmaq təhlükəsini gücləndirdi. Bu təhlükəyə cavab olaraq London 1960-cı ildə Avropa azad ticarət assosiasiyasını yaratdı.

1960-cı il Stokholm müqaviləsinə əsasən onun tərkibinə daxil olan dövlətlərdə kömrük tarifi ləğv edilən «sərbəst ticarət zonası» yaradıldı. Burada həm də mal mübadiləsində və dempinq qiymətlərindən imtina etməkdə ayrı-seçkilik məhdudiyyətini aradan qaldırmaq nəzərdə tutulurdu. Tezliklə Britaniya diplomatiyası ölkənin AİB-ə daxil olması məsələsini qoydu. Böyük Britaniyanın AİB-ə daxil olması özünəməxsus xarakter kəsb edirdi. Bir tərəfdən London AİB çərçivəsində Böyük Britaniyanın üçüncü dünya ölkələri



ilə əməkdaşlıq əlaqələrinin tanınması zəminində ona xüsusi status verilməsində israr edirdi. Burada söhbət həm Böyük Britaniya Millətlər Birliyinə daxil olan ölkələrdən, həm də AATA –nın, yəni Avropa Azad Ticarət Assosiasiyasının üzvü olan dövlətlərdən gedirdi. Digər tərəfdən isə, Böyük Britaniya özünə «xüsusi münasibətdən» imtina etmək istəmirdi. İngiltərə «Troya atı»nın AİB-ə daxil olmasının ən qatı əleyhdarı Fransa prezidenti Şarl de Qoll idi. 1962-ci ildə o, Makmillanla şəxsi görüşündə bildirmişdir ki, birliyə girməkdən əvvəl Böyük Britaniya ilə Fransa arasında Avropa nüvə silahı zonasını təşkil etmək sahəsində sıx əməkdaşlıq başlanmalıdır. Lakin Britaniya diplomatiyası əməkdaşlıq planına görə «Atlantika həmrəyliyi» siyasətini qurban verməyə hələ hazır deyildi. Rədd cavabı alan Fransa Böyük Britaniyanın AİB-ə daxil olması ilə əlaqədar istənilən danışığa münasibətlərində «veto» qoydu.

Makmillanın diplomatik uğursuzluğunu hökumətin iqtisadi stradegiyasının səmərəliliyinin şübhə altında olmasını daha da dərinləşdirdi. Yeni xarici bazarlarda qərarsız mövqe, xarici ticarət sahəsində və funt-sterlinqin dünya maliyyə bazarında vəziyyətində köklü dəyişikliyin olmaması iqtisadi artım tempinin azalmasını və inflyasiyanı gücləndirdi. 1963-1964-cü illərdə hökumətin yenidən «dayan-get» siyasətinə qayıtması yeni ideya və qərarlardan imtina etdiyini bir daha nümayiş etdirdi. Mühafizəkarlar partiyasının reytinqi sürətlə aşağıf düşdü. Dönüşü hərbi nazir Profyumonun «çirkli əlaqələr»də ittiham edilməsi daha da gücləndirdi. Hökumət böhranı Makmillanın ağır xəstəliyi ilə üst-üstə düşdü. 1963-cü ilin oktyabrında o, istefaya getmək haqqında qərar qəbul etdi. Onu Alek-Duqlas Hyum əvəz etdi. Onun gəlişi Britaniya dövlətçiliyinin hüquqi bazasında mühüm dəyişikliklərlə müşahidə olundu. Əvvəlcə lordlar palatasında islahat keçirildi, hansı ki, bunun əsası hələ 1958-ci ildə Makmillan tərəfindən qoyulmuşdu. O zaman ömürlük perlik haqqında Akt qəbul edilmişdi. Buna müvafiq olaraq ömürlük perlik taxtı lordlar palatasında iclas etmək və səs vermək hüququ ilə təqdim edilə bilərdi. Qeyd etmək lazımdır ki, həmin praktikadan 1856-cı ildə istifadə edilmişdi. Lakin uzun müddət perlik sadəcə titul idi və torpaq mülkiyyəti ilə əlaqədar verilirdi, lakin onlara lordlar Palatasında iclas etmək kimi «şərəfli vəzifə» təqdim edilmirdi. 1958-ci il Aktı bərabərhüquqlu, mühüm siyasi nəticə kimi ömürlük perlik institutunu qəti şəkildə təsdiq etdi. Belə ad xüsusi şəxsi xidmətləri olan şəxslərə

təqdim edilirdi. Bu islahat nəticəsində yuxarı Palata xüsusi xidmətləri olan siyasətçilər, məşhur ictimai xadimlərlə zənginləşdi. O, siyasi orientasiyasına görə daha müasir oldu, Britaniya cəmiyyəti qarşısında daha nüfuzlu oldu. Perlər haqqında 1963-cü il Aktının əsas ünsürü irsi perlərin bu tituldan könüllü şəkildə imtina etmək hüququnun tanınması idi. XX əsrin əvvəllərindən belə bir qayda var idi ki, baş nazir postuna ancaq icma Palatasının üzvü öz namizədliyini verə bilərdi və ənənəyə görə lord icma Palatasına daxil ola bilməzdi. Bu düzəliş lordun da icma Palatasına daxil olmasına icazə verirdi.

1963-cü ildə verilmiş perlik haqqında aktdan sonra mühafizəkarlar partiyasından olan nüfuzlu siyasətçilər bu hüquqdan istifadə edərək aparıcı siyasi postları tutmaq təşəbbüsündə oldular. Lord Xeyls və lord Duqlas Hyum bu hüquqdan ilk istifadə etdilər. Per titulundan imtinadan iki həftə sonra Duqlas-Hyum baş nazir yerini tutdu. 1963-cü ildə yeni baş nazirin namizədliyi ilə mühafizəkarlar partiyası daxilindəki müzakirələr bu partiyanın demokratikləşdirilməsində kəskin dönüş yaradan bir hadisə oldu. Mühafizəkarlar partiyasının siyasi böhranı partiyanın özündə və onun dövlət strategiyasında ciddi düzəlişlərə ehtiyac olduğunu göstərdi. Ölkədə sənaye məhsulları istehsalının vəziyyəti, sosial infrastrukturun modernizasiyası, regional siyasət məsələləri də bu dəyişiklikləri zəruri edirdi. XX əsrin 50-60-cı illərində sənaye məhsulunun orta illik artımı Böyük Britaniyada cəmi 3% təşkil etdiyi halda, ABŞ-da bu artım -4%, AFR və İtaliyada – 7,4%, Portuqaliyada -6,2%, İspaniya və Yunanıstanda -7,5%, Yaponiyada 15,2% təşkil edirdi. Qərbin qabaqcıl ölkələri içərisində Böyük Britaniya təhsilin səviyyəsinə görə ən aşağı göstəriciyə malik idi. Əmək bazarında azixtisaslı işçilər çoxluq təşkil edirdi.

XX əsrin 60-cı illərində Böyük Britaniya cəmiyyəti yeni psixoloji problemlərlə də üzləşməli oldu. Bunun əsasında müstəmləkə imperiyasının dağılması dururdu. İngilislərin əksəriyyəti bunu pozitiv hal kimi qarşıladı. Cəmiyyətin bir hissəsi isə bunu ölkənin beynəlxalq nüfuzuna təsir edən, onun böyük dövlət statusunu itirə biləcək bir hal kimi qəbul etdi. Almaniya, İtaliya və Yaponiyanın müvəffəqiyyətləri onları daha çox kədərləndirdi. Milli rifah halının lazımi səviyyədə olmaması da cəmiyyətdə məyusluq yaratmışdı. Bütün bunların səbəbini mühafizəkarlarda görən



leyboristlər onların hakimiyyətdə olduqları 1951-1964-cü illər dövrünü hədər getmiş «on üç il» adlandırdılar.

## Böyük Britaniya XX əsrin 60-70-ci illərində «Texnokratiya dövrü»

***a) Harold Vilsonun «texnokratik inqilabı»*** 1951-ci il seçkilərində leyboristlərin məğlubiyyətindən sonra leyboristlər partiyasının lideri olan K.Ettli ilə partiyanın sədri H.Laski arasında fikir ayrılığı əmələ gəldi. Belə ki, Laski partiyadaxili həyatını demokratikləşdirməyi, vahid başlanğıc prinsipindən əl çəkməyi tələb edirdi. 1955-ci ildə partiyanın lideri Hyu Heykstell seçildi. O, partiyanın sağ qanadının nümayəndəsi idi. O, leyboristlərin doktrinasını dəyişmək təşəbbüsü ilə çıxış etdi. 1952-ci ildə hələ onların «Yeni fabianlıq oçerkləri» adlı məqalələr məcmuəsi çap edilmişdi. Onlar sosial – demokrat islahatlar ənənələrindən ümummilli siyasətə keçməyə çağırdılar. Bu isə onların fikrincə, «ümumrifah dövləti»nin müasir modelinin formalaşmasına yönəldilməli idi. Heykstell İkinci dünya müharibəsindən sonra leyboristlərin proqramının əsas təsiri olan iqtisadiyyatın qüdrətli dövlət bölməsini təşkil etmək məsələsinə yenidən baxılmasına çalışırdı. Onun fikrincə, bazarın genişlənməsinə və rəqabətin təbii qanunlarına riayət etməyə dövlət daha çox diqqət yetirməlidir. Leyboristlər partiyasının sol qanadının lideri E.Biven isə fəhlə hərəkatının sinfi prinsiplərini saxlamaqda təkid edirdi. Partiyanın hər iki qanadının partiyanın doktrinasının bütün prinsipial məsələlərində vahid mövqeyə gəlməsi və konsolidasiyası leyborist partiyasının 1957-ci il konfransında mümkün oldu.

1959-cu il seçkilərindəki məğlubiyyətdən sonra leyboristlər yenidən fəallaşdılar. Onların ictimai inkişafın texnokratik modelini formalaşdırmaq məsələsini ön sıraya atdılar.

1963-cü ildə X.Heykstellin ölümündən sonra partiyanın rəhbərliyinə sağ qanadın nümayəndəsi Corc Braun, sol mərkəz dairənin nümayəndəsi Ceyms Kollagen, mərkəzçilərin nümayəndəsi Harold Vilson namizəd idi. Ən yeni siyasi texnologiyaya tərəfdarlıq Harold Vilsona 1963-cü il partiyadaxili seçkilərdə lider kimi qələbə qazanmağa imkan verdi. Leyboristlər partiyasının 1963-cü ildə olmuş konfransı «Leyboristlər və elmi inqilab» adlı proqram qəbul etdi.

Vilson elmlə iqtisadi planlaşmanı birləşdirmək məsələsini irəli sürdü. 1964-cü il seçkiqabağı kampaniyada leyboristlər «texnokratik inqilab» şüarını irəli sürdülər. 1964-cü ilin oktyabr ayının 15-də keçirilən parlament seçkilərində leyboristlər – 44%, mühafizəkarlar isə – 43% səs topladılar. Harold Vilsonun başçılığı ilə leyborist hökuməti təşkil edildi. Partiyanın siyasi imici mahiyyətcə dəyişildi. Vilson göstərdi ki, hökumət «real siyasət» yeritməli, iqtisadi inkişaf məsələləri ilə məşğul olmalıdır. O, deyirdi ki, indi «ideologiyanın sonu erasıdır».

Hökumət ilk növbədə ciddi büdcə kəsiri və inflyasiyanın sürətlə artması problemi ilə qarşılaşdı. 1965-ci ilin yazında gəlirə görə vergini artırmaq planlaşdırıldı. Korporativ tipdə olan kampaniyalara daha çox vergi qoyuldu. Qiymətlərin, əmək haqqının artımının «dondurulması» yolunda addımlar atıldı. 1964-cü ilin dekabrında hökumət «məhsuldarlığın, qiymət və gəlirin planlaşdırılması haqqında» sahibkar dairələr və tred-yunion nümayəndələri ilə birgə qərar qəbul etdi.

Əmək haqqının hər il orta hesabla artımı – 3,5%, qiymətlərin qalxması isə – 4% müəyyən edildi. Büdcə kəsirinin və inflyasiyanın qarşısını almağın ən mühüm vasitələrindən biri dövlət büdcəsinin məxaric hissəsinin azaldılması hesab edildi. Lakin öz «elektoratını itirməkdən qorxan leyboristlər sosial – siyasi və digər istiqamətlərdə daha da fəallaşdılar. Artıq 1964-cü ilin sonunda pensiyalar artırıldı və tibbi reseptlərə qoyulan vergi ləğv edildi. Mənzil tikintisi nazirliyi icarə haqqında yeni qanunun layihəsini hazırladı. Geniş miqyasda bələdiyyə yaşayış evləri tikilməyə başladı. Mənzil sahiblərinin güzəşt kateqoriyaları genişləndirildi. 1965-ci il büdcəsində sosial məlumat üzrə müavinətləri artırmaq məsələsinə yenidən baxıldı. Bütün bunlar büdcə problemini daha da kəskinləşdirdi. Vilson belə hesab edirdi ki, bir problemdən qaçmaq üçün iqtisadi artımı sürətləndirmək və iqtisadiyyatın planlı başlanğıcını möhkəmləndirmək vacibdir. İqisadiyyatın inkişafı üzrə Milli Şura təşkil edildi. O, 1965-ci ildə beşillik «Milli iqtisadi plan» işləyib hazırladı və o, qanun qüvvəsinə mindi. İstehsalda artım hər il 4-5 % nəzərdə tutulurdu. Ən çox diqqət işsizliyi aşağı səviyyəyə endirməyə verilirdi. Sahibkarları istehsalın texnika-texnoloji bazasını modernləşdirməyə həvəsləndirmək xətti götürüldü. Məşğulluğa görə ayrıca seçmə vergi müəyyən edildi. Əlverişli invetsiya iqlimini saxlamaq xətti yeridildi. 1966-cı ilin



fevralın 28-də Vilson öz hüququndan istifadə edərək krallıqdan parlamenti buraxmaq və yeni seçkilər keçirməyi xahiş etdi. Yeni seçkilər martın 31-də keçirildi. Leyboristlərin «Qərarlar zamanıdır» manifesti seçkilərdə belə bir inam yaradırdı ki, leyboristlər gələcəkdə iqtisadi artıma nail olacaq, nəqliyyat infrastrukturunu və mənzil fondunu, təhsil və səhiyyə sistemini inkişaf etdirəcəkdir. Seçkilərin gedişində leyboristlər – 48,1 % (364 mandat), mühafizəkarlar – 41,9% (253 mandat), liberallar 8,5 % (12 mandat) səs aldılar. Yenidən H.Vilsonun başçılığı altında leyboristlər hökumət təşkil etdilər.

XX əsrin 60-cı illərinin sonunda maliyyə sabitliyinin yenidən pozulması təhlükəsi yarandı. Fəal büdcə siyasəti xroniki büdcə kəsirinin əsas səbəbi oldu. Avropa ölkələrindən o dövrdə ancaq İsveç büdcənin müsbət saldosunu sabit saxlayırdı. Vilson hökuməti bu dövrdə inflyasiya meylini müxtəlif tədbirlərlə birləşdirməyə çalışaraq onu funt-sterlinqin kursunun düşməsinə yaxın buraxmamağa çalışırdı. 1966-cı ilin ikinci yarısı ərzində tədbirlər paketi reallaşdı. İcarə haqqı, avtomobillərin qiyməti (40%) və spirtli içkilərə, neft və benzinə, rabitə xidmətinə (bütövlükdə 10%) qoyulan dolayı vergilər artırıldı. Milliləşdirilmiş sənaye müəssisələrinə qoyulan investisiyalar kəsildi, beynəlxalq valyuta sövdələşmələri şərtləşdirildi, Britaniya Millətlər Birliyi ölkələrinə çəkilən mülki və hərbi xərclər ixtisar edildi. 1967-ci ildə İngiltə banklarında «qiymətli kredit» siyasəti həyata keçirildi. Əmək haqqı və qiymətlərin artımının əlavə məhdudlaşdırılması başlandı. Bir çox büdcə xərcləri ixtisar edildi, xaricdən pulla alınan məhsullar, kapitalın xaricə axını məhdudlaşdırıldı. Hökumət bu siyasətlə ilk növbədə ölkənin mədaxil və məxaric balansını yaxşılaşdırmağa nail olmağa çalışırdı. Buna isə ilk növbədə ixracı fəallaşdırmaq hesabına nail olmaq istəyirdi. Burada Böyük Britaniyanın Avropanın Birliyinin ümumi bazarına daxil olmasının da mühüm əhəmiyyəti ola bilərdi. 1967-ci ilin mayında hökumət Danimarka və Norveçlə birlikdə AİB-ə daxil olmaq xahişi ilə ərizə hazırladı. Lakin Fransa yenə də barışmaz mövqeyini nümayiş etdirdi və 1967-ci ilin noyabrında Böyük Britaniya yenə rədd cavabı aldı. Bu dövrdə beynəlxalq vəziyyət də kəskinləşdi. İsraillə Misir arasındakı 1967-ci ilin iyununda baş verən «Altıgünlük müharibə» dünya bazarındakı sabitliyi pozdu. Bir neçə ay ərəb ölkələri Böyük Britaniyaya neft göndərilməsi üzərinə

embarqo qoydular. Süveyş kanalının bağlanması, Londonda və Liverpulda uzun sürən tətillər də Britaniya xarici ticarətinə mənfi təsir göstərdi. Belə bir şəraitdə Vilson hökuməti milli valyutanı devalvasiya etməyə məcbur oldu. 1967-ci ilin noyabr ayının 18-də funt-sterlinqin kursunun 14,3% aşağı salındığı elan edildi. Bu hadisə keçən il yarım ərzində «Sterlinq zonası»nın 25 ölkəsində valyuta böhranına səbəb oldu. Onu da qeyd edək ki, 1969-cu ildə Fransada da frankın kursunun aşağı salınması «frank zonası»na daxil olan 14 Afrika ölkəsində də milli valyutanın kursunun aşağı salınması ilə müşaiyyət olundu. 1971-ci ildə isə ABŞ inzibati idarəsi dolların qızılın rəsmi kursu ilə mübadiləsini müvəqqəti dayandığını elan etməyə məcbur oldu. «Üzən» valyuta kurs siyasəti yeridildi. Milli valyutaların məhvedici bazar dəyişməsi praktikası genişləndi. Valyuta kursuna sərt münasibət bəslənilən Britton-Vud maliyyə sistemi sonuna yaxınlaşmış oldu.

Dünya maliyyə-valyuta bazarının kökündən təzələnməsi şəraitində Milli iqtisadi sistemin real potensialı həlledici rol oynamış oldu. Britaniya hökumət ekspertləri belə hesab edirdilər ki, valyuta kursunun aşağı düşməsi istehsalda canlamaya səbəb olacaq. Britaniya mallarının dəyərinin azadılması ixracın artmasına, ixracın ucuzlaşmasına çağırış hesab edilirdi. Eyni zamanda, inflyasiya siyasətinin müsbət potensialının reallaşdırılması Britaniya sənayesinin resurslarından tezliklə istifadə edilməsindən, onun rəqabət qabiliyyətinin yüksədilməsindən çox asılı idi. Bunun üçün isə Beynəlxalq valyuta fondunun (BVF) köməyinə ciddi ehtiyac var idi.

BVF Britaniya hökumətinə bir sıra sabitləşdirici tədbirlər görmək üçün kredit təqdim etdi.

Hökumət qeyri-istehsal sahələrinə büdcə xərclərini ixtisar etməyə məcbur oldu. Bununla bərabər, hökumət 1968-ci ildə tibbi reseptlərə vergi təyin etdi, rabitə xidmətinə görə vergiləri artırdı, yaşayış evlərinin tikintisi üzrə planı ixtisar etdi, məktəblərdə pulsuz süd verilməsi təxirə salındı. 1969-cu ilin büdcə çərçivəsində benzin, siqaret, sürücülük hüququ, işədüzəltmə korporasiyalarına qoyulan vergilər artırıldı.

Vergilərin artırılması istehsala münasibətdə stimullaşdırıcı amil kimi hesab edildi. Elmtutumlu sahələrin inkişafı üçün hökumət kral mükafatı sistemini genişləndirdi. İşçilərin ixtisaslaşmasını yüksəltmək və menecerliyin yeni formalarını yaratmaq üçün



kadrların hazırlığı üzrə şuralar təsis edildi. Yol nəqliyyatı, mehmanxana xidməti, mülki aviasiya, benzindoldurma biznesi sahələrində belə şuralar daha tez fəaliyyətə başladılar. Hökumət gəlirə görə nisbətən aşağı vergini saxladı. Hökumətin maliyyə və siyasi dəstəyi ilk növbədə iri Britaniya kompaniyaları oldu ki, o,dünya bazarında rəqabət qabiliyyətini qoruyub saxlaya bilsin. Milliləşdirilmiş müəssisələrə dövlət kapital qoyuluşunu genişləndirdi. 1967-ci ildə dövlət iri metallurgiya inhisarı olan «Britiş Still Korporeyşn»ın əsasını qoydu. Bu inhisar bütün poladtökmə sənayesinin milliləşdirilməsini həyata keçirməli idi. Hökumət gələcəkdə bank və sənaye kapitalının müəyyən hissəsinin də mərkəzləşdirilməsini müdafiə etməyi nəzərdə tuturdu. 1969-cu ildə Qərbi Avropada fəaliyyət göstərən 20 iri xüsusi kompaniyanın 8-i Britaniyaya məxsus idi.

Görülən tədbirlər müəyyən müsbət nəticələr verdi. Belə ki, 1970-1971-ci illərdə Britaniya büdcəsi uzun illərdən bəri ilk dəfə olaraq müsbət saldoya malik oldu. 1968-ci ildə hətta baş nazir ölkədə iqtisadi möcüzə baş verəcəyi haqqında pafosla danışdı. Lakin bu həddindən artıq şişirdilmiş bir proqnoz idi. Böyük Britaniya əvvəlki kimi yenə də qabaqcıl Qərb ölkələrindən daxili məhsul istehsalının illik artımına görə geridə qalırdı. Dünya sənaye məhsulu istehsalında onun payı azalmışdı. Daha mühümü Vilson hökumətinin sərt iqtisadi siyasəti nəticəsində ölkədə sosial narazılığın artması idi. Həm də leyboristlərin adi elektoratı, yəni muzdlu fəhlələr və qulluqçular xüsusilə narazı idilər. Əgər 1963-cü ildə ölkədə 593 min nəfər tətil etmişdirsə, 1966-cı ildə onların sayı 2398 min, 1969-cu ildə isə 1666 min idi.

Mənfi ictimai rəyi aradan qaldırmaq, sosial problemləri həll etmək üçün hökumət bir sıra tədbirlər gördü. 1965-ci ildə «İrqi mənsubiyyət haqqında Akt» qəbul edildi. İstənilən irqə aid olan şəxslərə kommunal xidmət və nəqliyyat sahəsində işə girməyə icazə verildi. İrqi ayrı-seçkilik haqqında şikaytlərə baxmaq üçün irqi mənsubiyyət üzrə şura təsis edildi. 1968-ci ildə mühacirlər haqqındakı qanunvericilikdə işəgötürmə və mənzil almada ayrı-seçkiliyin ləğv edilməsi ilə əlaqədar dəyişiklik edildi. Hökumət qadınların emansipasiyası prosesini sürətləndirdi. 60-cı illərin sonunda boşanmaq haqqında Aktın qüvvəyə minməsi ilə əsasda boşanmaların sayı kəskin surətdə artdı. 1967-ci ildə ailələrin

planlaşdırılmasına dövlət xidməti işə başladı. O, əsasən mərkəzləşmə təbliğatı ilə məşğul olurdu. Abort haqqında qəbul edilən Akta əsasən hamilə qadının sağlamlığı və doğulacaq uşağın irsi xəstəliklərlə doğulmaması üçün klinikalar məsuliyyət daşıyırdı. 1967-ci ildə isə homoseksual münasibətləri leqallaşdıran qanun qəbul edildi. 1969-cu ildə hökumət xalq nümayəndəliyi haqqında Billi parlamentdə keçirməyə müvəffəq oldu. Seçki senzi 18 yaşa qədər aşağı salındı. Bu tədbir leyboristlər hökumətinin gənclər siyasəti sahəsində proqramının əsas tərkib hissələrindən biri idi.

Hökumət həmçinin təhsil sisteminin modernizasiyası sahəsində də bir sıra tədbirlər gördü. Dövlət məktəbləri «ümumtəhsil» məktəbləri kimi yenidən təşkil edildi. Təhsil xidmətinin xüsusi bölməsi müəyyən dərəcədə dövlət yardımını itirmiş oldu. 1969-cu ildə Böyük Britaniya tarixində ilk dəfə olaraq narkotik maddələrdən istifadə əleyhinə qanun qəbul edildi.

Vilson hökumətinin qarşılaşdığı bir çox sosial problemlər 60-cı illərin sonunda təkcə Britaniya cəmiyyəti üçün deyil, bir çox Qərb ölkələrində də xarakterik hal idi. Bu dövr Qərb ölkələrində tələbə və anti-müharibə hərəkatının radikallaşması, nəsillər arasında ixtilafların kəskinləşməsi, alternativ gənc mədəniyyətlərin meydana çıxması, milli və irqi məsələlərin mürəkkəbləşməsi, seksual inqilab və feminizmin yüksəkliyi ilə daha çox yadda qalırdı.

Böyük Britaniyada 60-cı illərin sonunda sosial-psixoloji şəraitin kəskinləşməsinin simvolu Olsterdəki dini-siyasi konflikt oldu. 1919-1921-ci illərin böhranından sonra İrlandiya respublikasının yaranması qərarlaşdı. İrlandiyanın şimalındakı altı qraflıq isə (Olster) muxtariyyət hüququ ilə Birləşmiş Krallığın tərkibində qaldı. Olster ətrafındakı şərait uzun müddət sabit qaldı. İrlandiya respublikasının 1937-ci ildə konstitusiyasının qəbul edilməsi və orada vahid birləşmiş irland dövlətinin yaradılması haqqında maddənin daxil edilməsi, İrlandiyanın 1949-cu ildə Birliyin tərkibindən çıxması Londonla Dublin arasında dioloqlarda gərginlik yaranmasına səbəb oldu. 1969-cu ilə qədər Şimali İrlandiyanın region hökumətinin tərkibi əsasən ancaq protestantlardan təşkil edilmişdi.

1967-ci ildə Şimali İrlandiyada katolik hərəkatın liderləri vətəndaşlıq hüquqları uğrunda mübarizə assosiasiyasını təşkil etdilər. Bu təşkilat katoliklər və protestantlar üçün eyni hüquq bərabərliyini tələb edirdilər. Şimali İrlandiya Daxili işlər Nazirliyinin qadağan



etməsinə baxmayaraq 1968-ci ildə Assosiasiya katolik əhalinin müdafiəsi ilə əlaqədar çoxlu mitinqlər təşkil etməyə başladı. Bu Şimali İrlandiya hökumətinin böhran keçirdiyini xəbər verirdi. Hökumətin tərkibində daha radikal protestant qruplaşmalarının nümayəndələrinin mövqeyi gücləndi. 1895-ci ildə təşkil edilmiş «Oranjistlər ordusu» bərpa edildi. Olsterdəki protestantların rəhbərlik etdikləri krallığın polisi və xüsusi «Bi-speşialz» antiterror bölmələri tədricən dini münaqişələr zəminin də ayrı-seçkilik silahına çevrildilər. Buna cavab olaraq ekstremist katolik qrupların da hərəkatı fəallaşdı. Siyasi arenaya yenidən İrlandiya Azadlıq Ordusu (İRA) çıxdı. Onun radikal hissəsi («İRO-nun müvəqqəti qanadı») mübarizəsinin terrorçu metodunu seçdi.

Dini zəmində toqquşmalar 1968-ci ildə Apoqe şəhərində baş verdi ki, buna da səbəb Londonderridə baş verən hadisələr idi. 1969-cu ilin avqustun 3-də ekstremist – protestantlar Londonderridə olduğu kimi, Belfastda da silahlı intizamsızlıqlar törətdilər. Buna cavab olaraq, London hökuməti Şimali İrlandiyaya 1969-cu ilin avqustunda nizami qoşun hissələri yeritdı. Yerli polis tərksilah edildi, onun yerində Olsterin müdafiəsi polku təşkil edildi. Hüquq-mühafizə orqanı vəzifəsini yerinə yetirməyə başladı. Lakin toqquşmaların qarşısı tam alına bilmədi. Şimali İrlandiya vətəndaş müharibəsi həddinə çatdı.

Seçicilərin etibarını qazanmaq üçün 1970-ci ilin iyunun 18-də Vilson hökuməti yeni parlament seçkiləri keçirdi. Partiya təbliğatı əvvəlki qətiyyət və praqmatikliyini itirdi. Leyborist rəhbərliyinin ləngliyi ictimai rəyin xoşagələn nəticəsinə ümidlə müəyyən edilirdi. Lakin gözlənilmədən elektroratın seçimi əksinə oldu. Mühafizəkarlar 46,4 % səs aldılar. Leyboristlər isə 42,9% səs yığdılar. Mühafizəkarlar partiyası İcma palatasında 43 əlavə mandat əldə etdi. Palatada 330 yer ona məxsus oldu. Leyboristlər 287 mandat, liberallar – 6 mandat aldılar.

## Böyük Britaniya 70-ci illərin əvvəllərində E.Hitin «yeni mühafizəkar" hökuməti

Mühafizəkarlar partiyası müxalifətdə olan dövrdə öz ideoloji doktrinasında və təşkilati quruluşunda köklü modernləşdirmə apardı. Bu istiqamətdə birinci addım partiya liderinin seçilməsi prosedurasının parlament fraksiyası deputatları ilə qəti əlaqələndirilməsi oldu.

İlk dəfə belə seçkilər 1965-ci ildə təşkil edilmişdi. Əsas mübarizə Edvard Hit, Recinald Modlinq və Enoko Pauell arasında gedirdi. Bunların hər üçü mühafizəkarların yeni nəslinin nümayəndələri idi. Onlar hələ 50-ci illərin əvvəllərində «Vahid millət»adlı partiyadaxili qrup yaratmışdılar. «Yeni mühafizəkarlar" əməklə kapitalın dialoqu, ümummilli siyasət həyata keçirmək, özündə məqsəd və idealları birləşdirən bir cəmiyyət formalaşdırmaq uğrunda mübarizə aparırdılar. «Vahid millət» qrupunun konsepsiyasında əsas rolu «xüsusi mülkiyyətçilərin demokratiyası» ideyası oynayırdı. Xüsusi və dövlət bölmələrinin məqsədəuyğun şəkildə birləşməsi nəticəsində bazar prinsiplərinə riayət əsasında iqtisadiyyatın qarışıq modelini inkişaf etdirmək məsələsini irəli sürür, onu qətiyyətli texnokratik ideyalara qarşı çıxırdılar. Onların fikrincə, iqtisadiyyatı idarə etmək də cəmiyyəti idarə etmək qədər çətindir. «Yeni mühafizəkarlar» iqtisadi proseslərə inzibati rəhbərliyi azaltmağı, mərkəzləşdirilmiş planlaşdırmadan əl çəkməyi tələb edirdilər. İrəli sürdükləri dövlətin iqtisadi siyasəti sistemini onlar «səmərəli kordinasiya» adlandırırdılar. «Vahid millət» qrupu belə hesab edirdi ki, gəlirlər sahəsindəki məhdudiyyətləri aradan qaldırmaq, gəlirə görə mütərəqqi vergi siyasətindən imtina etmək lazımdır. Biznes aləmində vergi yükünü aşağı salmaq Milli sərvət toplamağın və kapital artımının stimullaşdırılmasının əsas vasitələrindən biridir. Milli iqtisadiyyatın dinamik inkişafında kiçik kapitalın rolu xüsusi qeyd edilirdi. «Kollektiv tələbat» sistemindən imtina edən «Vahid millət» qrupunun nəzəriyyəçiləri dövlətin sosial siyasət sistemində düzəlişlər etməyi lazım bilirdilər. Onlar «kollektiv cənnətdən ünvanlı sosial siyasətə keçməyi» zəruri sayırdılar. Sosial aləmdə fərdi məşğuliyyətlə xüsusi təşəbbüs prinsipini möhkəmlətmək yolu ilə millətin ruhunu yüksəltmək, cəmiyyətin və şəxsiyyətin azadlığını təmin etmək mümkün hesab edilirdi.



1966-cı il seçkiləri gedişində məğlubiyyətinə baxmayaraq mühafizəkarlar partiyası tədricən öz mövqeyini möhkəmlətməyə başladı. 1967-ci ildən başlayaraq onlar yerli hakimiyyət orqanlarına və parlamentə əlavə seçkilərdə tez-tez qələbə çalırdılar. Lakin partiya rəhbərliyində vəziyyət mürəkkəb idi. 1967-ci ildə «kölgəli kabinetin» tərkibindən mühafizəkarların «köhnə qvardiya»sının sonuncu nümayəndələri də xaric edildilər. Mühafizəkarlar partiyasının rəhbərliyindəki ixtilaflar E.Hitin reytinqini xeyli aşağı saldı. 1970-ci ildə rəyi soruşulanlardan 44%-i Hitin pis, 31 %-i isə yaxşı rəhbər olduğunu göstərdilər. 1970-ci il parlament seçkilərindən sonra Hit ilk növbədə təhlükəli rəqibləri kənarlaşdırmağı qərara aldı. D.Kann, Paull hökumətin tərkibinə daxil edilmədi. R.Mudlinq əvvəlki nüfuzunu itirdi, 1972-ci ildə isə hökumətin tərkibindən də çıxarıldı. Y.Makleod maliyyə naziri oldu, lakin bir az sonra öldü. Kabinetdə əsas mövqeləri E.Xitin tərəfdarları tutdu. Yeni hökumətin tərkibində başda K.Cozef və M.Tetçer olmaqla partiyanın sağ qanadının nümayəndələri xüsusi mövqe tutdular.

Seçkilərdən az sonra E.Hitlə partiyanın parlament frakksiyası arasında münasibətlər gərginləşdi. «Deputat sorğusu» praktikası əhəmiyyətli dərəcədə ixtisar edildi. Parlament islahatı dövlət idarəçiliyi sistemində yeni təşkilati yenilik sayıldı. Nazirlik sistemində ixtisar getdi. Malliyyə sahəsində hökumətin səlahiyyətləri artdı. Hökumət hər il yerli hakimiyyət orqanlarının maliyyə durumunu yoxlamaq hüququ aldı. Qraflıqların miqdarı azaldıldı, onların ölçüsü artırıldı. Yerli hakimiyyət orqanları nümayəndələrinin səlahiyyətləri artırıldı. 1972-ci ildə qəbul edilmiş qanuna görə Şura başçılarının səlahiyyətləri genişləndirildi.

Dövlət idarəçiliyi islahatı İngiltərə kimi Uelsə də aid edildi. Şotlandiya və Şimali İrlandiyada isə əvvəlki idarə üsulu saxlanılmaqda idi. Əvvəlki leyboristlər hökumətindən fərqli olaraq E.Hit bu regionların özünüidarəsini genişləndirmək ideyasını müdafiə etmirdi. Şotlandiya inzibati idarəsinin islahatına hazırlıq işi dayandırıldı. Şimali İrlandiyada isə 1972-ci ildə birbaşa idarəetmə rejiminə keçirildi. Yerli hökumət səlahiyyətlərindən məhrum edildi. Stormont buraxıldı.

Şimali İrlandiyanın siyasi muxgtariyyəti rəsmən ləğv edilməsə də, ancaq onun ərazisində xüsusi qanunvericilik fəaliyyət göstərməyə başladı. Onun əsasını «Şimali İrlandiya haqqında» 1973-

cü ildə və «Terrorizmə xəbərdarlıq haqqında» 1974-cü ildə qəbul edilmiş qanunlar təşkil edirdi.

Terrorizmə qarşı xüsusi qanunvericilik aktı Birləşmiş krallığın bütün ərazisinə şamil edildi. Götürülmüş sərt ölçülər Olster probleminin həllinə kömək etmədi. Britaniya kontingenti katolik azlıq tərəfindən işğalçı ordu kimi qarşılandı. 1972-ci ilin dekabrın 30-da baş vermiş «Qanlı bazar günü» hadisəsi ictimai əhval-ruhiyyədə kəskin dönüş yaratdı. Həmin gün İngiltərə ordusu Londonderridə üsyan edən katoliklərə atəş açdı və nəticədə 13 adam öldü. Bundan hiddətlənən kütlə Dublindəki Britaniya səfirliyinin binasını yandırdı. Həmin anda İRO hər cür sülhdən imtina edərək İngiltərə hökumətinə qarşı terrorçu müharibəyə başladı. 1972-1975-ci illərdə Şimali İrlandiyada 475 adam həlak oldu. Gərginliyi aradan qaldırmaq üçün Britaniya hökuməti ölkə tarixində birinci dəfə olaraq referendum keçirmək qərarına gəldi.

1973-cü ilin martın 8-də Şimali İrlandiya əhalisinə Olsterin Birləşmiş krallıqdan ayrılıb İrlandiya Respublikasına birləşməsi haqqında fikrini bildirmək imkanı verildi. Lakin referendumun siyasi səmərəsi çox az oldu. Protestant çoxluq ayrılmaq əleyhinə olduğunu bildirdi, katolik azlıq isə referendumu baykot etdi. Olster problemini həll etmək üçün son cəhd 1973-cü ilin dekabrında Böyük Britaniya və İrlandiya hökumətləri arasında bağlanmış Sanninqdeyl sazişi oldu. Bu sazişə əsasən İrlandiya Respublikası və Şimali İrlandiya parlamentariləri və nazirlərindən ibarət dövlətlərarası məsləhətçi orqan olan İrlandiya Şurası təşkil edildi. Lakin protestant ekstremistlərin etiraz çıxışları onun ratifikasiya edilməsinə imkan vermədi.

Hit hökuməti ardıcıl, lakin həmişə o qədər də səmərəli olmayan «hakimiyyətin mərkəzləşdirilməsi» siyasətinə genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsində əsas amil kimi baxırdı. Onun konseptial əsasını «Vahid millət» ideyası təşkil edirdi. Hitin idarəsi dövründə dövlət strategiyasının hazırlanmasında partiyanın təhlil mərkəzi deyil, dövlət strukturları nisbətən daha fəal rol oynayırdı. Başlıca rolu isə 1970-ci ilodə təşkil edilmiş lord Rotşildin rəhbərliyi altında fəaliyyət göstərən Siyasətin təhlili üzrə hökumətin mərkəzi ştabı oynayırdı. Dövlət siyasət kursunun hazırlanmasında H.Conson, F.Reyş, A.Prost, H.Bole xüsusi rol oynayırdılar. Onlar Heyns nəzəriyyəsinin əleyhdarları kimi çıxış edir



və Britaniya hökumətinin iqtisadi strategiyasının köklü şəkildə dəyişdirilməsi tərəfdarı idilər.

Mühafizəkarların yeni nəsli ictimai inkişaf problemlərinin həllində dövlətin bütün məsuliyyəti öz üzərinə götürə biləcək gücə malik olduğunu göstərirdilər. Əsas problem ictimai münasibətlərin təbii mexanizmini stimullaşdırmaq hesab edilirdi. Hər bir insanın daha fəal, daha dinamik olması ön sıraya çəkilirdi. Hökumətin qarşısında duran əsas vəzifə dövlət xərclərini nizama salmaq, sosial sahənin idarəsi və eyni zamanda, hər vasitə ilə xüsusi təşəbbüsü və rəqabət mübarizəsini genişləndirmək idi.

1973-cü ildə «Səhiyyə sistemində islahat haqqında qanun» bütün kateqoriyadan olan tibb işçilərinin xüsusi praktika ilə məşğul olmaq hüququnun genişləndirilməsi məsələsinə yenidən baxdı, ictimai xəstəxanalarda çarpayıların miqdarı artırıldı, həkimlərə hüquq verildi ki, dövlət xəstəxanalarında işləməklə bərabər, xüsusi pasientlərə xidmət üçün xüsusi klinikalar da açsınlar. Həm dövlət, həm də xüsusi bölmə vahid milli səhiyyə xidmətində birləşdirildi.

M.Tetçerin başçılığı altında təhsil sisteminin islahatı həyata keçirildi. Tədris müəssisələrinə yenidən təhsil prosesinin məzmununu və onun formasını müəyyən etməkdə tam müstəqillik verildi. Tetçer differensial təhsil modelini arxaya atdı, tələbat, bacarıq və imkan nəzərə alındı. Tetçerin fikrincə xüsusi təhsil müəssisələri tamamilə dövlət məktəblərini sıxışdırmağı bacara bilməz. O, həmçinin belə hesab edirdi ki, təhsil sisteminin elitar komponentləri saxlanılmalıdır. Dövlət məktəblərinə ayrılan xərclər ixtisar edilirdi. Ali məktəblərdə dövlət xərclərinin ixtisarı tələbə yerlərinin miqdarının azalmasına səbəb oldu. Mühafizəkarlar təhsilin komersiyalaşmasını açıq şəkildə elan etməsələr də, lakin bunun üçün bütün şəraiti yaratmağa nail oldular.

Hökumətin «Mənzil tikintisində ədalətli xətt» adlı nəşr edilmiş islahat proqramında bu sahəni bazar prinsiplərinə keçirməyin zəruriliyi göstərilirdi. Bu sahəyə dotasiyalar və imtiyazlı kömək, demək olar ki, ləğv olunmuşdu. Bələdiyyə evlərinin tikintisi üçün demək olar dövlət subsidiyaları əhəmiyyətli dərəcədə ixtisar edildi. Xüsusi mənzil tikintisi isə genişləndirildi. Bu işi stimullaşdırmaq üçün hökumət torpaqların qiyməti üzərində olan nəzarəti götürdü.

Hit hökumətinin sosial proqramı azaltması siyasəti «İqtisadiyyatı dövlətin lazım olmayan təsirindən azad etmək» şüarı

altında həyata keçirilirdi. Sənaye siyasətində də həmin xətt yeridilirdi. Dövlət və xüsusi bölmənin münasibətləri bunun xeyrinə xeyli dəyişdi. Geniş miqyasda özəlləşdirilmə həyata keçirilməsə də, lakin dövlət kompaniyalarının və müəssisələrinin səhmlər paketinin qismən satışı oldu. Eyni zamanda xüsusi bölməyə dövlətin müdaxiləsi xeyli azaldı. 1970-ci ildə Sənayenin yenidən təşkili korporasiyası və bir neçə iqtisadi inkişaf pralnlarını işləyib hazırlayan hökumət müəssisələri ləğv edildi.

Hit hökumətinin iqtisadiyyatı liberallaşdırmaq siyasətində, vergiqoyma sistemində islahatlar üzrə tədbirlər müəyyən edildi. Birbaşa vergilər azaldıldı və iqtisadiyyatın «real bölməsini» stimullaşdırmaq adı altında dolayı vergilər artırıldı. Sənaye istehsalı sahəsinə kapital qoyuluşunun rentabelliyini yüksəltmək xətti yeridildi. Gəlir vergisinin hər funt-sterlinqindən 6 pens aşağı salındı. 10 milyona qədər insan ümumilikdə gəlir vergisindən azad edildi. İri korporasiyalardan gəlirə görə vergi tədricən azadılmağa başladı. İlk başlanğıc kapital qoyuluşları üçün vergidə güzəştlər artırıldı.

Hit hökuməti əmək münasibətləri sahəsində də dövlət nəzarətinin səviyyəsini əhəmiyyətli dərəcədə aşağı saldı. Vilson hökumətinin keçirdiyi məşğulluğa görə seçmə vergilər tamamilə ləğv edildi. Hökumət geniş miqyasda işsizliklə mübarizə proqramından imtina etdi. 1970-1971-ci illərdə əvvəlki hökumətlərin gəlir və qiymətlər üzərində nəzarət haqqında qərarlarının əksəriyyəti tədricən ləğv edildi. Əmək haqqı artımının məhdudlaşdırılması səviyyəsi haqqında qərar qəbul etmək dövlətin iştirakı olmadan iri korporasiyalar və tred-yunionların nümayəndələrindən təşkil edilmiş Razılaşma komissiyasının ixtiyarına verildi. «Sənayedə münasibətlər haqqında» 1970-ci ildə qəbul edilmiş qanuna əsasən həmkarlar ittifaqlarının siyasi aksiyaları, həmrəylik tətilləri ləğv edilirdi. Bütün həmkarlar birlikləri xüsusi dövlət müfəttişliyində qeydiyyatdan keçməli idilər.

Hit hökumətinin gördüyü tədbirlər sahibkarların fəallığını və istehsalın həcminin artımını stimullaşdırdı. 1973-cü ildə istehsal 7% artdı. Lakin eyni zamanda, dövlət borcları da artdı.

70-ci illərin əvvəllərində beynəlxalq valyuta sistemində baş verən əsaslı yenidənqurmalar da Britaniya iqtisadiyyatına mənfi təsir göstərdi. 1972-ci ilin iyunundan sonra funt-sterlinqin «sərbəst üzməsi» siyasətinin həyata keçirilməsi onun kursunu sürətlə aşağı



saldı. 1972-ci ilin noyabrında Hit hökuməti «antiinflyasiya siyasətinin» yeni mərhələsinin başlandığını və öz iqtisadi strategiyasında mahiyyət dəyişiklikləri edəcəyini elan etdi. Hökumət qiymətlər və gəlirləri məcburi tənzimləmə praktikasına qayıtmağa məcbur oldu. Hökumət həmçinin sənaye istehsalını fəal tənzimləmək siyasətinə qayıtdı. Milli mənafe üçün vacib olan xüsusi müəssisələrə subsidiyaların verilməsi bərpa edildi. Bu «Xromex utole»nun müdafiəsi siyasəti adlandı. Kənd təsərrüfatı istehsalına da dotasiya ilə kömək edildi. Hökumətin fəallığı sənaye istehsalı artımının müsbət dinamikasını saxlamağa imkan verdi. Lakin dünya bazarında Böyük Britaniyanın mövqeyi pisləşməkdə davam edirdti. Dünya ixracında onun payı 1973-cü ildə 6,6%-ə qədər aşağı düşdü.

Belə bir şəraitdə «Böyük Britaniya»nın AİB-nə daxil olması üçün yenidən cəhd etməsinin prinsipial əhəmiyyəti vardı. 1973-cü ilin yanvarın 1-də Böyük Britaniya, Danimarka və İrlandiya AİB-nin tam hüquqlu üzvü oldular. Böyük Britaniya AİB-ə daxil olmaq üçün bu təşkilatın tələbi ilə beynəlxalq müraciətlər üçün ehtiyat valyutası keyfiyyətində funt-sterlinqdən istifadə edəcəyindən imtina etdi və AİB-in büdcəsinə üzvlük haqqını artırmağa təminat verdi. Bu halda isə Böyük Britaniyanın AİB-ə daxil olması başlanğıcda onun büdcə balansının yaxşılaşdırılmasına deyil, pisləşməsinə səbəb oldu.

1973-cü ilin sonunda Britaniya iqtisadiyyatı «neft şoku» ilə, yəni daha ciddi problemlərdən biri ilə də qarşılaşmalı oldu. 1973-cü ilin oktyabrında OPEK neftin qiymətini 3 dollardan 11,65 dollara qaldırılması haqqında qərar qəbul etdi. Bu qərar Qərb ölkələrinin iqtisadiyyatını qlobal energetika böhranı həddində qoydu. Sənaye istehsalının qabaqcıl sahələri ənənəvi olaraq enerji əsaslanan texnologiya ilə mənbələnirdilər. «Neft şoku» böyük itkilərə, istehsalın azalmasına, investisiya ixtisarına səbəb oldu, həm də istehsalın bütün texnoloji bazasını yenidən istiqamətləndirməyin vacibliyini göstərdi. Bu proses illərlə uzanırdı.İndustrial iqtisadi modeli struktur böhranın əsas səbəbi idi. «Neft şoku» müharibədən sonra ilk dəfə olaraq insanları istehsalı yenidənqurma böhranı ilə üzləşdirdi. Çünki Böyük Britaniya özünün neftə olan tələbatının 2/3 hissəsini Orta Şərq regionundan idxal edirdi. Belə bir şəraitdə ölkədə fövqaladə vəziyyət elan edildi. Üç günlük iş həftəsinə keçirildi. Hit hökuməti növbədənkənar parlament seçkiləri keçirmək haqqında

qərar qəbul etdi. Seçicilər qarşısında duran əsas məsələ ölkəni böhrandan çıxarmaq üçün hansı partiyaya etibar edilməsi idi.

### H.Vilson və C.Kallagen hökumətlərinin «Sosial kontraktları»

1974-cü ilin mart ayının 4-də keçiriləcək seçkilərdə hökumət düşərgəsi öz qələbəsinə əmin idi. Hit «kütlənin rəyi»ndən asılı olmayan və zamanın çağırışına cavab vermək bacarığı olan «güclü hökuməti» formalaşdırmağa çalışdığını elan etdi. Bunun əksinə olaraq, leyboristlər partiyası fəal seçki kampaniyası keçirdi və yeni ideyaların və liderlərin çatışmamazlığını hiss etdi. Sol və sağ qruplaşdırmaların fəallaşması fonunda Vilsona müxtəlif fraksiyaların maraqlarının barışdırıcısı rolunda çıxış etmək lazım gəlirdi. Kompromis üçün əsas proqramlarda ictimai bərabərsizliyin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, o cümlədən vergiqoyma, pensiya təminatı, sosial sığorta, dövlət tibbi xidməti və təhsil sisteminin təkmilləşdirilməsi və s. sahələrdə görüləcək tədbirlərin səslənməsi idi. 1973-cü ildə keçirilən konfransda Ceyms Kallaqenin leyboristlər partiyasının sədri seçilməsi onun şəxsi nüfuzunun sürətlə artmasından xəbər verirdi.

Seçkilər göstərdi ki, Böyük Britaniyanın aparıcı hər iki partiyasından heç biri seçicilərin çox da etimadını qazana bilməmişlər. Mühafizəkarlar 37%, leyboristlər isə 38% səs aldılar. Hər beş seçicidən biri isə liberallara səs Verdi. Leyboristlər – 301, mühafizəkarlar – 296, liberallar -13 deputat mandatı qazandılar. Heç bir partiya İcma palatasında mütləq üstünlüyə malik olmadı.

Hit hökumətinin leyboristlərin rəhbərləri ilə koalision hökumət təşkil etmək haqqındakı danışıqları baş tutmadı. Bu halda Hit istefaya getmək xahişi ilə kraliçaya müraciət etdi. Baş nazir səlahiyyətləri Vilsona həvalə edildi. Vilson hökuməti bir neçə ay ərzində parlamentdə «qeyri-populyar» qanun layihələrinin müzakirəsindən qaçdı, əleyhidarlarının onun siyasətini tənqid etməyə imkan vermədi. Seçicilərə verdiyi vədə əməl edərək leyboristlər hökuməti «Sənayedə münasibətlər haqqında» qanunu təxirə saldı.

Şaxtaçıların əmək haqlarını artırmaq haqqında tələbləri yerinə yetirildi. İstehsalın digər sahələrində çalışanların da əmək haqlarının artması səviyyəsinin həddi məsələsi isə qəbul edilmədi. «Gəlirlər siyasəti» könüllü xarakter aldı.



İşsizliklə mübarizə üzrə proqram həyata keçirilməyə başladı. Dövlətin maliyyə yardımı nəticəsində bir çox müəssisələrdə tam iş həftəsi bərpa edildi. Pensiya vəsaitlərinin ölçüsü artırıldı, ərzaq mallarının və mənzil haqlarının qiymətləri müvəqqəti olaraq «donduruldu», çoxsaylı ailələrin müdafiəsi haqqında qanun qəbul edildi. Vilson ağrılı Olster probleminin həllində də addımlar atmağa çalışdı. 1974-cü ilin aprelində Şimali İrlandiyaya səfəri zamanı Sanninqay sazişinin ratifikasiya edilməsinə hazırlıqla əlaqədar təkliflər paketini irəli sürdü.

Ancaq ekstremist qruplaşmalar hərəkatı neytrallaşdırmağa imkan vermədi. Olsterdəki ümumi siyasi tətildən sonra Britaniya hökuməti Şimali İrlandiya assambleyasını buraxdı və yenidən birbaşa idarə rejiminə keçdi. 1974-cü ilin iyulunda «Şimali İrlandiya konstitusiya aktı» qəbul olundu. Həmin akta əsasən Olsterdə yerli nümayəndəlik orqanı – konstitusiya Konventi təşkil edilməsi məsləhət görülürdü. Bu layihəni reallaşdırmaq imkanı isə təqdim edilmirdi.

Olster probleminin həlli təşəbbüsü baş tutmasa da, Vilsona hakimiyyətinin ilk aylarında öz hökumətinin populyarlığının sürətlə artmasını təmin etmək nəsib oldu. Stimullaşdırıcı vergi və investisiya siyasətinin əmək münasibətləri və sosial təminat sahəsində görülən tədbirlərlə uzlaşması İngiltərə cəmiyyətinin geniş təbəqələrində xoş təəssürat yaradırdı. Eyni zamanda milli və dünya bazarında qeyri-sabitliyin əlamətləri qalmaqda idi. 1974-cü ilin birinci yarım ili ərzində bütün Qərb ölkələrinin iqtisadiyyatı dərin struktur böhranı dairəsinə düşməyə başladı. Lakin sadə ingilislər «ağır zaman»ların hücumlarını gördükləri üçün bunu adi hal kimi qarşıladılar.

1974-cü ilin parlament seçkilərinə leyboristlər hazırlaşarkən leyboristlərin proqramına Kallaqenin təklifi ilə «sosial kontrakt» ideyası daxil edilmişdi. Bu kontrakt həmkarlar ittifaqları ilə hökumətin sıx əməkdaşlığını nəzərdə tuturdu. Bu ideya «ümumrifah dövləti»ideyasını tam və qətiyyətlə həyata keçirməyə cəhd kimi proqramda göstərilirdi. Kallagen böhran meylləri ilə mübarizə və yüksək həyat səviyyəsini saxlamaq üçün iqtisadi və sosial münasibətlərin dövlət tənzimləməsinin genişləndirilməsini vacib hesab edirdi.

1974-cü ilin oktyabr ayının 10-da keçirilən parlament seçkilərində leyboristlər İcma palatasında 319 yer, mühafizəkarlar –

296, liberallar – 13 yer tutdular. Şotlandiya milli partiyası da 11 yer tutaraq ilk dəfə nəzərə çarparaq müvəffəqiyyət qazandı.

1974-ci ilin sonunda Vilson hökuməti iqtisadi vəziyyətin kəskin surətdə pisləşməsi ilə ilə üzləşməli oldu. Bir neçə ay ərzində Böyük Britaniyada sənaye istehsalı 10% aşağı düşdü. Sənaye gücünün 30%-in yüksəlməsi işsizliyin sürətlə artmasına səbəb oldu. Əgər 1974-cü ilin əvvəllərində ölkədə 700 min işsiz vardırsa, 1975-ci ildə onların sayı 1400 minə çatmışdı. İnflyasiya sürətlə artdı. Tarixdə ilk dəfə olaraq bazar iqtisadiyyatında istehsalın azalması, qiymətlərin artması ilə müşaiyət olundu. İngiltərədə 1974-cü ildə müxtəlif malların qiymətləri 19%, 1975-ci ildə isə 24 % artdı.

1975-ci ilin yayından Vilson hökuməti bütün səyini inflyasiya artımının qarşısını almağa yönəltdi. Əmək münasibətlərini nizama salmaq, investisiya aktivliyini müdafiə etmək üsullarından istifadə etdi. Hökumətə həmkarlar ittifaqları ilə sazişə gəlmək üçün ildə 10% həcmdə əmək haqlarını artırmağa razılaşmaq lazım gəldi. Həmçinin «qeyri-populyar tədbirlər»dən də istifadə edildi. Belə ki, tələb olunan mallara vergi artırıldı, sosial və mədəni proqramlara çəkilən dövlət xərcləri ixtisar edildi. Amma bütövlükdə hökumətin antiböhran proqrammı ləng, gözləmə mövqeyi əsasında qalırdı. Bir çox leyborist liderlərdə psixoloji yorğunluq da müşahidə edilirdi. Ona görə də Vilsonun 1976-cı ilin martın 16-da baş nazir kürsüsündən getmək haqqında qərarı gözlənilməz hal kimi qarşılanmadı. 1976-cı il aprelin 5-də partiyadaxili seçki kampaniyasında qalib gələn C.Kallagen Böyük Britaniyanın baş naziri oldu. Ceyms Kallagen baş nazir təyin edilən kimi büdcə siyasətinə qəti keçid başlandı, antiinflyasiya tədbirləri mühüm əhəmiyyət kəsb etdi, milliləşdirmə planlarından tam imtina edildi. «Sosial kontrakt» ideyasından tam şəkildə imtina edilməsə də, ona antiböhran kontekstində baxılmağa başlanıldı. Hökumətin xəttinin əsas opponenti kimi fəhlə hərəkatı çıxış etdi. 70-ci illərin II yarısında Böyük Britaniyanı etiraz aksiyaları əhatə etdi. Başlanğıcda əmək haqlarının artırılmasını tələb edən fəhlələr tədricən sənaye müəssisələrinin dövlət tərəfindən müdafiəsinin genişləndirilməsi, məşğulluğun tam təmin edilməsi, vergiqoyma sisteminin dəyişdirilməsi, idxal üzərində sərt nəzarət qoyulması tələblərini də irəli sürürdülər. Hökumət çox çətinliklə həmkarlar ittifaqlarının siyasiləşməsinin qarşısını ala bildi. Kallagen hətta hökumətin



tərkibindən partiyanın qanadının bir neçə nümayəndələrini də çıxartdı. Lakin bütün bu tədbirlər son nəticədə leyboristlərin elektoral bazasının azalmasına səbəb oldu. Hakim partiyanın nüfuzunun düşməsi 1977-ci ilin mayında keçirilmiş bələdiyyə seçkilərində özünü bir daha göstərdi. Bu seçkilərdə mühafizəkarlar parlaq qələbə çaldılar. Vətəndaş sülhü təhlükəsi təkcə tred-yunionların radikal qanadının çıxışlarına deyil, millətçi və terrorist qrupların da fəallaşmasına səbəb oldu. 70-ci illərin ortalarında Şotlandiya və Uelsdə seperatist şüarlara çıxışlar başlandı. Hökumət ilk tədbir kimi Uels və Şotlandiyanın inzibati muxtariyyətini genişləndirmək layihəsini hazırladı. Bu layihəyə görə bu regionların yerli orqanlarına təhsil, tibbi xidmət, yol tikintisi, mənzil quruculuğu, ekologiya sahəsində əhəmiyyətli dərəcədə səlahiyyətlər verilirdi. 1975-ci ilin noyabrında həmin layihəni ifadə edən «Ağ kitab» nəşr edildi. Lakin 1976-cı ildə Kallagen hökuməti parlamentə daha yeniləşmiş qanun layihəsi çıxartdı. Burada Şotlandiya və Uelsdə yerli qanunverici məclisin təsis edilməsi təklif edilirdi.

Qeyd etmək lazımdır ki, Birləşmiş krallıq mürəkkəb formaya malik olan unitar dövlətdir. Onun tərkibinə həm sadə inzibati-ərazi vahidləri, həm də muxtar qurumlar daxildir. Şotlandiya və Uelsdə nümayəndəli hakimiyyət orqanlarının təşkili bütün Birləşmiş krallıq çərçivəsində qanunverici devolyusiya sisteminə qəti keçidi göstərmiş olurdu. Bu layihənin parlamentdə müzakirəsi ilyarıma qədər çəkdi. Milli partiyalardan seçilmiş deputatların köməyi ilə hökumət «devolyusiya» haqqında billi 1978-ci ildə parlamentdən keçirə bildi. Lakin onun həyata keçirilməsi Şotlandiya və Uelsdə keçiriləcək referendumların nəticəsindən asılı idi. Bunun üçün qeyd olunan seçicilərin 40%-nin səs verməsi tələb olunurdu. 1979-cu ilin əvvəllərində təşkil olunan referendumlar Kallagen hökumətinin ciddi məğlubiyyətinə səbəb oldu. «Devolyusiya»nın müdafiəsinə referendumda iştirak edən uelslilərdən cəmi 1/3-i, şotlandların isə 40%-ə yaxını öz rəyini bildirdi. Şimali İrlandiyada da vəziyyət kəskinləşdi. Orada hərbi kontingent protestant çoxluğun birtərəfli müdaxiləsi ilə özünü təmin edirdi. Protestantların müəyyən hissəsi katolik məhəllələrinə yürüş təşkil etdilər və orada yanğınlar törətdilər. Katolik ekstremist təşkilatlar da öz növbələrində Britaniya polisinə, protestant icması fəallarına hücum etdilər. 1975-ci ildə İrlandiya respublika ordusunun tərkibindən radikal qruplaşmalar

ayrılaraq İrlandiya milli - azadlıq ordusunu təşkil etdilər. Bu ordu İrlandiya Respublikası ilə birləşmək tələbini deyil, Olsterin müstəqilliyinə nail olmaq və ona «marksist-leninçi fəhlə-kəndli respublikasına» çevirmək məqsədini elan etdi. 1978-1979-cu ildə İrlandiya ekstremistləri Britaniya siyasi xadimlərinə qarşı fərdi terror taktikasından istifadə etməyə başladılar. Cavabında hakimiyyət kütləvi təqibləri gücləndirdi. Olsterdə insan hüquqlarını pozan çoxlu sayda hadisələrin olması hətta Avropa məhkəməsini bu məsələ ilə əlaqədar 1978-ci ilin yanvarında qərar qəbul etməyə məcbur etdi.

Daxili siyasi vəziyyətin kəskin olmasına baxmayaraq Böyük Britaniya iqtisadi inkişafının dinamikası tədricən yaxşılaşdı. Dönüş 1977-ci ilin yazına yaxın başlandı. 1975-ci ildə Şimal dənizində böyük neft ehtiyatlarının tapılması da iqtisadi inkişafa təkan verən amillərdən biri idi. İstehsalın səviyyəsi artmağa başladı. İnflyasiya 16% aşağı düşdü. Xoşagələn meyli möhkəmlətmək üçün hökumət sahibkarların fəallığını stimullaşdırmağa keçməyə çalışdı. Xüsusi biznes üçün vergi güzəştləri bərpa edildi, əsas kapitalın yeniləşməsi üçün vəsait ayrıldı. Bununla belə sosial proqrama münasibətdə büdcə iqtisadiyyatı rejimi və əmək haqqı artımının sərt məhdudlaşması saxlanıldı. Bundan əlavə, hökumət inflyasiyanın yenidən artımının qarşısını almaq üçün banklara məsləhət gördü ki, kreditin həcmini azaltsınlar və faizləri yüksəltsinlər. Belə ikili mövqe həm sahibkarlar dairəsində, həm də tred-yunionlarda narazılıq törətdi. Britaniya hətta «inadkar» elektoratından da müdafiəni itirdi.

1977-ci ilin yayında Kallagen hökumətinin vəziyyəti daha da pisləşdi. Əlavə keçirilən parlament seçkilərində leyboristlər 8 deputat yeri itirdilər və İcma palatasında mütləq çoxluqdan məhrum oldular. Kallagen liberallar partiyasının yeni lideri Devid Stillə parlament fraksiyası ilə birlikdə fəaliyyət göstərmək haqqında saziş bağlamaqla hökumət böhranını aradan qaldıra bildi.

Liberallarla pakt hökumətə sabit siyasət yeritməyə imkan verdi. Onun nəticəsində qiymətlərin artması tempi aşağı düşdü. İnflyasiya 1978-ci ildə 8% azaldı. Tətil hərəkatı da səngidi. Genişmiqyaslı milliləşdirmə layihələrindən imtina edilməsi və gəlirlərin yenidən bölgüsü siyasəti sahibkarlar arasında leyboristlərin nüfuzunu möhkəmləndirdi. 1978-ci ilin iyununda seçicilər tərəfindən müdafiənin səviyyəsinə görə hakim partiya yenidən mühafizəkarları ötdü və təqribən 45% səs topladı.



1978-ci ilin payızında siyasi şərait yenidən kəskinləşdi. Həmin ilin sentyabrında olmuş Britaniya tred-yunionların konqresi hökumətə qarşı müxalifətdə durduğunu elan etdi. Kütləvi tətillər və çoxlu miqdarda piketlər ölkədə vəziyyətin sabitliyini pozdu.

1978-ci ilin oktyabrında D.Still birgə hərəkat haqqında paktı saxlamaqdan liberalların imtina etdiyini bildirdi. İcmalar palatasının əksəriyyəti tərəfindən hökumətin xəttinin əsas istiqamətləri müzakirə olunmağa başladı. Hökumət milli partiyaların fraksiyasının müdafiəsi nəticəsində istefadan qaçmağa nail oldu. Bu işdə ona Şotlandiya Milli partiyası xüsusilə yardımçı oldu. Lakin Şotlandiya və Uelsdə referendumun uğursuzluğundan sonra hökumətin istefası qaçılmaz oldu. Kallagen parlamenti buraxmağı və növbədənkənar seçkilər keçirməyə məcbur oldu. Seçkilər 1979-cu ilin may ayının 3-də keçirildi. Mühafizəkarlar 43,9% səs və 339 deputat mandatına sahib olaraq İcma palatasında mütləq əksəriyyətə nail oldular. Leyboristlər partiyasını seçicilərin 36,9%-ni dəstəklədi və onlar İcmalar palatasında 268 yerə sahib oldular. Liberallarda 11 yer qaldı. Milli partiya fraksiyasının tərkibi də azaldı.

## Böyük Britaniya XX əsrin 60-70-ci illərində beynəlxalq münasibətlər sistemində

İqtisadi inkişafın dinamikasının pisləşməsi şəraitində Avropaya inteqrasiya prosesində iştirak etmək Böyük Britaniyanın xarici siyasətinin istiqamətinə çevrildi. H.Vilson bu problemlə əlaqədar hələ 1965-ci ilin yanvarında U.Çörçillin dəfnində iştirak etmək üçün Londonda olarkən Fransa lideri de Qolla müzakirələr aparmışdı. 1967-ci ilin mayın 2-də AİB-ə üzv olmaq üçün ərizə verməklə əlaqədar İcma palatasında məsələ müzakirə olunarkən 488 nəfər bu təklifin lehinə, 62 nəfər isə əleyhinə səs vermişdir. Lakin de Qoll yenə də Böyük Britaniyanın Ümumi Bazara daxil olmasına etirazını bildirsə də, əvvəlkilərdən fərqli olaraq «dəmir veto» qoymamış, problemin bütün iqtisadi aspektlərini əvvəlcədən müzakirə etməyin vacibliyi ilə əlaqədar möhlət tələb etmişdir. Fransanın «mərmər küləyi» leyboristlər hökumətinə Avropa ambisiyalarını zəiflətmədi. 1968-ci ilin fevralında Fransa və AFR-in Böyük Britaniyanın AİB-in assosiativ üzvü olması haqqında təkliflərini rədd edərək, o, planlı şəkildə Avropa paytaxtlarına

diplomatik müdaxilələr etməyə başladı. İtaliya və Benilüks ölkələri tərəfindən London daha yaxşı başa düşülürdü. De Qollun istefasından sonra J.Pompidunun «Vahid Avropa»nı genişləndirmək istəyi İngiltərənin AİB-ə girmək ümidlərini artırdı. 1969-cu ilin sonlarında Böyük Britaniyanın AİB-ə daxil olması formulu haqqında danışıqlar başlandı. E.Hit Böyük Britaniyanın «Avropa uğrunda mübarizə» epopeyasını başa çatdırmaq arzusunu yerinə yetirdi. Böyük Britaniyanın AİB-ə üzv olması haqqında siyasi qərara 1971-ci ilin mayında onun Pompidu ilə görüşündə gəlindi. Fransa və Britaniya diplomatiyası «qollist» ideyaya əsaslanan «Vətənimizin Avropası» federalist layihəsinə doğru istiqamətdə bir fikirdə olduqlarını nümayiş etdirdilər. Beş il «uyğunlaşma dövrü» nəzərdən keçirilməli idi. Böyük Britaniya ilə AİB arasında ticarətdə sənaye mallarının mövcud olan tarifi ildə 20%-ə qədər tədricən ixtisar edilməli idi. Bu müddətdə Böyük Britaniya Birlik ölkələri ilə də güzəştli ticarətini mərhələ-mərhələ ixtisar etməli idi. Əsas problem valyuta – maliyyə sahəsində idi. 1970-1974-cü ildə AİB-in özündə büdcə siyasətinin müzakirəsi getdi. Böyük Britaniya AİB-ə girmək üçün 1973-cü ildə 100 milyon funt-sterlinq üzvlük haqqı verməli, tədricən bu rəqəm artırılmalı və 1980-ci ildə 300 mln.f.st-ə çatmalı idi. Beləliklə, "Ümumi bazarın" büdcəsinin 8%-i (1977-ci ildə 19%-i, 1980-ci ildə 24%-dən çoxu) Böyük Britaniya tərəfindən ödənilməli idi. 1972-ci ilin yanvar ayının 22-də Brüsseldə Böyük Britaniyanın 1973-cü il yanvarın 1-dən AİB-ə üzv olması haqqında müqavilə imzalandı.

Böyük Britaniyanın AİB-ə daxil olmasının hüquqi aspektləri spesifik xarakter daşıyırdı. Avropa qaydalarına görə, iki prinsip əsas idi: milli hüquqlar üzərində AİB-in hüquqlarının prioritetliyi və Avropa hüquqlarının üzv dövlətlərin ərazisində birbaşa fəaliyyəti prinsipi. Böyük Britaniya üçün bu hüquqi doktrina qəbuledilməz idi və bu onun xüsusi konstitusiya prinsipinin, yəni «parlament yuxarılığı» ilə fərqlənməsindən irəli gəlirdi. Böyük Britaniyada parlamentin statusu istənilən xarici hüquqi mənbələrlə, o cümlədən beynəlxalq müqavilələrlə müqayisədə qeyri-şərtsiz hüquqi qüvvəyə malik idi. Ölkə ərazisində hər hansı bir beynəlxalq müqavilənin fəaliyyətə başlaması üçün əsas şərt parlamentin milli hüqüq normaları çərçivəsində xüsusi qanun qəbul etməsi idi. Bu qanunda İngiltərə hüququnun xüsusiyyətlərinə uyğun olan beynəlxalq müqavilələrin məzmunu saxlanılır.



Britaniya hökumətinin ekspertlərinin və beynəlxalq komissiyanın gərgin işi nəticəsində 1972-ci ilin yayında Böyük Britaniya ərazisində Avropa hüquqlarının fəaliyyəti üçün qaydalar AİB üçün unikal şəkildə rəsmiləşdirildi. O, «dualist modellər» adını aldı və o, iki tam avtonom sistem kimi nəzərdən keçirilməli idi.

«Avropa uğrunda uzun mübarizə»dən sonra 1975-ci ilin iyunun 5-də keçirilən referendumda iştirakçıların 2/3-i ölkənin AİB-ə daxil olmasını dəstəklədilər. Ancaq Kallagen baş nazir kürsüsünü tutduqdan sonra Britaniya diplomatiyası AİB-in büdcəsinə üzvlük haqqı məsələsində güzəşt edilməsinə cəhd göstərdi. Kallagen 1980-ci ilə qədər ölkə ərazisində Avropa parlamentinə seçkilər keçirilməsinin təxirə salınmasına nail oldu. Britaniya diplomatiyasının ən böyük uğurlarından biri də Millətlər Birliyi ölkələrinin AİB-ə daxil olan ölkələrlə imtizaylı iqtisadi münasibətlərlə əlaqədar müqavilələr bağlamaq haqqında 1975-ci ildə Avropa komissiyasının qərar qəbul etməsi idi.

Böyük Britaniyanın Avropa siyasətinin fəallaşması Londonla Vaşinqton arasında olan «xüsusi» münasibətlərin səmərəliliyini azaltdı. Atlantika həmrəyliyi prinsipindən imtina etmədən H.Vilson ABŞ-nın «kiçik partnyoru» rolundan prinsipial şəkildə imtina etdi. ABŞ-ın 60-cı illərin ikinci yarısındakı siyasəti bütövlükdə Londonda əsəbiliyə səbəb olmuşdu. London bu dövrdə Vyetnama simvolik hərbi kontingent də göndərməkdən imtina etdi. Öz növbəsində ABŞ diplomatiyası da Böyük Britaniyanın Honkonq, Malayziya və İran körfəzində öz mövqelərini möhkəmlətmək cəhdlərini müdafiə etmədi.

E.Hit hökumətinin hakimiyyətə gəlməsi ilə İngiltərə-Amerika münasibətlərində mülayim iqlim dəyişmədi. 1971-ci ildə ikinci Hindistan – Pakistan müharibəsi zamanı böyük Britaniyanın bitərəfliyi saxlamaq və vasitəçi rolunda çıxış etmək cəhdlərinə baxmayaraq ABŞ Pakistanı dəstəklədi. Həmçinin, Böyük Britaniyanın Cənubi Asiyadakı maraqları ilə hesablaşmayaraq Çinlə seperat şəkildə siyasi dialoqa başladı. Öz növbəsində Böyük Britaniya 1965-ci və 1973-cü illərdə Yaxın Şərqdə beynəlxalq böhran dövründə Vaşinqtonun sərt antiərəb mövqeyini birmənalı şəkildə tənqid etdi.

1974-cü ildə İngiltərədə leyboristlər hakimiyyətə gəldikdən sonra İngiltərə-ABŞ münasibətlərində nəzərə çarpacaq dəyişikliklər

başlandı. Leyboristlər hökuməti öz xarici siyasətində Avropa və Atlantika vektorlarını tarazlaşdırmağa çalışdı. Kallagen Avropa-Amerika münasibətlərində vasitəçi olmağa hazır olduğunu bildirdi. Bu NATO çərçivəsində Vaşinqtonun bərabərhüquqlu partnyorluq səviyyəsində istiqamətləndirilməsinə yönəldilmiş bir xətt idi.

60-cı illərdə Sovet-Britaniya münasibətlərində soyuq münasibət hökm sürürdü. Bu münasibətlərin normallaşdırılması xarici işlər naziri Duqlas Hyumun 1973-cü ildə baş nazir Vilsonun isə 1974-cü ildə Moskvaya səfərindən sonra baş verdi. 70-ci illərin sonunda London nəinki Qərbi Almaniyanın «körpülərin salınması» siyasətini dəstəkləyir, eyni zamanda Ümumavropa Təhlükəsizlik sisteminin formalaşması prosesinə də qatılırdı. Avropada Təhlükəsizlik və əməkdaşlıq məsələlərinə həsr edilmiş müşavirəyə hazırlığın sonuncu mərhələsində İngiltərə də yaxından iştirvk etdi. 1975-ci ilin avqustun 1-də digər dövlətlərin rəhbərləri ilə birlikdə H.Vilson da Helsinki müşavirəsinin Yekun aktını imzaladı.

Ən çətin problemlərdən biri Böyük Britaniyanın üçüncü dünya ölkələrində rolunun yeni yollarını tapmaq idi. Böyük Britaniya siyasətinin «Süveyşdən Şərqə doğru» prinsipinə yenidən baxmaq lazım gəlirdi. Makmillanın «fasilə küləyi» ni tanımaq çağırışı qlobal narazılıqlardan tam imtina etməyi hələ məsləhət görmürdü. Ənənəvi nüfuz dairələrindən yan keçmədən siyasətin metodlarında təcili dəyişikliklərdən söhbət gedirdi. H.Vilson hakimiyyətə gələrkən hətta ucadan elan etdi ki, «Britaniyanın sərhədləri Himalaydan keçir».

Yaxın Şərq probleminin nizama salınmasında iştirak da Britaniya diplomatiyasına uğur gətirmədi. Böyük Britaniyanın bu regiondakı maraqları Süveyş kanalının istismarı və Yəməndə protektoratlığın taleyi problemi ilə sıx surətdə bağlı idi. 1962-ci ildə Şimali Yəməndə inqilab baş verdi. Milli zəmində münaqişələr tezliklə nüfuzlu ərəb ölkələrini də bu münaqişəyə çəkdi. Misir respublika qüvvələrini, Səudiyyə Ərəbistanı isə monarxistləri müdafiə etdi. Böyük Britaniya faktiki şəkildə bu hadisələrdən aralı dayanaraq Cənubi Yəmən üzərində öz nəzarətini saxlamağa çalışırdı. 1962-ci ildə 17 Britaniya protektoratının əsasında Cənubi Ərəb Federasiyası təşkil edildi. Lakin bir il keçdikdən sonra burada da münaqişə yarandı. Milli cəbhənin silahlı dəstələri Britaniya qoşun kontingentinə qarşı hərbi əməliyyata başladılar. 1964-cü ildə Böyük Britaniyada hakimiyyətə gələn leyboristlər Yəmən problemini hüquqi



əsasda həll etməyə çalışdılar. Cənubi Yəmənə suverenliyinin təqdim edilməsi prosesi 1968-ci ildə başa çatdı.

60-cı illərin sonunda İsrail-ərəb münaqişələri kəskinləşdi. 1967-ci ilin iyunun 5-də İsraillə Misir-Suriya qüvvələri arasında hərbi əməliyyatlar başlandı. İsrailin qələbələri regionda onsuz da ağır olan vəziyyəti daha da gərginləşdirdi. 1970-ci ilədək, yəni Nasirin ölümünə qədər Misir rejimi sovetpərəst əhval-ruhiyyədə idi və İsrailə qarşı çevrilmişdi. İsraili isə ABŞ müdafiə edirdi. Britaniya diplomatiyası isə əksinə, bu dövrdə hər hansı fəal mövqedən imtina etmişdi. Məhz ona görə də 1967-ci ildə Vilson hökuməti faktiki şəkildə Şərqi Süveyş rayonundan «getdiyini» elan etdi. Bu qəti şəkildə eksimperiyadan, qlobal ambisiyalardan əl çəkmək demək idi.

1973-cü il ərəb-İsrail müharibəsi zamanı Böyük Britaniya digər Avropa ölkələri ilə birlikdə problemi dinc yolla nizama salmağa təşəbbüs göstərdi. İngiltərə hətta İsrail ordusunda istifadə edilən Britaniya hərbi texnikasının ehtiyat hissələrini İsrailə göndərmək üzərinə embarqo qoydu. Lakin sonra London münaqişəni nizama salmaq məsələsində tamamilə ABŞ-ı dəstəklədi və 1979-cu il Kemr-Devid müqaviləsinin imzalanmasını müdafiə etdi.

60-70-ci illərin ikinci yarısında Millətlər Birliyinin iqtisadi və hüquqi – siyasi əsasda təkmilləşdirilməsi davam etdirildi. O, tədricən Beynəlxalq təşkilatlar səviyyəsinə uyğun gəlməyə başladı. Birliyin təbiətinin müəyyən edilməsinə yanaşma birinci dəfə özünü «Birliyin katibliyi haqqında razılaşdırılmış memorandum»unda göstərdi. Bu sənəd 1965-ci ildə qəbul edildi. Bu sənəddə qeyd edilirdi ki, Birlik müstəqil dövlətlərin assosiasiyasıdır və təşkilat beynəlxalq hüquq nöqteyi-nəzərindən öz formal olmayan xarakterini saxlayır. Təşkilat öz üzvlərindən hər hansı bir kollektiv qərar və ya vahid hərəkatı həyatı keçirməyi tələb etmir.

Birliyin fəaliyyətinin ümumi əsaslarının daha mükəmməl xarakteristikası 1971-ci il Birliyin prinsiplərinin Sinqapur bəyannaməsində özünü göstərdi. Birlik müstəqil suveren dövlətlərin assosiasiyası kimi müəyyənləşdirildi. Göstərildi ki, Birliyin hər bir üzvü öz siyasətinə məsuliyyət daşıyır. Onlar ancaq ümumi maraqlar naminə bir-biri ilə məsləhətləşir və əməkdaşlıq edirlər. Birliyin fəaliyyətinin əsas forması «məsləhət, müzakirə və əməkdaşlıq» adlanırdı. Bəyannamədə göstərilirdi ki, Birliyin üzvlüyü məstəsna

dərəcədə könüllüdür, Birliyə qəbul olunmuş hər bir dövlət onun tərkibində qalmaq və çıxmaq məsələsini özü həll edir.

Birliyin əksər üzvləri üçün irqi məsələ və antimüstəmləkə hərəkatı problemi prinsipial əhəmiyyət kəsb edir. Sinqapur bəyannaməsi müstəmləkə hökmranlığının və irqi təzyiqin bütün formalarına qarşı mübarizəni Birliyin ən mühüm vəzifələrindən biri kimi səslənirdi. Hit hökuməti, bütövlükdə, bu xətti müdafiə etdi, lakin birliyin Böyük Britaniyanın daxili işlərinə, o cümlədən, immiqrasiya siyasətinə qarışmağa imkan vermədi.

Etnik və iqri münaqişə problemləri Birlik üçün ən ağrılı problemlərdən idi. 1967-ci ilin payızında Nigeriyanın federal hökuməti separatistlərlə mübarizədə kömək üçün Böyük Britaniyaya müraciət etdi. Lakin Londonun bu məsələyə cavabının ləngidiyini gördükdə Nigeriya hərbi-texniki kömək üçün SSRİ-yə müraciət etdi. 1969-cu ilin martında Vilson məcbur oldu ki, özü sülhməramlı missiya ilə Nigeriyaya getsin. 1970-ci ildə münaqişə aradan qalxdı.

Cənubi Rodeziyadakı hadisəyə münasibətdə də Britaniya hökumətinin acizliyi özünü büruzə verdi. 1964-cü ildə burada Jan Smitin irqçi rejimi hakimiyyətə gəldi. Vilson hökuməti bu rejimi müdafiə etmədiyini bildirsə də, lakin münaqişəni həll etmək üçün güc tətbiq etməyin mümkün olmadığını elan etdi. Afrika Dövlətlər Birliyi Smit rejiminə münasibətdə qəti ölçü götürülməsini tələb etdilər. 1966 və 1968-ci illərdə Vilson və Smitin şəxsi danışıqları heç bir nəticə vermədi. Rodeziya hökuməti daha çox CAR kimi hərəkət edir, onun aperteid rejimini demək olar ki, təkrar edirdi. Tezliklə Rodeziya problemini həll etmək təşəbbüsü ABŞ-ın əlinə keçdi. Lakin bu problemin həllinə sonuncu nöqtəni Böyük Britaniyada 1979-cu ildə hakimiyyətə gəlmiş M.Tetçer hökuməti dərhal elə həmin ildə də son qoydu.



## Böyük Britaniya Marqaret Tetçerin «yeni mühafizəkarlar» hökuməti dövründə (1979-1990-cı illər)

70-ci illərin sonlarında dünyanın qabaqcıl ölkələrinin əksəriyyətində sağların hakimiyyətə gəlməsi İngiltərədə də öz əksini tapdı. 1979-cu ilin mayın 4-də keçirilən parlament seçkilərində nümayəndələr palatasından olan 650 yerdən 390-nı mühafizəkarlar tutdu. Seçicilərin 13 milyondan çoxu mühafizəkarlara, 11 milyondan bir qədər çoxu isə leyboristlərə səs verdilər. 1959-cu ildən İngiltərə parlamentinin üzvü, 1975-ci ildə mühafizəkarlar partiyasının lideri, əvvəlki hökumətin dövründə təhsil naziri işləmiş və hələ o dövrdə sosial xərclərin azadılması təklifi ilə parlamentdə məsələ qaldırmış Marqaret Tetçer baş nazir kürsündə əyləşdi.

Tetçer hökuməti iqtisadi və sosial sahədə fövqəladə çətinliklərlə üzləşməli oldu. «Neft şoku» ağır nəticələr verdi. 1979-cu ildə İranda şah rejiminin devrilməsi və İran-İraq müharibəsinin başlanması ilə OPEK ölkələri dünya bazarında neftin qiymətini iki dəfə qaldırdılar. 1980-ci ildə Avropa ölkələrini yeni böhran dalğası bürüdü ki, bu özünü İngiltərədə daha ağır göstərdi. Böyük Britaniya hətta 1929-1933-cü illərdə də belə bir böhranla üzləşməmişdi. Ölkədə ümumi sənaye məhsulu istehsalı 12%, emal sənayesi 16%, yüngül sənaye 27%-ə qədər aşağı düşdü. İnflyasiya və işsizlik artdı. 1980-1981-ci illərdə işsizlərin sayı 1,5 milyondan 3,3 milyona çatdı. Buna baxmayaraq Tetçer hökuməti iqtisadiyyatın struktur islahatından əl çəkmədi. Hökumət ilk növbədə inflyasiyanın sürətini aşağı salmaq siyasəti yeritdi. «Qiymətli kredit» siyasətinə keçirildi. İri gəlirdən tutulan vergilər 3,5 mlrd. funt-sterlinq ixtisar edildi, büdcəyə gələn dolayı vergilərin çəkisi 1979-cu ildəki 34%-dən 1981-ci ildə 39%-ə qalxdı.

Tetçer öz daxili siyasətini «yeni mühafizəkar inqilab» adlandırdı. Dövlət kommunal və yol təsərrüfatı, mədəniyyət, maarifə çəkilən dövlət xərclərinin böyük miqyasda ixtisarına başladı. 1980-1981-ci illərdə onlara büdcədən çəkilən xərclər 4 milyard funt-sterlinq azadıldı. Eyni vaxtda dövlət aparatının tərkibinin və onların saxlanılması xərclərinin azaldılması başlandı. 1982-ci ilə qədər hökumətin tərkibindəki bütün sahə nazirlikləri ləğv edildi. Tetçerin apardığı siyasət artıq 1982-ci ildə öz nəticələrini verdi. Tetçer inflyasiyaya qarşı mübarizəni özünün ən şərəfli vəzifəsi hesab edirdi.

M.Tetçer bu xətti tutmuşdu ki, İngiltərə güclü orduya və donanmaya malik olmalı, özünün nüvə silahını təkmilləşdirməlidir. Tetçer hökuməti milliləşdirilmiş iqtisadiyyat şöbələrinin sistematik özəlləşdirilməsi xəttini yeritməyə başladı.

Tetçer hökuməti milliləşdirilmiş müəssisələrin ziyanla işlədiyini əsaslandıraraq onları özəlləşdirməyə başladı. Neft, kimya, aviasiya, gəmiqayırma, nəqliyyat və digər sənaye sahələrinin xüsusi mülkiyyətə çevrilməsi prosesində dövlət müəssisələrinin 2/3 hissəsi iştirak etdi. 21 dövlət kampaniyası özəlləşdirildi. 1984-1987-ci illərdə sənaye, nəqliyyat, kommersiya strukturlarının 1/3-i özəlləşdirildi. Daxili məhsul istehsalında dövlət bölməsinin payı 10%-dan 6,5%-ə endi. Tetçer hökuməti milliləşdirilmiş dövlət müəssisələrinə dövlət yardımını kəskin surətdə azaltdı. Dövlət bölməsinin ixtisarı nəticəsində bu sahəyə kapital qoyuluşu 50%-dən 25%-ə endi. İqtisadi proseslərin liberallaşdırılması xətti yeridildi. Bələdiyyə idarələrinin bir milyondan artıq mənzili satıldı. 1975-ci ildə Şimal dənizində neft yataqlarının kəşf edilməsi və 1979-cu ildə neft hasil edilməsi ölkənin gələcək inkişafının stimullarından biri oldu. Tetçerin siyasi iradəsi və təşkilatçılıq bacarığı öz işini gördü. 1982-1987-ci illərdə İngiltərə inkişaf sürətinə görə Avropa ölkələrinin hamısını ötüb keçdi. Dünyada beşinci yeri tutdu. «İngilis xəstəliyi», işsizlik, infilyasiya arxada qaldı. Britaniya sənayesinin rəqabət qabiliyyətini möhkəmləndirmək üçün hökumət ETİ-nin nailiyyətləri əsasında onun tamamilə yenidən təchiz edilməsi üçün böyük vəsait ayırdı, yeni sahələri inkişaf etdirən və əmək məhsuldarlığının artmasını stimullaşdıran sahibkarları həvəsləndirdi və bu öz nəticəsini verdi. Tetçer İngiltərənin keçmiş şöhrətini özünə qaytardı. İngiltərə artıq «Avropanın xəstə adamı» kimi tanınmadı. 1981-ci ildə işsizlik fəal əhalinin 10%-ni əhatə edirdi. Gənclər arasında isə bu rəqəm 4 dəfə çox idi. Cinayət və terrorizmin artdığı müşahidə olunurdu. Kortəbii etiraz nümayişləri çoxaldı. 80-ci illərin əvvəllərində tətillər elan etməkdə həmkarlar ittifaqlarının hüquqlarını məhdudlaşdıran qanunlar qəbul edildi.1982-ci ildə inflyasiyanın səviyyəsi 4-5%-ə qədər aşağı endi. 1983-cü ildə iqtisadiyyatda artma müşahidə edildi. Əhalinin tələbat xərcləri 6,5% artdı.

Şimali İrlandiya hadisələrinə daha sərt münasibət göstərildi. 1981-ci ildə oraya əlavə hərbi kontingent göndərildi. Katolik təşkilatlarının fəallarının məhkəmə prosesi başlandı.



Tetçer hökuməti sahibkarlığın hüquqi əsaslarının nizama salınması üçün xüsusi tədbirlər gördü. 1985-ci ildə «Kampaniyalar haqqında yeni akt» qəbul edildi. Tetçer xırda və orta biznesin inkişafına xüsusi diqqət ayırdı. «Yeni mühafizəkarlar» üçün kiçik biznes-insan amilinin iqtisadi fəaliyyətdə rolunun artırılması, əməyin fərdiləşməsinin yüksək dərəcəsi, yaradıcı azadlıq, işçinin özünü təsdiq etməsi demək idi. Onlar «mülkiyyətçilərin milləti»ni yetişdirməklə təkcə kiçik biznesin inkişafının iqtisadi səmərəsini deyil, onun ictimaiyyətin psixologiyasına təsirini də düşünürdülər. 1980-ci ildən 1987-ci ilə qədər kiçik bizneslə məşğul olanların sayı 1,9 milyondan 3 milyona çatdı. 80-ci illərin sonunda işçilərinin sayı 20-ə qədər olan müəssisələrin sayı xüsusi bölmənin işçi qüvvəsinin 35%-ni təşkil edirdi. İrimiqyaslı özəlləşdirmə əhalinin geniş təbəqələrinə səhm sahibi olmaq imkanı verdi. 80-ci illərin sonunda Böyük Britaniya səhm sahiblərinin sayına görə ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. Mülkiyyətçilər cəmiyyətinin formalaşması mənzil təsərrüfatı, tibbi xidmət, təhsil islahatları ilə yanaşı gedirdi. Bu isə «ümumi rifah dövləti»nin demontajı demək idi. Fərdi ev tikintisi genişləndi, bu sahədə kreditlər ayrıldı, tikinti kompaniyalarına vergi güzəştləri edildi. Bununla bərabər dövlətdən mənzil tikintisinə ayrılan vəsait iki dəfə azaldıldı. Standart həyat tərzindən əl çəkilməyə başlandı.

Səhiyyə sahəsində Tetçer Hit kabinetinin siyasətini davam etdirdi. Təhsil sahəsində hökumət «təhsil plüralizmi»nin bərpa edilməsi proqramını irəli sürdü. 1980-ci ildə parlament təhsil haqqında qanun qəbul etdi. Həmin qanun tədris prosesinə validenylərin nəzarət hüququnu genişləndirirdi. Təsadüfi deyildir ki, 1987-ci il seçkiləri ərəfəsində hökumət bildirdi ki, son səkkiz ildə o təhsilin, səhiyyənin ehtiyaclarına əvvəlki hökumətlərdən daha çox vəsait xərcləmişdi.

Tetçer hökumətinin səmərəli fəaliyyətinin nəticsi olaraq Britaniya iqtisadiyyatının inkişafının bütün göstəriciləri yaxşılaşmağa başladı. İstehsalın orta inkişaf sürəti 80-ci illərdə hər il 3-4% oldu. Xaricə kapital qoyuluşu artdı. İşsizlik 1987-ci ildəki 9,8%-dən 1989-cu ildə 6,8%-ə düşdü. 80-ci illərin ikinci yarısında əhalinin gəliri ildə 5% artmışdı. Bu dövrdə artıq 64% ingilis ailəsinin özünün şəxsi evi, 70%-dən çoxunun avtomobili var idi. Yarısından çoxu isə öz

uşaqlarını pullu təhsil müəssisələrində oxudurdular. Əhalinin bu təbəqəsi özünü orta sinif adlandırırdı.

1988-1990-cı ildə özəlləşdirmənin yeni mərhələsi başlandı. Aerolimanlar, su təhcizatı sistemi və elektroenergetika özəlləşdirildi. Bələdiyyə idarələrinin mənzilləri də özəlləşdirildi. 1988-ci ildə pensiya sistemi yenidən quruldu.

Tetçerin hər hansı bir məsələyə prinsipial və sərt mövqedən yanaşması onun İngiltərədə və bütün dünyada «dəmir ledi» kimi tanınmasına səbəb oldu. O, hakimiyyətə aydın proqramla gəlmişdi və onları bir-bir həyata keçirməyə başladı. Marqaret Tetçer parlamentdə ilk çıxışlarında göstərdi ki, onun üçün əsas vəzifə İngiltərənin əvvəlki şöhrətini qaytarmaqdır. Sosial xərclər kəskin şəkildə ixtisar edildi. Zəhmətkeşlərin əmək haqları artırılmadı. Lakin dövlət xərcləri hərbi xərclər hesabına artdı. Belə ki, 1979-1980-ci illərdə hərbi xərclər 9 milyard funt-sterlinqdən 1980-84-cü illərdə 10 milyard funt sterlinqə, 1985/86-cı illərdə isə 18 milyard funt-sterlinqə çatdı. Tetçerin həyata keçirdiyi tədbirlər sistemi «Tetçerizm» adı ilə tarixə daxil oldu.

«Tetçerizm»in başlıca müddəaları aşağıdakılardan ibarət idi:

- inkişaf edən hər cür iqtisadiyyatın hərəkətverici qüvvəsi sahibkarlıqdır. Dövlətin siyasi kursunun əsasını «azadlıq, hamı üçün imkan, sahibkarlıq ruhunu müdafiə, mülkiyyətçilərin demokratiyası» təşkil edir.

- dövlətin iqtisadi həyata müdaxiləsi minimuma endirilir, o, xüsusi təşəbbüsü heç cür buxovlamamalıdır.

- bütün əmək qabiliyyətli vətəndaşlar özləri özlərini təmin etməlidirlər. Dövlət və xeyriyyə təşkilatları ancaq əmək qabiliyyəti olmayan o adamlara yardım göstərir ki, onlar işləmək imkanından öz günahları üzündən məhrum olmayıblar. Bu prinsiplərə əsaslanan dövlət sosial proqramlardan imtina etməli, ya da onları minimuma endirməlidir.

- dövlət defisitsiz, balanslaşdırılmış büdcəyə malik olmalıdır. Onun mühüm hissəsi əhalinin öz gəlirinə uyğun surətdə ödədiyi vergilərdən ibarət olur. Qənaət rejiminə və xərclərin ixtisar edilməsinə ciddi surətdə əməl olunmalıdır.

- həmkarlar ittifaqları başqa adamların mənafeyfinə toxunmadan zəhmətkeşlərin mənafeyini qanunu vasitələrlə müdafiə



etmək hüququna malikdir. Tətillər cəmiyyətə zərər vurur, buna görə də bu hüquqlar məhdudlaşdırılmalıdır.

Tetçer 1982-ci ilin aprel-iyul aylarında Argentina yaxınlığında Malvin (Folklend) adalarında baş verən hadisə zamanı özünün dönməzliyini bir daha nümayiş etdirdi. Malvin adaları tarixi nöqteyi-nəzərdən Argentinaya məxsus olsa da, adanın əhalisinin 2 mini ingilislər idi və onlar İngiltərənin tərəfində idi. Argentinada Xunta hakimiyyətə gəldikdən sonra adanı işğal etmək qərarına gəldi və oraya qoşun çıxartdı. Bu hadisə İngiltərədə böyük həyəcana səbəb oldu. 1982-ci ilin aprelində İngiltərə oraya 78 gəmi ilə 22 min nəfərlik qoşun çıxartdı. Adada ingilis bayrağı dalğalandı. İngiltərə hökuməti bildirdi ki, Malvin İngiltərənin hərbi bazasıdır və olacaqdır. Bu hadisə Tetçerə ölkədə və bütün dünyada böyük nüfuz qazandırdı. 1983-cü ildə Tetçer yeni parlament seçkiləri keçirdi və qələbə çaldı. O, İngiltərənin NATO-da mövqeyini gücləndirməyə nail oldu və göstərdi ki, NATO İngiltərəyə lazım olduğundan daha çox, İngiltərə NATO-ya lazımdır. İrlandiyaya münasibətdə Tetçer qəti addım atdı. Onun dövründə İrlandiyada nisbi sabitlik yarandı.

Fəhlə hərəkatına münasibətdə Tetçer başqa bir mövqe tutdu. 1979-cu ildə «Piketlər haqqında» verilən qanuna əsasən piketlər keçirən fəhlələrin ancaq o hissəsi işə bərpa edilə bilərdi ki, onlar həmkarlar ittifaqının üzvü olsunlar. 1981-ci ildə «Məşğulluq haqqında» qanun verildi ki, həmin qanun həmkarlar ittifaqının hüquqlarını məhdudlaşdırdı. 80-ci illərdə İngiltərədə rəngli əhaliyə münasibət xeyli kəskin xarakter aldı. 1982-ci ildə parlament «İngiltərə vətəndaşlığı» haqqında qanun qəbul etdi. Qanuna əsasən İngiltərə vətəndaşları üç kateqoriyaya bölündü:

1. İngiltərənin öz vətəndaşları
2. Başqa ölkələrdən gələn ağlar
3. İmtiyazları xeyli məhdudlaşdırılmış dəriləri rəngli olanlar

Tetçerin hakimiyyətinin son dövründə hadisələrə münasibətdə radikallığının artması həm ölkədə, həm də mühafizəkarlar partiyasınnı öz daxilində ona qarşı müxalifəti gücləndirdi. Belə ki, onun parlamentdən keçirdiyi 18 yaşdan yuxarı gəlirlərindən asılı olmayaraq hamıdan vergi alınması haqqında qanun böyük narazılığa səbəb oldu. Xarici siyasətdə Tetçer AİB-ə münasibətdə belə hesab edirdi ki, İngiltərənin bu qurumda iştirakını

daha çox genişləndirməyə ehtiyac yoxdur. Mühafizəkarlar partiyasının digər üzvləri isə belə hesab edirdi ki, buna zərurət var. Bütün bunlar ona gətirib çıxardı ki, on bir il yarım hakimiyyətdə olduqdan sonra 1990-cı ilin noyabrında Tetçer baş nazir vəzifəsindən öz siyasi varisi Con Meycorun xeyrinə istefa verdi.

### İngiltərə C.Meycorun baş nazir olduğu «yeni mühafizəkarlar hökuməti» dövründə (1990-1997-ci illər)

Con Meycor hələ 1989-cu ilin iyulundan xarici işlər naziri olarkən tanınmışdı. Onun şəxsi nüfuzu yüksək idi və «dəmir ledinin» stilindən yorulmuş əhali onu rəğbətlə qarşıladı. O hakimiyyətə gələn kimi «can vergisi»ni təxirə saldı. Vətəndaşlardan gəlirlərinin səviyyəsinə görə vergi alınmağa başladı. 90-cı illərin əvvəllərində ölkədə başlıca göstəricilər üzrə inkişaf aşağı düşsə də, hökumət iqtisadi siyasət sahəsində radikal addımlar atmaqdan çəkindi. Seçkiqabağı kampaniyada o, Tetçerin inadkar, fəal elektoratı səfərlərlərliyə almaq taktikasından imtina edərək, cəmiyyətin geniş təbəqələrinin simpatiyasını qazanmağı üstün tutdu. 1992-ci ilin aprelin 2-də icma palatasına keçirilən seçkilərdə mühafizəkarlar partiyası 41,9% səs alaraq əksəriyyət qazandı. Mühafizəkarlar partiyası daxilindəki müxalifəti aradan qaldırmaq üçün Con Meycor ən sərt metodlara əl atmalı oldu. Siyasi şəraitin sabitləşməsi ölkənin iqtisadi vəziyyətini də yaxşılaşdırdı. 1992-ci ildə iqtisadiyyatda canlanma müşahidə edilməyə başladı. 1997-ci ilə qədər inkişafın dinamikası Avropa İttifaqının digər ölkələrini ötüb keçdi. Qadınların fəallığı artdı. Onlar 1997-ci ildə fəhlə və qulluqçuların 47%-ni təşkil edirdilər. Sənaye bölməsi fasiləsiz artmağa başladı. Sənayedə əmək məhsuldarlığı ildə 3-4% artdı. Kapital qoyuluşu isə çox az artdı. Meycor hökuməti kiçik biznesin maraqlarını nəzərə alaraq 1992-ci ildə «Kiçik biznesin xartiyası» sənədini işləyib hazırladı. Onlara kredit ayrıldı və vergi güzəştləri edildi Özəlləşdirmə davam etdirildi. 1994-1995-ci illərdə idxal 4-5%, ixrac isə 10% artırıldı. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq iqtisadi artımın sürəti qiymətlərin artma tempini qabaqladı. «Sərt iqtisadi qənaət» siyasəti həyata keçirildi. Böyük Britaniya Aİ-nın «Sosial xartiyası»na qoşulmadı.

Vətəndaş cəmiyyətinin hüququ əsasları möhkəmləndirildi. Hökumət 1992-1993-cü illərdə «Vətəndaş xartiyası» adı altında



«Valideynlərin xarityası», «Pasientlərin xartiyası», «Mənzildəki ailə başçılarının xartiyası», «İstehlakçıların xartiyası», «İş axtaranların xartiyası», «Sərnişinlərin xartiyası» adlı sənədlər qəbul etdi. 1994-cü ilin sonuna qədər xartiyaların sayı 40-a çatdı.

Meycorun dövründə regionlaşma siyasəti də xeyli fəallaşdı. Şotlandiya, Şimali İrlandiya, Uels kimi nisbətən geridə qalmış rayonların iqtisadi inkişafını stimullaşdırmaq istiqaməti götürüldü. Uelsdə vali dilinin məktəblərdə tədrisinə icazə verildi. 1994-cü il qanununa əsasən Uelsin inzibati-ərazi quruluşu möhkəmləndirildi. 1995-ci ilin əvvəllərində İngiltərə və İrlandiya dövləti arasında Olster problemini həll etmək üçün birgə saziş imzalandı. Britaniya hökuməti Şimali İrlandiyaya özünün «daimi əyaləti» kimi baxmaq haqqındakı qanunvericilik aktına yenidən baxacağına söz verdi.

1997-ci il parlament seçkilərində Şimali İrlandiya, Şotlandiya və Uelsdə mühafizəkarlar partiyasının nüfuzunun bir qədər zəifləməsi özünü göstərdi.

### XX əsrin 80-ci illəri və 90-cı illərinin birinci yarısında Böyük Britaniyanın xarici siyasəti

Tetçer hökumətinin xarici siyasəti Böyük Britaniyanın böyük dövlət kimi dirçəldilməsinə yönəldilmişdi. Böyük Britaniya Millətlər birliyinə daxil olan ölkələrdə bu dövrdə vəziyyət yaxşı deyildi. Böyük Britaniya 1979-cu ildə Lusakada olan konfransda Cənubi Pobeziyada konstitusiya islahatlarının keçirilməsinə təminat verdi. 1980-ci ildə Zimbabve də müstəqil dövlət kimi Birliyin üzvü oldu. Tetçer çalışırdı ki, Birlik tədricən çoxtərəfli beynəlxalq təşkilata çevrilsin, onun fəaliyyəti «xüsusi münasibətlərə» görə deyil, adi beynəlxalq hüquq normaları əsasında qurulsun. Belə yanaşma Birliyin 1987-ci il Vankuver bəyannaməsi ilə qəti şəkildə möhkəmləndirildi. Əsas məqsəd birlikdə Böyük Britaniyanın mövqeyini gücləndirmək idi. Həmçinin Böyük Britaniyanın NATO-da mövqeyinin möhkəmləndirilməsi siyasəti yeridildi.

1983-cü ildə Tetçerin Vaşinqtona səfəri ABŞ və Böyük Britaniya arasında «xüsusi münasibətlər» olduğunu bir daha nümayiş etdirdi. 80-ci illərin ikinci yarısında Böyük Britaniya ABŞ-ın strateji müttəfiqi idi. ABŞ-ın İrana, Əfqanıstana, Nikaraquaya qarşı sərt münasibəti London tərəfindən müdafiə edilirdi. 1986-cı ildə ABŞ-ın

Liviyaya qarşı hərbi aksiyasını İngiltərə bəyəndi. Vaşinqtonun «Strateji müdafiə təşəbbüsü» strategiyasının inkişafında Böyük Britaniya diplomatiyası da iştirak etdi. Antisovet kampaniyaya başlayaraq Moskva olimpiadasını baykot etdi. Qlobal məsələlərdə ABŞ-İngiltərə birgə münasibətləri möhkəmləndi. Böyük Britaniya ərazisində 160 ortamənzilli raketin yerləşməsinə icazə verdi. ABŞ-ın «Traydent» adlı sualtı nüvə qayıqlarının hazırlanmasının modernizasiyasını müdafiə etdi. SSRİ-də M.Qorbaçovun hakimiyyətə gəlməsini İngiltərə alqışladı. 1986-1987-ci illərdə bir sıra məsələlərdə Sovet-Britaniya dialoqu oldu. 1987-ci ildə M.Tetçer SSRİ-yə rəsmi səfər etdi. Meycorun dövründə də bu münasibətlər davam etdirildi.

Meycor əvvəl SSRİ-nin dağılmasını seperatizm kimi qiymətləndirdi. 1991-ci ilin yanvarında Latviya və Litvadakı hadisələrə sərt münasibətini bildirdi. Avropa dövlət başçılarından birinci olaraq Meycor Moskvada 1991-ci il avqust qiyamını mühakimə etdi. Rusiyanı SSRİ-nin varisi kimi tanıdı. 1992-ci ildə Londonda Rusiya ilə Böyük Britaniya arasında münasibətlərin prinsipləri haqqında müddətsiz müqavilə bağlandı. 1994-cü ildə kraliçə II Yelezaveta Rusiyaya rəsmi səfər etdi.

Meycorun dövründə də ABŞ-İngiltərə münasibətləri birmənalı şəkildə inkişaf etdi. İran körfəzində BMT-nin hərbi əməliyyatlarında, 1991-ci ildə İraqa qarşı «Səhrada tufan» əməliyyatında İngiltərə də iştirak etdi. Lakin 1993-cü ildən İngiltərə-ABŞ münasibətlərində yaxınlıq azalmağa başladı. Bu özünü Bosniya və Hersoqovina məsələsində bir daha göstərdi. İngiltərə sülh məramlı qüvvəllərin hərbi əməliyyatda iştirakına qarşı çıxdı. 1995-ci ildə sülh müqaviləsinin bağlanmasında İngiltərə vasitəçi kimi çıxış etdi.

Qərbi Avropa ilə inteqrasiya məsələsi İngiltərə xarici siyasətinin bu dövrdə əsas halqalarından idi. Tetçerdən fərqli olaraq Meycor Qərbi Avropa ilə inteqrasiyanı möhkəmləndirmək tərəfdarı idi və bu sahədə mühüm addımlar atdı.

**Entoni Bleerin «yeni liberalizmi».**

XX əsrin 90-cı illərində leyborist hərəkatın yeni ideoloji və siyasi simasının dəyişməsinin fəallaşması davam edirdi. Leyboristlər partiyasının lideri N.Kinnok bu dəyişikliyə uyğunlaşmağı



bacarmadığına görə istefaya getdi. 1992-ci ildə onu C.Smit əvəz etdi və o, islahatçılıq kursunu davam etdirdi. O, tred-yunionların leyboristlər partiyasına təsirini xeyli zəiflətməyi bacardı. 1994-cü ilin mayında C.Smitin ölümündən sonra partiyada dəyişiklər davam etdi. Partiyanın lideri 40 yaşlı Entoni Bleer oldu və o, C.Smitin işini davam etdirdi.

1995-ci ildə olmuş leyboristlər partiyasının qurultayında partiyanın yeni nizamnaməsi qəbul edildi ki, həmin sənəddə əsas istiqamət dinamizm və rəqabətə əsaslanan «ədalətli cəmiyyət» qurmağa yönəldilmişdi.

1997-ci il parlament seçkiləri kampaniyasında irəli sürülən manifestdə «yeni leyborizm» ideyası əsas götürülmüşdü. Partiya hüquqi islahatlar aparacağını və xarici siyasət kursunu dəyişəcəyini elan etdi. Həmçinin lordlar palatasında da islahatlar aparılacağı göstərilirdi. Proporsional seçki sistemi, Şotlandiya, Uels və Şimali İrlandiyada konstitusiya islahatları keçiriləcəyi vəd edilirdi. Leyboristlər Aİ-nin «Sosial xartiya»sına və Avropa valyuta sisteminə qoşulmağa hazır olduqlarını bildirdlər. «Amerika amilindən» istifadə edərək Bleer seçkilər ərəfəsində B.Klitonla dostluq münasibətləri yaratmağı bacardı.

Bu dövrdə mühafizəkarlar çox ləng siyasət yeridirdi. Liberal demokratlar partiyasının bu dövrdə nüfuzu xeyli qalxdı. Onlar Cənub-Şərqi İngiltərənin elektoratını öz tərəflərinə çəkə bilmişdilər. Onların əsas ideyası «kommunalizm» idi.

1997-ci ilin mayında keçirilən parlament seçkiləri nəticəsində leyboristlər 45% səs toplayaraq 659 yerdən 419-nu, mühafizəkarlar son 90 ildə ən az, yəni 30,2% səs alaraq 165 yeri tutdular. Liberal dekmoratlar partiyası 34 dairədə qələbə çalaraq 17% səs topladı. Şotlandiya milli partiyası Şotlandiyanın tam müstəqilliyi şüarını irəli sürərək Şotlandiyada 22% səs aldı.

Uelsdəki «Pleyd Kimri» partiyası isə Uels seçicilərinin 10%-inin səsini topladı.

Entoni Bleerin başçılığı altında «yeni leyborist hökuməti» təşkil edildi. Bu hökumət əvvəlki Meycor hökumətinin iqtisadi strategiyasını dəyişmədi. Xüsusi bölmə iqtisadiyyatda qaldı. Dövlətin iqtisadi proseslərə müdaxiləsi minimum səviyyədə idi, sahibkarların fəallığına şərait yaradılırdı, istehsalın texnika-texnologiya bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi.

90-cı illərin sonunda da Böyük Britaniya iqtisadi artım sürətini saxlayırdı. Birinci yeri xidmət sahəsi tuturdu. Hökumətin yeritdiyi iqtisadi siyasət İngiltərə mallarının dünya bazarında rəqabət qabiliyyətini yüksək səviyyədə saxlayırdı. 1999-cu ildə hökumət əmək bazarının inkişafı ilə əlaqədar xüsusi proqram qəbul etd.i Bundan başqa gənclər üçün iş yerlərinin açılması və onların işlə təmin edilməsinə təminat verən xüsusi proqram qəbul edildi. Bu proqramı həyata keçirmək üçün büdcədən 5,7 milyard dollar vəsait ayrılırdı.

90-cı illərin sonunda Böyük Britaniya investisiya fəallığını fövqəladə yüksək səviyyədə saxlayırdı. Britaniya iqtisadiyyatı xarici biznesə kapital qoyuluşu üçün əlverişli bazar oldu. Böyük Britaniyada 13 min xarici kompaniya bu dövrdə fəaliyyət göstərirdi.

Leyboristlər imtiyazları ixtisar etmək hesabına vergiləri genişləndirmək siyasəti yetirməyə başladılar. Bleer hökuməti ümumi gəlir vergisini 20%-ə, şəxsi gəlir vergisini isə 10%-ə qədər azaltdı. Beləliklə, Böyük Britaniya inkişaf etmiş ölkələr içərisində birbaşa vergilərin ən aşağı səviyyədə olduğu ölkələrdən biri oldu.

Hökumətin maliyyə siyasəti büdcə kəsirini tədricən azaltmağa doğru yönəldilmişdi. 1999-cu ildə ölkədə inflyasiyanın səviyyəsi cəmi 3,4% təşkil edirdi.

1998-ci ildə Böyük Britaniya ixraca görə dünyada beşinci yeri, idxala görə isə üçüncü yeri tuturdu. Əsas makroiqtisadi göstəricilərə görə İngiltərə iqtisadiyyatı AFR və Fransanın sosialist-bazar təsərrüfatını ötüb keçmişdi. Hökumət sosial siyasətə də diqqət ayırdı. 1998-ci ildə hökumət sosial proqram qəbul etdi. Təhsil, texniki-peşə təlimi, səhiyyəyə, gənclər üçün yeni iş yerləri açılmasına xeyli vəsait ayrıldı. Telefon əlaqəsinin və nəqliyyat sisteminin də modernləşdirilməsi sürətləndirildi.

1999-cu ildə uşaqların müdafiəsi, yeniyetmə yaşına çatmamışlara analıq probleminin həllinə dair, həmçinin yeniyetmələr arasında narkomaniya əleyhinə mübarizə haqqında proqramlar qəbul edildi.

Konstitusiya-seçki hüququ sistemi, lordlar Palatasının islahatı və devolyusiya sisteminin inkişafı istiqamətində iş aparılmağa başlandı. Mojaritar-proporsional seçki sisteminə keçmək məsələsi lordlar palatası tərəfindən qəbul edilmədi. Belə olduqda hökumət lordlar palatasının islahatına başladı. 1999-cu ildə irsi perlik ləğv



edildi. Lordluq titulu yuxarı palatada artıq ömürlük olmur, bu titul ictimai həyatın bu və ya digər sahəsində xidmətə görə verilirdi. Perin təltif edilməsi yenə də kralın ixtiyarında qalsa da, artıq onun namizədliyinin sürülməsi xüsusi müstəqil komissiyanın funksiyası idi. 1999-cu ildə lordlar palatası bu islahat haqqında billi bəyəndi. 221 üzvdən cəmi 81-i onun əleyhinə oldu.

1997-ci ildə Uels və Şotlandiyada yerli qanunverici məclisin təşkili ilə əlaqədar referendum keçirildi. Uelsdə yerli seçicilərin 50%-i iştirak edirdi. Ona görə də burada keçirilən referendum məhdud xarakter daşıyırdı. Burada təşkil edilən yerli assambleya regional qanunlar verə və vergilər qoya bilməzdi. Ancaq regionun iqtisadi inkişafı, kənd təsərrüfatı, təhsil, mədəniyyət, ekologiya məsələləri onun sərəncamında idi. Assambleya mərkəzi hökumətdən ildə 8 mlrd. funt-sterliq dotasiya almaq imkanı əldə etdi.

Şotlandiyada konstitusiya islahatını yerli əhalinin 74%-i bəyəndi. Təşkil edilən Şotlandiya parlamenti xeyli səlahiyyətlər aldı, o cümlədən regional qanunlar qəbul edə, vergi qoya və onu dəyişdirə bilərdi. Lakin Şotlandiya parlamentinə seçkilərdə leyboristlərin (112 səsdən 56-nı) səslərin əksəriyyətini qazanması Şotlandiyanın ayrılması imkanını aradan qaldırdı. Şotlandiya milli partiyası cəmi 28 yer aldı. Şotlandiya parlamentinin rəsmi açılışı 1999-cu ilin iyulun 1-də oldu.

Bleer İrlandiya məsələsində də uğur qazana bildi. O, hakimiyyətə gəldikdən sonra elan etdi ki, İrlandiya və İngiltərə hökuməti arasında gedən danışıqlarda Şinn feyn partiyasının iştirak etməsinə etiraz etmir. ABŞ-ın vasitəçiliyi ilə 1998-ci ilin aprelində Şimali İrlandiya üzrə üçtərəfli sülh müqaviləsi imzalandı. Şimali İrlandiyanın siyasi muxtariyyəti bərpa edildi. Əvvəlki Stormatdan fərqli olaraq yeni təşkil edilmiş Milli assambleya «razılığa uyğun» gələn qaydalar üzrə işləməli, onun qəbul etdiyi qərarlar deputatlar tərəfindən bəyənilməli, katolik və protestant icmalar tərəfindən təqdim edilməli idi. İrlandiya Olsterə qarşı iddialarından əl çəkdi. Britaniya hökuməti də Şimali İrlandiyada məhdud səlahiyyətlərə malik ümumirland yerli özünüidarə orqanları təşkil edilməsinə razılaşdı. Sülh müqaviləsi 1998-ci ilin 22 may referendumu ilə təsdiq edildi. Olsterdə 71%, İrlandiyada 94% onun lehinə səs verdi. 1998-ci ilin iyununda Şimali İrlandiyada Milli assambleyaya seçkilər keçirildi. Assambleya Şimali irland hökumətini formalaşdırmağa

başladı. 1999-cu ildə İngiltərə qoşunlarını Şimali İrlandiyadan çıxartdı. Lakin İRO (İrlandiya Respublika Ordusu) tərkisilah edilmədi. Yenidən terror aktları davam etməyə başladı.

Bleer hökumətinin xarici siyasətində ABŞ-la yaxınlıq əsas yer tuturdu. London ABŞ-ın Sudan və Əfqanıstanı bombardman etməsini müdafiə etdi. 1998-ci ilin dekabrında birgə «Səhrada tülkü» əməliyyatı həyata keçirildi. 1999-cu ildə İngiltərə ABŞ-la birlikdə Yuqoslaviyaya qarşı hərbi əməliyyatda iştirak etdi. Bu dövrdə İngiltərə NATO-nun şərqə doğru genişlənməsini və onun stratei konsepsiyasını müdafiə etdi.

XXI əsrin əvvəllərində də Bleer hökuməti ABŞ yönümlü xarici siyasət yeritməkdə davam edirdi. 2001-ci ildə Nyu-Yorkda baş vermiş terror hadisəsindən sonra Böyük Britaniya da 2001-ci ilin sonunda Əfqanıstana, 2003-cü ildə isə İraqa qarşı başlanan hərbi əməliyyatlarda yaxından iştirak etdi.

### Müasir Böyük Britaniya

Son dövrdə İngiltərə siyasətində «yaşıllar» partiyasının rolu artmışdır. Həmçinin kommunistlər və sosial-demokrat partiyasının nüfuzu da artmaqdadır. İngiltərədə qeyri-istehsal sahələrində işləyən muzdlu işçilərin 35%-ni «ağ qalstuklular» təşkil edirdi (yəni ziyalılar). İngiltərənin hazırkı adı Böyük Britaniya və Şimali İrlandiya birləşmiş krallığıdır ki, ona İngiltərə, Şotlandiya, Olster və Uels daxildir. İngiltərənin şahzadəsi Uels şahzadəsidir. Hazırda İngiltərə dünyanın və Avropanın aparıcı dövlətlərindən biridir. Avropada fəaliyyət göstərən 500 inhisarın, demək olar ki, yarısı Böyük Britaniyaya məxsusdur. Böyük Britaniya Millətlər Birliyi vaxtı ilə İngiltərənin müstəmləkəsi olmuş və hazırda müstəqil olan 49 dövləti birləşdirir. Bu dövlətlərin hamısında dövlətin başçısı İngiltərə kraliçasıdır. Böyük Britaniya ABŞ-la birlikdə dünya siyasətinin liderlərindəndir.

2007-ci ilin əvvəllərində keçirilən parlament seçiklərindən sonra İngiltərənin baş naziri Qordon Braun oldu. O, leyborist partiyasındandır və E.Bleerin siyasətini davam etdirir.



# ABŞ-IN SİYASİ SİSTEMİ

Hələ 220 il öncə, 1787-ci ildə qəbul edilmiş ABŞ Konstitusiyası indiyə qədər əsasən sabit qalmış, ancaq ona 26 əlavə edilmişdir. Bu əlavələr vasitəsilə Amerika cəmiyyətində demokratik prinsiplər daha da genişləndirilmiş və möhkəmləndirilmişdir.

Amerikanın siyasi sistemi azad bazar iqtisadiyyatını, mülki vətəndaş cəmiyyətini, vətəndaşların bütün hüquq və azadlıqlarını, demokratik prinsipləri, azad hakimiyyət bölgüsünü və s. özündə əks etdirir.

Göründüyü kimi, ABŞ-da müasir demokratik prinsiplərə söykənən siyasi sistemin formalaşması üçün 200 ildən artıq təkamül yolu keçilməsi lazım gəlmişdir. ABŞ təzə yaranarkən zəncilərin, hinduların və başqa etnik azlıqların vətəndaşlıq hüquqları yox idi. Onlar seçib seçilmək hüququna malik deyildilər. Qadınların kişilərlə bərabər hüquqları yox idi, onlar seçib seçilmək hüququndan məhrum idilər.

Bütün bu və başqa hüquqların əldə edilməsi üçün gərgin və uzunmüddətli mübarizə lazım gəldi. Yalnız 1924-cü ildə hindulara vətəndaş hüquqları verildi. Qadınların kişilərlə bərabər hüquqluğu 1972-ci ildə təsdiq edildi. Qadınlara seçki hüququ 1920-ci ilin avqustunda verildi. Lakin onu da etiraf etməliyik ki, ABŞ-ın Senatı və Nümayəndələr Palatasında indinin özündə də zəncilər və qadınlar kifayət qədər təmsil edilməmişlər. Konstitusiyaya edilmiş 13, 14, 15-ci əlavələrə görə zəncilərə vətəndaşlıq hüquqları verilsə də, bu əlavələr 100 il kağız üzərində qaldı. Eləcə də XX əsrin 60-cı illərində ABŞ-da zəncilərə qarşı seqreqasiya və diskriminasiya hələ də qalmışdı. 1964-cü ildə «Vətəndaş hüquqları haqqında qanun» və 1965-ciildə «Seçki hüququ və bir sıra məhkəmə qərarları haqqında qanun» qəbul edildi. Bu qanunlarla bütün ABŞ vətəndaşlarının bərabər hüquqlu olması üçün təminat yaradıldı. Tarixi təcrübə göstərir ki, ABŞ-dakı kimi demokratik cəmiyyət qurmaq üçün uzunmüddətli, ağır və gərgin mübarizə etmək lazımdır.

## ABŞ-da HAKİMİYYƏT BÖLGÜSÜ

ABŞ – ın siyasi sistemindən danışarkən ilk növbədə hakimiyyətin bölünməsi məsələsi qeyd edilməlidir. ABŞ – da hakimiyyət bölgüsü aşağıdakı qaydadadır:

1. Qanunverici hakimiyyət



2. İcra hakimiyyəti
3. Məhkəmə hakimiyyəti

Müasir dövrümüzdə müəyyən sistemlər mövcuddur. Onların içərisində ABŞ-ın siyasi sistemi özünəməxsusluğu və spesifikliyi ilə fərqlənir. Təkcə 1861- 1865-ci illərdə şimal və cənub arasında getmiş, böyük itkilərlə nəticələnmiş vətəndaş müharibəsini qeyd etsək kifayətdir. Bu da faktdır ki, bu hadisədən sonra ABŞ ərazisində hərbi əməliyyatlar aparılmayıb, hələ XVII əsrdə müasir ABŞ ərazisində 13 ingilis koloniyası vardı. Koloniyaların iqtisadi inkişafı və yerli burjaziyanın formalaşması ilə koloniyalar ilə metropoliya arasında fikir ayrılığı yarandı. Bu sonradan müstəqillik uğrunda müharibəyə çevrildi. 1776-cı ilin mayında Filadelfiyada 2-ci kontinental Konqres yaradıldı. Konqres istiqlaliyyət bəyannaməsinin mətninin tərtib edilməsi üçün aşağıdakı tərkibdə komitə yaratdı. T.Cefferson, C.Adams, B.Franklin, R.Şerman və R.Livinqston. Ancaq mətnin son variantının müəllifi T.Cefferson idi. Bu layihə iyunun 28 – də Konqresə təqdim edildi. Gərgin müzakirələrdən sonra 1776-cı ilin iyulun 4 – də Konqres bəzi düzəlişlərlə «İstiqlaliyyət Bəyannaməsini» qəbul etdi.

Bu tarixdən etibarən ABŞ-ın suveren dövlət kimi fəaliyyəti başlayır. İstiqlaliyyət Bəyannamısi imzalamış konqresin iştirakçıları «Ümumi konqresə toplaşmış ABŞ-ın nümayəndələri kimi» sənədin sonunda bildirirdilər ki, «əslində və hüquqa görə azad və müstəqil ştatlar olmalıdırlar».

Bəyannamənin ən əsas hissəsi preambula hissəsi idi.

Preambulada deyilirdi: «Biz bu həqiqətləri şübhəsiz hesab edirik: bütün insanlar bərabər hesab edilirlər və onların hamısı bu toxunulmaz hüquqlara malikdirlər: yaşamaq, azadlıq və xoşbəxtliyə cəhd. Bu hüquqların təminatçəsı hökumət olub, o özünün ədalətli hakimiyyətini insanların razılığı ilə həyata keçirir. Əgər idarəetmənin bu forması bu məqsədin həyata keçirilməsi üçün məqbul sayılmırsa, onda xalqın onu dəyişdirməyə və yeni hökumət təşkil etməyə hüququ vardır. Bu hakimiyyət təşkilatı xalqa arxalanmalı, onun mənafeyini müdafiə etməli və onun xoşbəxtliyinə və təhlükəsizliyinə cavabdeh olmalıdır». Bəyannaməyə uyğun olaraq koloniyaların hər biri müstəqil idi və öz ərazisində geniş səlahiyyətə malik idi.

1777-ci ilin iyulun 4 – nə qədər Massaçusets, Konnektikuta və Rod-Aylend koloniyaları istisna olmaqla, ştatlar öz ərazisində

qəbul edilmiş konstitusiyalara əsasən özünüidarəni həyata keçirirdilər. Konstitusiyalara əsasən ştatların əksəriyyətində leqistaturalar real hakimiyyətlə təmin edilmişdilər. 1776-cı ilin iyununda Kontinental Konqres qərar çıxardı ki, «konfederasiya planı tərtib edilsin, müvafiq koloniyalara baxılmaq və təsdiq edilmək üçün təqdim edilsin». Hər koloniyadan bir nəfər olmaqla, 13 nəfərdən ibarət xüsusi komitə təşkil edildi. Bu komitə ilk əvvəl ABŞ Konstitusiyasının mətnini hazırlamalı idi. Bu Konfederasiya mətni şəklində tərtib edilməli idi. 1776-cı il iyulun 12 – də komitə məsləhət xarakteri daşıyan planını konqresə təqdim etdi. Bu planın əsasını C.Dikinsonun hazırladığı mətn təşkil edirdi. Gərgin müzakirələrdən sonra bəzi əlavələrlə Konqres 1777-ci ilin noyabrın 15 – də bu sənədi qəbul etdi. Bu sənəd belə adlanırdı: «Daimi ittifaq və konfederasiya mətni». Bu mətn ştatlarda təsdiq ediləndən sonra 1 mart 1781- ci ilin martın 1 – də qüvvəyə mindi. Konfederasiya Mətnində mərkəzi orqanlar tam hakimiyyətlə təmin edilməmişdi. Əsas hakimiyyət ştatların özlərinə məxsus idi. Konqres yenə də dövlət hakimiyyətinin yeganə orqanı olaraq qalırdı. Ştatlar konqresdə hərəsi 1 səsə malik idi. İstiqlaliyyət Bəyannaməsindən fərqli olaraq bu mətndə əks olunurdu ki, müharibə elan etmək, müqavilələr bağlamaq, ittifaqa girmək, ordu və dəniz donanması formalaşdırmaq, pul kəsilməsini təmin etmək, borc vermək səlahiyyətləri Konqresə məxsusdur.

Konfederasiya mətnində nəzərdə tutulurdu ki. Konqres hər ştatdan 2-dən 7-yə qədər nümayəndə olmaqla ştat nümayəndələrindən ibarət olmalıdır. Nəhayət, 1781-ci ildən Konqres icraedici sahədə ayrı-ayrı departamentlərə rəhbərlik etmək üçün yüksək dərəcəli xüsusi məmurlar təyin etməyə başladı.

Göstərməliyik ki, Konfederasiya Mətnində vahid federal icraedici hakimiyyət, federal məhkəmə müəssisələri sistemi haqqında bir söz də yazılmamışdı.

Fəal xarici siyasət yeritmək, xarici hücumlardan qorunmaq, ştatlar arasında əlaqəni tənziləmək üçün mərkəzi federal orqanın yaradılmasına ehtiyac vardı. 1782-ci ildə Nyu-York ştatının assambleyası Konqresə müraciət etdi ki. Konfederasiya Mətninə baxmaq üçün ştat nümayəndələrinin ümumi qurultayı çağırılsın. 1785-ci ildə Massaçusets, 1786-cı ildə isə Birciniya ştatı bu təklifi dəstəklədi.



Qurultay Annapolisdə çağırıldı. Qurultayda 1786-cı il sentyabrın 14 – də sənəd qəbul edildi. Bu sənəddə ştatlara məsləhət görülürdü ki, 1787-ci ilin mayında Filodolfiya qurultayında federal hakimiyyətin tələblərinə cavab verən müddəalar hazırlamaq üçün öz komissarlarını təyin etsinlər. 1787-ci ilin mayında Filadolfiyada konvent açıldı. Orada 55 nümayəndə iştirak edirdi. Bu konvent sentyabra qədər davam etdi. 1787-ci ilin sentyabrın 17 – də Konstitusiya mətni qəbul edildi. Konstitusiya preambula və 7 fəsildən ibarət idi. Bu fəsillərdə qanunverici, icraedici, məhkəmə hakimiyyətləri, ştatlarla və ştatlararası münasibətlər, konstitusiyaya əlavələr edilməsi prosedurası haqqında, federal hüququn ştatların hüquqlarından yüksək olması haqqında, konstitusiyanın ratifikasiya prosedurası haqqında məsələlər əks olunurdu.

ABŞ Konstitusiyasında əsaslandırılan qanunverici hakimiyyət haqqında aşağıdakıları göstərmək vacibdir. Əvvəla, ABŞ-da qanunverici hakimiyyəti ABŞ-ın Konqresi və ştatların qanunverici yığıncaqları həyata keçirir. ABŞ-ın Konqresi 2 palatadan ibarətdir: Senat və Nümayəndələr palatası.

Nümayəndələr Palatasının üzvlərinin sayı 1913-cü ildə verilmiş qanunla müəyyənləşib və hələ də dəyişməz qalır ki. onların sayı 435 nəfərdən ibarətdir. İndiki dövrdə palatanın hər bir üzvü 500 min seçicini təmsil edir, hər 10 ildən bir əhalinin siyahıya alınmasının nəticəsi ilə Nümayəndər Palatasında yerlər ştatlar arasında bölüşdürülür.

Nümayəndələr Palatasının üzvləri 2 il müddətinə seçilirlər və seçkilərdən sonrakı ilin yanvarından onların səlahiyyət müddəti hesablanır. Öz növbəsində hər 2 ildən bir Nümayəndələr Palatasının heyəti yeniləşdirilir, bu fasilə ilə hər çağrışın – bütün konqresin müddəti ölçülür.

Hər çağırış Konqresi 2 sesiya keçirir. Bu sesiyalar yanvarda başlayır və fasilələrlə bütün il ərzində davam edir. Konstitusiyaya görə, prezidentin konqresin fövqəladə sesiyasını çağırmaq hüququ var.

Hər bir ştatda əhali Senata senatorları seçirlər, hər bir ştat Senatda 2 nümayəndə ilə təmsil olunub. Senatın tərkibində 100 senator daxildir, hər bir senator öz ştatında 6 illiyə seçilir. Onun senatorluq müddəti seçkilərdən sonrakı ilin yanvarından hesablanır. Nümayəndələr Palatasından fərqli olaraq hər iki ildən bir senatorların

1/3 hissəsi yenidən seçilməlidir. Bu isə palatanın stabilliyini təmin edir və onun fəaliyyətinə müsbət təsir göstərir, həm də bir ənənə kimi Senat Nümayəndələr Palatasından üstün vəziyyətə malikdir.

Konqresin tərkibi və səlahiyyətləri:

ABŞ-ın Konqresində əhalinin burjua hissəsi təmsil olunmuşdur. Heyətində bir nəfər belə sənaye və kənd-təsərrüfatı fəhləsi yoxdur. Onların mənafeyini müdafiə edən siyasi fraksiyalar da yoxdur. Hər iki palatada hüquqşünaslar mütləq çoxluq təşkil edirlər. (Nümayəndələr Palatasında - 184, Senatda - 62). Bu kateqoriyaya təkcə hüquqi praktika ilə məşğul olanlar yox, həm də böyük hüquq firmalarının sahibləri və hüquq təhsili alıb bizneslə məşğul olanlar da daxildir. Konqresin üzvləri arasında seçilənə qədər federal və yerli səviyyədə rəsmi vəzifə tutanlar, keçmiş hakimlər, jurnalistlər də çoxluq təşkil edir.

Konqresin Nümayəndələr Palatasının 37%-ni (162 nəfər), Senatın isə 33%-ni ( 33 nəfər ) bankirlər, sahibkarlar və iri aqro - biznesmenlər təşkil edir. ABŞ-ın zənci əhalisi indi ümumi əhalinin 12%-ni təşkil edir. Nümayəndələr Palatasında indi onların 23 konqresmeni var. Senatda isə bir nümayəndəsi də yoxdur. Qadınlar seçicilərin əksəriyyətini təşkil etsələr də, onların Nümayəndələr Palatasında 23, Senatda isə 2 nümayəndəsi var.

Konqresin konstitusiya səlahiyyətləri xeyli genişdir. Onların arasında ən əsas yeri maliyyə sahəsinə baxmaq tutur. Bu ABŞ – ın «pul kisəsi hakimiyyəti» adlanır.

Konqres ölkənin bütün ərazisi üçün vahid vergini, rüsumları, aksiz rüsumlarını müəyyən edir, federal büdcəni müəyyənləşdirir, dövlət səhmlərindən başqa bütün sahələrə ianələr ayırır, kreditə pul verir. Konqres həm də ABŞ-ın adından borcları ödəyir, xarici ticarəti və ştatlar arasında ticarəti tənzimləyir. «Pul kisəsi hakimiyyəti» Konqresə imkan verir ki, ölkənin iqtisadiyyatına, daxili və xarici siyasətinə, hərbi siyasətinə təsir etsin. Konqres prezidentə bu və digər məqsədlər üçün ianələr ayırmasına təsir edir, hökumət müəssisələrinin və idarələrinin fəaliyyətini də Konqres yoxlayır. Konqres həm də büdcə ianələrinin xərclənmələrini də yoxlayır. Bu funksiyaları Konqresin xüsusi komitələri yerinə yetirir.

Konqres müharibə elan etmək, silahlı qüvvələri formalaşdırmaq və onların saxlanması üçün pul ayırmaq hüququna malikdir. Konqres həm də quru və dəniz qüvvələrinin idarə edilməsi



üçün hüquq vermək səlahiyyətinə malikdir. Bu səlahiyyətlərlə Konqres hərbi büdcənin formalaşdırılmasına və silahlı qüvvələrin orqanlarına təsir edir. Konqresin müharibə elan etmək hüququ onunla məhdudlaşır ki, prezident ordu və donanmanın ali baş komandanıdır. Buna görə silahlı qüvvələrdən istifadə edilməsi prezident hakimiyyətinə məxsusdur. ABŞ-ın bütün tarixi ərzində silahlı qüvvələrdən 200 dəfə istifadə olunub, yalnız 5 dəfə Konqres müharibə elan etmək hüququndan istifadə edib. 1812, 1846, 1888-ci illərdə və iki dünya müharibəsində. Bununla yanaşı Konqres 4 dəfə müharibə vəziyyətini tanıyıb.

Elə səlahiyyətlər var ki, hər iki palata bir yerdə icra edir, elələri də var ki, palatalardan biri icra edir. Konstitusiyaya görə dövlət gəlirləri haqqında bütün qanun layihələri Nümayəndələr Palatasından irəli sürülməlidir, Senat ancaq bu layihələrə düzəlişlər təklif edə bilər və layihələrin müzakirəsində iştirak edə bilər. Bu hüquq Nümayəndələr Palatasına maliyyə məsələlərinə baxarkən müəyyən üstünlüklər verir. Nümayəndələr Palatasının hüququ var ki, seçkilər vaxtı prezidentliyə namizədlərdən heç biri seçicilərin səsinin yarısı ilə seçilməyibsə, ABŞ-ın prezidentini seçsin. (ABŞ tarixində Nümayəndələr Palatası bu hüququndan 2 dəfə istifadə edib: 1801 və 1825-ci illərdə ).

ABŞ-ın müqavilələr formasında beynəlxalq öhdəliklər götürməsində və dövlət aparatında yüksək vəzifələrə təyinatda iştirak etmək Senatın mühüm səlahiyyətlərindəndir. Prezident beynəlxalq müqavilələri Senatda iştirak edən senatorların 1/2-nin təsdiqi olandan sonra imzalaya bilər. Bu «Senatın məsləhəti və razılığı» formasında olur. Senat müqaviləni tam olaraq qəbul da edə bilər, etməyə də bilər, onu düzəlişlərlə və əlavələrlə qəbul da edə bilər.

Beynəlxalq razılaşmaların «icraedici razılaşma» adlanan forması da var. O, prezident və ya icraedici hakimiyyətin başqa orqanları tərəfindən xarici hökumətlərin nümayəndələri ilə bağlanır və Senatın səlahiyyətinə daxil deyil. Bu razılaşma Konqresə informasiya formasında təqdim edilir, ya da onun bağlanmasından sonra hər 2 palatanın səs çoxluğu ilə qəbul edilir.

1961-ci ildə ABŞ-da yeni qanun qəbul edildi. Bu qanuna görə ABŞ adından öhdəliklər, silahlı qüvvələrin və silahların ixtisarına, tərkisilaha, məhdudlaşdırmaya aid müqavilələr Senatın

üzvlərinin 2/3 - sinin səsi olmadan, razılaşmalar isə hər 2 palatanın sadə səs çoxluğu olmadan qəbul edilə bilməz.

Hökumətin rəsmi şəxslərinin təyinatına Senat nəzarət edir. Senat bu təyinatları təsdiq edir: 1) Hökumətin idarə rəhbəri; 2) Diplomatik nümayəndələr; 3) Ali məhkəmənin üzvləri; 4) Federal məhkəmənin üzvləri; 5) Silahlı qüvvələrin və sərhəd xidmətinin ali rütbəli şəxslərinin irəli çəkilmələri və yerdəyişmələri.

Senat nadir hallarda prezidentin yüksək hökumət vəzifələrinə təyinatı ilə mübahisə edir. Ancaq Ali məhkəmənin üzvlüyünə namizədlərin təsdiq olunmaması tez-tez olur. Ağ evin aparatında olan vəzifələrə təyinatlar Senat tərəfindən təsdiq edilmir. Əgər vitse-prezident seçkilər vaxtı seçilmirsə, Senat onu seçir.

Konstitusiyaya görə Konqress vəzifəli şəxsləri, o cümlədən prezident və vitse-prezidenti, əgər onlar satqınlıqda günahkar biliniblərsə, rüşvət almaq vəs. əməllər ediblərsə, onları impiçment qaydasına vəzifələrindən kənar edə bilər. Bu məsələdə palataların səlahiyyətləri bölünür. Təkcə Nümayəndələr Palatası impiçment qaydasında istintaq qrupu yarada bilər. Senat isə bu halda məhkəmə rolunu həyata keçirə bilər. Əgər məsuliyyətə cəlb edilən şəxs təqsirli bilinirsə, Senat onun haqqında yeganə cəza tədbiri – vəzifədən kənaretməni tətbiq edir. Prezidentə qarşı indiyənə qədər 5 dəfə impiçment prosedurası qaldırılıb. Senat 3 dəfə bunu qəbul etməyib, 1868-ci ildə E.Conson bəraət alıb, 1974-cü ildə isə R.Nikson özü könüllü istefa verib.

Konqres ABŞ vətəndaşlığının verilməsi, iflas olma, patent və müəlliflik hüququ haqqında qanunlar qəbul edə bilər. Federal məhkəmələr və poçt xidmətləri təsis edə bilər. Konqres pul emissiyası və müəyyən edilən qaydada onun saxtalaşdırılması üstündə cəzalandırma tətbiq edə bilər.

### B) Məhkəmə hakimiyyəti

ABŞ məhkəmə quruluşunun xarakterik cəhəti odur ki, ABŞ-da vahid, ümummilli məhkəmə sistemi yoxdur, hər ştatda paralel məhkəmə sistemləri və federal sistem var.

Konstitusiyanın 3-cü maddəsinə əsasən ABŞ-ın məhkəmə hakimiyyəti ABŞ-ın Ali Məhkəməsində və Konqres tərəfindən yaradılan və Ali Məhkəmədən aşağı hesab edilən federal məhkəmədə



əks olunur. Konstitusiyaya 10-cu əlavəyə görə hər bir ştat öz məhkəmə orqanını yaratmaq hüququna malikdir. Ölkənin bütün ərazisində fəaliyyət göstərən federal məhkəməyə ABŞ Konstitusiyası və federal qanunlarla onlara həvalə edilən işlər aiddir. Hər ştatın məhkəməsinə isə həmin ştatın konstitusiyası və qanunvericiliyi ilə onlara həvalə edilən işlər aiddir. Ştatların məhkəmələri federal məhkəmələrlə təşkilat kimi bağlı deyil. Nə ABŞ-ın Məhkəməsi, nə də başqa federal məhkəmə orqanları ştatların məhkəmələri üzərində administrativ nəzarət hüququna malik deyil.

### FEDERAL SƏVİYYƏDƏ MƏHKƏMƏ QURUCULUĞU

Federal məhkəmə sistemini – ABŞ-ın Ali Məhkəməsi başda olmaqla, 4 qrup məhkəmələri formalaşdırır – dairə, xüsusi, münaqişə və xüsusi münaqişə.

ABŞ-ın dairə məhkəmələri ümumi yuridiksiyalı federal məhkəmələr hesab olunur. Onlar 1-ci instansiyada federal qanunvericilikdə nəzərdə tutulan bütün məsələlərə baxır, o işlərdən savayı ki, onlar xüsusi federal məhkəmələrin səlahiyyətinə daxildir. ABŞ-ın hər bir dairə məhkəməsi federal məhkəmə dairələri çərçivəsində fəaliyyət göstərir. Bu məhkəmələrin bərabər proporsiya ilə təmin edilməsi ölkənin ərazisi və ştatların əhalisi nəzərə alınmaqla dairələrə bölünür. Çox əhali yaşayan ştatlarda 2-dən 4-ə qədər dairə ola bilər, az əhali yaşayan ştatlarda isə 1 dairə olur. ABŞ-da 1987-ci ildə 94 belə dairə vardı. ABŞ-ın dairə məhkəmələrinə Puerto-Riko, Quam adaları, Virginiya və Marian adalarında yaradılmış ərazi məhkəmələri də bərabər tutulur. Bu məhkəmələrə təkcə federal əhəmiyyət kəsb edən işlər yox, həm də yerli normativ aktlar əsasında yaranmış işlər də daxildir.

Xüsusi məhkəmələrə bunlar aiddir:

1) ABŞ-ın şikayət məhkəmələri;
2) Xarici ticarət işləri üzrə ABŞ məhkəməsi;
3) ABŞ-ın vergi məhkəməsi.

Xüsusi münaqişə məhkəmələrə aiddir:

1) ABŞ-ın federal dairə üzrə münaqişə məhkəməsi.Burada şikayət məhkəmələrinin qərarlarından, xarici ticarət işləri üzrə

məhkəmələrin qərarlarından və bir neçə federal administrativ idarələrin qərarlarından şikayətlərə baxır.

2) Müvəqqəti fövqəladə münaqişə məhkəməsi ABŞ dairə məhkəmələrinin iqtisadiyyatın sabitləşməsi üçün tətbiq edilən hüquqi aktlarla bağlı işlər haqqında çıxardığı qərarlardan şikayətlərə baxır. Hər iki məhkəmənin qərarından Ali məhkəməyə şikayət etmək olar.

ABŞ-ın münaqişə məhkəməsinə ABŞ dairə məhkəmələrinin, ABŞ vergi məhkəməsinin, federal administrativ idarələrin çıxardığı qərarlardan şikayətlər edilir. ABŞ-ın hər bir münaqişə məhkəməsi dairə çərçivəsində fəaliyyət göstərir. Bu dairələr ştatların əhalisinin sayı ilə regional əsasda yaradılır. ABŞ-da 12 belə dairə var.

Federal məhkəmə sisteminə ABŞ-ın Ali Məhkəməsi başçılıq edir. O, federal məhkəmə ierarxiyasında ali orqandır, axırıncı münaqişə instansiyasıdır. 1-ci instansiya məhkəməsi kimi o aşağıdakı işlərə baxır: - Xarici dövlətlərin səfirləri və başqa rəsmi nümayəndələrin işləri və münaqişələri, hansında ki, qarşı tərəf kimi ştat çıxış edir, Ali məhkəmənin tərkibi, strukturu və iş qaydası ABŞ konstitusiyasında müəyyən edilməyib.

Konstitusiyada bir istisna odur ki, «baş hakim» termini var. Baş hakim Ali Məhkəmənin sədri sayılır və prezidentdən sonra hüququ var ki, Senatın məsləhəti və razılığı ilə Ali Məhkəmənin hakimlərini təyin etsin. Ali Məhkəmənin tərkibi 1969-cu ildə Konqres tərəfindən 9 nəfər müəyyənləşdirilib. Digər federal məhkəmənin say tərkibi Konqres tərəfindən həmin məhkəmənin gördüyü işdən, aidiyyat xarakterindən, həmin ərazinin əhalisi və s. asılı olaraq müəyyən edilir. Federal məhkəmələrin üzvləri Senatın məsləhəti və razılığı ilə prezident tərəfindən təyin edilir. Federal hakimin öz vəzifəsindən salınması impiçment qaydasında ola bilər.

Federal məhkəmələrə ştat məhkəmələrinə baxanda çox qısa dairə işlər aiddir. Cinayət hüququn sferasında onlara ABŞ-a qarşı edilən bütün cinayətlər aiddir. Bu kateqoriyaya bir çox ağır cinayətlər aid olsa da, onların çəkisi cinayət işlərində çox deyil.

Bütün cinayət işlərinin 99%-nə ölkədə ştat məhkəmələri baxır. Mülki hüquq sferasında federal məhkəmələr bu işləri həyata keçirir: gəmiçilikdə, iflasla bağlı işlərdə, ABŞ hökumətinə qarşı şikayət, müəlliflik və patent hüququ ilə mübahisələrdə və s.



Mülki işlərin çoxunda, hansında ki, tərəf kimi ayrı-ayrı ştatların vətəndaşları çıxış edir, federal məhkəmələrin yurisdiksiyası ilə ştat məhkəmələrinin yuristdiksiyası üst-üstə düşmək xarakteri daşıyır, yəni tərəflərin seçməsinə görə şikayətə ştatın dairə məhkəməsi də, federal məhkəmə də baxa bilər. Qanuna görə tələb olunan məbləğ 10.000 dollardan çox olarsa, bu işlərə federal məhkəmə, az olanda ştat məhkəməsi baxır. Məbləğ 10.000 dollardan çox olanda tərəflərin razılığı ilə işə ştat məhkəməsi də baxa bilər.

ABŞ-da məhkəmə həm də konstitusion nəzarəti həyata keçirir. O, icra və qanunverici orqanların aktlarının konstitusiyaya uyğun olmasına nəzarət edir.

ABŞ-da hərbi məhkəmələrin muxtar sistemi mövcuddur. Onlar hərbi cinayətlərə, hərbi qulluqçuların həqiqi hərbi xidmət keçdiyi dövrdə etdiyi digər cinayətlərə, hərbi qulluqçuların xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı edilən cinayətlərə baxır. Birinci instansiya kimi hərbi qulluqçuların işinə aşağıdakı məhkəmələr baxır: 1) Nizam-intizam hərbi məhkəməsi; 2) Xüsusi hərbi məhkəmələr; 3) Ümumi hərbi məhkəmələr. Bu məhkəmələrdə hərbi nəzarət məhkəmələrinə şikayət etmək olar, hərbi qulluqçuların işləri üzrə axırıncı şikayət instansiyası hərbi-şikayət məhkəmələri hesab olunur. Hərbi qulluqçuların konstitusiya hüquqları pozulanda bu işlərə ABŞ Ali Məhkəməsi baxır.

## ŞTATLARDA MƏHKƏMƏ QURUCULUĞU

Hər bir ştat öz sərhədi daxilində məhkəmə orqanı yarada bilər. Ştatlarda məhkəmə quruculuğu müxtəlifdir. Ancaq tipik 4 məhkəmə quruculuğu var. Ştatlarda 3 qrup məhkəmələr var: 1) məhdudlaşdırılmış və xüsusi yurisdiksiyalı; 2) ümumi yurisdiksiyalı; 3) şikayət yurisdiksiyalı. Birinci iki qrup 1-ci instansiyalı yerli məhkəmələrdir.

Ştatların məhkəmə sistemini aşağı bölməsi məhdudlaşdırılmış və xüsusi yurisdiksiyalı yerli məhkəmələrdir. Bu məhkəmələr müxtəlifdir: - «dünyəvi», «polis», «bələdiyyə» və s. Bu məhkəmələrin ümumiliyi odur ki, onlar az məbləğli və az əhəmiyytli mülki cinayətlərə baxırlar. Bu məhkəmələrdə protokol yazılmır. Bu məhkəmələrdə ümumi yurisdiksiyalı məhkəmələrə şikayət edirlər.

Xüsusi yurisdiksiyalı məhkəmələrin hər birinin səlahiyyətinə konkret koteqoriyalı işlər daxildir. Məsələn, yetkinlik yaşına çatmayanların işləri üzrə, ailə münasibətləri işi üzrə müqavilələr işi üzrə, hərəkətin təhlükəsizliyinin pozulması işi üzrə və s. məhkəmələr mövcuddur.

Ümumi yurisdiksiyalı yerli məhkəmələr işlərə aidiyyatı üzrə baxır. Bu məhkəmələr 1-ci qrup məhkəmələr ilə müqayisədə daha ağır mülki və cinayət işlərinə baxır və bu məhkəmələrdən şikayətlərə də baxır.

Bu məhkəmələrdən şikayətə ştatın Ali Məhkəməsi və ya varsa Şikayət məhkəməsi baxır. Bu məhkəmələr ancaq şikayət yurisdiksiyalıdır. O ştatlarda ki, bu məhkəmələr var, onlardan şikayətlərə ştatın Ali Məhkəməsi baxır, o ştatlarda ki, bu məhkəmələr yoxdur, orada ümumi yurisdiksiyalı məhkəmələrdən şikayətlərə ştatın Ali Məhkəməsi baxır. Əgər ştatın Ali məhkəmələrinin baxdığı işdə ABŞ Konstitusiyasına toxunan məsələlər olanda onda onların qərarından federal məhkəmələrə şikayət edilir. Mülki hüquq münasibətlərində ayrı-ayrı ştatların məhkəmələri həmin ştatın qanunlarına əsaslanan şikayət ərizələrinə baxır.

Ölkədə edilən cinayətlərin böyük əksəriyyəti ştatların cinayət qanunları ilə tənzimlənir. Ona görə cinayət işlərinin baxılması zamanı əsas güc yerli ştatların məhkəmələri üzərinə düşür.

Ştatların çoxunda hakimin vəzifəsi seçkilidir, hakimlər əhali tərəfindən partiya siyahısı üzrə seçilir.

## ABŞ-da SEÇKİ SİSTEMİ

ABŞ-da aşağıdakılar seçki yolu ilə seçilir: ABŞ-ın prezidenti və vetse-prezidenti, ölkənin Konqresinin hər iki palatası, ştatlarda hakimiyyət orqanrları, o cümlədən qubernatorlar və vitse-qubernatorlar, qanunverici iclasın üzvləri, qraflıq sovetləri, bələdiyyə sovetləri, xüsusi dairələrin sovetləri, yerli səviyyədə ştat orqanlarının vəzifəli şəxsləri və s.

ABŞ-da seçkinin mojoritar sistemi mövcuddur. Bu sistemə görə namizədin seçilməsi üçün seçicilərin müəyyən çoxluğunun səsi lazımdır, yəni o namizəd seçilir ki, o, ayrılıqda götürüləndə öz rəqiblərindən çox səs alır, hətta bu səslər verilən səslərin 50%-ni təşkil etməsə də.



ABŞ-da seçkilərin hüquqi tənzimlənməsinə birbaşa və dolayı aidiyyatı olan əsas qanunverici aktlar 1957, 1960, 1964, 1968-ci illərdə verilmiş vətəndaş hüquqları haqqında qanunlar, 1965, 1970, 1975-ci illərdə verilmiş seçki hüquqları haqqınrda qanunlar, həm də ABŞ Konstitusiyasına edilmiş 12; 15; 17; 18; 23; 24 və 26 əlavələrdir ki, hansılarının ki, qəbul edilməsi ilə qara dərili vətəndaşların hüquqları genişləndirilmiş və onlara təminat verilmiş, savadlılıq senzi götürülmüş, federal seçkilərdə oturaq həyat senzi xeyli ixtisar edilmişdir, yaş senzi xeyli aşağı salınmışdır.

Seçki hüququna 18 yaşına çatan hər iki cinsdən olan ABŞ vətəndaşları malikdirlər, hansılar ki, konkret ştatın və ya konkret seçki dairəsinin ərazisində müəyyən vaxt müddətində yaşamışlar və seçici kimi qeydiyyata alınıblar.

Bütün səviyyələrdə seçkilərin keçirilməsi, federal səviyyə də daxil olmaqla, ştatların qanunları ilə nizama salınır, o şərtlə ki, korrupsiyaya qarşı mübarizə ilə bağlı və seçki məntəqələrində federal hakimiyyət orqanlarının nümayəndələrinin olmasına şərait yaradılması haqqında milli qanunverici aktları gözlənilsin.

## PREZİDENTLİYƏ VƏ KONQRESƏ SEÇKİLƏRİN KEÇİRİLMƏSİ

ABŞ Konqresi ölkədə prezident və vitse-prezident seçkiləri üçün bütün ştatlar üçün vahid olan bir gün müəyyən edib – 4 ildən bir noyabrın 1-ci bazar ertəsindən sonra 1-ci çərşənbə axşamı bütün ştatlar üçün seçki günüdür.

ABŞ prezidenti vəzifəsinə ABŞ vətəndaşı olan, bu ölkədə doğulan, ölkədə 14 ildən az olmayaraq yaşayan və seçki günündə 35 yaşa çatan şəxs seçilə bilər. Bu tələblər ABŞ vitse-prezidenti vəzifəsinə seçiləcək şəxslərə də şamil edilir. ABŞ Konstitusiyası prezident və vitse-prezident vəzifələrinə seçilən şəxslər üçün yüksək yaş senzi müəyyən etməyib.

ABŞ-da prezident seçkilərindən əvvəl konstitusiyada nəzərdə tutulmayan ilkin seçkilər 30-dan çox ştatda aparılır. Bu seçki prezidentliyə namizədlərin məşhurluğunu nümayiş etdirmək məqsədi daşıyır və prezident seçkiləri ilin adətən iyul-avqust aylarında çağrılan partiyaların milli qurultayında nümayəndələrin seçilməsini

nəzərdə tutur. Bir sıra ştatların qanunvericiliyinə görə tanınmış siyasi və ictimai xadimlərin arasından, həmçinin partiya fəallarından qurultaya seçilmiş nümayəndələrdən tələb olunur ki, onlar qurultayda ştatda prezidentliyə namizədlərdən ən çox məşhur olana səs versinlər. Bu 1-ci tur səsverməsində olur, bundan sonra onlara azadlıq verilir ki, öz partiyasından istənilən namizədi seçsinlər.

Bir sıra digər ştatların nümayəndələri isə həmin ştatın seçicilərinin çoxluğu tərəfindən lazım bilinən namizədə səs verməyə borcludurlar. Ayrı-ayrı ştatların qanunvericiliyi isə qurultayın nümayəndələrini məcbur etmir ki, partiyanın hansısa konkret namizədinə səs versinlər.

İlkin seçkilər imkan verir ki, qeyri-rəsmi yolla seçkilər əsasında məşhur olan namizədlər qrupunu müəyyən edəsən və həmin namizədlər ABŞ prezidentliyinə ən perspektivli namizədlər hesab olunur. Öz namizədini irəli sürmək hüququndan istənilən siyasi partiya nümayəndələri istifadə edir, hansılar ki, hər ştatın qanunlarının nəzərdə tutduğu ilkin seçkilərdə onlar öz namizədlərini verirlər, öz seçki siyahısı üzrə imzaların sayını verirlər və bu yolla namizədlik hüququnu qazanırlar.

İlkin seçkilərin keçirilməsi mərhələsi qurtarandan sonra partiyaların milli qurultayları çağrılır. Bu qurultayda rəsmi olaraq həmin partiyanın ABŞ prezidenti vəzifəsinə namizədi irəli sürülür və həmin namizəd tərəfindən vitse-prezident vəzifəsinə təklif edilən namizədi təsdiq edir. Əgər prezidentliyə namizədin vitse-prezidentliyə öz namizədi yoxdursa, onda bu namizədi qurultay irəli sürür. Partiyaların milli qurultaylarının qərarları açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Əgər ABŞ prezidenti vəzifəsinə namizədlərdən heç biri qurultay nümayəndələrinin çoxluğunun səsini qazanmırsa, səsvermə bir neçə turda aparılır və namizədlərdən birinin qələbəsi ilə qurtarana qədər davam edir.

Seçki günü ABŞ seçiciləri prezident və vitse-prezidentə yox, seçicilər kollegiyasının nümayəndələrinə səs verirlər. Seçicilər kollegiyası üzvlüyünə namizədlər hər 50 ştatdan və Kolumbiya dairəsindən siyasi partiyaların komitələrinin vahid siyahısı üzrə prezident seçkisinə bir gün qalmış irəli sürülür. Seçkilərdə iştirak edən hər bir partiyanın komitəsi öz ştatında o sayda seçici irəli sürə bilər ki, onlar həmin ştatdan ABŞ Konqresinə seçilmiş senatorların və Nümayəndələr Palatasının üzvlərinin sayına bərabər olsun.



Konstitusiyaya edilmiş 23 əlavəyə görə Konqresin heç bir palatasında öz nümayəndəsi olmayan Kolumbiya dairəsinin 3 seçici seçmək hüququ var. Ümumiyyətlə seçicilər kollegiyasının 538 üzvü var. Bu üzvlər ABŞ Konqresi üzvləri və dövlət qulluqçuları arasından seçilmir, hər ştatın qanunu və ənənəsinə görə prezident seçkisi günü həmin ştatın təxmini qeydə alınmış seçiciləri yaşayış yerinə uyğun olaraq bu və ya digər siyasi partiyanın seçicilər kollegiyası üzvlərinə səs verirlər.

Prezident seçkisindən bir gün sonra qaliblərin adı bilinir və onlar öz vəzifəsinə seçilmiş sayılır, həmən ilin dekabrın 2-ci çərşənbəsindən sonra 1-ci bazar ertəsi günü bir ay əvvəl seçilmiş seçicilər və ştatlarının paytaxtında və ya nəzərdə tutulan başqa xüsusi şəhərdə yığılırlar və öz səslərini şəxsən o prezidentliyə və vitse-prezidentliyə namizədə verirlər ki. onlar həmin ştatda sıravi seçicilərin müəyyən çoxluq hissəsinin səsini toplayıb. Seçicilər kollegiyası heç vaxt bir yerə tam tərkibdə toplaşmır, onun üzvləri onların yerləşməsinə görə 51 kollegiyaya səs verirlər.

ABŞ prezidenti və vitse-prezidentini rəsmi seçilmiş sayılması üçün seçicilərin çoxluğunun səsi lazımdır. Əks halda konstitusiyaya edilmiş 12-ci əlavə qüvvəyə minir. Bu əlavəyə görə məsələyə Nümayəndələr Palatası baxır. Onlar namizədi daha çox səs toplamış 3 namizəd arasından seçirlər. Bu halda bu palata üzvlərinin sadə səs çoxluğunu toplayan şəxs prezident seçilir. Bu halda hər bir ştat ancaq bir səsə malik olur. Ona görə namizədin qələbəsi üçün 50 səsdən 26-sı kifayətdir. Prezident seçkisi məsələsi həll ediləndən sonra Nümayəndələr Palatası eyni qaydada vitse-prezidenti də seçirlər. Seçicilər kollegiyasının səsverməsinin nəticələri seçkilərdən sonrakı ilin yanvarın əvvəlində ABŞ Konqresinin hər iki palatasının birgə iclasında yekunlaşdırılır, elan edilir, sonra təsdiq edilir və prezident ilə vitse-prezident rəsmi seçilmiş sayılır.

Prezidentin bu vəzifədə olması müddətinin hesablanması seçkilərdən sonrakı ilin yanvarın 20-dən başlayır. Konstitusiyaya edilmiş 22-ci əlavəyə görə prezident iki dəfədən artıq seçilə bilməz. Əgər yeni prezident özündən əvvəlki prezidentin ölməsi və ya istefasına görə vəzifəsinə həmin prezidentin müddəti qurtarmamış başlayırsa, əgər o iki ili keçibsə, onda keçən müddət bütöv 4 illik sayılır,. Bu halda yeni prezident yenidən ancaq bir dəfə seçilə bilər.

ABŞ Konqresinin hər iki palatasına, ştatın qanunverici iclasına seçkilər ştatda və yerli səviyyədə birbaşa keçirilir, Konqresə seçkilər də prezident seçkisi günündə keçirilir, ancaq periodik olaraq 2 illiyə. Bu seçkilər prezident seçkisi ilə üst-üstə düşərsə, ABŞ senatorlarına siyasi partiyalardan namizədlərin və Nümayəndələr Palatası üzvlüyünə namizədlərin familiyası həmin partiyanın prezident və vitse-prezidentliyə namizədinin familiyası ilə bir vahid siyahıda verilir, düşmürsə aralıq xarakter daşıyır.

ABŞ senatoru 30 yaşı olan, 9 il ABŞ vətəndaşı olan, seçilən vaxt o ştatın sakini olan şəxslər seçilə bilər, hər ştatdan 2 senator seçilir, 6 illiyə seçilir, hər iki ildən bir senatorların 1/3 hissəsi təzələnir.

Nümayəndələr Palatasına ABŞ vətəndaşı olan, 25 yaşı olan, 7 illik ABŞ vətəndaşlığı olan, seçildiyi ştatın sakini olan şəxslər seçilirlər, hər ştatın 30 min sakininə 1 nümayəndədən çox düşmür. Əhali artır və hər ştatda bu proporsiya dəyişir. 1980-ci ildən sonra Nümayəndələr Palatasına seçki hüququ seçki dairələrində 500 min əhali yaşayırsa, verilir.

ABŞ Konqresinin səlahiyyət müddəti seçkilərdən sonrakı ilin yanvarın 3-də yeni tərkibin sesiyasının başlaması ilə hesablanır.

## ABŞ-IN SİYASİ PARTİYALARI

ABŞ-ın siyasi quruculuğunun mühüm özünə məxsusluğu odur ki, ABŞ-da ikipartiyalı sistem formalaşıb. 1787-ci il Konstitusiyasında siyasi partiyalar haqqında heç nə deyilmirdi. Lakin ayrı-ayrı sosial qrupların sosial, iqtisadi, siyasi maraqları nəticəsində XIX əsrdə ABŞ-da demokratlar və respublikaçılar partiyası yarandı. XIX əsrin 20-ci illərinin sonralarına yaxın Demokratlar Partiyası yarandı. XIX əsrin 30-50-ci illərində onun rəqibi Viqlər Partiyası idi. Bu partiya sonradan siyasi arenadan getdi. 1954-cü ildə Respublikaçılar Partiyasının əsası qoyuldu. O vaxtdan bu günə qədər ABŞ-da ikipartiyalı siyasi sistemin müasir modeli mövcuddur. Bu sistemin hökmranlığı idarə edən sinifin köməyi ilə, seçki sisteminin özünəməxsusluğu ilə, dövlət quruculuğunun özünəməxsusluğu ilə, seçkinin maliyyələşdirilməsi qaydası ilə, ənənələrin gücü ilə təmin edilir.



ABŞ-ın Demokratlar Partiyası ( DP ) fermerlərin, şəhərin aşağı hissələrin və Cənubun plantatorlarının ideya-siyasi platformasına əsaslanan koalisiya əsasında XVIII əsrin axırlarında Şimal-şərqin ticarət-sənaye burjuaziyası ilə mübarizədə yaranıb.

1828-ci ildə seçki kampaniyası vaxtı təşkilat kimi qanuniləşib, XIX əsrin 30-cu illərin əvvəllərində indiki adını alıb.

Müasir seçki bazasının və demokratların siyasətinin əsasları «yeni kurs» illərində qoyulub, nə vaxt ki, prezident F.Ruvveltin dövlət-monopolist metodlarının qaydaya salmada fəallığı və islahatçı siyasəti nəticəsində bu partiya fəhlələrin, gənclərin, digər etnik azlıqların, burjuaziyanın liberal qanadının və ziyalıların təşkilatlanmış dəstəyini qazandı. Nəticədə bu partiya uzun müddətdir ki, ən təsir edici və kütləvi burjua partiyası kimi qalır. Bu partiya iqtisadiyyatın sosial manevrləşməsinə və dövləti idarəetməsinə qadir bir partiyadır. 1933-cü ildən 1980-cı ilə qədər onlar 32 il Ağ evdə olmuşlar. 44 il Konqresin hər iki palatasına nəzarət etmiş, ştat səviyyəsində və yerli hakimiyyət orqanlarında möhkəm mövqe tutmuşlar.

XX əsrin 60-cı illərinin 2-ci yarısında bu partiya ağır böhran dövrünə qədəm qoydu. Bu əsasən o dövrün sosial sarsıntıları və ABŞ-ın Vyetnama qarşı təcavüzü ilə bağlı idi, nə vaxt ki, bütün ölkəni kütləvi etiraz aksiyaları bürümüşdü, demokratların apardığı sosial-iqtisadi idarəetmənin effektsiz olması artırdı. İqtisadi artımın tempi azalır, ABŞ-ın beynəlxalq mövqeləri zəifləyir, zəhmətkeşlərin həyat səviyyəsi aşağı düşür, nəticədə demokratlar öz siyasətini aparmaqda çətinlik çəkirdilər, güzəştlərə gedirdilər, lakin bu halda monopoliyanın maraqlarına toxunulmurdu. C.Karter administrasiyasının iqtisadi problemləri düzəltməyə qadir olmaması bu partiyanın nüfuzunun xeyli aşağı saldı. Partiyanın seçki bazasına son illərin sosial-struktur və demoqrafik yerdəyişmələri də təsir edir. Onların sırasına əhalinin sənaye mərkəzləri Şimal-Şərq və Mərkəzi-Qərbdən ölkənin cənub və qərb rayonlarına miqrasiyası, məşğul olanlar arasında həmkarların üzvlərinin çəkisinin düşməsi və s. daxildir.

1980-cı il seçkilərində DP ağır məğlub oldu, Ağ evi itirdi, 26 il ərzində ilk dəfə Senatın çoxluğu əldən verdi. 1984-cü il seçkiləri göstərdi ki, DP-nın sosial bazası daha da daralır. DP-dan orta və xırda burjua dairələrinin uzaqlaşması və aztəminatlı seçicilər arasında DP-ya əks mövqeyin yaranması bu məğlubiyyətin əsas səbəbləri idi.

1986-cı il seçkilərinə görə DP Senatda 55, Nümayəndələr Palatasında 258 yerə, 27 qubernator vəzifəsinə və 27 ştatda qanunverici iclasa nəzarət etmiş oldu. 1984-cü il prezident seçkilərindən sonra DP ideya-siyasi cəhətdən yeniləşmə yolu tutur. DP-da sağ-mərkəzçilik mövqe güclənir. 80-ci illərin ortalarında demokratların arasında yeni uzunmüddətli proqram axtarışları başlayır. Bu proqramda ABŞ-ın iqtisadiyyatının müasir dövrün tələblərinə uyğunlaşdırılması və sosial idarəetmənin müəyyən səviyyədə saxlanılması əks olunmalı idi. DP seçicilərin çox müxtəlif qruplarının koalisiyasına əsaslanır. DP – nı ölkənin Şimal-Şərq və Cənubunun ənənəvi qrupları dəstəkləyir. DP-nın həmkarlar ittifaqları rəhbərləri, elmi sahə və liberal ziyalılar ilə də əlaqələri genişdir.

Konqresdə DP əsasən şimalın sənaye rayonları ilə bağlı olan mötədil liberal qüvvələr və Cənub ştatlarını təmsil edən mühafizəkarlar tərəfindən təmsil edilmişdir. DP-da formal üzv olma yoxdur. 1986-cı ildə keçirilən rəy sorğusuna görə seçicilərin 38% özlərini demokrat hesab ediblər.

RP-ya (Respublikaçılar partiyasına) ultra mühafizəkar dairələrin təsiri çoxalır. Bu vaxt RP-nın sağ cinahı partiyada liderliyi ələ alır. Sağların siyasi platformasında nəzərdə tutulurdu ki, dövlət-monopolçu idarəetmə sistemində geniş yenidənqurma aparılsın, o məqsədlə ki, kapital yığımına əlverişli şərait yaradılsın. Sosial proqramların radikal ixtisar edilməsi nəzərdə tutulurdu. Xarici siyasətdə «güclü Amerikanın yaradılması» proqramı irəli sürüldü. XX əsrin 80-ci illərindən RP-sı çox mühafizəkar daxili siyasət kursu yeridirdi. Xarici siyasətdə RP-sı silahlanma sahəsində yarışı davam etdirərək, onun kosmosa keçirilməsi istiqamətində addımlar atdı. 1986-cı il ara seçkilərindən sonra RP Senatda 45, Nümayəndələr Palatasında 177 yer, 24 qubernator vəzifəsi və 9 ştatda qanunverici iclasa nəzarət hüququ aldı.

RP daxili üzvlərə malik deyil, 1986-cı il rəy sorğusuna görə onları seçicilərin 23% dəstəkləyirdi. RP təşkilatı struktura görə ştat, dairə, şəhər partiya təşkilatlarından ibarətdir, onlar yüksək muxtariyyət dərəcəsinə malikdir. Onların əsas vəzifəsi RP-sı namizədinin seçicilərin dəstəyi ilə təmin edilməsidir.

RP-nın ali orqanı prezident seçkiləri qabağı çağrılan milli qurultaydır. Qurultay seçkiqabağı platformanı təsdiq edir, prezidentliyə və vitse-prezidentliyə namizədi irəli sürür. RP-nın



rəhbər orqanı isə cari məsələlər ilə məşğul olur. Bu Milli Komitə adlanır. 1983-cü ildə prezidentin partiya apparatı üzərində nəzarətinin güclənməsi üçün Milli Komitənin baş sədri vəzifəsi təsis edildi. RP-sı DP-dan əvvəl olaraq seçki mübarizəsinin yeni metodunu tətbiq etməyə başladı və inda də geniş istifadə edir. Söhbət seçki kompaniyasının gedişində kompyuter texnikasının geniş tətbiqindən gedir. RP-nın emblemində fil şəkili əks olunur.

ABŞ-da iki partiyalı sistemin siyasi monopoliyasına baxmayaraq bir sıra müstəqil partiyalar da var. Onların ən irisi çox vaxt «3-cü partiya» adlanır, ABŞ-ın tarixi 10-dan çox siyasi partiya tanıyır. Onlardan populistlər, sosialist, proqressist partiyaları və s. göstərmək olar.

İndi fəaliyyət göstərən partiyalardanLibertarist partiyasını və Vətəndaşların sol-populist partiyasını misal göstərmək olar. Qərb ştatları tərəfindən dəstəklənən Libertarist partiyası dövlətin sosial-iqtisadi sferaya müdaxiləsinin tamamilə götürülməsi və ABŞ-ın beynəlxalq öhdəliklərindən imtina proqramı təklif edir. B.Kommonerin başçılıq etdiyi Vətəndaşların sol-populist partiyası ətraf mühitin qorunmasının gücləndirilməsi, iqtisadiyyatın idarə edilməsinin demokratikləşdirilməsi, hərbi müdaxilə və silah yarışından imtina proqramını təklif edir.

ABŞ-da 1919-cu ilin sentyabrın 1-də Çikaqoda yaranmış Amerikanın Kommunist Partiyası və Amerikanın Kommunist Fəhlə Partiyası 1921-ci ilin mayında Amerika Kommunist Partiyası adı altında birləşdilər və 1930-cu ildən bu adla çıxış edir.

## İCTİMAİ - SİYASİ HƏRƏKATLAR

Xirosima və Naqasaki hadisələrindən sonra öz kəşflərinin nəticələrindən narahat olan bir qrup alim 1945-ci ildə Amerika alimlərinin federasiyasını yaradırlar. İndiki dövrdə bu təşkilatda 50-dən çox Nobel mükafatçısı var. XX əsrin 50-ci illərin sonlarında Amerikada silahlanmanın güclənməsindən sonra bir sıra liberal ictimai xadimlər 1957-ci ildə «Ağıllı dünya uğrunda vətəndaşların təşkilatı» adlı qrum yaradırlar.

1981-ci ildə Vaşinqtonun bir qrup tanınmış evdar qadınının nüvə əleyhinə müraciətindən sonra onlara 25 ştatdan 100 min qadın səs verdi və onlar hərb əleyhinə olan ən fəal qadın təşkilatı «Qadınlar

dünya uğrunda mübarizə aparın» təşkilatını yaradırlar. ( 1981-ci il ). Hərb əleyhinə hərəkat Vyetnam müharibəsi zamanı kütləvi xarakter aldı. 1969-cu il oktyabrın 15-də 2 milyon əhali müharibə əleyhinə özlərinin gündəlik vəzifələrin icra etməkdən imtina edir.

XX əsr 70-ci illərin ikinci yarısında yeni təşkilatlar və koalisiyalar yaranır, onlar öz fəaliyyətini 80-ci illərdə də davam etdirirlər. Buna misal olaraq «Yeni xarici və hərbi siyasət uğrunda koalisiya» ( 1976-cı il ), «Həyatın saxlanması uğrunda səfərbərlik» ( 1977-ci il ), «İş və dünya», «ABŞ dünyası soveti» ( 1979-cu il ) və s. göstərmək olar.

80-ci illərin birinci yarısında 50 ştatın hamısında nüvə silahının dondurulması uğrunda çıxış edən təşkilatlar yaranır. Onlar 1981-ci ildə «Nüvə silahının dondurulması uğrunda kampaniya»da birləşdilər. 1987-ci ildə bu təşkilat ilə «Ağıllı dünya uğrunda vətəndaşların təşkilatı» adlı qurum birləşdi.

Müşaribə əleyhinə hərəkatın ənənəvi üzvlərinə sonradan həkimlər, müəllimlər, ruhanilər, biznesmenlər də qoşulur. Biznes-menlər bu hərəkata pul buraxırlar. Bu hərəkatda əsas yer siyasi elita nümayəndələri olan konqresmenlərə, senatorlara məxsusdur. Bu hərəkatın sıralarında passifist təşkilatlar da fəaliyyət göstərir. Son illər passifizmin yeni istiqaməti olan «nüvə passifizmi» yaranmışdır. Onun tərəfdarları güc tətbiq edilməsinin əleyhinə deyil, hər hansı şəkildə nüvə silahından istifadənin əleyhinədirlər.

İndi Amerika zəhmətkeşlərinin istifadə etdikləri demok-ratik hüquq və azadlıqlar gərgin mübarizə nəticəsində qazınılıb. «Vətəndaş hüquq və azadlıqlarının müdafiəsi» hərəkatının tarixi qədimdir. ABŞ-ın Konstitusiyasına edilmiş ilk 10 düzəlişdə ( «Hüquqlar haqqında bill» ) əks olunan hüquq və azadlıqlar ancaq ağ kişilərə - mülkiyyət sahiblərinə aid edilmişdi. Vətəndaş müharibəsindən sonra konstitusiyaya edilmiş 13; 14; 15-ci düzəlişlərə görə zəncilər də vətəndaş hüquqları ilə təmin edilmişdi. Lakin bu 100 il kağız üzərində qalmışdı.

On illərlə mübarizə lazım gəldi ki, hindulara seçki hüququ verilsin. Yalnız 1924-cü ildə Konqresin qərarı ilə ABŞ vətən-daşlarının hüquqları hindulara şamil edildi. Ancaq ştatların konstitusiyasında müvafiq dəyişikliklər İkinci dünya müharibəsindən sonra edildi.



XX əsrin 50-ci illərin ortalarında qara amerikanların vətəndaş hüquqları uğrunda hərəkatı başlayır. Hərəkatın məqsədi qara dərililərin ağlarla eyni hüquqi azadlıqlara malik olmasının qarşısını alan seqreqasiya və diskriminasiyanın ləğvi idi. Hərəkatın başında qara dərili M.L.Kinq, Y.Yanq, R.Uilkins, A.F.Rendolf dururdu. Bu hərəkatın nəticəsində 1964-cü ildə «Vətəndaş hüquqları haqqında qanunu», 1965-ci ildə «Seçki hüququ və bir sıra məhkəmə qərarları qanunu» qəbul edilir. Bu qanunlarla Amerikanın bütün vətəndaşlarının bərabərhüquqlu olması təmin edildi. 80-ci illərdə Ağ evim dəstəyi ilə 1964 və 1965-ci illərdə verilmiş qanunlar əleyhinə Konqresdə hücum başlandı. Lakin buna baxmayaraq ictimai rəyin təsiri ilə 1983-cü ildə Konqresdə 1985-ci ildə müddəti qurtaran seçki hüquqları haqqında qanunun vaxtı uzadıldı. 1988-ci ildə vətəndaş hüquqlarının bərpa edilməsi haqqında qanun verildi. Vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi uğrunda mübarizə formaları müxtəlifdir. Bu ABŞ Konqresinə, ştatların qanunverici iclasına kütləvi təzyiq kampaniyası, lobbizm, diskriminasiya qurbanlarının məhkəmə müdafiəsi, BMT-yə petisiya formasında müraciət formasında və s. olur. Biz aşağıdakı təşkilatları göstərə bilərik ki, bu yolda mübarizə aparırlar: «Vətəndaş hüquqları üzrə rəhbərlik soveti» (1950), «Repressiv qanunvericilik əleyhinə milli komitə» (1980), «Siyasi hüquqların müdafiəsi fondu» (1973), «Konstitusiya hüquqlarının müdafiəsi mərkəzi» (1988), «Müstəqil oxumaq uğrunda fond» (1989 ) və s. təşkilatları göstərmək olar.

1923-1933-cü illər iqtisadi böhranı vaxtı ABŞ Kommunist Paritiyasının təşəbbüsü ilə «İşsizlər hərəkatı» yaranmışdır. 1933-cü ilin payızında ABŞ-da işsizlərin sayı rekord miqdara 17 milyona çatırdı. İşsizlərin 1-ci mitinqi 1929-cu ilin noyabrında Detroyt, Klivlend, Nyu-York və s. şəhərlərdə olur. 1930-cu ilin martın 6 – da işsizlərin 1-ci ümummilli nümayişi oldu. Bir milyon adam iştirak etdi. 1930-cu ilin yayında işsizlər «İşsizlərin milli konqresi» yaradıldı. 30-cu illərin işsizlər hərəkatı nəticəsində F. Ruzvelt sosial xarakterli qərarlar verməyə məcbur oldu.

80-ci illərin iqtisadi böhranı vaxtı yenə də işsizlər hərəkatı fəallaşdı. 1981-ci ilin martında Buffalo şəhərində işsizlərin milli birləşmiş komitəsi yarandı. 1981-ci il oktyabrın 18 - də Vaşinqtonda həmrəylik günü münasibəti ilə ən böyük nümayiş oldu. 1983-cü il iyulun 2-3 - də Çikaqoda işsizlərin milli qurultayı oldu. Qurultayda

115 müxtəlif ictimai təşkilatı, 22 ştatdan və 81 iri şəhərdən 32 həmkarlar ittifaqını təmsil edən 500 nümayəndə iştirak edirdi. Qurultay qərar verdi ki, sosial ədalət və əmək hüququ uğrunda mübarizə aparmaq üçün işsizlərin ümummilli hərəkatı yaradılsın. 1984-cü ildən iqtisadi artım başlaması ilə əlaqədar işsizlər hərəkatı zəiflədi.

XIX əsrin ortalarında ABŞ-da qadınların seçki hüquqları ilə təmin edilməsi uğrunda mübarizə aparan hərəkat yarandı. 1848-ci ildə Seneka-Follz şəhərində qadınların birinci qurultayında onlara seçki hüquqları verilməsi dəstəkləndi. Bu məsələ ilə əlaqədar 1878-ci ildə konstitusiyaya əlavə təklif edildi. Bu əlavə 1919-cu ildə Konqresdə qəbul edildi 1920-ci ilin avqustundan isə qüvvəyə mindi.

XX əsrin 80-ci illərində qadın təşkilatlarının sayı 250 idi. Lakin onlara vahid rəhbərlik yox idi. 1966-cı ildə «Qadınların milli təşkilatı» yarandı. 80-ci illərin əvvəllərində onun sıralarında 900 yerli bölməni birləşdirən 250 min üzv var idi. 1968-ci ildə «Qadınların bərabər hüquqluğu uğrunda mübarizə liqası», 1971-ci ildə «Qadınların milli-siyasi iclası» və s. təşkilatlar yarandı.

Qadınların kişilərlə bərabər hüquqluğunu nəzərdə tutan konstitusiya düzəlişi ilk dəfə 1923-cü ildə Konqresə çıxarılır, yalnız 1972-ci ildə təsdiq edilir. Düzəliş qüvvəyə minmir. Səbəb,tələb olunan 38 ştat əvəzinə ancaq 35 tərəfindən onun təsdiq edilməsi idi. Qadın təşkilatları mübarizə aparır ki, düzəliş yenidən Konqresdə qəbul edilsin.

1905-ci ildə «Universitetlərarası sosialist cəmiyyəti» yaranması ilə tələbə və gənclər hərəkatı başlamışdır. XX əsrin 20-30-cu illərində hərəkatın tarixində «Silahlanmanın məhdudlaşdırılması uğrunda milli tələbə komitəsi», «İndisturial demokratiya uğrunda tələbə liqası», «Milli tələbə liqası», «Kommunist gənclərin liqası» və s. təşkilatlar mühüm rol oynamışlar. XX əsrin 60-ci illərində gənclər və tələbələrin hərəkatı daha da güclənir və bu illər ölkə tarixində «gərginlik dövrü» adlanır. Öz mübarizəsində gənclər oturmuş tətillər, disputlar, marşlar, mitinqlər, tələbə şəhərciyinin ələ keçirilməsi kimi formalardan istifadə edirlər. Ən çox kütləvi və məşhur təşkilat 1958-ci ildə «yeni sollar» tərəfindən yaradılan «Tələbələr demokratik cəmiyyət uğrunda» təşkilatı idi. 70-ci illərin əvvəllərində gənclərin siyasi fəallığı zəifləyir. 70-ci illərin ortalarında isə bu hərəkat yeni dövrə qədəm qoyur. İlk plana sosial-iqtisadi xarakterli tələblər çıxır.



Sosial rəy sorğusuna görə 1986-cı ildə rəyi soruşulan gənclərin 44% maddi təminatı əsas həyati məqsəd sayırdısa, 1987-ci ildə tələbələrin 80%-i birinci yerdə həyatın mənasını mənəvi dəyərlərdə görürdü. 1983-cü ildə «ABŞ-da Gənclərin Kommunist liqası» yaranır. Onun üzvləri gənc fəhlələr, işsiz gənclər, orta məktəbdə oxuyanlar və kollec tələbələri idi.

ABŞ-da fermer hərəkatı XVIII əsrin 60-70-ci illərin əvvəllərində geniş xarakter alır. 1786-1787-ci illərdə bu hərəkatı D.Şeys başçılıq edir. Fermerlərin əsas tələbi torpaqların və var-dövlətin bərabər bölünməsi idi. 1929-1933-cü illərdə bu hərəkat daha da genişlənir. Bu vaxt hərəkat Qərb, Mərkəz və s. rayonları daha çox əhatə edir. 80-ci illərin əvvəllərində ABŞ-da kənd-təsərrüfatı məhsullarının ixracı azalır, idxalı isə artır. Bu dövrdə fermerlərin borcları da çoxalır. Kredit faizi artır, sənaye məhsullarının alınmasına çəkilən xərclər gəlirlərdən çox olur. Bu şərtlər fermerlər arasında kütləvi narazılığa səbəb olur. Bu halların aradan götürülməsi üçün fermerlərin Vaşinqtona və ştatların paytaxtlarına yürüşləri olur. 1985-ci ildə belə çıxışlar Ayova, İllinoys, Nebraska, Şimali Dakota və s. ştatlarda olur. 1985-ci ilin fevral-martında ABŞ-ın paytaxtına bir çox ştatlardan fermerlər gəlir.

Ən iri fermer təşkilatları «Fermer bürolarının amerikan federasiyası», «Neşnl qreyndj», «Amerikanın təşkilatçı və kooperativ fermerlər ittifaqı» hesab olunur.

ABŞ-da ətraf mühitin müdafiəsi hərəkatının kökü XIX əsrin 2-ci yarısı - XX əsrin əvvəllərində olmuş «konservasionistlərin hərəkatı» ilə başlayır. Lakin bu hərəkat əslində XX əsrin 80-ci illərin sonları -70-ci illərin əvvəllərində yaranıb. Bu hərəkatın birinci kütləvi çıxışı 1970-ci ilin aprelin 22 – də Yer gününün bayram edilməsi günü oldu. Bu nümayişdə 10 milyon şəxs iştirak etdi. Köhnə mühafizəkar təşkilatlardan olan «Onera-klab» (1892), «Odyubon adına milli cəmiyyət» (1905), «İsaak Uolton adına amerikan liqası» (1922), «Vəhşi faunanın müdafiəsinin milli federasiyası» (1936) və s. Yanaşı XX əsrin 80-ci illərinin sonu -70-ci illərin əvvəllərində - «Ətraf mühitin müdafiəsi fondu» (1967), «Yerin dostları» (1963), «Təbiətin müdafiəsi üçün fəaliyyət» (1970), «Təbiəti mühafizə siyasəti institutu» (1972) və s. kimi yeni təşkilatlar yaranmışdır.

Bu hərəkatın müəyyən nailiyyətləri 70-ci illərdə qazanılıb. Bu hərəkatın təzyiqi ilə müəyyən qanunlar verildi. Lakin C.Karter

prezident olarkən ekoloji proqrama ayrılan ianələri azaltdı. 1980-ci il seçkilərində RP – nın qalib gəlməsi ilə, hərəkat Konqresdə olan tərəfdarlarını itirdi.

ABŞ-da yaşlılar hərəkatı da geniş yayılmışdı. XX əsrin 80-ci illərində bu hərəkatda iki amil mühüm idi: 1) ABŞ-da sosial sığortalanma sisteminin böhranlı vəziyyəti; 2) demoqrafik yerdəyişmələr. Müasir mərhələdə bu hərəkatın əsas məqsədi əvvəllər qazanılan sosial hüquqların qorunub saxlanmasıdır. Bu isə qocalarkən sosial təminat və tibbi yardım edilməsi hüquqlarıdır. RP hakimiyyətdə olanda yaşlıların sosial təminatı ilə bağlı ianələr azaldıldı və bu hərəkat gücləndi. Bu hərəkatın 80-ci illərdə aşağıdakı təşkilatları vardı: - «Amerika təqaüdçülərinin assosasiyası» (1958, 14,5 milyon üzvü var ), «Amerikanın yaşlı vətəndaşlarının milli soveti» (1961, 4 milyon üzv ), «Yaşlı vətəndaşların milli alyansı» (1974, 800 min üzv ) və s. Ümumiyyətlə yaşlıların 35 ictimai təşkilatı vardır. Bu hərəkat öz fəaliyyətini bütün sahələrdə öz lobbiləri vasitəsi ilə qurur, həmkarlar ittifaqları ilə fəaliyyətini əlaqələndirirlər.

ABŞ-da konsyumerizm (ingiliscə - «istehlakçı» deməkdir) hərəkatının kökü XIX əsrə gedib çıxır. Konsyumerizmin öz tarixi 1928-ci ildən başlayır. Bu vaxt birinci «İstehlakçılar üçün axtarış» yaradılmışdır. Bu təşkilat məhsulun keyfiyyəti üzrə lobaratoriya yoxlaması aparır və nəticələri ictimaiyyətə bildirir. 1936-cı ildə bu təşkilatdan «ABŞ-ın istehlakçılar ittifaqı» ayrıldı. Bu təşkilatlar alıcılar arasında sorğular aparır və nəticələri aylıq nəşr olan «Konsyumer riports» jurnalında dərc etdirirlər, jurnalın abunəçiləri bu təşkilatın üzvü sayılır.

R.Heyderin adı ilə bağlı olan «yeni konsyumerizm», hansı ki, XX əsrin 60-cı illərinin sonlarında yaranıb, birinci yerə siyasi mübarizəni qoyur, bütün səviyyələrdə seçkilərdə fəal iştirak edir, lobbi fəaliyyəti ilə məşğul olurlar. Heyderin yaratdığı təşkilatlardan «Qanunun məsuliyyətli tətbiqinin öyrənilməsi mərkəzi» (1968), «Vətəndaş-ictimayyətçi» (1971), «Konqresin fəaliyyətini müşahidə» (1973) və sairəni göstərmək olar. 1967-ci ildə yaranmış «Amerika istehlakçılarının federasiyası» ən iri və ən güclü təşkilat hesab olunur.



## KONQRESİN KOMİTƏLƏRİ

Konqresin fəaliyyətində daimi və xüsusi komitələr mühüm rol oynayır. Onlar hər 2 palatada təşkil edilir, hər bir komitə dövlət idarəçiliyinin konkret bir sahəsində xidmət göstərir. Senatda 16 daimi və 4 xüsusi komitə var. Daimi komitələr: 1) kənd təsərrüfatı, ərzaq və meşə təsərrüfatı üzrə; 2) ianələr üzrə; 3) silahlı qüvvələrin işi üzrə; 4) bank işi, ev tikintisi və şəhərlərin problemi üzrə; 5) büdcə; 6) ticarət, elm və nəqliyyat üzrə; 7) enerji və təbii ehtiyatlar üzrə; 8) ətraf mühitin problemləri və ictimai iş üzrə; 9) maliyyə; 10) xarici işlər üzrə; 11) hökumət məsələləri üzrə; 12) hüquq üzrə; 13) əmək və əhali ehtiyatları üzrə; 14) senatın reqlamenti və administrasiyası məsələləri üzrə; 15) xırda biznes məsələləri üzrə; 16) veteranların işi üzrə.

Xüsusi komitələr: 1) kəşfiyyat üzrə; 2) hindu məsələləri üzrə; 3) etika üzrə; 4) yaşlıların işi üzrə.

Nümayəndələr Palatasında 22 daimi və 5 xüsusi komitə var. Daimi komitələr: 1) kənd təsərrüfatı üzrə; 2) ianələr üzrə; 3) silahlı qüvvələrin işi üzrə; 4) bank işi, maliyyə və şəhərlərin problemləri üzrə; 5) büdcə üzrə; 6) Kolumbiya dairəsinin işi üzrə; 7) təhsil və əmək üzrə; 8) enerji və ticarət üzrə; 9) xarici işlər üzrə; 10) hökumət əməliyyatları üzrə; 11) palatanın administrasiya məsələləri üzrə; 12) daxili və adalar işi üzrə; 13) hüquq üzrə; 14) dənizçilik ticarəti və balıqyetişdirmə üzrə; 15) poçt işləri və vətəndaş xidməti üzrə; 16) ictimai işlər və nəqliyyat üzrə; 17) qanunlar komitəsi üzrə; 18) elm, kosmos və texnika üzrə; 19) xırda biznes məsələləri üzrə; 20) rəsmi şəxslərin xidmət hərəkətləri standartları üzrə; 21) veteranların işi üzrə; 22) mədaxil və məxaric üzrə

Xüsusi komitələr: 1) kəşfiyyat; 2) ahılların işi üzrə; 3) uşaq, gənclər və ailə işləri üzrə; 4) aclıq problemi üzrə; 5) narkomaniya problemi və narkotiklər üzərində nəzarət üzrə.

Daimi komitələrin əsas vəzifəsi öz sahəsinin problemləri üzrə qanun layihələri hazırlamaqdır. Komitələr tərəfindən hazırlanmış qanun layihələrinin və qətnamələrin 90%-i hər 2 palata tərəfindən bəzi əlavələrlə bəyənilir.

Komitələrin vəzifələri sırasında öz sahəsinin federal hökumətləri orqanları ilə əlaqə saxlanılması və nəzarətin həyata keçirilməsi, bu orqanların fəaliyyətinin yoxlanılması, həmçinin fərdi şəxs və təşkilatların da, komitələrin maraqları sferasını əks etdirən istənilən məsələ üzrə dinləmələr keçirməsi də daxildir.

Komitələrin sədrləri konqresdə seçilən fiqurlar hesab edilirlər. Sədr komitənin bütün işinə rəhbərlik edir: - iclası təyin edir, hansı qanun layihəsinə baxılacağını, dinləmələr aparılmasını təyin edir və alt-komitələri yaradır. Komitə sədri vəzifəsini iş sahəsində təcrübəli olan, konqresin üzvü olan şəxs tutur. Xüsusi komitələr palatalar tərəfindən müəyyən bir məqsədi yerinə yetirmək üçün yaradılır, lakin praktikada onların çoxu konqresin bir neçə çağırışları müddətində fəaliyyət göstərir, öz səlahiyyətləri və iş metodları ilə faktiki olaraq daimi komitələrdən fərqlənmir.

Həm də hər iki palatanın birləşmiş komitələri də mövcuddur. Belə komitələr dörddür: 1) iqtisadi; 2) vergi qoyuluşu; 3) konqresin kitabxanası üzrə; 4) nəşriyyat üzrə. Onların əsas vəzifəsi palataların mövqelərini koordinasiya etməkdən ibarətdir. Onlar qanun layihələri hazırlamırlar.

Demək olar ki, bütün daimi komitələr alt komitələri yaradırlar. Alt-komitələr komitələrin kompetensiyası çərçivəsində daha xırda problemlərlə məşğul olurlar. Alt-komitələrdə qanunverici aktların mətnləri hazırlanır, sonra komitə və palatalarda təsdiq edilir. Alt-komitələr öz heyətinə görə çox deyil. Onların işində sədr böyük rol oynayır. 100-cü çağırış Konqresin Sanatın da 60 alt-komitə, Nümayəndələr Palatasında isə 82 alt-komitə var.

Alt-komitədə üç tərəf sıx əməkdaşlıq edir: 1) qanunverici problemlərlə məşğul olanlar; 2) federal bürokratiyanın müvafiq idarələri; 3) lobbilər-kapital qruplarında maraqlı olanlar.

## PARTİYA FRAKSİYALARI

ABŞ-ın Konqresində 2 böyük burjua partiyası – Demokratlar və Respublikaçılar partiyaları təmsil olunub. Konqresin hər 2 palatasında hər 2 partiyanın fraksiyası formalaşır. Əksəriyyətin fraksiyası – mövcud palatada yerlərin çoxuna sahib olanlar və azlığın fraksiyası.

Periodik olaraq fraksiyaların iclasları olur. Orada Konqresin palatalarının fəaliyyəti məsələlərinə baxılır. Fraksiyaların iclaslarında komitə sədrlərinin seçilməsi, komitələrin sıralarına partiya üzvlərinin müəyyənləşdirilməsi vəs. məsələlərə baxılır. Həm də Konqresin gündəliyində duran siyasi, iqtisadi və sosial problemlər də müzakirə



edilir. Partiya fraksiyaları öz fəaliyyətlərində partiyaların milli rəhbərliyindən asılı deyillər. Konqresin üzvləri isə fraksiya liderinin əmri ilə səs verməyə borclu deyillər. Bu onunla bağlıdır ki, Konqres üzvünün seçilməsi yerli dairənin və ya ştatın yerli partiya orqanından asılıdır, həm də konqresmenlər seçkilər vaxtı onları maliyyələşdirən yerli kapitalistlərin siyasi, iqtisadi və s. maraqlarını ifadə edirlər.

Hər palatanın partiya fraksiyaları özlərinin liderini və onun müavinini seçirlər. Senatda çoxluğun lideri vacib fiqur hesab edilir. O, öz partiyasının qanunverici proqramını formula edir. Senatın iş qaydasını müəyyənləşdirir, komitələrlə əlaqəsini həyata keçirir, komitələrdə senatorlar arasında yerlərin bölüşdürülməsində iştirak edir. Öz müavini ilə bir yerdə fraksiya lideri qanunverici təkliflərlə öz partiyasının maksimal dəstəyini təmin edir. Şəxsi təsirindən istifadə edərək senatorlara bu və digər xidmətlər göstərir, pərdəarxası kompromislərin qazanılmasında fəal vasitəçilik edir. Nümayəndələr Palatasında çoxluğun lideri palatanın spikerindən sonra partiya ierarxiyasına görə 2-ci yeri tutur.

Azlığın lideri isə həm Senatda, həm də Nümayəndələr Palatasında müxalifətin siyasətini formula edir və onun xeyrinə dəstəyin təmin edilməsi üçün işlər görür, hər iki palatanın partiya fraksiyalarının rəhbərliyi icraedici hakimiyyət ilə Konqres arasında əlaqələndirici rolunu ifa edir. Prezident tez-tez Konqresdə olan öz partiyasının lideri ilə, hərdən bir isə hər iki partiyanın liderləri ilə bir yerdə məsləhətləşir. Bu o vaxt vacib olur ki, o, Konqresdən öz təşəbbüsünün dəstəyini istəyir.

## KONQRESİN VƏZİFƏLİ ŞƏXSLƏRİ

Hər iki palatanın öz vəzifəli şəxsləri var. Nümayəndələr Palatasının spikeri ən mühüm təsiredici şəxslərindən biridir. Spiker vəzifəsinə namizəd palatada çoxluğun fraksiyası tərəfindən irəli sürülür və palatanın iclasında təsdiq edilir. Spiker palatada sədrlik edir, çoxluğun fraksiyasına rəhbərlik edir, qanun layihələrinin baxılması qaydasını müəyyənləşdirir, qanun layihələrini komitələrə göndərir, palatanın bütün üzvünə söz verilməsi və ya verilməməsi də ona məxsusdur. Onun palatada çəkisini nəzərə alan prezident və kabinetin üzvləri spiker ilə işgüzar əlaqələr yaradır və ona siyasi

problemlər haqqında məlumat verirlər. Spikerin prezident administrasiyası ilə əlaqələrinin rolu o vaxt yüksək olur ki, prezident bir partiyadan, Nümayəndələr Palatası isə digər partiya tərəfindən idarə edilir.

Senatın sədri vitse-prezident hesab olunur. O, Senatın üzvü olmadığı üçün onun səsvermə hüququ o vaxt olur ki, səsvermə nəticəsində səslər tən bərabər bölünür. Özünün Senatın sədri vəzifəsindən vitse-prezident müəyyən vaxtdan vaxta istifadə edir. Ona görə də çoxluğun fraksiyasının irəli sürməsi şərti ilə Senat öz yaşlı və hörmətli şəxslərindən birini müvəqqəti sədr seçir. O, sədr funksiyalarını yerinə yetirir, səsvermədə iştirak edir və Senat tərəfindən qəbul edilən qanunları imzalayır. Senatın sədrinin funksiyaları və səlahiyyətləri vacibliyinə görə Nümayəndələr Palatasının spikerinin funksiyası və səlahiyyətlərindən aşağıdır.

## QANUNVERİCİ TƏKLİFLƏRİN FORMALARI VƏ KONQRESDƏN KEÇİRİLMƏSİ

Konqresdə qanunverici təklifin 4 forması var: 1) qanun layihəsi; 2) birgə qətnamə; 3) üst-üstə düşən qətnamə; 4) sadə qətnamə.

Qanun layihəsi o zaman qanun qüvvəsinə minir ki,hər iki palatada qəbul edilir və prezident tərəfindən imzalanır. Birgə qətnamə də eyni prosedura yolu ilə keçir. Buna görə qanun layihəsi ilə birgə qətnamə arasında prinsipial fərq yoxdur. Qanun layihəsi və birgə qətnamə sadə səs çoxluğu ilə qəbul edilir. Bu hal konstitusiyada dəyişiklik üçün qəbul edilirsə, 2/3 səslə qəbul edilməlidir.

Üst-üstə düşən qətnamə hər 2 palata tərəfindən qəbul edilir, prezident isə onu imzalamır və o qanun qüvvəsinə çıxmır. Bu qətnaməni qəbul etməklə Konqres öz mövqeyini bildirir. Konqresin büdcə qətnaməsi də formasına görə üst-üstə düşən qətnamə hesab edilir.

Sadə qətnaməni palatalardan biri qəbul edir. Qanun qüvvəsi yoxdur və o qərarın qəbuluna xidmət edir ki, hansının ki, fəaliyyəti həmin paaltaya şamil edilir və ya onun mövqeyini bildirməyə xidmət edir.

Qanunverici təşəbbüs hüququ Konqresin hər bir üzvünə məxsusdur. Konqresdə qanun layihəsinin təklif etmə yolu çox



mürəkkəbdir. Qanun layihəsi hər bir palataya göndərilir. Onun mətnindən aslı olaraq palatalar onun bir və ya bir neçə daimi komitələrə göndərir. Daimi komitələr isə təklifi özlərinin alt-komitələrinə göndərirlər. Adətən komitələrdən məruzə almamış palatalardan heç biri qanun layihəsinin baxılmasına başlamır. Bu məruzələr bu layihənin komitədə müzakirəsinin yekununu və tövsiyyələrini əks etdirir.

Hər bir palata komitələrdən məruzə alandan sonra qanun layihəsinin müzakirəsinə başlayır. Nümayəndələr Palatasında ona ilkin olaraq palatanın bütün komitələri tərəfindən baxıla bilər. Orada palatanın 100 və daha çox üzvü iştirak edir və burada spiker deyil, seçilən sədr sədrlik edir.

Qanun layihəsinin palatanın bütün komitələrində baxılması palatanın iş prosedurasının xeyli sadələşdirilməsinə imkan verir. Senatda senatın bütün komitələri yalnız beynəlxalq müqavilələrə baxılarkən işləyirlər. Palatanın iclasında qanun layihəsinin müzakirəsi zamanı onun mətnində düzəlişlər və əlavələr edilə bilər.

Qanunverici prosesdə hər iki palata bərabər hüquqludur. Ona görə palatalardan biri bu qanun layihəsini qəbul etmirsə, o rədd edilmiş sayılır. Əgər qanun layihəsi hər iki palatada müxtəlif variantlarda qəbul edilibsə, bu müxtəlifliyi aradan götürmək üçün «barışdırıcı komitə» yaradılır. Ona hər iki palata öz nümayəndələrini təyin edirlər. Bu komitənin iclasları qapalı olur, əldə olunmuş razılığı palata nümayəndələri ayrı-ayrılıqda səs verirlər. Bu komitənin hazırladığı qanun layihəsinin yeni mətni hər bir palatada səsverməyə qoyulur. O ya qəbul edilir, ya bütövlükdə rədd edilir, ya da ona düzəlişlər daxil edilir. Əgər bu mərhələdə də qanun layihəsi hər iki palatadan biri tərəfindən rədd edilərsə, onda bu layihə yenidən əvvəlki və ya yeni barışdırıcı komitəyə göndərilir. Yox əgər hər iki palata qanun layihəsinin təklif edilən mətnini qəbul edirsə, barışdırıcı komitələr ləğv olunur. Qanun layihəsinin qəbul olunmuş mətnini Nümayəndələr Palatasının spikeri və Senatın sədri imzalayır.

Konqres tərəfindən qəbul edilən qanun layihəsi prezidentin imzalamasına təqdim edilir. O, 10 gün ərzində ya qanun layihəsini imzalamalı, ya da geri qaytarmalıdır (bazar və bayram günləri istisna olunur). Prezident layihəni həmin palataya göndərir. Layihə qəbul edilmirsə, bu prezidentin «veto» hüququ adlanır. Konqres prezidentin vetosunu üstələmək üçün hər iki palatada təkrar səsvermədə 2/3

hissəsinin səsi ilə qanunu təsdiq edilə bilər və o prezidentin imzası olmadan da qüvvəyə minir. Əgər Konqresin sessiyasının davam etdiyi 10 gün ərzində prezident qanun layihəsi haqqında heç bir tədbir görmürsə, o qanun qüvvəsinə minir. Əgər prezidentə ayrılmış 10 gün müddət konqresin işinin qurtarması ilə dayandırılarsa və qanun layihəsi prezident tərəfindən imza edilməyibsə o qüvvəyə minmir. Bu prezidentin «cib vetosu» adlanır. Konqres cib vetosunu aşa bilməz. Bunun üçün heç bir prosedura qaydası nəzərdə tutulmayıb.

Prezidentin onu imzaladığı gün; Konqresin prezident vetosunu aşdığı gün; qanun layihəsinin özündə nəzərdə tutulan gün qanun layihəsinin qüvvəyə mindiyi gün hesab edilir.

İstənilən dövlət tədbirinin həyata keçirilməsi üçün xərclər lazımdır. Bunun üçün Konqres 2 qanun layihəsi qəbul etməlidir: 1) sanksiyalaşdıran; 2) ianələr. Hər iki qərarın keçməsi ianə komitəsinin qərarından aslıdır.

Konqresdə diskonditeta prinsipi var. Bu prinsipə görə təklif edilən qanun layihələri həmin çağırış konqresin sessiyasında qəbul edilməlidir. Qəbul edilmirsə sonrakı buraxılmır. Bu qaydada bir istisna var. Senatda baxılan beynəlxalq müqavilələrə bu prinsip şamil deyil. Bu layihələr o vaxta qədər gündəlikdə qalır ki, Senat onun haqqınrda qərar çıxarar, ya da prezident müqaviləni Senatdan geri çağırır.

Konqresə hər çağırışda 20 minə yaxın qanun layihəsi təklif olunur. Ancaq Konqres tərəfindən bir neçə yüzü qəbul edilir.

## ŞTATLARIN QANUNVERİCİ İCLASLARI
## ( leqislatura )

Ştatlarda qubernatorların hakimiyyəti yerli qanunverici orqanlar vasitəsilə tənzimlənir. Öz struktur və metodlarına görə ştatların qanunverici iclaslarının işi Konqresin işinə oxşayır. Bütün ştatlarda qanunverici iclasların ABŞ üçün xarakterik olan iki palatalı sistemi mövcuddur. Nebraski ştatı istisna təşkil edir.

Ştatların qanunverici iclasları öz tərkibinə görə xeyli fərqlənirlər: bir neçə yüzdən bir neçə onluq üzvlərə qədər. Bu həm də ştatların ölçüsündən və əhalidən asılı deyil.



Qanunverici iclasların səlahiyyət müddəti müxtəlif ştatlarda müxtəlifdir: 46 ştatda Nümayəndələr Palatasının üzvləri iki illiyə seçilir, dörd ştatda isə dörd illiyə. Senatorlar isə 38 ştatda dörd illiyə, 12 ştatda isə iki illiyə seçilir. Qanunverici iclasların ştatlarda sessiyalar keçirmə vaxtı da müxtəlifdir. Ştatların çoxunda sessiyalar hər il keçirilir, bəzi ştatlarda isə iki ildən bir, ABŞ Konqresindən fərqli olaraq qanunverici iclasların sessiyaları qısa müddətdə – bir və ya iki ay ərzində keçirilir.

Ştatların qanunverici iclaslarında da komitələr fəaliyyət göstərir. Bir sıra ştatda isə hər iki palatanın birləşdirilmiş komitələri böyük rol oynayır.

Qanunverici iclasların xarakterik cəhəti odur ki, ştatların çoxunda Nümayəndələr Palatasının spikeri dominant rolu oynayır. O nəinki qanunverici iclasda ( leqislatura ), həm də ştatda böyük təsir edən şəxsdir.

## B) İCRAEDİCİ HAKİMİYYƏT

ABŞ-da icra hakimiyyətini öz administrasiyası ilə prezident həyata keçirir. ABŞ-da 13 federal nazirlik ( departament ) mövcuddur. 1986-cı ildə bu sahədə 1.781.844 nəfər, bütünlüklə isə icraedici hakimiyyətin federal xidmətində 2.966.733 nəfər çalışır. Ştatlarda icraedici hakimiyyəti administrasiya orqanının başında duran qubernator həyata keçirir.

Ölkədə ən yüksək vəzifəli şəxs, dövlətin başçısı və hökumətin başçısı səlahiyyətini həyata keçirən ABŞ-ın prezidentidir. O, 4 illiyə seçilir. Onun hüququ var ki, 2-ci dəfə yenə 4 illiyə seçilsin. ABŞ-ın prezidenti ABŞ-da anadan olan ABŞ vətəndaşı, 35 yaşdan gənc olmayan, ABŞ-da 14 il yaşayan şəxs ola bilər. 1800-cü ildən prezidentin rəsmi iqamətgahı «Ağ ev» hesab olunur.

ABŞ prezidentinin səlahiyyətləri çox genişdir. Dövlətin başçısı kimi o, ABŞ Silahlı Qüvvələrinin Ali baş komandanıdır və ABŞ-nın beynəlxalq sahədə ali təmsilçisidir. Prezident Senatın təsdiqi ilə federal hakimləri təyin edir. Ali Məhkəmənin üzvləri daxil olmaqla səfirləri və icraedici hakimiyyət aparatının yüksək vəzifəli şəxslərini, nazirlik rəhbəri və idarə başçıları daxil olmaqla təyin edir.

Konstitusiya prezidentə hüquq verir ki, Konqresin növbədənkənar sessiyasını çağırsın və növbəti sessiyaları təxirə

salsın. Prezident federal qanunlarla məhkum edilmiş şəxslərin əhv edilmə və bu qanunları təxirə salma hüququna malikdir. Prezident partiyada heç bir vəzifə tutmur, lakin partiyanın lideri hesab edilir. Gərgin daxili və xarici vəziyyətlərdə prezident fövqəladə səlahiyyətlərdən istifadə edə bilər. Prezidentin qanunverici prosesdə böyük rolu var. Prezident administrasiyasının qanunverici proqramını formula edərək seriyalarla konqresə göndərir, buna görə prezident faktiki olaraq qanunverici siyasətin lideri sayılır. Konqresə göndərilən belə layihələrdən biri büdcə layihəsidir, hansını ki, Ağ evin ekspertləri hazırlayır. İcraedici hakimiyyətin başçısının prezident fərmanları vermək hüququ var, hansı ki, faktiki qanun qüvvəsinə malikdir. Prezidentlə bərabər 4 illiyə həm də vitse-prezident də seçilir. Öz növbəsində onların hər ikisi bir ştatın sakini ola bilməz. Konstitusiyaya görə vitse-prezident səlahiyyətləri Senatda sədrlik etməklə məhdudlaşır. Əgər senatorların səsləri bərabər bölünərsə, vitse-prezidentin səsi səsvermənin nəticələrini həll edir. 1933-cü ildə konstitusiyaya edilmiş 20-ci əlavəyə görə əgər prezident vəfat edərsə və ya vəzifəni icra etməyə qabil olmazsa, onu vitse-prezident əvəz edir.

## PREZİDENTİN İCRAEDİCİ İDARƏSİ

Konstitusiyada nəzərdə tutulmamış, lakin həyatın reallığından doğaraq yaranmış Ağ evdə bütün idarələrin üst orqanı olan prezidentin icraedici idarəsi adlı bir orqan var. Bu orqan 1939-cu ildə F.Ruzvelt tərəfindən yaradılmış və prezident hakimiyyətinin daha da möhkəmlənməsinə gətirib çıxarmışdır. Prezident İcraedici İdarəsinin (P.İ.İ.) tərkibində 1970-ci ildə ən çox 4742 nəfər çalışırdı. 1986-cı ildə onların sayı 1492 nəfərə qədər azaldıldı. P.İ.İ. strukturunda aşağıdakı bölmələr var: 1) Ağ evin apparatı. Bura ayrı-ayrı məsələlər üzrə prezidentin köməkçiləri daxildir. 2) Büdcə administrasiyası idarəsi. 3) Prezident yanında iqtisadi sovet. 4) Milli təhlükəsizlik soveti. 5) Siyasətin işlənilməsi idarəsi. 6) Elm və texnika sahəsi üzrə siyasi məsələlər idarəsi. 7) Ətraf mühitin keyfiyyəti üzrə sovet. 8) Ticarət danışıqlarında ABŞ nümayəndəsi idarəsi. 9) Administrativ kömək bölməsi. 10) Vitse-prezident apparatı.



Milli Təhlükəsizlik Şurası (M.T.S.) prezident yanında məsləhətçi orqanıdır. Daxili xarici və hərbi siyasət məsələlərinin koordinasiya etməklə məşğul olur. M.T.S-in sədri ABŞ prezidentidir. Ondan başqa sovetin daimi üzvləri vitse-prezident dövlət katibi vəmüdafiə naziridir. M.T.S. işində məsləhətçi kimi mərkəzi kəşfiyyatın direktoru və qərargah rəisləri komitələrinin sədri də iştirak edir. M.T.S. aparatına prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi başçılıq edir.

Siyasətin işlənilməsi idarəsi-prezidentin çox olmayan köməkçilərindən ibarətdir, onlardan biri idarənin rəisi funksiyasını yerinə yetirir. İdarə iqtisadi və daxili siyasətinin aparılması, koordinasiya və formula edilməsi üçün ABŞ prezidentinə məsləhətlər hazırlayır. Bu idarə həmçinin nazirlər kabinetinin müvafiq sovetlərinin iclaslarının işini təmin edir.

Elm və texnika sahəsində siyasi məsələlər üzrə idarəyə əsasən elm sahəsinin nümayəndələri tərəfindən formalaşdırılır və prezidentin elm üzrə müşaviri tərəfindən başçılıq edilir. İdarə məsləhət işləyib hazırlayır, hansı ki, elmi-axtarış işləri haqqında dövlət proqramını aiddir. Elmi-texniki tərəqqinin iqtisadiyyata, xarici və hərbi siyasətə, səhiyyədə və ətraf mühitin vəziyyətinə təsirini analiz edir və proqnozlaşdırır.

Ticarət danışıqlarında ABŞ nümayəndəsi idarəsinə səfir dərəcəsində olan rəsmi şəxslər başçılıq edir və onlar prezidentə tabe olurlar. Ticarət danışıqlarında ABŞ-nın nümayəndəsi həm də beynəlxalq çoxtərəfli və ikitərəfli danışıqların aparılmasına ümumi rəhbərlik edir, hansı ki, ticarət və mal ehtiyatlarına aiddir. O, həm də ABŞ-ın xarici ticarət siyasətinin formalaşmasına da ümumi rəhbərlik edir. Tutduğu vəzifəyə görə o, ABŞ idxal-ixrac bank idarəsinin üzvüdür.

## NAZİRLƏR KABİNETİ

Nazirlər Kabineti konstitusiyasından kənar yaradılmış prezident yanında məsləhətçi orqanıdır. Artıq ABŞ-ın birinci prezidenti C.Vaşinqton icraedici departamentlərin bütün başçılarının qeyri-formal iclaslarını praktikada tətbiq edir, prezidenti maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparırdı. 1793-cü ildə bu iclaslar kabinetin iclası adını aldı.

Kabinetin tərkibinə 13 federal nazirliyin başçıları daxildir, ancaq prezident istəsə, bu tərkibə başqa vəzifəli şəxsləri də daxil edə bilər. Kabinetin üzvləri adətən prezidentin üzv olduğu partiya üzvləri olurlar. Kabinetin iclaslarında vitse-prezident də iştirak edir və müzakirə edilən məsələyə aidiyyatı olan icraedici apparatın nümayəndələri də dəvət edilə bilər. İclasların protokolu tutulmur. İclasların ardıcıl olması və gündəlik məsələ prezidentdən asılıdır. Prezident tərəfindən həm də kabinetin katibi təyin edilir ki, o, iclasları hazırlasın və təşkil etsin.

İcraedici hakimiyyətin bürokratik apparatına Prezidentin İcraedici İdarəsindən başqa ( P.İ.İ. ) nazirliklər sistemi və başqa administrativ idarələr də daxildir. Nazirliklərin başçıları birbaşa prezidentə tabedirlər. Prezident tərəfindən Senatın razılığı ilə təyin edilirlər, lakin vəzifəsindən prezident tərəfindən təkbaşına azad edilirlər. Nazirlik porfellərinin bölüşdürülməsi çətin siyasi prosessdir. Prezident bütün qrupların maraqlarını nəzərə almalıdır. Administrativ idarələr Konqresin təşəbbüsü ilə yaradılırlar və Konqresdə onların vəzifələrini və səlahiyyətlərini müəyyənləşdirir. Ona görə də belə administrativ idarələri müstəqil agentliklər adlandırırlar. Bu idarələrin başçıları prezident tərəfindən vəzifəsindən azad edilə bilməz. Ancaq Konqresin hüququ var ki, bu dövlət müəssisələrinə nəzarət etsin, onların başçılarını komitələrinin iclaslarında dinləsinlər. İndiki vaxtda federal icraedici aparatda aşağıdakı nazirliklər var:

1) 1789-cu ildə yaradılmış Dövlət departamenti. Bu ABŞ-ın Xarici İşlər Nazirliyidir. Konstitusiyaya görə xarici siyasət prezidentin səlahiyyət dairəsində olduğu üçün departamentin başçısı ( dövlət katibi ) formal olaraq prezidentin xarici siyasət məsələləri üzrə baş məsləhətçisi sayılır. Dövlət departamenti xarici siyasətin aparılması və işlənilməsi sahəsində prezidentə məsləhət verir və onun tapşırığı ilə beynəlxalq danışıqları aparır, ABŞ-nı beynəlxalq təşkilatlarda təmsil edir, diplomatik və konsulluq xidmətinin işlərini təşkil edir. Xarici siyasət kursunu həyata keçirərkən Dövlət Departamenti mənəvi diplomatik fəaliyyətlə kifayətlənmir və aşağıdakı sahələrə aktiv qoşulur: hərbi və ticarət-iqtisadi siyasət, kəşfiyyatçılıq fəaliyyəti, xarici siyasət təbliğatı, energetika, ekologiya, yarımfabrikat və ərzaq ehtiyatları və s.



2) Müdafiə Nazirliyi, 1788-1947-ci illərdə ABŞ-nın hərbi nazirliyi olub, 1947-ci ildə bu nazirliyin yenidən təşkili əsasında o Müdafiə Nazirliyinə çevrilib. ABŞ-ın silahlı qüvvələrinə aidiyyatı olan məsələlərlə məşğul olur. ABŞ silahlı qüvvələrinin hərbi hazırlığı və material-texniki təhcizatı üçün məsuliyyət daşıyır. Nazirliyin səlahiyyət dairəsinə silahlı qüvvələrin idarəedilməsi təşkilatına rəhbərlik etmək də daxildir.

Müdafiə naziri Senatın razılığı ilə prezident tərəfindən mülki şəxslərin arasından təyin edir və ona ABŞ Silahlı Qüvvələrinin Ali baş komandanının (prezidenti) əsas köməkçisi kimi baxılır. Nazirliyin qeyri-rəsmi adı Pentoqon adlanır ( nazirliyin binasının ilə adıdır ), onun sirrlərinin saxlanmasına ciddi nəzarət altındadır.

Müdafiə Nazirliyinin strukturuna ona tabe olan silahlı qüvvə formasında olan 3 nazirlik daxildir: 1) ordu (quru qoşunlar); 2) hərbi hava qüvvələri ( H.H.Q ); 3) Hərbi Dəniz Qüvvələri (H.D.Q. ). bu nazirlər prezident tərəfindən mülki şəxslərin arasından təyin edilirlər, onlar kabinetin üzvü deyirlər.

Müdafiə Nazirliyinin strukturuna Rəislərin Qərargahları Komitəsi də ( R.Q.K. ) daxildir. R.Q.K. sədrdən, ordu qərargahlarının rəislərindən, H.H.Q. və H.D.Q. və dəniz piyadası qoşunlarının komandalarından ibarətdir. R.Q.K. geniş iş aparatına malikdir. O, strateji və səfərbərlik planlarını hazırlayır, silahlı qüvvələrin qurulmasının əsas proqramını və silahların inkişafı proqramını da hazırlayır. Bu aparatın tərkib hissələri Birləşmiş Qərargah, Strateji planlaşdırma və ehtiyatlar idarəsi, Kosmos planlaşdırılması və istifadə edilməsi birləşmiş qərargah və s-dir. R.Q.K. ABŞ-ın hərbi təmsilçilərinin beynəlxalq danışıqlarda iştirakını təmin edir.

Müdafiə Nazirliyinə həm də bir neçə idarələr ( agentliklər ) və ali hərbi tədris müəssisələri də daxildir. MN-nin agentlikləri: Perspektiv axtarışlar və işləmələr idarəsi, Nüvə hərbi sursatı idarəsi, Milli təhlükəsizlik agentliyi, Kəşfiyyatçılıq idarəsi, Hərbi kömək göstərilməsi idarəsi, Kartoqrafiya idarəsi, Cəbhə arxası idarəsi və s.

M.N. silahların böyük dövlət sifarişçiləridir. M.N. hərbi-siyasi və hərbi-strateji doktrina və konsepsiyaların, canlı qüvvənin və hərbi texnikanın tədarükçüsüdür.

3) Maliyyə Nazirliyi. Bu nazirlik 1789-cu ildə yaradılıb. Bu nazirlik dövlətin iqtisadiyyat, maliyyə, vergi və pul-kredit siyasəti sahəsində tövsiyyələrini hazırlayır, hökumətin maliyyə agenti kimi

çıxış edir, qanunauyğun olaraq fəaliyyət göstərir, ABŞ-ın pul nişanlarının buraxılmasını həyata keçirir. Bu nazirlik mərkəzi apparat və funksional idarələrə bölünür. Mərkəzi apparat vergi siyasəti üzrə tədbirləri hazırlayır, İqtisadi konyikturanı analiz edir, nazirliyin tədbirlərinin və proqramının həyata keçirilməsində qanunlara nəzarət edir, onun işinə bütünlüklə başçılıq edir. Funksional idarə bu bölmələrdən ibarətdir: Daxili gəlirlər xidməti, Pul tədavülü nəzarəti idarəsi, Kömrük xidməti, Pul nişanlarının buraxılması idarəsi, Maliyyə-nəzarət xidməti və s. Funksional idarə nazirliyin mərkəzi aparatı tərəfindən hazırlanmış, prezident və Konqres tərəfindən təsdiq edilmiş proqramı həyata keçirir. Daxili gəlirlər xidməti ABŞ-ın baş vergi inspeksiyasıdır. O, nazirə tabe olur və 70 min əhalini əhatə edir. Pul tədavülü nəzarəti idarəsi isə kommersiya banklarının fəaliyyətinə nəzarət edir. Onun tərkibində 14 regional bölmə var. Bu bölmələrə milli bankların müdirləri başçılıq edir. Ənənələrə görə Maliyyə Nazirliyinə bir sıra xidmətlər tabedir ki, onların maliyyəyə birbaşa aidiyyatı yoxdur. Onların sırasına məxfi xidmət, spirtli içki, tütün məmulatı və atəş açan silah məsələləri üzrə büro və s. daxildir.

4) Ədliyyə Nazirliyi (Ə.N.) 1870-ci ildə yaranıb. Qanunçuluq sahəsinə başçılıq edir. Bu vəzifə 1789-cu ildə Konqres tərəfindən yaradılıb. Ə.N.-nin 3 əsas funksiyası var: 1) hüquqi məsələlərdə prezident və hökumətlə məsləhətləşmək, 2) ABŞ-ın məhkəmələrdə nümayəndəsi, 3) Federal qanunların həyata keçirilməsinin təmin edilməsi.

ABŞ-da hər bir attor öz vəzifəsini 94 federal məhkəmə dairəsindən birində həyata keçirir. Federal hüquqçuluq işlərinin yoxlanması funksiyası nazirliyin 3 yarımbölməsi tərəfindən edilir: 1) İmmiqrasiya və təbəəliyə götürmə xidməti, 2) Narkotiklərə qarşı qanunların tətbiqinə nəzarət administrasiyası, 3) Federal Tədqiqat Bürosu.

Nazirliyə həm də Federal həbsxanalara rəhbərlik də daxildir.

5) Daxili İşlər Nazirliyi (DİN), 1849-cu ildə yaranıb. Torpaqdan istifadə məsələlərini aparır. Ətraf mühit və onun ehtiyatlarından istifadə etmə məsələləri də bu nazirliyə aiddir. DİN strukturunda bu məsələlərlə Torpaq ehtiyatlarının idarəsi bürosu, Qeyri-yanacaq qazıntıları məsələləri bürosu, Balıq və ovçuluq təsərrüfatı xidməti, Milli parklar xidməti və s. idarələr məşğul olur.



Nazirliyin tərkibinə həmçinin ABŞ-ın Geoloji xidməti də daxildir. O, ABŞ-ın torpaq, su, energetika və mineral ehtiyatların üzə çıxarılması, bu sahələrdə elmi işlərin aparılması, xəritələrin tərtibi və s. işlərlə məşğul olur.

6) Kənd-təsərrüfatı nazirliyi, 1862-ci ildə yaranıb. Fermer təsərrüfatlarının dövlət kreditləşdirilməsini, sığortalanmasını və məsləhətləşməsini həyata keçirir. Kənd-təsərrüfatı məhsulları bazarını qaydaya salır. O, yolla ki, əsas kənd-təsərrüfatı əkin sahələrinin planlaşdırılması, alınması, saxlanılması və sonrakı əmtəə qalıqlarının satışını təşkil edir, kənd-təsərrüfatı mallarının xarici bazarlarının genişləndirilməsini təşkil edir.

Nazirlik öz sahəsində müstəqil olaraq elmi axtarışlar aparır və onu koordinasiya edir, planlaşdırır, proqnozlaşdırır, kənd-təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarəti təmin edir, ətraf mühitin qorunması tədbirlərini həyata keçirir. Nazirlik xarici dövlətlərə kömək edilməsi proqramını həyata keçirir və bu ölkələrə siyasi və iqtisadi təsir göstərərək ölkənin xarici siyasətində iştirak edir.

7) Ticarət Nazirliyi, 1913-cü ildə yaranıb. 1903-cü ildən mövcud olan Ticarət və Əmək Nazirliyinin ayrılması ilə təşkil edilmişdir. Ölkənin iqtisadi inkişafının təmin edilməsi, ABŞ-ın beynəlxalq iqtisadi mövqelərinin möhkəmləndirilməsi, yeni texnologiya və şəxsi investisiyaların genişləndirilməsi, elmi-texniki ehtiyatlardan maksimum istifadə edilməsinə kömək edilməsi və s. məsələlərlə məşğul olur. Nazirlik elmi-texniki axtarışların informasiya təminatını təşkil edir, dövlət patent xidmətinə, standartlar xidmətinə, rəhbərlik edir və s. Okeanın və atmosferin öyrənilməsi idarəsi və Siyahıyaalma Bürosu da bu nazirliyə daxildir. Siyahıyaalma Bürosu hər 10 ildən bir ABŞ əhalisini siyahıya alır, əhalinin sayına hər il qiymət verir və sosial iqtisadi statistikanı çap edir.

8) Əmək Nazirliyi, 1913-cü ildə yaranıb. Nazirlik dövlət - monopolçu, sosial idarəetmənin əsas alətidir. Nazirlik əmək münasibətlərində olan konfliktlərin aradan götürülməsi üçün əmək qanunvericiliyinə nəzarət edir, fəhlə qüvvəsinin hazırlanma proqramlarının həyata keçirilməsini koordinasiya edir. Nazirlik məşğulluq, işsizlik, əmək haqqı, qiymətlər, əmək məhsuldarlığı və s.

haqqında olan məlumatları toplayır və əmək statistikasını analiz edir. Sonra bu məlumatları bülleten şəklində seriyalarla çap edir.

9) Səhiyyə və Sosial Xidmət Nazirliyi 1953-cü ildə yaranmışdır Səhiyyə, Təhsil və Sosial Təminat Nazirliyinə 1978-ci ildə bölünməsi ilə təşkil edilmişdir. Tərkibində çoxlu idarələr, xidmətlər və s. təşkilatlar var. Ğu təşkilatlar federal hökumətin aşağıdakı sosial proqramlarını həyata keçirirlər: Tibbi axtarışlar, alkoqol və narkomaniya ilə mübarizə, tibbi və sosial sığortalanma və s.

10) Təhsil Nazirliyi 1979-cu ildə yaranıb. təhsillə bağlı federal proqramları koordinasiya edir və həyata keçirir. Nazirlik təhlilə federal kömək proqramını hazırlayır, təhsil sahəsində elmi işləri koordinasiya edir və ayrı-ayrı elmi müəssisələrə subsidiya ayırmaqla elmi axtarışların aparılmasına kömək edir.

11) Ev Tikintisi və Şəhərlərin İnkişafı Nazirliyi, 1965-ci ildə yaradılıb. Ev tikintisi sahəsində olan proqramları koordinasiya edir, ev tikintisi sahəsində şəxsi sahibkarlara kömək edir, şəhərlərin inkişafı məsələləri ilə məşğul olan federal idarələrin fəaliyyətini koordinasiya edir, az gəlirli ailələrə yaşayış məntəqələrini icarəyə vermək üçün məqsədli borclar və subsidiyalar verir.

12) Nəqliyyat Nazirliyi, 1986-cı ildə yaranıb, Şosse yollarının,şəhər ictimai nəqliyyatının, dəmir yollarının, mülki aviasiyanın, su yollarının təhlükəsizliyi, limanların, avtomobil yolları və boru kəmərinin planlaşdırılması, rekonstruksiyası və tikintisi kimi məsələlərin dövlət siyasətini işləyib hazırlayır. Bu nazirliyə dinc dövrdə Hərbi Dəniz Qüvvələri tərkibində olan ABŞ-ın Sahil Mühafizəsi də tabedir.

13) Energetika Nazirliyi, 1977-ci ildə yaranıb, ABŞ-ın 20-yə yaxın idarəsinin funksiyası ona tapşırılıb. Nazirlik milli energetikanın iqtisadi idarəetməsi, bu sahədə elmi-texniki siyasətin hazırlanması, energetikanın konkret istiqamətlərində prioritet sistemin işlənilməsi və s. vəzifələr həyata keçirir. Nazirliyin fəaliyyət dairəsinə həm də nüvə silahının işlənilməsi, istehsalı və sınağı kimi hərbi proqramların həyata keçirilməsi, kəşfiyyatçılıq fəaliyyətinin müəyyən istiqamətləri də daxildir.

Federal hökumət aparatında administrativ idarələr aiddir. Bu idarələr müstəqil agentliklər və dövlət korporasiyaları adlanır. Onlar administrativ, idarəedici və normativfunksiyaları yerinə



yetirirlər ki, bunlar da mövcud olan nazirliklərin fəaliyyət dairəsindən kənara çıxır. Administrativ idarələrin statusu və səlahiyyətləri onların yaradılması haqqında Konqres aktları ilə müəyyən edilir. Bir sıra administrativ idarələr öz təşkilatına və iş dairəsinə görə nazirlikdən onunla fərqlənir ki, onun üzvləri kabinetin üzvü sayılmır.

İndiki dövrdə 60 belə idarə var. Onlardan bəziləri: 1) Silahlanma və tərksilah üzrə nəzarət agentliyi, 2) Ətraf mühitin qorunması agentliyi, 3) ABŞ-ın informasiya agentliyi.

Ştatların qubernatorları və yerli özünüidarə.

İcraedici hakimiyyət ştatlarda qubernatorlar tərəfindən həyata keçirilir. Qubernatorlar 46 ştatda 4 illiyə, 4 ştatda isə ( Arkanzas, Vermont, Nyu-hempşir, Rod-Aylend) 2 illiyə seçilir. Öz səlahiyyətlərinə görə ştat qubernatorunun səlahiyyətləri ABŞ-ın icraedici başçısının səlahiyyətlərini yerli səviyyədə təkrar edir. ABŞ prezidenti kimi qubernator da leqislaturaya qanunverici proqramı təqdim edir, veto hüququndan istifadə edir, ştatın büdcə layihəsini hazırlayır, icraedici orqanlara ümumi rəhbərliyi həyata keçirir, qanunverici iclasların fövqəladə sessiyalarını çağırmaq və şəxslərin bağışlanılması hüququndan istifadə edir, hansılar ki, ştat qanunları ilə cəza çəkirlər, ştatın daxilində öz partiyasının lideri sayılır və ştatın milli qvardiya hissələrinin baş komandanı sayılır. Qubernator öz ştatını federal hökumətlə və digər ştatların hökumətləri ilə münasibətlərdən təmsil edir.

Əgər ABŞ prezidenti kabinetin üzvlərini təyin edirsə onda qubernator adətən icraedici orqanların başçıları ilə iş görür, hansılar ki, onunla bir yerdə seçilirlər. Onlara ştatın dövlət katibi, ştatın general attoru, maarif işləri üzrə məsul olan şəxs, büdcə rəhbəri və başqa vəzifəli şəxslər daxildir.

Prezidentdən fərqli ştatların çoxunun qubernatoru seçki vetosu hüququndan istifadə edir. Bunun mahiyyəti odur ki, prezident qanun layihəsinə bütövlükdə veto qoyursa, qubernator isə qanun layihəsinin ayrı-ayrı maddələrinə veto qoya bilər. Bu hal qubernator tərəfindən daha çox büdcə məsələlərinin həllində istifadə olunur.

ABŞ əvvəllər aqrar ölkəsi olarkən və əhalinin çoxu kənd əhalisi olarkən yerli özünüidarə formalaşıb. Ayrı-ayrı kiçik kəndlərin idarə edilməsi işində koloniyaçılar İngiltərədən gətirilmiş məlum ənənəvi formalardan istifadə edirlər. Bu arxaik və tamamilə fərqli yerli hakimiyyətin formaları indiyə qədər qalıb.

Yerli orqanlar ştatın qanunvericiliyi əsasında yaradılır və bu qanunvericilik tərəfindən müəyyən edilən hüquqlara malikdir. Bununla yanaşı yerli hakimiyyət qanun tərəfindən müəyyən edilmiş elə funksiyaları da həyata keçirir ki, onlar ştat orqanlarının formal nəzarəti olmadan həyata keçirilir və özünüidarəyə əsaslanır. Yerli ştatların büdcələri yerli vergilərdən, federal hökumətin və ştatların məqsədli ianələrindən ibarətdir.

Administrativ orqanlar, hansında ki, özünüidarə orqanları seçilir, dairə hesab olunur və ənənəvi qraflıqlar adlanır. Adətən əhali qraflıq soveti və bəzi vəzifəli şəxsləri seçir. Qraflıq Soveti yerli yolların vəziyyətini, türmələrin saxlanılması, xəstəxana və istirahət yerlərinin saxlanılmasına nəzarət edir. Ştatın nəzarəti ilə qraflıq seçkilərin təşkili, əhalinin siyahıya alınması, öz ərazisinin statistik məlumatlarının toplanılması və qruplaşdırılması üçün məsuliyyət daşıyır.

Qraflıq Soveti ilə yanaşı paralel olaraq ayrı-ayrı məqsədli komissiyalar da fəaliyyət göstərə bilər. Adətən bu administrativ orqanlar bir-birinə və Sovetdən asılı olmayaraq fəaliyyət göstərir.

Ştatların şəhərlərinin çoxunda, hansı ki, qraflıq ərazisində yerləşir, özünün qraflıqdan aslı olmayan özünüidarə orqanları var. Onlar da formalarına görə müxtəlifdir. Bir halda Mer və Sovet seçilir, onun üzvləri isə şəhər idarəsinin departamentinin başçılarına çevrilirlər, digər halda isə bələdiyyə komissiyalar seçilir, hansı ki, meri təyin edə bilər.

Yerli özünüidarənin mürəkkəb strukturu olan şəhər aqlomeratsiyaları mövcuddur, hansı ki, şəhərlərdən və sosial-iqtisadi münasibətinə görə ona yaxın və onunla bağlı olan yaşayış məntəqələrindən ibarətdir. Bir şəhər oqlomerasiyası daxilində 300-400-ə qədər administrativ-siyasi yarım-hissələr fəaliyyət göstərə bilər. Yerli özünüidarənin formalarından biri də xüsusi dairələr daxilində formalaşır və onlar qraflıqların, şəhərlərin və başqa inzibati vahidi sərhədlərinə daxil deyillər. Xüsusi dairələr o hallar da yaradılır ki, yerli hakimiyyət bu və digər vilayətdə inzibati nəzarəti təmin etmirlər, beləliklə əhalinin maraqlarını təmin edir. Xüsusi dairələrin tipik nümunəsi məktəb dairələri sayılır. Xüsusi dairələr belə məqsədlər üçün də yaradıla bilər: ağcaqanad ilə mübarizə, küçələrin işıqlandırılması və s. Əgər bu hallar olursa əhali böyük olmayan direktorlar sovetini seçir.



ABŞ-ın müasir siyasi sisteminin formalaşması üçün təxminən 200 illik təkamül yolunun keçilməsi lazım gəlmişdir və bu zaman kəsiyində aparılmış mübarizə nəticəsində indi bütün dünya dövlətləri üçün nümunə hesab edilən ABŞ demokratiyası formalaşmışdır ki, ABŞ-ın siyasi sistemi hakimiyyətin müstəqil bölgüsünə əsaslanır və ştatlar daxili müstəqilliyini 200 il ərzində saxlanılıb və dövlət tərəfindən məhdudlaşdırılmayıb.

1776-1932-ci illlərdə bütün sahələrdə, xüsusi ilə iqtisadiyyatda «möhkəm individualizm» Prinsipi hakim idi, dövlət həlledici rol oynamırdı. F.Ruzveltin «yeni kurs siyasəti» nəticəsində dövlət bütün sahələrdə, xüsusi ilə də iqtisadiyyatda aktiv rol oynamağa başlayır.

ABŞ-da ənənəvi iki partiyalı sistem bərqərar olub. Əgər RP 1880-1932-ci illərdə hakim mövqe tutaraq daha çox hakimiyyətdə olubsa, 1932-1997-ci illərdə DP hakim mövqe tutaraq daha çox hakimiyyətdə olub. ABŞ dünyada nadir ölkələrdəndir ki, yerli ştat səviyyəli məhkəmələr ABŞ Ali Məhkəməsindən administrativ cəhətdən asılı deyil, müstəqil məhkəmələr kimi fəaliyyət göstərir.

ABŞ-da seçkilərin özünəməxsus və çox mürəkkəb bir sistemi mövcuddur. Məsələn, ilk baxışda görünür ki, prezidenti əhali ümumi səsvermə yolu ilə keçir. Lakin əslində hüquqi cəhətdən əhalinin seçdiyi seçicilər kollegiyasının seçdiyi şəxs prezident sayılır. ABŞ-da 1984-cü və 1985-ci il qanunlarından sonra demokratik prinsiplər tamamilə bərqərar olub. Bütün sahələrdə insan hüquq və azadlıqları təmin olunub və istənilən sahədə müstəqil fəaliyyət üçün əlverişli şərait var. ABŞ yeganə ölkədir ki, 1787-ci il konstitusiyasına əməl edilir, onu kobud şəkildə pozmayıblar. Bu müddətdə konstitusiyaya 26 əlavə edilmişdir.

## ƏDƏBIYYAT


1. Dərslik, dərs vəsaiti, mühazirə mətnləri, xrestomatiya və illik külliyyatlar
2. История зарубежных стран после второй мировой войны. Учебное пособие, М., 1964.
3. История зарубежных стран 1917-1945 гг. Учебное пособие, М., 1967.
4. Новейшая история зарубежных стран: Европа и Америка. 1917-1945, т. 1, М., 1967.
5. Новейшая история зарубежных стран: Европа и Америка. Т ЫЫ, 1945-1966, М., 1968.
6. Новейшая история 1918-1939 гг. Курс лекций, под. Ред. В.В.Александрова, М., 1972.
7. Новейшая история 1918-1939 гг. М., 1974.
8. Новейшая история 1939-1975. Курс лекций под ред. В.В.Александрова, М., 1977.
9. Новейшая история зарубежных стран. Европа и Америка, 1939-1975 гг., под ред. С.М.Стеткеевича, М., 1978.
10. Александров В.В. Новейшая история стран Европы и Америки, М., 1988.
11. Новешйая история зарубежных стран Европы и Америки. 1917-1945, М., 1989.
12. История новейшего времени стран Европы и Америки. 1918-1945, М., 1989.
13. Языков Е.Ф. История новейшего времени 1918-1945, М., 1989.
14. История новейшего времени стран Европы и Америки, 1945-1990, М., 1993.
15. M.Qasımlı. Müasir tarix. I, II hissə. Bakı, 2003-2008-ci illər.
16. S.Mustafaeyva. Avropa və Amerika ölkələrinin ən yeni tarixi I, II hissə. Bakı, 2007-ci il.
17. Американский капитализм в 80-е годы. Закономерности и тенденция развития экономики. М., 1986.





18. Ананова Е.В. Новейшая история США 1919-1939. М., 1962.
19. Аптекер Г.Внешняя политика США и «холодная война» пер. с анг. М., 1963.
20. Белащенко М. США и Мюнхен. М., 1968.
21. Бойченко Г.Г. Политическая организация США. Минск, 1970.
22. Борисок и др. Политические институты США: история и современность. М., 1988.
23. Бухвальд А. Это Америка. М., 1969.
24. Воронцов В.Б. Тихоокеанская политика США 1941-1950, М., 1967.
25. Государственный строй США. Отв. Ред. Никифоров А.С. М., 1976.
26. Геевсий И.А. США: негритянская проблема. Политика Вашингтона в негритянском вопросе (1945-1972), М., 1973.
27. Грайнер Б. Американская внешняя политика от трумена да наших дней. М., 1986.
28. Дмитричев Т.Ф. Многосторонняя дипломатия США, М., 1981.
29. Золотухин В.П. Фермеры и Вашингтон. М., 1968.
30. Иноземцев Н.Н. Внешняя политика США в эпоху империализма. М., 1969.
31. История США, в 4-х тт., М., 1985-1987.
32. Краткая история США. Пер.с англ. М., 1993.
33. Мальков В.Л., Наджафов Д.Г. Америка на перепутье1912-1938 гг. Очерк социально-политической истории «нового курса» в США, М., 1967.
34. Мальков В.Л. «Манхеттенский проект»: разведка и дипломатия: М., 1995.
35. Неоколониализм США в Латинской Америке. М., 1970.
36. Овинников Р.Е. Зигзаги внешней политики США от Никсона до Рейгана. М., 1986.
37. Севостьян Г.Н. Активная роль США в образовании очага войны на Дальнем Востоке (1931-1933), М., 1958.
38. Сивачев Н.В. Рабочая политика правительства США в годы второй мировой войны.М., 1974.

39. Сивачев Н.В., Языков Е.Н. Новейшая историяСША, М., 1980.
40. Советско-американские отношения во время Великой Отечественной войны 1941-1945 гг. Сб.документов и материалов в 3-х т., М., 1957-1959.
41. Фурсенко А.А. Президенты и политика США в 70-е годы. М., 1989.
42. Шервруд Р. Рузвельт и Гопкинс, М., 1958.
43. Экономическая политика правительства Кеннеди. М., 1964.
44. Яковлев Н.Н. От Трумена до Рейгана: доктрины и реальности ядерного века. М., 1988.
45. Смирнов В.П. Новейшая история. Франции. 1948-1975, М., 1979.

**Böyük Britaniya**

1. Великобритания. Современный монополитический капитализм. М., 1981.
2. Винаградов К.Б. Ллойд-Джордж. М., 1970.
3. Голлан Дж. Политическая система Великобритании. М., 1955.
4. Городецкая И.Е. Великобритания: избиратели, выборы, партии. М., 1985.
5. Грибин Н.П. Трагедия Ольстера. М., 1980.
6. Гурович В.П. Всеобщая стачка в Англии 1926 года. М., 1959.
7. Ерофеев Н.А. Закат Британской империи. М., 1967.
8. Жигалов И.И. Великобритания: народ и внешняя политика. М., 1967.
9. Каленския А.Г. Социально-законодательство Англии. М., 1969.
10. Кертман Л.Е. География, история и культура Англии. М., 1979.
11. Красильников А.Н. Внешняя политика Англии и лейбористическая партия (1951-1964). М., 1968.
12. Лебедев А.А. Очерки Британской внешней политики (60-80-е годы). М., 1988.



13. Маклейн Дональд. Внешняя политика Англии после Суэца. Пер. с англ., М., 1972.
14. Миллибенд Р. Парламентский социализм. Исследование политики лейборитской партии. М., 1964.
15. Мосульский Н.Ф. Англия в 1934-1937 годах. М., 1957.
16. Мосульский Н.Ф. Рабочее движение в Англии накануне второй мировой войны (1934-1939). М., 1968.
17. Овинников Р.С. Хозяева английской политики. Финансовая олигархия и внешняя политика Англии после Суэца (1957-1966). М., 1966.
18. Осипов В. Британия. 60- егоды. М., 1967.
19. Перегудов С.П. Лейборитская партия в социально-политической системе. Великобритании. М., 1975.
20. Полит Г. Избранные статьи и речи (1918-1939). М., 1955.
21. Полит Г. Марксизм и рабочее движение в Великобритании. М., 1960.
22. Рыжиков В.А. Британский лейборизм сегодня. М., 1984.
23. Степанова Н.М. Консервативная партия и рабочий класс послевоенной Англии. М., 1972.
24. Стержнева В.М. Великобритания и Западная Европа. Политические аспекты. М., 1988.
25. Судейкин А.Г. Колониальная политика лейборитских партий между двумя мировыми войнами. М., 1976.
26. Трухановский В.Г. Новейшая история Англии. М., 1958.
27. Трухановский В.Г. Внешняя политика Англии в период мировом этапе общего кризиса капитализма (1918-1939), М., 1962.
28. Трухановский В.Г. Внешняя политика Англии в период второй мировой войны (1939-1945), М., 1965.
29. Трухановский В.Г. Уинстон Черчилль. М., 1977.
30. Трухановский В.Г. Антонии Идеен. М., 1976.
31. Трухановский В.Г., Капитонова Н.К. Советско-английские отношения (1945-1978). М., 1979.
32.Хатт А. Британский тред-юнионизм. Краткая история. М., 1981.

## MÜNDƏRİCAT

Giriş ....................................................................3
ABŞ 1918-2007-ci illərdə ....................................................4
Böyük Britaniya ...............................................................156
ABŞ-ın siyasi sistemi ........................................................304
Ədəbiyyat ..........................................................................345